**İbrahim Zöhrab oğlu Quliyev**

# Azərbaycan hədisşünaslığının inkişaf tarixi

**BAKI-2019**

Kitab Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi ilə çap edilmişdir.

**Azərbaycan Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin DK-483d-09/15 saylı, 13 sentyabr 2019-cu il tarixli məktubu ilə nəşrinə razılıq verilmişdir.**

**Ön sözün müəllifi:**
*akademik*
**Vasim Məmmədəliyev**

**Elmi məsləhətçilər:**
*ilahiyyat üzrə fəlsəfə doktoru*
**Aqil Şirinov**

*ilahiyyat üzrə fəlsəfə doktoru*
**Fuad Nurullayev**

*ilahiyyat üzrə fəlsəfə doktoru*
**Əhməd Niyazov**

**Korrektor:**
*ilahiyyat üzrə fəlsəfə doktoru, dosent*
**Şahlar Şərifov**

**Elmi redaktorlar:**
*tarix üzrə elmlər doktoru, professor*
**Şahin Fərzəliyev**

*filologiya üzrə elmlər doktoru, professor*
**Nəsrulla Məmmədov**

**Rəyçilər:**
*akademik*
*Möhsün Nağısoylu*

*filologiya üzrə elmlər doktoru, professor*
**Kamandar Şərifov**

*filologiya üzrə elmlər doktoru, professor*
**Nəsib Göyüşov**

Kitab çoxəsrlik Azərbaycan hədisşünaslığının meydana gəlməsi, inkişaf tarixi və ən görkəmli nümayəndələri haqqındadır. Kitabda ilk dəfə İslam bölgələri hədisşünaslığı tarixində xüsusi yeri olan Azərbaycan hədisşünaslığının təşəkkülü və inkişaf yolları araşdırılıb, İslam ilahiyyatşünaslığı tarixində Azərbaycan hədisşünaslarının həyat və fəaliyyəti, mövqe və nüfuzları müəyyənləşdirilib, onların hədis ədəbiyyatı tarixində oynadığı rol, bütövlükdə müsəlman ilahiyyatşünaslarının yaradıcılığına təsirləri geniş şəkildə mənbələr əsasında tədqiqata cəlb edilib. Burada təkcə etnik mənşəyinə görə azərbaycanlı olanlardan deyil, eyni zamanda tarixi Azərbaycan torpaqları olan Qəzvin, Həmədan, Tiflis, Dərbənd və s. bölgələrdə yaşayıb-yaratmış Azərbaycan hədisşünasları haqqında da məlumat verilmişdir.

Kitab tələbələr, ali məktəb müəllimləri, magistrant, dissertant və doktorantlar, o cümlədən geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Kitabdan dərs vəsaiti kimi də istifadə etmək olar.

## ÖN SÖZ

İslamda hədisi-şəriflər Qurani-Kərimdən sonra dinin əsas qaynağı sayılır. Əgər belə olmasaydı, Peyğəmbərimiz "Allah məndən eşitdiyi hədisi olduğu kimi başqalarına çatdıran şəxsin üzünü ağartsın!" - deyə buyurmazdı. Buradan bir daha məlum olur ki, Peyğəmbər onun hədislərinin öyrənilməsini və başqalarına çatdırılmasını şəxsən tövsiyə etmişdir. Amma təəssüf hissi ilə qeyd etmək lazımdır ki, zaman keçdikcə bəzi şəxslər Peyğəmbərin adına hədislər uydurmuş və İslamın İlahi qaynağını şübhə altına salmaq istəmişlər. Həmin şəxslərin tapılıb üzə çıxarılmasını, onların uydurduqları bir qisim sözlərin doğru hədislərdən ayrılmasını təmin etmək üçün hədisşünaslıq elmi yaradılmışdır.

Ölkəmizdə İslam ilahiyyatını, onun müxtəlif sahələrini öyrənmək son illərdə böyük maraq doğurur. Xalqımızın mənsub olduğu dinin mühüm məsələlərinə dair daha doğru-düzgün məlumat əldə etməsində hədisşünaslığın əhəmiyyəti danılmazdır. Müsəlman alimləri, o cümlədən Azərbaycan hədisşünasları bu elmin öyrənilməsi yolunda az işlər görməmişlər. Günümüzdə də dini məsələlərin öyrənilməsi aktual əhəmiyyət kəsb etdiyindən İslam ilahiyyatşünaslığının sütunu olan hədisşünaslığın öyrənilməsinə olan ehtiyac artmışdır.

Bu baxımdan İbrahim Zöhrab oğlu Quliyevin "Azərbaycan hədisşünaslığının inkişaf tarixi" kitabını yazması təsadüfi deyil, tamamilə qanunauyğun və təbii bir hadisədir. Belə ki, İslam ilahiyyatşünaslığının inkişaf etdiyi ölkəmizdə dini mədəniyyətimizin tədqiq edilməsi, xüsusilə də Azərbaycan alimlərinin dini elmlər sahəsində gördüyü işlərin tanıdılması, onların tədqiq-təhlil edilməsi mühüm əhəmiyyətə malikdir.

Kitabı yüksək qiymətləndirir və onu aşağıdakı üç əsas xüsusiyyətinə görə önəmli sayıram:

1. Oxuculara təqdim olunan bu kitab sayəsində müasir Azərbaycan ilahiyyatşünaslığında ana dilimizdə hədisşünaslığa aid ədəbiyyata olan ehtiyac müəyyən dərəcədə aradan qaldırılacaq. Çünki bu elmə aid Azərbaycan dilində heç bir kitab yazılmamış, diqqəti cəlb edəcək səviyyədə tədqiqat işləri aparılmamışdır.

2. Azərbaycan hədisşünaslarının hədis elmləri sahəsində gördükləri işlər, yazdıqları əsərlər və apardıqları tədqiqatlar, onların hədis ravilərinin tanıdılması haqqında ortaya qoyduqları metodlar, uydurma hədislərin gerçək olanlardan ayrılması yollarının necə təyin edilməsi məsələsi məhz bu kitab vasitəsilə öyrənilmişdir.

3. Müasir dövrümüzdə bəzi radikal şəxslər öz əməllərinə dini don geyindirmək üçün hədislərə əl atır, mənbə və məxəzinə, səhihlik və şərtlərinə bələd oldu-olmadı özündən bir hədis nəql edərək onu Peyğəmbərin adına bağlamağa çalışır və bununla da, onlar müsəlmanlar arasına parçalanma salır, xalqın min illərdən bəri süzülüb gəlmiş mənəvi mədəniyyətinə ləkə salmaq istəyirlər. Belə şəxslərin nəql etdiklərinin əsassız olduğunu sübut etmək, xalqın belə şəxslərin dediklərinə inanmamalarını təmin etmək üçün hədis elmini, onun metodologiyasını, əsas prinsiplərini öyrənmək hər bir mütəxəssis üçün zəruridir. Həmin zərurətdən irəli gələn bu kitabın faydalı olacağını düşünürük.

Nəticə olaraq demək istəyirəm ki, dinşünas alim İ.Z.Quliyevin ərsəyə gətirdiyi "Azərbaycan hədisşünaslığının inkişaf tarixi" kitabı bu elm sahəsində milli dildə yazılmış ilk kitabdır. Müəllifin qarşısında duran əsas və başlıca məsələ hədis elminin predmetini, onun tarixi inkişaf mərhələlərini, ən görkəmli hədis ravilərini, bu ravilərin tanıdılması yollarını, Azərbaycan hədisşünaslarının bu elm sahəsindəki əsərlərini tədqiq-təhlil etmək olmuşdur. Müəllif qarşısına qoyduğu məqsədi tamamilə və elmi şəkildə həyata keçirməyi bacarmışdır. Bu sahədə aparacağı gələcək tədqiqatlarında ona uğurlar arzulayır və kitabın nəşrini məqsədəuyğun hesab edirik.

**Vasim Məmmədəliyev**
**akademik**

## GİRİŞ

Allah taala insanların fitri istəyini nəzərə alaraq onlar üçün sadəcə kitablar deyil, həmçinin o kitabın canlı nümunələri olan peyğəmbərlər də göndərmişdir. Allahın seçərək göndərdiyi və peyğəmbərliklə vəzifələndirdiyi o şəxslər cəmiyyətdə örnək olmadıqları halda, insanlar yolunu azaraq dəyərsiz və tərbiyəsiz kimsələrin ardınca düşmüş olurlar. Quran və hədisə görə, ardınca gediləcək və təqlid ediləcək ən mükəmməl örnəklər peyğəmbərlərdir ki, onların da içərisindən Allahın qiyamətədək şəriətinin davam etməsini istədiyi həzrət Məhəmməd bin Abdullahdır (s). İmam Rza buyurmuşdur: **"Həzrət Məhəmmədin şəriəti qiyamətədək davam edəcəkdir. Qiyamət gününədək ondan sonra heç bir peyğəmbər göndərilməyəcək. Hər kəs ondan sonra peyğəmbər olduğunu və yaxud da ona səmadan kitab gəldiyini iddia etsə, onun qanı bu sözləri ondan eşidən hər kəsə halaldır".**[1]

Qurani-Kərimin təbirincə desək, ümmətlər içərisindən İslam ümməti bütün insanlara, peyğəmbərlər içərisindən də həzrət Məhəmməd seçilərək bu ümmətə rəhbər qılınmışdır.

Qurani-Kərim insanlığın hər bir ehtiyacını qarşılayacaq gücdədir. Lakin təbiidir ki, onda tapa bilməyəcəyimiz bəzi məsələlər də vardır. Bütün bunları isə İslamın ikinci əsas qaynağı olan hədisi-şəriflərdə tapmaq mümkündür. Muaz bin Cəbəlin (605-640) "Allahın kitabında tapmasam Rəsulunun sünnəsi ilə hökm edərəm", - deyə buyurması hər bir müsəlmanın həyat düsturu olmalıdır. Allah Qurani-Kərimdə: **"Əsla! Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etmədikcə və verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əymədikcə** (həqiqi surətdə) **iman etmiş olmazlar".**[2] Həzrət Peyğəmbərin də: **"Hər kəs ehtiyac duyduğu dini məsələləri haqqında qırx hədis əzbərləsə, Allah qiyamət günü onu alim və fəqih kimi diriləldər",** - deyə buyurması[3] hədisi-şəriflərin əhəmiyyətini ortaya qoymaqdadır. Biz müsəlmanlar onun əmr və tövsiyələrini hər zaman göz önündə tutaraq həyatımızı ona görə nizamlamalıyıq. Quran və sünnə əhatəsindəki hər şey (cüzi olsa belə) bizim üçün yoldakı işarələr kimi olmalıdır. Bizim də onlara itaətimiz nisbətində gediləcək mənzilə sağ-salamat çatmamız təminat altına alınmış olur. Həzrət Peyğəmbər ümmətinə vida xütbəsində ən son nəsihətlərini edərkən insanların Quran və Əhli-beytə sarılmasını xüsusi şəkildə vurğulayaraq belə buyurmuşdur: **"Sizə iki şeyi əmanət qoyuram ki, məndən sonra onlara möhkəm sarıldığınız müddətcə yolunuzu əsla azmazsınız. Bunlar Allahın kitabı və Əhli-beytimdir".**[4]

Tarixi faktlardan da məlum olduğu kimi, xalqımız İslamın ilkin dövrlərindən etibarən bu dini qəbul etmiş və öz gündəlik həyatlarında əziz Peyğəmbərimizin buyuruqlarına əməl etmişlər. Mötəbər hədis mənbələrində əzəli ərazimiz olan Azərbaycan haqqında nəql olunmuş hədisi-şəriflər də Azərbaycan və onun xalqının həzrət Peyğəmbərin və onun Əhli-beytinin diqqət mərkəzində olduğunu göstərməsi ilə yanaşı, bu ərazilərin necə mübarək bir ərazi olduğunu da diqqətə çatdırır. Həmin hədisi-şəriflərə nəzər salmaq sözümüzün necə də doğru olduğunu sübuta yetirir.

Belə ki, Peyğəmbər buyurur:

من قرأ **"فسبحان الله حين تمسون وحين تصبحون - إلى - وكذلك تخرجون"** كتب له من الحسنات بعدد كل ورقة ثلج على جبل سيلان. وما السيلان يا رسول الله؟ قال: جبل بآذربيجان عليه عين من عيون الجنة وفيه قبر من قبور الأنبياء.

**"Hər kəs "فَسُبْحانَ اللَّهِ حِينَ تُمْسُونَ..."- ayəsindən "...وَ كَذلِكَ تُخْرَجُونَ" - ayəsinə[5] kimi oxusa, Savalan dağına yağan qarın dənələri qədər savab əldə edər".** Deyildi: "Ey Allahın rəsulu! Savalan nədir?" Buyurdu: **"Azərbaycan torpaqlarından bir məntəqədir ki, orada Cənnətin bir çeşməsi və peyğəmbərlərin birinin qəbri vardır".**[6]

---

[1] Hürr əl-Amili. Vəsailüş-şiə. 30 cilddə. XVII c. Qum, Müəssisətu Ali-Beyt, 1414 h/q. VII bab. s. 178. Hədis № 1 - 2.
[2] Nisa surəsi, ayə 65.
[3] Əllamə əl-Məclisi. Biharül-ənvar. 110 cilddə. II c. Beyrut, Müəssisətül-Vəfa, 1412/1992. s. 153. XX bab. Hədis № 2.
[4] Hakim ən-Nisaburi. əl-Müstədrək. 5 cilddə. III c. Beyrut, Darül-kütubil-ilmiyyə, II çap, 1422/2002. s. 118. Hədis № 4577.
[5] Rum surəsi, ayə 17-19.
[6] Əllamə əl-Məclisi. Biharül-ənvar. c. 57. Beyrut, Daru ihyaut-türas əl-ərəbi, II çap, 1403 h/q. s. 122. Hədis № 12. Qeyd edək ki, Əllamə Məclisi hədisin mətnində "Səbəlan" əvəzinə "Seylan" yazmışdır ki, bu da hədisin səhhətinə heç bir xələl

Həmçinin İmam Cəfər Sadiq (699-765) atası İmam Məhəmməd Baqirdən (676-743) belə nəql edir:

حَدَّثَنَا أَحْمَدُ بْنُ مُحَمَّدِ بْنِ سَعِيدٍ ابْنُ عُقْدَةَ الْكُوفِيُّ قَالَ حَدَّثَنَا أَحْمَدُ بْنُ يُوسُفَ بْنِ يَعْقُوبَ الْجُعْفِيُّ أَبُو الْحَسَنِ قَالَ حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ مِهْرَانَ قَالَ حَدَّثَنَا الْحَسَنُ بْنُ عَلِيِّ بْنِ أَبِی حَمْزَةَ عَنْ أَبِيهِ وَ وُهَيْبِ بْنِ حَفْصٍ عَنْ أَبِی بَصِيرٍ عَنْ أَبِی عَبْدِ اللَّهِ (ع) قَالَ إِنَّهُ قَالَ لِی أَبِی (ع): لَا بُدَّ لِنَارٍ مِنْ آذَرْبِيجَانَ لَا يَقُومُ لَهَا شَیْءٌ وَ إِذَا كَانَ ذَلِکَ فَكُونُوا أَحْلَاسَ بُيُوتِكُمْ وَ أَلْبِدُوا مَا أَلْبَدْنَا فَإِذَا تَحَرَّکَ مُتَحَرِّكُنَا فَاسْعَوْا إِلَيْهِ وَ لَوْ حَبْواً وَ اللَّهِ لَكَأَنِّی أَنْظُرُ إِلَيْهِ بَيْنَ الرُّكْنِ وَ الْمَقَامِ يُبَايِعُ النَّاسَ عَلَى كِتَابٍ جَدِيدٍ عَلَى الْعَرَبِ شَدِيدٌ وَ قَالَ وَيْلٌ لِطُغَاةِ الْعَرَبِ مِنْ شَرٍّ قَدِ اقْتَرَبَ.

**“Azərbaycanda bir od yanmağa başlayar ki, heç bir şey onun qarısında müqavimət göstərə bilməz. Bu zaman evinizdən çıxmayın, necə ki, biz evimizdən çıxmadıq** (yəni sakit olun)**. Elə ki, bizim tərəfimizdən bir kəs hərəkət etdi və öz fəaliyyətinə başladı, ona tərəf tələsin, iməkləyərək olsa belə. And olsun Allaha! Onu indi rükn və məqam arasında görürəm ki, təzə rəhbərliyi ilə camaatdan beyət alır. Bu, ərəblər üçün çətin bir işdir. Vay olsun zülmkar ərəblərin şərindən ki, yaxındadır”**.[7]

Bütün bunlardan əlavə, ilkin xilafət dövrünün yazışmalarında da Azərbaycan adına rast gəlinir. Belə ki, IX əsrin ən görkəmli hədisşünaslarından olan Müslüm bin Həccac ən-Nisaburi (821-875) nəql edir:

حَدَّثَنَا أَحْمَدُ بْنُ عَبْدِ اللهِ بْنِ يُونُسَ، حَدَّثَنَا زُهَيْرٌ، حَدَّثَنَا عَاصِمٌ الْأَحْوَلُ، عَنْ أَبِي عُثْمَانَ، قَالَ: كَتَبَ إِلَيْنَا عُمَرُ وَنَحْنُ بِأَذْرَبِيجَانَ: «يَا عُتْبَةُ بْنَ فَرْقَدٍ، إِنَّهُ لَيْسَ مِنْ كَدِّكَ، وَلَا مِنْ كَدِّ أَبِيكَ، وَلَا مِنْ كَدِّ أُمِّكَ، فَأَشْبِعِ الْمُسْلِمِينَ فِي رِحَالِهِمْ مِمَّا تَشْبَعُ مِنْهُ فِي رَحْلِكَ، وَإِيَّاكُمْ وَالتَّنَعُّمَ، وَزِيَّ أَهْلِ الشِّرْكِ، وَلَبُوسَ الْحَرِيرِ، فَإِنَّ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ نَهَى عَنْ لَبُوسِ الْحَرِيرِ»، قَالَ: إِلَّا هَكَذَا، وَرَفَعَ لَنَا رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ إِصْبَعَيْهِ الْوُسْطَى وَالسَّبَّابَةَ وَضَمَّهُمَا، قَالَ زُهَيْرٌ: قَالَ عَاصِمٌ: هَذَا فِي الْكِتَابِ، قَالَ: وَرَفَعَ زُهَيْرٌ إِصْبَعَيْهِ.

“Bizə Əhməd bin Abdullah bin Yunus, o Züheyrdən, o Asim əl-Əhvəldən, o da Əbu Osmandan belə nəql etdi: “Biz Azərbaycanda olanda xəlifə Ömər bizə məktub yazdı: “(O, məktubda belə deyirdi): “Ey Ütbə bin Fərqəd! Bu (mal) sənin alınının tərindən deyildir. Sənin atanın və ananın da alınının tərindən deyildir. Buna görə də öz mənzilində nə yeyib doyursansa, müsəlmanların da mənzilində ondan ye doy! Cah-cəlala can atmaqdan, müşriklərin paltarını və ipək geyinməkdən çəkin! Çünki Peyğəmbər ipək geyinməyi qadağan etdi”. Yalnız belə ola bilər dedi. Bizə Peyğəmbər iki barmağını - orta barmağı ilə şəhadət barmağını qaldırdı. Onları yan-yana gətirdi. Züheyr demişdi ki, Asim bunu söylədi: “Bu məktubda vardır”. Ravi deyir ki, Züheyr də iki barmağını qaldırdı”.[8]

Tarixi mənbələrə görə, 640-cı illərin əvvəllərində Azərbaycana gələn xilafət ordusunun tərkibindəki qürralar (Quran oxuyanlar, Quran müdərrisləri) ölkəmizin müxtəlif yerlərində xalqa Qurani-Kərimi, onun əqidə və fiqhlə (İslam hüququ ilə) bağlı ayələrini öyrədər və bunların yozumunda həzrət Peyğəmbərin hədisi-şəriflərinə istinad edərdilər. 743-cü ildə Şamaxıda tikilən məscidin həyətindəki hücrələr və orada keçirilən dini dərslər dediyimizə bariz nümunələrdən biridir. İslamı sevə-sevə qarşılayan və ilkin dövrlərdən etibarən İslam ilahiyyatı ilə məşğul olan həmyerlilərimiz öz dini biliklərini daha da təkmilləşdirmək üçün xilafətin böyük şəhərlərinə, elm ocağı kimi tanınan Məkkə, Mədinə, Bağdad, Kufə, Bəsrə, Nəcəfül-əşrəf, Kərbəla və digər şəhərlərə səyahətlər edər və ilahiyyatın müxtəlif sahələrinə yiyələnərdilər.

Bütün bu deyilənlərlə yanaşı, qeyd etmək lazımdır ki, Azərbaycan alimləri İslam ilahiyyatının bütün sahələrində olduğu kimi, hədisşünaslıq sahəsində də son dərəcə böyük işlər görmüş və bu elmin inkişafına fundamental təsir etmişlər. Buna görə də müasir dövrümüzdə Azərbyacan hədisşünaslarının irsini araşdırmağın böyük aktual əhəmiyyəti vardır.

---

gətirmir. Çünki bu rəvayətin şərhində Əllamə əl-Məclisi özü Səbəlan yazır, bunlardan əlavə rəvayətin özündə Azərbaycanın adı qeyd olunmuşdur ki, Savalan dağı da məhz buradadır (https://www.islamquest.net/az saytına istinadən).

[7] İbn Əbi Zeynəb Məhəmməd bin İbrahim ən-Nümani. əl-Qeybət. Təhqiq: Əliəkbər Qəffari. Tehran, Səduq nəşriyyatı, I çap, 1397 h/q. s. 194.

[8] Müslim bin Həccac ən-Nisaburi. Səhihu-Müslim. Darüt-Tibə nəşriyyatı. “Kitabül-libas vəz-zinət” fəsli. Hədis № 2069; Ahmed Davudoğlu. Sahih Müslim tercümesi ve şerhi. 12 cilddə. Sönmez nəşriyyatı. Sözügedən hədisin tərcüməsi və izahı.

Deməli, istər orta əsrlərdə, istərsə də müasir dövrümüzdə Azərbaycan hədisşünaslığının, xüsusilə də Azərbyacan ərazisində yaşayıb-yaratmış hədisşünasların həyatı və onların əsərlərinin yeni elmi kontekstdə öyrənilməsi aktual və əhəmiyyətlidir.

Bütün bu deyilənlərin fonunda onu da qeyd edək ki, müasir dünyada inkişaf etməkdə olan İslam ilahiyyatşünaslığının və onun daxilindəki sahələrdə Azərbaycan hədisşünaslığının xüsusi yerinin olduğunu bildirmək, Azərbaycan hədisşünaslarının əsərlərini tədqiq etmək, onları dəyərləndirməklə sözün əsl mənasında obyektiv elmi nəticələrə gəlmək olar.

Xatırladaq ki, kitabın mövzusu xronoloji baxımdan Azərbaycan hədisşünaslığının çoxəsrlik inkişaf tarixini, Azərbaycan hədis ədəbiyyatı tarixinin ən görkəmli nümayəndələrini və onların elmi-dini, xüsusilə də hədisşünaslıq irsini öyrənməyi təşkil edir.

Kitabın mənbə bazasını zənginləşdirmək üçün əsasən AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu və Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunda saxlanılan əlyazma mənbələrlə yanaşı, İİR-nın Tehran Milli Kitabxanası, Tehran İslam Şura Məclisinin Kitabxanası, Məşhəd Rəzəviyyə Kitabxanası, Təbriz Milli Kitabxanası, Mərəşi Nəcəfi Kitabxanası (Qum), Türkiyə Cumhuriyyətinin İstanbul Universiteti Kitabxanası, Süleymaniyyə Kitabxanası, Konya Bölgə Yazma Əsərlər Kitabxanası, İraq Respublikasının Bağdad Milli Kitabxanası, Kərbəla və Nəcəfül-əşrəf kitabxanalarındakı əlyazma mənbələrdən, o cümlədən mövzunu bu və ya digər dərəcədə xarakterizə edən Azərbaycan klassik ədəbiyyat nümunələrindən də geniş istifadə edilmişdir. Habelə, mənbələr sırasında maddi mədəniyyət nümunələri (məscidlər, mədrəsələr, məqbərələr üzərində həkk olunmuş yazılar) və dini ədəbiyyatlar da mühüm yer tutur.

Bütün bunlarla bərabər, problemin araşdırılmasında Məhəmməd bin Həsən ət-Tusinin (998-1067) “Rical” və “Fihrist”, Əhməd bin Əli ən-Nəcaşinin (öl. 1057) “Ricalün-Nəcaşi”, Xətib əl-Bağdadinin (1002-1071) “Tarixu-Bağdad”, Yusif bin Əbdürrəhman əl-Mizzinin (1256-1341) “Təhzibül-kamal”, Şəmsəddin əz-Zəhəbinin (1274-1348) “Siyəru alamin-nübəla”, “Tarixül-İslam”, Cəmaəlddin əl-Əsnəvinin (1305-1370) “Təbəqatüş-Şafeiyyə”, İbn Kəsirin (1301-1370) “Təbəqatül-füqəhaiş-Şafeiyyin”, İbn Həcər əl-Əsqəlaninin (1372-1449) “Təhzübüt-təhzib” və “Lisanül-mizan”, Məhəmməd əl-Ərdəbilinin (öl. 1585) “Camiür-rüvvat”, Hürr əl-Amilinin (1625-1693/95) “Əməlül-amal”, Mirzə Abdullah Əfəndi ət-Təbrizinin (1653-1719) “Riyazül-üləma və hiyazül-füzəla”, Məhəmməd Bağır əl-Musəvi əl-Xansarinin (1811-1895) “Rövzatül-cənnat fi əhvali-üləmais-saadat”, Ağa Bozork ət-Tehraninin (1876-1970) “əz-Zəriə ila təsanifiş-şiə” və “Təbəqatu əlamiş-şiə”, Möhsün əl-Əmin əl-Amilinin (öl. 1953) “Əyanüş-şiə”, Seyid Əbülqasim əl-Xoyinin (1899-1992) “Möcəmür-ricalil-hədis və təbəqatir-rüvvat”, Əbdülhüseyn əl-Əmini ət-Təbrizinin (1902-1972) “Şühədaül-fəzilət”, Məhəmməd Əli ət-Təbrizinin (1879-1956) “Reyhanətül-ədəb”, Əbdülhüseyn əş-Şəbüstərinin “Məşahiru şüəraiş-şiə”, Cəfər Sübhani ət-Təbrizinin (doğ. 1928) “Təbəqatül-füqəha”, “Külliyyatür-rical” və “Üsulul-hədis və əhkamuhu fi ilmid-dirayə”, Ömər Kəhhalənin (1905-1987) “Möcəmül-müəllifin”, Seyid Əhməd əl-Hüseyninin “Təlamizətül-Əllamə əl-Məclisi”, Əqiqi Bəxşaişinin “Təfsiru təbəqatiş-şiə”, Abdullah Nemətin “Fəlasifətüş-şiə”, Talat Koçyigitin (1927-2011) “Hadis tarihi”, İbrahim Cananın (1940-2009) “Hadis usulü ve tarihi”, İsmail Lütfi Çakanın (doğ. 1945) “Anahatlarıyla hadis”, Mehmet Erenin “Kadınların hadis ilmine katkıları” və s. əsərləri, həmçinin “TDV İslam Ansiklopedisi” (44 clddə), “Şamil İslam Ansiklopedisi” (6 cilddə), “Rahber Ansiklopedisi” (20 cilddə), “İslam Alimleri Ansiklopedisi”dən (18 cilddə) geniş istifadə edilmişdir. Habelə akademik Teymur Kərimlinin “Görünməyən Füzuli”, tarix elmləri doktoru, professor Şahin Fərzəliyevin “Azərbaycan XV-XVI əsrlərdə”, akademik Möhsün Nağısoylunun “Məhəmməd Füzulinin “Hədiqətüs-süəda” əsəri”, “XVI əsr Azərbaycan tərcümə abidəsi “Şühədanamə”, “Şirazinin “Gülşəni-raz” tərcüməsi”, “Həzininin “Hədisi-ərbəin” tərcüməsi”, “Əhmədi Təbrizi və “Əsrarnamə” tərcüməsi”, professor Nəsib Göyüşovun “Füzulinin sənət və mərifət dünyası”, filologiya elmləri doktoru, professor Ataəmi Mirzəyevin “Cami, Nəvai və Füzuli yaradıcılığında 40 hədis”, “Füzulinin “Hədiqətüs-süəda” əsəri orta əsrlər tərcümə abidəsi kimi”, tarix üzrə elmlər doktoru, dosent Tahirə Həsənzadənin “XVIII-XIX əsr Əfşarlar və

Qacarlar dövrünün azərbaycanlı ictimai-siyasi xadimləri (Mehdi Bamdadın “Tarixi-ricali-İran” əsəri əsasında)”, tarix üzrə elmlər doktoru, professor Fərid Ələkbərlinin “X-XVIII əsr ərəb yazılı mənbələr orta əsr Azərbaycanda sağlamlığın qorunması haqqında”, fəlsəfə üzrə elmlər doktoru, dosent Zəkiyyə Əbilovanın “Axund Hacı Ağamirzə Əbdülkərim ağa Badkubinin müasir Azərbaycan islamşünaslığında yeri (monoqrafiya)”, Məryəm Mirəhmədinin “Səfəvilər dövründə din və dövlət”, İskəndər Bəy Münşi Türkmanın (1560-1634) “Dünyanı bəzəyən Abbasın tarixi - tarixe-alamaraye-Abbasi”, professor Oktay Əfəndiyevin “Azərbaycan Səfəvilər dövləti” əsərlərində dini-fəlsəfi mədəniyyətimizin xüsusiyyətlərinə, adət-ənənələrinə toxunulmuş, Natiq Rəhimovun “Azərbaycanın din alimləri”, Nailə Süleymanovanın “Orta əsr Azərbaycan hüquq məktəbi və onun nümayəndələri”, Elnur Nəsirovun “Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər”, Mehmet Rıhtımın “Seyid Yəhya əş-Şirvani əl-Bakuvi və “Şəfa əl-Əsrar”, “Azərbaycan tarixi” (7 cilddə) kitablarında, Qoşqar Səlimlinin “İslamın ilk dönəmlərində bəzi azərbaycanlı mühəddislər”, Namiq Abuzərovun “Azərbaycanlı hədis alimləri” adlı məqalələrində, İlkin Əlimuradovun “IX-X əsrlər Azərbaycan alimi Əhməd bin Harun əl-Bərdicinin hədis fəaliyyəti” adlı dissertasiya işində isə görkəmli din alimlərinin tərcümeyi-halına və mövzumuza dair bəzi maraqlı məlumatlar öz əksini tapdığından onlara da yeri gəldicə müraciət edilmişdir.

Kitabın əsas obyekti Azərbaycan hədisşünaslığının inkişaf tarixi, Azərbaycanın əzəli torpaqları olan Qəzvin, Həmədan, Təbriz, Ərdəbil, Miyanə, Xoy, Gülüstan, Tiflis, Dərbənd, Şirvan, Bakı, Bərdə, Beyləqan, Lənkəran və digər bölgələrinə mənsub Azərbaycan hədisşünaslarının həyatı və elmi fəaliyyətləri, onların hədis elmlərinin inkişafındakı xidmətlərinin tədqiq edilməsidir. Azərbaycan hədisşünaslığını ümumi şəkildə tədqiqata cəlb etmək üçün Türkiyə Cümhuriyyətinə (İslam Araşdırmalar Mərkəzi, Mərmərə Universiteti İlahiyyat fakültəsinin kitabxanası, Süleymaniyyə kitabxanası və s.), İran İslam Respulikasına (Qum elmi hövzəsi, Mərəşi Nəcəfi kitabxanası, Məşhəd Rəzəviyyə kitabxanası, Tehran, Təbriz və s. kitabxanaları), İraq Respublikasına (Nəcəfül-əşrəf elmi hövzəsinin kitabxanası, Kərbəla kitabxanası və s.) dəfələrlə səfərlər etmiş, adı çəkilən bu və ya digər kitabxanalarda, elmi mərkəzlərdə tədqiqatlar aparmış və mütəxəssislərlə müzakirələr etmişik. Mövzunu araşdırmaq üçün türk, ərəb və fars dilləri ilə yanaşı, rus və ingilis dilində yazılmış irili-xırdalı beş yüzə yaxın mənbəni gözdən keçirmiş, onlardan köməkçi tədqiqat obyekti kimi istifadə etmişik. Bütün bunlarla yanaşı, müxtəlif dillərdə olan onlarla internet resurslarından da bəhrələnmişik.

Kitabda konkret olaraq Azərbaycan hədisşünaslarının əsərləri kontekstində hədisşünaslığın əsasları, hədis elmlərinin təşəkkül tarixi, hədisi-şəriflərin xalqımızın milli-mənəvi mədəniyyətinə təsirləri, Azərbaycan hədisşünaslığının keçdiyi tarixi inkişaf mərhələləri, xüsusilə Azərbaycan hədisşünaslarının İslam ilahiyyatında yeri, Orta əsrlər və müasir dövrün görkəmli Azərbaycan hədisşünaslarının həyat və yaradıcılıqlarını araşdırmaq, onların əsərlərini və bu əsərlərin İslam ilahiyyatına təsirlərini öyrənmək məqsədi qoyulmuşdur. Bu məqsədə nail olmaq üçün kitabda aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- Hədisin dindəki əhəmiyyəti və rolu;
- Hədis elmində işlənən bəzi kəlmələrin izahı:
- Hədis elmlərinin meydana gəlməsi və inkişaf tarixi;
- Hədis elmlərinin İslam ilahiyyatşünaslığındakı yeri;
- Azərbaycan hədisşünaslığından bəhs edən mənbələrin üzə çıxarılması;
- Azərbaycan hədisşünaslığının keçdiyi tarixi inkişaf mərhələlərinin göstərilməsi;
- Azərbaycan hədisşünaslığının İslam ilahiyyatşünaslığındakı yerinin müəyyənləşdirilməsi;
- Azərbaycan hədisşünaslarının hədis elmindəki yerlərinin müəyyənləşdirilməsi;
- Azərbaycan hədisşünaslarının əsərlərində hədis elminin metodoloji problemlərinin araşdırılması;
- Azərbaycan hədisşünaslarının əsərləri əsasında hədislərin yazılması tarixinin müəyyənləşdirilməsi;

- Azərbaycan hədisşünaslarının əsərlərinin digər hədis əsərləri ilə müqayisədə quruluş və məzmunlarının təsviri və təhlili, həmçinin bu əsərlər arasında paralellərin aparılması;

- Azərbaycan hədisşünaslarının ümumi ilahiyyat elminin inkişafındakı rollarının müəyyənləşdirilməsi;

- Azərbaycan hədisşünaslarının əsərləri vasitəsi ilə düzgün və yalançı ravilərin müəyyən edilməsi;

- Orta əsrlərdə və müasir dövrümüzdə yaşamış Azərbaycan hədisşünaslarının həyat və yaradıcılığı haqqındakı məlumatların üzə çıxarılması.

Kitabın elmi yeniliyinə gəldikdə isə, qeyd etmək lazımdır ki, onun ilk növbədə çoxəsrlik Azərbaycan hədisşünaslığının inkişaf tarixini müəyyən etməklə yanaşı, Azərbaycan hədisşünaslığının ümumislam ilahiyyatşünaslığındakı mühüm yerinin olduğunu göstərmək, Azərbaycan hədisşünaslığının keçdiyi tarixi inkişaf mərhələlərini xronoloji ardıcıllıqla izləmək, həmçinin Azərbaycan hədisşünaslarının əsərlərinin Azərbaycan ilahiyyat elmi tarixində mötəbər mənbələr kimi tədqiqata cəlb etmək və orada hədis elminə aid problemləri izah etməkdir. Bunu da qeyd edək ki, indiyə qədər Azərbaycan mənbəşünaslığı və ilahiyyatı tarixində bəzi Azərbaycan hədisşünasları haqqında məqalələr, dissertasiyalar və s. yazılsa da, Azərbaycan hədisşünaslığının inkişaf tarixi mövzusu ilə bağlı heç bir fundamental əsər yazılmamış, elmi sistemli şəkildə və geniş oxucu kütləsi üçün diqqəti cəlb edəcək səviyyədə araşdırmalar aparılmamışdır. Biz kitabda adları mənbələrdə məlum olan, haqqında məlumatımızın yetəcəyi miqdarında Orta əsrlərdə və müasir dövrdə yaşamış bir çox Azərbaycan hədisşünası və onların bu sahədə yazdıqları əsərlər haqqında məlumatları toplamağa çalışmışıq.

Kitabın bir çox elmi yeniliyi vardır ki, onlardan da ən mühümləri aşağıdakılardır:

- Yusif bin Asim əl-Miyanəçinin (895-985) "Amal fil-hədis" əsərinin tapılıb üzə çıxarılması;

- Əhməd bin Cərir əs-Səlmasinin (XI əsr) "Hədisi-Əbu Əli əl-Hüseyn bin Məhəmməd bin Yusif əl-Lihyani" əsərinin Zahiriyyə kitabxanasında 59 №-li katoloqda saxlanılmasının tapılıb üzə çıxarılması və əsərin 1907 və 1913-cü illərdə Qahirədə çap olunmasının aşkarlanması;

- Yəhya ət-Təbrizinin (1030-1109) "Təhzibu qəribil-hədis" əsərinin Leiden kitabxanasında 46 nömrəli kataloqda mühafizə olunmasının üzə çıxarılması və əsərin 1907-ci ildə Qahirədə Saleh Əli, 1913-cü ildə isə Məhəmməd Bədrəddin ən-Nəsani tərəfindən nəşr edilməsinin göstərilməsi;

- Əbülfəzl əl-Uşnuhinin "əl-Uşnuhiyyə fil-fəraiz" adlı əsərinin öz dəst-xətti ilə 1111-ci ildə (hicri 505-ci il) yazılmış nüsxəsinin Qahirədəki Misir Milli Kitabxanasında və Türkiyədəki iki əlyazma nüsxəsindən birinin Çorum Həsən paşa İHK, digəri isə Konyadakı 1575-ci ildə (hicri 983-cü il) Zeynəddin bin Ağacan Naxçıvani adlı şəxs tərəfindən üzünün köçürülüb BYEK-də mühafizə edilməsinin üzə çıxarılması;

- Şəhabəddin Söhrəverdinin (1144-1234) "Avariful-maarif" əsərinin ərəb mənbələrdəki əksi, onun müasir ərəb dünyasındakı işlənmə dərəcəsinin göstərilməsi ilə yanaşı, müəllifin istifadə etdiyi hədisi-şəriflərin qaynaqlarının müəyyən edilməsi;

- Mahmud Zəncaninin (öl. 1258) "Tərvihül-ərvah" əsərinin İraq Muzeyində, Paris və Berlinin Kitabxanalarında saxlanılmasının üzə çıxarılması;

- Ağa Hüseyn əl-Xansarinin (1605-1687) "ər-Rəvaşihüs-səmaviyyə fi şərhi əhadisil-imamiyyə" əsərinin İrandakı çap nüsxələri və əsərin işlənmə dərəcəsinin müəyyənləşdirilməsi ilə yanaşı, müəllifin çoxsaylı əlyazma əsərlərinin İranın səkkiz böyük kitabxanasında (Tehran Vətəniyyə Kitabxanası, Qum Mərəşi Nəcəfi Kitabxanası, Məşhəd Rəzəviyyə Kitabxanası və s.) olduğunun üzə çıxarılması;

- Mirzə Abdullah Əfəndi ət-Təbrizinin (1653-1719) "Riyazül-üləma və hiyazül-füzəla" əsərinin tədqiq edilməsi, onun nüsxələri və hədis elmindəki rolunun müəyyənləşdirilməsi;

- Mövla Süleyman əl-Cilaninin üzünü köçürdüyü "Üsulul-kafi" əsərinin İranın Qum şəhərindəki Məscidi-Əzəm kitabxanasında 308 №-li katoloqda saxlanmasının aşkar edilməsi;

- Mövla Əli ən-Nəqi əl-Xoyinin "Siğül-üqud" kitabının İranın Qum şəhərindəki Şeyx Əli Fazil əl-Qarinin kitabxanasında saxlanmasının aşkar edilməsi;

- Məhəmməd Ərdəbilinin “Camiür-ruvvat” əsərinin hədis elmindəki rolunun müəyyənləşdirilməsi və onun İranın Qum şəhərində hicri qəməri tarixlə 1402-ci ildə çap olunmasının göstərilməsi;

- Qadınların hədis elmində rolu və Azərbaycanın qadın hədisşünasları haqqında məlumatların dəqiqləşdirilməsi;

- Hədis növlərinin müəyyən edilməsində Azərbaycan hədisşünaslarının orataya qoyduqları metodlarla tanış olmaq;

- Hədisşünaslıq sahəsində yazılmış ən mühüm və ən etibarlı mənbələrin tanıtdırılması və s.

Kitab hədis elmi haqqında Azərbaycan ilahiyyatşünaslığındakı, xüsusilə onun ən mühüm şöbələrindən biri olan hədisşünaslığdakı mövcud təsəvvürləri nəzəri baxımdan genişləndirir, hədislərin elmi mənbə kimi öyrənilməsinin nəzəri əsaslarının möhkəmləndirilməsinə xidmət edir.

Kitabdan Azərbaycan ilahiyyatı, elm və mədəniyyəti tarixi haqqında yazılan elmi-tədqiqat işlərində, universitetlərin müvafiq fakültələrində tədris olunan fənlərdə təcrübi şəkildə faydalanmaq olar.

Kitab giriş, dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Kitabın **“Giriş”** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, elmi yenilikləri şərtləndirən prinsiplər önə çəkilir.

Kitabın birinci fəslini **“Hədisşünaslıq və onun İslam ilahiyyatında yeri”** adlandırmış, burada yarımfəsillər içində hədis elmində işlənən bəzi terminlərin izahı, hədisin dindəki yeri, Əhli-beytin hədislərinin dəlil sayılmasının səbəbləri, hədis elmində işlənən “kitabət”, “tədvin” və “təsnif” sözlərinin mənaları, hədis elmlərinin meydana gəlməsi və inkişaf tarixi adlı mövzular tədqiq edilmişdir.

Kitabın ikinci fəslini **“Orta əsrlər Azərbaycan hədisşünasları”** adlandırmış, burada VII (hicri I) əsrdən tutmuş XVIII (hicri XI) əsrədək olan və Azərbaycan hədisşünaslarının həyat və fəaliyyətlərini mənbələr əsasında tədqiq etməyə çalışmışıq.

Kitabın üçüncü fəslini **“Müasir Azərbaycan hədisşünasları”** adlandırmış, burada XIX, XX və XXI əsrin I rübündə yaşamış ən görkəmli Azərbaycan hədisşünasları və onların bu mövzuda yazdıqları əsərləri haqqında məlumatları qeyd etmişik. Burada daha çox müasir dövrdə yaşamış (və ya yaşayan) və bəzi səbəblər üzündən diqqətdən kənarda qalan Azərbaycan hədisşünaslarının, xüsusilə də əsərləri ölkəmizdə daha çox tanınan və fakültələrdə tədris edilən müasir Cənubi Azərbaycan hədisşünasları haqqında geniş məlumat verməyə çalışmışıq.

Nəhayət, Kitabın dördüncü fəslini **“Qadınların hədis elmində rolu və Azərbaycanın qadın hədisşünasları”** adlandırmış və burada qadın hədis raviləri haqqında məlumatları qeyd etmişik.

Kitabın nəticə bölümündə tədqiqat zamanı gəldiyimiz ümumi nəticələri, istifadə edilmiş ədəbiyyat bölümündə isə faydalandığımız ədəbiyyat və mənbələri göstərmişik.

İrad və təkliflərin **quliyev.ibrahim.78@mail.ru** ünvanına göndərilməsi xahiş olunur.

## I FƏSİL

## HƏDİSŞÜNASLIQ VƏ ONUN İSLAM İLAHİYYATINDA YERİ

### 1.1. Hədis elmində işlənən hədis, sünnə, xəbər və əsər terminlərinin mənaları

**“Hədis”** kəlməsi **“حَدَّثَ”** felindən əmələ gəlib və lüğətdə qədimin ziddi olan yeni və təzə mənasındadır. Hədisin cəmi **“أَحَادِيثُ - əhadis”**dir.[9]

Hədis sözü lüğətdə “yeni” mənasını bildirdiyi kimi, “xəbər” mənasında da işlədilir.[10]

Hədis kəlməsi Qurani-Kərimdə “**söz**” və “**xəbər**” mənalarında işlədilmişdir.

**فَلْيَأْتُوا بِحَدِيثٍ مِثْلِهِ.**

**“Qoy onlar bunun kimi bir kəlam (söz) gətirsinlər!”**[11] ayəsində **“söz”**,

**وَهَلْ أَتَاكَ حَدِيثُ مُوسَىٰ.**

**“Musanın xəbəri sənə çatdımı?”**[12] ayəsində **“xəbər”** mənasında işlədilmişdir.[13]

Qurani-Kərimin digər bir ayəsində də “**hədis**” kəlməsi “**söz**” mənasında keçir. Məsələn,

**فَلَعَلَّكَ بَاخِعٌ نَفْسَكَ عَلَىٰ آثَارِهِمْ إِنْ لَمْ يُؤْمِنُوا بِهَٰذَا الْحَدِيثِ أَسَفًا.**

“**Yoxsa bu sözə inanmasalar, arxalarınca təəssüflənib özünü həlak edəcəksən?”**[14]

Qurani-Kərimdə hədis kəlməsinin **“أَحْسَنَ الْحَدِيثِ - əhsənül-hədis”**[15] və **“بِحَدِيثٍ مِثْلِهِ - bi hədisin mislihi”**[16] şəklində tək forması, **“تَأْوِيلِ الْأَحَادِيثِ - təvilül-əhadis”**[17] şəklində isə cəm forması işlənmişdir.

Hədis sözü şəxsən həzrət Peyğəmbər və onun Əhli-beyti tərəfindən istifadə edilmiş, səhabə və tabei təbəqələri də bu sözü işlətmiş və terminoloji mənada da həzrət Peyğəmbərin sözü, ya da Peyğəmbərə dair bir xəbər mənasında qəbul edilmişdir.[18] Beləliklə, hədis kəlməsi Peyğəmbərin sözləri və onunla əlaqəli bütün xəbərlərə aid işlədilmişdir.[19] Deməli, hədis dedikdə söz, əməl (fel), təqrir (qərar), əxlaqi və fiziki olaraq Peyğəmbərə aid edilən hər şeyin yazılı mətnləri başa düşülür.[20]

Görkəmli Cənubi Azərbaycan hədisşünası Cəfər Sübhani (doğ. 1928) hədisə belə tərif verir: “Peyğəmbərin və ya Əhli-beyt imamlarının hər hansı bir sözü, hərəkəti və ya qərarı hədis adlanır”.[21]

**“Sünnə”** lüğətdə yol, üsul, adət, yaxşı və pis bir kimsənin davranışları (getdiyi yol), vərdiş halına gətirdiyi davranışlar mənasındadır. Kəlmənin alındığı **“سَنَّ”** feli əsas etibarı ilə bir cığır açmaq, yaxşı və ya pis bir yol tutmaq mənasına gəlir.[22] Qurani-Kərimdəki **“سُنَّةَ الْأَوَّلِينَ - Sünnətül-əvvəlin”**[23] (öncəliklərin sünnəsi) bu mənadadır. “Sünnətullah” (Allahın sünnəsi) isə kainatın idarəsi üçün qoyduğu fiziki qanunlar deməkdir. Sünnə kəlməsinin cəm forması **“سُنَنٌ” – sünən”**dir.[24]

Sünnə kəlməsi dini terminlər lüğətində belə tərif edilir: “Sünnə yol, qanun, adət, Allah taalanın açıq-aşkar bildirməyib, Peyğəmbərin yerinə yetirməsini istədiyi, yaxud davamlı olaraq icra etdiyi, yaxud da edilərkən görüb səs çıxarmadığı işlərdir”.[25]

---

[9] İbn Mənzur. Lisanül-ərəb. 15 cilddə. II c. Beyrut, Darüs-sadir. Tarixsiz. s. 132-133.
[10] Həmin mənbə. s. 133.
[11] Tur surəsi, ayə 34.
[12] Taha surəsi, ayə 9; Naziat surəsi, ayə 15.
[13] İbrahim Quliyev. Hədisşünaslığın əsasları. Bakı, Elm nəşriyyatı, 2013. s. 20-26.
[14] Kəhf surəsi, ayə 6.
[15] Zümər surəsi, ayə 23.
[16] Tur surəsi, ayə 34.
[17] Yusif surəsi, ayə 6, 21.
[18] Ali Yardım. Hadis I-II. I c. İstanbul, Damla yayınları, 1997. s. 35.
[19] Talat Koçyiğit. Hadis Usulü. Ankara, Türkiye Diyanet Vakfı Yayınları, 1998. s. 18.
[20] İsmail Lütfi Çakan. Hadis Usulü. İstanbul, İFAV Yayınları, 1998. s. 13.
[21] Cəfər əs-Sübhani ət-Təbrizi. Üsulul-hədis və əhkamuhu fi ilmid-dirayə. Qum, V nəşri, 1420 h/q. s. 19.
[22] İbn Mənzur. Lisanül-ərəb. XIII c. s. 225-226.
[23] İsra surəsi, ayə 77.
[24] Mücteba Uğur. Ansiklopedik hadis terimleri sözlüğü. Ankara, TDV Yayınları, 1992. s. 367.
[25] Heyet. Dini terimler sözlüğü. II c. İstanbul, İhlas Gazetecilik Holding. Tarixsiz. s. 193.

Bu termin lüğətdə yaxşı və ya pis yol mənasına gəldiyi kimi, surət, çöhrə mənalarında da işlədilir.[26]

Qurani-Kərimdə sünnəyə işarə edən ayələr vardır. Həmin ayələrin birində Uca Rəbbimiz belə bəyan edir:

**وَمَا مَنَعَ النَّاسَ أَنْ يُؤْمِنُوا إِذْ جَاءَهُمُ الْهُدَىٰ وَيَسْتَغْفِرُوا رَبَّهُمْ إِلَّا أَنْ تَأْتِيَهُمْ سُنَّةُ الْأَوَّلِينَ أَوْ يَأْتِيَهُمُ الْعَذَابُ قُبُلًا.**

**“İnsanlara** (Məkkə müşriklərinə) **doğru yol göstərən bir rəhbər** (peyğəmbər, Allah kəlamı) **gəldiyi zaman ona iman gətirməyə və Rəbbindən bağışlanmalarını diləməyə mane olan şey yalnız əvvəlkilərin başına gələnlərin** (adətimiz üzrə əvvəlki ümmətləri düçar etdiyimiz müsibətlərin) **onların da başına gəlməsini, yaxud da gözləri baxa-baxa əzabın gəlib onlara yetişməsini gözləmələridir”.**[27]

Eyni lüğəvi məna Peyğəmbərin bir hədisi-şərifində də öz əksini tapmışdır:

**مَنْ سَنَّ فِي الْإِسْلَامِ سُنَّةً حَسَنَةً فَعُمِلَ بِهَا بَعْدَهُ كُتِبَ لَهُ مِثْلُ أَجْرِ مَنْ عَمِلَ بِهَا، وَلَا يَنْقُصُ مِنْ أُجُورِهِمْ شَيْءٌ. وَمَنْ سَنَّ فِي الْإِسْلَامِ سُنَّةً سَيِّئَةً فَعُمِلَ بِهَا بَعْدَهُ كُتِبَ عَلَيْهِ مِثْلُ وِزْرِ مَنْ عَمِلَ بِهَا، وَلَا يَنْقُصُ مِنْ أَوْزَارِهِمْ شَيْءٌ.**

**“Hər kim İslamda yaxşı bir sünnə** (yol, adət) **açarsa, həm onun, həm də onunla əməl edənlərin savabından o kimsəyə yazılar və onların əməllərindən heç bir şey əksilməz. Kim də pis bir yol açmış olarsa, həm onun həm də onunla əməl edənlərin günahlarından da o kimsəyə yazılar və onların günahlarından heç bir şey azalmaz”**.[28]

Yuxarıda qeyd edilən mənalarda işlədilmiş sünnə kəlməsi İslamın başlanğıcından etibarən xüsusi bir məna qazanmış, yeni yol və gediş (sirət) mənalarını qorumaqla bərabər, bu mənalar sadəcə, Peyğəmbərin tutduğu yol və davranışlarına xas olmuşdur. Sünnə sözünün lüğətdə bildirdiyi “pis yol” mənası Peyğəmbərin sünnəsinə aid ola bilməz. Çünki Peyğəmbərin sünnəsi qınanmağa layiq pis bir sünnə deyildir. Əksinə, bu sünnə öyülməyə və örnək alınmağa layiq bir sünnədir (yoldur, gedişaatdır).[29]

Qeyd etdik ki, hədis elmində sünnə Peyğəmbərin sözləri, felləri, təqrirləri, əxlaqi sifətləri və davranışlarıdır. Bu, hədisşünasların tərifidir. Bu tərifə görə sünnə hədislə eynimənalıdır. Unutmaq olmaz ki, sünnə də hədis kimi “Məsumun sözü, feli və təqriridir”, - deyə tərif edilir.[30]

**“Xəbər” “خبر”** doğru və yalan olma ehtimalı olan, hər hansı bir kimsədən rəvayət edilən söz, kəlmə deməkdir.

Xəbər lüğətdə hər hansı bir hadisə və ya hər hansı bir məsələ ilə əlaqəli nəql edilən bilik mənasına gələn bir məfhumdur. Cəm forması **“اخبار-əxbar”**dır.[31]

Hədis elmində xəbər, sünnə və hədis terminləri ilə eyni mənadadır. Bəzi alimlərə görə, xəbər Peyğəmbərdən başqa digər şəxslərdən, məsələn, səhabələrdən rəvayət edilən sözlərdir.[32]

Azərbaycan alimi Cəfər Sübhani yazır: “Xəbər hədisşünasların terminologiyasında hədisin sinonimidir”.[33]

Xəbərin hədislə eynimənalı olması sünnənin hədislə eynimənalı olmasından daha münasibdir. Çünki “təhdis” (hədis rəvayət etmək) “ixbar” (xəbər vermək) mənasındadır. Peyğəmbərin hədisi dedikdə, ondan nəql olunan xəbər başa düşülür. Tarix və ona bənzər elmlərlə məşğul olanlara “əxbari” deyilməsi, bəzi alimləri sünnə ilə məşğul olanlara “mühəddis” adını verməklə onları tarixçilərdən ayırmağa sövq etmiş, başqalarından gələn “xəbər”dən ayırmaq ücün də hədisşünasların rəvayətlərinə “hədis” deyilmişdir. Bu izahda “xəbər” ilə “hədis” arasında mütləq bir ümumilik və xüsusilik vardır.

---

[26] İbn Mənzur. Lisanül-ərəb. XII c. s. 226.
[27] Kəhf surəsi, ayə 55.
[28] Müslim bin Həccac ən-Nisaburi. Səhihu-Müslim. Beyrut, Darül-kutubil-ilmiyyə, I çap, 1421/2001. s. 365. Hədis № 1017.
[29] Talat Koçyiğit. Hadis usulü. s. 1-2.
[30] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu . s. 19.
[31] İbn Mənzur. Lisanül-ərəb. IV c. s. 226-227.
[32] Mehmet Erdoğan. Fıkıh ve hukuk terimleri sözlüğü. İstanbul, Rağbet Yayınları, 1998. s. 126.
[33] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 20.

Bununla yanaşı, "hər hədis xəbərdir, ancaq hər xəbər hədis deyildir", şəklindəki izah kəlmələri daha yaxşı açıqlayır.[34]

**"Əsər" "أثر"** lüğətdə bir şeyin geri qalanına deyilir. Həmçinin bir şeyin varlığına dəlalət edən izə də əsər deyilir. Əsər kəlməsinin cəmi **"آثار-asar"** və ya **"أثر-usr"**dur.[35] Başqa bir lüğətdə isə "əlamət" və "iz" mənasını bildirdiyi də qeyd edilmişdir.[36]

İstilahi mənada isə "Məsumlara deyil, səhabə və tabeidən nəql olunan rəvayətlərə aid edilmişdir. Buna görə də çox hallarda hədisin sinonimi olaraq işlədilir", kimi tərif edilir.[37]

Göründüyü kimi, "əsər" hədis elmində xəbərlə eyni mənaya gələn bir termindir. Bəzi hədis alimlərinə görə, xəbər hədislə eynimənalı olduğuna görə "əsər" hədis deməkdir. Mühyiddin ən-Nəvəviyə (1233-1277) görə də, hədisşünasların nəzərində Peyğəmbərə (s), səhabələrə və ya tabeiyə aid olan bütün rəvayətlərə "əsər" adı verilir. Ümumi olaraq hədis və xəbər terminləri ilə eyni mənalı olaraq işlədilən əsər termini Xorasan fəqihlərinin istilahına görə, hədisşünasın qarşılığıdır. Onlar Peyğəmbər və səhabədən gələn rəvayətlərə ümumi mənada "əsər", hədis elmi ilə məşğul olanlara isə "əsəri" aid etmişlər.[38] Lakin Azərbaycan alimi Cəfər Sübhani "əsər"in yalnız səhabələrin xəbərlərinə aid olduğunu qeyd etmişdir.[39]

### 1.2. Hədisin (və ya sünnənin) dindəki yeri

Hədislər ixtilafa düşdükləri mövzularda insanlara çətinlikləri izah edən, beləcə, onlar üçün hidayət və rəhmət qaynağı olan Qurani-Kərimin endirildiyi bir Peyğəmbərin sözü olaraq üstün bir dəyər ifadə etdiyi kimi, Quranı hər kəsdən yaxşı başa düşən və ayələrdəki İlahi məqsədlərin nə olduğunu ən yaxşı bilən Peyğəmbərin görüşü olaraq da böyük əhəmiyyət daşıyır. Peyğəmbərin insanlara öz sözləri ilə açıqladığı, şəxsən tətbiq edərək göstərdiyi İlahi əmrlərin başında namaz, oruc, zəkat və həcc kimi ibadətlər gəlir. Namazların hansı vaxtlarda, neçə rükət və necə qılınacağı, orucun necə tutulacağı, zəkatın hansı mallardan və nə qədər veriləcəyi, həccin necə yerinə yetiriləcəyi kimi vacib əməllər Quranda geniş və təfərrüatlı şəkildə yer almayıb hədislər vasitəsi ilə açıqlanmış, İslam hüququnun bir neçə məsələsi hədislərdə verilən məlumatlarla həll edilmişdir. Digər tərəfdən, Quranda bir neçə istiqamətdə izah edilə bilən ayələr olduğu üçün, mənası asanlıqla anlaşılmayan (müşkül) ayələr də hədislər sayəsində izah edilmişdir. Hədislər, eyni zamanda Quranda yer almayan bir neçə məsələyə də açıqlıq gətirmiş, bu mövzulardakı ediləcək əməlin necə tətbiq olunacağını göstərmişdir. Məsələn, bir qadının adət halında ikən qılmadığı namazları qəza etməyəcəyi,[40] bir kişinin arvadının üzərində onun bibisi və xalası ilə evlənməyəcəyi,[41] südvermə yolu ilə də evlənmənin haram olduğu kimi xüsuslar,[42] ayrıca insan haqları ilə əlaqəli hökmlər, nənəyə və ata tərəfindən olan qohuma düşəcək miras kimi məsələlər Peyğəmbər tərəfindən həll edilmişdir.

Qurani-Kərimdə toxunulması ilə yanaşı, haqqında ətraflı məlumat verilməyən axirət həyati ilə əlaqəli məsələlər, qəbir həyatı, yenidən diriliş, məhşər, hesab, mizan, Cənnət və Cəhənnəmdəki həyat kimi mövzular da hədislər vasitəsi ilə öyrənilməkdədir. Əxlaqi fəzilətləri, mənəvi və ruhi inkşafı təmin edəcək qaydaları, sağlam bir ailə həyatı üçün lazım olan davranış formaları, insanlar arasında ictimai və

---

[34] Subhi es-Salih. Hadis ilimleri ve hadis istilahları. Terc: M. Yaşar Kandemir. İstanbul, İFAV Yayınları, 1997. s. 8.
[35] İbn Mənzur. Lisanül-ərəb. IV c. s. 5.
[36] Serdar Mutçalı. Arapça-türkçe sözlük. İstanbul, Dağarcık Yayınları, 1995. s. 4.
[37] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 20.
[38] Mücteba Uğur. Ansiklopedik hadis terimeri sözlüğü. s. 83.
[39] İbrahim Quliyev. Hədisşünaslığın əsasları. s. 24-25.
[40] Məhəmməd Cavad Məğniyyə. Fiqhül-İmam əs-Sadiq (ə). 6 clddə. I c. Qum, Mətbəətüs-Sədr, II çap, 1429 h/q. s. 219.
[41] Məhəmməd bin İsa ət-Tirmizi. Sünənüt-Tirmizi. Qahirə, Darül-hədis, 1419/1998 və Beyrut, Darül-kutubil-ilmiyyə, 1989. Nikah-31. Hədis № 1125.
[42] Həmin mənbə. Rəda-1. Hədis № 1146.

ticari münasibətləri nizamlayan hökmləri, idarə edənlərlə idarə edilənlər arasındakı münasibətləri və başqa mövzular haqqında da hədislərdə geniş məlumatlar mövcuddur.[43]

Beləliklə, Qurani-Kərim biz müsəlmanlara Peyğəmbərin hədislərinə əməl etməyi əmr edir. Buna görə də müsəlman alimləri səhih hədislərin bütün müsəlmanlara höccət (dəlil) olduğu qənaətinə gəlmiş, möminlərin Peyğəmbərə itaət göstərib, onun hökmlərinə tabe olmalarını vacib buyurmuşlar.[44]

Bilindiyi kimi, Allah tərəfindən Peyğəmbərə endirilən və islamiyyətin bütün əsaslarını içərisində toplayan Qurani-Kərimdir. Sünnə isə daha əvvəl açıqladığımız kimi, Peyğəmbərin söz, fel və təqrirləridir.[45]

Həzrət Peyğəmbərə nisbət edilən səhih sünnənin İslam hüququnun qaynaqlarından olduğu və bunula əməl etməyin vacib olması üzərində bütün müctəhidlər vahid fikirdədirlər. Onlar bu nəticəyə gələrkən Peyğəmbərə itaəti Allaha itaət sayan, ona tabe olmağın Allahın sevgisinə çatmağa və günahların bağışlanmasına vəsilə olaraq göstərən, onun hökmünə razı olmayanın imansız olduğunu ifadə edən, ona müxalif olana şiddətli əzabların olduğunu bildirən ayələrə əsaslanırlar. Bu ayələrdən bir neçəsini misal olaraq xatırladaq.[46]

**وَأَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَاحْذَرُوا فَإِنْ تَوَلَّيْتُمْ فَاعْلَمُوا أَنَّمَا عَلَىٰ رَسُولِنَا الْبَلَاغُ الْمُبِينُ.**

**“Allaha və Peyğəmbərə itaət edin. Əgər (**itaətdən**) boyun qaçırsanız bilin ki, Peyğəmbərimizin vəzifəsi yalnız açıq-aşkar bir təbliğdir”.**[47]

Məhəmməd bin Cərir ət-Təbəri (838-923) bu ayə haqqında belə yazırdı: “Ayə əmr və nəhylərdən (qadağalardan) üz çevirənlər üçün Allah tərəfindən bir təhdiddir”.[48]

Digər bir ayədə Allah taala belə bəyan edir:

**مَنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللَّهَ وَمَنْ تَوَلَّىٰ فَمَا أَرْسَلْنَاكَ عَلَيْهِمْ حَفِيظًا.**

“**Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə (**qoy döndərsin!**). Biz ki səni onların üzərində gözətçi olaraq göndərməmişik**”.[49]

Allah taala bu ayədə həzrət Məhəmmədə itaət edənin Allaha itaət etmiş olacağını, ona qarşı üsyan edənin də Allaha qarşı üsyan etmiş olacağını xəbər verir. Bunun yeganə səbəbi Peyğəmbərin öz istəyi ilə danışmaması, danışdıqlarının ancaq ona vəhy ediləndən ibarət olmasıdır.

Allah taala elçisi həzərət Məhəmmədə “bundan ötrü sənə bir vəbal yoxdur, sənə tabe olan qurtuluşa çatar. Onun üçün meydana gələn əcrin bir misli, eyni zamanda sənədir. Kim də səndən üz çevirərsə, ziyana düşmüş olar. Ondan sən məsul deyilsən”, - deyə buyurur.[50]

Allah taala “Həşr” surəsinin 7-ci ayəsində belə bəyan edir:

**وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانْتَهُوا.**

“**Peyğəmbər sizə nə verirsə onu götürün, nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir**”.[51]

Peyğəmbər sizə nə verirsə onu götürün, o sizə halaldır. Onun qadağan etdiyi şeyə bir daha yaxınlaşmayın. Çünki o, boş yerə söz söyləməz, onun hər əmrinin bir hikməti vardır. Onun əmr etdiyi şeylərə əməl edin, qadağan etdiyi şeyləri də tərk edin. Onun əmrlərinə və qadağalarına itaət eməyənlər çox şiddətli cəzalara uğrayacaqlar.[52]

Allah taala başqa bir ayədə belə buyurur:

---

[43] Yaşar Kandemir. İslam Ansiklopedisi. 44 cilddə. “Hadis”. İstanbul, Türkiye Diyanet Vakfı Yayınları, 1997. XV c. s. 28.
[44] İbrahim Quliyev. Hədisşünaslığın əsasları. s. 13.
[45] Talat Koçyiğit. Hadis usulu. s. 262.
[46] Zekiyyüddin Şaban. Usulül-fıkh. Terc: İbrahim Kafi Dönmez. Ankara, TDV Yayınları, 1999. s. 79.
[47] Maidə surəsi, ayə 92.
[48] Muhammed Ali es-Sabuni. Safvetut-tefasir. 7 cilddə. İstanbul, Yeni Şafak Yayınları, 1995. II c. s. 142.
[49] Nisa surəsi, ayə 80.
[50] İbn Kesir. Hadislerle Kurani Kerim tefsiri. IV c. Çev: B.Karlığa ve B.Çetiner. İstanbul, Çağrı Yayınları, 1994. s. 1769.
[51] Həşr surəsi, ayə 7.
[52] Ömer Nasuhi Bilmen. Kurani Kerimin türkçe meali alisi ve tefsiri. 8 cilddə. Ankara, Akçağ Yayınları, 1991. VIII c. s. 367-374.

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُولِي الْأَمْرِ مِنْكُمْ فَإِنْ تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللَّهِ وَالرَّسُولِ إِنْ كُنْتُمْ تُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ ذَٰلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلًا.

“**Ey iman edənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarı ilə daha yaxşıdır**”.[53]

Bu ayənin təfsirində görkəmli azərbaycanlı təfsirşünas Əllamə Təbatəbai (1904-1981) yazırdı: “...Buna qətiyyən şübhə yoxdur ki, Allah taalaya itaət etmək deyəndə insanların Peyğəmbər vasitəsi ilə vəhy edilmiş məsələlərə tabe olmalarından söz gedir. Yəni Allah Peyğəmbərə göndərdiyi şəriət qaydalarına riayət etmək nəzərdə tutulur. Peyğəmbərin buyuruqları da öz növbəsində iki hissədən ibarətdir. Biri Allah taalanın Qurandan başqa o həzrətə vəhy etdikləridir ki, onların vasitəsi ilə bu və digər şəriət hökmünün təfsilatını camaata çatdırsın. Bu barədə Allah taala belə buyurmuşdur:

وَأَنْزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ وَلَعَلَّهُمْ يَتَفَكَّرُونَ.

**“Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni** (hökmləri, halal-haramı) **izah edəsən”.**[54]

İkinci hissə isə həzrət Peyğəmbərin bu və digər hökmün, habelə insanlar üzərindəki rəhbərlik səlahiyyətinin tələblərini bəyan etməsidir. Bu barədə Allah taala belə buyurmuşdur:

إِنَّا أَنْزَلْنَا إِلَيْكَ الْكِتَابَ بِالْحَقِّ لِتَحْكُمَ بَيْنَ النَّاسِ بِمَا أَرَاكَ اللَّهُ وَلَا تَكُنْ لِلْخَائِنِينَ خَصِيمًا.

**“**(Ya Rəsulum!) **Həqiqətən biz sənə Quranı haqq olaraq nazil etdik ki, Allahın sənə göstərdiyi** (öyrətdiyi, bildirdiyi) **ilə insanlar arasında hökm edəsən. Odur ki, xainləri müdafiə edənlərdən olma”**.[55]

Yuxarıdakı qeyd edilənlərə diqqət yetirdikdən sonra məlum olur ki, Peyğəmbərə tabe olmaq Allaha tabe olmaqdan fərqli anlayışdır. Hərçənd Peyğəmbərə tabe olmaq dolayısı ilə Allaha da tabe olmaqdır. Çünki şəriət qanununu təsbit edən yalnız Allahdır...”[56]

Qeyd edildiyi kimi, hökmlər ancaq Allahdan alınacaqdır. Nəsildən-nəsilə, cəmiyyətdən-cəmiyyətə dəyişən sosial həyatın təlatümlərilə ortaya çıxan və haqqında Quran və sünnədə qəti bir dəlil olmayan, o məsələlər ilə əlaqəli fərqli görüşlər və fərqli yozumlar ilə ortaya atılan məsələlərin həlli Uca Allaha və onun Rəsuluna həvalə edilər. Elə bu məqsədlə də Uca Allah bir şəriət müəyyən edərək onu Qurani-Kərim vəsitəsilə insanlara çatdırmışdır. Sonra isə bu ayələri insanlara izah edəcək bir peyğəmbər göndərmişdir. Bu peyğəmbər həvavü-həvəs üzündən (boş yerə) danışmaz. Buna görə də onun sünnəsi (sözləri və tətbiqatı) Allahın şəriətinin bir parçasıdır.

Allaha itaət məcburidir. Möminlər ilk olaraq Allaha itaət etməklə vəzifəlidirlər. İkinci dərəcədə Peyğəmbərə itaət etmə vəzifəsi gəlir. Çünki Allahın elçisi Allahdan aldığı İlahi mesajı bəndələrə çatdırma vəzifəsini daşıyır. Buna görə də ona itaət etmək, onun vasitəçiliyi ilə bu şəriəti göndərən Allaha itaət etmək deməkdir. Digər tərəfdən, Peyğəmbər sünnə (hədis) vasitəsi ilə bu şəriəti açıqlayır. Deməli, onun sünnəsi, onun hökmləri əməl olunması məcburi olan şəriətin ayrılmaz bir parçası olur.[57]

Allah taala belə buyurur:

قُلْ إِنْ كُنْتُمْ تُحِبُّونَ اللَّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللَّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَاللَّهُ غَفُورٌ رَحِيمٌ.

“**De, əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, rəhmlidir**”.[58]

Qurani-Kərimin ayələrinin açiqlayıcı olması, hər şeyi bəyan etməsi inkaredilməz bir həqiqətdir. Amma onu daim oxuyan və dinləyən insanların anlayış səviyyələri fərqli olduğu üçün onu təkbaşına

---

[53] Nisa surəsi, ayə 59.
[54] Nəhl surəsi, ayə 44.
[55] Nisa surəsi, ayə 105.
[56] Əllamə Məhəmməd Hüseyn Təbatəbai. əl-Mizan təfsiri. 20 clddə. IV c. Tərc: V.Məmmədəliyev, M.Ağaverdiyev. Bakı, Qələm nəşriyyatı, 2013. s. 603-604.
[57] Seyyid Kutub. Fi-Zilalil-Kuran. 10 cilddə. İstanbul, Dünya Yayıncılık, 1993. II c. s. 522.
[58] Ali İmran surəsi, ayə 31.

oxuyub dürüst şəkildə başa düşməlri qeyri-mümkündür. Belə olan halda onu insanlara başa salan bir qüvvəyə ehtiyac vardır ki, bu da heç şübhəsiz ki, Peyğəmbər və onun Əhli-beytidir (ə). Əlbəttə ki, Peyğəmbərin və digər Məsumların Qurani-Kərimi açıqlayıb izah etməsi Qurana əksiklik və qüsur gətirmir, əksinə, bu izahlar sayəsində bəndələrin o Uca Allaha necə ibadət edəcəkləri öyrənilir.[59]

Allahı sevən hər kəsin onun qəzəblənəcəyi şeylərdən uzaq durması lazımdır. Həzrət Məhəmmədin peyğəmbərliyini qəti olaraq göstərən dəlillər olduğuna görə, ona tabe olmaq lazımdır. Əgər bir kimsə peyğəmbərə tabe olmursa, bu onda peyğəmbərə qarşı sevginin olmadığına dəlalət edir.[60]

Sünnə Qurani-Kərimdən sonra gəlir. Qurani-Kərim insanın bütün mənəvi təkamül yolçuluğu boyunca ehtiyac duyacağı hikmət prinsiplərini də əhatə etməsi ilə yanaşı, İslam hüququ sahəsində əsas prinsiplər keyfiyyətinə sahibdir. Sünnə isə bu prinsiplərdən (əsaslardan) bir pillə aşağıda yer alır və məna baxımından Qurana əsaslanır. Qısaca olaraq, sünnə (hədis) Quranın çətin başa düşülən ayələrinin açıqlanması, ya da müxtəsər olanlarının izah edilməsidir. Burada söz açdığımız sünnə məsuliyyət gətirməsi baxımından mükəlləflərin əməlləri ilə əlaqəli olan sünnədir. Uca Allah Peyğəmbər haqqında "**وَإِنَّكَ لَعَلَىٰ خُلُقٍ عَظِيمٍ - Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən**", - deyə buyurmuşdur.[61] Burada Peyğəmbərin bütün sözlərinin, fellərinin və hər cür davranışlarının Qurana əsaslandığını görürük.

Uca Allah Quranı "**وَنَزَّلْنَا عَلَيْكَ الْكِتَابَ تِبْيَانًا لِكُلِّ شَيْءٍ - Biz Quranı sənə hər şeyi** (dini hökmləri, halal-haramı, günahı və savabı) **izah etmək üçün, müsəlmanlara** (və ya Allahın vəhdaniyyətini qəbul edən bütün insanlara) **da bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik!**"[62]

Bu ayədən də göründüyü kimi, sünnənin Quran daxilində ümumi olaraq qarışıb birləşməsi lazımlıdır. Çünki əmr və qadağa kitabda yer alan əsasların başında gəlir. "**مَا فَرَّطْنَا فِي الْكِتَابِ مِنْ شَيْءٍ - Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq**",[63] "**الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ - Bügün dininizi sizin üçün kamil etdim**",[64] ayələri də eyni mənanı daşımaqdadır. Bu halda sünnə nəticə olaraq Quranın açıqlanması deməkdir.[65]

Aşağıdakı xüsusiyyətlər sünnənin Qurandan sonra gəlməsinə dəlalət edir:

- Quran qəti, sünnə isə zənnidir. Buna görə də Kitabın (Quranın) sünnədən öncə gəlməsi lazımdır.

- Sünnə ya Quranı açıqlayır, yaxud da ona əlavə bir hökm gətirir. Əgər sünnə Quranı açıqlama mahiyyətində olarsa, o zaman diqqətə alınma baxımından bəyan edilənə nisbətlə ikinci dərəcədə bir yerə sahib olar.

Əgər sünnə açıqlama mahiyyətində olmayıb, Qurana əlavə bir şey gətirərsə, o zaman ona etibar Qurana baxıldıqdan və axtarılan məsələnin onda olmamasından sonra olacaqdır. Bu da Quranın mərtəbəcə sünnədən öncə gəldiyinin dəlilidir.

- Bu mövzuda nəql olunmuş bir çox dəlillər vardır. Müaz hədisini bunlara misal olaraq göstərmək olar. Peyğəmbər ilə Yəmənə vali göndərdiyi Müaz arasında belə bir dialoq baş vermişdir. Həzrət Peyğəmbər Müaza dedi:

- Nə ilə hökm edəcəksən?

Müaz dedi:

- Allahın kitabı ilə.

Həzrət Peyğəmbər (s):

- Əgər orada olmazsa?

---

[59] İbrahim Quliyev. Hədisşünaslığın əsasları. s. 17-18.

[60] Fehruddin er-Razi. Tefsir-i Kebir mefatihul-ğayb. 23 cilddə. Ankara, Akçağ Yayınları, 1989. VI c. s. 260.

[61] Qələm surəsi, ayə 4.

[62] Nəhl surəsi, ayə 89.

[63] Ənam surəsi, ayə 38.

[64] Maidə surəsi, ayə 3.

[65] Mehmet Erdoğan. Vahy-Akıl dengesi açısından sünnet, İstanbul, İFAV Yayınları, 1996. s. 254-255.

- Peyğəmbərın sünnəsi ilə.[66]

Bu hədisdən başa düşüldüyü kimi, Qurandan sonra müraciət edilcək hökm qaynağı Peyğəmbərin sünnəsidir.

Həmçinin müsəlman alimlərinin Quranın sünnəyə təqdimi, yəni Quranın sünnədən öncə gəlməsi, ona olan etibarın sünnədən daha güclü olduğu əsasından qaynaqlanır. Bu vəziyyətdə hər kəs tərəfindən qəbul edilən nəticə budur. Sünnə dəyərləndirmə baxımından kitab mərtəbəsində deyildir.[67]

Sünnə Quranın qoruyucusudur. **“إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ - Şubhəsiz ki, Quranı biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacayıq**”,[68] ayəsində dinin əsas qaynağı olan Quranın İlahi nəzarət atında olduğu vurğulanmışdır. Ayədə keçən “**zikr**”dən məqsəd, kitab və sünnənin tamamından meydana gələn şəriət deyə təfsir edilir. Göründüyü kimi, sünnə Quranın qoruyucu qalası, sağlam zirehi, etibarlı mühafizəçisi və açıqlayıcısıdır. Sünnə Quranı acıqlayır, onu təfsir edir və müxtəsər ayəsini geniş izah edir, onun əyləncəyə cevrilməsini, həvavü-həvəslərdən qaynaqlanan, müxtəlif qərarlara əsaslanan idarəçilərin və şeytanların diktəsilə edilən yozumlara alət olmasını önləyir. Bu halda sünnənin qorunması, Quranın qorunması üçün lazım olan əsas qayələrdəndir. Onun qorunması Quranın qorunması deməkdir. Sünnə bizi Uca Allaha tərəf aparan yoldur. Ona gedən yol isə həzrət Peyğəmbərin yoludur.[69]

Hədisi-şəriflərin birində belə deyilir: “Peyğəmbər bir xətt cızaraq **“Bu Allahın yoludur”**, - deyə buyurdu. Sonra həmin xəttin sağında və solunda başqa xətlər də çızdı və **“Bunlar yollardır və hər yolun başında oraya dəvət edən bir şeytan vardır”**, - deyə qeyd etdi.[70] Sonra da bu ayəni oxudu: **“وَأَنَّ هَٰذَا صِرَاطِي مُسْتَقِيمًا فَاتَّبِعُوهُ وَلَا تَتَّبِعُوا السُّبُلَ فَتَفَرَّقَ بِكُمْ عَنْ سَبِيلِهِ ذَٰلِكُمْ وَصَّاكُمْ بِهِ لَعَلَّكُمْ تَتَّقُونَ - Bu şubhəsiz ki, Mənim doğru yolumdur. Onu** (o yolu**) tutub gedin. Sizi bu yolumdan azdıracaq** (başqa**) yollara tabe olmayın**”.[71]

Sünnənin buraya qədər izah edilən xüsusiyyətlərindən bir daha aydın olur ki, o bir tərəfdən dəlil olmasını Qurandan alır, digər tərəfdən də Quranın açıqlanması rolunu oynayır, onun izahını və əmrlərinin tətbiqini əməli şəkildə həyata keçirir. Həmçinin unutmaq olmaz ki, bütün bu qeyd etdiklərimizdən də daha əhəmiyyətlisi, Quranın Quran olduğunu bizə Peyğəmbər xəbər vermişdir.

Yuxarıda göstərilən bütün ayə və hədislərdən belə nəticəyə gəlmək olur ki, sünnənin (hədisin) Qurani-Kərim qarşısında üç vəzifədə olduğu inkaredilməz həqiqətdir:

**Təkid:** hədis (sünnə) hər hansı bir hökmə Quran kimi dəlalət edir, yəni hər yönü ilə Quranın hökmünə uyğun bəyanat verir.

**Təfsir:** hədis (sünnə) Quranda keçən hər hansı bir hökmü açıqlayar, yəni orada olan mücməl (mənası gizli) və müşkül (mənası dərkedilməz) mənaları izah edir.

**Təşri:** Quranın hər hansı bir mövzuda hökm gətirmədiyi halda hədis (sünnə) bir hökm ortaya qoyur.[72]

Əvvəldə qeyd etdiyimiz kimi, hədisin (sünnənin) əhəmiyyəti səhabələrin nəzərində də əhəmiyyətli olub. Belə ki, səhabə İmran bin Heysəm Peyğəmbərin hədislərindən bəhs edərkən, məclis əhlindən biri:

- “Ey Əbu Müseyd, bizə Qurandan bəhs et!” demişdir.

Buna cavab olaraq İmran:

- Sən və sənin kimilər Quran oxuyursunuz. Mənə namazdan, namazın içindəki davranışlardan bəhs edə bilərsənmi?

---

[66] Ebu Davud es-Sicistani. Süneni-Ebu Davud terceme ve şerhi. 16 cilddə. XIII c. Hazırlayanlar: Necati Yeniel, Hüseyin Kayapınar. İstanbul, Gündoğdu, 1991. s. 176. Hədis № 3592.

[67] Şatibi. el-Muvafakat. Terc: Mehmed Erdoğan. İstanbul, İz Yayınları, 1993. IV c. s. 5-6.

[68] Hicr surəsi, ayə 9.

[69] Mehmet Erdoğan, Vahy – Akıl dengesi açısından sünnet. s. 251-252.

[70] İbn Kesir. Tefsirul-Kuranil-Azim. Urdun-Zerka, Mektebul Menar, 1990. II c. s. 177.

[71] Ənam surəsi, ayə 153.

[72] İbrahim Quliyev. Hədisşünaslığın əsasları. s. 19.

Daha sonra İmran həmin şəxsə Peyğəmbərin zəkat haqqındakı hədislərini izah etmişdi. Belə olan halda həmin adam:

- "Məni diriltdin, Allah da səni diriltsin!" - demişdi.[73]

Deməli, sünnəni (hədisi) inkar etmək insanın küfrə düşməsinə səbəb ola bilər. Bu haqda İman Cəfər Sadiq belə buyurub: **"Allahın kitabına və Məhəmmədin sünnəsinə qarşı çıxan, zidd hərəkət edən kafir olmuşdur"**.[74]

İmam Musa Kazim buyurub: **"...Hər şey Allahın kitabında və nəbinin sünnəsində mövcuddur"**.[75]

İmam Cəfər Sadiq kitab və sünnə haqqında buyurub: **"Hər şey Quran və sünnəyə görə götürülür, Allahın kitabına tabe olmayan bir hədis bər-bəzəkli yalandan başqa bir şey deyil"**.[76]

Göründüyü kimi, sünnənin dəlil olması Əhli-beyt imamlarının sözləri ilə də sabitdir. Buna görə də sünnəni Qurandan ayırmaq mümkün deyildir. Peyğəmbərin qeyd etdiyi: "Qurandan uzaq düşən və Quranı tərk edən bir qövmün"[77] vəziyyətinə düşməmək üçün Qurani-Kərimin "Fürqan" olduğuna inanmamız və bu inancı əməllərimizə tətbiq etməyimiz lazımdır. Əks təqdirdə bu İslamın təməlini zəiflədər.

Nəticə olaraq bunu demək olar ki, Quranın sünnəsiz təsəvvür edilməsi mümkün deyildir. Quran və sünnə ayrılmaz iki hissədən ibarət bir ünsürdür. Sünnə Quranın tamamlayıcısı və açıqlayıcısıdır. Birini digərindən ayırmaq mümkün deyildir. Bizim üçün əhəmiyyətli olan bunları bütövlükdə öyrənməyimiz və əməli olaraq tətbiq etməyimizdir.[78]

### 1.3. Əhli-beytin hədislərinin dəlil sayılmasının səbəbləri

Qurani-Kərim açıq bir ifadə ilə Peyğəmbərin söz və əməllərinin müsəlmanlar üçün höccət (dəlil) olduğunu müəyyən etmiş və o həzrətin sünnəsinin İslamın başa düşülməsi və İslam hökmlərinin müəyyən edilib meydana çıxmasını təmin edən bir mənbə olduğunu vurğulayaraq "əl-Həşr" surəsinin 7-ci ayəsində belə buyurmuşdur: **"Peyğəmbər sizə nə** (əmr) **versə götürün, sizi nədən uzaqlaşdırırsa ondan da uzaq durun və** (bu barədə) **Allahdan qorxun"**. "əl-Əhzab" surəsinin 36-cı ayəsində də açıq bir tərzdə belə buyrulmaqdadır: **"Allah və Rəsulu bir işə hökm etdiyində mömin və möminənin öz işlərində seçim haqları yoxdur. Kim Allah və Rəsuluna qarşı çıxarsa, artıq o öz yolunu azmışdır"**.[79]

Bizim əqidəmizə görə, nəss (Allahdan peyğəmbər vasitəsilə gələn xəbər və əmr) dövrü Peyğəmbərin vəfatı ilə başa çatmayıb, on ikinci İmamın böyük qeybinə ("qeybəti-kübra"ya) qədər davam etməkdədir. Həzrət Peyğəmbər ilə İmamlar arasında olan nəssin fərqi vəhy mövzusundadır. Yəni Peyğəmbər bilgiləri vəhy yolu ilə, İmamlar isə şəri həqiqətləri ilham yolu ilə əldə edə bilirlər. İmamlar bu yolla mələklərin və peyğəmbərlərin bilmək istədiklərini bilir və Uca Allahdan almaq istədikləri həqiqətləri almaq imkanına sahib olurlar.[80]

Fiqh üsulunda sünnənin bütün təriflərində göründüyü kimi, İmamların da söz, fel və təqrirləri qeyd edilməkdədir. Etiqadımıza görə, Peyğəmbərin əmri ilə Əhli-beytin hədislərinə tabe olmaq vacibdir. Bu məsələnin sübutu üçün Quran və sünnədən dəlillər gətirilmişdir. Buna görə də Peyğəmbər də daxil olmaqla, digər İmamların söz, fel və təqrirləri şəri höccətdir.[81]

---

[73] Həmin mənbə.

[74] Məhəmməd bin Yaqub əl-Küleyni. Üsulul-kafi. 6 cilddə. Tərc: Rüfət Hümbətov. I c. Baki, Kövsər, I çap, 2011. s. 113. Hədis № 204; Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. Beyrut, Müəssisətül-vəfa, 1412/1992. s. 509.

[75] əl-Küleyni. Üsulul-kafi. I c. s. 96. Hədis № 182.

[76] Həmin mənbə. s. 113. Hədis № 201.

[77] Fürqan surəsi, ayə 30.

[78] Mehmet Erdoğan. Vahy-Akıl dengesi açısından sünnet. s. 259.

[79] Geniş məlumat üçün bax: Cəfər əs-Sübhaninin "Məsadiru-fiqhil-İslamiyyi və mənabiuhu" əsərinə.

[80] əl-Küleyni. Üsulul-kafi. II c. "Höccət" fəsli. s. 108. Hədis № 654.

[81] Şeyx Nasir Məkarim əş-Şirazi. Əqaiduna. "İmamət" fəsli. s. 46.

İmamlar Peyğəmbərdən sadəcə, hədis rəvayət edən ravi deyildir. Hədislərdə “nasix-mənsux”, “möhkəm-mütəşabeh”, “xas-amm” kimi xüsuslar vardır. Peyğəmbərin bütün əshabı bunları qavraya biləcək səviyyədə deyildilər. İmamlar hədis ravisi deyildirlər ki, onların rəvayətləri mötəbərlilik baxımından təhqiq edilsin. Onlar həzrət Peyğəmbərin dili ilə ondan sonra insanlara şəri ehkamı çatdırmaq üçün Allah tərəfindən vəzifələndirilmiş şəxslərdir. Onlar yalnız Allah yanında olan hökmlərlə hökm edərlər. Bu hökmlər onlara ya ilham yolu ilə, ya da hər Məsumun özündən sonrakına təlim etməsi yolu ilədir. Əshabın çoxu bu xüsusiyyətləri bilməmələrinə baxmayaraq, hədisləri rəvayət edirdilər. Qeyd edilən bu xüsusları ən yaxşı bilən Əli bin Əbi Talib olmuşdur. Çünki o, gecə-gündüz Peyğəmbərin evinə girib-çıxmaqda, ondan elm öyrənməkdəydi. Bu məsələni İmam Baqir belə nəql edir: **“Həzrət Peyğəmbər Əliyə min hərf öyrətdi. Bu hərflərin hər biri min hərfə açılır”**.[82]

Məsum İmamların Peyğəmbərdən rəvayət etdikləri hədislər ya “cəvamiül-kəlim” (bir sözlə çox məna ifadə edən sözlər) olan hədislərin nəssini nəql etmək üçün, ya bu hədislərdən hər hansı birini başqalarına qarşı dəlil olaraq istifadə etmək üçün və ya başqa hər hansı bir səbəb üçün olması mümkündür.[83]

İmamların sünnə qaynağı olmasına Quran və sünnədə dəlillər vardır. Uca Allah Qurani-Kərimdə: **“Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar** (əmr) **sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır”**, - deyə buyurmaqla **“ulul-əmr”**ə **(وَأُوْلِي الأَمْرِ مِنكُمْ)** itaəti də mütləq olaraq qeyd etməkdədir. “əl-Əhzab” surəsinin 33-cü ayəsində Əhli-beytin məsumluğundan bəhs edilmişdir.[84] Peyğəmbər də bu şəxslərin kimlər olduğunu qeyd etmiş[85] və bizə özündən sonra “on iki” əmirin (xəlifə-imam) gələcəyini xəbər vermişdir. “Səhihül-Buxari”də Cabir bin Səmurədən belə bir rəvayət qeyd olunur: “Peyğəmbərin belə dediyini eşitdim: “on iki əmir gələcəkdir”. Sonra bir söz dedi, mən onu eşitmədim. Atamdan nə dediyini soruşdum, o dedi ki, Peyğəmbər onların hamısının Qüreyşdən olduğunu buyurdu”.[86] Digər İmamlar da həmçinin öz sözlərinin sünnə mənbəyi olduğunu qeyd etmişlər. İmam Cəfər Sadiq öz sözlərinin dəlil olması barəsində belə buyurub: **“Mənim sözüm atamın sözü, atamın sözü babamın sözü, babamın sözü həzrət Hüseynin sözü, Onun sözü həzrət Həsənin sözü, həzrət Həsənin sözü əmirülmöminin Əli bin Əbi Talibin sözü, həzrət Əlinin sözü Peyğəmbərin sözü, Peyğəmbərin sözü (hədisi) də Allahın sözüdür”**.[87] Başqa bir hədisində isə belə buyurmuşdur: **“Bütün hədis rəvayətlərini Qurani-Kərimlə yoxlayın, ona uyğun olanlardan möhkəm yapışın. Qurana zidd olanları isə qəbul etməyin. Çünki, nə Peyğəmbər nə də biz Əhli-beyt Qurana zidd sözlər söyləmərik”**.[88]

Seyid Haşim Məruf “Tarixu-fiqhi-Cəfəri” kitabında İmamların da sünnə qaynağı olmasını geniş şəkildə izah etmişdir. Ona görə Əhli-beyti qaynaq qəbul etməyimizin səbəbi Allahın əmr etdiyi kəslərdir ki, Uca Allah buyurub: **“...فَاسْأَلُوا أَهْلَ الذِّكْرِ إِنْ كُنْتُمْ لَا تَعْلَمُونَ - Əgər bilmirsinizsə, zikr** (kitab, elm) **əhlindən soruşun!”**[89] Məhəmməd bin Cərir ət-Təbəri (838-923) və İbn Kəsir (1301-1373) də öz təfsirlərində bu ayəni həmin məzmunlu izahla qeyd etmişdilər. Əhli-beyt imamları Allahın seçib kitabını onlara miras qoyduğu kəslərdir. Necə ki, Uca Yaradan buyurub: **“ ثُمَّ أَوْرَثْنَا الْكِتَابَ الَّذِينَ اصْطَفَيْنَا مِنْ عِبَادِنَا - Sonra bəndələrimizdən seçdiyimiz kəsləri kitaba** (Qurana) **varis etdik”**.[90] Həmçinin

[82] əl-Küleyni. Üsulul-kafi. II c. “Kitabül-höccət”. s. 184. Hədis № 763.
[83] Karaman. Şiada fıkıh usulü ve şeri deliller. Milletlerarası Tarihte ve Günümüzde Şiilik Sempozyumu, Tartışmalı İlmi Toplantılar Dizisi. İstanbul, 1-ci çap, 1993. s. 272.
[84] Əhzab surəsi, ayə 33.
[85] Əhli-beytin (ə) kimlərdən ibarət olması haqqında bax: İbrahim Quliyev. Suallara cavablar (hədisi-şəriflər kontekstində). Bakı, Elm və təhsil nəşriyyatı, 2016. s. 22-39.
[86] Məhəmməd bin İsmail əl-Buxari. Səhihül-Buxari. ər-Riyad, Darüs-salam, II çap, 1419/1999. s. 1244. Hədis № 7222.
[87] əl-Küleyni. Üsulul-kafi. I c. s. 83. Hədis № 152.
[88] Seyyid Məhəmməd Hüseyn Təbətəbai. Dinlə tanışlıq. Tərc: Nəsib Göyüşov. Bakı, Qələm, 2004. s. 107.
[89] Nəhl surəsi, ayə 43.
[90] Fatir surəsi, ayə 32.

Peyğəmbər onları Quranla bərabər qeyd etmiş və onları ikinci qiymətli əmanət adlandırmışdır. Onlardan möhkəm tutmağı tövsiyə edərək belə buyurmuşdur:

**وَأَنَا تَارِكٌ فِيكُمْ ثَقَلَيْنِ: أَوَّلُهُمَا كِتَابُ اللهِ فِيهِ الْهُدَى وَالنُّورُ فَخُذُوا بِكِتَابِ اللهِ، وَاسْتَمْسِكُوا بِهِ، فَحَثَّ عَلَى كِتَابِ اللهِ وَرَغَّبَ فِيه، ثُمَّ قَالَ: وَأَهْلُ بَيْتِي أُذَكِّرُكُمُ اللهَ فِي أَهْلِ بَيْتِي، أُذَكِّرُكُمُ اللهَ فِي أَهْلِ بَيْتِي، أُذَكِّرُكُمُ اللهَ فِي أَهْلِ بَيْتِي.**

**"Sizə iki qiymətli əmanət (səqəleyn) qoyub gedirəm. Onlar Allahın kitabı və itrətimdir (nəslimdən olan Əhli-beytim). Əgər o ikisinə möhkəm sarılsanız, məndən sonra heç vaxt yolunuzu azmayacaqsınız"**.[91] Müslüm bin Həccac ən-Nisaburinin (821-875) başqa bir rəvayətində isə belə qeyd olunmuşdur: **"...Allahın kitabı və Əhli-beytim. Əhli-beytim barəsində sizə Allahı yadınıza salıram.** (bu ifadəni üç dəfə təkrarladı)".[92] Bunu da qeyd edək ki, Əhli-beytin ən təqvalı və ən fəzilətli şəxslər olduğu hər kəsə məlumdur.[93]

Seyid Əli Nəqi əl-Heydəri İmamların sünnə qaynağı olmalarını belə ifadə edir ki, Əhli-beyt şəri hökm qaynağıdırlar. Onların sünnəsi ictihadlarıdır. Onların bütün hökmləri Quran və sünnəyə bağlanır ki, bunları Peyğəmbər İmam Əliyə (ə), İmam Əli də övladlarına təlim etmişdi. Əbu Hənifə, Malik bin Ənəs kimi alimlər də onlardan hədislər rəvayət etmişlər.[94]

Mötəbər kitabların bir çoxunda mövcud olan və "mütəvatir" dərəcəsinə çatmış bir çox rəvayətlər vardır[95] və bu rəvayətlər Əhli-beytin höccət sayılmasına dəlalət edir. Bu rəvayətlərin məzmunu həzrət Peyğəmbərin Əhli-beytə tabe olmağı əmr etdiyi, on iki İmamın adlarını qeyd edib onların müsəlmanlara imam və höccət olduqlarını bildirdiyi, özündən sonra İslam şəriətini ən yaxşı onların bildiklərini vurğuladığı hədislərdir.[96]

Əhli-beytin höccət olmalarına dəlalət edən hədislərdən bir neçəsini aşağıdakı kimi sıralamaq mümkündür:

**1. "Səqəleyn"** hədisi. Peyğəmbər vida həccindən qayıdarkən Qədirxum adlı bir su quyusunun yanında xütbə oxudu və buyurdu:

**إِنِّي تَارِكٌ فِيكُمْ خَلِيفَتَيْنِ: كِتَابُ اللهِ، حَبْلٌ مَمْدُودٌ مَا بَيْنَ السَّمَاءِ وَالْأَرْضِ، أَوْ مَا بَيْنَ السَّمَاءِ إِلَى الْأَرْضِ، وَعِتْرَتِي أَهْلُ بَيْتِي، وَإِنَّهُمَا لَنْ يَتَفَرَّقَا حَتَّى يَرِدَا عَلَيَّ الْحَوْضَ.**

**"Ey insanlar! Aranızda iki ardıcılımı qoyub gedirəm. Bu ikisindən biri Göydən Yerədək və ya Göy ilə Yer arasında uzadılmış ipdir. Digəri isə mənim soyum olan (itrətim) Əhli-beytimdir. Bu iki əmanət** (Kövsər) **hovuzunda mənə qovuşana qədər bir-birindən ayrılmayacaqdır"**.[97]

Bu rəvayətin səhih olması barəsində bütün hədisşünaslar müttəfiq fikirdədirlər. O cümlədən hədis mötəbər hədis qaynaqlarından həm Müslümün, həm də Tirmizinin (824-893) "Səhih" əsərlərində qeyd olunmuşdur. Hədis sünnü məzhəbindən 39, şiə məzhəbindən isə 82 yolla rəvayət edilmişdir. Bu qədər yol ilə bizə qədər gəlib çatmasının səbəbi həzrət Peyğəmbərin bu hədisi Məscidülharam, Mədinə, Qədirxum və s. kimi müxtəlif zaman və məkanlarda təkrarlamasıdır.[98] Əhli-beyt söylədikləri bütün hədisləri birbaşa babaları Peyğəmbərin özündən nəql etmişdilər. Onlar: "Söylədiklərimizin hamısı atalarımız yolu ilə birbaşa babamız Peyğənbərdən bizə çatmışdır", - deyə buyurmuşdular. Görkəmli təfsirşünas əs-Sələbi məşhur "Təfsirüs-Sələbi" adlı təfsir əsərində "Ali-İmran" surəsindəki **"Allahın ipindən möhkəm yapışın",** ayəsinin təfsirində qeyd etdiyimiz "səqəleyn" hədisini nəql etmişdir.

Müsəlman alimləri "səqəleyn" hədisindən ümumi olaraq aşağıdakı nəticələri çıxarmışlar:

---

[91] Əbu İsa ət-Tirmizi. əl-Camiul-kəbir (Sünənüt-Tirmizi). 6 cilddə. V c. Beyrut, Darül-Ğərbil-İslami, I çap, 1996. s. 124. Hədis № 3786; Əllamə əl-Məclisi. Biharül-ənvar. XXIII c. s. 114. Hədis № 23.

[92] Müslim bin Həccac ən-Nisaburi. Səhihu-Müslim. Beyrut, Darul-kütubil-ilmiyyə, I çap, 1421/2001. s. 941. Hədis № 2408.

[93] əs-Seyyid Haşim Məruf əl-Həsəni. Tarixül-fiqhil-Cəfəriyyi. s. 13-14.

[94] Seyyid Əli ən-Nəqi əl-Heydəri. Məzhəbu-Əhlil-beyt. s. 18.

[95] Bax: Şeyx Cəfər əs-Sübhaninin "Məsadiru-fiqhil-İslamiyyi və mənabiuhu" əsərinə.

[96] Heydəri. Məzhəbu-Əhlil-Beyt. s. 13.

[97] Əhməd bin Hənbəl. Müsnəd. Mühəqqiq: 50 cilddə. XXXV c. Şüeyb əl-Ərnaut. Beyrut, Müəssisətu risalə, 1420/1999. s. 456. Hədis № 21578.

[98] Karaman. Şiada şeri deliller. s. 260.

**a)** Bu hədis Əhli-beytin məsum olduğuna dəlalət edir. Çünki Peyğəmbər bu hədisdə Əhli-beyti Qurani-Kərimlə birlikdə qeyd etmişdir.

**b)** Bu hədisdən Əhli-beytin qiyamətə qədər Quranla bərabər olacağı anlaşılır. Buna görə də qiyamətə qədər Quran və Əhli-beytin mövcud olmadığı bir zaman yoxdur.

**2. "Səfinə"** hədisi. Həzrət Peyğəmbər belə buyurmuşdu:

**إنما مثل أهل بيتي فيكم مثل سفينة نوح، من دخلها نجا، ومن تخلف عنها هلك، و لا تقدموهما فتهلكوا، و لا تقصروا عنهما فتهلكوا، و لا تعلموهم فإنهم أعلم منكم.**

"Əhli-beytimin sizin aranızda olması Nuhun gəmisi kimidir, kim ona minərsə qurtular, kim də minməzsə boğular və həlak olar. Onların önünə keçməyin ki, yolunuzu azarsınız. Onlardan geri qalmayın ki, həlak olarsınız. Onlara heç bir şey öyrətməyin, çünki onlar sizin ən yaxşı bilənlərinizdir".[99]

Yuxarıda qeyd olunan hədislər "Əhli-beyt" ifadəsi ilə işlənmişdir. Burada nəzərə çarpan məsələ beş nəfərdən digər İmamların sünnə qaynağı olub-olmamasıdır. Hədis mənbələrində digər İmamların da höccət olmasına dəlalət edən dəlillər mövcuddur. Şeyx Səduq (917-991) "İkmalüd-din" əsərində İmam Cəfər Sadiq sənədi ilə o atasından, o da babasından belə rəvayət edir ki, Peyğəmbər buyurdu: **"Məndən sonrakı imamlar on ikidir. Onların birincisi Əli (ə), axırıncısı isə Qaimdir (Məhmməd Mehdi). Onlar mənim xəlifələrim və canişinlərimdirlər".**[100]

Bu və bunun kimi digər rəvayətlər həzrət Peyğəmbərin göstərdiyi İmamların söz, fel və təqrirlərini qəbul etməyi mümkün vəziyyətə gətirir. Bunu da xatırladaq ki, imam bəşəri əlamətlərinə görə digər insanlardan fərqlənmir, ancaq öz zamanında hər bir kəsdən fəzilətli və ən kamil insandır.

### 1.4. Hədislərin yazılmasının (kitabət), kitab halına salınmasının (tədvin) və mövzusuna görə fəsillərə ayrılmasının (təsnif) inkişaf tarixi

Hədis "söz, fel, təqrir, yaradılış və əxlaqi sifət olaraq, həzrət Peyğəmbərə və onun Əhli-beytinə aid edilən hər şeydir", - deyə tərif edilmişdir. Hədis Peyğəmbərin təbliğ etdiyi vəhyi açıqlama vəzifəsindən qaynaqlanmaqdadır. Yazılı mətnlər və bu mətnlər üzərindəki elmi tədqiqatlar hədis elmini meydana gətirir.[101]

Hədis tarixində hədislərin yazılmasına **"kitabət"** deyilir. Məlum olduğu kimi, səhabələr arasında hədis və sünnənin dəyəri çox böyük idi. Bəzi səhabələr həzrət Peyğəmbərdən eşitdikləri hər bir sözü və yaxud gördükləri hər hansı bir hərəkəti (feli) öz aralarında həmişə müzakirə edər və gündəlik həyatlarını bu söz və hərəkətin ifadə etdiyi mənaya görə nizamlamağa çalışardılar. Onların hədisə qarşı göstərdikləri bu yüksək maraq, Qurani-Kərimlə yanaşı, İslamın ən əhəmiyyətli qaynağı ilə əlaqəli geniş külliyatın meydana gəlməsində ən böyük amil olmuşdur.[102]

Peyğəmbərin həyatında hədislərin yazı ilə təsbiti mövzusu ortaya atıldığı zaman həmişə qarşımıza bir məsələ çıxır. Bu da hədislərin yazılmasının icazəli olub-olmaması məsələsidir. Hədis ədəbiyyatının qaynaqları ilə əlaqəli ilk və bəlkə də ən mühüm məsələ hədislərin yazılmasına icazə verilməsi və ya verilməməsi yönündən ortaya çıxan münaqişələrlə bunların nəticələrinə aiddir. Bu münaqişələrə səbəb də hədislərin həm yazılmasına, həm də yazılmamasına dair hədislərin mövcud olmasıdır.

Bu iki növ hədislərdən birisini birtərəfli dəyərləndirənlər olduğu kimi, ikisini bərabər olaraq mütaliə edib orta yolu tutanlar da olmuşdur. Lakin üçüncü bir dəstə isə haqlı olaraq hədislərin

---

[99] İbn Həcər əl-Heytəmi. əs-Səvaiqul-mühriqə. Beyrut, Darul-kütubil-ilmiyyə, 1971. s. 230. Şeyx Vəliyuddin Xətib ət-Təbrizi. əl-İkmal fi əsmair-rical. Təhqiq: Əbi Əsədullah əl-Ənsari. Beyrut, Müəssisətu Əhlil-beyt (ə). Tarixsiz. s. 72.

[100] Bu və ya bu növdən olan hədislər üçün bax: Şeyx Səduq. Kəmaluddin. Tərc: F.Abdullah. Bakı, Nurlar, 2016. s. 303-312.

[101] Geniş məlumat üçün bax: İbrahim Quliyev. Hədisşünaslığın əsasları. Bakı, Elm nəşriyyatı, 2013. s. 32-81.

[102] Talat Koçyiğit. Hadis usulü. s. 264.

yazılmasına icazə verən rəvayətlərin üstündə durmuşlar.[103] Bu məsələyə aid mövzular aşağıda təfərrüatı ilə tədqiq ediləcəkdir.

Həzrət Peyğəmbərin ilk dövrlərdə səhabələrə hədis yazmağı qadağan etdiyi zəif də olsa, bəzi mənbələrdə keçir. Müslüm bin Həccac ən-Nisaburinin (821-875) rəvayət etdiyi bir hədis bunu belə ifadə edir:

"Əbu Səid əl-Xudrinin rəvayətinə görə, həzrət Peyğəmbər belə buyurmuşdur: "Məndən Qurandan başqa heç bir şey yazmayın. Əgər Qurandan başqa bir şey yazmış kimsə varsa, onu yox etsin. Ancaq yazmadan, məndən istədiyiniz kimi rəvayət edə bilərsiz, bunda heç bir qəbahət yoxdur".[104]

Əbu Səid əl-Xudri başqa bir rəvayətdə belə deyir: "Hədis yazmaq üçün Peyğəmbərdən icazə istədim, mənə icazə vermədi".[105]

Peyğəmbərin "hədislərinin yazılmasını yaxşı qarşılamadığını" göstərən bir başqa xəbər Əbu Hüreyrədən rəvayət edilmişdir: "Biz hədis yazarkən Peyğəmbər yanımıza gəldi və "nə yazırsınız?" - deyə soruşdu. Biz də: "Səndən eşitdiyimiz hədisləri", - deyə cavab verdik. Peyğəmbər (s): "Allahın kitabından başqa kitab istəyirsiniz? Sizdən öncəki ümmətlər Allahın kitabı ilə yanaşı, başqa kitablar yazdıqları üçün zəlalətə düşdülər", - deyə buyurdu".[106]

Lakin tarixi faktlardan məlumdur ki, hədislərin yazılmasının qadağan olunması Peyğəmbər tərəfindən deyil, məhz səhabələr, xüsusilə də ondan sonra hakimiyyətə gələn xəlifələr tərəfindən qadağan edilmişdir. Belə ki, görkəmli hədisşünas Hakim ən-Nisaburi (933-1014) "Müstədrək" əsərində Qərzə bin Kəbin belə dediyini nəql edir: "Xəlifə Ömər bin Xəttab biz İraqa yola düşərkən bizi yola saldı və belə dedi: "Bilirsinizmi sizi niyə yola salıram?" Dedik: "Bəli, biz Peyğəmbərin səhabələriyik, sən də bizimlə birlikdə gəlirsən". Dedi: "Getdiyiniz yerdə Peyğəmbərdən hədis deməyi azaldıb Qurandan danışın".[107]

Şəmsəddin əz-Zəhəbi (1274-1348) "Təzkirətül-hüffaz" adlı əsərində yazırdı: "Xəlifə Əbu Bəkr Peyğəmbərin vəfatından sonra insanları bir yerə toplayıb onlara dedi: "Peyğəmbərdən heç bir hədis rəvayət etməyin. Bu haqda sizdən bir şey soruşsalar, belə deyin: "Bizimlə sizin aranızda Allahın kitabı vardır. Onun halalını halal, haramını da haram bilin".[108] Həmçinin adı çəkilən müəllif Peyğəmbərin xanımı Aişədən nəql edərək atası xəlifə Əbu Bəkrin (632-634) Peyğəmbərin dövründə yazdığı 500 hədisi yandırdığını da qeyd etmişdir.[109]

Əllamə əl-Hindinin (1483-1567) xəlifə Ömərin Əbu Hüreyrəyə: "Əgər hədis rəvayət etməyi tərk etməsən, səni mütləq Dus bölgəsinə gödərəcəyəm",[110] sözünü öz əsərində qeyd etməsi bir daha hədislərin Peyğəmbər tərəfindən deyil, məhz xəlifələr tərəfindən qadağan olunduğunu göstərir.

Göründüyü kimi, adı çəkilən bəzi səhabələr hələ Peyğəmbərin dövründə belə, hədislərin yazılmasına etiraz etmişlər. Bütün qaynaqların verdikləri məlumatlara görə, Peyğəmbər can üstə olarakən kağız və qələm istəmiş, lakin bəzi səhabələr ona kağız və qələmin verilməsini münasib görməmişlər. Bunun da nəticəsində Peyğəmbər onların evi tərk etmələrini əmr etmişdir.[111]

Xəlifə Osman bin Əffan (644-656) da hədislərin yazılmasını əvvəlki xəlifələr kimi qadağan etmişdir. Belə ki, İbn Səd (784-845) Məhəmməd bin Ləbiddən belə nəql edir: "Osman bin Əffan minbər üstündə olarkən ondan eşitdim ki, deyirdi: "Heç bir kəsə xəlifə Əbu Bəkr və xəlifə Ömər bin

---

[103] Bax: Ali Yardım. Hadis I-II. II c. s. 12-13.
[104] Səhihi-Müslim. Zühd-16. Hədis № 3004.
[105] Sünənüt-Tirmizi. Elm-11. Hədis № 2665.
[106] Talat Koçyiğit. Hadis tarihi. Ankara, TDV Yayınları, 1998. s. 27.
[107] Hakim ən-Nisaburi. Müstədrək. I c. s. 102.
[108] Hafiz əz-Zəhəbi. Təzkirətül-hüffaz. I c. s. 2.
[109] Həmin mənbə. I c. s. 5.
[110] Əllamə Əli əl-Müttəqi əl-Hindi. Kənzül-ümmal. I c. s. 291. Hədis № 29472.
[111] Məhəmməd bin İsmail əl-Buxari. Səhihül-Buxari. Beyrut, Darul-Cil, 1430/2009. s. 870. Hədis № 4432.

Xəttabın dövründə deyilmiş hədislərdən başqa hədis rəvayət etməyə icazə verilmir". Xəlifə Osman hətta mənə belə, hədis nəql etməyə mane olurdu".[112]

Həzrət Peyğəmbərin hədislərin yazılması ilə əlaqəli icazə haqqında müxtəlif və çoxlu sayda xəbər vardır. Bu xəbərlərin hamısı doğru xəbərlərdir. Hədis mənbələrində nəql edilən bir xəbərə görə, Xüzaə qəbiləsi Məkkənin fəthi əsnasında öldürülən bir xüzaalıya görə Bəni-Leysdən bir nəfəri öldürürlər. Bu hadisə Peyğəmbərə çatdırıldıqda, o, dəvəsinə minmiş və məkkəlilərə xitabən Məkkə şəhərində adam öldürməyin, hətta tikanı kəsməyin, itirilmiş malına sahib olmağın o kimsə üçün haram olduğuna dair xütbə etmişdi. Xütbəni dinləyənlərdən Əbu Şah adlı bir yəmənli Peyğəmbərin yanına gələrək xütbənin onun üçün yazılmasını istəmiş, Peyğəmbər də **"Əbu Şah üçün xütbəni yazın"**, - deyə buyurmuşdur.[113]

Əbu Hüreyrədən rəvayət olunan bir xəbərə görə, adı bilinməyən bir şəxs Peyğəmbərə hafizəsindən şikayət etmiş, Peyğəmbər də ona: **"Əlindən yardım istə!"** (yəni, yaz), - deyə buyurmuşdur.[114]

Başqa bir rəvayətdə Abdullah bin Əmr belə deyir: "Peyğəmbərdən eşitdiyim hər şeyi yazırdım. Məqsədim bunları qorumaq idi. Qüreyşlilər məni bu işdən çəkindirdilər və "Sən Peyğəmbərdən eşitdiyin hər şeyi yazırsan, halbuki o bir insandır və normal halında olduğu kimi, qəzəb halında da danışa bilər", dedilər. Bundan sonra hədis yazmağı saxladım. Sonradan qüreyşlilərin bu sözünü Peyğəmbərə çatdırdım. Mənə: **"Yaz, nəfsim qüdrət əlində olan Allaha and olsun ki, məndən ancaq haq (**doğru**) söz çıxar"**, - deyə buyurdu.[115] Abdullah bin Əmr hədis yazmaq üçün Peyğəmbərdən icazə aldıqdan sonra, hədisləri yazmağa başlamış və minə qədər hədisi əhatə edən bir "Səhifə" yazmışdır.

Hədislərin yazılmasına təşviq edən bir çox hədis vardır. Belə ki, Peyğəmbər buyurmuşdur: **"Mömin ölən zaman üzərində elm olan bircə vərəq qoyub gedərsə, həmin vərəq qiyamət günü onunla Cəhənnəm odu arasında bir pərdə olacaqdır. Allah taala o vərəqdə yazılan hər bir hərf üçün həmin şəxsə (**Cənnətdə**) dunyadan yeddi dəfə geniş olan şəhər verəcəkdir"**.[116]

"Peyğəmbər üç dəfə **"İlahi, xəlifələrimə (**ardıcıllarıma**) rəhm et!"** - dedikdə, səhabələr: "Ey Allahın Rəsulu! Sənin xəlifələrin (ardıcılların) kimlərdir?" - dedilər. Həzrət buyurdu: **"Mənim xəlifələrim hədis və sünnəmə tabe olub, onu ümmətimə öyrədənlərdir"**.[117]

Peyğəmbər buyurdu: **"Elmi möhkəmləndirin".** Soruşdular: "Onu nə ilə möhkəmləndirək?" Həzrət buyurdu: **"Yazılması ilə"**.[118]

Həmçinin bu hədislər dəyişik şəkldə bir çox mötəbər mənbələrdə, o cümlədən İbn Əbdülbirrin (980-1075) "Camiu bəyanil-ilm",[119] Xətib əl-Bağdadinin (1002-1071) "Təqyidül-ilm",[120] Sübhi əs-Salehin (1926-1986) "Ülumul-hədis"[121] və digər əsərlərdə də qeyd olunmuşdur.

Bu mövzuda İmam Əli buyurur: **"Allah bizdən bir hədis eşidib onu olduğu kimi nəql edənin üzünü ağartsın. Az mübəlliğlər vardır ki, onlar eşidilənlərdən daha diqqətlidirlər"**.[122]

Hədislərin yazılması (kitabət) məsələsinə baxdığımız zaman, Peyğəmbərin hədislərin yazılmasında bir problem görmədiyini ortaya qoyan xəbərlərin daha səhih olduğu məlum olur. Buna görə də "İslamiyyətin ilk günlərində yazının vəziyyəti, yazılmış hədislərlə Quran ayələrinin bir-birinə qarışma təhlükəsi" kimi izahların heç bir elmi əsası yoxdur və bu iddiaları irəli sürənlər çox yanılırlar.

---

[112] İbn Səd. ət-Təbəqatül-kübra. II c. Beyrut, Darüs-sadir, 1968. s. 633; İbrahim Quliyev. Hədisşünaslığın əsasları. s. 36-39.

[113] Əbu İsa ət-Tirmizi. Sünənüt-Tirmizi. Elm-12. Hədis № 2667.

[114] Talat Koçyiğit. Hadis tarihi. s. 30.

[115] Ebu Davud es-Sicistani. Süneni-Ebu Davud terceme ve şerhi. XIII c. s. 250. Hədis № 3646.

[116] Əllamə əl-Məclisi. Biharül-ənvar. Beyrut çapı, II c. s. 144. Hədis № 1

[117] Həmin mənbə. Hədis № 3 - 4.

[118] Həmin mənbə. LXXIV. s. 139. Hədis № 9.

[119] I c. s. 72.

[120] s. 69.

[121] s. 17.

[122] Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. s. 441.

Hədislərin yazılmasının sadəcə, elm tarixi və baxımından deyil, dini həyat, əxlaqi vəzifə və mənəvi qazanc baxımından da bir çox faydaları vardır. Bu faydaları üç bənd halında xülasə etmək olar:

**a)** Hədislərin yazılması nəticəsində şəri dəlillərin yox olması təhlükəsi aradan qaldırılmışdır. Əgər müsəlmanlar dəlilləri bilməsəydilər, İslam düşmənləri qarşısında dinlərini qorumaqdan aciz qalardılar. Hücumlara qarşı "Biz atalarımızı belə gördük", deməlləri özlərini qorumaq üçün yetərli olmazdı.

**b)** Hər bir hədisə görə Peyğəmbərə salavat oxunması təkrarlanmış olur. Eyni şəkildə sədaqətli səhabə və tabei üçün də dua edilməsini yeniləmiş olur.

**c)** Hədislərin yazılmasının ən böyük faydalarından biri də Peyğəmbərın sözlərini ümmətinə təbliğ edənlər haqqındakı duasına nail olmaqdır. Peyğəmbər belə buyurmuşdur: **"Sözümü dinləyib anlayan və anladığı kimi başqalarına çatdıranların Allah üzünü ağartsın"**.[123] Bu da bir həqiqətdir ki, Peyğəmbərın duası Allah yanında məqbuldur, rədd olunmazdır.[124]

Hədislərin yazılıb kitab halında toplanmasına **"tədvin"** deyilir. "Tədvin" lüğətdə dağınıq olan şeylərin bir yerə yığılması, toplanması deməkdir.

Hədis tarixindəki mənası isə "dillərdə və müxtəlif yazı ləvazimatları üzərində dağınıq halda mövcud olan hədis mətnlərinin hər hansı bir təsnifat olmadan bir yerə yığılmasına deyilir".[125]

Peyğəmbərin həyatında bəzi səhabələrin onun hədislərini yazaraq "Səhifə" adı verilən kiçik kitablar ortaya çıxardıqlarını yuxarıda qeyd etmişik. Abdullah bin Əmr bin Asın "Səhifətu-sədiqə" adını verdiyi hədis səhifəsi, yaxud Həmmam bin Münəbbihin Əbu Hüreyrədən yazdığı və "Səhifətu-səhihə" adını verdiyi bir başqa səhifə bunların arasında ən çox şöhrət qazananlardan idi. Tədvin toplamaq mənasına gəldiyinə görə, Peyğəmbər və səhabə dövründə belə bir fəaliyyətin mövcud olduğunu göstərəcək dəlillər yox deyildir. Çünki İmam Əlinin (ə), həzrət Fatimənin (ə), Salman əl-Farsinin və bir çox səhabələrin hədis yazıb onu kitab adlandırmaları qeyri-rəsmi də olsa, tədvinin köklərini o dövrə bağlamaqdadır.[126]

Səhabələr Peyğəmbərin özündən eşitdikləri hədisləri yazmışlar, ancaq bu səhabələrdən heç biri eşitdiyi hədislərlə yanaşı, digər səhabələrin də nəql etdikləri hədisləri toplayıb yazmağı düşünməmiş, yaxud düşünmüş olsalar belə, bu işə təşəbbüs etməmişlər.

Hədislərin rəsmən (yəni dövlət səviyyəsində) tədvin olunması işi Əməvi xəlifələrindən Ömər bin Əbdüləzizlə (717-720) başlayır. Ömər bin Əbdüləziz sünnəni bilən səhabə nəslinin və böyük alimlərin müxtəlif səbəblərlə həyatdan köçmələrini görərək, hədislərin yox olmasından qorxaraq, təhlükənin qarşısını almaq üçün hər yerdə mövcud alimləri hədislərin yazılması işinə cəlb etməyi düşünür. Elə bu məqsədlə bir xəlifə kimi valilərə əmrlər və sərəncamlar göndərir.

Ömər bin Əbdüləzizin göndərdiyi bu məktublardan biri "Səhihül-Buxari" əsərində mövcuddur. Bu Mədinə valisi Əbu Bəkr bin Həzmə göndərilən məktubdur. Məktubun mətni belədir: "Yaşadığın bölgədə Peyğəmbər ilə əlaqəli rəvayətləri araşdır, topla və yaz. Mən elmin yox olmasından və alimlərin tükənməsindən qorxuram. Bu işi görərkən sadəcə, Peyğəmbərin sünnəsi qəbul edilsin. Alimlər məscid kimi hər kəsin gələ biləcəyi yerlərdə oturub dərs keçərək elmi yaysınlar. Bilməyənlərə öyrətsinlər. Çünki elm gizli qalmadıqca yox olmaz".[127]

Bu əmrin yalnız Mədinə valisi Əbu Bəkr bin Həzmə yazıldığı güman olunsa da, digər rəvayətlərdən xəlifənin eyni əmri idarəsi altında olan digər valilərə və hədislə məşğul olan bəzi alimlərə də göndərdiyi başa düşülür. Xəlifənin hədislərin yazılıb bir araya toplanması (tədvin) işini ciddi şəkildə həyata keçirməyə çalışdığını düşünsək, tədvinlə əlaqəli əmrin yalnız Əbu Bəkr bin Həzmə deyil, bu işi görə biləcək hər kəsə göndərməsi ağıla daha uyğun gəlir. Belə ki, xəlifənin əmri çatdırılan şəxslərdən

---

[123] Ebu Davud es-Sicistani. Süneni-Ebu Davud terceme ve şerhi. XIII c. s. 267. Hədis № 3660.
[124] İsmail Lütfi Çakan. Anahatlarıyla hadis. s. 115-116.
[125] İsmail Lütfi Çakan. Hadis edebiyatı. s. 15.
[126] Bax: İbrahim Quliyev. Hədisşünaslığın əsasları. s. 44.
[127] İbrahim Canan. Hadis usulü ve tarihi. Ankara, Akçağ Yayınları, 1998. s. 106-107.

biri olan İbn Şihab əz-Zühri (öl. 743) belə deyir: "Ömər bin Əbdüləziz bizə hədislərin toplanmasını əmr etdi. Biz də yazdıq. O da idarəsi altında olan hər yerə bu nüsxələrdən göndərdi".[128]

Bu xəbərlərə görə, hədisləri ilk tədvin edən kimsə əz-Zühri görünür. Bu mövzuda Malik bin Ənəsin (712-795) bu sözü böyük şöhrət qazanmışdır: "Hədisi ilk tədvin edən kimsə İbn Şihab əz-Zühridir". Malikin sözünü dəstəkləyən bir başqa xəbər də Zührinin özündən nəql edilmişdir. O, "Bu elmi mənim tədvinimdən öncə heç kimsə tədvin etməmişdir", deməklə tədvin işində ilk olduğunu bildirmək istəmişdir.

İbn Şihab əz-Zührinin hədis toplamaq və topladığı hədisləri yazmaq məsələsində çox çalışdığını göstərən müxtəlif xəbərlər vardır. Bu xəbərlərlərdən birində onun elm yolundakı dostu Saleh bin Keysan belə demişdir: "Mən və Zühri elm öyrənmək üçün bir araya gəldik və hədisləri yazmağı qərarlaşdırdıq. Peyğəmbərdən gələnləri yazdıq, sonra Zühri "Səhabədən gələnləri də yazaq, onlar da sünnədəndir", dedi. Mən "Səhabənin sözləri sünnədən deyildir", dedim. O yazdı, mən isə yazmadım. O müvəffəq oldu, mən itirdim". Bununla yanaşı, Əbüzzibad Abdullah bin Zəkvandan da demək olar ki, eyni mənaya gələn bu xəbər nəql edilmişdir: "Biz halal və haramla əlaqəli xəbərləri yazırdıq. İbn Şihab əz-Zühri isə eşitdiyi hər şeyi yazırdı. Ona ehtiyac olduğu zaman, başa düşdüm ki, Zühri xalqın ən alimidir".[129]

Ömər bin Əbdüləzizin tədvinlə əlaqəli əmrini ilk həyata keçirən və topladığı hədisləri xəlifəyə göndərən də Zühri olmuşdur. Çünki xəlifənin eyni əmrini alan Əbu Bəkr bin Həzm işi sonra çatdırıb yazdığı kitabları göndərmədən öncə xəlifə vəfat etmişdir. Topladığı hədislər də özündə qalmışdır.[130]

Yuxarıda keçən xəbərlər tədvin fəaliyyətinin Zühri ilə başladığını və xəlifə Ömər bin Əbdüləzizin bu məsələdəki əmri ilə və rəsmən təşviq edildiyini göstərir. Ancaq burada diqqət edilməsi lazım bir məsələ də vardır. Hər nə qədər Zühri hədisləri yazan ilk şəxs (müdəvvin) qəbul edilmişsə də, bu, onun müasirləri arasında ondan başqa hədis toplayan kimsələrin olmadığı mənasına gəlməz. Zührinin ilk hədis toplayan (müdəvvin) olaraq tanınması, bu sahədəki fəaliyyətinin daha geniş və səmərəli olması səbəbinə görədir.[131]

Xəlifə Ömər bin Əbdüləzizin əmri ilə bölgələrdə yazılan hədislər dəftər halında mərkəzə göndərilir, orada çoxaldılaraq yenidən İslam bölgələrinə yollanılırdı. Bəzi rəvayətlər mərkəzdə toplanan hədislərin alimlərin nəzarətində müəyyən bir baxışdan keçirildiyini də ifadə edir.

Tədvin fəaliyyətinin mühüm bir xüsusiyyəti də hədislərin "Sünən", "Səhih" və yaxud "Müsnəd" kimi hər hansı bir sinifləndirmə tərzində yazılmamasıdır. Burada hədisləri yazmaq əsas götürülmüşdür. Buna görə də "mərfu", "məvquf" və "məqtu" rəvayətlər "səhih", "həsən" və "zəif" rəvayətlərlə bir yerdə yazılmışdır.[132]

Bütün bu deyilənlərdən əlavə, bildirmək istəyirik ki, mənbələr daha da obyektiv şəkildə araşdırıldıqda, məlum olmuşdur ki, hədislərin tədvin edilməsində Əhli-beytin rolu xüsusi şəkildə vurğulanmalıdır. Çünki sözün həqiqi mənasında Əhli-beyt və onların tərəfdarları hələ Peyğəmbərimiz həyatda ikən hədisləri yazmış və beləliklə də tədvin fəaliyyətini başlatmış olmuşlar. Amma əfsuslar olsun ki, siyasi hakimiyyətin Əməvilərin (661-750) əlində olması Əhli-beytin elmi fəaliyyətinə marağın göstərilməməsilə nəticələnmişdir.

Hədis tarixində **"təsnif"** dedikdə, hədislərin mövzuya və müəyyən adlara görə sinifləndirilməsi, fəsillərə bölünməsi başa düşülür. Təsnif lüğətdə "sinifləndirmək", "eyni cinsdən olan şeyləri bir yerə toplamaq", "qruplara ayırmaq" mənasını bildirir.[133]

---

[128] Talat Koçyiğit. Hadis tarihi. s. 203-204.
[129] Talat Koçyiğit. Hadis usulu. s. 279-280.
[130] İsmail Lütfi Çakan. Hadis edebiyatı. s. 18.
[131] Talat Koçyiğit. Hadis tarihi. s. 204-205.
[132] İbrahim Canan. Hadis usulü ve tarihi. s. 108.
[133] İbn Mənzur. Lisanül-ərəb. s. 198-199.

Peyğəmbər və səhabələr dövründə hədislər həm yazı, həm də əzbərlənməklə qorunub saxlanılırdı. Bu dövrdə öyrəndiyi hədisləri yazanlar da olmuşdur. Hicri I əsrin sonlarında tədvin edilən hədislər sonrakı illərdə mövzularına görə ayrılaraq eyni mövzulu hədislər bir yerə toplanmışdır.[134] Bu hədislər "Təsnifül-hədis" başlığı altında bir yerə cəm edilmişdir. Digər tərəfdən, kitablar müəyyən fəsillərə də ayrılmış və bu "Təsnifül-kütub" olaraq adlandırılmışdır.

Hədis tarixində hədislərin təsnif edilməsi onların tədvin edilməsindən dərhal sonra ortaya çıxmışdır. Təsnif olunmuş əsərlərin ortaya çıxış tarixi olaraq 740-750-ci (hicri 120-130-cu) illər göstərilsə də, bu təsnifin daha əvvəlki illərdə başladıldığına mane deyildir.[135]

Hədislərin tədvini tamamlandıqdan sonra bu hədislərin sistemli olaraq kitab halına gətirilməsi və axtarılan hədisləri asanlıqla tapmağa imkan verən üsulların inkişaf etdirilməsi yönündəki çalışmalar əsas yer almışdır. Bəzi alimlər hədisləri mövzularına görə "Müsənnəf" adı verilən əsərlər şəklində yazdığı halda, bəziləri də hədisləri ilk ravilərin (səhabələr) adlarına görə sıralayaraq "Müsnəd" adı verilən kitablar yazmışdırlar. Hədisləri fəsillərə görə sıralamağa ilk dəfə kimin başladığı bilinməsə də, Əbu İsa ət-Tirmizi (824-893) və daha geniş bir şəkildə Rəmahürmüzünün (öl. 973) verdiyi məlumata görə, bu mövzuda ilk "əl-Müsənnəf" adlı əsəri Məkkədə İbn Cüreyc (öl. 766), Yəməndə Mömər bin Raşid (öl. 768), Bəsrədə İbn Əbu Arubə (öl. 772) ilə Rəbi bin Sabih (öl. 776), Kufədə Süfyan əs-Sevri (öl. 777), Mədinədə Malik bin Ənəs (öl. 795), Xorasanda Abdullah bin Mübarək (öl. 797), Reydə Cərir bin Əbdülhəmid (öl. 798), Şamda Vəlid bin Müslüm (öl. 810) kimi hədisşünaslar etmişlər.[136]

Təsnif dövründən başlayaraq davam edən iki əsas təsnif sistemi (növü) vardır. Bunlardan birincisi, hədislərin onları rəvayət edən səhabələrin adlarına görə sıralanması ("ələr-Rical"), ikincisi isə hədislərin mövzularına görə ("ələl-Əbvab") sıralanmasıdır.

**"Ələr-Rical" təsnif** (ravilərə görə sinifləndirmə) dedikdə, yazılan hədis əsəri hədis nəql edən səhabə ravilərin müxtəlif xüsusiyyətlərinə görə sıralanır və hər birindən rəvayət edilən hədislər mövzularına baxılmadan ravilərin adları altında qeyd edilir. Burada əsas olaraq da səhabələrin müsəlman olmaqdakı ardıcıllığı, Peyğəmbərə yaxınlıq dərəcəsi kimi xüsusları mənimsənilir. Məsələn, Əbu Davud ət-Tayalisi (751-819) və Əhməd bin Hənbəlin (780-855) "Müsnəd" əsərlərində xəlifə Əbu Bəkrin "müsnədi" ilk sıralarda yer alır. Bu sistem hədis mətnlərini olduğu kimi qorumaq, ravilərə aid rəvayətləri bir yerdə qeyd etmək və hökm çıxarmaq üçün bir yerə toplamaq məqsədindən qaynaqlanır.

"Müsnəd"lərdən başqa "Möcəm" adlı əsərlər də bu sistemə malikdir. Ancaq "Möcəm"lərdə müəllifin müəllimləri ya əlifba sırasına görə, ya da mənsub olduqları qəbilələrə görə sıralanaraq onların rəvayət etdikləri hədislər ardarda verilir. Buna misal olaraq Süleyman bin Əyyub ət-Təbəraninin (873-970) "əl-Möcəmül-əvsat" və "əl-Möcəmüs-səğir" əsərlərini göstərmək olar.

**"Ələl-Əbvab" təsnif** (mövzuya görə sinifləndirmə) dedikdə, yazılan hədis əsərində hədislər ravilərinə baxılmadan mövzularına görə təsnif edilir. Burada hər hansı bir mövzu ilə əlaqəli hədisləri bir yerdə tapmaq mümkündür. Bu təsnifatın əsasında hədisləri əhatə etdikləri, dəlil olduqları mövzulara görə qeyd etmək və onlar üçün xüsusi bir fəsil (bab) ayırmaqdır. Bu sistemlə meydana gətirilmiş əsərlərin ümumi adı "Müsənnəf"dir.

Hədis elmində "Cami"lər və "Sünən"lər və bunlara bağlı olaraq "Müstədrək", "Müstəxrəc" və s. kimi adlarla yazılmış əsərlər də "ələl-əbvab" növünə daxildir.[137] Bu, hədislərin fiqhi fəsillərə, yəni ifadə etdikləri mənalara görə təsnifini ifadə edir.[138]

Beləliklə, hədis əsərləri **"Səhifə", "Cüz", "Kitab", "Müsənnəf", "Müsnəd", "Möcəm", "Cami", "Sünən", "Müstədrək", "Müstəxrəc"** adlarla yazılmışdır.

---

[134] Mücteba Uğur. Ansiklopedik hadis terimleri sözlüğü. s. 333.
[135] İsmail Lütfi Çakan. Hadis edebiyatı. s. 19-20.
[136] Yaşar Kandemir. "Hadis". DİA. XV c. s. 32.
[137] İsmail Lütfi Çakan. Hadis edebiyatı. s. 25-26.
[138] İbrahim Canan. Hadis usulü ve tarihi. s. 137.

**“Səhifə”** adı ilə tanınan hədis kitabları ya həzrət Peyğəmbər həyatda ikən səhabələrdən bəzilərinə görə, ya da tabei təbəqəsi tərəfindən qeyd edilərək yazılmış və olduğu kimi gələcək nəsillərə çatdırılmış kiçik həcmli yazılı hədis əsərləridir. “Səhifə”lərə hələ kitab halına gətirilməmiş hədis əsəri də demək mümkündür. “Səhifə”lər təsnif dövründən əlavə, tədvin dövrünün də məhsullarıdır. Bunlar Qurani-Kərimdən sonra İslamın ilk yazılı mətnləridir.

İmam Əlinin (ə), həzrət Fatimənin (ə), İmam Zeynülabidinin yazdıqları əsərləri dediklərimizə ən böyük nümunələrdir. Bunlardan əlavə, Əbu Hüreyrənin tələbəsi Həmmam bin Münəbbihə yazdırdığı 138 hədisi ehtiva edən “əs-Səhifətüs-səhihə” əsəri ilə Abdullah bin Əmrin həzrət Peyğəmbərdən eşitdiyi hədislərin bir qismini yazıb topladığı “əs-Səhifətüs-sədiqə” bu qrupun məlum olan ən məşhur nümunələridir.

**“Cüz”** adı ilə bilinən hədis kitabları iki xüsusiyyətlə qarşımıza çıxmaqdadır. Bunlar, ya sadəcə, bir ravinin rəvayət etdiyi hədisləri toplayan, ya da ikinci dərəcədəki mövzu ilə bağlı hədislərin toplandığı hədis kitablarıdır. Məsələn, səhabədən Əbu Hüreyrənin Peyğəmbərdən rəvayət etdiyi hədisləri ayrı kitabda toplayan Təbəraninin “Möcəmu Əbi Hüreyrə”si bir “cüz”dür. “Müsnədi-Ömər”, “Müsnədi-Aişə”, “Müsnədi Əbu Əzəm” kimi hədis kitabları bir “cüz”dur. Bütün bunlar ravilərinə görə yazılan “cüz” növündən olan əsərlərdir. İkinci növdən olan əsərlərə Buxarinin (810-870) “əl-Qiraətu xəlfəl-imam” və “Rəfül-yədeyn fis-salat” adlı əsərləri, Məhəmməd bin Nəsr əl-Mərvəzinin (818-906) “Qiyamül-leyl”ini misal göstərə bilərik.[139]

“Cüz” adı ilə adlandırılan hədis kitablarının sayı çoxdur. əl-Qəttan onların saylarının mini keçdiyini yazır və “ər-Risalətül-müstətrəfə” adlı əsərində bunların yüzdən artığını tanıdır. Katib Çələbi (1609-1657) də “Kəşfüz-zünun”da “Cüz”lərin böyük bir qisminin adı və müəlliflərini qeyd etmişdir.

**“Kitab”**lara gəldikdə isə demək lazımdır ki, “Sünən”, “Cami”, “Müsənnəf” və “Müstədrək” kimi həcmli hədis külliyatının əhatə etdiyi əsas və ikinci dərəcədəki mövzular əsasına görə təsnif edilmişdir. Klassik təsnifdə yer alan bu əsas mövzuların bir qismi bunlardır: “İman”, “Sünən” (bu bölüm ibadət, müamələt, və üqubat kimi mövzuların təfərrüatını əhatə edir), “Zöhd”, “Ədəb”, “Dua”, “Elm”, “Tibb”, “Təfsir”, “Cihad”, “Mənaqib” (tarix), “Libas”, “Fitən” və “Məlahim”, “Əşratüs-Saat” və s. Məhz bu əsas mövzular bir hədis məcmuəsinin müxtəlif bölümlərini təşkil edirlər və “Kitab” ünvanını alırlar. “Kitabül-iman” (iman bölümü), “Kitabül-elm” (elm bölümü), “Kitabüt-tibb” (tibb bölümü) kimi. Bu əsas bölmələrin alt başlıqlarına (yarımfəsillərinə) da “bab” deyilmişdir. Məsələn; “İman” əsas mövzudur. Uca Allaha iman onun bir hissəsidir. Hədisşünaslar Allaha iman mövzusundakı hədisləri, o hədis külliyatının “Kitabül-imani billah” başlığı altındakı qismdə toplamışlar.

Hədis sahəsində təsnif edilən kitabların sayı çoxdur. Bu qrupa aid olan əsərlərin bütün qeydiyyatını aparmaq hələlik mümkün olmamışdır. Bu növ əsərlərdən bir neçəsi nəşr edilmişdir. Kitab qrupuna daxil əsərlərin ən məşhurlarından Əbu Bəkr bin Əbu Şeybənin (776-849) “Kitabül-iman”, Məhəmməd bin İsmayıl əl-Buxarinin (810-870) “Kitabül-ədəbil-müfrəd”, “Kitabüt-tarixil-kəbir”, “Kitabüt-tarixil-əvsət”, “Kitabüt-tarixis-səğir” adlı üç əsəri, ət-Tirmizinin (824-893) “Kitabüş-şəmail”, Əhməd bin Hənbəl (780-855), Abdullah bin əl-Mübarək (öl. 798), Əbu Davud əs-Sicistani (817-888), Əsəd bin Musa, Vəki bin Cərrah (öl. 821), Hənnad bin Səriyyə və Əhməd bin Hüseyn əl-Beyhəqi (994-1066) kimi hədisşünasların yazdıqları “Kitabüz-zühd”ləri, Əbu Xeysəmənin (718-792) “Kitabül-ilm”[140], Əbu Nuayım əl-İsfəhaninin (öl. 833) “Kitabüt-tibbin-Nəbi”si, Nuayım bin Həmmadın (öl. 843) “Kitabül-fitən”, Əhməd bin Hüseyn əl-Beyhəqinin “Kitabu dəlailin-Nübüvvə”, “Kitabül-əsma vəs-sifat”, “Kitabül-bəs vən-nuşur” kimi əsərləri kitab qrupuna daxildir.[141]

**“Müsənnəf”** deyilən əsərlər “Sünən” adlı hədis kitabları ilə eynidir. Lakin buna baxmayaraq, “Müsənnəf”lər “Cami” deyilən əsərlər kimi hər mövzudakı hədisləri əhatə etməsələr də, “Sünən”lərdən fərqli olaraq, “Cami”lərdə olan bəzi mövzularla bağlı hədisləri də əhatə edirlər. Bu baxımdan

---

[139] Ali Yardım. Hadis II. s. 63-65; Cəfər əs-Sübhani. Üsulul-hədis. s. 233.

[140] Əsərin əlyazma nüsxəsi Suriyanın paytaxtı Dəməşqdə yerləşən Zahiriyyə kitabxanasında 120 № li kataloqda saxlanılır.

[141] Ali Yardım. Hadis II. s. 65-67.

“Müsənnəf”ləri əhatə etdikləri mövzularına görə “Sünən”lərlə “Cami”lər arasında dayanan bir əsər kimi təqdim etmək mümkündür.[142]

“Musənnəf” növünə Malik bin Ənəsin (712-795) “əl-Müvəttə”sini və Əbdürrəzzaq bin Həmmamın (744-826) “əl-Müsənnəf” adlı əsərlərini misal verə bilərik.[143]

**“Müsnəd”**lər IX əsrdə yazılan və hədisləri digər hədis əsərlərindən başqa üsulla təsnif edilən kitablara deyilir. “Sünən”, “Müsənnəf”, və “Cami” adı verilən əsərlərdə hədislərin mövzularına görə təsnif edildiyini, hər bir müstəqil mövzuya kitab deyildiyini və kitabın da mövzunun genişliyinə görə müxtəlif sayda fəsillərə ayrıldığını yuxarıda qeyd etmişdik. İlk dəfə IX əsrdə ortaya çıxan və “Müsnəd” olaraq bilinən hədis əsərləri isə, bir az əvvəl də qeyd etdiyimiz kimi, ayrı metodla ərsəyə gətirlimişdir. Bu əsərlərdə hədislərin mövzularına əhəmiyyət verilməmiş, ancaq kitabda yazılacaq hədislər ya onları rəvayət edən səhabə, yaxud da səhabədən sonrakı ravilərdən birinin adı altında toplanmışıdr. Məsələn, Əbu Hüreyrənin Peyğəmbərdən rəvayət etdiyi hədislər mövzuları nə olursa olsun, Əbu Hüreyrə adı altında, İbn Abbasın rəvayət etdiyi hədislər də Abbas adı altında yığılaraq müxtəlif səhabələrin hədislərinin bir araya toplanması ilə ərsəyə gətirlimişdir.

Qaynaqlardan öyrəndiyimizə görə, Əbu Davud ət-Tayalisi (751-819) ilk dəfə olaraq “Müsnəd” adlı əsərini yazmışdır. Əbu Davuddan sonra da çox sayda “Müsnəd” yazılmışdır. Hədis tarixi ilə bağlı əsərlərdə “Müsnəd” yazanlara aid altmışdan çox ad tapmaq mümkündür. Bunlardan ən məşhuru Əhməd bin Hənbəlin (780-855) “Müsnəd”idir.[144]

“**Möcəm”** termini ümumi mənada məlumatları əlifba sırasına görə tərtib edildiyi əsərlər üçün işlədilir. Hansı əsər üçün işlədilirsə işlədilsin, əlifba sırası ilə təsnif nəzərdə tutulur. Məsələn, lüğətlər üçün “Möcəmül-lüğə” deyilir. Əlifba sırası ilə tərtib edildiklərinə görə Yaqut əl-Həməvinin (1168-1229) coğrafi və bioqrafik əsərləri “Möcəmül-buldan” və “Möcəmül-üdəba” adını almışdır. Digər tərəfdən, səhabə adlarının əlifba sırasına görə tərtib edilən “Müsnəd” adlı hədis kitablarına, eyni zamanda “Möcəmüs-səhabə” də deyilə bilər.

Ancaq hədisşünaslar bu termini xüsusi mənada işlətmişlər. Onlar son ravi əsasına görə təsnif etdikləri əsərlərinə “Möcəm” adını vermişlər. Bu növdən olan əsərlərdə son ravilər, yəni hədisşünasların hədis öyrəndiyi müəllimləri (şüyux) əlifba sırasına görə sıralanır və hər şeyxdən alınmış bütün hədislər mövzularına baxılmadan bir yerə yığılır. Hədisləri rəvayət edən şeyxlərin əlifba sırasına görə yazıldığı üçün bu cür əsərlərə “Möcəmüş-şüyux” adı verilmişdir.

“Müsnəd”lərlə “Möcəm”lərin mövzuları arasında fərq yoxdur, sadəcə, şəkil fərqi vardır. Hər ikisi də hədisləri ravilərinə görə tərtib edilən əsərlərdir. Necə ki, “Müsnəd”lərdə ilk ravi, yəni səhabə əsas alınarkən, “Möcəm”lərdə son ravi, yəni şeyx (hədisşünasın öz müəllimi) əsas götürülmüşdür.[145]

Süleyman bin Əhməd ət-Təbəraninin (873-970) “əl-Möcəmül-kəbir”, “əl-Möcəmül-əvsət”, “əl-Möcəmüs-səğir” adlı üç əsəri “möcəm” növlü hədis kitablarının ən məşhurudur.[146]

**“Cami”**lər VIII əsrdə yazılan bəzi hədis kitablarına deyilmişdir. “Cami”lər də “Sünən”lər kimi ibadət, alış-veriş və şəri cəzalara aid fəsillərə görə nəql edilmiş hədisləri əhatə edir, ancaq “Cami”lərin əhatə etdikləri hədislər, sadəcə bu mövzularla əlaqəli hədislərdən ibarət deyil. Bunlardan əlavə, “Cami”lərdən daha çox dəyişik mövzulardakı hədislərə də yer verilmişdir.[147]

“Müsənnəf” növünü izah edərkən toxunduğumuz kimi, “Cami”lər dini mövzuların demək olar hamısını səkkiz əsas bölmədə əhatə etmişdir. Deməli, “Cami”lər hər birinə “kitab” deyilən bu səkkiz bölümdən ibarətdir.

---

[142] Talat Koçyiğit. Hadis usulu. s. 286.
[143] İsmail Lütfi Çakan. Hadis edebiyatı. s. 45.
[144] Cəfər əs-Sübhani. Üsulul-hədis. s. 232.
[145] Ali Yardım. Hadis II. s. 76-77.
[146] Mücteba Uğur. Ansiklopedik hadis terimleri sözlüğü. s. 245-246; Cəfər əs-Sübhani. Üsulul-hədis. s. 232.
[147] Talat Koçyiğit. Hadis usulu. s. 285.

“Cami”lərə, eyni zamanda “Səhih” də deyilir. Məsələn, Buxari (810-870), Müslüm (821-875) və Tirmizinin (824-893) kitablarının adı “əl-Camiüs-səhih”dir. Tirmizinin əsəri ehtiva etdiyi mövzularına görə “camı”dir. Amma onu “Sünən”lər arasında saymaq məşhurlaşmışdır.

Xüsusi olaraq hədis ədəbiyyatının ilk dövrünə aid qədim örnəklərdən biri olan Mömər bin Raşidin əsərinin adı da “Cami”dir. Əbdürrəzzaq bin Həmmamın “əl-Müsənnəf” adlı əsəri daxilində nəşr edilən bu “Cami” yuxarıda qeyd etdiyimiz səkkiz bölümü əhatə etmir.

Digər tərəfdən, hələ sonrakı dövrlərdə yazılan “cami” xüsusiyyətli bəzi kitablara da “cami” adının verildiyini görürük. “Camiul-üsul”, “əl-Camiüs-səğir” və s. kimi. Bu əsərdə “cami” kəlməsi lüğəvi mənadadır. Çünki bu kitablar qaynaqlarındakı müəyyən hədisləri ya “ələl-əbvab” (fəsillərə görə), yaxud da “ələl-əhruf” (əlifba sırası ilə) olaraq toplamışlar.[148]

**“Sünən”**lər “sünnə”nin cəmi olub həzrət Peyğəmbərin sünnəsini əks etdirən hədisin yazılı olduğu kitaba deyilir.

Peyğəmbərin söz, fel və təsdiqlərindən ibarət sünnəsini əks etdirən hədislər mövzularına görə təsnif edildikdən sonra müxtəlif metodlarla toplanıb bu kitablara yazılmışdır.[149]

Tarixi bir həqiqətdir ki, ilk dövrlərdən bəri hədisşünaslar ehkam və etiqad ilə əlaqəli hədislərə xüsusi diqqət vermişlər. Yəni heç bir zaman bu iki mövzuya aid hədisləri, tarixi hədislərlə bir tutmamışlar. Bu ümumi vəziyyətin bir nəticəsi olaraq IX əsrin ikinci yarısından etibarən hədisşünaslar ehkam hədislərini toplamağa yönəlmişlər və bu yönəliş hədis tarixində “Sünən”ləri meydana çıxarmışdır. “Sünən” təharət fəslindən “vəsiyyət” fəslinədək bütün fiqhi mövzulara dair hədisləri əhatə edən əsərlərə deyilir. Buna görə də hədisşünaslar “Sünən” adlı əsərlərə belə tərif verirlər: “Fiqhi fəsillər əsas alınaraq təsnif edilmiş ehkam hədislərini əhatə edən kitablara “Sünən” deyilir”.[150]

Altı hədis kitabı “Kütubüs-sittə”nin dövrünü təşkil edən “Sünən”lərin müəllifləri Əbu Davud əs-Sicistani (817-888), Əbu İsa ət-Tirmizi (824-893), Əhməd bin Şüeyb ən-Nəsai (830-915) və İbn Macə əl-Qəzvini (824-886) ən çox şöhrət qazanan şəxslər olmuşlar. Bu dörd hədis liderinin sünənləri də əhatə etdikləri hədislər yönündən digər sünənlərə nisbətən daha səhih sayılmış və “Kütubüs-sittə” içərisində “Sünəni-ərbəə” adı ilə tanınmışdır. Bu dörd “Sünən”i də öz aralarında dərəcələndirən hədisşünaslar “Sünənün-Nəsai”nin digərlərindən daha səhih olduğunu və onun ardınca Əbu Davud, Tirmizi və İbn Macənin “Sünən”lərinin gəldiyini bildirmişlər.

**“Müstədrək”** “istidrak” sözündən olub “əvvəlcədən gözdən qaçmış bir şeyin xatırlanması”, “edilmiş bir xətanın düzəldilməsi”, “nöqsan bir bilginin tamamlanması” deməkdir. Hədis ədəbiyyatı terminologiyasında isə fəhm və əlavə mənasında işlədilir.[151]

Hədisşünasların çoxu əldə etdikləri hədisləri bir əsərdə toplamadıqları kimi, onların heç biri Peyğəmbərin hədislərinin hamısına sahib də deyildilər. Buna görə də birinin əsərində olan hədis digərinin əsərində olmaya bilər. Həqiqətən bir şəxs öz sahəsində nə qədər məşhur olursa olsun, şübhəsiz onun da bilmədiyi məlumatlar və əldə edə bilmədiyi əsərlər ola bilər. Qədimdən bəri insanların daim bir-birlərini tamamladıqları hər kəsə məlum olan bir həqiqətdir.

Bundan əlavə, hədislərin səhihlik dərəcələrini təyin etmək məsələsində də hər hədisşünasın özünə görə əsas tutduğu prinsiplər olmuşdur. Bu prinsiplərə hədisşünasın şərti deyilir. Necə ki, Buxarinin şərti ilə Müslümün şərti, Müslümün şərti ilə Əbu Davudun şərti, Əbu Davudun şərti ilə də bir digər hədisşünasın şərti eyni deyildir. Səhih hədislər üçün irəli sürülən əsas şərtlərdə ittifaq olsa da, hədisşünasların diqqətliliklərinə görə, təfərrüatda fərqliliklər gözə çarpır. Buna görə də Buxariyə görə “səhih” qəbul edilməyən bir hədis, Müslümə görə “səhih” sayıla bilər və ya Müslümün “həsən” qəbul etdiyi bir rəvayət Tirmizinin nəzdində “səhih” hökmünü daşıya bilər. Bu vəziyyəti göz önündə tutan

---

[148] İsmail Lütfi Çakan. Hadis edebiyatı. s. 52-53; Cəfər əs-Sübhani. Üsulul-hədis. s. 231-232.
[149] Mücteba Uğur. Ansiklopedik hadis terimleri sözlüğü. s. 362-363.
[150] İsmail Lütfi Çakan. Hadis edebiyatı. s. 80-81.
[151] Həmin mənbə. s. 115.

hədisşünaslar bir rəvayətin hökmünü bildirərkən, mütləq bir hökm yerinə "bu hədis Buxariyə görə səhihdir, bu Müslümə görə səhihdir, bu Hakimə görə səhihdir", şəklində ifadələr işlətmişlər.

Araşdırdıqları hər kəlməyə yeni bir nüans qazandıran hədisşünaslar bu ifadəni daha xüsusi bir mənada dəyərləndirmişlər. Hədisşünaslara görə, daha əvvəlki bir hədisşünasın şərtlərinə uyğun düşdüyü halda, onun əsərində yer almamış hədislərin daha sonrakı hədisşünas tərəfindən toplanaraq müstəqil bir əsərdə yazılması nəticəsində yaranan hədis məcmuələrinə "Müstədrək" adı verilmişdir.

"Müstədrək"lər daha öncəki əsərin davamı qəbul edilir. Bu, "əgər o hədisşünas həmin hədisləri bilsəydi, onları da əsərinə alardı", deməkdir. Burada bir nöqtəyə işarə edilməlidir ki, "Müstədrək"lər yalnız "səhih" hədisləri əhatə edən əsərlər üzərinə yazılmışdır. İçində səhih hədislərlə bərabər "həsən", "zəif" kimi hədislərə də yer verən əsərlər üzərinə belə araşdırma aparılmamışdır. Xüsusilə Buxari (810-870) və Müslümün (821-875) "əl-Camiüs-səhih"ləri üzərində bir neçə "Müstədrək" vardır. Əbülhəsən Əli bin Ömər əd-Dəraqutni (919-998), Hakim ən-Nisaburi (933-1014) və Əbu Zər Əbd bin Əhməd əl-Hərəvinin (öl. 1011) "əl-Müstədrək ələs-səhiheyn"ləri bunlardan üçüdür.

Şübhəsiz, "Müstədrək"lərin arasında ən məşhur olanı Hakim ən-Nisaburi deyə bilinən Əbu Abdullah Məhəmməd bin Abdullah ən-Nisaburinin "əl-Müstədrək ələs-səhiheyn"idir.[152] Müasir dövrdə isə Əllamə Nurinin (1838-1902) "Müstədrək ələ vəsailiş-şiə" əsəri də hədis ədəbiyyatı tarixinin şah əsərlərindəndir.

**"Müstəxrəc"**lər hədis terminologiyasında hər hansı hədis kitabındakı hədisləri başqa sənədlərlə yeni bir kitabda toplamağa deyilir. Ancaq fərqli sənədləri göstərilən hədislərin hər zaman eyni mətnə aid olduğu da düşünülməməlidir. Bəzən mətndə, hətta mənada da fərqliliklər görülə bilər. "Müstəxrəc"lərdəki hər sənəd mütləq səhih olmaya bilər. Çünki, bu "Müstəxrəc" yazan müəllifə görə səhihdir, amma ümumi bir dəyərləndirmədə zəif çıxa bilər. Əsas qəbul edilən kitabın səhihliyi, "Müstəxrəc"dəki hər yeni sənədin də mütləq səhih olması lazım deyil.[153]

Bütün bu adlar altında yazılan hədis əsərləri VIII əsrdə yazılmışdır. Bunlardan başqa, Malik bin Ənəsin (712-795) "əl-Müvətta", Məhəmməd bin İdris əş-Şafeinin (767-820) "əl-Umm", Əbdürrəzzaq bin Həmmam əs-Sənaninin (774-826) "əl-Müsənnəf", Süfyan bin Üyeynənin (772-813) "əl-Müsənnəf", Mömər bin Raşidin (öl. 767) "əl-Cami", Abdullah bin Vəhbin (öl. 813) "əl-Cami", İmam Əli bin Hüseynin (658-715) "Səhifətüs-Səccadiyyə" əsərləri VIII əsrin ən məşhur əsərlərindəndir.

IX əsrdə hədis yazmaq fəaliyyəti daha da genişlənmişdir. Bu dövrdə onlarla müxtəlif adlar altında hədis əsərləri yazılmışdır. Bu əsərlərin başında Buxari (810-870) və Müslümün (821-875) "əl-Camiüs-səhih", Tirmizi (824-893), Nəsai (830-915), Əbu Davud (817-888), İbn Macənin (824-886) "Sünən", Əhməd bin Hənbəlin (780-855) isə "Müsnəd" əsəri gəlməkdədir.

X-XI əsrlərdə isə Məhəmməd bin Yaqub əl-Küleyninin (öl. 941) "Üsulul-kafi", İbn Quləveyhin (öl. 975) "Kamilüz-ziyarat", Şeyx əs-Səduqun (917-991) "Mən la yəhzuruhül-fəqih", Təbəraninin (873-970) "əl-Məacim", Şeyx ət-Tusinin (998-1068) "Təhzibül-əhkam" və "əl-İstibsar", Beyhəqinin (994-1066) "Sünənül-kubra" əsərləri və digər başqa mühüm qaynaqlardır.

Növbəti əsrlərdə yazılmış bəzi məşhur əsərlər, o cümlədən Əllamə Əli əl-Müttəqi əl-Hindinin (1483-1567) "Kənzül-ummal", Feyz əl-Kaşaninin (1598-1680) "əl-Vafi", Əllamə Məhəmməd Bağır əl-Məclisinin (1628-1700) "Biharül-ənvar", Məhəmməd bin Həsən Hürr əl-Amilinin (1623-1695) "Vəsailüş-şiə" əsərləri də məşhur və mötəbər mənbələrdəndir.[154]

### 1.5. Hədis elminin bölümləri

Hədis elmləri VIII-IX əsrlərədək demək olar ki, heç bir qismə ayrılmamış və din elmlərinin əsas qaynağı kimi ümumi şəkildə tədris olunur və öyrənilirdi. Lakin sonralar İslam elmlərinin genişlənməsi,

---

[152] Ali Yardım. Hadis II. s. 94-95; Cəfər əs-Sübhani. Üsulul-hədis. s. 232.
[153] İsmail Lütfi Çakan. Hadis edebiyatı. s. 116-117.
[154] Cəfər əs-Sübhani. Üsulul-hədis. s. 232; İbrahim Quliyev. Hədisşünaslığın əsasları. s. 367-445.

müsəlmanların kənar mədəniyyətlərlə tanış olması və kənardan gəlmiş yad təfəkkür tərzinin İslam mədəniyyətinə təsir etməsi, bu təsirlər nəticəsində müxtəlif firqələrin və qrupların ortalığa çıxması Peyğəmbər və onun əhli-beytindən rəvayət olunan hədislərə də öz mənfi təsirini göstərməyə bilməzdi. Belə olan halda müsəlman alimləri, xüsusilə də hədisşünaslar hədisləri qorumaq, onlara qarışmış yəhudi və xristian dinlərinin, həmçinin yunan, Roma, hind və İran mifologiyasından və ya fəlsəfəsindən süzülüb gəlmiş fikirlərin qarşısını almaq və ya təmizləmək üçün hədis elmlərinin metodunu hazırlamağa məcbur olmuşlar.[155]

Hədis elmləri iki növə ayrılır. Bunların birincisinə “İlmül-hədis rivayətən – rəvayət yönündən hədis elmi”, ikincisinə isə “İlmül-hədis dirayətən – dirayə yönündən hədis elmi” deyilir.

Rəvayət yönündən hədis elminə hədis tarixi də demək mümkündür. Amma dirayə yönündən hədis elminə gəldikdə, hədisşünaslar onu belə tərif edirlər: “Dirayə elmi vasitəsi ilə hədisin mətni, onun sənədi, nəql olunma yolları öyrənilir, səhihindən zəifi araşdırılır. Həmçinin bu elm vasitəsi ilə məqbul hədislər mərdud hədislərdən seçilib öyrənilir”.[156]

Dirayə elminə aid əsərin ilk olaraq kim tərəfindən yazılması üçün mənbələr daha da dərindən və obyektiv şəkildə araşdırıldıqda məlum olur ki, bu elmə aid ilk əsərlər VIII əsrdən etibarən yazılmışdır. Belə ki, öz dövründə etibarlı şəxs kimi tanınan, İmam Sadiqin və İmam Kazimin səhabələrindən olmuş Hişam bin Həkəm əş-Şeybani əl-Kufi (öl. 815) ilk dəfə olaraq dirayə elminə aid əsər yazmışdır. Onun yazdığı əsərin adı “Kitabül-əlfaz”dır. Bundan başqa, Yunus bin Əbdürrəhman Movla Ali Yəqtin də dirayə elminə aid əsər yazmış alimlərdəndir. O, Hişam bin Əbdülməlikin dövründə (724-743) doğulmuş, İmam Sadiqi Səfa və Mərva dağları arasında görmüş, lakin ondan heç bir hədis rəvayət etməmişdir. O, İmam Kazim və İmam Rzanın hədislərini rəvayət etmişdir. Təfsir, kəlam, fiqh və dirayə elmlərinə aid dəyərli əsərlər yazan Ali Yəqtinin bu sahəyə aid yazdığı əsərlərdən “Kitabu iləlil-hədis” və “Kitabu ixtilafil-hədis”i göstərmək olar.

Dirayə elminə aid ilkin əsər yazanlardan biri də Həsən bin Musa ən-Nobəxtidir (IX əsr). O, öz dövründə tanınmış mütəkəllim və filosoflardan olmuşdur. Onun müxtəlif elmlərə aid dəyərli əsərləri varmış. Nöbəxtinin dirayə elminə aid yazdığı əsərlərin adlarından “əl-Xüsus vəl-ümum” və “Kitab fi xəbəril-vahid vəl-əməl bihi”ni qeyd etmək olar. Bunlardan başqa, Abdullah bin Cəblə əl-Kinaninin (öl. 834) “Kitabür-rical”, Həsən bin Məhbubun (öl. 839) “Kitabül-məşixə”, Həsən bin Fəzzalın (öl. 839) “Kitabür-rical”, Əli bin Həsən bin Fəzzalın “Kitabür-rical” əsərləri də dirayə elmi sahəsində yazılmış ilkin qaynaqlardandır. Amma əvvəldə də qeyd etdiyimiz kimi, bu qədim əsərlərdən heç biri dövrümüzədək gəlib çıxmamışdır.

Bütün bunlarla yanaşı, Əbu Məhəmməd əl-Həsən bin Əbdürrəhman bin Xəllad əl-Farisi ər-Rəmahürmüzünün (öl. 971) “əl-Mühəddisul-fasil beynər-ravi vəl-vai”, Hakim ən-Nisaburinin (öl. 1014) “Mərifətu ülumil-hədis”, Xətib əl-Bağdadinin (1002-1071) “əl-Kifayə fi ilmir-rivayə”, İbn əs-Salahın (1181-1245) “Ülumul-hədis”, İbn Tavusun (öl. 1275) “Həllül-işkal”, Əllamə Əli bin Əbdülhəmid əl-Həsənin (öl. 1363) “Şərhu üsuli dirayətil-hədis”, Şəhid Zeynüddin əl-Amilinin (1508-1558) “əl-Bidayə fi ilmid-dirayə” və s. əsərlər bu sahənin məşhur mənbələrindəndir.

[155] İbrahim Quliyev. Hədisşünaslığın əsasları. s. 492-494.
[156] Cəfər əs-Sübhani. Üsulil-hədis və əhkamuhu. s. 14.

## II FƏSİL

## ORTA ƏSRLƏR AZƏRBAYCAN HƏDİSŞÜNASLARI (VII-XVIII əsrlər)

### 2.1. Yəhya bin Malik əl-Marağİ

Əbu Əyyub Yəhya bin Malik əl-Marağİ VII əsrdə yaşamış ən görkəmli və hələlik təsbit olunmuş ilk Azərbaycan hədisşünasıdır. Tanınmış ricalşünas alim Yusif bin Əbdürrəhman əl-Mizzi (1256-1341) onun haqqında yazırdı: "O, Yəhya bin Malikdir. Ona bəzən Həbib bin Malik və əl-Əzdi də deyilir. O, Səmurə bin Cündəb, Abdullah bin Abbas, Abdullah bin Əmr bin As, Əbu Hüreyrə, Cüveyriyyə bint əl-Harisdən hədislər rəvayət etmişdir. Onun özündən isə əl-Əcli, Sabit əl-Bənai, Əbülvasil Əbdülhəmid bin Vasil, Qətadə bin Diamə, Əbu İmran əl-Cuni rəvayət etmişlər. Onun haqqında Əhməd bin Şüeyb ən-Nəsai (933-1015) demişdir ki, hədisdə etibarlı (siqə) adamdır.

Əbu Hatəmin dediyinə görə, Yəhya bin Malik Həccac bin Yusifin (695-715) hakimiyyəti zamanı vəfat etmişdir. Əbu İsa ət-Tirmizidən (824-893) başqa əksər hədisşünaslar ondan hədis nəql etmişlər".[157]

Onun haqqında Əllamə Cəmaləddin əl-Hümeyri yazırdı: "əl-Marağİ Azərbaycana məxsus məntəqə olan Marağadandır..."[158]

### 2.2. Həsən bin İbrahim əl-Babi əd-Dərbəndi

O, hədis elmində ikinci ən mühüm təbəqə olan tabeilər təbəqəsindəndir.[159] Təəssüflər olsun ki, onun həyatı və fəaliyyəti haqqında geniş məlumat yoxdur.

### 2.3. Əbu Məhəmməd ət-Tiflisi

Əbu Məhəmməd ət-Tiflisinin VIII əsrin sonları və IX əsrin əvvəllərində yaşadığı güman edilir. Bəzi alimlər onun İmam Rzanın (765-818) səhabələrindən olduğunu, lakin hədis elmində məchul ravi kimi tanındığını qeyd etmişlər. Amma görkəmli rical alimi əl-Bərqi isə onu İmam Kazimin səhabələrindən saymışdır.

Əbu Məhəmməd ət-Tiflisi İmam Rzadan hədislər nəql etmişdir. Onun bu hədislərini Şeyx ət-Tusi (998-1067) "Təhzibül-əhkam" (I c. "vacib qüsllər" fəsli. Hədis № 286) və "əl-İstibsar" (I c. "meyit qüslu" fəsli. Hədis № 330) əsərində nəql etmişdir. Bundan başqa, digər görkəmli hədis alimi Şeyx əs-Səduq (917-991) "əl-Fəqih" əsərində (III c. Hədis № 1390) onun İmam Rzadan nəql etdiyi hədisi qeyd etmişdir.

### 2.4. Əbu Əli Hüseyn bin Səfvan əl-Bərzəi

Miladi IX əsrin görkəmli azərbaycanlı hədisşünaslarından biri Hüseyn əl-Bərzəidir. Onun doğum tarixi dəqiq olaraq bilinməsə də, vəfat tarixi haqqında mənbələrdə məlumatlar vardır. Belə ki, Xətib əl-Bağdadi (1002-1071)[160] onun vəfat tarixini 854, Şəmsəddin əz-Zəhəbi (1274-1348)[161] isə 894-cü ili göstərməkdədir. Lakin Zəhəbinin göstərdiyi tarix çox zəif hesab olunur. Çünki əl-Bərzəi 894-cü ildə vəfat edən İbn Əbi Dünyanın müəllimi olmuşdur.[162]

---

[157] Cəmaləddin əl-Mizzi. Təhzibül-kamal. XXXIII c. Təhqiq: Əvvad Məruf. Müəssisətur-risalə, I çap, 1413/1992. s. 60-61. Ravi № 7217.
[158] Əllamə Cəmaləddin əl-Hümeyri. ən-Nisbə iləl-məvazi vəl-büldan. I c. s. 586.
[159] Qoşqar Səlimli. İslamın ilk dönəmlərində bəzi azərbaycanlı mühəddislər. (Çap olunmamış doktora tezi). s. 55.
[160] Xətib əl-Bağdadi. Tarixül-Bağdad. VIII c. s. 54.
[161] Şəmsəddin əz-Zəhəbi. Taixül-islam. XXV c. s. 189.
[162] Qoşqar Səlimli. İslamın ilk dönəmlərində bəzi azərbaycanlı mühəddislər. BDU-nun elmi məcmusəi, № 4, sentyabr, 2005. s. 98.

Hüseyn bin Səfvan hədis elmində bir çox tələbələr yetişdirmişdir. Onun haqqında Dəraqutni (918-995) yazırdı: "Hüseyn bin Səfvan əl-Bərdəi bizə hədis nəql etmişdi".[163] Şübhəsiz ki, Dəraqutni Hüseyn bin Səfvandan birbaşa deyil, vasitə ilə hədis öyrənmişdir.

Bununla yanaşı, mənbələr Hüseyn əl-Bərdəinin etibarlı və doğru danışan şəxs kimi tanındığını xəbər verir. Belə ki, Xətib əl-Bağdadi onun haqqında yazırdı: "Hüseyn bin Səfvan bin İshaq bin İbrahim Əbu Əli əl-Bərdəi doğrucul biri idi".[164]

əl-Bərzəi "əl-Fərəc bədəş-şiddə", "Kitab istinail-məruf", "əl-Mənamat", "Zəmmül-məlahi", "Kitabül-vəcd", "Kitab məqaidiş-şeytan", "Kitabül-üqubat" və digər əsərlərin müəllifidir.

### 2.5. Hüseyn bin Məhəmməd ət-Tiflisi

Qazı Hüseyn bin Məhəmməd bin Bəyan Tiflisi hədisşünas və Tiflis şəhərinin qazısı olmuşdur. Babası Bəyan ət-Tiflisidən hədis dinləmiş və nəql etmişdi. Ölüm tarixi məlum deyil. Təqribən IX əsrdə yaşamışdı.[165]

### 2.6. İbn Macə əl-Qəzvini

"Kütubi-sittə" müəlliflərindən biri olmuş Əbu Abdullah Məhəmməd bin Yezid bin Macə əl-Qəzvini 824-cü ildə Qəzvin şəhərində doğulmuşdur.[166]

Onun yazdığı əsərlər içərisində "Sünən" daha məşhurdur. Əsər əvvəllər "Kütubus-sittə" sıralarına daxil edilməmişdi. Buna görə də onun əsəri "Kütubus-sittə" sıralarına daxil edilənədək, beş kitab ("Kütubul-xəmsə") şöhrətli olmuşdur. Mənbələr İbn Macənin "Sünən" əsərinin ilk dəfə "Kütubul-xəmsə" sıralarına daxil edən şəxsin Əbülfəzl Hafiz Məhəmməd bin Tahir əl-Məqdisi (öl. 1113) olduğunu qeyd edir.[167] Belə ki, İbn Tahir əl-Məqdisi "Ətrafül-kütubus-sittə" adlı kitabı ilə "Şurutül-əimmətis-sittə" adlı risaləsində "Sünəni-İbn Macə"ni altıncı kitab olaraq "Səhih"lər arasında qeyd etmiş, onu Hafiz Əbdülğəni əl-Məqdisi (öl. 1203) "əl-Kəmalu fi əsmair-rical" əsərində təsdiq etmişdir. Bu görüşü digər "ətraf" və "rical" müəllifləri davam etdirərək İbn Macənin "Sünən"ini XIII əsrdən etibarən "Kütubus-sittə"nin altıncı kitabı olaraq qəbul etmişlər.[168] Amma "Sünəni-İbn Macə"ni İbn əs-Səlah (1181-1245) və Əbu Zəkəriyya ən-Nəvəvi (1233-1277) kimi məşhur hədisşünaslar "Kütubus-sittə"dən saymırlar. Buna görə də bu hədisşünaslar İbn Macənin "Sünən"indən bəhs etməmişlər.[169] Bəzi alimlər isə Malik bin Ənəsin (712-795) "əl-Müvətta" əsərini "Kütubus-sittə" sıralarına daxil edib, onu İbn Macənin "Sünən"indən daha səhih bilirlər.[170] Bu görüşü Rəzin bin Müaviyə (öl. 1130) "ət-Təcrid", İbn Əsir əl-Cəzəri (1160-1233) isə "Camiül-üsul" əsərində qeyd etmişlər. Digər hədisşünaslar isə Osman bin Səid əd-Dariminin (812-892) "Sünən" əsərini İbn Macənin "Sünən"indən daha səhih olduğu görüşünü irəli sürərək onu İbn Macənin əvəzinə "Kütubus-sittə" sıralarından bilirlər. Onlara görə, Dariminin "Sünən"indəki zəif ravilər azdır. Bundan başqa, əsərdə "münkər" və "şazz" hədis yoxdur.[171]

Hədisşünasların məlumatlarına görə, İbn Macənin "Sünən" əsərində 37 kitab (böyük fəsil) vardır və bunlar içərisində də 4341 hədis mövcuddur.[172] Bu hədislərdən də 1339-u zəvaiddir, yəni digər kitablarda yer almayanlardır.[173]

---

[163] Müqbil bin Hadi əl-Vadei. Tərcümətül-İmam əd-Dəraqutni. Səna, Darül-asar, 1420/1999. s. 198. Ravi № 480.
[164] Həmin mənbə. (Xətib əl-Bağdadi. Tarixül-Bağdad. VIII c. s. 54 əsərinə istinadən).
[165] Elnur Nəsirli. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər. Bakı, 2011. s. 378.
[166] İbrahim Canan. Hadis usulü ve tarihi. s. 226.
[167] İsmail Lütfi Cakan. Hadis edebiyatı. s. 95.
[168] İbrahim Canan. Hadis usulü ve tarihi. s. 226.
[169] Həmin mənbə. s. 226.
[170] İsmail Lütfi Cakan. Hadis edebiyatı. s. 96.
[171] Geniş məlumat üçün bax: İbrahim Quliyev. Hədisşünaslığın əsasları. s. 233-237.
[172] İsmail Lütfi Cakan. Hadis edebiyatı. s. 94.

İbn Macənin “Sünən” əsərini onun məşhur tələbəsi Əbülhəsən əl-Kəttani rəvayət etmişdir.[174]

Əsəri Məhəmməd bin Əbdülbaqi təhqiq edərək nəşr etdirmiş və burada fəsillər (bablar) və hədisləri nömrələmişdir. Əbdülbaqi bu nəşrini 1952-ci ildə Misirdə iki cild halında həyata keçirmişdir.

“Sünən”in ən məşhur şərhlərindən aşağıdakıları qeyd etmək olar:

“Misbahüs-zücacə əla sünəni-İbn Macə”. Cəlaləddin əs-Süyuti (1445-1505) yazmışdır.

“İncaül-hacə”. Mövləvi Əbdülğəni əd-Dehləvi qələmə almışdır.

“Haşiyə”. Əbülhəsən Məhəmməd bin Əbdülhadi əs-Sindi yazmışdı.

“Sünən”in bundan başqa digər şərhləri də vardır.[175]

İbn Macə 886-ci ildə vəfat etmişdir.[176]

### 2.7. Əbu Əli Osman Səid bin Əmr əl-Bərdəi

Tanınmış Azərbaycan hədisşünaslarından biri əl-Bərdəidir. O, Azərbaycanın qədim elm mərkəzlərindən olan Bərdədə doğulmuş, hədis təhsili üçün müxtəlif bölgələrə səfərlər etmiş və öz dövrünün ən görkəmli ilahiyyatçı alimlərindən dərs almışdır. Müxtəlif bölgələrdə elmi səfərlərdə olan Əbu Osman sonda Bağdadda məskunlaşmış və orada hədisşünaslığın inkişafında müstəsna xidmətlər göstərmişdir.

əl-Bərdici 905-ci ildə vəfat etmişdir.

### 2.8. Əhməd bin Harun əl-Bərdici

Hədis elminin görkəmli azərbaycanlı nümayəndələrindən biri Əhməd bin Harun əl-Bərdici əl-Bərzəidir. Doğum tarixi dəqiq olaraq bilinməsə də, bəzi qaynaqlarda 845-ci ildə doğulduğu və 914-cü ildə vəfat etdiyi məlumdur.[177] Hədis öyrənmək üçün çoxlu bölgələrə səfər edən alim sonda Bağdadda məskunlaşmış və burada hədisşünaslıqla yanaşı, digər İslam elmləri sahəsində faydalı əsərlər yazmışdı. Bu sahədə onun xidmətləri iki istiqamətdə özünü göstərməkdədir. Belə ki, adı çəkilən alim həm əsər yazmaqla həm də tələbə yetişdirməklə hədisşünaslığın inkişafına böyük töhfələr vermişdi. O, hədisşünaslığın mühüm sahəsi olan rical (hədis raviləri) elmi ilə məşğul olmuşdur. Onun yazdığı əsərlər içində “Təbəqatül-əsmail-müfrədə minəs-səhabə vət-tabein və əshabil-hədis” və “Cüz fi mən rəva anin-Nəbi minəs-səhabə fil-kəbair”in xüsusi önəmi vardır. Xoşbəxtlikdən hər iki əsər günümüzədək gəlib çatmışdır. Onun “Təbəqatül-əsma” əsəri 1987-ci ildə Dəməşqdə nəşr edilmişdir.

Onun haqqında Cürcani yazırdı: “Dəraqutnidən Əbu Bəkr əl-Bərdici haqqında soruşdum . O, belə cavab verdi: “O, güvənilən və əmanətdar biridir”.[178]

Öz dövrünün ən görkəmli hədisşünaslarından olan Əhməd Bərdici heç bir alim tərəfindən “cərh” olunmamış və hədis elmində etibarlı bir ravi kimi tanınmışdır. Onun həyatı və yaradıcılığı haqqında Yaqut əl-Həməvinin (1168-1229) “Möcəmül-buldan” (I c. səh. 378), Şəmsəddin əz-Zəhəbinin (1274-1348) “Siyəru aləmin-nübəla” (XIV c. səh. 122) və digər əsərlərdə məlumatlar vardır.

### 2.9. Əhməd bin Məhəmməd əz-Zəncani

Əbu Abdullah Əhməd bin Məhəmməd bin Sakin əz-Zəncani fəqih və hədisşünas olmuşdur. O, İraq, Hicaz və Misirə səyahət edərək dövrünün məşhur alimlərindən hədis və fiqh dərsləri almışdı.

---

[173] İbrahim Canan. Hadis usulü ve tarihi. s. 227.

[174] İsmail Lütfi Cakan. Hadis edebiyatı. s. 96.

[175] İbrahim Canan. Hadis usulü ve tarihi. s. 228.

[176] Hasan Cirit. Hadise giriş. s. 178.

[177] İlkin Əlimuradov. IX-X əsrlər Azərbaycan alimi Əhməd bin Harun əl-Bərdicinin hədis fəaliyyəti. Avtoreferat. Bakı, 2010. s. 15-16; Əhməd bin Harun əl-Bərdici əl-Bərzəi. Təbəqatül-əsmail-müfrədə minəs-səhabə vət-tabein və əshabil-hədis. Dəməşq, I çap, 1987. s. 7-8.

[178] Yaqut əl-Həməvi. Möcəmül-buldan. I c. s. 378; Xətib əl-Bağdadi. Tarixül-Bağdad. V c. s. 195; Şəmsəddin əz-Zəhəbi. Siyəru-ələmin-nübəla. XIV c. s. 123.

Bağdadda Əhməd bin əl-Müqəddəm əl-İcli və Yaqub əd-Dəvraqidən, Bəsrədə Nəsr bin Əli və Əbu Musa Bəsridən, Kufədə İsmayıl əs-Səviy və Əbu Kərəb Kufidən, Misirdə Yunus bin Əbdüləla, ər-Rəbiy və əl-Müzənidən fiqh və hədis dərsləri almışdı. Hədis elmində onun ən əsas ustadı Əbu Zurə Əbdürrəhman bin Əmr əd-Diməşqi (öl. 893) olmuşdur. İmam Əbu Abdullah Əhməd Zəncani yaşadığı dövrün böyük hədisşünası və fəqihlərindən biri kimi şöhrət tapmışdı. Ölüm tarixi 913-cü ildən əvvələ təsadüf edir.

### 2.10. Əbu Bəkr Əbdürrəhman bin Məhəmməd bin Ələviyyə əl-Əbhəri

O, tanınmış fəqih və hədisşünaslardan biri olmuşdur. Ailə və nikah hüququ sahəsində ixtisaslaşan Əbhəri bu sahədə "Məsailün-nikah" adlı əsər qələmə almışdı. Mənbələrə görə, nikah və ailə hüququ məsələlərində Malik bin Ənəsin fətvalarını ən gözəl şəkildə şərh edən ailmlərdəndir. Bundan başqa o, əqaid sahəsində "Məsailül-xilaf" adlı əsərin də müəllifi idi. Məşhur fəqih Əbu Səid Əhməd əl-Qəzvini onun tələbəsi olmuş, ondan hədis və fiqh elmlərini öyrənmişdi.

Əbu Bəkr bin Ələviyyə Əbhərinin ölüm tarixi məlum deyil. Lakin VIII-IX əsrlərdə yaşadığı deyilir.[179]

### 2.11. Məhəmməd bin Hüseyn əl-Astarabadi

Məhəmməd bin Hüseyn bin Müaz əl-Astarabadi Azərbaycanın qədim yaşayış məskənlərindən biri olan və tariximizdə "Gülüstan müqaviləsi" kimi tanınan Gülsütan məntəqəsində doğulmuşdur. Onun doğum və vəfat tarixləri bəlli olmasa da, IX-X əsrlərdə yaşaması məlumdur. Mənbələrdə hədis və digər elmlərdə mükəmməl təhsilə malik olduğu, xeyli sayda tələbələr yetişdirdiyi xəbər verilir.

### 2.12. Əbu Bəkr Məhəmməd bin Musa Saleh əl-Azərbaycani

Azərbaycan hədisşünaslığının unudulmaz alimlərindən biri də heç şübhəsiz ki, Məhəmməd bin Musa əl-Mərəndi olmuşdur. Onun doğum tarixi dəqiq olaraq bilinməsə də, Mərənddə dünyaya gəldiyi və Səmərqənddə yaşadığı məlumdur. Mənbələrə görə o, Səmərqənddə yaşadığı müddətdə burada hədis nəql etmiş və xeyli tələbə yetişdirmişdi. əl-Mərəndinin müəllimləri içində Əli bin Məhəmməd bin Hatim bin Dinar əl-Qəumsini xüsusilə qeyd etmək lazımdır. Çünki o, uzun müddət bu alimdən hədis dərsi almiş və ondan öyrəndiklərini rəvayət etmişdir. Tələbələri və ondan hədis nəql edənlər içində isə Həsən bin Məhəmməd bin Səhl əl-Farsini qeyd etmək olar.

Əbu Bəkr künyəli Məhəmməd bin Məhəmmədin ölüm tarixi təqribən 937-ci ilə təsadüf edir. Lakin Səmani onun 940-cı illərdə vəfat etdiyini yazır.[180]

### 2.13. Həfs bin Ömər əl-Ərdəbili

Həfs bin Ömər Ərdəbili hədis ədəbiyyatı tarixində sayılıb seçilən və etibarlı alimlərdən biridir. O, hədis öyrənmək üçün xilafətin bütün məşhur elm ocaqlarına səyahətlər etmiş və buna görə də "ər-Rəhhal" (çox səyahət edən) ləqəbini qazanmışdır. Doğum tarixi bəlli olmayan Ömər Ərdəbili 951-ci ildə vəfat etmişdir. Təəssüflər olsun ki, Ömər Ərdəbilinin yaradıcılığı zəngin olsa da, heç bir əsəri dövrümüzədək gəlib çıxmamışdır.

O, öz dövrünün ən görkəmli hədisşünaslarından dərs almış və onlardan rəvayətlər etmişdir. Onun hədis nəql etdiyi alimlərdən Yəhya bin Əbu Talib, Əbu Cilabə Əbdülməlik ər-Rəqqaşi, İsmayıl əl-Qazi və başqalarını qeyd etmək olar.

Onun özündən isə Əhməd bin Tahir əl-Miyanəçi, Əbu Abdullah bin İshaq, Əbu Yəla əz-Zeydi və başqaları hədislər nəql etmişlər.[181]

---

[179] Elnur Nəsirli. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər. s. 121.

[180] Səmani. Kitabül-ənsab. IV c. s. 253-254.

## 2.14. Ömər bin Həsən Bağdadi əl-Üşnahi

Ömər bin Həsən Bağdadi Azərbaycanın Üşnuh şəhərindəndir. O, hədis ədəbiyyatı tarixinin görkəmli alimlərindən olmuş və hədis elmində çox etibarlı sayıldığından "Səduq" (çox doğru danışan) ləqəbi ilə məşhurlaşmışdır. 875-ci ildə doğulan Ömər öz dövrünün ən görkəmli hədisşünaslarından, o cümlədən atası Əbu Məhəmməd əl-Üşnani, Məhəmməd bin İsa bin Həyyan əl-Mədaini, Musa bin Səhl əl-Vəşşa, Məhəmməd bin Səddad əl-Məslməi, Məhəmməd bin Məsləmə əl-Vasiti və digər görkəmli alimlərdən hədislər rəvayət etmişdir. Onun özündən isə Əbülabbas bin Üqbə, Əbu Əmr bin əs-Səmmak, Məhəmməd bin əl-Müzəffər və başqaları rəvayətlər etmişlər.

Mənbələrdəki məlumatlara görə, əl-Üşnahinin "Kitabu məqtəli Zeyd bin Əli", "Kitabu fəzaili əmirilmöminin Əli bin Əbu Talib", "Kitabu məqtəli Həsən bin Əli (ə)" adlı əsərləri olmuşdur. Onun dövrümədək gəlib çıxmış yalnız hədis cüzü vardır.[182]

Ömər əl-Üşnahi 950-ci ildə vəfat etmişdir.

## 2.15. Məhəmməd bin Məkki əl-Bərzəi

Məhəmməd bin Məkki əl-Bərzəi hədis elmində çox hədis rəvayət edən nadir alimlərdəndir. O, hədis elmlərini dərindən öyrənmək üçün Şam, Misir, Bağdad və bir çox digər bölgələrə səyahətlər etmiş, gəzdiyi hər bir bölgənin ən məşhur alimlərindən dərs almışdır. Onun ustadları içində Əhməd bin Ümeyr, Məhəmməd bin Yusif əl-Hərəvi, Əbülqasim Abdullah bin Həsən, Məhəmməd bin Səid və başqalarından hədislər öyrənmiş və rəvayət etmişdir. Onun özündən isə Əbülvəlid Həsən bin Məhəmməd, Hakim ən-Nisaburi və digər görkəmli alimlər hədislər nəql etmişlər.

Ömrünü hədis elmlərinin öyrənilməsi və öyrədilməsinə həsr edən alim 965-ci ildə Məvarünnəhrin Şaş şəhərində vəfat etmişdir.[183]

## 2.16. Yusif bin Qasim əl-Miyanəçi

Yusif bin Qasım əl-Miyanəçi Azərbaycan hədisşünaslığının etibarlı və güvənilən alimlərindən biri, hədis elmində "imam", "hafiz" və "etibarlı" adlarına layiq görülmüş hədisşünaslarındandır. O, 895-ci ildə doğulmuşdur.

Yusif Miyanəçi bir çox alimlərdən hədis rəvayət etmişdir. Onlardan Fəzl bin Xübbab əl-Cümahi, Məhəmməd bin Abdullah əs-Səmərqəndi, Əbu Yəla əl-Mousuli, Zəkəriyya bin Yəhya əs-Saci, Məhəmməd bin İshaq əs-Sərrac və başqalarını qeyd etmək olar. Onun özündən isə Əbu Məsud Saleh bin Əhməd əl-Miyanəçi, Əbülhəsən Məhəmməd bin Ofv əd-Diməşqi, Əbu Süleyman ər-Razi və digərləri hədis nəql etmişlər.

Übeydilərin (Fatimilərin (910-1171) hakimiyyəti dövründə Dəməşqin qazısı olan Əbu Yusif Miyanəçi 985-ci ildə doxsan yaşında vəfat etmişdir.

Onun "Amal fil-hədis" əsəri dövrümüzədək gəlib çıxmışdır.[184]

## 2.17. Yaqub bin Musa əl-Ərdəbili

Hədis və təfsir elmləri sahəsində Orta əsrlərin ən görkəmli alimlərindən biri Əbülhəsən Yaqub bin Musa əl-Ərdəbilidir. Onun doğum tarixi dəqiq olaraq bilinməsə də, 994-cü ildə vəfat edtiyi

---

[181] Qoşqar Səlimli. İslamın ilk dönəmlərində bəzi azərbaycanlı mühəddislər. s. 103; İbn əl-İmad. Şəzərətüz-zəhəb. IV c. s. 207; Şəmsəddin əz-Zəhəbi. Tarixül-İslam və vəfayatül-məşahir vəl-əlam. XXV c. Təhqiq: Ömər Əbdüssalam Tədmuri. Beyrut, Darül-kütubil-ərəbi, 1991/2000. s. 173.

[182] Qoşqar Səlimli. İslamın ilk dönəmlərində bəzi azərbaycanlı mühəddislər. s. 105; İbn ən-Nədim. Fihrist. Təhqiq: Rza Təcəddüd. Tehran, 1971. s. 127.

[183] Qoşqar Səlimli. İslamın ilk dönəmlərində bəzi azərbaycanlı mühəddislər. s. 105-106; Yaqut əl-Həməvi. Möcəmül-buldan. I c. s. 380; Şəmsəddin əz-Zəhəbi. Tarixül-İslam. XXVI c. s. 117.

[184] Qoşqar Səlimli. İslamın ilk dönəmlərində bəzi azərbaycanlı mühəddislər. s. 106; Yaqut əl-Həməvi. Möcəmül-buldan. V c. s. 239; Şəmsəddin əz-Zəhəbi. Tarixül-İslam XXVI c. s. 584-585; Bağdalı İsmayıl Paşa. Hədiyyətül-arifin. II c. s. 549.

məlumdur. O, müfəssir (təfsirşünas) və mühəddis (hədisşünas) kimi tanınmışdır. Lakin onun elmi dünyagörüşü təkcə bu sahələrlə bitməmiş, həm də öz dövründə Şafei məzhəbinin ən görkəmli fəqihi kimi ad çıxarmışdır.

Yaqub bin Musa ilk təhsilini İslam ilahiyyatının qədim mərkəzlərindən olan Ərdəbildə almışdır.[185]

### 2.18. İbrahim bin Məhəmməd Gəncəvi

İbrahim bin Məhəmməd görkəmli hədisşünaslardan biri idi. Yaşlandığı vaxt dinləyib əzbərlədiyi hədisləri unutmamaq üçün qələmə almışdı. İslam dinini təbliğ etmək məqsədi ilə Gəncəni tərk etmiş və 2 il davam edən səyahətə çıxmışdı. Bu səyahət vaxtı vəfat etmişdir. Ölüm tarixi 995-ci ildən əvvələ təsadüf edir.[186]

### 2.19. Əbu Abdullah Nafe bin Əli bin Yəhya əs-Səravi əl-Azərbaycani

Görkəmli hədisşünaslardan biri olmuş Əbu Abdullah dövrünün bir çox hədisşünaslarından, o cümlədən Əbu Əyyaş Cəfər bin Məhəmməd əl-Ərdəbilidən hədis dinləmiş, Əli bin Məhəmməd bin Məhruyə əl-Qəzvini, Əbülhəsən Əli bin İbrahim əl-Qəttan əl-Qəzvininin tələbəsi olmuş, onların yanında fiqh elmini də öyrənmişdi. Əbülhəsən Əhməd bin Məhəmməd əl-Ətiqi ondan hədis dinləmiş və nəql etmişdi. Əbu Abdullah Nafe əl-Azərbaycani 992-ci ildə həcc ziyarətindən qaydarkən Bağdada gəlmiş və burada hədis dərsləri vermişdi.

Səmani alimin 1010-cu ildən əvvəl vəfat etdiyini yazırdı.[187]

### 2.20. Əhməd bin Əli əl-Həmədani

Əbu Bəkr ləqəbli Əhməd bin Əli bin Əhməd Həmədani Azərbaycan ilahiyyatşünaslığının görkəmli nümayəndələrindəndir. Əslən Həmədanlı olan Əbu Bəkr Həmədani 920-ci ildə Həmədanda doğulub. O, elm əldə etmək üçün çox yerlərə səyahət etmiş və nəhayət, Bağdadda məskunlaşmışdı. Əhməd bin Əli fiqh və hədis elmlərində böyük alim olmuşdu. O, həm də Həmədanda qazılıq etmişdi.

Əbu Bəkr Həmədani atasından, sonra Əbu Abdullah Əhməd bin Məhəmməd bin Övs əl-Mukri, Həfs bin Ömər əl-Hafiz, Əbdürrəhman bin Hamdan əl-Cəllab, İsmayıl bin Məhəmməd əs-Saffar, Məhəmməd bin Əmr, Əli bin Məhəmməd əl-Misri, Əhməd bin Süleyman əl-Əbadani, Əli bin İbrahim əl-Qatdan, Əbu Əmr bin əs-Səmmak, Cəfər əl-Xalidi, Əbdülbaqi bin Qani, Əbu Səid bin əl-Ərəbi və bir çox alimdən hədisi-şərif öyrənmiş və ilahiyyatın müxtəlif sahələrinə aid elmləri öyrənmişdir.

Cəfər bin Məhəmməd əl-Əbhəri, Hümeyd, Əbu Məsud Əhməd bin Məhəmməd əl-Bəcəli ər-Razi, bacısının oğulu Əbu Səd əl-Bast, Əbu Bəkr əl-Bərqani və bir çox alim də Əbu Bəkr Həmədanidən elm öyrənmiş, hədisi-şərif rəvayət etmişlər.

Hədis öyrənmək üçün uzun səfərlər edən Əbu Bəkr Həmədani Bağdada çox gəlib getmiş, hədisi-şərif rəvayət etmiş və elm oxutmuşdur. Məşhur alim Dəraqutni (919-998) Bağdadda onun məclisində olmuş, ondan elm və hədisi-şərif öyrənmişdir. Əbu Bəkr Həmədani fiqh və hədis elmində imam, bir çox hədisi-şərifi əzbərdən bilən siqə (möhkəm, etibarlı) bir şəxs idi.[188]

Həmədanda uzun zaman qazılıq edən Əbu Bəkr Həmədani Şafei məzhəbinin böyük fiqh alimlərindən idi. Sibəveyhi onun haqqında yazırdı: “Əbu Bəkr Həmədani etibarlı, zamanının yeganəsi, Həmədanın müftisi, hədis elmində böyük alim olub, elmin müxtəlif sahələrinə aid müxtəlif kitablar yazmışdı. Ayrıca fiqh elmində də məşhur idi. Mən onun “Sünən” və “Möcəmüs-səhabə” kitablarını gördüm. “Möcəmüs-səhabə” kitabından daha gözəl səhabələri tanıdan bir kitab görmədim”.

---

[185] Fəqihane və müfəssirane ustane Ərdəbil. “Yaqub bin Musa Ərdəbili” maddəsi.
[186] Həmin mənbə. s. 168.
[187] Həmin mənbə. s. 80.
[188] Xətib əl-Bağdadi. Tarixül-Bağdad. IV c. s. 318.

Şeyx Əbu İshaq Əbu Bəkr Həmədaninin fiqh elmini Əbu İshaq və Əbu Əli bin Əbi Hüreyrədən öyrəndiyini xəbər vermişdir. Həmədan fəqihləri də Əbu Bəkr Həmədanidən Şafei fiqhini öyrənmişlər. Əbu Bəkr Həmədani çox zahidanə bir həyat yaşamış, şübhəli şeylərdən çəkinən və çox ibadət edən bir şəxs idi.

Həfs bin Əmr və başqa alimlər Əbu Bəkr Həmədanidən bu hədisi-şərifi rəvayət ediblər:

"Şöbə və Əbdülməlik bin Ümeyr Cəfər bin Sümərrədən xəbər verdilər ki, Cəfər bin Sümərrə nəql etmişdir: "Ömər bin Xəttab xütbəsində buyurdu ki: "Bir gün aramızda Peyğəmbərimiz mənim qalxdığım kimi ayağa qalxdı və: "Əshabıma ikram edin. Sonra onları təqib edənlərə (tabei), sonra onları təqib edənlərə (təbə-tabei) ikram edin. Sonra bir kimsə ondan şahidlik və and içməsi istənilmədiyi halda, (yalan yerə) şahidlik edib və and içməsin. Əgər belə olarsa, yalan yayılar. Kim Cənnətin ortasında olmağı istəyirsə, camaata sarılsın. Çünki şeytan tək olan kəslərlə birlikdə olur və o iki adamdan uzaq qaçar. Diqqət yetirin, xəbər verirəm! Bir kimsə bir qadınla xəlvət etməsin. Əgər belə etsə, şübhəsiz ki, üçüncüləri şeytandır. Diqqət yetirin, xəbər verirəm! Kim günah işlədiyi zaman kədərlənər, yaxşılıq (savab) işlədiyi zaman sevinsə, o kimsə mömindir", - deyə buyurdu".[189]

Mənbələrə görə o, 1009-cu ilə çatmadan vəfat etməsi üçün dua edərmiş. Duası qəbul olunmuş və 1007-ci ildə vəfat etmişdir. Onun 1008-ci ildə vəfat etdiyi də rəvayət edilmişdir.[190]

### 2.21. Həsən bin Hüseyn əl-Həmədani

Tanınmış Azərbaycan hədisşünaslarından biri Həsən bin Hüseyn bin Haməkan əl-Həmədanidir. Onun ləqəbi Əbu Əlidir. Həmədan şəhərindən olub, doğum tarixi məlum deyil. Hədis, fiqh və tarix elmlərində böyük bir alimdir. Bağdada səfər edərək böyük hədis alimi Dəraqutninin yanına yerləşmişdi. Fiqh elmini Əbu Hamidi Mərvəzuridən, hədis elmini isə Bəsrə alimlərindən öyrənmişdi. Onun İmam Şafeininin fəzilətlərindən bəhs edən bir əsəri vardır.

Əbu Əli Həmədani əvvəl hədis elmi ilə məşğul olmuşdur. Sonra o, bir müddət Bəsrədə yaşayaraq hədisi-şərif öyrənmişdi. Əbdürrəhman bin Həmədani, Cəllab əl-Həmədani, Məhəmməd bin Harun əz-Zəncani, Zübeyr bin Əbdülvahid əl-Əsədabadi, Cəfər bin Məhəmməd bin Nüseyr əl-Xuldi, Məhəmməd bin Həsən bin Zəyyad ən-Nəqqaş və Bağdad ilə Bəsrədəki bir çox alimdən hədisi-şərif öyrənib rəvayət etmişdi. Ondan isə Əbülqasim əl-Əzhəri, Əhməd bin Əli ət-Tusi, Məhəmməd bin Cəfər əl-Əsədabadi və daha başqa alimlər hədisi-şərif rəvayət etmişlər.

Fiqh elmi ilə də məşğul olan Əbu Əli bu elmin əsaslarını dövrünün görkəmli fəqihlərindən olan Əbu Hamid Mərvəzuridən öyrənmişdi. O, "Mənaqibi İmam əş-Şafei" adındakı əsərində Şafei məzhəbi ilə birlikdə, daha əvvəl alimlərin yazmadığı bir çox məzhəb aliminin ictihadlarını da yazmışdı.

Həsən əl-Həmədani 1014-cü ildə Bağdadda vəfat etmiş və orada öz evində dəfn edilmişdir.[191]

### 2.22. Əli bin Əhməd əl-Miyanəçi

Əbülqasim Əli bin Əhməd bin Məhəmməd bin Həsən əl-Marağİ 938-ci ildə Bəlx şəhərində doğulmuşdur. O, hədis elmlərini öyrənmək üçün bir çox bölgələrə səfər etmiş, dövrünün tanınmış alimlərindən hədislər öyrənmişdir. Onun hədis rəvayət etdiyi alimlərdən atası Əhməd bin Məhəmməd əl-Marağİ, Əbülheysəm bin Qüleyb əş-Şaşi, Əbülfəzl Məhəmməd bin Əhməd əs-Süləmini və başqalarını qeyd etmək olar. Miyanəçinin özündən isə Əbülqasim Əhməd bin Məhəmməd əl-Xəlili və başqa ravilər hədis nəql etmişlər.

Hədis ədəbiyyatı tarixinin böyük alimlərindən olan Əli əl-Marağİ 1019-cu ildə Buxarada vəfat etmişdir.[192]

---

[189] Təbəqatüş-Şafeiyyə. III c. s. 19.

[190] İslam Alimleri Ansiklopedisi. 18 cilddə. Türkiye Gazetesi Yayınlerı, 1984. IV əsrin alimləri fəsli. (www.ehlisunnetbuyukleri.com saytına istinadən).

[191] Geniş məlumat üçün bax: Təbəqatüş-Şafeiyyə. IV c. s. 304; Şəzəratüz-zəhəb. III c. s. 174; Tarixül-Bağdad. VII c. s. 299; Möcəmül-müəllifin. III c. s. 218; Kəşfüz-zünun. s. 1839; əl-Bidayə vən-nihayə. XI c. s. 354.

## 2.23. Məhəmməd bin Abdullah Bakuveyh

İbn Bakuveyh ləqəbi ilə məşhur olan Məhəmməd bin Abdullah Bakuveyh hədis alimləri içində "imam" olaraq tanınırmış. O, hədis öyrənmək üçün çoxlu səyahətlər etmiş Əbu Abdullah Məhəmməd bin Həfif əş-Şirazi, Məhəmməd bin Naseh əl-Kərəçi, Əbülfəzl Məhəmməd bin Abdullah və onlarla belə hədisşünasdan hədislər rəvayət etmişdir. Onun özündən isə Əbu Səd bin Əbu Sadiq, əl-Qasim əl-Qüşeyri və başqaları hədis nəql etmişlər.

Onun "Əxbarül-arifin" və "əl-Cüz" adlı iki əsərinin adı məlumdur.

Məhəmməd Bakuveyh 1037-ci ildə vəfat etmişdir.[193]

## 2.24. Abdullah bin Abdin əl-Həmədani

"Həmədanın Günəşi" ləqəbi ilə tanınan Abdullah bin Abdin əl-Həmədani İslam alimlərinin və hədis elminin böyük şəxsiyyətlərindəndir. Hədis elmində məşhur olduğu kimi, Şafei fiqhində də Həmədan şəhərinin ən böyük alimi idi. Bir çox tələbə yetişdirmişdi. Onun verdiyi fətvaları tələbələri tərəfindən kitab halına salınmışdır. Həmədan camaatının dini-mənəvi məsələlərini həll edər, xalq üçün əlindən gələni əsirgəməzdi. Onun Anadoluda İslamiyyəti yayması xüsusi şəkildə vurğulanmaqdadır.

Abdullah bin Abdin Həmədaninin tələbələrindən bir çoxu Malazgirt döyüşünə qatılaraq türk əsgərinə mənəvi öndərlik etmişlər. Daha sonra Anadoluya səpələnərək buralarda İslamiyyəti yaymışdılar. O dövrdə Anadoluda uzun illər davam edən döyüşlər sonunda xalq kasıb vəziyyətə düşmüş, hətta aclıqla üz-üzə qalmışlar. Buranı istila edən Səlcuqlu türkləri onlara mədəniyyət və rifah gətirmişdi. Nümunəvi yaşayışları və insani davranışları onların ürəklərini fəth etmişdi. Halbuki daha əvvəl idarəsi altında yaşadıqları bizanslılar Anadolu xalqı ilə pis davranırdılar. Bu səbəblə qısa zamanda heç bir təzyiq olmadan öz istəkləri ilə müsəlmanlığı qəbul etmişdilər.

Cəsarətli və şüurlu mücahidlər yetişdirən Abdullah bin Abdin Həmədani Həmədanda vəfat etmişdir. Mənbələr onun son sözlərinin aşağıdakılardan ibarət olduğunu yazırlar:

"Allah taalaya hüsnü-zənn ibadətdir. Ya Rəbbi! Sənə hüsnü-zənn bəsləyirəm. Mərhəmətinin sonsuz olduğuna və səndən başqa Üluhiyyət sifətlərinə sahib bir ilah olmadığına, Məhəmməd əleyhissalamın Sənin qulun və Rəsulun olduğuna inanıram..."[194]

Qəznəli dövləti zamanında yaşayan Abdullah bin Abdin əl-Həmədani 1041-ci ildə Həmədanda vəfat etmişdir.

## 2.25. Əbülqasim Büdeyl bin Əli bin Dübeyl əl-Bərzəndi

O, tanınmış hədis ravisi idi. Əbu Mənsur Saleh Bərzəndinin atası olan Əbülqasim Bağdadda qazı Əbu Təyyib ət-Təbəri, Əbu Məhəmməd Həsən Cövhəri və şeyx Əbu İshaq Şirazinin tələbəsi olmuş, ondan fiqh elmini öyrənmişdi. Əbu Talib əl-Əşəri, Əbu İshaq əl-Bərməkidən hədis dinləmiş və nəql etmişdi. Təbriz şəhərinin qazısı olan Əbülqasim Bərzəndi öz sahəsində dərin elmi biliyə malik, xoş söhbətli, ünsiyyətcil insan kimi tanınmışdı. O, hədis elmində "Səduq", yəni doğru sözlü, səmimi və mötəbər hədisşünaslardan biri kimi tanınır.

Əbülqasim əl-Bərzəndi 1082-ci ildə vəfat etmişdir.[195]

## 2.26. Məhəmməd bin Mehr əl-Xoyi

Əbu Abdullah Məhəmməd bin Mehran bin Əhməd əl-Xoyi yaşadığı dövrün tanınmış hədisşünaslarından biri idi. Şeyxülislam Əbu Tahir Məhəmməd bin Əbdürrəhman bin əl-Abbas əl-

---

[192] Qoşqar Səlimli. İslamın ilk dönəmlərində bəzi azərbaycanlı mühəddislər. s. 107.

[193] Həmin mənbə. s. 108. Yaqut əl-Həməvi. Möcəmül-buldan. I c. s. 328; Şəmsəddin əz-Zəhəbi. Tarixül-İslam. XXIX c. s. 244.

[194] Təbəqatüş-Şafeiyyə. I c. s. 236.

[195] Həmin mənbə. s. 104.

Müxlis və Əbülhəsən Əhməd bin Məhəmməd bin İmran Musa, Əbu Bəkr Məhəmməd bin Ömər bin Əli bin Xələf bin Zənbur kimi öz dövrünün tanınmış hədisşünaslarından hədis dərsləri almışdı. Əbu Abdullah Məhəmməd əl-Xoyi Qəzvinə gedərək burada tədrislə məşğul olmuş, hədis dərsləri vermişdi. Onun tələbələri arasından hədisşünas Hibətullah bin Zazan kimi alimlər yetişmişdi. Əbu Abdullah Məhəmməd əl-Xoyinin ölüm tarixi məlum deyil. Əbdülkərim Rafei onun 1050-ci ildə Qəzvində hədis dərsləri verdiyini qeyd etmişdi. Buna istinadən alimin XI əsrdə yaşadığını deyə bilərik.[196]

### 2.27. Həsən bin Məhəmməd əd-Dərbəndi

Həsən bin Məhəmməd əd-Dərbəndi Əbu Qətadə künyəsi ilə məşhurdur. O, hədis elmində çox etibarlı və doğrucul kimi tanınmış və buna görə də "etibarlı" adına layiq görülmüşdür. Amma bəzi rical alimləri isə onun yaddaşında problemlərin olduğunu nəzərə alaraq onun "rədiül-hifz" olduğunu demiş və onu "cərh" etmişlər. Hədis öyrənmək üçün öz dövrünün müxtəlif bölgələrini gəzən Həsən Dərbəndi dövrünün bir çox görkəmli alimlərindən və hədisşünaslarından dərs almış, onlardan hədislər dinləmişdir. Onun hədis nəql etdiyi alimlərdən Əbu Abdullah Məhəmməd bin Əhməd, Əbülhüseyn bin Bişran, Əbdürrəhman bin Əbu Nəsr ət-Təmimi, Əbu Zəkəriyya Yəhya əl-Müzəkki və digərlərini qeyd etmək olar. Onun özündən isə Xətib əl-Bağdadi (1002-1071), Əbu Əli əl-Həddad, Əbdüləziz əl-Kəttani və başqaları hədis rəvayət etmişlər.

Hədis elminin tanınmış simalarından olan Həsən Dərbəndi 1064-cü ildə Səmərqənddə vəfat etmişdir.[197]

### 2.28. Əhməd bin Cərir əs-Salmasi

Əhməd bin Cərir əs-Salmasinin XI əsrdə yaşaması məlum olsa da, doğumu və vəfatı haqqında heç bir məlumat yoxdur. Onun "Hədisu Əbu Əli əl-Hüseyn bin Məhəmməd bin Yusif əl-Lihyani" adlı əsəri vardır. Adı çəkilən bu əsər Zahiriyyə kitabxanasında 59 nömrədədir.[198]

### 2.29. Əbu Cəfər Məhəmməd bin Mənsur bin Məhəmməd əz-Zəncani

Əbu Cəfər künyəli Məhəmməd bin Mənsur Zəncani öz dövrünün tanınmış hədisşünaslarından olması ilə yanaşı, həm də məşhur fəqihlərindən idi. Onun Zəncani mənsubiyyəti dəqiq olmayan bir tarixdə Zəncanda doğulduğunu göstərir. Ömrünün sonlarını Astarabadda yaşamışdır. Mənbələrə görə o, mömin, fəzilətli, və zahid bir insan olmuşdu. Onun hədis müəllimləri arasında Əbu Abdullah Məhəmməd bin Cəfər əl-Qəzai, Əhməd bin İbrahim bin Musa əd-Dəqqaq, Əbu Məhəmməd Əbdürrəhman bin Məhəmməd bin Həsən əl-Farisinin adlarını qeyd etmək olar. Tələbələri içində isə Əbu Həfs Ömər bin Məhəmməd bin Həsən əl-Fərğuvali Mərvdə, Əbu Nəsr Əbdülvəhhab bin Əhməd bin Əbdüssəlamın adlarını çəkə bilərik. Adı çəkilən tələbələr ondan Astarabadda hədis nəql etmişdilər.

Əbu Cəfər Məhəmməd 1087 və ya 1097-ci illərdə Astarabadda vəfat etmişdir.[199]

### 2.30. Əbu İsa İbrahim bin Musa əd-Dərbəndi

O, fəqih və hədisşünas idi. Alim ailəsində dünyaya gəlmiş və ilk təhsilini atasından almışdı. Daha sonra təhsil almaq üçün səyahətə çıxmış və Xorasana getmişdi. Əfqanıstanın Herat şəhərindəki mədrəsələrdə təhsil almış, Əbülfəth əl-Hənəfinin tələbəsi olmuşdu. Ölüm tarixi məlum deyil. Təqribən XI-XII əsrlərdə yaşamışdır.[200]

### 2.31. Şaban bin Hac əş-Şirvani

---

[196] Elnur Nəsirli. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər.
[197] Qoşqar Səlimli. İslamın ilk dönəmlərində bəzi azərbaycanlı mühəddislər. s. 109.
[198] Həmin mənbə.
[199] Səmani. Kitabül-ənsab. II c. s. 328-329.
[200] Elnur Nəsirli. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər. s. 111-112.

Şirvandan olan Şaban bin Hac ilk təhsilini doğulduğu Şirvan şəhərinin alimlərindən almış, təhsilini təkmilləşdirmək üçün müxtəlif elm mərkəzlərinə səyahətlər etmiş və Nişapur şəhərində məskunlaşaraq burada bir müddət elm öyrənmişdir. Daha sonra isə öz doğma şəhəri Şirvana dönmüş və elmi fəaliyyətini burada davam etdirmişdir.

Hədis elminin inkişafında müstəsna xidmətlər göstərmiş Şirvani 1101-ci ildə öz doğma şəhərində vəfat etmişdir.[201]

### 2.32. Əbülfəzl Şaban əş-Şirvani

Əbülfəzl Şaban əş-Şabrani Şirvani məşhur hədisşünaslardan olub. Əbdürrəhman bin Həsən əl-Əsnəvi (1305-1370) onu "əhli-zöhd", "fəzilətli imam" kimi sözlərlə vəsf etmişdi. Əbülfəzl Şaban İranın Təbəristan vilayətinin Amul şəhərində fiqh təhsili almış, Əbu Leyla Bəndar bin Məhəmməd əl-Bəsrinin tələbəsi olmuş, bu şəhərin hədisşünaslarından hədis dinləmişdi. Təhsilini başa vurduqdan sonra vətəninə qayıtmış, Şabrandakı mədrəsələrdə dərs vermişdi. Əbülfəzl Şaban əş-Şabrani 1101-ci ildə vəfat etmişdir.[202]

### 2.33. Həsən bin Məhəmməd bin Əli əd-Dərbəndi

Həsən Dərbəndinin doğum və vəfat tarixi haqqında məlumat olmasa da, miladi XI əsrdə yaşaması deyilir. Onun haqqında Şəmsəddin əz-Zəhəbi (1274-1348) "Siyəru aləmin-nübəla" əsərində yazırdı: "Şeyx, imam və hafiz olan Əbülvəlid Həsən bin Məhəmməd əd-Dərbəndi Buxarada Abdullah bin Məhəmməd bin Əhməd Əncardan, Bağdadda Əbülhüseyn bin Büşrandan, Dəməşqdə Əbdürrəhman bin Əbunəsrdən, Nişapurda Əbu Zəkəriyya əl-Məzaki və Əbubəkr əl-Hiridən, Bəsrədə Əbu Ömər əl-Haşimidən, Misirdə isə Əbunəzif əl-Fərradan hədis dinləmişdir.

Ondan isə Əbubəkr əl-Xətib, Əbu Əli əl-Həddad, Əbu Abdullah əl-Fəravi, Əbdülmunim bin əl-Qüşeyri, Zahir əş-Şəhhami və başqaları hədis rəvayət etmişlər.[203]

### 2.34. Yəhya bin Əli ət-Təbrizi

Yəhya bin Əli ət-Təbrizi 1030-cu ildə Təbriz şəhərində doğulmuşdur. O, Xətib Təbrizi adı ilə daha məşhur olmuşdur. Hədis elmində etibarlı ravilərdən sayılan Yəhya Təbrizi öz dövründə yaşamış bir çox hədisşünaslardan elm əldə etmiş, bunun üçün müxtəlif elmi mərkəzlərə səyahətlər etmişdir. Onun hədis müəllimləri içində Süleyman bin Əyyub ər-Razi, Əbülqasim Übeydullah bin ər-Riqqi, Əbdülkərim bin Məhəmməd əs-Səyyari və digər hədisşünaslardan hədislər dinləmiş və rəvayət etmişdir. Onun özündən isə Xətib Bağdadi, Məhəmməd bin Nəsr əs-Səlami və başqaları rəvayət etmişlər.

Yəhya Təbrizinin "Təhzibu qəribil-hədis",[204] "Təhzibül-islah" adlı əsərləri hədis ədəbiyyatı tarixinin nadir əsərlərindəndir. Adı çəkilən bu əsərlərdən birincisi Leiden kitabxanasında 46 nömrəlidə mühafizə olunur. Əsər Qahirədə 1907-ci ildə Saleh Əli, 1913-cü ildə isə Məhəmməd Bədrəddin ən-Nəsani tərəfindən nəşr edilmişdir.

Yəhya Təbrizinin təfsir elmi sahəsində ən məşhur əsəri isə dörd cildlik "əl-Müləxxəs fi erabil-Quran" ilə "Təfsirül-Quran" əsərləridir. Onun ərəb ədəbiyyatı sahəsində yazdığı "Şərhu müəlləqatis-səbə", "Şərhu divanil-Mütənəbbi", "Şərhu qəsaidil-əşr" və digər əsərlərini qeyd etmək olar.

Uzun zaman Bağdadda Nizamiyyə mədrəsəsində dərs verən Yəhya Təbrizi 1109-cu ildə Bağdadda vəfat etmişdir.[205]

---

[201] Qoşqar Səlimli. İslamın ilk dönəmlərində bəzi azərbaycanlı mühəddislər. s. 110.

[202] Elnur Nəsirli. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər. s. 291.

[203] Şəmsəddin əz-Zəhəbi. Siyəru alamin-nübəla. Müəssisətur-risalə, 1422/2001. XIV c. s. 297-298.

[204] Seyyid əş-Şərqavi. Məacimu qəribil-hədis vəl-asar. Qahirə, Məktəbətül-xanəçi, I çap, 1421/2001. s. 77.

[205] Ahmet Özel. DİA. 44 cilddə. XL c. s. 223-224; Qoşqar Səlimli. İslamın ilk dönəmlərində bəzi azərbaycanlı mühəddislər. s. 110-111; Yaqut əl-Həməvi. Möcəmül-buldan. II c. s. 13.

## 2.35. Məhəmməd bin İsmayıl ət-Tiflisi

Azərbaycanın əzəli və qədim ərazilərindən olan Tiflis şəhərinə mənsub alimlərimizdən biri Əbu Bəkr Məhəmməd bin İsmayıl bin Məhəmməd bin əs-Siri bin Bənun ət-Tiflisidir. O, 1020-ci ildə doğulmuşdur.[206] ət-Tiflisi Abdullah bin Yusif, Əbu Əbdürrəhman əs-Süləmi, Həmzə əl-Mehləbi, Əbu Sadiq əs-Seydəlani və digərlərindən hədis dinləmişdir.

Ondan Əbdülqafir bin İsmayıl, İsmayıl bin Muzin, Vəcibə əş-Şami və başqaları hədis rəvayət etmişlər.

Mənbələr onun əməlisaleh bir bəndə olduğunu və 83 il yaşayaq 1103-cü ildə vəfat etdiyini yazır.[207]

## 2.36. Əbu Yəla Məhəmməd bin Məhəmməd əl-Azərbaycani

Əbu Yəla Məhəmməd bin Məhəmməd bin Saleh bin əl-Haruyə əl-Azərbaycani hədis elminin tanınmış simalarından və güvənilən hədis ravilərindən olmuşdur. O, doğma vətənimizdə doğulmuş, amma gənclik illərini Bağdadda keçirmiş və bu şəhərdə təhsil almışdı. Əbu Cəfər bin əl-Məsləmə, Malik əl-Banyasi kimi hədisşünaslardan hədis dinləmiş və nəql etmişdi. Hafiz Məhəmməd bin Əbdülvahid əd-Dəqqaq, Əbu Qalib Daməğani, şair Əbu Bəkr əl-Ərcani ondan hədis dinləmiş və nəql etmişdilər. Əbu Yəla Məhəmməd əl-Azərbaycani həmçinin tanınmış ədib və tənqidçi idi. O, nəzm və nəsr tərzində çox gözəl ədəbi əsərlər qələmə almışdı. Bunlardan “Nətayicül-fitnə fi nəzmi-Kəlilə və Dimnə”, “əs-Sadih” adlı əsərlərinin adlarını çəkmək olar. Əbu Yəla Məhəmməd əl-Azərbaycani İraqi-ərəb və İraqi-əcəmin bir sıra şəhərlərinə səyahət etmişdi. Ömrünün sonlarına doğru Kirmana getmiş və burada 1115-ci ildə 95 yaşında ikən vəfat etmişdir.[208]

## 2.37. Əbülqasim Nasir əl-Xoyi

Qazı Əbülqasim Nasir bin Əhməd bin Bəkran əl-Xoyi fəqih, hədisşünas, filoloq, ədib və şair idi. O, 1073-cü ildə anadan olmuşdur. Ərəb filologiyasını Əbu Tahir Şirazidən öyrənmiş, şeyxülislam Əbu İshaq İbrahim Şirazinin yanında isə Şafei fiqhini oxumuşdu. Əbülqasim Əbülhüseyn Asim bin Hüseyn, Əbu Zeyd Nizamülmülk kimi hədisşünaslardan hədis dinləmişdi. Yaşadığı dövrdə Azərbaycanın mübahisəsiz ən böyük ədəbiyyatçısı idi. O, həm də istedadlı şair idi və özünün divanı vardı. Atasından sonra Xoy şəhəri qazılığına təyin olunmuşdu. Əbülqasim Nasir Xoyi İbn Cinninin “əl-Lümə‘” adlı əsərinə şərh yazmışdı.

Səmani Əbülvəfa Büdeyl əl-İmli əl-Xoyi (öl. 1136-1146 illər arasında) haqqında məlumat verərkən onun qazı Əbülfəth Nasir bin Əhməd bin Bəkran Xoyi adlı bir alimin tələbəsi olduğunu və ondan hədis dinlədiyini qeyd etmişdir. Göründüyü kimi, bu iki şəxsin sadəcə “Əbülqasim” və “Əbülfəth” olaraq künyələrində fərq var. Səmani və Əbu Tahir əs-Süləfi İsfəhani baba adını “Bəkran”, Yaqut əl-Həməvi isə burada haqqında danışıdığımız şəxsin babasının adını “Bəkr” olaraq qeyd etmişdir. Yaşadıqları dövrlərin də bir-birinə müvafiq olduğunu nəzərə alaraq bu ikisinin eyni şəxs olduğunu düşünmək olar.

Əbülqasim Nasir əl-Xoyi 1115-ci ildə vəfat etmişdir.

## 2.38. Fəxrəddin Əbülfəzl Məhəmməd bin Əhməd ət-Təbrizi

Qazı Fəxrəddin Əbülfəzl Məhəmməd bin Əhməd bin Həsən bin Əli əl-Həddadi ət-Təbrizi öz dövrünün tanınmış fəqih və hədisşünaslarından biri idi. O, Əbu Nəsr Məhəmməd bin Məhəmməd əz-Zeynəbi və başqalarından hədis dinləmişdi. Böyük Səlcuqlu imperatoru Səncərin (1118-1157) və Atabəy Şəmsəddin Eldənizin (1136-1175) hakimiyyəti dövründə Təbriz şəhərinin qazısı və xətibi

---

[206] Şəmsəddin əz-Zəhəbi. Siyəru əlamin-nübəla. XIX c. Müəssisə risalə, 1422/2002. s. 12.
[207] Həmin mənbə. s. 12.
[208] Əhməd bin Əli bin Həcər əl-Əsqəlani. Lisanül-mizan. V c. Beyrut, s. 283-284.

olmuşdu. Tarixçi alim Əbülqasim Əli bin Əsakir (öl. 1175) qazı Əbülfəzl Məhəmməd Təbrizinin bu şəhərdəki mədrəsələrdə tədrislə də məşğul olduğunu qeyd etmişdir. Alimin ölüm tarixi məlum deyil. XI-XII əsrlərdə yaşamışdır. Mənbələrdə "əl-Həddadi" nisbəsi ilə tanınan bir neçə fəqih və qazıya rast gəlinir. Bu soyadı (nisbəni) eyni nəslə mənsub şəxslər daşımışdırlar və bu ailədən bir çox alim çıxmışdı.[209]

### 2.39. Həsən bin Əhməd Əttar əl-Həmədani

Qiraət və hədis alimlərindən biri Həsən bin Əhməd əl-Həmədanidir. 1095-ci ildə Həmədanda doğulmuşdur.[210] O, ədib və övliya bir şəxs imiş. Ləqəbi Əbülqasimdır. Həmədanlı olduğu üçün Həmədani deyilmişdir. Qiraət elmini İsfəhanda Əbu Əli Həddaddan, Vasitdə Əbülizz Qalanisidən, Bağdadda əd-Dəbbasdan, Əbu Bəkr əl-Müzrəfidən, hədis elmini isə əvvəl Əbdürrəhman əd-Dəvnidən və sonra İsfəhanda Əbu Əli Haddaddan öyrənmişdi. Daha çox bu müəlliminin yanında qalıb uzun müddət ondan elm əldə etmişdir. Xorasanda da Əbu Abdullah Fəravidən və digər alimlərdən hədisi-şərif eşidib, rəvayət etmişdi. Daha sonra Bağdada gedib Əbülqasim bin Bəyandan, Əbu Əli bin Nəbhandan, Əbu Əli bin Mehdidən, Əbu Talib Yusifidən, İbn Hasindən və daha xeyli alimdən hədisi-şərif eşidib, elm öyrənmişdir. Bundan başqa, Bağdada ayrıca iki dəfə gedib elmi araşdırmalar aparmış və dərs vermişdi. Ondan qiraət elmini öyrənmişlər. Bağdada elm üçün etdiyi dörd səfərdən sonra Həmədana dönmüşdü. Həmədanda bir kitabxana təsis etmiş, öz kitablarını da bu kitabxanaya vəqf etmişdi. Bu kitabxanada böyük alimlərin çox gözəl xətlə yazılmış əsərləri da tapılırdı.

Həsən bin Əhməd ömürünün son zamanlarında qiraət və hədis dərsləri verməyi tərk edib, daha çox eşitdiyi hədisi-şərifləri rəvayət etmişdi. Ondan hədisi-şərif eşidib, elm alan şəxslərdən bir qismi bunlardır: İbni Əsakir, Məhəmməd əl-Hamam əl-Vaniq, Əbülməvahib bin Sasri, Əbdülqadir ər-Rəhavi, Yusif bin Əhməd əş-Şirazi və b. Ondan icazəli olaraq ən son rəvayət edən alim İbn Müqeyrəvəridir.

İbn Səmani onun haqqında: "Hafiz, mütqin (möhkəm), fazil, gözəl üzlü və doğru istiqamət sahibi, comərd, qəriblərə kömək edən bir şəxs idi", demişdir. İbn Cövzi isə onun haqqında belə demişdir: "Hafiz (yüz min hədisi-şərifi sənədləri ilə bilən), mütqin (hədis elmində möhkəm etibarlı bir alim), əxlaq sahibi və comərd idi. Qiraət və hədis rəvayəti onda sona çatan alimlərdəndir". Digər bir əsərində isə onun haqqında "Qiraət və hədis elmində zamanının ən məşhur alimidir", demişdir.

Tələbəsi Əbdülqadir Rəhavi də belə demişdir: "O, çox hədisi-şərif eşitməsi, üsul elmindəki üstünlüyü, əlində olan nüsxələr və öz xətti ilə yazdığı hədisi-şəriflərin rəvayətindəki etibarlılığı baxımından elmdə öz dövrünün alimlərini ötüb keçmişdir. Nəsəb, tarix, adlar və ləqəblər, hekayələr və siyər mövzusundakı yaddaşı, əzbəri baxımından çox ali dərəcəli elm sahibi idi. Bir gün biz onun dərsində idik. Xəlifə Osman bin Əffan ilə əlaqədar bir məsələ soruşuldu. Kağızı götürüb əzbərindən yazmağa başladı. Biz də otururduq. Uzunca bir fətva yazdı. Bu fətvasında xəlifə Osmanın nəsəbini, doğum və vəfat tarixini, uşaqlarının adlarını, onun haqqında deyilən şeirlərdən bir qismini və onunla əlaqədar xeyli məlumatı yazmışdı".

Qiraət elmində də o qədər məşhur olmuşdur ki, qiraət alimlərinin adı, keçdiyi zaman, onların doğum və vəfat tarixlərini, kimdən elm aldıqlarını, isnadlarını bir-bir sayardı. Qrammatika və lüğət elmində də alim idi. Lüğət elmində "Cəmhərə" adlı kitabı əzbərləmişdi. Həmədanda ondan dərs alan bir çox qrammatika və lüğət alimi yetişmişdir.

O, dünya malına meyilli deyilmiş. Bağdad və İsfəhana dəfələrlə piyada və kitabları çiyinində olduğu halda gedib gəlmişdir. Özü belə demişdir: "Bağdadda bir məsciddə qalırdım və misir çörəyi yeyirdim". Ədib Əbülfəzl bin Nəbban belə qeyd etmişdir: "Hafiz Həsən bin Əhmədi Bağdadın bir məscidində gördüm. Ayaq üstə olduğu halda bir şey yazırdı. Çünki lampa çox yüksəkdə idi. Sonra Allah taala onun şənini hər kəsin yanında yüksəltdi. O, məmləkəti Həmədana çatdığında, onu görüb hörmət üçün ayağa qalxmayan qalmamışdır. Hətta uşaqlar və yəhudilər belə ona hörmət olaraq ayağa

[209] Elnur Nəsirli. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər. s. 343.
[210] Tayyar Altıkulaç. DİA. 44 cilddə. X c. İstanbul, 1994. s. 286.

qalxardılar. Çox vaxt Mişkana cümə namazı qılmağa gedərdi. Şəhər camaatı onu şəhərdən kənarda qarşılayardı. Uşaqlar və müsəlman olmayanlar da onu qarşılayıb dəvət edərdilər. Ona bir dəvə və ya bir şey hədiyyə edilsə, tələbələrinə verərdi. Şübhəli şeyləri yeməzdi. Ayrı bir mədrəsə və özünəməxsus bir yer istəməz, öz evində dərs verərdi. Günün yarısını hədisi-şərif dərsi verərək, yarısını da qiraət dərsi və digər dərsləri verərək keçirərdi. Məclisinə hər kəs gəlib ondan istifadə edər, onu sevərdi. Təvazökar geyinər, ədəblərə son dərəcə riayət edərdi. Biri məclisinə sol ayaqla girsə, çıxarıb sağ ayaqla girməsini istəyərdi. Hörmət olaraq qibləyə qarşı bir şey qoymazdı. Bir gündə otuz fərsəx (180 km.) yol gedə bilərdi. Bu hal onun nadir hallarından (kəramətlərindən) idi. Təlhə bin Müzəffər belə qeyd etmişdir: "Bağdadda İbn Cəvalikinin kitabları satılırdı. Həsən bin Əhməd də orada idi. Kitablarından bir hissəsinə altmış dinar istənmişdi. Həsən bin Əhməd pulunu o biri cümə axşamıya qədər vermək şərti ilə satın aldı. Məmləkəti Həmədana gedib evini altmış dinara satmış, pulu söylədiyi gün gətirib vermişdi. Bu halını kimsə bilmirdi. Daha sonra onun bu əməli eşidilmişdi".

İbni Cövzi belə qeyd etmişdi: "Eşitdim ki, vəfatından sonra yuxuda belə görülmüşdür. Özü divarları kitabla hörülmüş bir şəhərdə, ətrafında da xeyli kitab olduğu halda görülmüş. "Bu nə haldır?" - deyə soruşulduqda, "Allah taaladan dünyada məşğul olduğum kimi, məşğul olmağı istədim. Bunu mənə lütf etdi", - deyə buyurmuşdur".

Həsən bin Əhmədin əsərlərindən "Kitabül-ədəb fi hisanül-hədis", "əl-İxtisar fi qiraətil-aşar li əimmətil-əmsar", "Zadül-müsafir" və s. qeyd etmək olar.[211]

Həsən bin Əhməd əl-Həmədani 1173-cü ildə vəfat etmişdir.[212]

### 2.40. Həsən bin Hüseyn ət-Tiflisi

Həsən bin Hüseyn ət-Tiflisi Əbu Əli künyəsi ilə tanınan məşhur hədis ravilərindəndir. O, Tiflisdə, Dəmşqdə, Misirdə və digər bölgələrdə İslam ilahiyyatının müxtəlif sahələrini öyrənmişdir. Təəssüflər olsun ki, onun həyatı və hədis fəaliyyəti haqqında hələlik heç bir məlumata rast gələ bilməmişik.

### 2.41. Bürhanəddin Əbülxeyr əl-Həmədani

Bürhanəddin Məhəmməd bin Əbülxeyr Əli bin Əbu Süleyman Zəfər Həmədani miladi XII əsrdə yaşamış hədisşünaslardandır. O, hədis ədəbiyyatı tarixində fəzilətli bir alim kimi xarakterizə edilmişdir. Onun haqqında görkəmli Azərbaycan alimi Seyid Əbülqasim əl-Xoyi (1899-1992) yazırdı: "O, alim, təfsirçi, əməlisaleh və vaiz biri idi. Onun "Miftahüt-təfsir", "Dəlailül-Quran", "Eynül-üsul" adlı əsərləri vardır. O, fəqih və fəzilətli bir zat idi".[213]

### 2.42. Əbu Yaqub Yusif əl-Həmədani

Əbu Yaqub Yusif Həmədani böyük din alimlərindən olub tam adı Əbu Yaqub Yusif Həmədanidir. O, Şeyx Həmədani və ya Xacə Yusif adları ilə daha məşhurdur. Həmədani 1048-ci ildə Rey ilə Həmədan arasındakı Buzencird adlı bir kənddə doğulmuşdur.[214] O, öz dövrünün görkəmli sufilərindən olmaqla yanaşı, Əhməd Yasəvi və Əbdülxaliq əl-Cüveyni kimi məşhur sufilərin də müəllimi olmuşdur.

Əbu Yaqub hənəfi məzhəbinin banisi Əbu Hənifə Nöman bin Sabitin (öl. 767) nəslindəndir. İnsanları haqqa dəvət edən, onlara doğru yolu göstərib, həqiqi səadətə qovuşduran və "Silsileyi-aliyyə" deyilən böyük alim və vəlilərin səkkizincisidir.

---

[211] Geniş məlumat üçün bax: Möcəmül-müəllifin. III c. s. 197; Təzkirətül-hüffaz. IV c. s. 1324; Əsmaül-müəllifin. II c. s. 97; Təbəqatül-hüffaz. s. 473; Şəzəratüz-zəhəb. IV c. s. 231; Təbəqatül-müfəssirin. I c. s. 128; Buğyətül-vuat. I c. s. 494.

[212] Tayyar Altıkulaç. DİA. 44 cilddə. X c. İstanbul, 1994. s. 287.

[213] Əbülqasim əl-Xoyi. Möcəm ricalil-hədis və təbəqatir-rüvvat. 23 cilddə. XIV c. s. 243; Əqiqi Bəxşayişi. Təfsiru-təbəqatiş-şiə. II c. I çap, 1372 h/ş. s. 188-189.

[214] Kamandar Şərifli. Əsərləri. 10 cilddə. III c. Bakı, Elm və təhsil, 2019. s. 112.

On səkkiz yaşında Bağdada getmiş və orada fiqh elmini Əbu İshaq Şirazidən öyrənmişdi. Yaşı kiçik olmasına baxmayaraq, Əbu İshaq ona xüsusi qayğı göstərmişdi. Əbu İshaqın dərsləri ilə yanaşı, dövrünün digər fiqh alimlərinin də dərslərində iştirak etmiş və nəhayət, fiqh elmləri sahəsində öndər alimlərdən olmuşdur. Bununla bərabər, İsfəhan və Səmərqənddə dövrünün məşhur hədisşünaslarından hədis elmini də mükəmməl öyrənmişdi.[215] Təsəvvüfü isə Əbu Əli Fərmədidən öyrənib onun söhbətində yetişərək kamala çatmışdı. Abdullah Cüveyni, Həsən Simnani və bir çox böyük şəxs ilə görüşüb söhbətlər etmiş, onlardan elmin müxtəlif sahələrini öyrənmişdi. Deyilənə görə, otuz yeddi dəfə piyada həccə getmişdi. Qurani-Kərimi saysız xətm etmişdi. Gecə namazlarında hər rükətdə bir cüz oxuyardı. Təfsir, hədis, kəlam və fiqh elmindən yeddi yüz cüz əzbər bilirmiş. İki yüz on üç mürşidi-kamildən istifadə etmiş, yeddi min kafirin müsəlman olmasına səbəb olmuşdur.

Altmış ildən çox insanlara doğru yolu göstərməklə məşğul olmuş Əbu Yaqub yüzlərlə tələbə yetirşdirmişdir. Abdullah Bərki, Həsən əl-Əndəki, Əhməd Yasəvi və Əbdülxalıq kimi böyük vəlilər yetişdirmişdi. Bunlardan Əhməd Yasəvi Türküstan tərəfinə köçüb, insanları irşad edərək böyük xidmətlər göstərmişdi. Yusif Həmədani bütün dostlarına, tələbəsi Əbdülxalıqa tabe olmalarını söyləmişdi. Ondan sonra bu tələbəsi insanlara doğru yolu göstərmişdi.

Yusif Həmədani əvvəl Mərv şəhərində bir müddət yaşamış, sonra Herata getmiş və uzun zaman orada qalmışdı. Sonra təkrar Mərvə gəlib bir müddət qaldıqdan sonra yenidən Herata geri dönmüşdü.

Yusif Həmədani İraq, Xorasan, Mavəraünnəhr bölgələrinin müxtəlif şəhərlərində olaraq xalqa İslam dininin təlimlərini izah etməklə məşğul olmuşdur. Elmi, fəziləti və kəramətləri ilə İslam dünyasında tanınıb, çox sevilmişdir.

Həqiqi İslam alimlərindən və övliyanın böyüklərindən olan Yusif Həmədani orta boylu, sarı bənizli, qumral saqqallı, zəif bir şəxs idi. Əlinə nə keçsə möhtaclara verər, kimsədən bir şey istəməzdi. Hər kəsə qarşı çox təvazökarlıq edər, yumşaq və mərhəmətli davranardı. Yolda gedərkən belə Qurani-Kərim oxumaqla məşğul imiş. Hər ayın sonunda Səmərqənd alimlərini çağıraraq onlarla söhbət edər, digər tərəfdən də kəndlilərə və yanına gələn hər kəsə doğru dini məlumatları öyrətməyə çalışar, insanlarla məşğul olmaqdan, onları yetişdirmək üçün çalışmaqdan heç sıxılmazmış. Digər tərəfdən ağrılara və yaralara dərman edərək hər kəsin dərdinə dərman tapmağa çalışardı. Beləcə, maddi və mənəvi xəstəliklərin təbibi, mütəxəssisi olduğunu isbat edərdi.

Tələbələrinə və özünü sevənlərə daim Peyğəmbərin və səhabələrinin yolunda getmələrini tövsiyə edərdi. Ürəyi bütün məxluqat üçün dərin bir sevgi ilə dolu olan Əbu Yaqub qeyri-müsəlmanların da evlərinə gedərək onlara islamiyyəti izah edərdi. Hər şeyə səbir edər, hər kəsə qarşı məhəbbət göstərən alim qızıl və gümüş əşyadan istifadə edilməsinə icazə verməz, kasıblara zənginlərdən daha çox hörmət göstərərdi. Otağında həsir, keçə, su qabı, iki yastıq və bir qazandan başqa bir şey tapılmazdı. Tələbələrinə dörd böyük xəlifənin mənqəbə və fəzilətlərindən bəhs edər, onlar kimi əxlaqlanmalarını nəsihət verərdi.

Nəcibəddin Şirazi adlı bir şəxs belə deyir: “Bir zamanlar vəlilərin sözlərindən bir neçə parça əlimə keçmişdi. Mütaliə etdim. Mənə çox xoş gəldi. Bu sözü araşdırdım. Öz-özümə “bu şəxsi tapsaydım, önündə diz çökərdim”, dedim. Bir gecə yuxuda heybətli, vüqarlı, ağ saqqallı, çox nurani bir şəxsin evimizə girdiyini gördüm. Dərhal dəstəmazxanaya getdi. Dəstəmaz aldı. Ağ bir xalat geymişdi. Xalatın üzərində iri xətlə, qızıl suyu ilə, “Ayətəl-kürsi” yazılmışdı. Mən onun ardınca getdim. Xalatı çıxarıb mənə verdi. Bu xalatın altında ondan daha göz qamaşdırıcı bir yaşıl xalat da vardı. Bunda da əvvəlki kimi eyni xətlə, qızıl yazıyla “Ayətəl-kürsi” yazılmışdı. Onu da mənə verdi. “Mən dəstəmaz alana qədər bunları tut!”- deyə buyurdu. Dəstəmaz aldı və “Bu iki xalatdan hansını istəsən sənə verim”, - deyə buyurdu. Hansını versəniz mənə xoşdur dedim. Yaşıl xalatı mənə geydirdi. Ağı da özü geydi. Sonra: “Bilirsənmi mən kiməm? Mən, o oxuduğun parçaların müəllifiyəm. Sən onu arzulayırdın… Mən Əbu Yaqub Yusif Həmədaniyəm. Ona, yəni o oxuduğun yazılara “Zinətül-həyat” adını verdim.

[215] Xacə Yusif Həmədani. Rütbətül-həyat. Təshih: Məhəmmədəmin Riyahi. Tehran, İntişarate Tunis.

Bundan başqa, “Mənazilüs-salikin” və “Mənazilüs-sayirin” kimi sevilən əsərlərim də vardır”, - deyə buyurdu. Yuxudan oyandıqda, çox sevindim və ona olan hörmətim daha da artdı”.

İbn Həcər Məkkinin “Fətava əl-hədisiyyə” adlı əsərində qeyd etdiyinə görə, Əbu Səid Abdullah, İbn Səkka və Seyid Əbdülqadir Geylani elm öyrənmək üçün Bağdada getmişdilər. Əbdülqadir Geylani o zaman çox gənc idi. Yusif Həmədaninin Nizamiyyə mədrəsəsində moizə etdiyini eşitmişdilər. Bunlar onu ziyarət etməyə qərar verdilər. İbn Səkka “Ondan bir sual soruşacağam, amma cavabını verə bilməyəcək”, dedi. Əbu Səid Abdullah “Mən də bir sual soruşacağam. Baxaq cavab verə biləcəkmi?” dedi. Kiçik yaşına baxmayaraq, böyük bir ədəb timsalı olan Əbdülqadir Geylani də “Allah qorusun. Mən necə sual soruşaram. Yalnız hüzurunda gözləyərəm, onu görməklə şərəflənər, bərəkətlənərəm”, dedi. Nəhayət, Yusif Həmədani olduğu yerə getdilər. O anda orada yox idi. Bir saat sonra gəldi. İbn Səkkaya baxaraq “Eyib olsun sənə, ey İbn Səkka! Deməli, mənə cavabını bilməyəcəyim sual soruşacaqsan? Sənin soruşmaq istədiyin sual budur. Cavabı da belədir. Mən görürəm ki, səndən küfr qoxusu gəlir”, - deyə buyurdu. Sonra Əbu Səid Abdullaha tərəf dönərək “Sən də mənə bir sual soruşacaqsan və baxacaqsan ki, mən o sualın cavabını necə verəcəyəm. Sənin soruşmağa niyyət etdiyin sual budur və cavabı da belədir. Lakin sən də ədəbə riayət etmədiyin üçün ömürün hüzn içində keçəcəkdir”, - deyə buyurdu. Sonra Əbdülqadir Geylaniyə tərəf döndü. Ona yaxınlaşdı və “Ey Əbdülqadir! Bu ədəbinin gözəlliyi ilə Allah taalanı və Rəsulunu razı saldın. Mən sənin Bağdadda bir kürsidə oturduğunu, çox yüksək mətləbləri izah etdiyini və “Mənim ayağım, bütün övliyanın boyunları üzərindədir”, dediyini sanki görür kimiyəm və mən yenə sənin vaxtındakı bütün övliyanı, sənin onlara olan yüksəkliyin qarşısında boyunlarını əymiş halda olduqlarını görür kimiyəm”, - deyə buyurdu və sonra gözdən itdi. Onu bir daha görə bilmədilər.

Aradan uzun illər keçdi. Həqiqətən Əbdülqadir Geylani kamala yetişdi. Öz dövründə olan övliyanın ən üstünü, baş tacı oldu. Elə yüksək dərəcə və mövqelərə qovuşdu ki, insanlardan və yüksək şəxslərdən hər kəs onun yanına gələrək mübarək söhbətlərindən istifadə edərdilər. Bir gün yüksək bir kürsidə oturur moizə edirdi. Buyurdu ki: “Mənim ayağım, bütün övliyanın boyunları üzərindədir”. Zamanında olan bütün övliya, onu özlərindən çox yüksək olduğunu etiraf edər və üstünlüyü qarşısında boyunlarını bükərdilər. Bunlar meydana çıxdıqca, Yusif Həmədani həzrətlərinin illər öncə kəramət olaraq xəbər verdiyi hallar aydın olurdu.

İbn Səkkaya gəlincə o, Yusif Həmədani ilə aralarında keçən o hadisədən sonra şəri elmlərlə məşğul oldu. Çox gözəl nitqi vardı. Onun şöhrəti o dövrün sultanına çatmış, o da bunu elçi olaraq Bizansa göndərmişdi. Xristianlar ona çox yaxşı münasibət göstərmişdilər. Nəhayət, onların yalanlarına aldanaraq xristian olmuşdu. Bu hadisəni izah edən şəxs deyir ki: “Bir gün onu gördüm. Xəstə idi. Ölmək üzrə idi. Mən üzünü qibləyə tərəf çevirdim. O başqa tərəfə çevirdi. Təkrar qibləyə çevirdim. O təkrar başqa tərəfə çevirdi və beləcə öldü”.

Əbu Səid Abdullah da deyir ki: “Mən Şama gəldim. Bəzi vəzifələrdə oldum. Həyatım müxtəlif çətinliklər içində keçdi. Yusif Həmədani həzrətlərinin hər üçümüz haqqında da söylədiyi eynilə baş verdi”.

“əl-Məşrəvür-ravi” kitabının müəllifi olan Cəmaləddin Məhəmməd bin Əbu Bəkr əl-Hədrəmi əş-Şafei yazırdı: “Bu əhvalat rəvayət edənlərin çoxluğuna görə, kəlmələri dəyişik olsa belə, məna cəhətdən təvatür halını almış bir hadisədir. Allah taalanın övliyasını inkar etməyə cürət edənlər, nəuzu billah, İbn Səkkanın vəziyyətinə düşməkdən çox qorxmalıdır. Elminin və əməlinin çox olmasına baxmayaraq, İbn Səkkanın sonunda belə bədbəxt bir fəlakətə düşməsinin səbəbinin övliya haqqında ədəbsizlik etməsi olduğu “Behcətül-müsənnif”də Əbdülqadir Geylani həzrətlərinin üstünlükləri izah edilərkən qeyd edilir”.[216]

Mühyiddin Ərəbi (1165-1240) bir kitabında yazır ki, 1205-ci ildə Şeyx Əvhadəddin Hamid Kirmani Konyaya gəldi və belə dedi: “Həmədanda Yusif Həmədani altmış ildən çox insanları doğru

[216] Təbəqatül-kübra. I c. s. 135; Rahber ansiklopedisi. XVIII c. s. 232; İslam alimleri ansiklopedisi. VII c. s. 367.

yola hidayət etmişdir. Bir gün o, bir yerə getmək istədi. Atının yüyənini sərbəst buraxdı. Heyvan onu şəhər kənarındakı bir məscidə apardı. Məsciddə bir gənc bir şey soruşdu. O da cavabını verdi". Mühyiddin Ərəbi burada deyir ki: "Sadiq olan mürid, mürşidi öz yanına çəkər".

Yusif Həmədani 1140-cı ildə Heratdan Mərvə gedərkən yolda vəfat etmişdir. Onun türbəsi Mərv şəhərindədir.

### 2.43. Əbu Səd Əhməd bin Hacı əl-Xoyi

Vaiz Əbu Səd Əhməd bin Hacı bin Əmmar əl-Xoyi məşhur fəqih və hədisşünas idi. Əbülqasim bin Əbu İshaq əs-Səbinin tələbəsi olmuş ondan hədis dinləmişdi. Əbülqasim bin əl-Əsakir Azərbaycan, İran və Xorasana səyahəti vaxtı Xoyda onunla görüşüb dərslərində iştirak etmişdi. Ölüm tarixi məlum olmasa da, XII əsrdə yaşadığı bilinir.[217]

### 2.44. Əbu Bəkr Məhəmməd bin Aşir əl-Marağİ

Əbu Bəkr Məhəmməd bin Aşir bin Məruf Şirvani fəqih və hədisşünas bir alim idi. Mömin və saleh insan olan Əbu Bəkr Məhəmməd bin Aşir fiqh elmini İlkiya əl-Hərrasidən öyrənmişdi. O, Əbu Bəkr Məhəmməd Şirvani Əbülxeyr Mübarək bin Hüseyn əl-Qəssal əl-Müqri və Hibətullah bin Mübarəkdən hədis dinləmişdi. Bioqraf-tarixçi Səmani Əbu Bəkr Məhəmməd Şirvaninin tələbəsi olduğunu, ondan hədis dinlədiyini və dinlədiyi hədislərin az bir qismini yazdığını öz əsərində qeyd etmişdi. Əbu Bəkr Məhəmməd Şirvani Bağdadda yaşamış, Nizamiyyə mədrəsəsində dərs vermişdi.

Əbu Bəkr əl-Marağİ 1145-ci ildə vəfat etmişdir.[218]

### 2.45. Əbu Yaqub Yusif bin Adəm əl-Marağİ

Əbu Yaqub Yusif bin Adəm 1117-ci ildə doğulmuşdur. Əbu Abdullah əl-Fəravinin tələbəsi olmuş, ondan Müslüm bin Həccac ən-Nisaburinin (821-875) "Səhih" adlı hədis külliyatındakı hədisləri və şərhini dinləmişdi. Əbu Bəkr Əbdürrəzzaq bin Əbdülqadir əl-Ceyli Bağdadda ondan hədis dinləmişdi. Həmçinin fəqih Hilal bin Məhfuz ər-Rəsini də ondan hədis dinləmiş və nəql etmişdi. Əbu Yaqub Yusif Marağİ Dəməşqdə hədis dərsləri verərkən onun dərslərində çox sayda tələbə toplaşırdı.

Əbu Yaqub 1173-cü ilin oktyabr ayında vəfat etmişdir.[219]

### 2.46. Əbülfəzl bin Əli əl-Uşnuhi

Şeyx Əbülfəzl Əbdüləziz bin Əli bin Əbdüləziz bin Hüseyn Uşnuhi fəqih və hədisşünas alim idi. Bağdadda təhsil almış, şeyxülislam Əbu İshaq İbrahim Şirazinin tələbəsi olmuş, ondan Şafei fiqhini öyrənmişdi. Hədis dinləmək məqsədi ilə səyahət etmiş, bir çox hədisşünaslarla yanaşı, Əbu Cəfər bin Məsləmədən də hədis dərsləri almışdı. Səyahətini başa vurduqdan sonra, Bağdada getmiş, bir müddət Bağdadda yaşadıqdan sonra Azərbaycana qayıtmış, vətənində tədris və tədqiqat işləri ilə məşğul olmuşdu. Fəzl bin Məhəmməd ən-Nəvqani ondan hədis dinləmişdi. Əbülfəzl Əbdüləziz Uşnuhi çox ibadət edən, zahid insan idi. O, İslamın vərəsəlik hüququna dair "əl-Uşnuhiyyə fil-fəraiz" adlı əsər qələmə almışdı. Əsər daha çox "Fəraizül-Uşnuhiyyə" adı ilə tanınmışdı. Cəmaləddin Əsnəvi onun öz vətənində vəfat etdiyini yazsa da, ölüm tarixini qeyd etməmişdir. Alimin "əl-Uşnuhiyyə fil-fəraiz" adlı əsərinin öz dəsti xətti ilə 1111-ci ildə yazılmış nüsxəsi mövcuddur və Qahirədə, Misir Milli kitabxanasında saxlanılır. Bu əsərin Türkiyədəki iki əlyazma nüsxəsindən biri Çorum Həsən paşa İHK, digəri isə Konya BYEK-də qorunur. Konyadakı nüsxənin üzü 1575-ci ildə Zeynəddin bin Ağacan Naxçıvani adlı şəxs tərəfindən köçürülmüşdür. Şeyx Əbdüləziz Uşnuhi həmçinin "əl-İlhaq" və "Kifayə

---

[217] Elnur Nəsirli. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər.
[218] Həmin mənbə.
[219] Həmin mənbə. s. 177.

fil-fiqh" adlı əsərlərin də müəllifi idi. İbn əs-Səlah Şəhrəzuri onun ölüm tarixini qeyd etməsə də, Uşnuhda vəfat etdiyini yazmışdır. Ömər Rza isə onun 1155-ci ildə vəfat etdiyini qeyd etmişdir.[220]

### 2.47. Şihabəddin əs-Sührəverdi

Övliyanın böyüklərindən, hədis və fiqh elmlərinin nəhəng nümayəndələrindən biri Əbu Abdullah Ömər bin Məhəmməd əs-Sührəverdi əl-Azərbaycanidir. Şihabəddin Sührəverdi 1144-cü ildə Azərbaycanın ən qədim torpaqlarından biri olan Sührəverddə doğulmuşdur. O, daha çox fəlsəfə, xüsusilə də təsəvvüf fəlsəfəsi sahəsində tanınsa da, onun hədis elminin görkəmli nümayəndələrindən olması heç şübhəsizdir. Şəhabəddin Sührəverdi sufizmdə Sührəverdiyyə təriqətinin banisidir. Mənbələrə görə, onun nəsəbi, soyu xəlifə Əbu Bəkrə çatır. O, görkəmli alim Şeyx Əbu Nəcibin qardaşı oğludur.

Mənbələr onun nəsil şəcərəsini Şəhabəddin Əbu Həfs və Əbu Abdullah Ömər bin Məhəmməd bin Abdullah bin Səd bin Hüseyn bin Qasim bin Nəzr bin Qasim bin Məhəmməd bin Abdullah bin Əbdürrəhman bin Qasim bin Məhəmməd bin Əbu Bəkr bin əl-Qühafə əl-Qüreyşi ət-Təmimi əs-Sührəverdi əs-Sufi əl-Bağdadi kimi göstərir.[221]

Şihabəddin Sührəverdi elm öyrənmək üçün Bağdada getmiş, orada əmisi böyük alim Əbu Nəcib Əbdülqahirin söhbətlərində və dərslərində iştirak etmiş, ondan təsəvvüf elmlərini öyrənmişdi. Buna görə də onun ilk müəlliminin əmisi olduğu deyilir. Sührəverdi, eyni zamanda məşhur sufi Əbdülqadir Geylaninin söhbətlərində də olmuşdur. Bəsrədə də Əbu Məhəmməd bin Abdullahın dərslərinə qatılmışdır. Əbu Həfs Sührəverdi əmisindən, Əbu Məhəmməd Hibətullah bin Şibli, Əbülfəth bin Qaib, Mömər bin Tahir, Əbu Zürə Məqdisi, Əbülfütuh Tai və bir çox alimdən hədisi-şərif dinləyib, onlardan rəvayət etmək səlahiyyətini əldə etmişdir.

Əbu Həfs Sührəverdi fəqih, fəzilətli, sufi, təqvalı, zahid, arif, elmi dünyagörüşdə zamanın şeyxi idi. Şəmsəddin əz-Zəhəbi (1274-1348) məşhur "Alamün-nübəla" adlı əsərində onun böyük hədisşünas olduğunu və ondan İbn Nüqtə, İbn əd-Dəbisi, İbn Nəccar, əz-Ziya, əl-Qusi, İbn Nablusi, Zəhirəddin Məhəmməd Zəncani, Əbülğənaim bin Alan, Əbülfərəc bin Zeyn, Əbu İshaq bin əl-Vasiti, Əbülməali əl-Əbrəquhi, Rəşid bin Əbülqasim və digər şəxslərin hədis rəvayət etdiklərini, Fəxr bin Əsakir, Şəms bin Şirazi, Qazı əl-Hənbəli və başqalarının isə ondan hədis rəvayət etmək üçün icazə aldıqlarını yazır.[222]

Onu alimlər həmişə yaxşı sözlərlə öymüşlər. Şəmsəddin əz-Zəhəbi (1274-1348) yazırdı:

"İbn Nəccar onun haqqında deyir: "Əbu Həfs Ömər Sührəverdi elmi dünyagörüşdə zamanının şeyxi idi. O, sufilik yolunu tutmuşdu. Fiqh, müqayisəli hüquq və ərəb dili və ədəbiyyatını oxumuş və bir çox alimdən hədisi-şərif dinləmişdi. Sonra təsəvvüf yolunu tutmuş, zikr və ibadətlə məşğul olmuşdu. Sonra insanlara dərs və moizə verməyə başlamış, əmisinin Dəclə kənarındakı mədrəsəsində dərs vermişdi. İslam bölgələrinin hər tərəfindən onun söhbət və dərslərini dinləməyə bir çox alim və avam camaat gəlirdi. Onun sözlərinin bərəkəti ilə günahkarlar dərhal tövbə edərdi. Tələbələri o zamanda ulduzlar kimi ətrafa elm yayardılar. Onun sultanlar yanında sahib olduğu mövqeyə və hörmətə başqa kimsə nail olmamışdı. Ömürünün sonunda xəstələnsə də, zikrlərini azaltmamış, Allah taalanı həmişə zikr etməyə davam etmişdi. O, 110 yaşına yaxın həccə getmişdi. Vəfat etdikdə, kəfən pulu belə yox idi".[223]

Sührəverdinin təsəvvüf silsiləsi aşağıdakı vasitə ilədir:

Peyğəmbərimiz həzrət Məhəmməd (s), İmam Əli bin Əbu Talib (ə), İmam Hüseyn (ə), İmam Zeynülabidin (ə), İmam Məhəmməd Baqir (ə), İmam Cəfər Sadiq (ə), İmam Musa Kazim (ə), İmam Əli ər-Rza (ə), Məlum əl-Kərxi, Sirri Səkati, Şeyx Əbülqasim Cüneyd bin Məhəmməd əl-Qavariri əl-

---

[220] Həmin mənbə.
[221] Şəmsəddin əz-Zəhəbi. Siyəru alamin-nübəla. XXII c. s. 377. "Şihabəddin Ömər" maddəsi.
[222] Həmin mənbə.
[223] Həmin mənbə.

Bağdadi (Cüneydiyyə təriqətinin piri) (öl. 911), Şeyx Əbu Əli ər-Ruzbari (öl. 933), Şeyx Əli əl-Katib (öl. 963), Şeyx Əbu Osman Səid bin Salam əl-Məğribi (öl. 984), Şeyx Əbülqasim Əhməd bin Əli bin Əbdülvahid əl-Kürkəni (öl. 1058), Şeyx Əbu Bəkir ən-Nəssac (öl. 1082), Şeyx Əbülfütuh Əhməd bin Məhəmməd bin Məhəmməd əl-Qəzali (öl. 1165), Şeyx Əbünnəcib Ziyaəddin Əbdülqahir bin Abdullah əl-Bəkri əs-Sührəverdi (öl. 1168), Şeyx Şihabəddin Ömər əs-Sührəverdi (Bağdad) (Sührəverdiyyə təriqətinin piri) (öl. 1234).

Şəhabəddin Sührəverdinin çox böyük dini-fəlsəfi fikirləri vardır. O, fikirlərinin birində deyirdi: "Övliyadan yüksək mərtəbədə olan birinə, heç bir kəramət və möcüzə verilməyə bilər. Çünki kəramətlər yəqini, etiqadı artırmaq üçün verilir. Yəqin birinin kəramətlərə, möcüzələrə ehtiyacı olmaz. Bütün bu kəramətlər, Zati-İlahinin zikrindən və ürəyin bu zikrlə zinətlənməsindən aşağıda qalar".

Şihabəddin Sührəverdi oğuluna etdiyi nəsihətdə belə buyurur:

"Ey oğul! Sənə Allah taaladan qorxmağı, Allah taalanın və Rəsulunun, ana-atanın və övliyanın haqqına riayət etməyi tövsiyə edirəm. Əgər bunu etsən, Allah taala səndən razı olar. Aşkarda və gizlində Allah taalanın əmr və qadağalarına riayət et. Gizli və açıq, daxildən və zahirdən, təfəkkürlə, hüznlə və ağlayaraq Qurani-Kərimi oxumağa laqeyd yanaşma. Elmdən bir addım belə üz çevirmə. Elm öyrən. Təsəvvüf əhli olduğunu söyləyib zəlalət içərisində olanlardan, onların avamından olma. Çünki onlar din oğruları və müsəlmanları doğru yoldan sapdıranlardır. Peyğəmbərin sünnəsinə yaxşı sarıl. Dində sonradan ortaya çıxıb dindən imiş kimi inanılan, halbuki dində olmayan bidətlərdən çəkin. Çünki hər bidət zəlalətdir. Qadınlarla, bidət sahibi kəslərlə, zənginlərlə və nəfslərinin arxasında gedən avam ilə birgə olma. Çünki bunlar, sənin dinini aradan qaldırar. Dünyada az bir şeylə qənaət et. Təkliyə yaxşı sarıl. Səhv və günahların üçün çox ağla. Halalından yeməyə çalış. Çünki halal yemək və haramlardan çəkinmək, bütün xeyirlərin və yaxşılıqların açarıdır. Harama əsla meyl etmə. Çünki harama meyl etsən, qiyamət günü Cəhənnəmdə yanarsan. Halal olan əşyaları gey. Əgər bunlara riayət etsən, imanın və ibadətin dadını duyarsan. Allah taaladan davamlı qorx. Sabah qiyamət günündə, Allah taalanın hüzurunda halının nə olacağını unutma. Gecə namaz qılmağı və gündüz oruc tutmağı çoxalt. İmam və müəzzin olmadığın zaman da camaatla namaz qılmağı əldən buraxma. Başçı olmağı istəmə. Çünki başçı olmağı istəyən və sevən kimsə, əbədi olaraq nicat tapmaz. Hökm verənlərin və sultanların məclislərində olma. İnsanlarla münaqişə etmə. Səni mədh edən kimsənin sözünə aldanma. Səni pisləyən kimsənin sözlərindən ötəri də kədərlənmə. Hər kəsə qarşı yaxşı xasiyyətli ol. Təvazökarlıqdan yapış. Çünki Peyğəmbər (s): "Kim Allah taalanın razılığı üçün təvazökarlıq etsə, Allah taala onu yüksəldər. Kim qürurlansa və lovğalansa, Allah taala onu alçaldar", - deyə buyurmuşdur. Hər vaxt yaxşı kimsəyə qarşı da, pis kimsəyə qarşı da ədəbli ol. Kiçik-böyük hər kəsə mərhəmətli ol. Onlara qarşı şəfqət və mərhəmət gözüylə bax. Çox gülmə. Çünki gülmək qəflətdəndir və ürəyi öldürər. Peyğəmbər (s): "Əgər siz mənim bildiklərimi bilsəydiniz, az gülər, çox ağlayardınız", - deyə buyurmuşdur. Allah taalanın rəhmətindən ümidini kəsmə. Ümid ilə qorxu arasında yaşa.

Ey oğul! Dünyanı tərk et, yəni haramları, Allah taalanın qadağan etdiyi şeyləri və dünya sevgisini tərk et. Çünki dünyanı istəyənin və sevənin dini gedər. Namazını qıl, orucunu tut. Allah taalanın dostlarına malın, bədənin və mövqeyinlə xidmətçi ol. Onların ürəklərini qazan, onların yaşayışlarına görə hərəkət et...

Ey oğul! Comərd ol. Allah taalanın sənə ruzi olaraq verdiyi şeylərdə comərd ol. Xəsislikdən, həsəddən, kin və hiylədən çəkin. Çünki xəsis və həsədçi kimsənin yeri Cəhənnəmdir. Heç bir zaman halını insanlara açma. Zahirini bəzəmə. Çünki zahirini bəzəmək qəlbin xarab olmasındandır. Ruzi mövzusunda Allah taalanın vədələrinə güvən. Çünki Allah taala hər canlının ruzisini verəcəyinə dair zamin oldu. Allah taala Qurani-Kərimdə **"Yerdə gedən nə qədər canlı varsa, hamısının ruzisi ancaq Allah taalaya aiddir",** – deyə buyurdu.[224] İnsanlardan heç bir şey gözləmə. Haqqı söylə. Məxluqatdan

[224] Hud surəsi, ayə 61.

heç birisinə meyl etmə. İstəklərini tərk et. Peyğəmbər bir hədisi-şərifində: "Adamın daxili istəklərini tərk etməsi, onun müsəlmanlığının gözəlliyindəndir", - deyə buyurdu.

Ey oğul! İnsanlara nəsihət verən və faydalı ol. Yeməyi, içməyi, danışmağı və yuxunu azalt. Yalnız ehtiyacın qədər ye. Zərurət olmadan danışma. Namaz, oruc və Allah taalanın zikri ilə məşğul ol. Ürəyin qəmli, gözün yaşlar tökücü, əməlin xalis, duan həmd, yoldaşların kasıb, evin məscid, malın elm, zinətin zöhd olsun.

Ey oğul! Bu fani dünyanın zinətinə aldanıb qürurlanma. Bir kimsə dünyaya meyl etsə həlak olar. Axirət səfərinə hazır ol. Fürsət əlində ikən, Allah taaladan başqasına könül bağlama. Bir gün gələr peşmanlığın fayda verməz".

Sührəverdinin "İman nəsihətlərinin inşası və yunan qəbahətlərinin ifşası" ("Rəşf ən-nəsaih əl-imaniyyə və kəşf əl-fədaih əl-yunaniyyə"), "Doğru yolu bildirmək və möminlərin əqidəsi" ("İlam əl-hüda və əqidət ərbab ət-tüqa"), "Quranın təfsirinə dair bəyanın pis əməli" ("Nüğbət əl-bəyan fi təfsir əl-Quran"), "Fəqirliyə dair traktat" (Risalə fil-fəqr"), "Ariflərin məqamları" ("Məqam əl-arifin"), "Sufi libası geyməyə dair traktat" ("Risalə fi lübs əl-xirqə"), "Sührəvərdi vəsiyyətləri (əl-Vasaya əs–Sührəvərdiyyə"), "Müridlərin irşadı və taliblərin nicatı" ("İrşad əl–müridin va nicat ət-talibin"), "Təsəvvüfə dair traktat" ("Risalə fit-təsəvvüf"), "Ruhun zikrində fütuhun vaqiəsi" ("Sünuh əl-fütuh bi-zikr ər-ruh"), "Kəlamda imkan qayəsi" ("Ğayət əl-imkan fil-kəlam"), "Fiqhin neməti" ("Nemət əl-fiqh"), "Seyr və uçma" ("əs-Seyr vat-teyr"). "Yollara dair" ("Fis-süluk"), "Fütüvvə kitabı" ("Fütüvvətnamə"), "Avarifül-məarif" ("Biliklərin töhfələri") adlı əsərləri vardır.

Xatırladaq ki, "Avarifül-məarif fi bəyani tariqil-qövm" təsəvvüfə dair bir əsərdir. Əsər nəinki İslam dünyasında, o cümlədən bütün dünyada məşhur olub və müəllifə dünya şöhrəti gətirmişdir. Əsəri çox əla şəkildə tərtib edən müəllif, onu bütövlükdə təsəvvüf fəlsəfəsinə həsr etmiş və burada işlətdiyi hər bir fikri Peyğəmbərin hədisi-şərifinə istinad etmişdir. Buna görə də əsər, eyni zamanda hədisşünaslıq baxımından da böyük əhəmiyyət daşıyır. Məhz bu səbəbdəndir ki, zaman-zaman görkəmli alimlər ona şərhlər yazmış və onun əhatə etdiyi hədisləri bir araya toplamışlar. Onlardan Məhəmməd bin Zeyn bin Sümeytin "əd-Dürər vəl-lətaif fi ixtisari əvarifil-məarif" və Əhməd bin Səmid əl-Qəmarinin "Əvatifül-lətaif min əhadisi əvarifil-məarif" əsərini qeyd etmək olar. Sonuncu əsər 2001-ci ildə Mədinə şəhərində "Məktəbətu Məscidin-nəbəvi" mətbəəsində nəfis formada çap olunmuşdur. əl-Qəmarini Sührəverdinin "Avarifül-məarif" əsərində çoxlu sayda hədislərin olduğunu qeyd etdikdən sonra, burada bəzi hədislərin sənədli (müsnəd) olduğunu, bir qrupunun isə sənədsiz (müəlləq) olduğunu yazır. O, hər iki növdən olan hədisləri çıxarmış (istixrac) və onların digər mənbələr əsasında sənədlərini təsbit etməyə çalışmışdır. Həmçinin onun kitabda izlədiyi metodlardan biri də nəql olunan hədisin sənədindəki ravilər (rical) haqqında məlumat verməsidir. Müəllifə əsərin əvvəlində Sührəverdi haqqında geniş məlumat vermiş və onu haqlı olaraq zamanının ən görkəmli elm xadimlərindən biri kimi təqdim etmişdir.

Bunlardan başqa, Muhibəddin ət-Təbərinin (1218-1295) "Qürərül-lətaif müxtəsər əvarifül-məarif" əsəri də "Avarifül-məarif" əsərinə yazılmış ən yaxşı şərhlərdən biridir.

Şəmsəddin əz-Zəhəbi (1274-1348) Şəhabəddin Sührəverdinin təriqi ilə aşağıdakı hədisi rəvayət etmişdir:

"Əbülmüəlla əl-Əbərqi dedi: "Sizə Əbu Həfs Ömər bin Məhəmməd xəbər verdi ki, Hibətullah Əhməd bin əş-Şibli, Məhəmməd bin Məhəmməd əz-Zeynəbi, Əbu Tahir əl-Müxlis, Abdullah əl-Bəğəvi, Əbu Nəsr ət-Təmmar, Həmmad bin Sələmə, Əbülvürqadan, o da Abdullah bin Əbi Ufadan, o da Peyğəmbərdən belə nəql etdi: "Hər kəs on bir dəfə Allahdan başqa ilah yoxdur, Onun heç bir şəriki yoxdur, O, təkdir, ehtiyacsızdır, doğmayıb, doğulmayıb və onun heç bir tayı-bərabəri də yoxdur sözlərini desə, Allah ona min-min (milyon) savab yazar".[225]

[225] Həmin mənbə.

“Avariful-məarif” Şihabəddin Sührəvərdinin ən böyük və ən məşhur əsəridir. Prof. Zakir Məmmədov qeyd edir ki, müəllifin öz sağlığında belə yüksək qiymətləndirilən bu traktat təsəvvüfə dair əsərlər içərisində mühüm yer tutur, Fuad Köprülünün “Türk ədəbiyyatında ilk mütəsəvviflər” əsərində “Biliklərin töhfələri” əsəri “mükəmməl bir əxlaqi-sufiyyə məcmusu” adlandırılır.

Dünyanın bir çox kitabxanalarında, o cümlədən Özbəkistan EA Biruni adına Şərqşünaslıq İnstitutunun Əlyazmaları Fondunda “Biliklərin töhfələri” əsərinin müxtəlif əlyazmaları saxlanılır. Onlardan biri 1658-ci, digəri 1817-ci ildə nəsx-nəstəliq xətti ilə köçürülmüşdür. Başqa bir nüsxənin köçürülmə tarixi isə naməlumdur. “Biliklərin töhfələri” traktatının məlum olan ən qədim (1297-1298-ci illərdə Dəməşqdə köçürülmüş) nüsxəsi Sankt-Peterburqda saxlanılır.

Əbuhəfs Sührəvərdinin bu əsərini Arifi türk dilinə, İsmayıl bin Əbdülmömün bin İsmayıl (?-1266) fars dilinə çevirimişlər. Zakir Məmmədov əsərin orijinal ərəbcədən alman dilinə tərcüməsinin çap olunduğunu, əsərdə mötədil sufizmin bütün məsələləri müfəssəl surətdə araşdırıldığını bildirmişdir. Alim yazır ki, sufiliyin mənşəyi və mahiyyəti, sufi sözünün təfsiri, sufi adlanan bəzi təriqətlərin məlamətliyin, qələndəriliyin və s. tənqdi, şeyxlik rütbəsinin müəyyən edilməsi, insanın özünü dərk etməsi, mükaşiflər (haqqı görmə), hallar, məqamlar, hal ilə məqam arasında fərqlərin izahı və digər məsələlər “Biliklərin töhfələri” əsərində geniş işıqlandırılmışdır. Əbuhəfs Sührəvərdi altmış üç fəsildən (bab) ibarət mündəricə təqdim etdikdən sonra yazır: “Bu fəsillər sufilərin elmlərindən bəzisini - onların hallarını, məqamlarını, davranışlarını, vəcdə gəlmələrinin qəribəliklərini, biliklərini və tövhidlərinin həqiqətlərini, işarələrinin dəqiqini, istilahlarının incəliklərini əhatə edir.[226]

Əbuhəfs Sührəvərdi 1234-cü ildə vəfat etmişdir.[227]

## 2.48. Bəşir bin Hamid ət-Təbrizi

Nəcməddin Zeynəbi deyə məşhur olan Bəşir bin Hamid Təbrizi Azərbaycan ərazisində yetişmiş görkəmli təfsir, hədis, fiqh və təsəvvüf alimlərindəndir. Mənbələr onun nəsil şəcərəsinin Bəşir bin Hamid bin Süleyman bin Yusif bin Süleyman bin Abdullah əl-Cəfəri ət-Təbrizi olduğunu yazır.[228] Künyəsi Əbu Nöman olub Nəcməddin ləqəbi ilə tanınırdı. O, 1174-cü ildə Ərdəbildə doğulmuş, fiqh elmi ilə yanaşı, hədis, təfsir, qiraət və təsəvvüf elmlərində də mütəxəssis idi.[229] O, Fiqh elmini Bağdadda Əbülqasim bin Fəzlan, Yəhya bin Rəbi və digər görkəmli alimlərdən öyrənmişdi. Fətva verir, elmi disputlarda iştirak edərdi. Nizamiyyə mədrəsəsində dərs vərmək üzrə təyinat almış və orada da dərs demişdir. Onun çox qiymətli əsərləri vardır. Təfsirə dair əsəri təfsirşünaslığın ən gözəl əsərlərindəndir.[230]

Elm və fəzilətdə məşhur və böyük bir alim olan Bəşir bin Hamid Əbdülmünim bin Küleyb, Yəhya əs-Səqəfi, İbn Sükeynə, İbn Təbərzəd və digər başqa alimlərdən hədisi-şərif dinləyib öyrənmişdi. Ondan isə Hafiz Şərəfüddin Əbdülmünim bin Xələf əd-Dimyati, Hafiz Zahiri, Mühib Təbəri və başqa alimlər hədisi-şərif rəvayət etmişlər.[231]

İbn Cövzinin köməkliyi ilə xəlifə Müstənsir zamanında Hərəmi-şərifin şeyxliyinə təyin edildiyi mənbələrdə qeyd edilmişdir.

Qurani-Kərimin təfsirinə dair yazdığı “ət-Təfsirül-kəbir” (və ya “Təfsiri-Nəcməddin”) adındaki əsəri bir neçə cild halında çap olunmuşdur. Əsər çox qiymətlidir.[232]

Onun hədisşünaslığa aid ən məşhur əsəri isə “əl-Hədisül-ərbəin fi umurid-din”dir. Müəllif əsərində Peyğəmbərdən nəql olunmuş qırx hədisi-şərifi bir araya toplamışdır. Əsərin adından da

[226] Zakir Məmmədov. Əbuhəfs Sührəvərdinin həyatı və əsərlərinə dair.
[227] Həmin mənbə.
[228] Alimin həyatı üçün bax: İslam alimleri ansiklopedisinın müvafiq maddələrinə.
[229] Məhəmməd bin Əli əd-Davudi. Təbəqatül-müfəssirin. I c. Darül-kütubil-ilmiyyə, 1403/1983. s. 115.
[230] Cəlaləddin əs-Süyuti. Təbəqatül-müfəssirin. Qahirə, Məktəbətül-vəhbə, I çap, 1396 h/q. s. 8.
[231] Tacəddin əs-Sübki. Təbəqatüş-Şafeiyyə. VIII c. 1383/1964. s. 133.
[232] Şəmsəddin əz-Zəhəbi. Siyəru alamin-nübəla. II c. s. 6.

göründüyü kimi, o dini işlər, insanın cəmiyyətdə dini vəzifələri haqqındadır. O, əsəri gözəl şəkildə tərtib edərək hədisləri qırx başlıq altında toplamış və qeyd etdiyi hədislərə yeri gəldikcə şərhlər də vermişdir. Əsər müəllifin İslam dünyasında hədisşünas kimi tanınmasında mühüm rol oynamışdır.

Bəşir bin Hamidin üçüncü məşhur əsəri "Əhasinül-kəlam və məhasinül-kiram" adlanır. Bu əsər daha çox əxlaqi mövzuda olmasına baxmayaraq, hədisşünaslıq baxımından da qiymətlidir. Çünki müəllif burada əxlaqi məsələləri hədisi-şəriflər çərçivəsində işıqlandırmağa çalışmışdır.

Bəşir bin Hamid ömrünün sonuna doğru Məkkəyə getmiş və 1248-ci ildə elə orada da vəfat etmişdir.[233]

## 2.49. Şəmsəddin Məhəmməd ət-Təbrizi

Şəms Təbrizi ünvanı ilə məşhur olan Şəmsəddin Məhəmməd bin Əlaəddin bin Məlikdad Azərbaycan ilahiyyatşünaslığının tanınmış nümayəndələrindəndir. Şəms Təbrizi nisbəsindən də məlum olduğu kimi, Azərbaycanın qədim paytaxtı və mədəniyyət mərkəzi olan Təbriz şəhərində 1185-ci ildə doğulmuşdur.[234] O, daha çox Şəmsəddin, yəni "Dinin günəşi" ləqəbi ilə tanınmışdır.

Daha kiçik yaşlarda ikən mənəvi elmləri öyrənməyə başlamış və təhsildə göstərdiyi qabiliyyətinə görə ustadlarının diqqətini çəkmişdir. O, din elmlərini öyrəndikdən sonra gənc yaşlarında təbrizli Əbu Bəkr Səllala mürid olmuş, bütün məşhur şeyxlərdən feyz almağa çalışmış və bu səbəblə diyar-diyar dolaşmışdır. Bu gəzintisinə görə ona "Şəmsəddin Perende" (uçan Şəmsəddin) deyilmiş, ayrıca Təbrizdə təriqət pirləri və həqiqət arifləri ona "Kamili-Təbrizi" adını vermişlər.[235]

Daha sonraları Sacaslı Şeyx Rüknəddin, Təbrizli Səlahəddin Mahmud ilə sufi Nəcməddin Kübranın xəlifələrindən Baba Kamala yetişərək onlardan feyz almışdır. Şəmsəddin Təbrizi davamlı bir arayış içərisində olmuş, mənəvi bir işarət üzərinə də Mövlana Cəlaləddin Rumini arayıb tapmışdır. Dünyaya önəm verməyən Şəms Mövlana ilə üç illik sürən bərabərliyi nəticəsində onun hayatında yeni üfüqlərin açılmasına səbəb olmuşdur.

Cəlaləddin Rumi Şəmsə öz məhəbbətini belə izhar etmişdir:

**Mən Zöhrə təki kitablara əyilirdim,**
**Katiblər qarşısında oturursdum.**
**Lakin sənin üzünü görüb məst oldum**
**Və qamış qələmləri sındırdım.**
**Sənə istəkdən doğan göz yaşlarımla dəstamaz alıb**
**Namaz vaxtı sənin üzünü qibləyə çevirdim.**
**Əgər sənsiz diri qalsam**
**Məni axıra qədər yandır.**
**Mənim başımı əlimdən al**
**Əgər ondakı ağıl sənin olmayacaqsa!**
**Kəbədə, kilsədə, məsciddə sənə dua edirəm**
**Sən mənim məqsədimsən, həm yerdə, həm göydə!**
**Mən sənin çörəyini yeyib büsbütün doymuşam**
**Mən sənin suyundan bir qurtum içmişəm, mənə su lazım deyil.**
**Kimə pərəstiş edirsənsə, sənin qiymətin də o həddədir**
**Sənə pərəstiş etməklə mən necə də xoşbəxtəm!**

1246-cı ildə Konyanı tərk edib Şama gələn Şəmsin ayrılığına cox darıxan Rumi, onun yerini öyrəndikdən sonra ona aşağıdakı şeirini göndərir:

---

[233] Cəlaləddin əs-Süyuti. Təbəqatül-müfəssirin. s. 8.
[234] Ağa Bozork ət-Tehrani. əz-Zəriə ila təsanifiş-şiə. IX c. II hissə s. 539.
[235] Reyhanətül-ədəb (farsca). III c. s. 238-240; Məşahiru şüəraiş-şiə. V c. "Şəms Təbrizi" maddəsi.

**Ah, tezliklə gedin və tapın,**
**Sevimli dostu evə gətirin.**
**Şirin sözlər və xoş nəğmələrlə,**
**O Ay üzlünü bizim yanımıza çəkin.**
**Onun sözü qüdrətli və bütövdür,**
**O, çayları geriyə döndərə bilər.**
**Onun vədlərinə və möhlət istəməsinə,**
**İnanıb, özünüzü aldatmağa qoymayın.**
**Bircə o xoşluqla və sağ-salamat,**
**Qayıdıb qapımızı döyəydi.**
**Onda siz elə bir şey görəcəksiniz ki,**
**Heç Tanrının özü də elə şey görməyib...**

Şeiri oxuyan Şəms Konyaya qayıdır. Burada onu böyük şərəflə qarşılayır və onun şəninə təntənəli ziyafətlər verirlər. Şəmslə Ruminin dostluq münasibətləri əvvəlki qaydasına düşür. Rumi yenə də bütün vaxtını Şəmslə keçirərək, ondan bir an belə ayrılmır. Şəmsəddin Təbrizi Ruminin bacısı Kimiya ilə ailə qurur.

Onun həyatı barədə məlumat olduqca azdır. Məlum olanlar da müəmmalıdır. Bəzi salnaməçilər, hətta onun şahzadə oluduğuna da israr etmişlər. Hər halda əsərlərindən və sufilik fəaliyyətindən belə bir nəticə çıxarmaq olar ki, o, kamil ilahiyyat təhsili görmüşdür. Yüksək erudisiyasına, hazırcavablığına və müəllimlik bacarığına görə Şəms hələ gənc yaşlarından “mürşidi-kamil” adını almışdır. O, qeyri-adi fiziki gözəlliyi və mənəvi təmizliyi ilə seçilmişdir. İran alimi Məhəmmədəli Tərbiyət onun haqqında yazır ki, Şəmsəddin Təbrizi ruh qədər incə idi. O, dinin və həqiqətin günəşi idi.

Təəssüflər olsun ki, Şəms Təbrizinin ilahiyyata aid hər hansı bir əsəri günümüzədək gəlib çıxmamışdır. Lakin buna baxmayaraq, onun bəzi kəlam və nəsihətləri Şəmsin görkəmli bir sufi olmasından əlavə, həm də onun böyük bir ilahiyyatçı olmasından xəbər verir. Həmçinin onun kəlamlarında hiss edilən dolğun mənaların Peyğəmbərimizin hədisi-şəriflərindən ilhamlandığını açıq-aşkar şəkildə ortaya qoymaqdadır.

Şəms Təbrizinin sözlərini onun müridləri toplayıb kitab halına salmış və ona “Məqalat” adını vermişlər. Xatırladaq ki, Şəmsin günümüzədək gəlib çıxan əsəri yalnız “Məqalat”dır. Əsər doğma dilimizə tərcümə edilmişdir.[236]

Şəms 1248-ci ildə vəfat etmişdir. Onun vəfat səbəbi dəqiq olaraq bilinmir. Hazırda Konyada qəbri-şərifi ziyarət olunur.

## 2.50. Şəhabəddin Məhəmməd bin Xəlil əl-Xoyi

Qazıl-qüzat Şihabəddin Əbu Abdullah Məhəmməd bin Əhməd bin Xəlil bin Səadə bin Cəfər əl-Xoyi fəqih və hədisşünas alimlərdəndir. O, qazıl-qüzat Şəmsəddin Əhməd əl-Xoyinin oğludur. 1229-cı ildə Dəməşqin Adiliyyə səmtində anadan olmuş və bu şəhərdə böyümüşdü. Alim ailəsində böyüyən Şihabəddin Xoyi hələ kiçik yaşlarından elmi biliklərə yiyələnməyə başlamışdı. O, 11 yaşında ikən atasını itirmişdi. Atasının vəfatından sonra Adiliyyə mədrəsəsində qalmış və tələbəliyə başlamışdı. Tezliklə o, öz yaşıdlarından daha istedadlı və çalışqan olduğunu göstərmişdi. Şihabəddin Xoyi fenomenal yaddaşa sahib idi. O, istənilən mövzuya dair bilikləri asanlıqla əzbərləyib yaddaşında saxlaya bilirdi. Üstün bilik, bacarıq və istedadı ilə tanınmış və hələ çox gənc yaşlarında Dimağiyyə mədrəsəsində dərs deməyə başlamışdı. Daha sonra Adiliyyə və Qəzzaliyyə mədrəsələrində də dərs vermişdi. İbn Kəsir (1301-1373) Şihabəddin Məhəmməd Xoyinin hədisi, hədis elmlərini və hədis

[236] Şəms Təbrizi. Məqalat. Tərc: Rəsul Mirhəşimli. Bakı, 2015.

alimlərini sevdiyini qeyd etmişdir. O, Misir, Şam vilayəti, Bağdad, Xorasan və İsfahana səyahət edərək buradakı ən tanınmış hədisşünaslardan dərs almışdı. Onun müəllimi olmuş məşhur hədisşünaslardan İbn əl-Lətiy, İbn əl-Müqəyyir, Səxavi, Əbu Abdullah Hüseyn bin əz-Zübeydi, İbn əs-Səlahın adını çəkmək olar. Bundan başqa o, Xorasanda Fəxrəddin Razinin yetişdirdiyi alimlərdən və elmi irsinin davamçılarından olan Qütbəddin əl-Misri və Əllamə ət-Tavusidən məntiq və kəlam dərsləri almışdı. Mənbələr onun hədis dinlədiyi ravi və hədisşünasların sayının 250-300 arasında olduğunu qeyd edir. Alim fiqh, fiqh üsulu, hədis, təfsir, pedaqoqika, riyaziyyat, astronomiya, fəraiz, filologiya, poeziya kimi müxtəlif elm sahələrinə aid 20-dən çox kitabın və bir çox risalənin müəllifi idi. Bunlardan İbn əs-Səlahın (1181-1245) "Ülumül-hədis" adlı əsərinə nəzm formasında şərh, "əl-Fəsih", "Şərhül-füsul", "əl-Müləxxəs", "Əqalimüt-təalim" və yenə nəzm formasında qələmə alınmış, ərəb filologiyasına dair "Kifayətül-mütəhəffiz fil-lüğə" adlı əsərlərin adını çəkmək olar. Pedaqoqikaya aid "Əqalimüt-təalim" adlı əsərində alim təfsir, hədis, fiqh, tibb, həndəsə və riyaziyyat kimi elmlərin tədris metodları haqqında geniş məlumat vermişdir. "Əqalimüt-təalim"in nadir nüsxələrindən biri Paris Milli Kitabxanasında qorunur. Şihabəddin Məhəmməd Xoyi bir müddət Qüds qazısı olmuş, 1259-ci ildə bu vəzifəni icra etmək üçün Dəməşqdən Qüdsə getmişdi. Hülakü xanın Suriyanı işğalı vaxtı (1260-cı ildə) isə Şam diyarını tərk edərək Misirə getmişdi. Bir müddət sonra Qahirə qazılığına təyin olunmuşdu. 5 il bu vəzifəni icra etdikdən sonra qazıl-qüzat, yəni bütün Misirin baş qazısı olmuşdu. Dəməşq qazısı Bəhaəddin bin əz-Zəkinin ölümündən sonra bu şəhərin qazılığı vəzifəsi də ona tapşırılmışdı.

Onun yetişdirdiyi tələbələr arasından məşhur alimlər çıxmışdır. Bunlardan hafiz Yusif bin Əbdürrəhman əl-Mizzi, Elməddin Qasim əl-Birzali, ən-Nəblusi, əl-Xotəni, Cəmaləddin bin əs-Sabuni, Əlaəddin Məqdisinin adını çəkmək olar.

Şihabəddin əl-Xoyi 1294-cü ildə Dəməşqdə vəfat etmişdir. əl-Müzəffəri məscidində qılınan cənazə namazından sonra atasının qəbrinin yanında dəfn edilmişdi.[237]

## 2.51. Mahmud əz-Zəncani

Hədis, fiqh və təfsir elminin böyük alimlərindən hesab olunan Mahmud bin Əhməd bin Mahmud Əbülmənaqib künyəsi ilə tanınmışdır. Onun doğum tarixi bəlli olmasa da, Azərbaycanın ən məşhur bölgələrindən olan Zəncanda doğulduğu məlumdur. O, Nasir Lidinillahdan rəvayət etmək icazəsi almışdı. Müxtəlif elmlərlə məşğul olmasına baxmayaraq, hədis, təfsir və fiqh elmlərində daha mahir ustadlardan sayılırdı. Şəmsəddin Zəhəbi (1274-1348) ondan bəhs edən zaman deyərdi: "Elm dəryasında çox dərinləşmiş biri idi".

İbn Nəccar isə Mahmud Zəncani haqqında belə demişdi: "Mahmud Zəncani üsul elmlərində xüsusi bir biliyə sahib idi. Nizamiyyə mədrəsəsində müəllimlik etmişdi. Daha sonra oradan ayrılmış və müəllim olaraq Müstənsiriyyə mədrəsəsinə keçmişdir".

Dimyati ondan hədisi-şərif rəvayət etmişdi. "Havadisül-camiə" adlı əsərdə "Mahmud Zəncani Müstənsirin xəlifəliyi zamanında, Əbu Saleh Nəsr Cilidən sonra Bağdadda bir müddət qazılıq etmişdi. Sonra onun yerinə qazı olaraq Əbdürrəhman bin Müqbil əl-Vasiti keçmişdi. Zəncani isə Müstənsiriyyə mədrəsəsinə Şafei fiqhi müəllimi olaraq təyin edildi", - deyə yazırdı.

Mahmud Zəncaninin oğlu İzzəddin Əhməd Zəncani ilahiyyat elmlərində məşhur biri idi. O da Bağdadda qazı olmuşdur. Hökm verməkdə mahir idi. Onun haqqında İbn Futi belə yazırdı: "Mahmud Zəncaninin lüğət elmi ilə əlaqəli əsərləri vardır. Bunlardan "Tərvihül-ərvah fi təhzibis-sihah" (əsər 1002-ci ildə vəfat edən Əbu Nəsr İsmail bin Həmmadın yazdığı "Sihah" kitabının xülasəsidir) və "Təhzibüs-sihah" əsərlərini qeyd etmək olar.

Adı çəkilən ikinci əsəri "Tərvihül-ərvah"ın yüksək üslubda yazılmış şəklidir. Bundan bir nüsxə Paris Milli Kitabxanasında, Berlin və İraq Muzeyi Kitabxanalarında mövcuddur.[238]

---

[237] Elnur Nəsirli. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər.

[238] Tacəddin əs-Sübki. Təbəqatüş-Şafeiyyətil-kübra. 10 cilddə. VIII c. Təhqiq: Mahmud Məhəmməd ət-Tanahi və b. 1383/1964. s. 368. Ravi № 1365; Xeyrəddin əz-Zirikli. əl-Əlam. 7 cilddə. VII c. Beyrut, V çap, 2002. s. 161.

Mahmud Zəncani 1258-ci ildə Monqolların Bağdadı işğal etmələri nəticəsində şəhid olmuşdur.

## 2.52. Nəsrəddin ət-Tusi

Dünyada Platondan sonra ikinci elmlər akademiyasının - Marağa Astronomiya Rəsədxanasının (1259-cu ildə) yaradıcısı, İslam elmləri sahəsində müctəhidlik dərəcəsinə çatmış azərbaycanlı alim Nəsrəddin Tusi bin Məhəmməd bin Həsən olmuşdur. 1201-ci ildə Tus şəhərində alim və və fəzilətli bir Azərbaycan ailəsində dünyaya gəlmişdir. Kiçik yaşalarından qeyri-adi istedadı ilə seçilən Tusi ibtidai təhsilə başlamış və tez bir zamanda ibtidai təhsili bitirərək daha yüksək üslubda dərs oxumağa başlamışdır. O, hələ gənclik yaşında ikən artıq şöhrətli bir alim kimi tanınırdı. Özünü daha çox dəqiq elmlər sahəsində maraqlı görən Tusi, eyni zamanda bütün humanitar, o cümlədən İslam ilahiyyatı sahəsində də lider idi. Onun yaratdığı Rəsədxana təxminən 50 il fəaliyyət göstərmişdi. Yaratdığı kitabxanada 400 min əlyazma var idi və orada 100-dən çox alim çalışırdı. Tusinin rəhbərliyi ilə elmin müxtəlif sahələrinə aid fundamental əsərlər yazılmışdı. O, "Elxan cədvəlləri" əsərində çoxlu riyazi, astronomik və coğrafi cədvəllər vermişdır. Ən mühümü isə XIII əsrdə olan 256 şəhərin coğrafi kordinatlar cədvəlidir. Kolumbun müəllimi Toskanelli bu cədvəldən istifadə etmişdir. Cədvəl 1652 Londonda və 1711-ci ildə isə Oksfordda ərəb və latın dillərində çap edilmişdir. Tusinin "Evkilidin şərhi" əsəri həndəsənin inkişafına təkan vermişdir. Əsər 1594-cü ildə Romada, XVII əsrdə isə latınca nəşr edilmişdi. Tusi triqonometriyani ilk inkişaf etdirən müəlliflərdəndir. O, ədəd anlayşını avropalılardan 400 il əvvəl işlətmiş, fizikaya dair əsərlərində təbiətdə maddənin saxlanması və çevrilməsı haqqında ilk fikir söyləmişdir. Tusi 1236-cı ildə İsmaililərin başçısı Nasirin təklifi ilə "Əxlaqi-Nasiri" əsərini yazmışdır.[239] Tərbiyə, əxlaq və pedaqogikaya aid olan bu əsər indi də bəzi orta məktəb proqramlarının dərsliyidir. Tusi, eyni zamanda Azərbaycanın siyasi fikir tarixində ilk dövlət nəzəriyyəçisidir. Onun "Maliyyə haqqında" əsərində irəli sürdüyü müddəalar orta əsr dövlətlərindəki qanunların əsası olmuşdur.

Əllamə Məclisi (1628-1700) "Biharül-ənvar" əsərində Nəsrəddin Tusini xüsusi iftixarla yad edərək yazır: "Millətin, haqqın və dinin köməkçisi olan Xacə Nəsrəddin ət-Tusi öz dövründə dəqiq və humanitar elmlər sahəsində ən fəzilətli və ən üstün bir şəxs idi. Onun imamiyyə məzhəbi üzrə çoxlu sayda fəlsəfəyə və şəriət elmlərinə dair əsərləri vardır. O, əxlaqca da ən şərəfli bir insan idi. Nəsrəddin Tusi ilahiyyat elmlərini Əbu Əli İbn Sinanın "əş-Şifa" əsərindən oxumuşdur. O, Astronomiya elmləri sahəsində də əsərlər qələmə almışdır".[240]

Nəsrəddin Tusunin yaradıcılığı çox zəngin və çox şaxəlidir. Deмək olar ki, öz dövründə məlum olan bütün dəqiq və humanitar elmlər sahəsində dəyərli əsərlər meydana gətirmişdir. Onun əsərləri içərisində "Təcriüdül-əqaid", "Təcridül-məntiq, "ət-Təzkirə fi ilmil-heyət", "Zicül-İlxani", "Kitabu qəvaidil-həndəsə", "Kitab fil-cəbr vəl-müqabələ", "Kitab zahiratil-fələk", "Kitab təhriril-münazirə", "Təcridül-kəlam fi təhriri əqaidil-İslam", "Şərhu üsulil-kafi"ni qeyd etmək olar.

Tusi mənbələrdə haqlı olaraq ensiklopedik alim kimi təqdir olunur. Amma təəssüflər olsun ki, onun İslam ilahiyyatındakı, xüsusilə də hədisşünaslıq sahəsindəki yeri lazımı səviyyədə tədqiq olunmamışdır. Halbuki Tusi dövrünün ən böyük hədisşünaslarından biri idi. Onun bu sahəyə verdiyi ən böyük töhfəsi "Şərhu Üsulil-kafi" əsəridir. Müəllif dövrünün ən görkəmli hədisşünası olan Məhəmməd bin Yaqub əl-Küleyninin (öl. 941) "əl-Üsul minəl-kafi" əsərini heç bir alimin izah edə bilməyəcəyi şəkildə şərh etmişdir. Müəllif bu əsərində də özünün ensiklopedik zəka sahibi olduğunu bir daha ortaya qoymuşdur. Çünki o, "əl-Kafi" əsərində olan 16199 hədisi biri-bir bütün təfərrüatı ilə (dinşünaslıq, hədisşünaslıq, fiqh, kəlam, məntiq, psixologiya və s. yöndən) şərh etmiş və hətta əsərin naqis tərəflərini də təshih etməkdən belə çəkinməmişdir.

[239] Kamandar Şərifli. Əsərləri. III c. s. 102.
[240] Əllamə əl-Məclisi. Biharül-ənvar. CIV c. s. 62.

Tusi 1274-cü ildə Bağdada səfəri zamanı vəfat etmiş və orada Cəlil məscidində dəfn edilmişdi.[241] Hazırda qəbri-şərifi müsəlmanlar tərəfindən ziyarət edilir.

### 2.53. Əminəddin İbrahim bin Əbu Bəkr ət-Tiflisi

Əminəddin İbrahim bin Əbu Bəkr bin İbrahim əl-Bəkri Tiflisi tanınmış fəqih və hədisşünas idi. Raşidi xəlifələrdən Əbu Bəkrin (632-634) nəslindən olduğu üçün əl-Bəkri nisbəsi ilə də tanınırdı. Atası Tiflisdən Misirə köçmüşdü. Əminəddin İbrahim Tiflisi 1227-ci ilin dekabr ayında Qahirədə dünaya gəlmişdi. Şeyx Əbülqasim Sibt əs-Sələfinin tələbəsi olmuş, ondan hədis elmlərini öyrənmişdi. Əminəddin İbrahim Tiflisi dərin elmi biliyi ilə yanaşı, fəzilətli şəxsiyyəti ilə də tanınmışdı. Məmlüklü sultanı Rüknəddin Zahir Bəybarsın hakimiyyəti illərində (1260-1277) Misir ordusunda möhtəsiblik vəzifəsinə təyin olunmuşdu.

Əminəddin ət-Tiflisi 1281-ci ildə vəfat etmiş və Qahirədə Məhəmməd bin İdris əş-Şafeinin (öl. 820) məqbərəsinin yanında dəfn edilmişdi.[242]

### 2.54. Məhəmməd bin Məhəmməd ət-Tiflisi

Məhəmməd bin Məhəmməd bin Hüseyn bin Əbduk əl-Azərbaycani hədis ədəbiyyatı tarixinin əvəzolunmaz şəxsiyyətlərindən biri idi. O, hədis öyrənmək üçün uzun illər səyahətə çıxmış, Hicaz, İraq, Misir və Şam bölgəsinin görkəmli hədisşünaslarından hədis öyrənmişdi. İbn əl-Müqəyyir, İbn Rəvahə, İbn Qümeyrə, İbn Rəvvac və Səxavi kimi hədis alimləri onun hədis elmindəki ən məşhur müəllimlərindədirlər. Məhəmməd əl-Azərbaycani bir müddət Qüds şəhərində yaşamış və burada hədis dərsləri vermişdi. İbn Xubbaz və İbn Əttar kimi hədis alimləri onun tələbəsi olmuş və ondan hədisi-şəriflər rəvayət etmişlər.

Məhəmməd ət-Tiflisi 1283-cü ildə vəfat etmişdir.[243]

### 2.55. Əbu Bəkr Məhəmməd bin Əli əl-Marağı

O, məşhur hədis ravisi idi. Dəməşqdə Əbu Saleh Əbdüssəməd bin Əbdürrəhman əl-Həməvidən (öl. 1145) hədis nəql etmişdi. Bir müddət Dəməşqdəki Bəzzan mədrəsəsində dərs vermis, daha sonra Dəməşqi tərk edib Bağdada getmiş və burada fiqhlə məşğul olmuşdu.[244]

Bəhaəddin Marağı Tacəddin Musa Marağinin oğlu idi. Səlahəddin Səfədi müasiri olan Yusif Marağini gənc, fəzilətli və dərin zəka sahibi kimi vəsf etmişdi. Yusif Marağı həm də istedadlı şair idi. Səlahəddin Səfədi, Elməddin Qasim əl-Birzalinin (öl. 1338) onun haqqında "bizim ustadlarımızdan hədis dinləmişdi", dediyini qeyd edir.

Bəhaəddin Yusif Marağı 1300-cü ildə vəfat etmişdir.[245]

### 2.56. Şeyx Sədrəddin Məhəmməd bin Həsən əl-Urməvi

Şeyx Sədrəddin Əbu Abdullah Məhəmməd bin Həsən bin Yusif bin Musa əl-Firuzi Urməvi fəqih və hədisşünas idi. O, 1213-cü ildə Urmiyədə anadan olmuşdu. Təhsil almaq üçün Dəməşqə getmiş və Təqiyəddin Əbu Əmr Osman bin əs-Səlahla (öl. 1245) görüşüb ondan hədis elmlərinə dair dərslər almışdı. Bundan başqa o, Tacəddin bin Həmmuyə və İbn Qümeyrə kimi alimlərdən də hədis dinləmiş və nəql etmişdi. Şəmsəddin Zəhəbi (1274-1348) tələbəlik illərində Şeyx Sədrəddin Urməvidən dərs almışdı.

Sədrəddin Urməvi 1300-cü ildə vəfat etmişdir.

---

[241] Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. 10 cilddə. IX c. Beyrut, 1403/1983. s. 415.
[242] Elnur Nəsirli. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər. s. 379.
[243] Şəmsəddin əz-Zəhəbi. Mucəmül-müxtəs bil-mühəddisin. Taif. s. 80.
[244] Həmin mənbə.
[245] Həmin mənbə.

## 2.57. Səfyəddin əl-Urməvi

Hədis, fiqh və kəlam alimlərindən və övliyanın böyüklərindən olan Məhəmməd bin Əbdürrəhim bin Məhəmməd əl-Urməvi Azərbaycan hədisşünaslığının ən görkəmli nümayəndələrindəndir. Onun künyəsi Əbu Abdullah, ləqəbi isə Səfiyəddindir. O, 1246-cı ildə Hindistanda doğulmuşdur.

Kiçik yaşlarında ikən elm öyrənməyə başlayan Səfyəddin ilk təhsilini ana babasının yanında aldıqdan sonra 1268-ci ildə Dehlidən çıxıb Yəmənə getmişdi. Sultan Müzəffər ona çox böyük hörmət göstərmiş və hədiyyə olaraq doqquz yüz dinar qızıl vermişdi. Buradan Hicaza keçən Səfiyəddin həcc ziyarətindən sonra Məkkədə üç ay qalmışdı. Oradan da Qahirəyə keçmiş, dörd il burada qaldıqdan sonra Antalyaya, orada on bir il qaldıqdan sonra Konyaya getmişdi. Konyadan sonra Sivas ve Kayseridə də bir müddət qalmışdı. Orada Qazı Siracəddin əl-Urməvi ilə qarşılaşıb həmsöhbət olmuşlar. 1286-cı ildə Şama elmi tədqiqatlar üçün səyahət etmişdi. Onun müəllimləri sırasında Fəxrəddin bin əl-Buxari və getdiyi yerlərdə görüşdüyü böyük alimlərin adları vardır. Öz dövründə hədis alimlərinin böyüklərindən, fiqh, üsul və kəlam elminin öndə gələnlərindən biri olmuş, Səfiyəddin fətva vermək səlahiyyətini əldə etmiş və İslama çox böyük xidmətlər göstərmişdi. Mənbələrin nəql etdiyi məlumata görə, o, öz zamanında məşhur olan Rəvahiyyə, Zahiriyyə, Dövləviyyə, Atabəkiyyə, Cüvaniyyə kimi mədrəsələrdə müdərrislik etmişdi. Əqli və nəqli elmlər sahəsində bənzərsiz bir ustad olan Urməvi yüzlərcə tələbə yetişirmişdi. O, çox ibadət edən, dinin əmrlərinə çox bağlı, insanlara faydalı olmaqdan, onlara elm və ədəb öyrətməkdən, yəni islamiyyətə xidmət etməkdən zövq alan çox yüksək bir şəxsiyyət olmuşdur. O, insanlara çox yaxşılıq edər, möhtac olanlara yardımlar göstərərdi. Əli açıq, comərd, yaxşılıq və ehsan sahibi bir zat olan Urməvi vəfatına yaxın mühafizə və istifadə edilməsi üçün kitablarını "Darül-hədisil-əşrəfiyyə" mədrəsəsinə vəqf etmişdi.

Mənbələrin məlumatına görə, 1306-cı ildə Əmir Tünqizin hüzurunda bir toplantı tərtib edilmiş, buraya görkəmli alimlər dəvət edilmişdi. Bu məclisdə Səfiyəddin Urməvi və İbn Teymiyyə də iştirak edirlərmiş. Səfiyəddin elmi toplantılarda bir şeyi izah edərkən onu uzun-uzadı və geniş şəkildə izah edərmiş. İbn Teymiyyə ilə olan buradakı mübahisədə Səfiyəddin danışmağa başlayanda, İbn Teymiyyə adəti üzrə tələsməyə, bir mövzudan başqa bir mövzuya, söhbətdən yayınmağa başlamışdı. Səfiyəddin ona "Ey İbn Teymiyyə! Səni bir yerdə tutmaq istədiyim zaman başqa bir yerə, orada tutacağım zaman daha başqa bir yerə qaçan bir sərçə kimi görürəm", demiş və İbn Teymiyyənin sapıq düşüncələrinə çox gözəl və kəskin cavablar verərək onu rəzil etmişdi. Əmir Tünqiz Əbu Abdullah Səfiyəddinə çox təzim edər, böyüklüyünə inanar, onu çox sevərdi. Orada olanların hamısı bu böyük zatın sözlərini qəbul etmiş və nəticədə İbn Teymiyyə də burada dediyi və dəlil göstərə bilmədiyi sapıq fikirlərinə görə həbs edilmişdi. Bu elmi mübahisədən sonra o bölgədə İbn Teymiyyənin sapıq fikirləri elan edilmiş, onun kimi düşünənlər hansı vəzifələrdə varmışsa, hamısı tutduqları vəzifələrindən xaric edilmişlər.

Məşhur rical alimi Zəhəbi onun haqqında yazırdı: "Səfiyəddin Urməvi dininə çox bağlı, çox ibadət edən, Allah taalanı çox zikr edən bir zat idi. Etiqadı çox gözəl olub, inancı, ilk iki əsrdə olan təmiz müsəlmanların, böyük alimlərin bildirdikləri etiqada tam uygun idi".

Səfiyəddin Urməvi bir çox əsər yazmışdır. Çox dəyərli olan əsərlərindən "Nihayətül-vüsul fi dirayətil-üsul" (əsər üsuli fiqhə aid olub üç cilddədir), "Zübdətül-kəlam" (əsər kəlam elminə aiddir), "əl-Faiq" və "ər-Risalətüt-təsiniyyə fi üsulid-diniyyə"ni[246] qeyd etmək olar.

Səfyəddin əl-Urməvi 1315-ci ildə isə Dəməşqdə vəfat etmiş və Dəməşqdəki Sufilər qəbristanlığında dəfn edilmişdir.

## 2.58. Səfyəddin əl-Ərdəbili

Səfyəddin Ərdəbili övliyanın böyüklərindən olub adı İshaq bin Cəbrayıl bin Əbu Bəkrdir. O, 1252-ci ildə Ərdəbildə doğulmuşdur. Bəzi mənbələrə görə, onun soyu İmam Əliyə qədər gedib çıxır.

---

[246] Müəllif haqqında geniş məlumat üçün bax: Tacəddin əs-Sübki. Təbəqatüş-Şafeiyyə. IX c. s. 162; Əbdürrəhim əl-Əsnəvi əş-Şafei. Təbəqatüş-Şafeiyyə. 2 cilddə. II c. Təhqiq: Kamal Yusif əl-Hut. Darul-kütubil-ilmiyyə, I çap, 2002. s. 534. (**http://www.mumsema.org** saytına istinadən).

Lakin bunu sübut edəcək heç bir dəlil olmadığından alimlər bu xəbərin doğru olmadığını söyləmişlər. O, elm aləmində daha çox Səfyəddin ləqəbi və Ərdəbili nisbəti ilə tanınır.

Səfyəddin Ərdəbili kiçik yaşlarında atasını itirsə də, uşaq yaşda ikən din elmlərini öyrənmişdi. Saleh əməl işləməkdə davamlı, Allah taalanın əmr və qadağanlarına riayətdə çox çalışqan olmuşdur. Gördüyü gözəl bir yuxuya görə Şiraz tərəflərinə getmiş, oralarda Nəcibəddin Sührəvərdinin tələbəsi Nəcibəddin Bərgaşdan elm və mərifət əldə etmək arzusunda olsa da, o mübarək şəxsin 1279-cu ildə vəfat etməsi səbəbilə arzusuna çata bilməmişdi. Lakin Nəcibəddin Bərgaşın yerində Rüknəddin Beyzavi və Əmir Abdullah kimi böyüklər olduğundan onların xidmətinə girib bir miqdar orada qalmışdı. O, Əmir Abdullahın tövsiyəs ilə Zahid Rüknəddin İbrahim bin Rövşən Əmir bin Babil bin Şeyx Bündar Kürdi Səncari Geylanidən istifadə etmək üçün Geylan tərəflərinə getmişdi. Zahid İbrahim Geylanini kimsə tanımırdı. Səfyəddin Ərdəbili onu tapa bilmək üçün dörd il çöllərdə, kimsəsiz yerlərdə gəzmişdi. Çox çətinlik və riyazətlər çəkmiş, dörd ilin sonunda onu tapmışdı. Rüknəddin İbrahim Geylani, Rüknəddin Məhəmməd Səncaridən o da, Əbu Nəcibi Sührəverdidən mərifət əldə etmişdi. Onların silsiləsi də Cüneydi Bağdadiyə çatırdı. İyirmi beş il İbrahim Geylanidən elm və təhsil alıb tərbiyə görmüşdü. Səfyəddin Ərdəbili müəlliminin qızı Bibi Fatimə Xatun ilə evlənmiş, onun vəfatından sonra müəlliminin mənəvi xəlifəsi olmuşdu. Ərdəbilə məskunlaşan Səfyəddin ətrafına xeyli tələbə toplamış və burada çoxlu tələbə yetişdirmişdi. O, öz dövründə Azərbaycan, Qafqaz və Anadoluda məşhur bir şəxsiyyət kimi tanınırdı.

Rəvayətə görə, bir dəfə ondan Əmir Çoban Bəy “Sizin tələbənizmi çoxdur, yoxsa bizim əsgərimizmi?” - deyə soruşduqda, Səfyəddin Ərdəbili “Sizin əsgərləriniz də bizim tələbələrimiz arasındadır. Belə bir vəziyyətdə çoxluq necə açıqlana bilər?” sualıyla cavab vermişdir.

Ömrü boyu Allah taalanın dininə xidmət etmək, doğru yolu insanlara öyrətmək üçün çalışmışdı. Tələbələri şərqə və qərbə dağılaraq onun elm və mərifətini yaymışdılar. Tələbələrindən oğlu Sədrəddin və nəvəsi Əlaəddin Əli məşhurdur. Əbu Həmid Ağsarayi Əlaəddin Əlidən aldığı mənəvi feyzi Anadoluda yaymışdı. Anadolu müsəlmanları və Osmanlı Sultanı II Murad Xan üzərində böyük nüfuz sahibi olan Hacı Bayram Vəli İstanbulun fəthini Sultan Məmməd Xan kiçik yaşında olduğu bir zamanda kəramətlə xəbər vermişdi.

Səfyəddin Ərdəbilinin nəvələri və onun yolu ilə gedənlər türk sultanları tərəfindən böyük hörmət görmüşlər. Osmanlı sultanları, “Çerağ axçası” adıyla Ərdəbildəki dərgaha illik hədiyyələr göndərirdilər. Bunlar Teymur Xan və Ağqoyunlu sultanlarının da böyük hörmətlərinə layiq görülmüşlər. Səfyəddin Ərdəbilinin nəvələrindən olan Cüneyd Uzun Həsənin bacısı Xədicə Bəyimlə evlənmişdi. Bu izdivacdan Heydər dünyaya gəlmişdi. Cüneydin oğlu Heydər dayısı Uzun Həsənin qızı Həlimə Bəyim Aləmşahla evlənmişdi. Bu izdivacdan məşhur Azərbaycan hökmdarı Şah İsmayıl Xətai dünyaya gəlmişdi.[247]

Böyük ilahiyyat alimi və dövrünün ən məşhur övliyalarından olan Səfyəddin Ərdəbili həcc ziyarətindən döndükdən sonra Ərdəbildə vəfat etmiş və oradakı türbəsində dəfn edilmişdi. Mənbələrdə onun vəfat tarixi 1334-cü il göstərilir.

### 2.59. Fəxrəddin Əbu Cəfər Ömər bin Əhməd ət-Təbrizi

Şeyx Fəxrəddin Əbu Cəfər Ömər bin Əhməd bin Ömər Təbrizi də tanınmış fəqih və hədisşünaslardan olmuşdur. Onun atası şeyxül-arif Nəcməddin Təbrizi də yaşadığı dövrün tanınmış fiqh, hədis və təfsir alimlərindən imiş. Fəxrəddin Ömər Təbrizi atası Nəcməddin Təbrizi, Zəhirəddin Ramazan bin Məhəmməd Təbrizi, Ümdətəddin Məhəmməd bin Əsəd əl-Əttari kimi alimlərdən dərs almışdı. O, bu alimlərin yanında Mühyəddin Hüseyn Bəğəvinin (öl. 1122) “Şərhüs-Sünnə” adlı

---

[247] Reşat Öngören. Safiyüddin -i Erdebili. DİA. 44 cilddə. XXXV c. İstanbul, 2008. s. 476-478; Abdülbaki Gölpınarlı. Tarih boyunca İslam mezhepleri ve Şiilik. İstanbul, 1979. s. 172-173; Aliyev Salih Muhammedoğlu. Erdebil. DİA. XI c. İstanbul, 1995. s. 276-277; Tufan Gündüz. Safeviler. DİA. XXXV c. s. 451-455; Miryəhya Qəzvini. Lübbüt-təvarix. Tehran, 1363 h/ş. I c. s. 9-14; Həsən əl-Əmin. Müstədrəkat əyaniş-şiə. 8 cilddə. I c. Darut-təarif lilmətbuat, I çap, 1987. s. 18.

çoxcildli hədis külliyatını, Məcdəddin Əbüssəadə bin əl-Əsir əl-Cəzəri Məvsilinin “Camiül-üsul” adlı hədis külliyatını, Şeyx Şihabəddin Ömər Sührəverdinin “Əvariful-məarif” adlı əsərlərini oxuyub öyrənmişdi. İbn əl-Fuvati, Fəxrəddin Ömər Təbrizi ilə Təbrizin cümə camesində görüşdüyünü, həmçinin onun atası şeyxülarif Nəcməddin Təbrizini də gördüyünü qeyd etmişdir. Əfsuslar ki, müəllif onlarla neçənci ildə görüşdüyünü və vəfat tarixlərini qeyd etməmişdir. Lakin İbn əl-Fuvatinin 1260-cı illərdən 1280-ci ilə qədər, daha sonra 1304, 1310-1311, 1316-1318-ci illərdə Azərbaycanda olduğunu nəzərə alaraq, bu görüşün də həmin bu illərdə baş verdiyini təxmin etmək olar.

## 2.60. Şeyx İmadəddin Əbu İshaq əl-Maraği

Şeyx İbrahim İmadəddin İbrahim bin Əhməd bin Məhəmməd bin İbrahim əl-Maraği görkəmli fəqih və hədisşünaslardandır. O, Şeyx Şihabəddin Əhməd Marağinin oğlu və Şərəfəddin Əbülabbas Marağinin qardaşıdır. Atasının, həmçinin “ər-Rumi” nisbəsi daşımasına görə İbn ər-Rumi ləqəbi ilə tanınmışdı. Şeyx İmadəddin Əhməd bin Hibətullah bin Əsakirdən hədis dinləmişdi. Qardaşından əvvəl bir müddət əl-Əməvi camesində hənəfi camaatının imamı və Xatuniyyə xanəgahının şeyxi olmuşdu. Sonra Qahirədəki xanəgahlardan birinin şeyxliyinə təyin edildiyi üçün Misirə getmişdi.

Şeyx İmadəddin 16 aprel 1341-ci ildə Qahirədə vəfat etmişdir.[248]

## 2.61. Tacəddin Ərdəbili ət-Təbrizi

Tacəddin Ərdəbili ət-Təbrizi hədis, təfsir, fiqh, riyaziyyat və tibb elminin ən görkəmli alimlərindən olmuşdur. Onun adı Əli bin Abdullah bin Əbülhəsən ləqəbi isə Tacəddindir. O, miladi 1278-ci ildə Azərbaycanın Ərdəbil şəhərində doğulmuşdur. Təbrizdə boya-başa çatan Tacəddin gənc yaşlarında ikən elm əldə etmək üçün Bağdada, oradan həcc ziyarəti üçün Məkkəyə, oradan da Qahirəyə səfər etmişdi.

Tacəddin Ərdəbili hədis və fiqh elmini böyük alim Rüknəddindən, bəyan elmini Nəzzam Tusidən, fəlsəfə və məntiq elmini Bürhanəddin Abdullahdan, üsul elmini Əlaəddin Nöman Xarəzmidən, hesab və həndəsəni Cəmaləddin Həsən Şirazidən, şəriət elmini isə Salah Musadan öyrənmişdi.

O, “Vəsit” kitabının bir qismini Şəmsəddin bin Müzzidən, “Məscidül-üsul” adlı əsəri Qütbəddin Şirazidən, “Hacibiyyə” şərhini müəllifi Rüknəddin Seyiddən, fiqhə dair olan bəzi əsərləri də Siracəddin Ərdəbilidən, “Şərhi-əsasi-sünnə” adlı əsəri də Fəxrəddin Carullah Cədaridən dinləmişdi. Tacəddin Ərdəbili öz elmi məqamını belə bəyan edir: “Otuz yaşında ikən fətva verdim. 1310-cu ildən sonra Bağdada, ayrıca Məşhəd, Hillə və Marağa, həcc əməllərini yerinə yetirdikdən sonra 1322-ci ildə Misirə getdim”. O, Misirə Məkkədən bir karvan ilə birgə getmişdi.

Təfsir, hədis, fiqh, üsul, riyaziyyat, həndəsə, kəlam, qrammatika və tibb elmləri sahəsində ensiklopedik biliyə malik olan Təbrizi Qahirədə olduğu müddətdə əl-Vani, əl-Hüfəni və Dəbbusi bin Cəmaanın dərslərini dinləmişdi. Burada bir çox mövzunu öyrənmiş və bunları yazmışdı. O, “Mizan” adlı əsərdə keçən hədisi-şərifləri mövzularına görə təsnif etmişdi.

Tacəddin Ərdəbili elmi ilə insanlara çox fayda vermişdi. Ondan çox alim dərs almışdı. Onlardan Bürhanəddin Rəşidi, Nazirülceyf və Şihabəddin bin Naqib kimi alimləri qeyd etmək olar. Tacəddin Ərdəbili Mədrəseyi-Hüsamiyyədə müdərrislik etmiş və burada qalmışdı. Ömürünün sonlarına doğru qulağında problemlər əmələ gəlmiş və nəticədə kar olmuşdur.

Əbülfəzl İraqı onun haqqında belə deyir: “Tacəddin Ərdəbili seçmə alimlərdəndir. Dinin əmr və qadağanlarına riayət etməkdə çox diqqətli idi”.

Tacəddin Sübki isə onun haqqında: “Tacəddin Ərdəbili müxtəlif elmlərdə mütəxəssis idi. Xüsusilə hədis elminə əhəmiyyət verərdi. Təfsir, hədis, üsul və hesab elminə dair kitablar yazmışdı. Tələbələrə müxtəlif elmləri oxutmaqla məşğul oldu”, - deyə qeyd etmişdir.

---

[248] Rahber ansiklopedisi.

Zəhəbi də belə yazırdı: "Tacəddin Ərdəbili hədis kitablarının hamısını oxumuşdu. Müxtəlif elmlərlə məşğul olmuşdu. Alimlərlə elmi söhbətlərdə olmuşdur. Tələbəsi çox idi. "Havi" kitabının hamısını on beş gündə oxutmuşdu".

Əsnəvi isə onun haqqında: "Tacəddin Ərdəbili elm əldə etmək üçün çox çalışmışdı. Əsla usanmaq və bezmək bilmədi. Vəfatına qədər dayanmadan çalışdı, elm öyrəndi və öyrətdi. Bir çox elmdə mütəxəssis idi. Zamanında "Havi" kitabını ən yaxşı o bilirdi" demişdir.

Tacəddin Ərdəbili bir çox əsər yazmışdı. Bunlardan "Əfradül-əhadisiz-zəifə" (İki cildlik bir əsər olub, hədis elminə aiddir), "Tənqihül-miftah lis-Səkkaki", "Məbsutül-əhkam", "Haşiyətü şərhil-Havi", "Şərhül-Kafiyə", "Müxtəsər ulum əl-hədis", "ət-Təzkiratü fil-hesab"ı göstərmək olar.[249]

Elmin müxtəlif sahələrində böyük ustad kimi tanınan Tacəddin Ərdəbili 67 il ömür sürmüş və 1345-ci ildə Qahirədə vəfat etmişdir.

## 2.62. Vəliyəddin ət-Təbrizi

Hədis və fiqh alimlərindən biri də Vəliyəddin Təbrizidir. Onun adı Məhəmməd bin Abdullah əl-Xətib ət-Təbrizi olub, künyəsi Əbu Abdullah, ləqəbi isə Vəliyəddindir. Təəssüflər olsun ki, onun doğum tarixi məlum deyil.

Həyatı haqqında çox məlumat olmayan Vəliyəddin Təbrizi Həsən bin Məhəmməd Təyyibidən elm öyrənmişdi. Vəliyəddin Təbrizi İmam Bəğəvinin (1044-1122) "Məsabih" kitabına əlavə və şərhlər edərək "Mişkatül-məsabih" adını vermişdi. Bu kitabını 1336-cı ildə tamamlamışdı. "Mişkat" kitabına müxtəlif şərhlər yazılmışdır. Bunların ən qiymətlisi Əbdülhaqqı Dehləvinin yazdığı "Əşiatül-ləməat"dır. Adı çəkilən əsər dörd böyük cild halında nəşr olunmuşdur. Vəliyəddin Təbrizinin ayrıca "əl-İkmal fi əsmair-rical" adlı bir əsəri də vardır. Əsər "Miskat"ın kənarında nəşr edilmişdir.

Vəliyəddin Təbrizinin "Mişkat" kitabında rəvayət etdiyi hədisi-şəriflərdən bəziləri bunlardır:

"İnsanlara mərhəmət etməyənə, Allah taala mərhəmət etməz".

"Zülmə mane olaraq, zalıma da məzluma da kömək edin".

"Satın alınan bir köynəyə verilən pulun onda doqquzu halal və onda biri haram puldursa, bu köynəklə qılınan namazı Allah taala qəbul etməz".

"Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməz. Onun köməyinə çatar. Onu kiçik və özündən aşağı görməz. Onun qanına, malına, ismətinə, namusuna zərər verməsi haramdır".

"Allah taalaya and içirəm ki, bir kimsə özünə edilməsini sevdiyini din qardaşı üçün də sevmədikcə, imanı tamam olmaz".

"Pisliyindən qonşusu əmin olmayanın, Allaha and içirəm ki, imanı yoxdur".

"Ürəyində mərhəməti olmayanın, imanı yoxdur".

"İnsanlara mərhəmət edənə, Allah mərhəmət edər".

"Kiçiklərimizə ağrımayan və böyüklərimizə hörmətli olmayan, bizdən deyil".

"Qocalara hörmət göstərən və kömək edənə qocalanda Allah ona da köməkçilər nəsib edər".

"Allahın sevdiyi ev yetim saxlanılan və ona yaxşılıq edilən evdir".

"Yanında birini qeybət edəni susduran kimsəyə Allah taala dünyada və axirətdə kömək edər. Gücü çatarkən susdurmazsa, Allah taala onu dünyada və axirətdə cəzalandırar".

"Din qardaşının ayıbını, utancverici halını görüb bunu örtən, gizləyən kimsə, islamiyyətdən əvvəl ərəblərin etdikləri kimi, diri basdırılan qızı məzardan çıxarmış, ölümdən qurtarmış kimidir".

"İki yoldaşdan Allah yanında daha yaxşı olanı, dostuna yaxşılığı daha çox olanıdır".

"Birinin yaxşı və ya pis olduğu, qonşularının onu bəyənib bəyənməməsi ilə aydın olar".

---

[249] Geniş məlumat üçün bax: Möcəmül-müəllifin. VII c. s. 134; əd-Dürərül-kaminə. III c. s. 72; Şəzəratüz-zəhəb. VI c. s. 148; əl-Əsnəvi. Təbəqatüş-Şafeiyyə. I c. s. 406; Davudu. Təbəqatül-müfəssirin. I c. s. 406; Katib Çelebi. Keşfüz-zunun. İstanbul, 1941. s. 1699; Selim Demirçi. el-Hatib et-Tebrizi ve Mişkatül-Mesabihi üzerine. s. 95; İbrahim Hatiboğlu. "Mesabihu's-sünne". DİA. XXIX c. Ankara, 2004. s. 258-260.

“Çox namaz qılan, çox oruc tutan, çox sədəqə verən, lakin dili ilə qonşularını incidənin gedəcəyi yer Cəhənnəmdir. Namazı, orucu sədəqəsi az olub, dili ilə qonşularını incitməyənin yeri Cənnətdir”.

“Allah dünyanı dostlarına da, düşmənlərinə də vermişdir. Gözəl əxlaqı isə tək sevdiklərinə vermişdir”.

“Bir kimsənin ismətinə, malına təcavüz edənin savabları, qiyamət günü o kimsəyə verilər, ibadətləri, yaxşılıqları yoxsa, o kimsənin günahları buna verilər”.

“Allah taala yanında günahların ən böyüyü, pis xasiyyətli olmaqdır”.

“Bir kimsə sevmədiyi birinə bəla, çətinlik gəldiyi üçün sevinsə, Allah bu kimsəyə də bu bəlanı verər”.

“Həsəd etməyin! Ataş odunu yox etdiyi kimi, həsəd də savabları aradan qaldırar”.

“Yaxşı xasiyyətli, dünyada və axirətdə yaxşılıqlara qovuşacaq”.

“Allah taala dünyada gözəl surət və yaxşı xasiyyət bəxş etdiyi bəndəsini axirətdə Cəhənnəmə salmaz”.

Peyğəmbər Əbu Hüreyrəyə “Yaxşı xasiyyətli ol”, - deyə buyurdu. Əbu Hüreyrə “Yaxşı xasiyyət nədir?” - dedikdə, Peyğəmbər “Səndən uzaqlaşana yaxınlaşıb nəsihət ver və sənə zülm edəni bağışla. Malını, elmini, köməyini səndən əsirgəyənə bunları bol-bol ver!” - deyə buyurdu.

“Qürurdan, xəyanətdən və borcdan təmiz olaraq ölən kimsənin gedəcəyi yer Cənnətdir”.

“Həyat yoldaşınızı döyməyin! Onlar sizin köləniz deyil”.

“Allah yanında ən yaxşınız, həyat yoldaşına qarşı ən yaxşı olanınızdır. Həyat yoldaşına qarşı ən yaxşı olanınız mənəm”.

“İmanı üstün olanınız, xasiyyəti daha gözəl və həyat yoldaşına daha yumşaq olanınızdır”.

“İki adam məscidə gəlib namaz qıldılar. Onlara çox hörmət qoyuldu. Oruclu olduqlarını söylədilər. Bir müddət danışdıqdan sonra qalxıb gedərkən, Peyğəmbər onlara: “Namazlarınızı təkrar qılın və oruclarınızı təkrar tutun, çünki danışarkən birinin qeybətin etdiniz. Qeybət etmək ibadətlərin savabını aradan qaldırar”, - deyə buyurdu.

Ənəs bin Malikin rəvayət etdiyi bir hədisi-şərifdə buyurulur ki: “Qiyamət günü insanlar Ərəsatda toplanar. Bir qismi digərlərinin üzərinə dalğa kimi vurar, bir-birlərinə qarışarlar. Məhşər əhli hamısı birdən həzrət Adəmin yanına gələrlər və “Rəbbindən bizim üçün şəfaət dilə!” - deyərlər. Adəm (ə): “Mən şəfaətə icazəli deyiləm, İbrahimin yanına gedin. O, Allah taalanın Xəlilidir”, deyər. İnsanlar ona tərəf gələrlər. O da: “Mən şəfaətə icazəli deyiləm. Musanın yanına gedin. O, Kəlimullahdır”, deyər. Ona tərəf gələrlər, o da: “Mən də şəfaət edə bilmərəm, İsanın yanına gedin. O, Ruhullahdır”, deyər. Onun yanına getdikləri zaman o da: “Mən şəfaətə icazəli deyiləm. Məhəmmədin yanına gedin. O, Həbibullahdır”, deyər. Məhşər əhli mənə tərəf gələrlər. Mən: “Şəfaət edərəm”, deyərəm. Şəfaət etmək üçün Rəbbimdən icazə istəyərəm, icazə verilər. Haqq taalanın mənə bildirəcəyi həmdlər ilə həmd edərəm. İndi o həmdlər yaddaşımda yoxdur. Sonra torpağa düşər, səcdə edərəm. Haqq taala mənə: “Ya Məhəmməd! Şəfaət et, qəbul olunar”, - deyə buyurar. Mən: “Ya Rəbbi! Ümmətimə rəhm et, onlara mərhəmət et”, mənasını verən “ümməti, ümməti” deyərəm, (iki dəfə buyurması, təkid üçün və ya səs üçündür ki, ümməti ona yaxınlaşsınlar, atəşdən qorunsunlar. Çünki onun nuru-şərifi atəşi söndürər). Sonra mənə: “Ya Məhəmməd, ürəyində arpa dənəsi qədər imanı olanı atəşdən çıxar”, - deyə buyurular. Mən də gedər, kimin ürəyində arpa dənəsi qədər imanı varsa, atəşdən çıxarar və geriyə dönərəm. Yenə o həmdlər ilə həmd edərəm və səcdə edərəm. Yenə mənə: “Ya Məhəmməd, söylə eşidilər, istə, verilər. Şəfaət et, qəbul olunar!” – deyə buyurular. Mən: “Ya Rəbbi, ümmətimə rəhmət et”, deyərəm. O zaman “Ürəyində zərrə qədər və ya xardal dənəsi qədər imanı olanları atəşdən çıxar”, - deyə buyurular. Gedərəm, ürəyində zərrə qədər imanı olanları atəşdən çıxararam. Yenə dönərəm. Səcdəyə qapanar, niyaz edərəm. “Get, ürəyində xardal dənəsindən də çox az imanı olanları da atəşdən çıxar”, - deyə buyurular. Gedər, belə imanı olanları da atəşdən çıxararam. Dördüncü dəfə də Rəbbimdən “La ilahə illəllah” deyənlərə də şəfaət etməmi istəyərəm. Allah taala “Onları atəşdən çıxarmaq sənin üzərinə deyil. Lakin, izzətim, cəlalım, kibriyam haqqı üçün onları əlbəttə, atəşdən çıxararam”, - deyə buyurar”.

Əbu Hüreyrə rəvayət edir: “Peyğəmbərin yanına biri gəldi və “Ənsardan bir qız ilə evlənmək istəyirəm”, dedi. Peyğəmbər ona: “Qızı (bir dəfə) gör! Çünki Ənsar qəbiləsinin gözlərində bir şey vardır”, - deyə buyurdu.

“Qadınlar görüşdükləri qadınların gözəlliklərini, yaxşılıqlarını, ərlərinə bəyan etməsinlər. Ərləri o qadınları görmüş kimi olarlar”.

“Ya Əli! Bir qadını görsən, üzünü ondan çevir. Ona təkrar baxma! Qəflətən görmək, günah olmasa da, təkrar baxmaq günahdır”.

“Övrət yerinizi açmayın! (Yəni, tək olduğunuz halda da açmayın.) Çünki yanınızdan heç ayrılmayan kəslər vardır. Onlardan utanın və onlara hörmət edin! (Bu kəslər Hafizə (qoruyucu) deyilən mələklərdir ki, insandan yalnız cinsi əlaqə zamanı ayrılarlar)”.

“Bir qızın gözəlliyini görən kimsə, gözünü ondan dərhal ayırsa, Allah taala ona yeni bir ibadət savabı lütf edər ki, bu ibadətin ləzzətini dərhal duyar”.

“Allah taala bəndəsinə verdiyi nemətləri görməyi sevər”.

Cabir bin Abdullah deyir ki:

“Bir gün Peyğəmbər bizə gəlmişdi. Evdə saçları dağınıq halda olan bir şəxs vardı. Onu görən Peyğəmbər (s): “Bu, saçlarını düzəldəcək bir şey tapa bilməyib?” – deyə, paltarı çirkli halda olan birini də gördükdə isə: “Bunun paltarını yuyacaq bir şeyi yoxdurmu?” - deyə buyurdu”.[250]

Tabeidən Əbüləhvəs atasından rəvayət edir ki, Peyğəmbərın yanına getmişdim. Paltarım köhnəlmişdi. “Malın yoxdur?” – deyə buyurdu. “Malım var”, dedim. “Nə cinsdən malın var?” buyurdu. “Hər cinsdən var” dedim. “Allah taala mal verincə, nemətlərin əsərini üzərində görməlidir!” - deyə buyurdu.[251]

Vəliyəddin Təbrizi “əl-Mişkat” əsərində xəlifə Ömər bin Xəttabdan belə nəql edir:

“Bir dəfə biz Peyğəmbərin yanında oturmuşduq və birdən yanımıza ağ paltarlı və qara saçlı bir adam gəldi. Onun üst-başında uzun yolun əlamətləri yox idi, amma bizlərdən heç kəs onu tanımadı. O, Peyğəmbərlə üzbəüz oturdu və öz dizlərini onun dizlərinə dirəyərək əllərini onun budları üzərinə qoyub dedi:

- Ya Məhəmməd! Mənə İslam haqqında danış. Allahın peyğəmbəri dedi:

- İslam ondan ibarətdir ki, sən Allahdan başqa heç bir ilahın olmadığına və Məhəmmədin Onun peyğəmbəri olduğuna şəhadət verməlisən, namaz qılmalısan, zəkat verməlisən, ramazan ayında oruc tutmalısan və əgər gedib çata biləcəksənsə, Məkkəyə həccə getməlisən.

- Düzdür.

Biz onun əvvəlcə Peyğəmbərdən soruşmasına, sonra isə onun sözlərini təsdiq etməsinə təəccübləndik. Sonra o dedi:

- Mənə imandan danış. Peyğəmbər dedi:

- Sən Allaha, Onun mələklərinə, kitablarına, peyğəmbərlərinə və Qiyamət gününə və həmçinin qəzavü-qədərə (xeyrin və şərin Allahdan olmasına) inanmalısan.

- Bu da düzdür. Sonra o dedi:

- Mənə ixlas barədə danış. Peyğəmbər dedi:

- Sən Allaha elə ibadət etməlisən ki, sanki Onu görürsən. Axı sən onu görməsən də, O səni görür.

- Mənə Qiyamətin başlanması haqqında danış. Peyğəmbər dedi:

- Soruşulan soruşandan çox bilmir.

- Onda mənə əlamətlərdən danış.

- Kəniz qadın öz ağasını doğacaq, ac-yalavac və ayaqyalın dəvə otaranlar isə hündür binalar tikməkdə bəhsə girişəcəklər.

Budan sonra o adam getdi, Peyğəmbər isə uzun müddət fikrə daldı. Sonra o məndən soruşdu:

---

[250] Vəliyəddin Xətib ət-Təbrizi. Mişkatül-məsabih. əl-Məktəbətül-İslami, I çap, 1381/1961. II çap, 1399/1979.

[251] Ömər Rza Kəhhalə. Möcəmül-müəllifin. X c. s. 211; Mustafa Uysal. İzahlı Mişkat el-Mesabih tercümesi. Uysal Yayınları, 1999.

- Ey Ömər, məni sorğu-suala çəkəni tanıdınmı? Mən cavab verdim:
- Allah və Onun Peyğəmbəri bunu daha yaxşı bilər.

Peyğəmbər dedi:
- Sizə dininizi öyrətmək üçün, Cəbrayılın özü gəlmişdi!”[252]

Xətib Təbrizinin “əl-Mişkat” əsərinin Azərbaycan hədisşünaslığında çox mühüm yeri vardır. Müəllifin bu əsəri təkcə hədisşünaslığa aid olmayıb, orada, eyni zamanda əqaid (kəlam) və fiqh elmlərinin fundamental problemlərinə də geniş yer verilmişdir. O, bu problemləri həll etmək və onların elmi təhlilini vermək üçün hədislərə daha çox müraciət etmişdir.

“əl-Mişkat” əsəri üç cilddə (I çap, 1381/1961, II çap, 1399/1979) Dəməşq və Beyrutda nəşr olunmuşdur. Müəllif əsərin I cildini “Kitabül-iman”, “Kitabül-ilm”, “Kitabüt-təharət”, “Kitabüs-salat”, “Kitabül-cənaiz”, “Kitabüz-zəkat”, “Kitabüs-soum” və “Kitabu fəzailil-Quran” fəsillərinə həsr etmiş və mövzu ilə əlaqəli hədisləri ən mötəbər mənbələrdən nəql etmişdir.

Müəllif əsərin ikinci cildini “Kitabüd-daavat”, “Kitabül-mənasik”, “Kitabül-buyu”, “Kitabül-fəraiz vəl-vəsaya”, “Kitabün-nikah”, “Kitabül-itq”, “Kitabül-iman vən-nüzur”, “Kitabül-qisas”, “Kitabül-hüdud”, “Kitabül-imarat vəl-qəza”, “Kitabül-cihad”, “Kitabüs-seyd vəz-zəbaih”, “Kitabül-ətimə”, “Kitabül-libas”, “Kitabüt-tibb vər-rüə”, “Kitabür-röya” fəsillərinə həsr etmişdir.

Əsərin üçüncü cildində isə “Kitabül-adab”, “Kitabür-riqaq”, “Kitabül-fitən”, “Kitabül-qiyamə və bədül-xəlq”, “Kitabül-fəzail vəş-şəmail”, “Kitabül-mənaqib” fəsilləri yer almışdır.

Vəliyəddin Təbrizi 1347-ci ildə vəfat etmişdir.

### 2.63. Seyid Şərəfəddin Əli bin Həsən əl-Urməvi

Seyid Şərəfəddin Əbülhüseyn Əli bin Həsən bin Məhəmməd bin Hüseyn bin Məhəmməd əl-Hüseyni əl-Urməvi tanınmış fəqih və hədisşünas idi. İmam Hüseynin nəslindən olan alim 1292-ci ildə anadan olmuşdu. Hədis, fiqh, fiqh üsulu və ərəb filologiyası üzrə tanınmış mütəxəssis idi. Qahirədə İmam Hüseynin mübarək başının ehtimalən dəfn edildiyi məqbərənin yanındakı məsciddə dərs verirdi və orada fətva mərcei idi. Həmçinin Qahirədəki Fəxriyyə və Təbərsiyyə mədrəsələrində dərs də vermişdi. Misir Məmlüklü dövləti tərəfindən naqibül-əşraflığa təyin edilmiş, daha sonra beytül-mal vəkaləti və hisbə təşkilatının rəisliyi vəzifəsini icra etmişdi. O, fəzilətli, dərin zəkalı, elm və bilik sahibi, alicənab, nəzakətli, istedadlı və bacarıqlı insan kimi tanınmışdı. Bütün bunlarla yanaşı, Seyid Şərəfəddin Əli əl-Urməvi, şeyx Cəmaləddin bin Nəbatə və qazı Şihabəddin bin Fəzlullahla birgə yaşadığı dövrdə Misirin ən görkəmli ədibi idi. Nəzm və nəsrdə mahir olan Seyid Şərəfəddin Əli əl-Urməvi müxtəlif elm sahələrinə aid bir sıra əsərlərin müəllifidir. Onun Fəxrəddin Razinin (1149-1210) “Məalim fi üsulil-fiqh” adlı əsərinə şərhi vardır.

Seyid Şərəfəddin əl-Urməvi 1356-ci ildə Qahirədə vəfat etmişdir.

### 2.64. Zeynəddin Əbu Bəkr bin Hüseyn əl-Marağî

Zeynəddin bin Hüseyn bin Ömər bin Məhəmməd bin Yunis bin Əbi Fəxr Əbdürrəhman bin Nəcməddin əl-Osmani Marağî 1328-ci ildə anadan olmuşdu. O, bir çox alimdən dərs almış və hədis dinləmişdi. Həmçinin Əbülabbas bin əş-Şihnənin tələbəsi olmuş, icazətini (hədis rəvayət etmək hüququnu) ondan almışdı. Hafiz Yusif əl-Mizzi, Elməddin əl-Birzali kimi hədis alimlərinin tələbəsi olmuş, o cümlədən Şam vilayətinin Dəməşq, Həma və Hələb şəhərini gəzərək buradakı alimlərdən dərs almışdı. Şeyx Təqiyəddin Sübki, Moğultay və Şeyx Şəmsəddin Əbülməali Məhəmməd bin Əhməd bin əl-Ləbandan hədis dinləmiş və hədis elmlərinə dair bilikləri öyrənmişdi. O, həmçinin Şeyx Zeynəddin Əbu Hamid Məhəmməd bin Miskin əl-Misrinin (öl. 1348) yanında “ət-Tənqih”i, şeyx Cəmaləddin Əbdürrəhim əl-İsnainin yanda isə “əl-Minhəc”i oxumuş, onlardan fiqh və fiqh üsulu elmlərini öyrənmişdi. Təhsilini başa vurduqdan sonra Mədinəyə getmiş və təqribən bir il burada mücavir[253]

---

[252] Vəliyəddin Xətib ət-Təbrizi. Mişkatül-məsabih. s. 9.

[253] mücavir: Daim ibadətxana və ya türbə yanında yaşayıb vaxtını ibadətdə keçirən adam.

olaraq qalmışdı. Daha sonra Qahirəyə qayıtmış və burada tədqiqat və tədrislə məşğul olmuşdu. Zeynəddin Əbu Bəkr Maraği 1406-cı ildə Mədinə şəhəri qazılığına təyin olunmuşdu. O, burada özünün bir sıra əsərlərini qələmə almışdı. Qazı Zeynəddin Əbu Bəkr əl-Osmani Maraği Ömər bin Şəbbənin (öl. 876) müəllifi oluğu "Tarixu-Mədinə" əsərini ixtisar etmiş, Mühyəddin Yəhya Nəvəvinin "Minhacül-fiqh" adlı əsərinə isə şərh yazmışdı. "Təhqiqün-Nüsrə bi-təlxis məalim darül-hicrə" adlı əsər də onun qələmindən çıxmışdı. Bağdadlı İsmayıl Paşa Zeynəddin Əbu Bəkr Marağinin "Mürşidün-nasik ilə mərifətil-mənasik" adlı əsərinin yuxarıda qeyd etdiyimiz "Tarixu-Mədinə"nin müxtəsəri olduğunu bildirmişdir. İsmayıl Paşa və Ömər Rza alimin "Vafi bi-təkmilətil-kafi" adlı bir əsərinin də olduğunu qeyd etmişdilər. Zeynəddin Əbu Bəkr Maraği Mədinə şəhərinin qazısı ikən Allah Rəsulunun məqbərəsinin təmiri üçün təşəbbüs göstərmiş və bu işin təşkilatçılarından biri olmuşdur. Daha sonra o, Mədinə qazılığı vəzifəsindən azad edilmişdi.

Zeynəddin əl-Maraği 1413-cü ildə Mədinə şəhərində vəfat etmişdir.[254]

## 2.65. İmadəddin Nəsimi

İmadəddin Nəsimi təkcə dünya ədəbiyyatının deyil, eyni zamanda İslam ilahiyyatının da nadir şəxslərindəndir. Onun həyat və fəaliyyəti tədqiq edilərkən, məlum olur ki, bu söz nəhəngi rical (avtobioqrafiya) və təzkirə ədəbiyyatının müəlliflərini daha da dərindən maraqlandırmış və onun haqqında geniş məlumat verməyə çalışmışlar. Buna görə də günümüzədək gəlib çatan əksər mənbələrdə, xüsusilə də rical ədəbiyyatında Nəsimi haqqında olan məlumat bizim üçün dəyərli və qiymətlidir.

Bütün bu qeyd etdiklərimizin fonunda onu da bildirmək istəyirik ki, rical ədəbiyyatının fundamental mənbələrində Nəsimi haqqında deyilmiş bəzi orijinal fikirlər indiyədək oxucularımızın diqqətinə çatdırılmamışdır. Qeyd etdiyimiz rical elminə aid bu və ya digər mənbələr tədqiq edilsəydi, Nəsiminin dini-əqidəvi mənsubiyyəti, onun qətlə yetirilməsinin səbəbləri və dəqiq tarixi haqqındakı məlumatlar daha da zənginləşmiş olardı. Burada Nəsiminin dini-əqidəvi mənsubiyyətini ona görə önə çəkirik ki, o, bəzi orta əsr ədəbiyyatında, xüsusilə də rical kitablarında "zındıq", "mülhid", "kafir" kimi xoşagəlməz sözlərlə damğalanaraq edam kürsüsünə çıxarılmışdır. Halbuki yuxarıda qeyd etdiyimiz bu və ya digər mənbələr haqlı olaraq onu mühəddis (hədisşünas), arif, fəqih (İslam hüquqşünası) və nəhayət, şəhid kimi xatırlayırlar.

Yuxarıda da qeyd etdiyimiz kimi, böyük Azərbaycan mütəfəkkir şairi İmadəddin Nəsimi təkcə Azərbaycan ədəbiyyatşünaslığı və fəlsəfəsi tarixində deyil, eyni zamanda dünya və Yaxın Şərq mədəniyyəti, o cümlədən İslam ilahiyyatşünaslığı sahəsində də öz görkəmli və əvəzedilməz yerini tutmuş şəxslərdəndir. Böyük mütəfəkkirin əsərlərini mütaliə etdikcə, onların həm də dinşünaslıq, xüsusilə də hədisşünaslıq cəhətdən tədqiq-təhlil olunması məsələsi ortaya çıxır. Çünki Nəsiminin şeirlərində dini-irfani rəmz və istilahlar, Qurani-Kərimin ayələri və Məsumların hədisi-şərifləri geniş şəkildə öz əksini tapmışdır. Buna görə də burada böyük Şərq mütəfəkkirinin bəzi şeirlərini hədisşünaslıq cəhətdən tədqiq-təhlil etmək, şairin poetik vasitə kimi faydalandığı bəzi hədislərin orijinal mətnini, onların sənədini, rəvayət yollarını, mənbəsini, səhihlik dərəcəsini və nəhayət, şərhini yazmaqla onun Azərbaycan hədisşünaslığındakı yerini göstərməyə çalışmışıq.

Məlum olduğu kimi, Seyid İmadəddin Nəsimi XIV əsrin sonu XV əsrin isə əvvəllərində yaşamış qüdrətli Azərbaycan şairidir. Onun haqqında təkcə Azərbaycan alimləri deyil, eyni zamanda bütün müsəlman dünyasında yaşamış ədiblər, filosoflar, ilahiyyatşünaslar da bəhs etmiş, bəzən bir-birinə zidd məlumat vermişlər. Belə ki, rical elmi (avtobioqrafiya) sahəsində tanınmış alimlər, o cümlədən Ağa Bozork ət-Tehrani (1876-1970) "əz-Zəriə ila təsanifiş-şiə" (IX c. s. 1187) və "Təbəqatu əlamiş-şiə" (IV c. s. 103) Əbdülhüseyn əl-Əmini ət-Təbrizi (1902-1972) "Şühədaul-fəzilət" (s. 104-105), Məhəmməd Əli ət-Təbrizi (1879-1956) "Reyhanətül-ədəb (farsca, VI c. s. 174), Əbdülhüseyn əş-Şəbüstəri

[254] Həmin mənbə.

"Məşahiru şüəraiş-şiə" (III c. s. 276-277) və b. Nəsimi haqqında məlumat vermiş, şairin etiqadi mənsubiyyəti, qətlə yetirildiyi vaxt və zaman, qətlə yetirilməsinin səbəbləri, qətlin kimlər tərəfindən törədilməsi və s.-dən bəhs etmişlər.

Görkəmli ricalşünas alim Əbdülhüseyn əş-Şəbüstəri Nəsimi haqqında yazırdı:

هو السيد عماد الدين الشيرازي البغدادي الحروفي المشتهر في شعره بنسيمي. عالم، فاضل، عارف، محدث، محقق، اديب، شاعر ماهر. اخذ العرفان عن السيد شاه فضل الشيرازي النعيمي. اختلف في سنة وفاته، فقيل انه هرب بعد مقتل الاسترآبادي سنة 796 هـ إلى حلب فقتل بها. ويقال صُلب في شيراز سنة 837 هـ.

"Seyid İmadüddin əş-Şirazi əl-Bağdadi əl-Hürufi şeirlərində "Nəsimi" kimi məşhur olmuşdur. O, alim, fəzilətli, arif, hədisşünas, mühəqqiq, ədəbiyyatşünas və şeirdə mahir şəxsiyyət idi. Nəsimi irfan elmini Seyid Şah əş-Şirazi ən-Nəimidən öyrənmişdir. Nəsiminin ölümü ilə bağlı müxtəlif fikirlər vardır. Deyilənə görə, o, Astarabadinin qətlindən sonra (hicri 796/miladi 1394-cü ildə) Hələbə qaçmış və orada qətlə yetirilmişdir. Bəzilərinin dediklərinə görə isə, o, hicri 837-ci (miladi 1434-cü) ildə Şirazda əl-ayağı çarpaz kəsilərək (və ya çarmıxa çəkilərək) öldürülmüşdür".[255]

Cənubi Azərbaycan alimi Əbdülhüseyn əl-Əmini ət-Təbrizi (1902-1972) də Nəsiminin ölümü haqqında yuxarıdakı fikrə uyğun olaraq yazırdı: "Nəsimi hicri 837-ci (miladi 1434-cü) ildə Şirazda əl-ayağı çarpaz kəsilərək (və ya çarmıxa çəkilərək) şəhid edilmişdir".[256]

Lakin bəzi ərəb müəllifləri ilə yanaşı, Azərbaycan ədəbiyyatşünasları da İmadəddin Nəsiminin 1417-ci ildə Hələb şəhərində dərisi soyularaq edam edildiyini yazırlar.[257]

Əfsuslar olsun ki, Nəsiminin dini etiqadı haqqında olan məlumatlar da ziddiyyətlidir. Belə ki, görkəmli ərəb tarixçisi Məhəmməd Raqib bin Mahmud bin Haşim ət-Təbbaq əl-Hələbi (öl. 1920) İbrahim Sibt bin əl-Hələbinin "Künuzüz-zəhəb fi tarixi-Hələb" əsərinə istinadən yazırdı:

وفي أيام يشبك المذكور قتل علي النسيمي الزنديق ادعي عليه بدار العدل بحضور شيخنا المذيل [يعني به ابن خطيب الناصرية] وشمس الدين ابن أمين الدولة وكان إذ ذاك نائب الشيخ عز الدين وقاضي القضاة فتح الدين المالكي وقاضي القضاة شهاب الدين الحنبلي المدعو بابن الخازوق بألفاظه المنسوبة إليه ، وكان قد أغوى بعض من لا عقل له وتبعوه على كفره وزندقته وإلحاده...

"Zındıq (dinsiz) Əli ən-Nəsiminin qətli əmir Yaşbəkin vaxtında olub. Ona qarşı ittiham Hələbin Ədalət Sarayında şeyximiz İbn Xətibin və Şəmsəddin bin Əminnəddövlənin hüzurunda irəli sürülüb. Həmin zaman şeyxin naibi İzzəddin, qazılar qazısı Fəthəddin əl-Maliki və qazılar qazısı Şihabəddin əl-Hənbəli də orada olub.

Nəsimi bir qrup ağılsız adamları yoldan azdırıb və bunlar onun küfrünə, zındıqlığına və dinsizliyinə qoşularaq, onun ardınca gediblər..."[258]

Göründüyü kimi, bəzi mənbələr Nəsiminin öz əqidəsinə görə şəhid edildiyini, bəziləri isə küfrünə görə (!) öldürüldüyünü qeyd edir. Amma mənbələr daha da obyektiv şəkildə araşdırıldıqda və həmçinin Nəsiminin yaradıcılığı dinşünaslıq cəhətdən tədqiqata cəlb edildikdə, məlum olur ki, o, öz əqidəsinə, öz məzhəbi etiqadına görə şəhid edilmişdir. Hətta Nəsiminin "küfründən" bəhs edən mənbələr belə, bəlkə də özləri də hiss etmədən, onun müsəlman əqidəsində olduğunu və edam kürsüsündə İslam dininin əsas şərti olan "kəlmeyi-şəhadət"i deyərək edam edildiyini etiraf edirlər. Belə ki, yuxarıda adını çəkdiyimiz tarixşünas Məhəmməd əl-Hələbi yazırdı:

...فقام للدعوى عليه ابن الشنقشي الحنفي وذلك بحضور القضاة وعلماء البلدة، فقال له النائب: إن أنت أثبت ما تقول فيه وإلا قتلتك، فأحجم عند سماعه هذا الكلام عن الدعوى و النسيمي لا يزيد في كلامه على التلفظ بالشهادتين ونفي ما قيل عنه، فحضر عند ذلك الشيخ شهاب الدين بن هلال وجلس فوق القاضي المالكي وأفتى في هذا المجلس بأنه زنديق وأنه يقتل ولا تقبل توبته...

"...İttiham ilə onun əleyhinə qazılar qazısı İbn əş-Şənqəşi əl-Hənəfi çıxış edib. Bu hadisə qazıların və Hələb şəhəri alimlərinin hüzurunda baş verib və naib Yaşbək Nəsimiyə deyib: "Sən öz

---

[255] Əbdülhüseyn əş-Şəbüstəri. Məşahiru şüəraiş-şiə. 5 clddə. III c. Mərkəzi Alil-beytil-aləmi nəşriyyatı, I çap, 1421 h/q. s. 276-277.
[256] Əllamə əl-Əmini ət-Təbrizi. Şühədaul-fəzilət. 2 cilddə. I c. Beyrut, Müəssisətul-vəfa, II çap, 1403/1983. s. 105.
[257] İmadəddin Nəsimi. Seçilmiş əsərləri. 2 cilddə. I c. Bakı, Lider nəşriyyatı, 2004. s. 7.
[258] Məhəmməd Raqib bin Mahmud bin Haşim ət-Təbbaq əl-Hələbi. İlamün-nübəla bitarix Hələb əş-Şəhra. Mühəqqiq: Məhəmməd Kamal. 7 cilddə. III c. Hələb, Mənşurat Darül-qələm əl-ərəbi, 1408 h/q, s. 16.

dediklərini sübuta yetirməlisən, yoxsa mən səni öldürəcəyəm!” Bu sözləri eşitcək İbn əş-Şənqəşi ittihamdan imtina etdi. Nəsimi isə iki dəfə “kəlmeyi-şəhadət” deməkdən savayı başqa bir söz demədi və özünə qarşı deyilənləri inkar edir. Bu anda hənbəlilərin şeyxi Şihabəddin durub malikilərin qazısı Fəthəddindən yuxarı başda oturub və həmin məclisdə fətva verib ki, Nəsimi zındıqdır və tövbəsi qəbul olunmadan öldürülməlidir...”[259]

Buradan bir daha aydın olur ki, Seyid İmadəddin Nəsimi İslama etiqad edən, İslam ehkamlarını mükəmməl bilən və hətta irfan elmində arif, hədis elmində mühəddis (hədisşünas) fiqh elmində fəqih kimi adlarla yad edilən görkəmli bir şəxsiyyətdir. Bunu biz Nəsiminin aşağıda qeyd edəcəyimiz bəzi şeirlərində və onların hədisşünaslıq cəhətdən tədqiq-təhlilindən də görəcəyik.

Yuxarıda da qeyd etdiyimiz kimi, klassik Azərbaycan ədəbiyyatı tədqiq edildikcə, məlum olur ki, klassiklərin böyük əksəriyyəti öz yaradıcılıqlarında Qurani-Kərim və hədisi-şəriflərdən poetik vasitə kimi istifadə etmişlər. Onlardan biri də İmadəddin Nəsimidir. O, yazdığı bir çox şeirlərində Quran və ya hədislərin orijinal variantını, yaxud da onların məna çalarlarına işarə edərək gözəl poetik vasitə yaratmışdır.

Böyük mütəfəkkir İmam Əli haqqındakı şeirlərinin birində yazırdı:

**Əvvəlü axir Əlidir, zahirü batin Əli.**
**Bir günəşdir kim, yüzünə qonmadı ğəmdən ğübar.**

Nəsimi qeyd etdiyimiz beytdə İmam Əlinin aşağıdakı bir neçə hədisinə istinad etmişdir:

سأل إعرابيّ الإمام علي (ع) قائلا: كيف اصبحت؟ فقال: **اصبحت وانا الصديق الاول والفاروق الاعظم، وانا وصي خير البشر، وانا الاول وانا الآخر وانا الباطن وانا الظاهر وانا بكل شئ عليم، وأنا عين الله...**

فتعجب الاعرابي من قول!

فقال: انا الاول اول من آمن برسول الله وانا الآخر آخر من نظر فيه لما كان في لحده، وانا الظاهر فظاهر الاسلام، وانا الباطن بطين من العلم، وانا بكل شئ عليم فاني عليم بكل شئ اخبره الله به نبيه فاخبرني به، فأما عين الله فأنا عينه على المؤمنين والكفرة...

“Bir çöl ərəbi İmam Əlidən soruşdu? “Necə sübh etdin?” İmam buyurdu: **“Mən Peyğəmbəri ilk təsdiq edən, haqqı batildən ayırd edən və onun vəsiyyətlərini icra edən şəxs kimi sübh etdim. Mən əvvələm. Mən axıram. Mən zahirəm. Mən batinəm. Mən hər şeyi bilənəm. Mən Allahın baxan gözüyəm...”**

Ərəb İmamın dediklərinə çox təəccübləndi.

Bunu görən İmam sözlərinə izah verərək buyurdu: **“Mən əvvələm, yəni Peyğəmbərə ilk iman gətirən şəxsəm. Mən axıram, yəni Peyğəmbəri qəbrində son görən şəxsəm. Mən zahirəm, yəni İslamın zahirinə bələdəm. Mən batinəm, yəni elmin özüyəm. Mən hər şeyi bilənəm, yəni Allahın Peyğəmbərə öyrətdiklərini Peyğəmbər mənə öyrətmişdir...”**[260]

Sözügedən hədisin digər bir rəvayət formasını tanınmış hədisşünas Əllamə əl-Məclisi (1628-1700) belə nəql etmişdir:

**معاشر المؤمنين، المسلمين إن الله عز وجل أثنى على نفسه، فقال: هو الأول والآخر، يعني قبل كل شيء، والآخر يعني بعد كل شيء، والظاهر على كل شيء، والباطن لكل شيء، سواء علمه عليه. سلوني قبل أن تفقدوني، فأنا الأول, وأنا الآخر...**

**“Ey möminlər! Uca Allah özünü həmd-səna edərək belə buyurmuşdur: “O, əvvəldir, O, axırdır. Yəni hər şeydən əvvəldir və hər şeydən də sonradır. O, hər şeyin zahirində və hər şeyin batinindədir. Onun elmi də belədir. Məndən məni itirməzdən öncə soruşun. Mən əvvələm. Mən axıram...”**[261]

Xatırladaq ki, beytin birinci misrasındakı istinad edilən yuxarıdakı hədis ən görkəmli hədisşünasların əsərlərində, o cümlədən Şeyx Səduqun (917-991) “Amali-Səduq” (səh. 274), Əhməd

---

[259] Həmin mənbə.
[260] Əllamə əl-Məclisi. Biharül-ənvar. 110 cilddə. XXXIX c. Beyrut, Müəssisətul-Vəfa, 1403/1983. s. 347. Hədis № 20; 26 cilddə. IX c. Qum, İntişaarati-fiqh, I çap, 1427 h/q. s. 165.
[261] Həmin mənbə. Hədis № 20. s. 347-348.

bin Şüeyb ən-Nəsainin (935-1015) “Xəsaisül-Əmirilmöminin” (səh. 130. Hədis № 148), İbn Həcər əl-Heysəminin (1335-1405) “Məcməüz-zəvaid” (IX c. səh. 36. Hədis № 14266), Əllamə əl-Məclisinin (1628-1700) “Biharül-ənvar” (XXXIX c. səh. 346-348. Hədis № 19) əsərlərində də nəql olunmuşdur.

Nəsimi qeyd etdiyimiz beytdə bildirmək istəyir ki, İmam Əli Peyğəmbərə ilk iman gətirmiş, sonadək Peyğəmbərin yanında olmuş və onu şəxsən dəfn etmişdir. Bütün bunlarla yanaşı, beytin mənası onu göstərir ki, Nəsimi İmam Əlinin İslama son dərəcə bağlı olduğunu, zərrə qədər olsa belə, heç vaxt şəkk-şübhəyə düşmədiyini və İslamın yolunda çox sədaqətli olduğunu bildirmək istəmişdir.

**Uş hədisi Mustafadır la fəta illa Əli,**
**Həm Nəbinin sözüdür, la seyfə illa Zülfüqar.**

Nəsimi bu beytdə Peyğəmbərin **“لَا فَتًى إِلَّا عليٌّ لَا سَيفَ إِلَّا ذوُ الفِقارِ” – “Əli kimi gənc, Zülfüqar kimi qılınc yoxdur”**, hədisinə istinad etmişdir. Xatırladaq ki, sözügedən hədis tarix, hədis və təfsir ədəbiyyatında özünə yer etmiş ən məşhur hədislərdən biridir. Görkəmli hədisşünas və tarixçi İbn Əsirin (1160-1233) nəqlinə görə, Ühüd savaşında “Rəsulullah öldü” xəbərini alan bir çoxları qılınclarını atıb Mədinəyə geri dönmüş, bəziləri isə bu xəbərdən sarsılsa da “Məhəmmədin öldüyü bu dünyada siz niyə yaşayırsınız”, deyərək müşrikləri öldürməyə davam etmişdilər. Onlardan biri də İmam Əli idi. “O ölsə də onun dini yaşayır”, deyərək qılıncını bir anlıq da olsa yerə qoymamış, savaşa-savaşa bir gözü ilə də Peyğəmbəri axtarır və Onu Ühüdun təpəsində, üzü-gözü qan içində görüncə yanına yaxınlaşaraq bütün varlığı ilə onu qorumağa çalışmışdı. Onun bu şücaətini görən Peyğəmbər bu sözləri buyurmuşdu: **“Əli kimi gənc, Zülfüqar kimi qılınc yoxdur”**. Maraqlıdır ki, İbn Əsir bu hədisin Cəbrayıl tərəfindən deyildiyini qeyd etmişdir.[262]

Məşhur hədisşünaslardan olan Əllamə Əli əl-Müttəqi əl-Hindi (1483-1567) özünün “Kənzül-ümmal” adlı əsərində İmam Əlinin dilindən bu hədisi belə nəql etmişdi: **“...Cəbrayıl Məhəmmədə nazil olub dedi: “Əli kimi gənc, Zülfüqar kimi qılınc yoxdur”**.[263]

Müvəffəq bin Əhməd əl-Xarəzmi (öl. 1173) və İbn Kəsir əd-Diməşqi (1301-1373) isə hədisi **“Zülfüqar kimi qılınc, Əli kimi gənc yoxdur”** şəklində nəql ediblər.[264]

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bəzi şəxslər bu hədisin səhih (doğru) olmadığını iddia etmişlər. Bu iddianın tərəfdarları əllərində heç bir dəlil tapmadıqlarından yalnız hədisin sənədindəki Musa bin Əbumehranı ifşa ediblər. Onun ifşa olunmasının yeganə səbəbi isə məzhəbcə şiə olmasıdır ki, bunu da İbn Həcər əl-Əsqəlani (1372-1449) “Lisanül-mizan” əsərində qeyd etmişdir. Amma buna baxmayaraq, tədqiqatlar zamanı sübut olunmuşdur ki, qədim alimlərdən olan Məhəmməd bin Cərir ət-Təbəri (838-923) bu hədisi “Tarix” əsərində qeyd etmiş və Əbumehranın etibarlı ravi olduğunu təsdiq etmişdir.[265] Bundan əlavə, Peyğəmbərin məşhur səhabələrindən olan Həssan bin Sabitin (563-674) sözügedən hədisi nəzmə çəkməsi hədisin səhihliyini ortaya qoymaqdadır.[266]

Hədisin digər mənbələrinə gəldikdə isə, qeyd etmək lazımdır ki, onun hədis elminin bir çox tanınmış simaları, o cümlədən Əhməd bin Hənbəl (780-855) “Fəzailüs-səhabə”də[267] İbn Abbasdan (619-687), İbn Hişam (öl. 833) “əs-Sirə”də[268] İbn Əbu Nəcihdən, əl-Xəsəmi “ər-Rövzül-ənf”də,[269] İbn Əbilhədid əş-Şafei (1190-1258) “Şərhu-Nəhcil-bəlağə”də,[270] əl-Xarəzmi (öl. 1173) isə “əl-

---

[262] əl-Kamil fit-tarix, c. II, s. 154.
[263] V c. s. 723. Hədis № 14242.
[264] əl-Müvəffəq bin Əhməd əl-Xarəzmi. Təhqiq: əş-Şeyx Malik əl-Mahmudi əl-Mənaqib. Qum, Müəssisətu nəşril-İslami, IV çap, 1421 h/q. s. 36; İbn Kəsir əd-Diməşqi. əl-Bidayə. VI c. s. 6.
[265] Məhəmməd bin Cərir ət-Təbəri. Tarixi-Təbəri. II c. s. 197 və III c. s. 17.
[266] Sibt bin Cövzi. Təzkirə. s. 16; Əllamə Əmini. əl-Qədir. II c. s. 59.
[267] II c. s. 657. Hədis № 1119.
[268] III c. s. 52.
[269] II c. s. 140.
[270] I c. s. 9.

Mənaqib"də[271] Məhəmməd bin İshaqdan nəql etmişdir. Əhməd bin Məhəmməd əl-Həməvi (öl. 1687) isə "əl-Fəvaid" əsərində bu hədisi Məhəmməd bin Hüseyn əl-Beyhəqiyə (995-1067) istinadən müxtəlif yollarla rəvayət etmişdir.

Hakim əl-Kənci (öl. 1259) "Kifayətüt-talib" əsərində[272] hədisin bütün hədisşünaslar tərəfindən nəql edildiyini, Hakim ən-Nisaburinin (933-1014) onu "mərfu" şəkildə Peyğəmbərdən rəvayət etdiyini, ondan da Əhməd bin Hüseyn əl-Beyhəqinin (994-1067) "əl-Mənaqib" əsərində qeyd etdiyini yazmışdı. Maraqlıdır ki, o, Cabir bin Abdullah əl-Ənsaridən (607-697) bu hədisin 13 mart 624-cü ildə baş vermiş Bədr müharibəsi günü Rizvan adlı mələyin dediyini qeyd edib. Mənbələri araşdırdığımız zaman Hakim əl-Kəncinin (öl. 1259) bu məsələdə tək qalmadığını, bunu əl-Xarəzminin (öl. 1173) "əl-Mənaqib", Mühibəddin ət-Təbərinin (1218-1295) "Riyazün-nüzrə", İbn Kəsirin (1301-1373) isə "əl-Bidayə vən-nihayə"[273] əsərlərində də qeyd etdiklərinin şahidi oluruq.

Hədisin rəvayət zəncirinə gəldikdə isə, bildiririk ki, onun mətnini bir çox səhabələr, o cümlədən Əli bin Əbu Talib (ə), Əbu Rafe əl-Qibti (öl. 660-dan sonra), Əbuzər əl-Qiffari (öl. 652), Cabir bin Abdullah əl-Ənsari (607-697), Həssan bin Sabit (563-674), İmam Hüseyn bin İmam Əli və b. nəql etmişlər.[274]

Deməli, buradan bir daha aydın olur ki, Nəsimi yuxarıda qeyd etdiyimiz səhih hədisə istinad edərək Peyğəmbərin İmam Əli haqqında dediyi məşhur hədisi nəzmə çəkmişdir.

**Şəhr elminə Əlivü babuha dedi Rəsul,**
**Bəs Əli payində xak olmaq gərəkdi, xaksar.**[275]

Bu beytdə Peyğəmbərimizin (s): **"أنا مدينة العلم وعلي بابها - Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır"**, hədisini hədisşünaslar öz məşhur əsərlərində nəql etmiş və onun doğruluğunu təsdiq etmişlər. Bunu bariz şəkildə aşağıda adı çəkiləcək alimlərin əsərlərində görməkdəyik. Belə ki, hədisi dövrünün ən görkəmli hədisşünaslarından olan Hakim ən-Nisaburi (933-1014) "əl-Müstədrək ələs-səhiheyn" adlı əsərində İbn Abbasın (619-687) Peyğəmbərdən nəql etdiyini bildirdikdən sonra yazırdı: "Bu hədis Buxari və Müslümün şərtlərinə görə səhihdir, amma nəql etməmişlər..." Xatırladaq ki, sözügedən hədisi görkəmli hədisşünas Əbülqasim Əhməd ət-Təbərani (873-971) özünün məşhur "əl-Möcəmül-kəbir" adlı əsərində də nəql etmişdir".[276]

Böyük təfsir alimlərindən olan Mahmud əl-Alusi əl-Bağdadi (1802-1854) "Ruhul-məani" adlı təfsir əsərində yazırdı: "Əli elm şəhərinin qapısı adlanırdı".[277]

Hədisin sənədinə gəldikdə isə, qeyd etmək lazımdır ki, müasir Səudiyyə alimi İbn Bazın (1910-1999) əksinə olaraq böyük hədis alimləri qeyd etdiyimiz hədisin mütləq mənada səhih olduğunu bildirmişlər. Rical elminin görkəmli simalarından olan Şəmsəddin əz-Zəhəbi (1274-1348) "Təzkirətül-hüffaz" adlı əsərində Hafiz əs-Səmərqəndinin "Səhih" əsərinə istinadən bu hədisin səhih olduğunu yazırdı.

Cəlaləddin əs-Süyuti əş-Şafei (1445-1505) sözügedən hədisi "əl-Camiüs-səğir" əsərində nəql etmiş, sonra isə onu "Cəmül-cəvami" adlı digər bir əsərində "həsən" hədis adlandırmışdır.[278]

Şeyx İbrahim Qunduzi əl-Hənəfi (1805-1853) hədisin çoxsaylı ravilərini qeyd edərkən İmam Əlinin (ə), İbn Abbasın (619-687), Cabir bin Abdullah əl-Ənsarinin (607-697), Hüzeyfə bin Yəmanın (öl. 656), İmam Həsən bin İmam Əlinin (ə), Abdullah bin Məsudun (öl. 650), Ənəs bin Malikin (612-

---

[271] s. 104.
[272] s. 144.
[273] c. VII, səh. 250
[274] Quliyev İbrahim. Suallara cavablar (Hədisi-şəriflər kontekstində). Bakı, Elm və təhsil, 2016. s. 452-454.
[275] İmadəddin Nəsimi. İraq Divanı. Bakı, Yazıçı, 1987. s. 57.
[276] Möcəmül-kəbir. XI c. s. 55.
[277] Ruhul-məani. XXVII c. s. 3.
[278] əl-Camiüs-səğir. I c. s. 174.

709) və Abdullah bin Ömərin (610-693) adlarını çəkmişdir.[279] Hətta əl-Mövləvi hədisin səhihliyi haqqında İbn Müinin, Xətibin, İbn Cəririn, Hakimin görüşlərini qeyd etmiş və Firuzabadinin "ən-Nəqdüs-səhih"ində onların hamısının hədis haqqında səhih hökm verdiklərini bəyan etmişdir.

Bütün bu deyilənlərdən başqa, digər hədislər də qeyd etdiyimiz **"Mən elmin şəhəriyəm…"** hədisinin səhih olduğunu sübuta yetirir. Həmin hədislərdən bir neçəsini qeyd edək:

**-Mən hikmət evi, Əli isə onun qapısıdır;**
**- Mən elmin evi, Əli isə onun qapısıdır;**
**-Mən elmin tərəzisi, Əli isə onun gözüdür;**
**-Mən hikmətin tərəzisi, Əli isə onun dilidir;**
**-Mən fiqhin şəhəri, Əli isə qapısıdır.**

Görkəmli Quran təfsirçisi Fəxrəddin ər-Razi (1149-1210) özünün məşhur "Məfatihül-ğeyb" adlı əsərində İmam Əlidən belə nəql edir: **"Allahın Rəsulu mənə elmdən min fəsil öyrətdi ki, hər fəsildən də min qapı açılırdı"**. Xatırladaq ki, bu hədisin oxşarını İbn Əsakir (1106-1176) "Tarixu mədinəti-Diməşq" əsərində də qeyd etmişdir.

Nəsimi digər bir şeirində həzrət Məhəmmədin müqəddəs və məsumluğunu, həmçinin onun məxluqatın gövhəri olduğunu önə çəkərək yazırdı:

**Sənsən ol gövhər ki, dürci-mümkünat içrə bu gün,**
**Mümkün olan eybdən zatın mübərradır sənin.**

Böyük mütəfəkkir bu beytdə bildirmək istəmişdir ki, sən ey Məhəmməd əzəldən pak və hər növ günahdan uzaqsan. Burada şair İslam etiqadında mühüm bir məsələyə - Peyğəmbərin məsumluğuna diqqəti yönəltmişdir. Bildiyimiz kimi, "peyğəmbər" sözü dilimizə fars dilindən keçmişdir. Sözün ərəb dilindəki qarşılığı "nəbi"dir və "yüksək olmaq", "ucalmaq" mənalarında işlənir.[280] Əllamə əl-Məclisi (1628-1700) nəbi kəlməsinin mənası haqqında yazırdı:

"Nəbi nübuvvət kəlməsindən əmələ gəlib və yerdən hündür olan şeylərə deyilir. Deməli, nübuvvət sözünün mənası "ucalıq" olduğundan nəbinin də mənası "uca olan" deməkdir".[281]

Bu təriflərdən belə məlum olur ki, peyğəmbərlər Allah tərəfindən bu vəzifəyə məsul edilmiş insanlardır. Fikrimizcə nəbi kəlməsini "ucalıq", həm də "xəbər vermə" mənasında başa düşmək lazımdır. Çünki Allah taala onlara bu böyük və ağır vəzifəni verməklə onların dərəcələrini qaldırmış, onların nəfslərini təmizləyərək günahlardan uzaq etmiş və bununla da onları şərəfləndirərək bəşəriyyətin ən ali keyfiyyətli insanları etmişdir. Həmçinin onlar kamil bir insan kimi ucaldıqdan sonra onlara öz qeybinin bəzi sirlərini xəbər vermiş və onları insanlarla öz arasında xəbərçi edərək istədiyini bəşəriyyətə çatdırmışdır. Nəbi olan şəxslər də Uca Allah tərəfindən onların üzərinə qoyulan bu ağır əmanətə lazımınca sahib çıxmış, Allah taaladan aldıqları xəbər (vəhy) vasitəsi ilə insanları doğru yola yönəltmişlər.

Peyğəmbərlərin məsum (günahsız) olması inkaredilməz bir həqiqətdir.[282] Etiqadımıza görə, Allah taala tərəfindən göndərilən hər bir peyğəmbər mütləq mənada məsumdurlar və kiminsə onların günahkar və xətakar şəxs olmaları haqqında dediyi sözlərin heç bir əsası yoxdur. Buna görə də peyğəmbərlərin günah etmələri haqqında deyilən sözlərdən çəkinmək lazımdır. Bu əxlaqi bir göstərişdir və fikrimizcə, müsəlman olan hər bir fərd bu göstərişə əməl etməlidir.[283]

Əllamə əl-Məclisi (1628-1700) peyğəmbərlərin və bu kimi müqəddəs varlıqların günahsız olmaları barədə yazırdı:

---

[279] Yənabiül-məvəddə. s. 62, 72, 73, 400, 419.
[280] İbn Mənzur. Lisanül-ərəb. 15 clddə. XIV c. Dari-sadir, 2003. s. 183.
[281] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 523.
[282] Əllamə Təbatəbai. əl-Mizan təfsiri. 20 cilddə. II c. Bakı, Qələm nəşriyyatı, 2011. s. 211-246.
[283] Quliyev İbrahim. Suallara cavablar (Hədisi-şəriflər kontekstində). s. 338.

“Ənbiyalar, rəsullar, imamlar və mələklər barədə əqidəmiz budur ki, onlar böyük-kiçik hər bir pislikdən uzaq və məsumdurlar. Onlar heç bir günah etməmiş, Uca Allaha qarşı üsyan qaldırmamış və onlara əmr olunan hər bir şeyə əməl etmişlər. Həmçinin etiqadımız budur ki, doğrudan da onlar kamil, və elm sifətləinə yiyələnmiş, işlərinin əvvəlindən tutmuş sonuna qədər hər bir şey barədə məlumatlı olmuşlar. Onların etdikləri işlərdə nə naqislik, nə də nadanlıq vardır və onlar bu kimi sifətlərlə tanına bilməzlər”.[284]

Deməli, Nəsimi bu beytində Peyğəmbərin məsumluğu məsələsini haqlı olaraq önə çəkmişdir. Bundan başqa, beytin təhlili onu göstərir ki, burada həm də şair Peyğəmbərin xilqətinə, onun məxluqatın ilk yaradılmış şəxsi olduğuna da işarə etmişdir. Qeyd edək ki, bu məsələ klassik irsimizdə özünə geniş yer etmiş mövzulardandır. Məsələn, Peyğəmbərin ilk varlıq kimi yaradıldığını Mirzə Əbdülkərim Şüai Dərbəndi də bir beytində belə ifadə etmişdir:

**Sən nəbidün bilbəşər “mabeyni maü tin”də**
**Xilqəti-Adəmdən əsli-müddəasan, ya Nəbi!**[285]

Şüai Dərbəndi bu beytində çox incə və həm də müsəlman dünyasında üzərində daha çox dayanılan bir məsələyə - peyğəmbərimiz həzrət Məhəmmədin Adəm yaranmamışdan öncə, daha doğrusu o, su ilə palçıq arasında ikən peyğəmbər olmasına toxunmuşdur. Bunu qeyd etmək lazımdır ki, böyük mütəfəkkir beytin birinci misrasında Peyğəmbərin özündən nəql olunmuş hədisə istinad edərək belə bir qənaətə gəlmişdir. Belə ki, Peyğəmbər hədislərinin birində özü haqqında buyurmuşdur:

**كُنْتُ نَبِيًّا وآدَمُ بَينَ المَاءِ وَالطِّينِ.**

**“Adəm su ilə palıçğın arasında olarkən mən peyğəmbər idim”**.[286]

Xatırladaq ki, bu hədisi “zəif” hesab edən müəlliflər vardır. Lakin hədisin müxtəlif mətn formaları tədqiq edilərkən məlum olur ki, onun mətnini qüvvətləndirən dəlillər olduğundan o məşhur hədisşünasların nəzərində “səhih” kimi qəbul edilmişdir. Bundan əlavə, hədis bir çox hədisşünasların, o cümlədən Əhməd bin Hənbəlin (780-855) “Müsnəd” (IV c. s. 22), İbn Şəhraşub əl-Məzandaraninin (1095-1192) “əl-Mənaqib” (I c. s. 214), Əllamə Əli əl-Müttəqi əl-Hindi əl-Hənəfinin (1483-1567) “Kənzül-ümmal” (XI, hədis № 32115), Əllamə əl-Məclisinin (1628-1700) “Biharül-ənvar” (XVI c. “Tarixu-Nəbiyyina” fəsli, hədis № 1) əsərində də nəql olunmuşdur.

Bundan başqa, sözügedən hədisin digər bir rəvayət forması isə belədir:

بديل بن ميسرة، عن عبد الله بن شقيق، عن ميسرة الفجرِ، قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ، مَتَى كُتِبْتَ نَبِيًّا؟ قَالَ: **وَآدَمُ بَيْنَ الرُّوحِ وَالْجَسَدِ.**

Büdeyl bin Meysərə, Abdullah bin Şəqiqdən, o da Şəqiq əl-Fəcrdən rəvayət edir: “Peyğəmbərə dedim: “Sən nə vaxtdan peyğəmbər yazıldın?” Peyğəmbər buyurdu: **“Adəm cəsəd və ruh arasında olarkən”**.[287]

Nəsiminin nəzmə çəkdiyi bu hədisin ümumi mənası bu olur ki, həzrət Məhəmməd hələ həzrət Adəm ruhlar aləmində ikən, cəsəd olmamışdan öncə Uca Allahın elmində təsbit olunmuş peyğəmbər idi. Həzrət Peyğəmbər bu ifadəsi ilə insanlar üçün müəyyən bir vaxt anlayışını cızmış və özünün əzəldən İlahi elmdə peyğəmbər olduğunu bildirmək istəmişdir.

Həmçinin Nəsimi sözügedən hədisə istinad edərək ruhlar aləmində Peyğəmbərin hər kəsdən daha əvvəl mövcud olduğunu, kainatın onun nuru sayəsində yaradıldığını da vurğulamaq istəmişdir. Bu məsələ Qurani-Kərimin “Bəqərə” surəsinin 37-ci ayəsinin təfsiri ilə əlaqədar nəql olunmuş bir çox mənbələrdə öz əksini tapmışdır. Belə ki, Uca Allah sözü gedən ayədə belə buyurur:

---

[284] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 549.
[285] Ramiz Faseh. Seyyid İmadəddin Nəsimin seçilmiş bəzi şeirlərinin şərhi. Bakı, Şərq-Qərb, 2007. s. 135.
[286] İbn Əbi Cumhur əl-İhsai. Əvalil-ləali. Təhqiq: Ağa Müctəba əl-İraqi. 4 cilddə. IV c. I çap, 1403. s. 121. Hədis № 200.
[287] Əhməd bin Hənbəl. Müsnəd. Təhqiq: Şüeyb əl-Ərnaut və b. 50 cilddə. XXXIV c. Beyrut, Müəssisətür-risalə, 1999. s. 202. Hədis № 20596.

**فَتَلَقَّىٰ آدَمُ مِنْ رَبِّهِ كَلِمَاتٍ فَتَابَ عَلَيْهِ إِنَّهُ هُوَ التَّوَّابُ الرَّحِيمُ.**

**“**(Nəhayət) **Adəm rəbbindən** (bəzi xüsusi) **kəlmələr öyrənərək** (Həvva ilə birlikdə o kəlmələr vasitəsilə) **tövbə etdi. Doğrudan da, O** (Allah) **tövbələri qəbul edəndir, mərhəmətlidir”**. Bu ayənin təfsirini yazan Cəlaləddin əs-Süyuti (1445-1505) yazırdı:

“Peyğəmbərdən nəql olunmuş hədislərin birində belə nəql edilir:

قَالَ رَسُولُ اللَّهِ (ص): **لَمَّا أَذْنَبَ آدَمُ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ الذَّنْبَ الَّذِي أَذْنَبَهُ رَفَعَ رَأْسَهُ إِلَى الْعَرْشِ، فَقَالَ: أَسْأَلُكَ بِحَقِّ مُحَمَّدٍ إِلا غَفَرْتَ لِي، فَأَوْحَى اللَّهُ إِلَيْهِ، وَمَا مُحَمَّدٌ وَمَنْ مُحَمَّدٌ؟، فَقَالَ: تَبَارَكَ اسْمُكَ، لَمَّا خَلَقْتَنِي رَفَعْتُ رَأْسِي إِلَى عَرْشِكَ، فَإِذَا فِيهِ مَكْتُوبٌ: لا إِلَهَ إِلا اللَّهُ، مُحَمَّدٌ رَسُولُ اللَّهِ، لا إِلَهَ إِلا اللَّهُ، مُحَمَّدٌ رَسُولُ اللَّهِ، فَعَلِمْتُ أَنَّهُ لَيْسَ أَحَدٌ أَعْظَمَ عِنْدَكَ قَدْرًا مِمَّنْ جَعَلْتَ اسْمَهُ مَعَ اسْمِكَ، فَأَوْحَى اللَّهُ عَزَّ وَجَلَّ إِلَيْهِ، يَا آدَمُ، إِنَّهُ آخِرُ النَّبِيِّينَ مِنْ ذُرِّيَّتِكَ، وَلَوْلاهُ يَا آدَمُ مَا خَلَقْتُكَ.**

**“Bir zaman Adəm səhv etdikdə, dedi: “Ey Rəbbim! Məhəmmədin haqqı üçün məni bağışla!” Uca Allah buyurdu: “Ey Adəm! Hələ yaratmadığım Məhəmmədi haradan tanıdın?” Adəm dedi: “Ey Rəbbim! Sən məni öz əllərinlə yaratdıqda və mənə öz ruhundan üfürdükdə, başımı qaldırdım və Ərşin sütunlarında “la İlahə illəllah”, “Muhəmmədun rusulullah” yazıldığını gördüm. Buradan başa düşdüm ki, adınızla yanaşı yazılan bu adın sahibi sizin yanınızda yaratdığınız varlıqların ən sevimlisidir”**.

**Allah taala belə buyurdu: “Ey Adəm! O, sənin zürriyyətindən olan sonuncu peyğəmbərdir. Əgər o olmasaydı, mən sizi yaratmazdım”.**[288]

**“Əkrəmüz-zeyf” əmanət dedi Peyğəmbəri-həqq,**
**İzzət etgil bu gün ol məntiqə iman dedilər.**[289]

Beytin birinci misrasındakı **“Əkrəmüz-zeyf”** sözü Peyğəmbərin **يَا عَلِيُّ أَكْرِمِ الْجَارَ وَ لَوْ كَانَ كَافِراً وَ أَكْرِمِ الضَّيْفَ وَ لَوْ كَانَ كَافِراً وَأَطِعِ الْوَالِدَيْنِ وَلَوْ كَانَا كَافِرَيْنِ وَلَا تَرُدَّ السَّائِلَ وَ إِنْ كَانَ كَافِرا – “Ey Əli” Qonşu kafir olsa belə, ona hörmət et! Qonaq kafir olsa belə, ona hörmət et! Valideyn kafir olsa belə, ona itaət et! Dilənçi kafir olsa belə, onu boş qaytarma!”**, yaxud da **مَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الآخِرِ فَلْيُكْرِمْ ضَيْفَهُ جَائِزَتَهُ “Hər kəs Allaha və axirət gününə inanırsa, qonağına hörmət etsin”**, hədisinə işarədir. Məlum olduğu kimi, Quran, hədis və müsəlman alimlərinin əsərlərində qonağa hörmət etmək çox tövsiyə olunmuşdur. Nəsimi bu və ya digər hədislərə istinad edərək qonağın İlahi əmanət olduğunu bildirmiş və ona hörmət etməyin zəruriliyini qeyd etmişdir.

Qonağa hörmət etmək haqqında qeyd etdiyimiz ikinci hədis məşhur hədisşünas Məhəmməd bin İsmayıl əl-Buxarinin (810-870) “Səhihül-Buxari” əsərində səhih bir sənədlə nəql edilmişdir.[290]

**“Mən ərəfna” tanıyan nəfsini ol kimsənədir,**
**Bildi Rəbbini, anın adını insan dedilər”.**[291]

“Mən ərəfna” dedikdə, burada Peyğəmbərin **من عرف نفسه فقد عرف ربه – “Hər kəs özünü tanısa, Rəbbini də tanıyar”**, hədisi nəzərdə tutulmuşdur.[292]

Hədisi Cəlaləddin əs-Süyuti (1445-1505) “əl-Havi lil-fətava” əsərində (səh. 288. Hədis № 68) nəql etmişdir. Müəllif hədisi nəql etdikdən sonra onun sənədi və səhihlik dərəcəsi haqqında geniş tədqiqat aparmışdır. O, bəzi alimlərə, o cümlədən Mühyiddin ən-Nəvəviyə (1233-1277) və Bədrəddin əz-Zərkeşiyə (1344-1392) görə hədisin Peyğəmbərə deyil, böyük alimlərə məxsus olduğunu, lakin

---

[288] Cəlaləddin əs-Süyuti. Dürrül-mənsur. 8 cilddə. I c. Beyrut, Darül-fikir, 1433/2011. s. 142.
[289] İmadəddin Nəsimi. Seçilmiş əsərləri. 2 cilddə. I c. Bakı, Lider nəşriyyatı, 2004. s. 95.
[290] Məhəmməd bin İsmayıl əl-Buxari. Səhihül-Buxari. ər-Riyad, Darüs-salam, II çap, 1419/1999. s. 1052. Hədis № 6018; İbn Həcər əl-Əsqəlani. Fəthül-bari bi şərhi Səhihil-Buxari. Mühəqqiq: Əbdülqadir Şeybə. 13 cilddə. X c. ər-Riyad, I çap, 1421/2001. s. 460. Hədis № 5805.
[291] İmadəddin Nəsimi. Seçilmiş əsərləri. I c. s. 96.
[292] Cəlaləddin əs-Süyuti. əl-Havi lil-fətava. 2 cilddə. Beyrut, Darül-fikir, 1424/2004.

Tacəddin bin Ətaullaha (öl. 1339) görə isə hədis olduğunu, amma izaha ehtiyaclı olduğunu vurğulamışdır.[293] Hədisin izahı isə bundan ibarətdir ki, hər kəs özünün acizliyini, yoxsulluğunu bilsə, Uca Allahın ondan daha qüdrətli və daha zəngin olacağını dərk etmiş və beləliklə də öz Rəbbini tanımış olacaqdır. Bu məsələni Nəsimi digər bir beytində belə qeyd etmişdir:

**“Ey Nəsimi, hər kim öz nəfsindən oldu baxəbər,**
**Cümleyi-əşyadə zahir gördü nitqüllahini”**.[294]

Ola bilsin ki, Nəsimi bu beytində İmam Əlinin yuxarıda Peyğəmbərdən qeyd etdiyimiz hədisinə oxşar söylədiyi hədisə istinad etmişdir.

Nəsimi şeirlərinin birində dünyapərəstləri, tamahkar və dünyanın zahirinə aldanmış insanları məzəmmət etmək, onları tutduqları bu yoldan çəkindirmək üçün yazırdı:

**Əsli dənidir dünyanın, zatında yoxdur bir əlif,**
**Tərkibinə gəl bax anın, şol yavü nunü dalına.**[295]

Burada şair dünya sözünün ərəb dilindəki yazılışını önə çəkməklə gözəl bir poetik vasitə yaratmışdır. Belə ki, dünya sözü **“ي ن د”** hərflərinin birləşməsindən əmələ gəlmiş və lüğətdə “alçaq” mənasını ifadə edir. Göründüyü kimi burada hərflərin hamısı əyridir və onların arasında şaquli yazılan “əlif” (ا) yoxdur. Şair burada bildirmək istəyir ki, dünya alçaqlıq mənasını bildirir və onun ardınca gedənlər də alçaqlığa yuvarlanmış olurlar. Bununla yanaşı, dünyanın məzəmmət olunmasında əsas məqsədlərdən biri də insanın dünyaya çox bağlanıb axirətini unutması ola bilər. Çünki insan dünya və onun nemətlərinə aludə olduqca, dünya və oradakılara bağlandıqca axirətini unudur və nəticədə imansızlığa yuvarlanmış olur. Qurani-Kərim Qarunu buna misal çəkməkdədir.[296]

Bunu da qeyd etmək lazımdır ki, Nəsimi burada gözəl bir poetik vasitə yaratsa da, sözlərinin əsasında hədislər dayanır. Belə ki, dünyanı məzəmmət edən Peyğəmbər hədislərinin birində belə buyurmuşdur:

**الدُّنيا مَلعُونَةٌ ومَلعُونٌ ما فِيها إلاَّ ذِكرَ الله أَو عالِمًا أَو مُتَعَلِّمًا.**

**“Allahın zikri, alim və tələbələrdən başqa dünya və onun üzərində olanlar lənətlənmişdir”.**

Xatırladaq ki, bu hədisi bir çox tanınmış hədisşünaslar, o cümlədən Əbu İsa ət-Tirmizi (824-892) “Sünən” (hədis № 4112), Əhməd bin Hüseyn əl-Beyhəqi (995-1067) “Şüəbul-iman” (hədis № 1708) əsərində nəql etmişlər.

İmam Əli buyurmuşdur: **“Dünya,** (əhli) **qəm-qüssəyə bürünmüş, hiylə və xəbisliklə məşhurlaşmış** (vəfasızlığı gözüaçıq insanlara gizli olmayan) **bir evdir. O, həmişə bir halda qalmır. Ona gələnlər** (onun yanmaq, batmaq, uçmuş tavanlar altında qalmaq və müxtəlif xəstəliklərə düçar olmaq kimi dərd və əziyyətlərindən) **salamat qalmazlar. Onun halları müxtəlifdir və növbələri dəyişməkdədir** (bəzən nemət verər, bəzən də zəhmət). **Onda kef çəkmək** (nəfsin istəklərinə tabe olmaq) **məzəmmət edilib və onda rahatlıq tapılmır. Onun əhli, onda bəla oxlarına hədəfdir ki, dünya öz oxlarını onlara tərəf atır** (hər birini bir dərdə düçar edir) **və ölümlə məhv edir”**.[297]

Buradan bir daha aydın olur ki, klassik irsimizi təkcə filoloqlar deyil, eyni zamanda filosof və dinşünaslar da araşdırmalı, tədqiq etməlidirlər. Burada dinşünasların üzərinə xüsusi məsuliyyət düşür.

---

[293] Həmin mənbə.

[294] Ramiz Faseh. Seyyid İmadəddin Nəsimin seçilmiş bəzi şeirlərinin şərhi. Bakı, Şərq-Qərb, 2007. s. 128.

[295] İmadəddin Nəsimi. Seçilmiş əsərləri. 2 cilddə. I c. Tərtib edən: Həmid Araslı. Redaktor və lüğətin müəllifi: Teymur Kərimli. Bakı, Lider nəşriyyatı, 2004. s. 65.

[296] Qəsəs surəsi, ayə 76.

[297] Seyid Rəzi. Nəhcül-bəlağə (tərcümə və şərh). Tərc: A.Mehdiyev, D.Cəfərli, E.Quliyev. Bakı, İİR Mədəniyyət Mərkəzi, Nurlar nəşriyyatı, III çap, 2009. Xütbə № 217.

Çünki klassiklərimizin yaradıcılığında Qurani-Kərim və hədisi-şəriflərə daha çox istinad edildiyindən həmin istinadlar birmənalı şəkildə dinşünaslar tərəfindən tədqiq-təhlil edilməli, onların düzgün izahı verilməlidir. Əfsuslar olsun ki, klassik irsimiz dinşünaslıq cəhətdən tədqiqatdan kənar qaldığından bu sahədəki boşluq özünü daha da qabarıq şəkildə göstərməklə yanaşı, həm də bəzi naşı tədqiqatçılar tərəfindən verilən izah və şərhlər kobud səhvlərə, yanlış izahlara yol açmışdır. Bütün bunlarla bərabər, orta əsrlərdə yazılmış bəzi mənbələrdə klassik irsimizin bəzi ən görkəmli və ən qüdrətli nümayəndələri şər-böhtana məruz qalmış, onlar dinsizlik və etiqadsızlıqda ittiham edilmişlər. Belə "müttəhimlərdən" biri də böyük Azərbaycan mütəfəkkiri, şairi, müsəlman aləmində alim, arif, fəqih və hədisşünas kimi epitetlərlə yad edilən Seyid İmadəddin Nəsimidir.

## 2.66. Əlaəddin Əli əl-Ərdəbili

Cəlvəti[298] təriqətinin ən görkəmli nümayəndələrindən və dövrünün məşhur övliyalarından hesab olunan Əlaəddin Əli bin Sədrəddin Ərdəbili Azərbaycanın ən qədim elm mərkəzlərindən olan Ərdəbildə doğulmuşdur. Onun doğum tarixi dəqiq olaraq bilinmir. Amma alim və fəzilətli ailədə doğulduğu, ilk təhsilini dövrünün tanınmış alimlərindən olan atası Sədrəddin Ərdəbilidən aldığı məlumdur.

Qeyd etdiyimiz kimi, atasının tərbiyəsində yetişən Əlaəddin Ərdəbili onun vəfatından sonra onun yerinə keçmiş, atasının və  babasının bu təriqət böyüklərindən olmaları və belə tanınmaları səbəbiylə böyük bir etibara sahib olmuşdur. İslam alimlərinə və övliyaya hörməti və xidməti ilə tanınan Teymur Xan Ərdəbil bölgəsinin Şeyx Əlaəddin Əliyə verilməsini əmr etmiş və onu bu ərazidə hər cür vergidən azad edərək ona burada müstəqil hərəkət etmək hüququ vermişdi. Teymur Xan Anadolu səfərindən dönərkən sayı 30000-ə yaxın türkü özü ilə gətirmişdi. Əlaəddin Əli bunların sərbəst buraxılmasını Teymur Xandan xahiş etmiş, o da qəbul edib bunları sərbəst buraxmışdı. Bunların hamısı Əlaəddin Əlinin tələbəsi olmuşar. Onların bir qismi Ərdəbildə yerləşmiş, digər bir qismi isə Anadoluya dönmüşlər. Ərdəbildə qalıb bir məhəllə təşkil edən Anadolu türkləri "Süfiyani-Rumlu" adını daşıyırdılar. Teymur Xanın oğlu Şahruh da Qaraqoyunlu hökmdarı Qara Yusifə qarşı səfərində Ərdəbilə gəlib Şeyx Əlaəddin Əlinin xeyir-duasını almışdı.

Əlaəddin Əlinin sərbəst buraxdırdığı Anadolu türklərindən olan tələbələri gözəl xidmətlərinə görə Osmanlı padşahlarından hər il "Çerağ axçası" adlı qiymətli hədiyyələr alırdılar.

Əlaəddin Əli Ərdəbilinin yetişdirdiyi tələbələrinin ən üstünü Şeyx Həmidəddin Ağsarayi olmuşdu. Elmə və təhsilə sonsuz rəğbəti olan Həmidəddin bir çox yerləri gəzdikdən sonra Təbrizə, oradan da Xoy şəhərinə gələrək Əlaəddin Əlinin söhbətlərinə qatılmışdı. O, öz ustadının yüksək mənəvi halını görərək ona aşağıdakı şeirini həsr etmişdi:

**Ey sonsuz nur xəzinəsi olan, özün kimi bizi də işıqlandır,**
**Bizim dəyərsiz misimizi baxış iksirinlə qızıl et.**
**Sən can cövhərinin dənizisən, bizi də cövhər et.**

Əlaəddin Əli Həmidəddinin yaxşı niyyətlə gəldiyini görərək alınından öpmüş, ona öz sayğısını göstərmişdi.

Həmidəddin ona "Ey Haqqın nuru! Ey "səbir qurtuluşun açarıdır" sözünün sahibi olan şəxs! Hər çətinliyin cavabı sənin üzündən alınmaqda və öyrənilməkdədir. Hər çətinlik səninlə həll edilməkdə və hər müşkül səninlə məğlub olmaqdadır. Sən könülümüzdə olan hər şeyin tərcümanısan. Ayağı palçığa batanın sən əlindən tutansan" – deyərək ona öz dərin təşəkkür və ehtiramını bildirmək istəmişdi.

---

[298] Ərəb dilində "cələ" kökündən törəyən "ortaya çıxma, peyda olma" mənasını verən cəlvət, təsəvvüf termini kimi "salikin mənliyindən təmizlənmiş və ilahi xüsusiyyətlərlə bəzənmiş şəxsin xəlvətdən çıxıb insanlara qarışması mənasını verir" (Mühmet Ünal. Təsəvvüf tarixində cəlvətilik. "Şərq fəlsəfəsi problemləri" Beynəlxalq elmi-nəzəri jurnal. Bakı, № 1. 2014. s. 39).

Mənbələrin nəql etdiyinə görə, bir-birləri ilə bir zaman görüşüb danışan Əlaəddin və Həmidəddin daha sonra digər dərvişlərin toplanması ila söhbət və zikrə başlamışlar. Dərvişlər ilahi söhbət içində özlərindən gedəndə Əlaəddin Əli deyir:

"Hər kəs getdi. Görəsən qalan oldumu?" Bir də baxbılar ki, Həmidəddin bir küncdə özündən getmiş, şam qarşısındakı pərvanə kimi yanmış bir halda dayanmışdı. Ona toxunduqları zaman belə deyibmiş:

**Eşq əlindən yandı canım, ey Əli səndən mədəd!**
**Mən qəribi binəvayam, ey Əli səndən mədəd!**
**Sən mənə lütfü kərəmlə dərdimə bir çarə et!**
**Şəxs sənsən, mən gədayam, ey Əli, səndən mədəd!**

Həmidəddin bunları söylədikdən sonra müəllimi Əlaəddinin ayaqlarına bağlanmış, o da onu qucaqlamış və belə demişdi:

"Get Allahın əmrinə canla-başla təzim et, hörmət göstər və xalqla gözəl davranıb onlara şəfqət öyrət. Bizim sirrimizi bildiyin üçün ona görə hərəkət et. Dərvişlərlə, aşiq və ariflərlə, haqqı bilənlərlə dost ol".

Əlaəddin Əli Həmidəddinə icazət (hədis nəql etmə hüququ) vermiş və Anadoluya getməsini istəmişdi. O, bu əmrə tabe olaraq yola çıxmışdı.

Cəlvətiyyə yolu Əlaəddin Əlindən sonra Şeyx Şah deyə bilinən oğlu İbrahim tərəfindən davam etdirilmişdi.[299]

İlahiyyat elmlərinin, xüsusilə də hədis elminin ən yaxşı bilicilərindən biri kimi tanınan Əlaəddin Ərdəbili 1429-cu ildə Qüdsdə vəfat etmişdir. Vəfat etdiyi yerdə dəfn edilən alim-övliyanın qəbiri hal-hazırda müsəlmanlar tərəfindən ziyarət olunur.

### 2.67. Məhəmməd bin Cəmaləddin əl-Ərdəbili

Məşhur hədisşünaslardan olan Məhəmməd əl-Ərdəbili Hələbdə yaşamışdı. Təhsil almaq məqsədi ilə Qahirəyə getmiş burada Əbdülqadir bin əl-Əbardan fiqh dərsləri almışdı. Şəmsəddin Səxavi (öl. 1497) ondan dərs aldığını və bir müddət dərslərində iştirak edərək hədis dinlədiyini qeyd etmşdir.

Məhəmməd Ərdəbili 1484-cü ilin avqust ayında Hələbə qayıtmışdı. Onun ölüm tarixi məlum deyil, amma Şəmsəddin Səxavidən sonra vəfat etdiyini təxmin etmək olar.[300]

### 2.68. Seyid Yəhya əş-Şirvani

Seyid Yəhya Bakuvi XIV əsrin sonlarında Şamaxıda doğulmuşdur. Tam adı əs-Seyid Cəmaləddin Yəhya bin əs-Seyid Bəhaəddin əş-Şirvani əş-Şamaxi əl-Bakuvidir. Daha çox "Şirvani" və "Bakuvi" nisbəsi ilə məşhur olmuşdur. Şirvani nisbəsi vəteninin Şirvan olması səbəbilədir. Bakuvi deyilməsinin səbəbi isə həyatının ən uzun və ən səmərəli dövrünü Bakıda yaşadığına görədir. Seyid Yəhya elmi və təsəvvüfi tərbiyəsini Şamaxıda tamamlamışdı. Ancaq bir şeyx olaraq irfani fəaliyyətini Bakıda davam etdirmişdi. Vəfatına qədər qırx ildən çox Bakıda göstərdiyi fəaliyyətləri və yetiştirdiyi müridləri sayəsində şöhrəti ətraf bölgələrə yayılmışdı. Seyid Yəhya sağlam bir şəcərə ilə İmam Musa Kazimin soyundan gəlir. Atası Seyid Bəhaəddin Şirvanşahlar dövlətində "Naqibül-əşraf" vəzifəsində işləmişdir. Ata-babalarının hamısı da naqiblər nəslindən olmuşdur. Əhli-beytə mənsub olduğunu şeirlərində "Seyid" təxəllüsündən istifadə etməklə göstərmişdir.

Alimlər onun haqqında həmişə gözəl sözlər demişlər. Çünki Seyid Yəhya həyatının uşaqlıq və gənclik dövründə həm fiziki, həm də əxlaqi xüsüsiyyətləri baxımından başqaları tərəfindən sevilən və təqdir edilən örnək bir insan olmuşdur. Belə ki, qaynaqların hamısı onun bu xüsisiyyətini: "Kamal və

---

[299] **http://kitap.mollacami.com** Könül meyvələri. (s. 248-249) əsərinə istinadən.
[300] Həmin mənbə.

camal sahibi idi", "Fövqəladə zahiri gözəlliyi olan və bənzərsiz yaradılışa sahib idi", "Son dərəcə gözəl və nüfuzedici bir çöhrəsi vardı", "Qırx gün hücrəsində xəlvətdə qalıb, çölə çıxanda üzünə baxıla bilməyəcək dərəcədə nurani bir parlaqlıq onu görənlərin gözlərini qamaşdırardı" və s. kimi sözlərlə tərif edirlər. Ona "Cəmaləddin" ləqəbinin verilməsi də bu xüsusiyyətilə bağlıdır.

Seyid Yəhya təkyə təhsili ilə yanaşı, mədrəsə təhsili də almışdır. Türk, fars və ərəb dilində əsərlər yazması o dövrün ziyalıları üçün bilinməsi zəruri olan bu üç dilə hakim olduğunu göstərir. Bundan başqa, əsərlərindən təfsir, hədis, kəlam və fiqh elmlərini mükəmməl bildiyi məlumdur. Gənclik illərində Şamaxıdan ayrıldığına dair bir məlumat olmadığına görə, təhsilini də burada tamamladığını güman etmək olar. O dövrdə Şirvanşahların paytaxtı Şamaxı yaxşı təhsil verən mədrəsələrin olduğu əhəmiyyətli bir elm və mədəniyyət mərkəzi olmuşdur. Bakuvi "Şəfa əl-Əsrar" əsərində təhsil müəllimlərindən bir neçəsinin adını qeyd edir. Bunlar: Şəmsəddin Axsıkəti, Hafizuddin əl-Gərdəri, Mövlanə Tacüddin və Qütbəddin əs-Sərabidir. Bu alimlərin nisbəsindən aydın olur ki, başqa şəhələrdən və uzaq diyarlardan Şamaxıya gələn alimlər burada dərs vermişlər.

Seyid Yəhya təsəvvüf ilə hələ cavan yaşlarında ikən tanış olmuşdur. Onun uşaqlıq illəri olan XV əsrin əvvəllərində Şamaxı Xəlvətiyyə təriqətinin mərkəzi hesab olunurdu. Dövrün məşhur Xəlvətiyyə mürşidi Şeyx Sədrəddinin təkyəsi burada idi və onun çoxlu müridi vardı. Seyid Yəhyanın Xəlvətiyyə təriqətinə girməsinə bir hadisə səbəb olmuşdur. Belə ki, onun başına gələn bu hədisə həyatında dönüş nöqtəsi oldu. Cəmaləddin əl-Hulvinin "Ləməzati-Hulviyyə" adlı əsərində bu hadisə belə rəvayət edilir: "Seyid Yəhya bir gün yoldaşları ilə birlikdə çövkən oynayarkən bu əsnada Şeyx Sədrəddinin öndə gələn müridi Pirzadə Təqiyyüddin Şirvani sufilərlə birgə oradan keçmişdi. Oyun əsnasında Yəhya sufilərin önlərindən keçməli olduğu halda keçməyib ədəblə onları salamlamış və gözləmişdi. Onun bu hərəkəti Pirzadənin xoşuna gəlmiş və sufilərə "bu uşaq seyiddir, gəlin dua edək. Allah onu aləmin seyidi həzrət Məhəmmədin və Əliyyül-Mürtəzanın əsrarına layiq eləsin, pak əcdadı kimi vəlayət əhlindən olsun", − dedi. Xudanın izni ilə dua qəbul olundu. Yəhya o gecə yuxusunda böyük cəddi həzrət Məhəmmədi gördü. Həzrət Peygəmbər ona nəsihətlər etdikdən sonra Şeyx Sədrəddini göstərərək onu mənəvi ata olaraq təyin etdiyini, onun yolunun öz yolu olduğunu, yanına getməyini tövsiyə etdi. Yəhya oyananda dərhal Şeyx Sədrəddinin təkyəsinə vardı. Şeyx onu görəndə "bax gör atan dedikləri şəxsə bənzəyirəmmi?" - deyə sual verdi. Bunun cavabında, Seyid Yəhya şeyxin əllərinə qapanıb müridliyə qəbul edilməsini istədi. Yəhyanın atası Seyid Bəhaəddin bununla oğulunun dünya nemətlərindən və məqamlarından uzaqlaşacağı qorxusu ilə sufiliyə girməsinə əvvəllər şiddətlə qarşı çıxmışdır. Şeyx ilə mübahisə də etmiş, ancaq şeyx Sədrəddin ilə görüşüb söhbət edəndə, ondan təsirlənərək fikrindən yayınmış və o da, şeyxə mürid olmuşdur. Seyid Yəhya uzun illər Şeyx Sədrəddinin dərgahına davam edərək seyri-sülukunu, yəni sufilik təlim və tərbiyəsini tamamlamışdı. Şeyxinin vəfatının ardınca da Şamaxını tərk edib Bakıya hicrət etmişdi. Bakıya gəlməsinin səbəbi şeyxinin ölümündən sonra şeyxlik məsələsində Pirzadə ilə aralarında çıxan ixtilaf oldu. Belə ki, Şeyx Sədrəddin ölməzdən əvvəl müridlərini yığıb Seyid Yəhyanı öz yerinə şeyx təyin etdiyini, ona bağlanmalarını tövsiyə etmişsə də, vəfatından sonra şeyxin kürəkəni və baş mürüdi Pirzadə şeyxliyin öz haqqı olduğunu iddia etmiş və yaşlı müridlərin də dəstəyi ilə şeyxlik məqamına keçmişdi. Bunun ardınca da Seyid Yəhya: "təqdiri-ilahi belə imiş" deyərək Şamaxıdan ayrılıb Bakıya gəlmişdi. Seyid Yəhya Bakıya gələndə (təxminən 1420-ci illər) Şirvanşahlar dövlətində Xəlilullah xan hakimiyyətdə idi. Bu zaman ölkə paytaxtı da müvəqqəti olaraq Bakı olmuşdu. Xəlilullah Xanın göstərişi ilə Seyid Yəhya xəlvətiliyin Bakıdakı ilk xanəgahını öz sarayının yaxınlığında təsis etdi. Qaynaqlar Xəlilullah xanın həmişə ona böyük hörmət və yardım göstərdiyini bildirir. Aralarındakı səmimi münasibətin dərəcəsini göstərənlərdən biri "Kəşfül-qülub" adlı əsərini Xəlilullah xana ithaf etməsidir. Xanəgahın təsisində xanın köməyi, Seyidin qəbri ətrafında onun tərəfindən tikilən məscid, türbə və digər abidələrdən aydın olur. Xəlilullah xan bu yaxınlıq ilə bir tərəfdən Seyid Yəhyanın mənəvi nüfuzundan bəhrələnməklə digər yandan onun əxlaq və mənəviyyat dərslərində iştirak edərək haqqı və ədaləti tövsiyə edən nəsihətlərindən özü də istifadə etmişdir. Seyid Yəhya həyatı boyunca təkyəsində

müridlərini yetişdirməklə məşğul olmuş, əxlaqi-fəlsəfi dərslər vermiş və əsərlər qələmə almışdır. Onun həyatı zöhd və mücahidə ilə keçmişdir. O, isti aylarda, azuqəsiz və susuz olaraq səhralara çıxaraq günlərcə qalar, ibadətlə məşğul olardı. Xəlvətə girmək, tənha yerlərdə ibadət və təfəkkür etmək onun dəyişməz adətlərindən idi. Belə ki, o qidalanmasını on beş gündə bir iftar edəcək səviyyəyə endirmişdir. Ömrünün sonlarında dünya işlərindən tamamilə uzaqlaşmış, hətta vəfatından əvvəlki son altı ayda heç qida qəbul etmədiyi rəvayət edilmişdir. Seyid Yəhya 1466-cı ildə Bakıda vəfat etmişdir. Vəfatı Xəlilullah xanın vəfatından doqquz ay sonradır. Ona uzun ömür üçün dua edənlərə "Siz Xəlilullah xana dua edin. Çünki mənim ömrüm onunkinə bağlıdır", deyərək vəfatını xəbər vermişdir. Qəbri Bakıda hal-hazırda Şirvanşahlar sarayı müzeyi kompleksi içində olub, günümüzə qədər qorunmuşdur.[301]

Onun əsərləri daha çox təsəvvüf sahəsindədir. Lakin bu əsərlərdə Peyğəmbərimizin hədisi-şəriflərinə istinad etməsi və öz fikirlərini həmin hədislər əsasında izah etməsi onun hədis elmindəki bilgisini də ortaya qoymaqdadır. Onun yazdığı əsərlərdən "Əsrari-talibin", "Virdi-səttar", "Mənaqibu-Əli bin Əbu Talib (ə)" (müəllif bu əsərini İmam Əlinin fəzilətlərinə həsr etmiş, İmamın haqqında Quran ayələrinə və Peyğəmbərimizin hədisi-şəriflərinə istinad etmişdir. Qəsidə tərzində yazılan əsərdə müəllif İmam Əlinin üstünlüklərinə önəm vermiş, o həzrəti sevməyənlərin kafir olduğunu, sevənlərin isə sonda qurtuluşa çatacağını bəyan etmişdir):

**Şahi-mərdan, miri-meydan, səfləri yaran Əlidir,**
**Yol bilən, Haqqa gedən yola rəhbər olan Əlidir.**
**Hər kim Əlini tanımadısa iki dünyada da kor oldu,**
**Necə kor olmasın, çünki hər şeyin əsli Əlidir.**
**Vilayət nöqtəsində bil ki, ilk əvvəl o vardı,**
**Həm hikmət nöqtəsində sonuncusu da, bil ki, Əlidir.**
**Peyğəmbərdən sonra rəhbər olaraq Heydərdən başqasını axtarma,**
**"Sən məndənsən" sözünü eşit və bil ki, bizə öyrədən Əlidir.**
**"Ya Rəbb, mənə ya Əli" deməyi sən söylədin,**
**Sənin məhrəminin yoldaşı o idi, ondan ötrü "ya Əlidir".**
**Əlidən kim ayrı qaldısa, Nəbidən də uzaq qalar**.[302]

"Təsərrüfati-mükaşəfat" (müəllif bu əsərini həzrət Peyğəmbərin (s):**من عشق فعفوكتم ثم مات مات شهيدا** "Hər kəs aşiq olar, iffət göstərər, eşqini heç kəsə bildirmədən ölərsə, şəhid olaraq ölər"[303] hədisi-şərifinin şərhinə həsr etmişdir), "Əsrarül-vuzu vəs-salat" (Yəhya Bakuvinin bu əsəri fiqh elminə aid olub dəstəmaz və namaz haqqındadır. Müəllif adı çəkilən əsərində dəstəmaz və namazın fiqhi tərəflərini izah etdikdən dərhal sonra onların sirli, batini tərəflərini açmağa çalışmış və bununla da fiqh elmində yeni bir metodla vacib əməllərin batini mənalarının açıqlanmasını zəruri hala gətirmişdir. Bakuvi nəsrlə yazdığı bu əsərində dəstəmaz və namazın bütün vacibi tərəflərinə toxunmuş, dəstəmazın məqbul olmasının ilkin şərti kimi onun suyunun pak olmasını önə çəkmişdir), "Şərhi-əsmai-səmaniyyə" (müəllif bu əsərini Allahın sübuti sifətlərinə həsr etmişdir. Əsərdə o, Allahın səkkiz sifətini (Həyy, Alim, Bəsir, Səmi, Qadir, Mütəkəllim, Baqi və İradə sahibi) bütün təfərrüatı ilə izah etmişdir), "Virdu-Səttar" (bu əsərin xüsusi önəmi var. Çünki müəllif əsərində Allahın doxsan doqquz adına, həzrət Məhəmmədə (s), dörd xəlifəyə, Əhli-beytə salavat və salam göndərir. Bakuvi bu əsərini ərəbcə yazmışdır. Əsərin "Övradi-Yəhya" və "Virdu-xəlvətiyyə" kimi digər adları da vardır.[304]

---

[301] Məlumat Mehmet Rıhıtımın "Seyid Yəhya əş-Şirvani əl-Bakuvi. Şəfa əl-əsrar" (Bakı, III nəşri, 2013. s. 71-80) kitabından götürülmüşdür.
[302] Həmin mənbə. s. 78.
[303] Əllamə Əli əl-Müttəqi əl-Hindi. Kənzül-ümmal. Hədis № 7000.
[304] Geniş məlumat üçün bax: Natiq Rəhimov. Azərbaycanın din alimləri. Bakı, Nurlar, 2014. s. 10-17.

### 2.69. Cəmaləddin əs-Süyuri

Əbu Abdullah Cəmaləddin Miqadad bin Abdullah bin Məhəmməd bin Hüseyn bin Məhəmməd əs-Süyuri əl-Hilli əl-Əsədi əl-Ğərəvi İslam ilahiyyatşünaslığının ən görkəmli nümayəndələrindən biridir. O, qədim alimlərin nəzərində daha çox Fazil Süyuri və Fazil Miqdad kimi məşhurdur. Mənbələr onu fəzilətli, əqli və nəqli elmlərə mükəmməl bələd, təqva və imanda hər kəsdən öndə olan bir alim kimi vəsf edirlər.

Təəssüflər olsun ki, rical və təracim kitablarında onun haqqında geniş məlumata rast gəlinmir. Buna görə də onun doğum tarixi haqqında dəqiq məlumat yoxdur. Amma İraqın Hillə şəhərinin yaxınlığındakı Süyur kəndində doğulduğu, daha sonralar isə elm öyrənmək üçün Nəcəfül-əşrəf şəhərinə getdiyi və 1422-ci ildə həmin şəhərdə vəfat etdiyi qeyd edilir.[305]

əs-Süyuri öz dövrünün ən görkəmli alimlərindən dərs almışdır. Onlardan Cəmaləddin Məkki əl-Amilini (Şəhidi əl-Əvvəl) (1333-1384) və digərlərini qeyd etmək olar.

Cəmaləddin əs-Süyuridən bir çox alimlər hədis rəvayət etmiş və ondan hədis rəvayət etmək üçün icazə hüququ əldə etmişlər. Onlardan Əbülhəsən Əli bin Hilal əl-Cəzairi, Şeyx Şəmsəddin Məhəmməd bin əş-Şüca, Rəzyəddin Əbdülməlik bin Şəmsəddin İshaq bin Əbdülməlik əl-Qummi, Zeynəddin Əli bin Həsən, Şeyx Həsən bin Raşid əl-Hilli və başqalarını qeyd etmək olar.

İslam ilahiyyatının müxtəlif şöbələri haqqında dəyərli əsərlər yazan əs-Süyurinin ən məşhur əsərlərindən "Kənzül-irfan fi fiqhil-Quran", "Risalə adabil-həcc", "əl-Ədiyyətüs-səlasun", "İrşadüt-talibin", "əl-Ənvarül-Cəlaliyyə", "Təcvidül-bəraə fi şərhi təcridil-bəlağə", "ət-Tənqihür-rai fi şərhi müxtəsəriş-şərai", "əl-Camiül-fəvaid", "Şərhe se fəsl", "əl-Ləvamiül-İlahiyyə", "ən-Nafi yaumil-həşr", "Nəzdil-qəvaidil-fiqhiyyə", "Nəhcüs-sidad", "Şərhu məbadiyəl-üsul", "Təfsiru muğmizatil-Quran"ı qeyd etmək olar.

əs-Süyurinin adı çəkilən bu əsərləri içində heç şübhəsiz ki, ən önəmlisi "Kənzül-irfan" əsəri hesab olunur. Alimlər onun bu əsərini Təbərisinin (1073-1153) "Məcməül-bəyan" əsərinə bərabər tuturlar. Əsər "əhkamül-Quran" üslubunda yazılmışdır. Yəni burada müəllif Qurani-Kərimi surə surə deyil, onun yalnız şəriət hökmlərinə aid olan ayələrini təfsir etmişdir. Onun təfsirdəki bu metodu Əhməd bin Əli əl-Cəssasın (917-980) metoduna daha çox oxşayır. O, əsərini çox gözəl şəkildə tərtib etmişdir. Əsərin gözəlliyinin əsas xüsusiyyəti ondan ibarətdir ki, müəllif hər bir mövzunu ayrı-ayrılıqda bir fəsil içində izah etmişdir. Məsələn "təharət" adlı bir fəsil açmış və mövzuya uyğun ayələri, daha sonra isə uyğun hədislərlə o ayələrin təfsirini qeyd etmişdir.[306]

Süyurinin bu əsəri iki cild halında hicri 1384-cü ildə Heydəriyyə mətbəəsində çap edilmişdir.

### 2.70. Zeynəddin Məhəmməd bin Əbu Bəkr əl-Marağİ

Zeynəddin bin Məhəmməd bin Əbu Bəkr bin Məhəmməd bin Əbu Bəkr bin Hüseyn bin Ömər əl-Osmani əl-Marağİ görkəmli fəqih və hədisşünas alimlərdən olmuşdur. O, məşhur alim Əllamə Şərəfəddin Əbülfəth Məhəmməd əl-Marağinin nəvəsidir. 1454-cü ildə anadan olmuş, ailəsi Mədinədə yaşamış və uşaq yaşlarında ikən atasını itirmişdi. Atasının vəfatından sonra onun təlim və tərbiyəsi ilə babası və nənəsi Fatimə bint Cəmaləddin Əbülyəmən Məhəmməd əl-Marağİ məşğul olmuşdular. Gənc yaşlarında Hindistana getmiş və 1484-cü ilə qədər orada yaşamış və təhsil almışdı. Daha sonra Anadoluya getmiş və 1489-cu ildə vəfat edənə qədər orada yaşamışdı.

### 2.71. Yusif Məxdum əş-Şirvani

[305] Möhsün əl-Əmin. Əyanüş-şiə. III c. s. 10.

[306] Cəmaləddin Miqdad bin Abdullah əs-Süyuri. Kənzül-ürfan fi fiqhil-Quran. I c. Məktəbətül-Mürtəzəviyyə li ihyail-asaril-Cəfəriyyə. Mətbəətül-Heydəri. 1384 h/q. 4-7.

İslam ilahiyyatşünaslığının ən görkəmli nümayəndələrindən biri və öz dövrünün tanınmış övliyalarından sayılan Yusif Şirvaninin künyəsi Əbülfüyuzat, ləqəbi isə Ziyaəddindir. Onun atasının adı Əli Fazildir. Doğum darixi dəqiq olaraq məlum deyil.

Yusif Məxdumun atası Əli Fazil Şirvanın qazıl-qüzatı və zamanının tanınmış alimlərindən idi. Yusif Məxdum müxtəlif elmləri atasından öyrənmişdi. Doqquz yaşında qiraəti-səbəə (Quranın yeddi qiraəti üzrə oxunması) ilə Qurani-Kərimi əzbərləmişdi. Yetkinlik çağına gəldikdə tələbələrə dərs verməyə başlamış daha sonra isə elm öyrənmək və hədisi-şərif dinləmək üçün müxtəlif bölgələrə səyahətlər etmişdi. Gəzdiyi bütün yerlərdə bir çox alimdən istifadə etmiş, təfsir, hədis və fiqh elmləri sahəsində əvəzedilməz bir mütəxəssis olmuşdur.

Yusif Məxdum təhslini tamamladıqdan sonra doğma vətəni olan Şirvana geri dönmüşdü. Burada uzun illər hədis elmlərinin tədrisi ilə məşğul olmuşdur. Onun tədris vaxtı belə imiş: sübh namazından günorta namazına qədər qiraət və təfsir elmləri ilə, günorta namazından axşam namazına qədər də müxtəlif elmlərlə yanaşı hədis elmindən dərslər verirmiş. O, gecələri ibadət içərisində keçirərmiş.

Mötəbər mənbələrin nəql etdiyinə görə, Yusif Məxdum mübarək gecələrin birində xüsusi bir şəkildə ibadət edərək həmin gecəni oyaq qalmış, Allah taalaya çox yalvarıb-yaxarmış və səhərə yaxın xəfif bir yuxuya dalmışdı. Bu anda o, özünü böyük və nurlu bir səharada görmüşdü. Bu səhrada yolunu itirən Yusif ona tərəf Peyğəmbərin gəldiyini görmüş, ona öz əhvalını danışmış və Peyğəmbərimiz ona belə buyurmuşdur: “Ey Yusif! Məqsədinə qovuşmağın mənim ən kamil varislərimdən və övladımdan olan Seyid Yəhyanın yol göstərməsinə bağlıdır”. Yusif Məxdum o günü tərəddüd içərisində keçirmişdi. Axşam olduqda gecənin üçdə ikisini ibadətlə keçirdikdən sonra yatmış və bu dəfə Yəhya Şirvanini görmüşdü. Yəhya Şirvani ona: “Peyğəmbərimizin mübarək əmrlərini aldıqdan sonra daha düşünməyin və tərəddüd etməyin nə mənası var?” - deyə soruşmuşdur. O anda yuxudan oyanan Yusif Məxdum bu beyti oxumuşdu:

**Baş açıb girdim bu gün meydani-eşqə ey könül!**
**Əlvida, yarana düşdüm nari-şövqə ey könül!**

Bundan sonra o, mədrəsəni tərk edərək Seyid Yəhyanın hüzuruna yetişmək üçün yola düşmüşdü. Çünkü o, gördüyü yuxu sayəsində bilirdi ki, Seyid Yəhyanı görməyincə rahatlığa qovuşa bilməyəcəkdi. Seyid Yəhya onu gördükdə “xoş gəldin ey Məxdum! Sənə xidmət etmək bizə vacib oldu. Çünki sənin vasitənlə Peyğəmbərimiz bu bəndeyi-fəqirə “oğlum” deyə müraciət etmişdir”, - deyərək onun gəlişini qəbul etmişdir.

Mənbələrin verdikləri məlumata görə, Yusif Məxdum təqribən qırx gün Seyid Yəhyanın yanında qalmış, o böyük övliyanın kəramətlərindən feyziyab olmuş və ondan elmin bir çox sirlərini mənimsəmişdi. Həmçinin bu arada Yusifə ustadı Seyid Yəhyanın “Məxdum” (xidmət olunmuş) ləqəbi verməsi onun məqamının üstünlüyündən xəbər verməkdədir.

Yusif Məxdumun “Adabül-irşad” və “Silsilətül-ərvah” adında iki əsəri vardır. Onun “Adabül-irşad” əsəri iyirmi dörd fəsildən ibarət olmuşdur.

Müsəlman dünyasında böyük övliya və görkəmli alim kimi tanınan Yusif Məxdum haqqında şairlər şeir demiş, onun yüksək məqamından bəhs etmişlər. Aşağıdakı beytlər də onun haqqındadır:

**Yusif Məxdum adında vardı bir övliya,**
**Duaları müstəcəb olurdu əksəriya.**[307]

Yusif Məxdum 1485-ci ildə Şirvanda vəfat etmişdir.

[307] Hədiyyətül-ixvan. Süleymâniye Kütüphânesi Hacı Mahmûd kismi. No: 4587 Vr: 1; Osmanlı müəllifləri. I c. s. 197; İslam Alimleri Ansiklopedisi. XIII c. s. 166.

### 2.72. Fəthəddin bin Məhəmməd əş-Şirvani

Fəthəddin Əbdürrəhman bin Məhəmməd bin Fəthullah Şirvani görkəmli fəqih və hədisşünas idi. Məkkəyə getmiş və burada təhsil almışdı. Şəmsəddin Səxavinin dərslərində iştirak etmiş və onun yanında hədis elminə dair biliklərə yiyələnmişdi. Ölüm tarixi məlum olmasa da, XV-XVI əsrlərdə yaşaması deyilir.[308]

### 2.73. Qazızadə əl-Ərdəbili

Qazızadə ləqəbi ilə tanınan Zəhirəddin Ərdəbili Azərbaycan hədisşünaslığının tanınmış nümayəndələrindəndir. O, daha çox rical elmləri sahəsində fəaliyyət göstərmiş və bu sahəyə aid dəyərli əsər meydana gətirmişdir. "Şəzəratüz-zəhəb" kitabında qeyd edildiyinə görə, hənəfi məzhəbində olan Qazızadə sonradan şiəliyi qəbul etmiş və bunun nəticəsi olaraq 1520-ci ildə Qahirədə şəhid edilmişdir.

Qazızadə Zəhirəddinin yaradıcılığı zəngin olsa da, mənbələrdə onun iki əsəri haqqında məlumat verilir. Onun əsərinin biri "Ricalu-Zəhirəddin" olub rical elminə aiddir. Müəllif bu əsərində rical elminin fundamental problemlərinə toxunmuşdur. Müəllifin ikinci əsəri isə İbn Xəllikanın (1211-1282) "Vəfayatül-əyan" əsərinin fars dilinə tərcüməsidir.[309]

### 2.74. İlahi əl-Ərdəbili

Azərbaycan hədisşünaslığının görkəmli nümayəndələrindən biri də heç şübhəsiz ki İlahi Ərdəbili adı ilə şöhrət tapan Kəmaləddin Hüseyn bin Xacə Şərəfüddin Əbdülhəqdir. Onun doğum tarixi dəqiq olaraq məlum deyil. Bir müddət ibtidai təhsilini Ərdəbildə aldıqdan sonra Şiraz və Xorasana səfərlər edən İlahi Ərdəbili zamanının ən böyük alimlərindən dəqiq və humanitar elmləri öyrənmişdir. Onun müəllimləri sırasında Cəlaləddin əd-Dəvani, Əmir Qiyasəddin Şirazi, Əmir Cəmaləddin Ətaullah bin Fəzlullah kimi nəhəng elm xadimləri vardır. Təhsilini başa vuran İlahi Ərədbili 1492-ci ildə öz doğma şəhərinə qayıtmış və burada öyrəndiyi bütün əqli və nəqli elmlərin yüksək səviyyədə tədrisinə başlamışdır. Mənbələrin qeyd etdiklərinə görə, o dərslərini türk, ərəb və fars dili olmaqla üç dildə deyirmiş.

İlahi Ərdəbilinin yaradıcılığı özünü daha çox şərh və tərcümədə göstərir. Onun "Tacül-mənaqib fi fəzailil-əimmə", "Mənhəcül-fəsahə fi şərhi Nəhcil-bəlağə", "Şərhu risaləti vacibil-vücud", "Şərhu təhzibil-üsul", "Şərhu işkalit-təsisis-Səmərqəndi", "Tərcümə məhcid-dəvat", "əl-Mühakimat beynət-təbəqat", "Haşiyə bər şərhe hidayə", "Haşiyə bər şərhe məvaqif" əsərləri daha məşhurdur.[310]

Bütün ömrünü elm və dinin təbliğinə həsr edən alim 1530 və ya 1540-cı ildə öz doğma torpağında vəfat etmişdir.

### 2.75. Kəmaləddin əl-Ərdəbili

İslam ilahiyyatının tanınmış simalarından olan Hüseyn bin Şərafəddin Əbdülhəqq Ərdəbili Şah İsmail Səfəvinin dövründə (1501-1524) Şirazda elmi fəaliyyət göstərmiş alimlərdəndir. Mənbələr onun humanitar və dəqiq elmlər sahəsində çox böyük bir alim olduğunu, fəlsəfə, astronomiya və tibb elmlərində də dövrünün öndə gələn alimlərindən olduğunu yazırlar. O, Əmir Qiyasəddin Şirazi və Əmir Cəmaləddin Ətaullah bin Fəzlullah kimi nəhəng elm sahiblərinin hüzurunda oxumuş və fəlsəfə elmləri sahəsində yüksək dərəcəyə çatmışdır.

Təsəvvüfə böyük meyli olan Kəmaləddin Ərdəbili Mahmud Şəbüstərinin "Gülşəni-raz" əsərini sufilik prinsipləri əsasında şərh və təfsir etmişdir.

Kəmaləddin Ərdəbilinin zəngin yaradıcılığı vardır. Onlardan "Şərhu Nəhcil-bəlağə (farsca)", "Fi fəzlil-əimmətil-isney aşərə", "Risalətül-imamət" (farsca), "Şərhu təhzibi Əllamə Hilli", "Haşiyə bər

---

[308] Həmin mənbə.
[309] Fəqihane və müfəssirane ustane Ərdəbil. "Qazızadə" maddəsi.
[310] Həmin mənbə.

şərhe motaliye şəmsiyye”, “Təfsire-İlahi” (farsca, iki cilddə), “Həaşiyə bər təhriri-İqlidis”, “Haşiyə bər şərhe Cəğmini dər fələkiyyat”, “Təlxisi təhriri-İqlidis”i qeyd etmək olar.[311]

Kəmaləddin Ərdəbili 1540-cı ildə vəfat etmişdir.

### 2.76. Məhəmməd Füzuli

Məhəmməd Füzuli dünya ədəbiyyatı və fəlsəfəsi tarixinin müstəsna şəxsiyyətlərindəndir.

Füzulinin həyat və yaradıcılığının ilk dövrləri Bağdad və Kərbəla da daxil olmaqla İraqi-Ərəbin Səfəvilər hakimiyyətinə tabe olduğu illərə düşür.[312]

Füzuli zəmanəsinə son dərəcə həssas münasibət bəsləyən əsrinin bütün mürəkkəbliyini, ziddiyyətləri ilə dərk etməyə çalışan mütəfəkkir şair olmuşdur. O, həm də hadisələrə kənardan baxan bir seyriçi, müşahidəçi kimi deyil, həqiqi bir şair və alim ehtirası ilə, mənsub olduğu cəmiyyətin varlığını, maddi-mənəvi əlaqələrini hərtərəfli aydınlaşdırmaq istəmişdir. Bu məqsədlə də şair bir-birinə zidd fikir cərəyanlarına, fəlsəfi, dini görüşlərə, təriqət və məzhəblərə baş vurmuş, onları saf-çürük etmiş, orta əsrlərdə cəmiyyət həyatının və insan taleyinin çətin suallarına cavab verməyə səy göstərmişdir.[313]

Məhəmməd Füzuli klassik Azərbaycan ədəbiyyatının ən böyük mütəfəkkir şairlərindən biridir. Onun həyatı haqqında məlumatlar çox azdır. Əsl adının Məhəmməd, atasının adının Süleyman olduğu məlum olsa da, hansı tarixdə və harada doğulduğu haqqında dəqiq məlumat yoxdur. Mövcud qaynaqlar onun Bağdad ətrafında doğulduğunu yazsa da, müəyyən bir yeri dəqiq olaraq göstərə bilmirlər. Əhdi, Sam Mirzə, Əli Mustafa və Aşiq Çələbi bəzi şeirlərində keçən “Bağdadi” ifadəsindən və ümumiyyətlə, Füzulinin Bağdadi deyə xatırlanmasından onun Bağdadda doğulduğunu söyləyirlər. Həsən Çələbiyə görə Hillədə, Riyaziyə görə də Kərbəlada dünyaya gəlmişdir.[314] Ancaq şairin şəxsən özünün türkcə divanında bir neçə yerdə Bağdadı “diyari qürbət” sayması doğum yerinin Bağdad xaricində bir yer olduğuna dəlil sayıla bilər. Lakin bəzi tədqiqatçılar onun Hillədə və ya Nəcəfdə doğulduğu qənaətindədirlər. Ərəb tədqiqatçısı İbrahim Dəküki isə şairin əsərlərində istifadə etdiyi bəzi sözlərdən belə qənaətə gəlir ki, o, Kərkük və ya onun ətraflarında olan məntəqələrin birində doğulmuşdur.[315] Bütün bu ehtimallar arasında, xüsusilə türkcə və farsca divanlarının müqəddimələrində olan ifadələrlə bir qisim şeirləri diqqətə alınaraq Kərbəlada doğulması həqiqətə daha yaxın olduğu deyilə bilər. Həmçinin onun atasının Hillənin qazısı olması və orada yaşaması fikrimizcə, Füzulinin Kərbəla və ya ətrafında doğulmasını daha da real göstərir.

Füzulinin doğum ili kimi doğum yeri də bir-birindən fərqlidir. Yaxın zamana qədər qəbul edilən 1495 (hicri 900)-ci il ilə Əbüzziya Məmməd Tofiqin verdiyi 1504-1505 (910)-ci il tarixi hər hansı ciddi bir qaynağa və ya dəlilə söykənmir. İbrahim Daküki “Mənşə və mövludum İraq” cümləsindən çıxış edərək onun bu ibarənin əbcəd hesabı ilə 1483 (hicri 888)-cü ildə doğulduğunu irəli sürür. Farsca divanında olan “Əlvənd Bəy Mədhində” adlı bir qəsidəsindəki ilə başqa bir qəsidəsində “əlli ildən bəri şeir yazdığı”nı ifadə etməsindən çıxış edərək şairin böyük bir ehtimalla 1480-cı ildə və ya bu tarixdən bir neçə il sonra doğulduğu deyilə bilər. Əsərlərindən əldə olan faktlar şairin Bağdadda doğulması ehtimalını rədd edir:

**Ey Füzuli, məskənim çün Kərbəladır, şerimin**
**Hörməti hər yerdə vardır, xəlq onun müştağıdır.**
**Nə qızıldır, nə gümüş, nə ləlü, nə mirvaridir,**
**Sadə torpaqdırsa, lakin Kərbala torpağıdır**.

---

[311] Həmin mənbə.
[312] Əliyar Səfərli, Xəlil Yusifov. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı, Maarif Nəşriyyatı, 1982. s. 222.
[313] Məmməd Cəfərov. Füzuli Düşünür. Bakı, Azərbaycan uşaq və gənclər ədəbiyyatı nəşriyyatı, 1959. s. 4.
[314] Riyazi. Riyazüş-şüəra. Türkiyə nəşri, s. 46-47.
[315] İbrahim əd-Dəkuki. Fuzuli əl-Bəğdadi vəl-həyatül-fikriyyə fil-İraq fil-qarnis-sadisi aşara. I c. Zağvan, 1990. s. 145.

Bu və buna bənzər qeydlər sənətkarın Kərbəlada anadan olması fikrini təsdiq edir. Şairin mənsub olduğu ailə XV əsrin axırlarında Azərbaycandan İraqa köçmüş minlərlə ailədən biri idi. Atası Süleyman dövrünün qabaqcıl, ayıq şəxslərindən olduğundan oğlunun təlim-tərbiyəsinə xüsusi diqqət yetirir. Füzuli artıq məktəbdə oxuduğu vaxtlarda aşiqanə qəzəllər yazır. Yaşa dolduqca elmləri öyrənməyin zərurətini anlayır, ictimai və dəqiq elmləri, o cümlədən tibbi, fəlsəfəni, astronomiyanı, riyaziyyatı, məntiqi və başqa elmləri mükəmməl mənimsəyir. O, mükəmməl təhsil əldə etmək üçün heç şübhəsiz, Kərbəla mühiti ilə kifayətlənməmişdir. Hillədə, Bağdadda da olmuşdur.[316]

Füzulinin zaman-zaman Təbriz, Anadolu və Hindistan kimi yerlərə səyahət etmə arzusunun olmasına baxmayaraq, doğulub böyüdüyü İraq bölgəsinin xaricinə çıxma imkanı tapa bilmədiyi aydın olmaqdadır. Onun həyatı Kərbəla, Hillə, Nəcəf və Bağdadda keçmişdir. Ömrünün böyük bir hissəsinin Nəcəf və Kərbəlada keçməsi daha məşhurdur. Çünki ərəbdilli qayanqlara görə o, Nəcəf elmi hövzəsinin baş müctəhidlərindən olmuş və dövründə şiə məzhəbinin dini lideri kimi fətvalar da vermişdir. Bundan başqa, onun bəzi yazılarında özünü Kərbəladakı türbələrin xidmətçisi adlandırması da onun dini kimliyindən xəbər verməkdədir.

Şah İsmayıl 1508-ci ildə Bağdadı tutduğu zaman Məhəmməd Füzuli xüsusilə ədəbiyyat sahəsində olduqca məşhur gənc bir şair idi. Səfəvi imperiyasının qurucusu olan Şah İsmayılın Xorasan tərəfdə Özbək əsilli Şəybək Xanı məğlub edərək ortadan qaldırdıqdan (1510-cu ilin dekabrı) sonra başını elmə və ədəbiyyata qarışdırdığı məlumdur. Füzuli ilk əsərlərindən biri olan “Bəngü-Badə”ni Şah İsmayıla it-haf etmiş, əsərində bu tarixi hadisəyə də işarə etmişdir.

Bir müddət sonra Səfəvilərin Bağdad valilərindən olan İbrahim Xan Mosulinin Kərbəla və Nəcəfi ziyarət edərkən onunla tanış olan şair onunla birlikdə Bağdada getmiş, ona təqdim etdiyi iki qəsidəsində və bir tərcibənd ilə valini tərifləmişdir. İbrahim Xan tərəfindən az-çox himayə gördüyü aydın olan Füzulinin İbrahim Xanın qardaşıoğlu Zülfiqar tərəfindən ortadan qaldırılması ilə əlaqədar olaraq ehtimal ki, təkrar Hilləyə geri dönməsi Səfəvi məmurları arasında hər hansı bir hami tapa bilməməsindən ola bilər.

Füzulinin 1527-ci ildən başlayaraq Qanuni Sultan Süleymanın 1534-cü ildə Bağdadın tutulmasına qədər keçən müddətdə necə yaşadığı tam olaraq məlum deyil. Qanuni Sulatan Bağdadı işğal edincə, “Gəldi bürcü övliyaya padşahi namidar” tarixi misrasını da ehtiva edən məşhur qəsidəsi ilə birlikdə padşaha beş qəsidə təqdim etmiş, Sədrəzəm İbrahim Paşa, Əbdülqadir Çələbi, Nişançı Cəlalzadə, Mustafa Çələbi kimi şəxsiyyətlərə də qəsidələr təqdim edərək bu dəfə Osmanlı dövlət adam-larının himayəsinə girməyə çalışmışdır. Ayrıca Bağdad səfərinə qatılan şairlərdən Xəyali Bəy və Taşlıcalı Yəhya Bəylə də tanış olduğu və onlarla dostcasına münasibətlər qurduğu qaynaqlarda qeyd edilmişdi. Qanuni Sultan Bağdaddan ayrılmadan Füzuliyə əvqafdan maaş ayrılacağına dair söz vermiş, lakin sonradan bu maaş gündəlik 9 axça kimi cüzi bir miqdardan ibarət qalmış və əvqafın sonradan bunu kəsməsi nəticəsində şair məşhur “Şikayətnamə”sini qələmə alaraq Osmanlı məmurlarının iç üzünü ifadə etmişdir. Füzulinin bundan başqa Mosul rəhbəri Əhməd Bəy, Ayaş Paşa, Qazı Əlaəddin və Şahzadə Bəyazid kimi bəzi əhəmiyyətli Osmanlı dövlət adamlarına yazdığı məktublarla Bağdad valilərindən Üveys, Cəfər, Ayaş və Məhəmməd paşalara təqdim etdiyi qəsidələrdən dəyəri kifayət qədər təqdir edilməmiş bir insanın hissiyyatı aydın olmaqdadır.

Füzuli dövrünün görkəmli ziyalılarından biri kimi tanındıqda Mövlana Füzuli, yaxud Molla Füzuli adı ilə məşhurlaşmış, Nəcəfül-əşrəfdəki dini idarələrin birində qulluq edərək maaş almışdır. “Ruzi yeyərik alirəsulun qapsında” qeydi bunu təsdiq etməkdədir. Lakin bu maaş sonralar kəsilmiş, Şair vəzifədən kənar edilmişdir.[317]

Füzulinin ölümü haqqında ilk məlumat verən mənbə Əhdi Bağdadinin “Gülşəni-Şüəra” əsəridir. Əhdi Füzulinin ölümü haqqında yazır:

---

[316] Əliyar Səfərli, X. Yusifov. Qədim və ota əsrlər Azərbaycan ədəbiyyatı. s. 221-222.

[317] Həmin mənbə. s. 222.

“Kəndisi səlasü sittinə və tis`ə-miə` mərəzi-taunla məs`un olub digərgün olmuşdur”.

Bu sətirlərdən aydın olur ki, Füzuli 1556 (hicri 963)-cı ildə Kərbalada taun xəstəliyindən vəfat etmişdir.[318]

Qədim təzkirəçilərin bu qeydləri sonrakı tədqiqatçılar tərəfindən təkrar olunmuş, bəziləri hicri 963, bəziləri 969 və 970, bəziləri isə ikisini də Füzulinin vəfatının ehtimalı tarixi kimi göstərmişdilər. XVII əsrin məşhur biblioqraflarından Katib Çələbi “Kəşfuz-zünun” adlı əsərində hər iki tarixi işlədib, bəzən 970, bəzən də 963 yazmışdır.[319]

Beləliklə, Füzuli 1556-cı ildə Bağdad və ətrafını bürüyən böyük vəba epidemiyası nəticəsində vəfat etmişdir. “Keçdi Füzuli” sözü də bu tarixi verməkdədir. Ən doğru rəvayətlərə görə, ölüm yeri Kərbəladır. Kərbəlada Peyğəmbərin nəvəsi İmam Hüseynin türbəsi qarşısındakı Əbdülmümin Baba türbəsində dəfn olunduğu tarixdə qeyd edilmişdir.

Füzuli yalnız böyük şair deyil, həmdə dövrünün böyük alimi idi. Ömrünün çox hissəsini, özünün yazdığı kimi, əqli və nəqli, fəlsəfi və həndəsi elmləri öyrənməklə məşğul olmuş, həmişə elm və sənəti bir vəhdət kimi qiymətləndirmiş, elmsiz şeirə “əsassız divar kimi” baxmışdır. Şair nəinki bədii əsərlərində-qəzəl və müxəmməslərində, poemaları, rübai, qitə və qəsidələrində oxucusunun məlumat dairəsini zamanın mütərəqqi bilikləri ilə yeri düşdükcə zənginlkəşdirir, eləcə də müxtəlif elm sahələrinə xüsusi əsərlər də həsr edir.[320]

Füzuli bir-birilə az bağlı olan bu müxtəlif elm sahələrinə o qədər dərindən bələd olmuşdur ki, hətta bəziləri ilə bağlı xüsusi elmi və ya bədii əsər yazmışdır. Məsələn, Füzulini İslam tarixinə və hədisşünaslığa aid hüdudsuz bilik və məlumatlarını təsəvvür etmək üçün təkcə “Hədiqətüs-süəda”, “Mətləül-etiqad” və “Hədisi-ərbəin” əsərlərini xatırlamaq kifayətdir. Yaxud, şairin “Leyli və Məcnun” poemasında bir çox sırf fəlsəfi məsələlərin qoyuluşu və həlli imkan verir ki, onların müəllifi mütəxəssis filosof adlandırılsın. Şairin təbiət elmləri sahəsində bilik və təcrübələri, işarə və mülahizələri son dərəcə orijinal və maraqlı nəticələrə gəlmək üçün zəngin material verən bir məxəzdir.

Şair bir qitəsində də Kərbəlanı öz məskəni saymışdır. Böyük Səlcuqlar dövründən başlayaraq İraqi-Ərəbdə yurd salan bayat, türkman tayfaları Kərkük ilə yanaşı, Kərbəla, Bağdad, Hillə, Süleymaniyyə, Bəsrə və s. şəhər və mahallarda da yaşayırdı. Ancaq Füzuli bu şəhərlərdən ən çox Kərbəlaya dərin ehtiram göstərmiş və Kərbəlanı əsərlərində rəğbətlə xatırlamışdır. “Sadə torpaqdırsa, lakin Kərbəla torpağıdır”, - deyərək bu müqəddəs şəhəri müsəlman dünyasının ziyarətgahı saymış, xalqın sevdiyi bu şəhərin hər yerdə hörmətindən danışmış, torpağını qızıl, gümüş və inci adlandırmışdır. Çox bilikli və etiqadlı olduğu üçün Füzulinin Molla və ya Mövlana adı alması təsadüfi deyildir. Şairin bir qitəsindən aydın görünür ki, o, bir müddət Nəcəfdə, Kərbəlada “Ətəbati-aliyat” adlı İmamların ziyarətgah yerlərində xidmət etmiş və “ali-Rəsulun qapısında” dolanmağa layiq görülmüşdür. Bu haqda o, yazırdı:

**Ruzi yeyənik ali-rəsulun qapısında,**
**Bir ömrdür olmuş bizə bu ruzi müqərrər.**
**Bu ruzi yolu bizlərə bağlanmamış əsla,**
**Layiq bizik aləmdə belə ruziyə yeksər.**[321]

Bütün janrların imkanlarından istifadə edən sənətkar hümanizmin, gözəlliyin ehtiraslı təbliğatçısı, eybəcərliyin güclü inkarçısı olmuşdur. Onun ədəbi irsinə Azərbaycanca “Divanı”, farsca “Divanı”, Azərbaycanca, farsca, ərəbcə qəsidələrdən ibarət “Divanı”, “Leyli və Məcnun” aşiqanə-romantik

---

[318] Həmid Araslı. Böyük Azərbaycan şairi Füzuli. s. 86; Osman Nuri Topbaş. Abide şahsiyetleri ve müesseseleriyle Osmanlı. İstanbul, Erkam Yayınları, 1999. s. 472.
[319] Həmid Araslı. Böyük Azərbaycan şairi Füzuli. s. 87.
[320] Məhəmməd Füzuli. Əsərləri. Bakı, Şərq-Qərb, 2005. I c. s. 14.
[321] Məhəmməd Füzuli. Əsərləri. c. VI. s. 5.

poeması, “Bəngü Badə”, “Yeddi Cam”, “Söhbətül-Əsmar” alleqorik poemaları, “Şikayətnamə” də daxil olmaqla məktubları, “Səhhət və Mərəz”, “Rindü Zahid” adlı farsca yazılmış alleqorik, ictimai-fəlsəfi nəsr əsərləri, “Hədisi-ərbəin”, “Hədiqətüs-süəda” kimi tərcümələri, “Mətləül-etiqad” kimi ərəbcə yazılmış elmi-fəlsəfi əsəri daxildir. Şairin lirik şeir divanlarında qəzəl janrı üstünlük təşkil etsə də, qitə, rübai, tərkibbənd, tərcibənd, müsəddəs, müxəmməs, mürəbbe kimi şeir şəkillərinə də biganə qalmamışdır.[322]

Füzuli əsərlərini üç dildə yazmışdır. Türkcə, farsca və ərəbcə əsər yazan Füzulinin mənzum və mənsur on beşə qədər əsəri vardır:

**“Divan”**. Mənsur bir müqəddimədən sonra iki tövhid, doqquz nət, iyirmi yeddi qəsidə, 302 qəzəl ilə qitə və rubailərdən ibarət olan divanın Türkiyə və dünya kitabxanaları ilə birgə, xüsusi əllərdə yüzlərlə nüsxəsi mövcuddur. Divanın ilki hicri 1244-cü ildə Təbrizdə olmaq üzrə Bakı, Qahirə, İstanbul və Ankarada edilmiş əllidən çox nəşri vardır.

**“Leyli və Məcnun”**. Türk, İran və ərəb ədəbiyyatlarında Füzuliyə əsl şöhrətini gətirən bu əsər, Azərbaycan ədəbiyyatının klassik dövründə yazılmış məsnəvilərin ən gözəlidir. Ərəb, İran və türk ədəbiyyatlarının ortaq mövzuları arasında ilk planda çıxış edən “Leyli və Məcnun” hekayəsi ən təsirli və səmimi şəkildə Füzulinin əsərində ifadəsini tapmışdır. Türkiyə və dünya kitabxanalarında bir çox əlyazma nüsxəsi olan “Leyli və Məcnun” istər Füzuli külliyyatı arasında, istərsə də müstəqil olaraq eyni zamanda ən çox nəşr edilən məsnəvilərin başında gəlməkdədir. Əsər almanca, ingiliscə və ispancaya da çevrilmişdir.

**“Bəngü Badə”**. Tiryəklə şərabın müqayisə edilərək şərabın üstün tutulduğu 440 beytlik bu məsnəvi Füzulinin məsnəvi tərzindəki ilk əsəridir. Şah İsmayıla ithaf edilən əsər, bəzilərinə görə Osmanlı Padşahı II Bəyazid ilə Şah İsmayıl arasındakı mübarizəni simvollaşdırmaq üçün yazılmışdır.

**“Hədisi-ərbəin tərcüməsi”**. Molla Caminin “Hədisi-ərbəin” adlı əsəri Əlişir Nəvainin (1441-1501) eyni adlı əsərinin tərcüməsindən faydalanılaraq yazılmışdır. Mənsur bir müqəddimə ilə başlayan risalədə hədislər qitələr şəklində çevrilmişdir. Burada İslam dininin əsas pirinsipləri Qurani-Kəimdən sonra hədislər vastəsilə açıqlanır.

İslami ədəbiyyatda müştərək mövzu olaraq işlənən “Hədisi-ərbəin” (qırx hədis) formasının yaranması və geniş yayılmasını bir çox cəhətdən izah etmək olar.

Öncə, nəzərə almaq lazımdır ki, kiçik həcmli hədis kitablarının tərtibi onların xalq arasında yayılması və geniş oxucu kütləsi tərəfindən əzbərlənməsini asanlaşdırdığı üçün Peyğəmbərin hədisi-şəriflərindən insanların faydalanması üçün ən gözəl və asan yol qırx hədis tərtib etmək idi.

Qırx rəqəminin Şərq dünyasında xüsusi rəmzi-simvolik məna ifadə etməsini də “Hədisi-ərbəin” formasını geniş yayılma amillərindən biri kimi ayrıca qeyd etmək lazımdır. Ancaq bütün bunlarla belə, “Hədisi-ərbəin” formasının olduqca geniş yayılmasının səbəbi, heç şübhəsiz ki, bütün “Hədisi-ərbəin” məcmuələrinin müqəddiməsində xatırlanan həzrət Peyğəmbərin belə bir hədisi ilə bağlıdır: **“Ümmətimdən hər kim cəza** (həşr) **gününədək** (insanlara) **fayda verən qırx hədis əzbərləyib, başqalarına öyrətsə, Allah taala qiyamət günündə onu fəqih bir alim kimi dirildər”**.[323]

Bu hədisin “Hədisi-ərbəin” formasına bəraət qazandırmaq üçün sonradan yarana biləcəyini də ehtimal etmək olar. Müxtəlif variantlarda olan həmin hədisin yuxarıda adı çəkilən “Səhih” hədis kitablarının heç birində olmaması bu fikrin doğruluq ehtimalını artırmış olsa da, hər halda o, bütün “Hədisi-ərbəin” məcmuələrinin yaranmasında əsas səbəb kimi göstərilir.[324]

XII yüzillikdən başlayaraq fars dilində yaranan “Çehel hədis” (qırx hədis) məcmuələrinin sayı 46-dan artıq olsa da, bunların çoxu ərəbcə yazılan toplulardan fərqlənərək nəsrlə deyil, nəzmlədir.

---

[322] Ə. Səfərli, X. Yusifov. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. s. 223.
[323] Acluni. Kəşfül-xəfa. II c. Beyrut, Darül-kitabil-ilmiyyə, 1997. s. 220.
[324] Ataəmi Mərzəyev. Cami, Nəvai və Füzuli yaradıcılığında “40 Hədis”. s. 11.

XIV yüzillikdən başlayaraq türk dillərində yazılan “Hədisi-ərbəin” əsərlərinin sayı isə 90-a yaxındır. Onların içərisində ərəb və farscadan edilən tərcümə əsərlər də vardır.[325]

Şərq xalqları ədəbiyyatının inkişafında və zənginləşməsində ayrıca yeri olan “Hədisi-ərbəin” mövzusuna Şərqin üç dahisi Əbdürrəhman Cami (1414-1492), Əlişir Nəvai (1441-1501) və Məhəmməd Füzuli (1494-1556) də müraciət etmişdir. Caminin “Hədisi-ərbəin” (Çehel hədis) əsəri orijinal, Nəvai və Füzulinin əsərləri isə onun tərcüməsindən ibarətdir.[326]

Cami Məhəmməd peyğəməbə isnad edilən hədislərdən qırxını seçib, fars dilində nəzmə çəkmiş, hər hədisi bir rübai ilə ifadə etmişdir. Füzuli isə didaktik fikirlər ifadə olunan bu rübailəri Azərbaycan dilinə tərcümə etmişdir. O, tərcüməyə yazdığı kiçik müqəddimədə əsəri belə qiymətləndirir:

“Bu qırx hədisi-mötəbərdir: bəlkə qırx daneyi-gövhərdir ki, ustadi-girami Əbdürrəhman Cami aleyhirrəhmə intixab edib, farsi tərcümə etmiş. Ümumi feyz üçün tərcümeyi-türki olunur”.[327]

Hər üç şairin əsəri arasında aparılan qarşılaşdırmalardan görünür ki, istər Cami, istərsə də onun əsərini tərcümə edən söz sənətkarları hər bir hədisi şərh edərək nəzmə çəkərkən, son dərəcə ehtiyatlı olmuşlar. Çünki hər bir hədisin müqəddəs kəlam kimi mənasına heç bir xələl gəlməyərək, onda ifadə olunan fikir aydın çatdırılmalı idi. Buna görə də bu mövzuya müraciət edən sənətkarlar istər-istəməz müəyyən cəhətləri gözləməli olmuşlar.[328]

Hədislərin məzmunu ilə tanışlıq göstərir ki, Füzulini buradakı dərin əxlaqi-tərbiyəvi fikirlər cəlb etmişdir. Özünün orijinal əsərlərində dönə-dönə qeyd etdiyi həyat həqiqətlərinin hədislərdə yığcam şəkildə, toplu halında verilməsi şairi onları “ümum feyz üçün” tərcüməyə ruhlandırmışdır.[329]

Füzulinin tərcüməsində fars dilinin təsiri hiss olunmur. Caminin rübailərində ərəb sözləri həddindən artıq olduğundan, adi fars oxucusu üçün çətindir. Ancaq Füzulinin tərcümələri hər bir savadlı azərbaycanlının anlayacağı dərəcədə sadə və təbiidir.[330]

Füzulinin “Hədisi-ərbəin” əsəri Azərbaycan hədisşünaslığı baxımından çox dəyərli bir əsərdir. Müəllif adı çəkilən məşhur əsərində həzrət Peyğəmbər başda olmaqla bir çox Əhli-beyt imamlarından nəql olunmuş səhih hədisləri nəzmlə bir araya toplamışdır. Onun burada istifadə etiyi hədislər daha çox əxlaqi mövzudadır.

Füzuli sadiq əməl və xeyir haqqında yazır:

**Müslüm oldur ki, əhli-aləm ilə**
**Sidq ola qövli, xeyr ola əməli.**
**Zərərin görməyə müsəlmanlar.**
**Ola pakizə həm dili, həm əli.**[331]

((Əsl) müsəlman odur ki, dünya əhli ilə danışığında (sözündə) doğru, əməlində (isə) xeyirli olsun; müsəlmanlar (ondan) zərər görməsin, həm dili, həm (də) əli təmiz olsun).[332]

**Məşvərətdə səni əmin edənə**
**Rəhnümayi-səvab qıl sözünü.**
**Saxlama məsləhət sözün andan,**
**Xain etmə, əmin ikən özünü.**[333]

[325] Həmin mənbə. s. 12.
[326] Həmin mənbə. s. 13.
[327] Həmid Araslı. Böyük Azərbaycan şairi Füzuli. s. 270.
[328] Ataəmi Mirzəyev. Cami, Nəvai və Füzui yaradıcılığında “40 Hədis”. s. 28.
[329] Ə. Səfərli, X. Yusifov. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. s. 279.
[330] Həmid Araslı. Böyük Azərbaycan şairi Füzuli. s. 270.
[331] Məhəmməd Füzuli. Əsərləri. II c. s. 402.
[332] Ataəmi Mirzəyev. Cami, Nəvai və Füzuli yaradıcılığında “40 hədis”. s. 48.
[333] Məhəmməd Füzuli. Əsərləri. II c. s. 404.

(Məsləhətləşmədə sənə arxayın olana öz sözünü savabın bələdçisi et, yəni doğru yol göstər. Ondan məsləhətini əsirgəmə; özün inanılmış ikən özünü xain etmə).[334]

**Cəhdin oldunca xəlqə nəf` yetür,**
**Xəlqin et iltifatuna məmnun.**
**Əhsəni-xəlqi-aləm oldur kim,**
**Xülqdən xəlqə ola nəfi füzun.**[335]

(Bacardıqca xalqa fayda gətir, xalqı lütfkarlığınla razı sal. Dünya əhlinin ən gözəl adamı o kəsdir ki, (onun) xasiyyətindən xalqa (daha) artıq fayda yetsin).[336]

**Gər dutarsan təriqi-əhli-vəfa,**
**Peşə et vədəyə vəfa qılmaq.**
**Qərzdir vədə etdigin nəsnə,**
**Fərzdir qərzüni əda qılmaq.**[337]

(Əgər vəfa əhlinin yolunu tutarsansa, vədənə əməl etməyi özünə peşə et. Vəd etdiyin şey borcdur. Borcunu vermək isə vacibdir).[338]

Allah Qurani-Kərimdə belə buyurur:

**"Doğru danışan kişilər və qadınlar... Allah onlar üçün məğfirət və böyük bir mükafat hazırlamışdır".**[339]

İbn Məsuddan rəvayət edilmiş bir hədisdə Peyğəmbər belə buyurmuşdur:

"Doğruluq yaxşılığa aparır, yaxşılıqda Cənnətə aparır. İnsan doğru danışa-danışa axırda Uca Allahın yanında doğru olaraq yazılır. Yalan insanı günahkarlığa aparır, günahkarlıq da Cəhənnəmə aparır. İnsan danışa-danışa axırda Allah yanında yalançı, olaraq yazılır".[340]

Bir əməlin doğru olmasının ən ümdə meyarı o əməlin Allahın razılığı üçün və heç bir təmənna güdmədən yerinə yetirilməsidir. Allahın razılığından başqası üçün edilən əməl haqqında O, belə bəyan edilir: "Bu əməl mənim razılığım üçün görülməyib…"[341]

Ruhi tərbiyədən danışarkən gizlədə bilməyəcəyimiz şeylərdən biri də şübhəsiz ki, "sidq-doğruluq" deyilən səciyyədir. İnsanın bildiyi, inandığı kimi doğru söyləməsinə "sidq" deyirlər ki, bunun antonimi "kizb"dir. Kizb, yəni yalan. Düşündüyünün, bildiyinin əksini söyləməkdir. Sidq deyilən bu yüksək və böyük xasiyyətin, ictimai və mədəni həyat üzərində önəmli təsiri olduğu cəhətlə, daha uşaqlıqdan etibarən nəfsimizi doğru danışmağa alışdırmaq lazımdır. Fellərin hislərə, duyğulara və fikirlərə necə təsiri varsa, sözlərin də bunlar üzərində böyük təsiri vardır.[342]

Peyğəmbərimiz insanların ən doğrusu idi. Onun bu halını, ən qatı düşməni Əbu Cəhl, Əhnəs bin Şərik, Nəzr bin Haris və Əbu Süfyan belə etiraf etmək məcburiyyətində qalmışdılar. Onun ağzından heç bir vaxt haqq sözdən başqa bi şey çıxmamışdır. Sözlə zarafat edərkən belə doğruluqdan, doğru danışmaqdan ayrılmazdı.[343]

---

[334] Ataəmi Mirzəyev. Cami, Nəvai və Füzuli yaradıcılığında "40 hədis". s. 63.
[335] Məhəmməd Füzuli. Əsərləri. II c. s. 406.
[336] Ataəmi Mirzəyev. Cami, Nəvai və Füzuli yaradıcılığında "40 hədis". s. 73.
[337] Məhəmməd Füzuli. Əsərləri. II c. s. 408.
[338] Ataəmi Mirzəyev. Cami, Nəvai və Füzuli yaradıcılığında "40 hədis". s. 82.
[339] Əhzab surəsi, ayə 35.
[340] Salih Uçan. Riyazüs-salihin tercümesi. I c. İstanbul, Çelik Yayınevi, 1993. s. 86.
[341] Əllamə əl-Məclisi. Biharul ənvar. LXX c. s. 123.
[342] Ahmet Hamdi Akseki. Ahlak ilmi ve İslam ahlakı. Ankara, Nur Yayınları, 1991. s. 176.
[343] Ömer Çelik, Mustafa Öztürk, Murat Kaya. Üsve-i hasene . İstanbul, Erkam Yayınları, 2003. s. 353.

Görüldüyü kimi, hədisi-şərifdə haqqı və xeyirli işləri təbliğ vəzifəsinin fəziləti və digər yandan da şərə dəvət edənlərin, bir topun yuvarlanaraq böyük bir çuxura düşməsi kimi günaha sürükləndikləri bildirilməkdədir. Bu keyfiyyət, haqqa və xeyirə dəvət ilə pisliklərdən uzaqlaşdırma vəzifəsinin əhəmiyyətini ifadəyə kifayətdir.[344]

Füzulinin "Hədisi-ərbəin" əsərinin təhlili onu göstərir ki, o, bu əsərində müsəlman dünyasında məşhur və mötəbər olan əsas hədis qaynaqlarından hədisləri əldə edərək onları nəzmə çəkmişdir. Onun bu əsəri hədis ədəbiyyatı tarixində nəzmlə yazılmış ən yaxşı və ən etibarlı əsərlərdən biri kimi xarakterizə edilir.

**"Söhbətül-əsmar"**. Füzuliyə aid olan əsər 200 beytlik bir məsnəvidir. Əsərdə bir bağda meyvələrin danışmaları, özlərini təriflməmələri və mübahisələri izah edilərək insanların da həqiqi dəyərlərini düşünmədən boş yerə mübahisələrə düşdükləri alleqorik bir şəkildə ifadə edilir. Əsər əvvəl Həmid Araslı tərəfindən nəşr edilmiş,[345] daha sonra Araslının kiril hərfləri ilə nəşr etdiyi mətni əsas alınaraq Kamal Pekər[346] və Şedit Yüksəl tərəfindən də Türkiyədə nəşr edilmişdir.

**"Hədiqətüs-süəda"**. Arada bəzi mənzum parçaların da olduğu mənsur bir əsərdir. Hüseyn Vaizi Kaşifinin "Rövzatüş-şühəda" əsəri əsas alınaraq hazırlanan kitabda həzrət Hüseynin Kərbəlada şəhid edilməsi izah edilir. "Hədiqətüs-süada" İslami türk ədəbiyyatında məqtəl növünün bir şah əsəri olub türk nəsrinin də öndə gələn nümunələri arasında yer alır. Xüsusilə şiə müsəlmanlarca çox mütaliə edilən əsərin Türkiyə və dünya kitabxanalarında bir neçə əlyazma nüsxəsi tapıldığı kimi, İstanbul və Misirdə də bir neçə dəfə nəşr edilmişdir.[347] "Hədiqətüs-süəda"nın tənqidli nəşri Türkiyədə Şeyimə Güngör tərəfindən həyata keçrilmişdir.[348]

"Hədiqətüs-süəda" tarixi mövzuda yazılmış bədii əsərdir. Əsərin mövzusu İslam tarixində məşhur olan faciəvi bir hadisədən - Kərbala müsibətindən götürülmüşdür. "Hədiqətüs-süəda" yaranan dövrdən başlayaraq əsər haqqında verilən məlumatlardan demək olar ki, əksəriyyətində onun bu və ya müəyyən dərəcədə "Rövzətüş-şühəda" ilə bağlılığı (ya ondan tərcümə edilməsi, ya da onun əsas qaynaq kimi götürülməsi) qeyd olunur.

Məhəmməd Füzulinin "Hədiqətüs-Süəda" əsəri Azərbaycan ədəbiyyatşünaslığında indiyədək ayrıca tədqiqat obyekti kimi öyrənilmədiyindən əsərin hansı janrda yazılması dəqiq müəyyənləşdirilməmiş və bu məsələ ilə bağlı müxtəlif fikir və mülahizələr irəli sürülmüşdür. Görkəmli ədəbiyyatşünas professor Mir Cəlalın fikrincə "Hədiqətüs-süəda"nı nəsrimizdə birinci böyük tarixçə saymaq olar.

Mövlana Məhəmməd Füzulinin Kərbala şəhidlərinə üz tutması, bu mövzuda ana dilində ölməz əsər nümunəsi yaratmasını şərtləndirən bir sıra amillər olmuşdur. Həmin amillərdən birincisi, şübhəsiz ki, dahi sənətkarın Kərbəla şəhidlərinin uyduğu müqəddəs torpaqda böyüyüb-başa çatması, şairin uşaqlıqdan həmin müqəddəs şəxsiyyətlərin pak ruhu və nəfəslərini hər an duyması, o həzrətlərə bəslədiyi sonsuz və dərin məhəbbəti, içdən gələn və səmimi duyğuları olmuşdur.

Beləliklə, insanın həyatda bəlalarla üzləşməsi, həyatda dərd-qəm çəkməsi "Hədiqətüs-süəda" əsərində təbii və zəruri bir hadisə kimi mənalandırılır. "Hədiqətüs-süəda" əsərində əxlaqi-didaktik fikirlərin təbliği də əsas yer tutur. Əsərdə mərdlik və xeyirxaqlıq, düzlük və təmizlik, sədaqət və vəfa, şəfqət və mərhəmət, səbir və dözüm kimi, yüksək insani keyfiyyətlər aşılanır. Bu baxımdan İslam əxlaqında mühüm yer tutan səbirli və dözümlü olmaq kimi keyfiyyətlərin təbliği xüsusilə diqqəti cəlb edir. Əsərdə səbirlə bağlı Qurani-Kərim ayələri (Nəhl surəsi 127-ci ayə, Zümər surəsi 10-cu ayə) verilir və insanların həyatda dözümlü və səbirli olmasının faydası açıqlanır. Yeri gəlmişkən qeyd edək ki, "Hədiqətüs-süəda"da yüz yeddi yerdə Qurani-Kərimin müxtəlif ayələri verilmişdir. Xüsusilə, Qurani-

---

[344] Osman Nuri Topbaş. Son Nefes. s. 145.

[345] Həmid Araslı. Məhəmməd Füzuli əsərləri. II c. s. 265, 278.

[346] Söhbətül-Əsmar. İstanbul, 1960.

[347] Bulaq, 1253, 1271; İstanbul, 1273, 1302.

[348] Ankara, 1997.

Kərimin “Bəqərə” surəsinin 156-cı ayəsi **“Biz Allahın bəndələriyik və** (öləndən sonra) **Ona tərəf** (onun dərgahına) **qayıdacağıq**”, dönə-dönə təkrarlanır. Bu ayənin məzmunu Füzuli yaradıcılığında əsas yer tutan irfani-təsəvvüf baxışları, xüsusilə də sufilərin ən böyük arzusu Allaha qovuşmaq istəyi ilə yaxından səsləşir.

“Hədiqətüs-süəda” əsərinin yazılma tarixi bəlli deyildir. Əsərin özündə bu barədə maddeyi-tarix yoxdur. Ancaq əsərin ruhu, məna-məzmun qeyd və işarələri təsdiq edir ki, Füzuli bu sənət abidəsini yaşının qoca çağlarında yazıb bitirmişdir.[349]

Məhəmməd Füzulinin “Hədiqətüs-süəda” əsəri qeyd edildiyi kimi, yarandığı dövrdən başlayaraq, türk dilinin işləndiyi böyük bir ərazidə geniş yayılmış və Kərbəla vaqiəsi mövzusunda bir sıra yeni-yeni əsərlərin ortaya çıxmasına xüsusilə də Kərbəla şəhidlərindən bəhs edən mərsiyə ədəbiyyatının inkişafına güclü təsir göstərmişdir.

Beləliklə, Məhəmməd Füzulinin “Hədiqətüs-süəda” əsəri istər dərin fəlsəfi məzmununa, istərsə də yüksək sənətkarlıq xüsusiyyətlərinə görə, Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus şərəfli yer tutmuş, sonrakı dövr ədəbiyyatında dərin iz buraxmış və ümumiyyətlə, ədəbiyyatımızı mövzu və janr baxımından zənginləşdirmişdir.[350]

Yuxarıda da qeyd edildiyi kimi, “Hədiqətüs-süəda” hədisşünaslıq baxımından da çox dəyərlidir. Müəllifin burada istinad etdiyi hədisi-şəriflər İslamın ilkin dövrlərində yazılmış ən mötəbər mənbələrə əsaslanır. Doğrudur, Füzuli adı çəkilən əsərində qeyd etdiyi hədislərin qaynaqlarını göstərmir. Lakin onun burada istifadə etdiyi hər bir hədisin mötəbər mənbələrdə olması gün kimi aydındır. Bunu bir neçə misalla göstərmək olar. Belə ki, o, İmam Hüseynin doğumu və şəhid ediləcəyi haqqında adı çəkilən əsərində məlumat vermiş və öz məlumatlarını aşağıdakı hədisi-şəriflərə söykəmişdir.

Böyük hədis alimi Məhəmməd bin Yaqub əl-Küleyni (öl. 941) İmam Sadiqdən nəql edir: “Fatimə Hüseynə hamilə olduqda, Cəbrayıl Peyğəmbərə nazil olub dedi: “Fatimə bir oğlan döğacaqdır ki, onu səndən sonra ümmətin öldürəcəkdir...”[351]

Digər bir hədisdə isə deyilir: “Cəbrayıl Məhəmmədə nazil olub dedi: “Ey Məhəmməd! Allah sənə Fatimənin dünyaya gətirəcəyi bir oğlan övladı ilə müjdələyir, amma ümmətin səndən sonra onu öldürəcəklər”. Peyğəmbər dedi: “Ey Cəbrayıl! Rəbbimə salam de və Fatimənin belə dünyaya gətirəcəyi və məndən sonra ümmətimin öldürəcəyi uşağa ehtiyacım yoxdur”. Cəbrayıl qalxdı, bir azdan nazil olaraq həmin xəbəri təkrar dedi. Peyğəmbər bayaq dediyi cavabı təkrarladı. Cəbrayıl bu dəfə də qalxıb bir azdan yenidən gəldi və dedi: “Ya Məhəmməd! Rəbbin sənə salam deyir və salamdan sonra səni belə müjdələyir: O uşaq sənin zürriyyətin içərisində İmam, Vəli və Vəsi olacaqdır”. Peyğəmbər buyurdu: “İndi razı oldum. Sonra O, Fatimənin evinə sifariş yollayıb ona dedi: “Allah məni dünyaya gətirəcəyin bir oğlanla müjdələdi. Amma məndən sonra onu ümmətim öldürəcəkdir”. Fatimə Peyğəmbərə sifariş yollayaraq dedi: “Mənim dünyaya gətirəcəyim və səndən sonra öldürüləcək belə uşağa ehtiyacım yoxdur!” Peyğəmbər ona sifariş yollayıb dedi: Allah onu İmam, Vəli və Vəsi edəcəkdir. Bundan sonra Fatimə buna razı oldu. Allah bu ayəni nazil etdi: **“Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Çünki anası onu zəhmətlə gəzdirmiş, əziyyətlə döğmuşdur. Onun daşınma və süddən kəsilmə müddəti otuz aydır. Nəhayət kamillik həddinə yetişib qırx yaşa çatdıqda belə deyər: Pərvərdigara! Mənə mənim özümə və ata-anama əta etdiyin nemətə şükr etmək və Sənə xoş gedəcək yaxşı əməl etmək üçün ilham ver, nəslimi əməli saleh et. Mən sənə tövbə etdim və şübhəsiz ki, mən müsəlmanlardanam”**.[352]

İmam Sadiq buyurdu: Onun, “**mənim zürriyyətimi də salehlərdən et**” deməsi, zürriyyətinin hamısının imam olmasına səbəb oldu. Hüseyni nə Fatimə nə də digər qadınlardan heç kimsə əmizdirməmişdir. Peyğəmbər gəlib şəhadət barmağını onun boğazına salmış və Hüseyn üç gün ondan

---

[349] Məhəmməd Füzuli. Hədiqətüs-Süəda. Bakı, Gənclik Nəşriyyatı, 1993. s. 5.

[350] Möhsün Nağısoylu. Füzulinin “Hədiqətüs-Süəda” əsəri. Bakı, Nurlan, 2002. s. 5-22-65-67-124.

[351] Əllamə əl-Məclisi. Biharül-ənvar. XLIV c. s. 236; Yəqub əl-Küleyni. Üsulül-kafi. I c. s. 280. Hədis № 1263.

[352] əl-Əhqaf surəsi, ayə 15.

qidalanmışdır. Beləliklə, də Hüseynin əti-qanı Peyğəmbərin əti-qanından əmələ gəlmişdir. O, altı aylıq doğulmuşdur”.[353]

Məşhur İslam alimi Əhməd bin Hənbəl (780-855) rəvayət edir: “Əli Siffin döyüşünə gedərkən Kərbəla ərazisində dayandı. O, buranın hara olduğunu soruşduqda dedilər: “Bura Neynəvadır”. Əli dedi: “Səbir et ey Əba Əbdillah! Səbir et ey Əba Əbdillah!” Ona dedilər: “Nə baş verir?” O, dedi: “Bir gün Peyğəmbərin yanına daxil oldum və onu gözü yaşlı gördüm”. Dedim: “Səni kim qəzəbləndirib ki, gözlərindən belə yaş gəlir, ya Rəsulallah?” Dedi: “Cəbrayıl mənim yanımda idi. O, mənə dedi ki, Hüseyni Fəratın sahilində öldürəcəklər. Onun türbəsindən iyləmək istəyirsənmi?” Dedim: “Bəli”. O, əlini uzadıb o torpaqdan götürdü mənə verdi. Buna görə gözlərim yaşarıb”.[354]

Bu və ya buna bənzər bir çox hədisi-şəriflərdən bəlli olur ki, Füzuli “Hədiqətüs-süəda” əsərində özündən əvvəlki bir çox mötəbər hədisşünasların əsərlərinə müraciət etmiş və həmin əsərlərdə olan səhih hədislərə istinad etmişdir. Onun istinad etdiyi mənbələr içində isə, X əsrin görkəmli hədis alimi Şeyx Səduqun (917-991) “əl-Məcalis” əsəri xüsusi yer tutur.

**“Məktublar”**. Füzulinin nəşr olunan məktublarının sayı beşdir. Bunlar Nişançı Cəlalzadə, Mustafa Çələbi, Mosul valisi Əhməd Bəy, Bağdad valisi Ayaş Paşa, Qazı Alaəddin və Qanuni Sultan Süleymanın şahzadələrindən Bəyazidə göndərilmişdir. Məktubların ilk dördü Türkiyədə Əbdülqadir Qaraxan,[355] digəri Hasibə Çatbaş (Mazıoğlu) tərəfindən nəşr edilmişdir.[356] Füzulinin məktubları arasında ən tanınmışı və ədəbiyyat tarixlərinə “Şikayətnamə” adı ilə keçən məktubudur.

Füzulinin farsca əsərlərinə aşağıdakılar daxildir:

**“Divan”**. Füzuli bu divanı ilə farscanı hər hansı bir klassik İran şairi qədər yaxşı bildiyini ortaya qoymuşdur. Bu şeirlərdə Hafiz Şirazi ilə Molla Caminin təsirində qaldığı hiss edilir. Üç münacat, bir nət, qırx altı qəsidəsində, 410 qəzəllə bir tərki bənd. İki müsammat, qırx altı qitə və 106 rübai ehtiva edən farsca divan həcm etibarı ilə türkcə divandan daha böyükdür. Əsərin türkcəyə tərcüməsi Əli Nihad Tərlan,[357] tənqidli nəşri isə Hasibə Mazıoğlu[358] tərəfindən edilmişdir.

**“Həft-cam”**. Saqinamə adı ilə da tanınan və hamısı 327 beytdən ibarət olan bu məsnəvi otuz səkkiz beytlik bir müqəddimə ilə yeddi hissədən meydana gəlməkdədir. Təsəvvüfü mahiyyətdəki əsərdə şair ney, dəf, çəng, ud, tanbur, qanun və mütrib kimi yeddi fərqli musiqi aləti ilə münazirəyə girişir. Füzulinin digər əsərləri arasında “Saqinamə” adı ilə tanınan bu əsər bir neçə dəfə farsca divanı içində də Türkiyədə nəşr olunmuşdur.[359]

**“Ənisül-qəlb”**. 134 beytlik farsca bir qəsidəsidir. Əslində bu qəsidəsində Xaqani Şirvaninin “Bəhrül-əbrar” adlı qəsidəsinə bir nəzirədir. Eyni qəsidəyə Əmir Xosrəvi Dehləvi “Miratüs-safa”, Molla Cami “Cilaür-ruh” adlı mənzumələriylə nəzirə yazmışlar. XVII əsrdə Nafi də “Ənisül-uşşaq” adlı doxsan yeddi beytlik bir mənzumə ilə eyni qəsidəsinə nəzirə yazmışdır. Qəsidə əvvəl Cəfər Ərkılıç tərəfindən türk dilinə tərcüməsi ilə birlikdə nəşr edilmiş,[360] daha sonra farsca divan nəşrinin içində qəsidələr qismində yer almışdır.[361]

---

[353] əl-Küleyni. Üsulül-kafi. I c. s. 280-281. Hədis № 1264; Əllamə əl-Məclisi. Miratül-üqul. I c. s. 393. Hədis № 4; Əllamə Hairi. Dairətül-məarif. 18 cilddə. VIII c. s. 244-246.

[354] Müsnədi-Əhməd. I c. s. 86. Hədis № 648; Hənbəli Muqəddəsi. əl-Əhadisil-Muxtarə. II c. Məkkə çapı, s. 375. Hədis № 758; Məcməüz-zəvaid. IX c. s. 187.

[355] Əbdülqadir Qaraxan. Füzulinin məktubları. İstanbul, 1948.

[356] Füzulinin bir məktubu. 1948.

[357] Ankara, 1950.

[358] Ankara, 1962.

[359] Ankara, 1962 .

[360] İstanbul, 1944.

[361] Ankara, 1962.

**“Risaleyi-müammayat”**. Füzulinin çoxu farsca, bir qisimi də türkcə xeyli müəmması vardır. Müəmma haqqında məlumat verən və 190 ədəd farsca müəmmanı yığan bu əsər şairin qırx ədəd türkcə müəmması da Kamal Edib Kürkçüoğlu tərəfindən Türkiyədə nəşr olunmuşdur.[362]

**“Rindü Zahid”**. Mistik bir fikirlə qələmə alınan əsərdə Füzulinin qədim ədəbiyyatın məhdud imkanları içində bir dərəcəyə qədər də olsa, öz dünyagörüşünü əks etdirdiyi deyilə bilər.[5] Füzulinin fars dilində qələmə aldığı “Rindü Zahid” əsəri Yaxın Şərq ədəbiyyatı tarixində mükalimə tərzində yazılmış böyük bir hekayədir. Burada ata ilə oğul arasında gedən müsahibə əsasında dövrün ictimai, siyasi və əxlaqi məsələləri mühakimə edilir. Ata Zahid, oğul isə Rind adlanır. Bu adlar özü orta əsr ədəbiyyatında rəmzi məna daşıyırdı. Zahid tərki-dünyalıq, mühafizəkarlıq, riyakar dindarlıq, Rind isə bunun əksinə, həyat və gözəllikləri sevən, eyş-işrət, musiqi və gözəllik aşiqi bir şəxsiyyətdir. Bu iki müxtəlif cəbhənin nümayəndələri öz aralarında dövrün bir sıra məsələlərini müzakirə edir, mühakimələr yürüdürlər. Burada təkcə görüşlər toqquşmur, ata-oğul dili ilə gedən mükalimədə nəsillərin qarşılıqlı münasibəti aydınlaşır. Füzuli Zahidi həmişə mürtəce mövqedə vermir. O, bir ata kimi həyat təcrübəsindən çıxış edərək oğluna xeyirli məsləhətlər də verir. Məsələn, ata “əlif”ə min bir məna verərək onu ilahiyyatla, sxolastik elmlərlə bağladığı halda, oğul - Rind bunun savad öyrənməyin, əlifbanın başlanğıcı olduğunu bildirir. Elmin başqa sahələri barədə aparılan söhbətlərdə də Rind atası ilə razılaşmır. Bu qarşılaşmada ümumiyyətlə, dövrün ziddiyyətləri öz əksini tapmaqdadır. Ata oğula şeirin, sənətin şəriətə zidd olduğunu söylədiyi zaman oğul onu əsl mənanı qəliz sözlər altında itirməkdə təqsirləndirir, şeirin din tərəfindən qadağan olunmadığını və hamı tərəfindən bəyənildiyini sübut edir.[363] Ata evlənmək məsələsi üzərində dayanır, ailə həyatının üstünlüklərindən danışır. Oğul isə yeni doğulmuş uşaqların cahil analar əlində korlandığını bildirir. Ata oğlu saray əyanları sırasına keçməyə çağırır. Oğul isə saray ziyalılarının əziyyətli həyatını təsvir edərək bundan imtina edir, sarayda xidmət Zahid bir baba ilə Rind oğlu arasındakı mübahisəni ehtiva edən bu mənsur əsərdə Rind şairin könülünü, Zahid də düşüncəsini təmsil etməkdədir.

Əsər əvvəl Tehranda nəşr edilmiş (1275), Türkiyədə tənqidli nəşri isə Kamal Edib Kürkçüoğlu tərəfindən həyata keçrilmişdir.[364] “Rindü Zahid”i Salam Əfəndi türkcəyə tərcümə etmişdir.[365]

**“Hüsnü-eşq”**. Ümumiyyətlə, “Səhhəti-Mərəz” olaraq tanınan əsərə “Ruhnamə” adını verənlər də var. Təsəvvüfi və alleqorik mahiyyətdəki əsərdə ruh və bədən əlaqəsi simvolik əhəmiyyət daşıyır. Bu əsər Füzulinin qədim tibb elminə bələd olduğunu göstərməsi baxımından əhəmiyyətlidir. Qəhrəmanları hüsn, eşq, ruh, qan, öd, bəlğəm, sevda, mizaç, səhhət, beyin, xəstəlik və pəhriz olan əsərdə dərvişin seyri-süluk içində irəliləyərək fəna fıllaha çata bilməsi üçün nələr etməsinin zəruri olduğu izah edilir. Füzulinin bu əsəri Fəttahinin “Hüsni-dil” adlı əsərindən bəhrələnərək yazdığı deyilir. “Hüsnü eşq” Əli Nasih tərəfindən “Səfarətnameyi-Ruh” adı ilə nəşr olunduğu kimi,[366] Nəcati Luqal ilə Osman Reşer tərəfindən də müstəqil olaraq nəşr edilmişdir.[367] Əsəri Ləbib Əfəndi türkcəyə çevirmiş,[368] kitabçı Əhməd Həmdi də bunu sadələşdirmiş və nəşr etdirmişdir.[369] Türkiyədə “Səhhət və Mərəz” adı ilə edilən son tərcümə[370] isə Əbdülbaqi Gölpınarlıya aiddir.

Füzulinin ərəbcə əsərləri isə aşağıdakılardan ibarətdir:

**“Divan”**. Yalnız həzrət Məhəmməd və həzrət Əli xüsusiyyətləri və fəzilətləri haqqında söylənmiş on bir qəsidə ilə bir xatimədən meydana gələn 470 beytlik bu kiçik əsər tərtibli bir divan xüsusiyyəti göstərmədiyi halda bu adla xatırlanmışdır. Məlum olduğu qədəriylə bu şeirlər Füzulinin

---

362 1961.
363 Məhəmməd Füzuli. Əsərləri. V c. Bakı, Şərq-Qərb, 2005. s. 5.
364 Ankara, 1956.
365 İstanbul, 1285.
366 Tehran, 1309.
367 İstanbul, 1943.
368 İstanbul, 1282.
369 Trabzon, 1327.
370 İstanbul, 1940.

ərəbcə divanından bəzi parçalardır. Çünki istər Sadiq, istərsə də Bursalı Məmməd Tahir, Ləbib Əfəndidən Füzulinin ərəbcə bir divanı olduğunu bildirirlər. Hətta şişirdərək bunun 30000 beyt ehtiva etdiyini söyləyirlər. Əsər üzərində İbrahim Dəkuki də əldəki şeirlərin əsas divanın parçaları olduğu qənaətindədir. Füzulinin ərəbcə şeirləri üzərində dayanan Bertels bunların ərəb şeirində yüksək bir mövqedə olmamaqla birlikdə ərəb dilinin bütün xüsusiyyətlərini əks etdirdiyini ifadə edir. Bu şeirlər Həmid Araslı tərəfindən nəşr olunmuşdur.[371]

**"Mətləül-etiqadi fi mərifətil-məbdəi vəl-məad"**. İnsanın ancaq məlumat əldə etmək vasitəsi ilə kainatın sirlərini, başlangıc və sonunu öyrənərək Allaha yetişə biləcəyini izah edən mənsur bir əsərdir. Füzuli burada ilkin məlumatdan və onu əldə etməyin yollarından danışmaqda, daha sonra kainatın başlanğıcı və insanın mahiyyəti kimi qoyulan problemləri izah etməkdədir. Bunları də Allahın zatı, sifətləri, hərəkətləri, gözəllik və çirkinlik, xeyir və şər bəhsləri izləməkdədir. Əvvəl ərəbcə şeirləri ilə birlikdə Həmid Araslı tərəfindən nəşr edilmişdir.[372]

Məlumdur ki, Füzuli böyük bir din alimi olmaqla yanaşı, həm də nəhəng bir filosofdur. İstər din, istərsə də fəlsəfə dünyagörüşüdür və hər ikisi aləmlərin izahı ilə yanaşı, insanların şüuruna və əxlaqına təsir göstərir. Deməli, Füzuli həm bir müctəhid, həm də bir filosof kimi insanlığa böyük xidmətlər göstərmişdir. O, cəmiyyətin qurtuluşunu yalnız Allaha etiqad etməkdə və gözəl əxlaqa malik olmaqda görmüş və insanları mənəvi sağlamlığa çağırmışdı. Onun adı çəkilən əsərində İslam etiqadının beş prinsip üzərində qurulduğunu və bunların tövhid (Allahı tək bilmək), ədalət (Allahı hər işində mütləq ədalətli bilmək), nübüvvət (peyğəmbərlərə inanmaq), imamət (on iki imama etiqad etmək) və məaddan (öldükdən sonra dirlmləyə inanmaq) ibarət olduğunu vurğulamışdır. Bundan başqa o, dinin ikinci dərəcəli inanc əsaslarından olan və Qurani-Kərimdə öz əksini tapmış ruh, cin və s. bu kimi varlıqlara da öz münasibətini İslami etiqad və hədisi-şəriflər çərçivəsində bildirmişdir.

Füzuli "Mətləül-etiqad" əsərində ilkin olaraq elm haqqında məlumat vermiş, əsərin müqəddiməsində Orta əsrlər din alimlərinin ənənəsinə uyğun olaraq elmin fəzilət və üstünlükləri, təsnifat və faydaları haqqında Quran və hədisdən sitatlar gətirməklə yanaşı, öz mülahizələrini də qeyd etmişdir. O, əsərin müqəddiməsində yazır: "Bilik iki növdür: Birincisi, dünya işlərinə, məsələn, yaşayış vəsaitinə aiddir. İkincisi, din işlərinə aiddir ki, bu da iki növdür: Birincisi, etiqadlara, ikincisi isə ibadətlərə aiddir. Etiqadlar da iki növdür: birincisi, vacibə (Allaha), ikincisi isə mümkünə (yaranmışlara) aiddir. Allaha aid olan etiqadlar da iki növdür: birincisi, onun zatına, ikincisi, sifətlərinə aiddir". Beləliklə, əsərdə dinin təməl inancaları deyə bilinən Allah, ədalət, nübuvvət, imamət və məad problemləri Füzuli dünyagörüşündə ciddi şəkildə tədqiq edilmişdir.

Göründüyü kimi, əsərdə ilkin dini problemlərdən biri Allah anlayışıdır. Füzuli bu məfhumu bütün məlum olan və olmayan varlıqların yaradıcısı kimi təqdim etmiş və bununla da özünün Allah haqqındakı etiqadını açıqlamışdır.

Füzuli əsərdə Allahı bu təriflərlə yad etmişdir. O, Allahın varlığının mütləq olduğunu bildirmək üçün onu "Vacibul-vücud" adlandırmış və bununla da kainatın Allahsız təsəvvür olunmasını mümkünsüz bilmişdir. Müəllifə görə, Allah adı Ondan başqa hər hansı bir varlığa ad olaraq verilməmiş, istər ərəb dilində, istərsə də bu kəlməni istifadə edən digər müsəlman millətlərin dillərində hər hansı bir cəm şəkli də meydana gəlməmişdir.

Təəssüflər olsun ki, Sovet dönəmində yazılan bəzi ədəbiyyatlarda Füzuli yaradıcılığına və onun şəxsiyyətinə doğru qiymət verilməmiş və hətta şairin yaradıcılığındakı bəzi motivlər təhrif edilmişdir. Allaha şükrlər olsun ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra böyük Azərbaycan şairinin görüşləri lazımınca izah edilməyə və füzulisevərlərə çatdırılmaqdadır.

## 2.77. Şəmsəddin Əhməd əl-Qarabaği

---

[371] Məhəmməd Füzuli. Əsərləri. s. 285-324.

[372] Bakı, 1958.

Molla Şəmsəddin Əhməd əl-Ənsari Gəncəvi Qarabaği tanınmış fəqih və hədisşünas idi. Azərbaycan mədrəsələrində təhsil aldıqdan sonra Osmanlı ölkəsinə getmiş, İstanbuldakı mədrəsələrdən birində müdərris olmuşdu. 1581-ci ilin iyun ayında Dəməşq, 1583-cü ilin yanvar ayında Ədirnə, bir müddətdən sonra İstanbul, bir il yarım da bu vəzifədə qaldıqdan sonra isə Anadolu qazısı olmuşdur. Daha sonra Misir müftiliyinə təyin olunmuş, 1589-cu ildə həcc ziyarətindən qayıdandan sonra ikinci dəfə Anadolu qazılığına, bir il sonra da Rumeli qazılığına təyin olunmuşdu. 1592-ci ilin noyabr ayında (1001-ci ilin səfər ayı) Osmanlı baş vəziri Qoca Sənan paşanın (öl. 1596) tikdirdiyi Darül-hədisin (hədis mədrəsəsi) inşası başa çatmış və Şəmsəddin Qarabaği, 130 axça maaşla bu mədrəsənin baş müdərrisliyinə təyin olunmuşdu. 1597-ci ilin avqust ayında təqaüdə çıxarılmışdı.

Molla Şəmsəddin Qazı Bəyzavinin (öl. 1286) "Ənvarüt-tənzil və Əsrarüt-təvil" adlı Quran təfsirinə haşiyə, "Təliqat ələt-təlvih", "Təliqati-miftah", "Təliqatil-məvaqif" və "Kəlimat ələl-hidayə" adlı əsərlərin müəllifi idi.[373]

Fəziləti ilə tanınan Şəmsəddin Qarabaği 24 avqust 1600-cü ildə İstanbulda vəfat etmişdir. Məzarı İstanbulun Vəfa adlanan səmtindədir.

### 2.78. Müqəddəs əl-Ərdəbili

Azərbaycan ilahiyyatşünaslığının ən görkəmli nümayəndələrindən biri "Müqəddəs Ərdəbili" və ya "Mühəqqiq Ərdəbili" ləqəbi ilə tanınan Əhməd bin Məhəmməd Ərdəbilidir. O, miladi XVI əsrin böyük İslam alimlərindən və müctəhidlərindəndir.

Müqəddəs Ərdəbili Azərbaycanın ən gözəl və qədim guşələrindən olan Ərdəbildə doğulmuşdur. Lakin doğum tarixi dəqiq olaraq məlum deyil. Onun kiçik yaşlarında ibtidai dini təhsilə başladığı və bunun üçün Nəcəfül-əşrəfə səfər etdiyi mənbələrdə öz əksini tapmışdır. Tarixən İslamın elm və mədəniyyət paytaxtı kimi tanınan Nəcəfin elmi və əxlaqi fəzası Ərdəbilinin yüksək səviyyədə əxlaqlı və məlumatlı bir alim kimi yetişməsində az rol oynamamışdı. Əhməd ibtidai din elmlərini öyrəndikdən sonra, mənəviyyat və mədəniyyət pillələrini bir-bir qalxır. Nəqli elmlər və fiqhi Şəhid Saninin şagirdlərindən olan Seyid Əli Saiğin yanında öyrənir. Əhməd tam bir elm aşiqi idi. Ömürünü o, qəflət içində keçirməmişdi. Qarşılaşdığı və getdiyi hər diyardakı alimdən istifadə edirdi. Şiraza gedərək böyük filosof Cəmaləddin Mahmudun hüzurunda əqli elmləri öyrənir. Tək idealı elm və əməli birlikdə yaşamaq idi. Təqva və zahidliyi özünə qanun edərək "Müqəddəs" ləqəbini alır.

Müqəddəs Ərdəbili alimlər arasında təriflənmiş, adı tez-tez xatırlanan və hər kəsin qarşısında hörmətlə əyildiyi böyük bir fəqih, mühəddis və abid idi. Müqəddəs Ərdəbiliylə müasir olan Seyid Mustafa Təfrişi belə nəql edir:

"Onun əzəməti, təmkini, etibarlılığı və mövqeyi izah edilənlərdən daha böyükdür. Belə ki, qələm, kağız və cümlələr onun xüsusiyyətində acizdir. O dövrünün ən böyük fəqihi və mühəddisi idi. Bununla birlikdə, yaşadığı dövrün ən abid və təqvalı şəxsiyyətlərindən sayılırdı".[374]

Hürr əl-Amuli (öl. 1695) onun haqqında belə yazır:

"Əhməd Məhəmməd Ərdəbili alim, əxlaq sahibi, araşdırmaçı, təqvalı, zahid, abid və etibarlı, böyük bir fəqih idi".[375]

Əllamə Məclisi (öl. 1700) isə onu bu cümlələr ilə tərifləyir:

"Müqəddəsi Ərdəbili nəfsi təzkiyəsi, təqva, zöhd və fəzilətdə əvvəlki və sonrakı alimlər arasında rast gəlmədiyim bir alim idi".

Müqəddəs Ərdəbilinin çoxlu sayda tələbəsi olmuşdur ki, onların ən məşhurları aşağıdakılardır:

Şeyx Həsən bin Zeynüddin əl-Amili (1552-1608) (Şəhidi Saninin oğulu), Seyid Məhəmməd, Mir Feyzullah Təfrişi, İnayətullah Kuhbayeyi, Molla Əbdullah Şüştəri.

---

[373] http://www.suffa.net Elnur Nəsirlinin "Orta əsr azərbaycanlı alimləri" əsərinə istinadən.
[374] Seyid Mustafa Təfrişi. Nəqdür-rical. s. 29.
[375] Məhəmməd bin Həsən Hürr əl-Amili. Əməlül-amal. II c. Bağdad, 1385 h/q. s. 23.

Müqəddəs Ərdəbilinin böyük xidmətlərinin yanında İslam aləminə qiymətli əsərələr yadigar qoymasıdır. O, Azərbaycan ilahiyyatşünaslığında ilahiyyata aid doğma dilimizdə ilk əsər yazan müəllifdir. Yazdığı əsərinin adı isə "Əqaidul-İslam"dır. Onun digər qiymətli əsərlərdən aşağıdakıları qeyd etmək olar:

"İstiynasül-mənəviyə", "Bəhrül-mənaqib", "Haşiyə bər şərhe təcrid", "Hadiqətüş-şiə", "Risaleyi-xəraciyyə", "Zübdətül-bəyan fi ayatil-əhkam", "Məqalə fil-əmri biş-şey", "Mənasikül-həcc (farsca)", "İsbatu vacibül-üsulid-diniyyə (farsca)", "Məcməül-fayda vəl-burhani fi şərhi irşadil-əzhan".

Müqəddəs Ərdəbili 1574-cü ildə Nəcəf şəhərində vəfat etmişdir.[376]

## 2.79. Rəcəb Əli ət-Təbrizi

XVII əsrin ən məhsuldar alimlərindən, dünya fəlsəfi fikir tarixinin tanınmış simalarından biri Rəcəb Əli Təbrizidir. Onun əsli Təbrizdən olsa da, naməlum tarixdə İranın Qum şəhərində doğulmuşdur. Uşaq yaşlarında ikən İslam ilahiyyatı ilə yanaşı, bir çox dünyəvi elmlər sahəsi ilə də maraqlanan Rəcəbəli Təbrizi artıq yetkinlik yaşında ikən tanınmış alimlərdən olmuşdur. Əbülqasim əl-Findiriski kimi nəhəng elm sahiblərindən dərs alan Rəcəb Əli Təbrizi sonralar fəlsəfə, kəlam və bir çox elmlər sahəsində tələbələr də yetişdirmişdir. Onun tələbələri içində məşhur filosof Qazi Səid əl-Qumminin xüsusi yeri vardır.

Mirzə Abdullah Əfəndi Təbrizinin verdiyi məlumatda belə qeyd edilmişdir: "O, fəzilətli filosof idi. Rəcəbəli təkcə dini elmlər sahəsində deyil, eyni zamanda ədəbiyyat və ərəb dili sahəsində də mahir mütəxəssislərdən idi. Onun II Şah Abbasın yanında çox böyük hörməti olmuşdur".

Rəcəb Əli Təbrizi dinin müxtəlif sahələrinə aid çoxlu tələbələr yetişdirmişdir ki, onların da içində Movla Tənkabəni əl-Cilani, Məhəmməd Hüseyn əl-Qummi, Məhəmməd Səid əl-Qummi, Məhəmməd Qəvamüddin ər-Razi əl-İsfahani, Məhəmməd Şəfi əl-İsfahani, Pirzadə Məhəmməd Rəfi Zahidini qeyd etmək olar.

Rəcəb Əli Təbrizinin "ər-Risalətül-movsumə bil-usulil-Asəfiyyə", "Risalə fi isbatil-vacib" və "Maarifi-İlahiyyə" adlı üç fundamental əsəri vardır.

Onun "Risalə fi isbatil-vacib" əsəri dini-fəlsəfi fikir mədəniyyətimizdə mühüm yerə sahibdir. Müəllif bu əsərində varlığın univokal olub-olmadığından və həmçinin peyğəmbərlik fəlsəfəsindən bəhs etmişdir. Rəcəb Əli Təbrizinin əsas fəlsəfi görüşü varlığın univokal olmasının inkarıdır. Ona görə varlıq anlayışı univokal deyil. Belə ki, biz varlığı həm Allaha, həm də mümkün varlıqlara aid edə bilmərik.

Qeyd etdiyimiz kimi, Rəcəb Əlinin digər mühüm əsəri "Üsuli-Asəfiyyə"dir. Onun belə adlanmasının səbəbi Qurani-Kərimdə "ilmül-kitab"ı bilən Asəfə görədir. Müəllif adı çəkilən bu əsərinin bəzi yerlərində məşhur filosof Sədrəddin Şirazinin (Molla Sədranın) görüşlərinin tənqidini vermişdir. Belə ki, o, Molla Sədranın substansional hərəkət (hərəkəti-cövhəriyyə) nəzəriyyəsini inkar etmiş, varlığın orijinallığını (əsaləti-mahiyyət) müdafiə etmiş və nəticədə Molla Sədranın qəbul etdiyi varlığın orijinallığı (əsaləti-vücud) təlimini və habelə zehni (subyektiv) varlığı da inkar etmişdir.

Bütün bunlara rəğmən, Rəcəb Əli elə bir psixologiya (ilmun-nəfs) idrak nəzəriyyəsi təqdim edir ki, hər ikisinin mərkəzində İşraq fəlsəfəsinin fundamental anlayışı olan vasitəsiz elm (elmi-hüzuri) dayanır. Xatırladaq ki, idrak və biliyin bu şəkildə realizə olunması stoisizm fəlsəfəsində də vardır.

Rəcəb Əli Təbrizinin qeyd etdiyimiz digər bir əsəri də "Maarifi-İlahiyyə" əsəridir. Onun bu əsəri təlimlərinin toplusudur. O, çox yaşlı və zəif olduğuna görə, ən yaxın şagirdlərinin və mənəvi övladı saydığı Pirzadədən böyük bir kitab yazmasını xahiş edir. Beləliklə, bu əsər ustadla tələbənin birgə əməyinin məhsulu olmaqla yanaşı, həm də ustadın təlimlərini özündə ehtiva etmişdir.

---

[376] Mirzə Abdullah Əfəndi ət-Təbrizi. Riyazul-üləma və hiyazul-füzəla. 6 cilddə. I c. Qum, Mətbəətül-Xəyyam, 1401 h/q., s. 89-90; Mirzə Məhəmməd Əli əl-Müdərris. Reyhanətül-ədəb fi təracimil-mərufinə bil-künyə vəl-ləqəb. V c. Qum, İntişaraati-Xəyyam, 1369 h/ş. s. 367-369; Əllamə əl-Məclisi. Biharül-ənvar. LII c. 174; https://az.wikipedia.org; https://haqqinda.az; http://ar.wikishia.net

Bütün rical kitablarında etibarlı hədisşünas, öz dövrünün əzəmətli filosofu kimi yad edilən Rəcəb Əli Təbrizi 1669/70-ci ildə vəfat etmişdir.[377]

## 2.80. Ağa Hüseyn əl-Xansari

Ağa Hüseyn bin Cəmaləddin Məhəmməd əl-Xansari 1605-cı ildə doğulmuşdur. O, öz dövründə fiqh, təfsir, hədis və fəlsəfə elmləri sahəsində öndər biri idi. Alimlərin avtobioqrafiyasını yazan bütün tədqiqatçılar onun elmi şəxsiyyətindən, xüsusilə də din elmləri sahəsində lider sayılacaq bir xüsusiyyətə malik olmasından yazırlar. Onun haqqında Mirzə Abdullah Əfəndi "Riyazül-üləma", Məhəmməd bin Həsən Hürr əl-Amili "Əməlül-amal", Şeyx Yusif əl-Bəhrani "Luluətül-bəhreyn", Mirzə Məhəmməd Tənkabi "Qəsəsül-üləma", Mirzə Məhəmməd Mehdi Kəhnəvi "Nücumus-səma", əl-Xansari "Rövzatül-cənnat", əl-Bağdadi "Hədiyyətül-arifin", Molla Həbibullah əl-Kaşani "Lübabul-əlbab", əl-Məmaqani "Tənqihül-məqal", Şeyx Abbas əl-Qummi "Tətimmətül-müntəha", Mirzə Məhəmməd Əli əl-Müdərris "Reyhanətül-ədəb", Rza Qəli Xan "Təzkirətür-riyazil-arifin", Əli Əsgər əl-Hələbi "Tarixu fəlsəfəti-İrani", Şeyx Abdullah Nemət "Fəlasifətüş-şiə", Şeyx Zəncani "Cami fir-rical", Əbdürrəhman Müdərris "Tarixu üləmai-Xorasan", Məhəmməd bin Məhəmməd əl-Ərdəbili "Camiür-rüvvat" kimi məşhur avtobioqrafiya kitablarında geniş məlumatlar vermişlər.

Məhəmməd bin Məhəmməd əl-Ərdəbili "Camiür-rüvvat" adlı məşhur rical əsərində yazırdı: "Ağa ləqəbi ilə məşhur olan Hüseyn bin Cəmaləddin Məhəmməd bin Həsən əl-Xansari öz dövrünün yeganəsi, tədqiqatçıların öndəri, filosofların sultanı, kəlam alimlərinin ən böyüyü idi. Bütün üstünlüklər onun şəxsiyyətində birləşmiş və onunla da sona çatmışdır. Onun qədir-qiyməti, şəni və əzəməti son zirvəyə yetişmişdir. O, dəqiq və humanitar elmlər sahəsində dolu bir dərya, düzgün nəzəriyyə sahibi, güvənilən, əmanətdar və ədalətli bir zat idi. Həmçinin o, yetim və miskinlər üçün pənahgah, onların ehtiyaclarını ödəməkdə səhlənkarlıq etməyən biri idi. Allah onun mükafatlarını versin".[378]

Məhəmməd bin Həsən Hürr əl-Amili onun haqqında yazırdı: "Hüseyn bin Cəmaləddin Məhəmməd bin Həsən əl-Xansari fəzilət və üstünlüklər sahibi olan bir alim, filosofların filosofu, çox güvənilən və əmanətdar, üləmaların əlləməsi və öz əsrinin tayı-bərabəri olmayan birisi idi. Onun çoxlu sayda əsərləri vardır".[379]

Mirzə Abdullah Əfəndi əl-Azərbaycani onu: "Ustad tədqiqatçı, dəqiq rəy sahibi Hüseyn bin Cəmaləddin Məhəmməd bin Həsən əl-Xansari əl-İsfəhani fəzilətli əlləmə, analitik dərrakəli alim, öz əsrinin bütün ustadların ustadıdır. Onun fəzilətlərini saymaqla bitməz. Ondan ustadlar dəqiq, humanitar və şəriətin əsasları elmlərini öyrənmişlər. Zəmanə onun kimi bir dindar, ona tay-bərabər olan birini görməmişdir. Dahi filosof Mirdamət onu bəşərin ustadı ləqəbi ilə adlandırmışdır. O, dəqiq elmləri Əmir Əbülqasim əl-Fəndərəski, humanitar elmləri isə Məhəmməd Tağı Məclisi kimi nəhənglərdən almışdır. O, ərəb və fars dillərində gözəl inşa və xətt sahibi, həmçinin mənalı şeirlər söyləyən biri idi. O, qeyri-adi hafizəyə və zəkaya malik, tədris zamanı əlinə heç bir kitab götürməyən, zəruri hallardan başqa heç vaxt danışmayan bir şəxs idi", - deyə tərif edirdi.[380]

Məhəmmədhüseyn Hairi əl-Ələmi yazırdı: "Ağa Hüseyn Xansari, qədim və müasir dövr alimlərinin ən fəzilətlisi və üstünüdür. O, Süleyman Şah Səfəvinin dövründə öz zəmanəsinin güvənilən və ədalətli imamiyyə alimi idi".[381]

---

[377] Ağa Bozork ət-Tehrani. Təbəqatu alamiş-şiə. 17 cilddə. II c. Beyrut, Daru ihyait-türasil-ərəbi, I çap, 1430 h/q. s. 48; Seyid Möhsün əl-Əmin. Əyanüş-şiə. 10 cilddə. VI. Beyrut, 1403/1983. s. 464; Corc ət-Tərabişi. Möcəmül-fəlasifə. Beyrut, II çap, s. 231.

[378] Mirzə Abdullah Əfəndi ət-Təbrizi. Riyazul-üləma. IV c. s. 186; Mirzə Məhəmməd Baqir əl-Xansari. Rövzatül-cənnat fi əhvali üləmais-saadat. 8 cilddə. IV c. Beyrut, Darul-kütubil-ilmiyyə, 1390 h/q. s. 213; Seyid Möhsün əl-Əmin. Əyanüş-şiə. VI c. s. 149.

[379] Məhəmməd bin Həsən Hürr əl-Amili. Əməlül-amal. II c. s. 101.

[380] Mirzə Abdulla Əfəndi əl-Azərbaycani. Riyazül-üləma. V c. Qum, 1401 h/q. s. 357.

[381] Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. IX c. s. 218.

Ağa Hüseyn Xansari çox məşhur müəllimlərdən dərs almışdır. Ona humanitar elmlər sahəsində, xüsusilə də hədisşünslıqla əlaqədar elmlərdə Məhəmməd Tağı bin Maxsud Əli əl-Məclsi (öl. 1659) dərs demişdir. Hətta mənbələrə görə, ona hədis rəvayət etmək səlahiyyətini Əllamə Məhəmməd Tağı Məclisi-əvvəl verib.[382] Beləliklə, Məhəmməd Tağı Məclisi onun daha çox fiqh və hədis elmləri sahəsində mütəxəssis olmasında rol oynamışdır.

Ağa Hüseyn Xansarinin fəlsəfə və məntiq elmləri sahəsindəki müəllimi isə İsfahan fəlsəfə məktəbinin banisi Mirdamət olmuşdur. Mirdamət Mirməhəmməd Bağır əl-Hüseyni əl-Astarabadi (ö. 1631) İranda yetişən ensiklopedik alim idi. Müsəlman aləmində Aristotel və Fərabidən sonra "Müəllimi Salis" ləqəbi ilə şöhrət tapmış alim dəqiq olaraq bilinməyən bir tarixdə Astarabadda doğulmuşdur. Atası Şəmsəddin Məhəmməd "Mühəqqiqi Sanı" ünvanı ilə xatırlanan Əli bin Hüseyn əl-Kərəkinin qızı ilə evləndiyi üçün "Kürəkən" (Damad) ləqəbi ilə tanınmışdı. Atasından sonra oğlu Məhəmməd Bağır da Damadi, Mirdamad və ya İbn Damad deyə məşhur olmuşdu.

Mənbələrdə "Mühəqqiq Xansari" kimi də xatırlanan Ağa Hüseyn bin Cəmaləddin XVII əsrin ən böyük fəqihlərindən sayılırdı. Əllamə Məclisinin atası Məhəmməd Tağı Məclisi kimi elm nəhəngindən dərs almış Ağa Hüseyn Xansari fəlsəfə, kəlam və məntiq kimi əqli elmlərdə də dərin biliyə malik idi. Ağa Hüseyn Xansari öz ustadı Məhəmməd Tağı Məclisinin qızı, yəni Əllamə Məhəmməd Bağır Məclisinin bacısı ilə evlənmişdi. O, həm camaat arasında, həm də Səfəvilər sarayında böyük nüfuz qazanmışdı. Hətta Süleyman şah Səfəvi səfərə gedərkən, İsfahanda öz yerinə Ağa Hüseyn Xansarini canişin qoyurmuş.

Ağa Hüseyn Xansarinin dəqiq elmləri Əmir Əbülqasim əl-Fəndərəskidən və Məhəmməd Bağır Yəzdidən aldığı qeyd edilir. Xatırladaq ki, Məhəmməd Bağır Yezdi öz əsrində ustadı Şeyx Bəhaəddindən sonra İslam dünyasının ən məşhur və görkəmli riyaziyatçısı və astronomu olub. Onun vəfat tarixi dəqiq olaraq bilinməsə də 1637-ci ildən sonra vəfat etdiyi yazılır.

Göründüyü kimi, Ağa Hüseyn belə nəhəng alimlərdən dərs almışdı. Bundan başqa o, çoxlu sayda tələbələr də yetişdirmişdir. Ən məşhur tələbələri isə iki oğlu və məşhur alimlər olan Ağa Camal və Ağa Rza, görkəmli hədisşünas və avtobioqrafçı Məhəmməd Saleh Xatunabadi, məşhur fəqih Seyid Nemətullah əl-Cəzairi, Mirzə Abdullah Əfəndi əl-Azərbaycani və başqalarını qeyd etmək olar.[383]

Beləliklə, öz dövründə fəlsəfə və kəlam alimlərinə liderlik etmiş[384] Ağa Hüseyn Xansari 1687-ci ildə İsfahan şəhərində vəfat etmişdir.[385] Onun mübarək cəsədi İsfahanda Baba Rüknəddin məqbərəsində dəfn edilmişdir. Süleyman şah Səfəvi (1666-1694) onun qəbri üstündə böyük bir məqbərə tikdirmişdir.

### 2.81. Molla Xəlil əl-Qəzvini

Xəlil bin əl-Qazi əl-Qəzvini dövrünün ən tanınmış fəqih və hədisşünaslarındandır. O, 1591-ci ildə Azərbaycanın əzəli torpaqlarından biri olan Qəzvində doğulmuşdur. Molla Xəlil Qəzvini kimi tanınan alim ilk təhsilini öz bölgəsində almışdır. Onun müəllimləri içində Şeyx əl-Bəhai kimi tanınmış Hüseyn bin Əbdüssəməd əl-Amli, Mühəqqiq əd-Damad kimi məşhur olan Məhəmmədbağır əl-Astarabadi və Şeyx Hüseyn əl-Yəzdinın xüsusi yeri vardır.

Xəlil Qəzvininin bir çox tələbələri vardır ki, onlardan da Məhəmməd bin Həsən əl-Qəzvini, Mövla Rəfiəddin Məhəmməd bin Fəthullah əl-Vaiz əl-Qəzvini, Əliəsğər bin Mövla Məhəmməd bin Yusif əl-Qəzvini, Mövla Məhəmməd Mömin bin Şah Qasim əs-Səbzivari, Mövlana Məhəmməd Yusif əl-Qəzvini, Əllamə Məhəmmədbağır əl-Məclisi,[386] Mövla Şərəfuddin Məhəmməd bin Məhmməd

---

[382] Əbülqasim Qurbani. Zindeginame riyazidanane dövre islamı. Tehran, 1365 h/ş. s. 14.
[383] Əllamə Məhəmməd Hüseyn Hairi Ələmi. Dairətül-məarif. II c. s. 218.
[384] Abdulla Nemət. Fəlasifətüş-şiə, Beyrut, 1987. s. 287-288.
[385] Məhəmməd bin Məhəmməd əl-Ərdəbili. Camiür-rüvvat. I c. Beyrut, 1403/1983. s. 235.
[386] Seyid Əhməd əl-Hüseyni. Təlamizətu-Əllamə əl-Məclisi. Qum, Mənşurat məktəbəti Mərəşi ən-Nəcəfi, 1410 h/q. s. 135.

Məczub ət-Təbrizi, Mövla Məhəmmədtəqi bin Heydər Əli əz-Zəncani, Feyz əl-Kaşani və b. qeyd etmək olar.

Məlum olduğu kimi, XVI əsrdə Qəzvində hədisşünaslar iki qismə bölünürdülər. Onlardan biri "Üsulçular", digəri isə "Əxbari"lər qoluna mənsub idilər. Əxbarilərin üstünlük təşkil etdiyi Qəzvində Molla Xəlil də Əxbarilər qoluna mənsub və Qəzvində bu qolun başçılarından idi.

Molla Xəlil Qəzvini fəzilətli və etibarlı bir alim kimi tanınırdı. Onun haqqında Məhəmməd bin Həsən Hürr əl-Amili (1623-1695) yazırdı: "Fəzilətli alim, çox bilikli, filosof, kəlam elminə mükəmməl bələd, tədqiqatçı, fəqih və hədisşünas, öz dövründə bütün fəzilətləri özündə əks etdirmiş bir zat idi".[387]

"Camiur-rüvvat" əsərində onun öz dövründə "Bürhanül-üləma" ləqəbi ilə tanındığı qeyd edilmişdir.

Mənbələrdən də məlum olduğu kimi, Xəlil Qəzvini öz dövrünün ensiklopedik alimlərindən biri idi. O, təkcə İslam ilahiyyatı sahəsində deyil, eyni zamanda bir çox dünyəvi elmlər sahəsində də əsərlər yazmışdır. Onun yazdığı əsərlərdən "Şərhul-üddə fil-üsul", "Risalətül-cümə", "Haşiyə məcməül-bəyan", "ər-Risalə ən-Nəcəfiyyə", "ər-Risalə əl-Qumiyyə", "əl-Mücməl fin-nəhv", "Rumuzüt-təfasiril-vaqiə fil-kafi vər-rövzə", "əs-Safi fi şərhil-kafi", "əş-Şafi fi şərhil-kafi"[388] və s.[389]

Bəzi tədqiqatçıların verdikləri məlumata görə, o, "əs-Safi fi şərhil-kafi" əsərini Şah Abbas Səfəvinin əmri ilə yazmışdır.[390]

"əş-Şafi fi şərhil-kafi" əsəri Məhəmməd Hüseynin təhqiqi ilə hicri 1429-cu ildə Qum şəhərində iki cilddə nəşr olunmuşdur.[391]

Molla Xəlil əl-Qəzvini 1679-cu ildə vəfat etmişdir.[392]

## 2.82. Məhəmməd Tahir əl-Qəzvini

Məhəmməd Tahir əl-Qəzvini 1607-ci ildə Qəzvidə doğulmuşdur. Bəzi mənbələrdə onun nəsəbi Tahir bin Məhəmməd Hüseyn əl-Qəzvini olaraq keçir. Məhəmməd Tahir Şirazda, Qumda və Nəcəfdə təhsil aldığı üçün əş-Şirazi, əl-Qummi və ən-Nəcəfi nisbəsilə də tanınır. Lakin mənbələr onun daha çox Vəhid və İmaduddin ləqəbləri ilə məşhur olduğunu yazır.

Məhəmməd Tahiq əl-Qəzvini Səfəvilər sarayında özünə böyük hörmət qazanmış alimlərdəndir. O, II Şah Abbasın tarixçisi olmuş, Şah Süleyman Səfəvinin dövründə isə vəzir vəzifəsinə təyin edilmişdir.

Məhəmməd Tahiq əl-Qəzvini 1699-cu ildə vəfat etmişdir.[393]

## 2.83. Məhəmmədzaman bin Kəlbəli ət-Təbrizi əl-İsfahani

Mənbələrdə Məhəmmədzaman Təbrizinin doğulması və vəfat etməsi haqqında heç bir məlumat verilmir. Lakin onun Səfəvilər dövrünün tanınmış alimlərindən və Əllamə Məhəmməd Bağır Məclisinin (1628-1700) tələbəsi olması haqqında məlumat vardır. Bundan başqa, onun Hüseyn əl-Xansari və Cəfər əl-Qazinin tələbəsi olması XVII əsrdə yaşadığını göstərir.

Bütün alimlər onun etibarlı və mötəbər bir şəxs olması haqqında müttəfiq fikirdədirlər. Belə ki, Məhəmməd Bağır əl-Xansari "Rövzatül-cənnat"da onun "Əllamə Məcisinin ən üstün tələbələrindən biri", Əhməd əl-Hüseyni də "Təlamizətül-Məclisi"də onun haqqında "İsfahanın ən üstün alimlərindən biri" kimi xarakterizə etmişlər.[394]

---

[387] Hürr əl-Amili. Əməlül-amal. II c. Nəcəfül-əşrəf, Mətbəətül-adab, 1385 h/q. s. 112.
[388] Ağa Bozork ət-Tehrani. əz-Zəriə ila təsanfiş-şiə. VI c. Beyrut, Mənşurati daril-Əzva, 1403/1983. s. 145.
[389] Həmin mənbə. XI c. s. 251.
[390] Məhəmməd Cavad Məğniyə. əş-Şiə fil-mizan. Beyrut, Mənşurati dariş-şuruq. Tarixsiz. s. 182.
[391] Molla Xəlil əl-Qəzvini. əş-Şafi fi şərhil-kafi. Təhqiq: Məhəmməd Hüseyn. Qum, Darül-hədis, 1429 h/q.
[392] Hürr əl-Amili. Əməlül-amal. II c. s. 112.
[393] Əbdülhüseyn əş-Şəbüstər. Məşahir şüəraiş-şiə. Mərkəzi Alil-Beytil-Aləmi, 2012. IV c.
[394] Məhəmməd Bağır. Rövzatül-cənnat. Beyrut, Mənşurati Daril-İslamiyyə, 1411/1991. III c. s. 335; Əhməd əl-Hüseyni. Təlamizətül-Məclisi. s. 102.

Məhəmmədzaman Təbrizinin ən məşhur əsəri Məhəmməd bin Yaqub əl-Küleyninin (876-941) "Üsuli-kafi"sinə yazdığı "Şərhi-üsuli-kafi" əsəridir.[395] Bundan başqa, onun "əl-Xəbiyyə fil-fuad əl-mütəfərriqə nəzirül-kəşkül", "Şərhi zübdətil-üsul", "Fəraidül-qəvaid fi əhvalil-mədaris vəl-məsacid" əsərləri də vardır.[396]

### 2.84. Məhəmməd bin Həsən əş-Şirvani

Mövlana Mirzə Məhəmmədhəsən oğlu Şirvani "Molla Mirzə" və "Müdəqqiq Şirvani" ləqəbləri ilə tanınmışdır O, təqribən 1623-cü ildə Azərbaycanın ən qədim elm və mədəniyyət ocaqlarından biri olan Şirvan bölgəsində doğulmuş, amma ömrünün çox hissəsini o dövrün dini elmlər mərkəzlərinin ən qabaqcıllarından sayılan və Səfəvilərin paytaxtı İsfahan şəhərində keçirmişdir. Mövlana Mirzə Məhəmmədhəsən Şirvani mükəmməl ilahiyyat təhsili almaq üçün İsfahana getmiş və Əllamə Məhəmməd Tağı Məclisinin (öl. 1659) və bir çox nüfuzlu alimlərin dərslərində iştirak etmişdir.

Onun müəllimlərinin arasında Əllamə Məclisidən başqa məşhur azərbaycanlı ilahiyyatçı Ağa Hüseyn Xansarinin adı xüsusi olaraq qeyd olunmalıdır. Məhəmməd Şirvaninin elmi və əxlaqi məqamını təsəvvür etmək üçün alimlərin həyatından bəhs edən biblioqrafik kitablara nəzər salmaq kifayətdir. Müdərris Təbrizinin "Reyhanətül-ədəb" əsərində Molla Mirzə Məhəmməd Şirvani "dərin bilikli, yüksək ixtisaslı, tədqiqatçı alim, elm və əməl sahibi, əqli və nəqli elmləri özündə birləşdirən, fiqh, hədis, kəlam, hikmət və elmi mübahisə sahələrində tayı-bərabəri olmayan" bir şəxs kimi təsvir edilir. Elə bu keyfiyyətlərinə görə, Məhəmməd bin Həsən Şirvanini "Əllamə", "Vəhidül-əsr və fəridüd-dəhr" (zəmanənin və dünyanın yeganəsi), "Sultanül-hukəma vəl-mütəkəllimin" (hikmət və kəlam alimlərinin sultanı) kimi epitetlərlə tərifləmişlər. Şirvaninin şagirdi Mirzə Abdullah Əfəndi öz xatirələrində "ustazənal-əllamə" (əllamə ustadımız) sözləri ilə öz müəllimindən söz açırdı. Qeyd etmək yerinə düşər ki, Mirzə Abdullah Əfəndi sair müəllimləri sırasında Məhəmməd Tağı Məclisini "ustazənal-istinad" (sənəd və etibar sahibi ustadımız), Ağa Hüseyn Xansarini "ustazənal-mühəqqiq" (tədqiqatçı ustadımız), Məhəmməd Bağır Səbzəvarini "ustazənal-fazil" (fəzilət sahibi ustadımız) ləqəbləri ilə xatırlamışdır. Buna görə də bəzi müəlliflər həmin ləqəbləri müqayisə edərək, belə fikir yürütmüşlər ki, Mirzə Abdullah Əfəndi öz müəllimləri sırasında Şirvanini daha yüksək qiymətləndirmiş və onu digər üç böyük alimdən daha üstün saymışdır. Məhəmməd bin Həsən Şirvaninin şagirdləri arasında bir neçə nəfər xüsusi şöhrət qazanmışdır. Onlardan biri Mirzə Abdullah Əfəndidir. Zəmanəsinin ən böyük alimlərindən dərs almaq şərəfinə nail olmuş Əfəndi, Məhəmməd Şirvaninin də dərslərində iştirak etmiş, Küleyninin "Üsulul-Kafi", Şeyx Tusinin "Təhzibül-əhkam" və "Şərhi-müxtəsəril-üsul" kitablarını onun yanında oxumuşdur. Şirvaninin başqa bir şagirdi Molla Məhəmməd Əkməl Bəhbəhani olmuşdur. O, Cəfəri fiqhini uzun müddətli tənəzzül mərhələsindən xilas etmiş, əxbarilik cərəyanı ilə şiddətli mübarizə aparıb üsul məktəbini qüvvətləndirmiş və "ustadül-əkbər" (Ən böyük müəllim) ləqəbini almış Vəhid Bəhbəhaninin atasıdır. Şirvaninin şagirdlərindən biri də rical elminə aid olan "Tənqihül-məqal" əsərinin müəllifi Şeyx Həsən bin Abbas Bəlaği Nəcəfi idi. Şeyx Həsən Bəlaği həmin əsərdə öz ustadı haqqında son dərəcə ehtiram və hörmət ilə söz açaraq yazır: "Üsul və füru (yəni əqaid və şəriət) elmlərində ona istinadımız vardır". Kitabda Şirvani "son dövr alimlərinin ən üstünü, dərin bilik sahiblərinin ən kamili, aləmlər içində Allahın ayəti (nişanəsi), tədqiqatçıların seçilmişi, hikmət və kəlam sahiblərinin sultanı" və s. epitetlərlə vəsf olunur. Mirzə Məhəmməd Şirvaninin bir şagirdi də Mirməhəmməd Saleh Xatunabadi olmuşdur (öl. 1704). Mirməhəmməd Saleh Şirvani həm də Əllamə Məhəmməd Bağır Məclisinin (öl. 1700) kürəkəni idi. Məclisinin qızı ilə Məhəmməd Şirvaninin birgə ailə həyatı da uğurlu olmuşdur. Bu izdivacdan dünyaya gələn Molla Heydər Əli nüfuzlu din xadimi kimi şöhrət qazanmış, "Məsalik" kitabına haşiyə yazmış,

[395] Ağa Bozork ət-Tehrani. əz-Zəriə ila təsanifiş-şiə. XIII c. s. 97.
[396] Həmin mənbə. XIII c. s. 300; XVI c. s. 142.

Şeyxüt-taifə Tusinin “Misbahül-mütəhəccidin” kitabını yeni tərtibatla hazırlamış, yəni kitabın məzmununu ixtisar etmiş, ona bəzi dua və ziyarətnamələr artırmışdır.[397]

Şirvani İslam ilahiyyatının bütün sahələrində ustad səviyyəsində bir mütəxəssis olmasına baxmayaraq, özünü daha çox hədisşünaslıq sahəsində göstərmişdir. Yuxarıda da qeyd etiyimiz kimi o, öz tələbələrinə “kütubu-ərbəə” adı ilə tanınan Küleyninin (876-941) “Üsulul-kafi”, Şeyx Səduqun (915-991) “Mən la yəhzuruhül-fəqih”, Şeyx Tusinin (998-1068) “Təhzibül-əhkam” və “əl-İstibsar” əsərlərini oxudub təlim etməklə məşğul olmuşdur.

### 2.85. Seyid Məhəmməd İbrahim əl-Qəzvini

Seyid Məhəmməd İbrahim bin Məsum bin Fəsih bin Övliya əl-Hüseyni əl-Təbrizi əl-Qəzvini öz dövrünün tanınmış filosofu, fəqih və hədisşünası idi. O, 1647-ci ildə Qəzvin şəhərində doğulmuşdur.[398] Rical kitablarında “əllamə”, “fəhhamə”, “zül-funun” və s. epitetlərə yad edilən Seyid Məhəmməd dövrünün bütün elmlərinə bələd, təqva və imanda hamıdan üstün bir şəxs kimi xarakterizə edilmişdir. Onun yetişməsində atasının, Əllamə Məclisinin, Cəmaləddin Xansarinin, Şeyx Cəfər bin Abdullah əl-Qazi əl-İsfahaninin, Məhəmməd Səfi əl-Qəzvininin böyük rolları olmuşdur. Əllamə Məclisi və Cəmaləddin Xansaridən şəxsən icazənamə (diplom) alan Seyid Məhəmməd bütün hədis kitablarından hədis nəql etmək səlahiyyətini əldə etmişdir.

Seyid Məhəmməd əl-Qəzvini Seyid Məhəmməd Qütb əz-Zəhəbi və Şeyx Əbdünnəbi əl-Qəzvini kimi alimlər yetişdirmişdir.

Çoxlu sayda əsərlər yazmış Məhəmməd Qəzvininin “Təhsilül-itminan fi şərhi zübdətil-bəyan”, “əl-İlmül-ilahi”, “əl-Bəda”, “Məcmuətül-fəvaid”, “Təhqiqüs-səğirə vəl-kəbirə minəz-zünub”,”Silahül-muminin”, “Risalə təhqiqiyyə fil-bəda” əsərlərini qeyd edə bilərik.[399]

### 2.86. Məhəmməd bin Əli əl-Ərdəbili

Hədis ədəbiyyatı tarixində özünəməxsus yeri olan alimlərdən biri də Məhəmməd bin Əli Ərdəbilidir. O, 1639-cu ildə Ərdəbildə doğulmuşdur. Öz dövrünün ən böyük alimi olan Əllamə Məhəmməd Bağır Məclisinin (1628-1700) tələbəsi olmuş Ərdəbili və şəxsən Əllamənin ona verdiyi icazə şəhadətnaməsi əsasında bütün hədis kitablarından rəvayət etmə səlahiyyətini əldə etmişdir. Elm əldə etmək üçün müxtəlif bölgələrə səyahətlər edən Məhəmməd Ərdəbilinin ömrünün çox hissəsi Kərbəla və Nəcəfdə keçmiş, buranın alimlərindən daha çox faydalanmışdır. Sonralar İsfahana qayıdan Məhəmməd Ərdəbili burada bütün ömrünü kitab yazmağa həsr etmişdir. O, ravilər haqqında kitab yazmaq üçün 1690-cı ildə təzədən İsfandan Kərbəlaya getmiş və bir müddətdən sonra elə orada vəfat etmişdir.

Onun yazdığı “Camiür-ruvvat” əsəri rical elminin fundamental qaynaqlarındandır. Əsər XX əsrin görkəmli alimlərindən olan Hüseyn əl-Burucerdinin (1875-1961) nəzarəti altında və Əbülhəsən Şəraninin təshihi ilə çap olunmuşdur.

Məhəmməd Ərdəbilinin digər məşhur əsəri isə “Təshihül-əsanid”dir ki, bu da rical elminə həsr olunmuşdur. Əsər Əllamə Nurinin “əl-Müstədrək əla vəsailiş-şiə” əsərinin sonunda çap olunmuşdur.

### 2.87. Cəmaləddin Yusif əş-Şirvani

Şeyx Cəmaləddin Yusif bin İbrahim bin Məhəmməd əz-Zühri Şirvani fəqih və hədisşünas idi. 1669-cu ildə, qardaşı şeyx Əkmələddin Əli əfəndidən sonra, Mədinəyə gəlmişdi. O, fiqh elmində dövrün məşhur alimlərindən biri olmuşdu. İslam hüququ sahəsində bir çox müşkül məsələlərdə fəqihlər ona müraciət edirdilər. Dayısı oğlu, Osmanlı dövlətinin şeyxülislamı, Seyid Feyzullah əfəndinin tövsiyəsi ilə Mədinə müftiliyinə təyin olunmuşdu. Ondan əvvəl bu vəzifəni qardaşı Əkmələddin Əli

---

[397] Natiq Rəhimov. Azərbaycanın din alimləri. s. 18-27

[398] Seyid Əhməd əl-Hüseyni. Təlamizətu-Əllamə əl-Məclisi. s. 9.

[399] Möhsün əl-Əmin. Əyanüş-şiə. II c. s. 227.

əfəndi icra etmişdi. Cəmaləddin Yusif Şirvani üç il bu vəzifəni icra etdikdən sonra öz xahişi ilə istefaya göndərilmişdi. Ondan sonra bu vəzifəyə Seyid Əsəd əfəndi əl-Üsküdari təyin olunmuşdu. Cəmaləddin Yusif Şirvani müxtəlif elm sahələrinə dair bir sıra əsərlərin müəllifi idi. Onun qələmə aldığı əsərlərdən ən məşhurları üç cildlik "Şərh ələ Mişkatil-məsabih", "Risalə fi kərahəti-iqtdail-hənəfi biş-Şafei", iki cildlik "Şərhu mültəqil-əbhər" adlı əsərlərdir.

Cəmaləddin Şirvani 1722-ci ildə Mədinədə vəfat etmiş və Rəsulullahın oğlu İbrahimin qəbrinin yanında dəfn edilmişdi.[400]

## 2.88. Mirzə Abdullah Əfəndi ət-Təbrizi

Ağa Mirzə Abdullah bin Mirzə İsa bin Məhəmməd Saleh bin Şah Mövla Vəli bin Pirməhəmməd bin Xəzərşah əl-Cirani ət-Təbrizi əl-İsfəhani "Sultanür-Rum" və "Əfəndi" ləqəbləri ilə tanınmışdır. O, 1653-cü ildə Təbriz şəhərində doğulmuşdur. Mirzə Abdullah bir müddət İstanbulda yaşadığı üçün "Əfəndi" ləqəbi ilə məşhurlaşmışdır. Mənbələrdə İslam dünyasının böyük iftixarı kimi qeyd edilir. İlk təhsilini atasından və böyük qardaşı Mirzə Cəfərdən almış, ibtidai biliklərə yiyələndikdən sonra isə Əllamə Məhəmməd Bağır Məclisinin, Mövla Məhəmməd Bağır əl-Mühəqqiq əs-Səbzəvarinin, Ağahüseyn Xansarinin və onun oğlu Cəmaləddin Məhəmməd Xansarinin, Mövla Məhəmməd bin Həsən Fazil əl-Hindi və Mirzə bin Həsən əş-Şirazinin yanında oxumuşdur. Bir müddət təhsil almaq üçün onun ömrünün yarısı Türkiyə, Xorasan, Azərbaycan, İraq, Şam, Məkkə, Misir və sair diyarlara səfərlərdə keçmişdir. Bəzi mənbələr bu təhsil müddətinin otuz il davam etdiyini yazırlar.[401] Əfəndi müxtəlif elmlər üzrə, xüsusilə, rical və biblioqrafiya sahəsində misilsiz bilik sahibi olmuşdur.

Mirzə Abdullah "Kütubul-ərbəə"ni (Küleyninin "Üsuli-kafi", Şeyx Səduqun "əl-Fəqih", Şeyx Tusinin isə "Təhzibül-əhkam" və "əl-İstibsar" əsərlərini) Əllamə Məhəmməd Bağır Məclisinin, Molla Sədranın "Şifa" adlı fəlsəfi əsərini isə dövrünün görkəmli filosofu Mühəqqiq Səbzivarinin hüzurunda oxumuşdur. "İşarat"ı isə Seyid Hüseyn Xansaridən öyrənmişdir. Həmçinin o, Şeyx Tusinin "Təhzibül-əhkam" və Küleyninin "Üsulul-kafi" əsərlərindən bir hissəni Molla Mirzə Şirvanidən öyrənmişdir. Ona hədis rəvayət etməsi üçün icazəni Əllamə Məclisi, Mövla Məhəmməd Saleh əl-Mazandarani, Şeyx Məhəmməd bin Hüseyn Hürr əl-Amili, Mövla Nizaməddin əs-Savəci, Seyid Mirzə əl-Cəzairi və başqaları vermişlər.

Mirzə Abdullah Əfəndidən bir çox görkəmli alimlər hədis rəvayət etmişlər. Onlardan Mirzə Əli Heydər əş-Şirvani, Mövla Məhəmməd Sadiq əl-Məclisi, Mövla Məhəmməd bin Abdullah ət-Tuni, Mirməhəmmədhüseyn əl-Xatunabadi, Şeyx Məhəmməd Əli əl-Həzin və digərlərini qeyd etmək olar.

Mirzə Abdullah Əfəndi hədis elmində etibarlı şəxs kimi tanınır. Onun haqqında Əllamə Məhəmməd əl-Həzin, Əllamə Seyid Abdullah, Əllamə Mirzə Məhəmməd Bağır əl-Xansari, Əllamə ən-Nuri, Əllamə Seyid Möhsün əl-Əmin, Əllamə Mirzə Məhəmməd Əli ət-Təbrizi və başqaları yazdıqları rical kitablarında tərifli sözlər demiş və onun hədis elmindəki mötəbərliyini qeyd etmişlər.

Mirzə Abdullah Əfəndi çox sayda,[402] bəzi mənbələrə görə 25 kitabın[403]məllifidir. Onlardan da "Riyazül-üləma və hiyazül-füzəla",[404] "əl-Əman vən-niran min təfsiril-Quran",[405] "Bəsatinül-xütəba",[406] "Təfsiru surətil-Vaqiə" (farsca),[407] "əs-Səhifətüs-Səccadiyyətüs-salisə",[408] "əs-Səhifətül-Ələviyyətüs-saniyə", "Simarül-məcalis və nisaül-ərais",[409] "Rövzətüş-şühəda", "Lisanül-vaizin və

---

[400] Həmin mənbə.
[401] Seyid Əhməd Hüseyni. Təlamizətül-Əllamə əl-Məclisi. s. 38.
[402] Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. VIII c. s. 65.
[403] Mirzə Abdullah Əfəndi. Riyazül-üləma. I c. Təhqiq: Seyid Əhməd əl-Hüseyni. Müqəddimə, s. 21.
[404] Ağa Bozork ət-Tehrani. əz-Zəriə ila təsanifiş-şiə. XI c. s. 331.
[405] Həmin mənbə. II c. s. 343.
[406] Həmin mənbə. III c. s. 104.
[407] Həmin mənbə. IV c. s. 342.
[408] Həmin mənbə. XV c. s. 20.
[409] Həmin mənbə. X c. s. 10.

cinanül-mütəzzin”,[410] “Təliqə əməlül-amal”,[411] “Əllamə Məclisinin müxtəlif əsərlərinə haşiyələr”i qeyd etmək olar.[412]

Onun “Riyazül-üləma” (“Alimlər bağçası”) əsəri “Riyazül-üləma və hiyazul-fuzəla” adı ilə hicri 1401-ci (miladi 1981-ci) ildə Qumda altı cilddə nəşr olunub.

Ağa Bozork Tehraninin verdiyi məlumata görə, “Riyazül-üləma” əsəri miladi X əsrdən XVII (hicri III-XI) əsrədək, yəni onun öz dövrünədək olan alimlər haqqında məlumatları özündə əks etdirir.[413] Əsərin birinci cildi “əlif” hərfi ilə başlayıb “ha” hərfi ilə, ikinci cildi “ha” hərfi ilə başlayıb “za” hərfi ilə, üçüncü cildi “ayn” hərfi ilə başlayıb “lam” hərfi ilə, dördüncü cildi “nun” hərfi ilə başlayıb və “kuna” və “əlqab” fəsli ilə sona yetir.[414]

Mirzə Abdullah Əfəndininin günümüzə yarısı catmış “Riyazül-üləma” kitabı haqqında tədqiqatçı alim Məhəmməd Əli Rövzəli yazır: “Mərhum Mirzə Abdullah böyük alim Əllamə Məhəmməd Bağır Məclisinin ölümündən sonra bu bənzərsiz əsəri yazmağa başladı. O, kitabın yazılması ilə əlaqədar material toplamaq üçün dəfələrlə müxtəlif şəhərlərə, hətta İrandan kənar məmləkətlərə səfər də etmişdi. Hər hansı bir yerdə İslam alimlərinin əsərləri ilə rastlaşırdısa, öz kitabında onlardan məlumat yazırdı. Cox təəssüf ki, bu kitabın yarısından coxu əldə deyil. Bu kitabın qalanını 250 il əvvəl, yəni Nadir şahın dövründən və əfqanların hücumu bitəndən sonra dövrünün böyük alimi Əllamə Nəsrullah Hairi müəllifin varislərindən alıbmış. Onun aldığı bu kitab XIX əsrin sonlarina qədər Hairinin Kərbəladakı kitabxanasında qalibmış. Adli-sanlı hədisşünas və fəqih Şeyx Yusif Bəhrani “Riyazül-üləma”dan bir hissəni müəllifin və kitabın adını göstərmədən öz “Luluül-Bəhreyn” əsərində nəql etmişdir.

“Riyazül-üləma” kitabının tanınmamasına və ya itib-batmasına səbəb Mirzə Abdullahın ömrünün axırlarında müəllifi olduğu bütün kitabları nəvələri Mirzə Əhməd və Mirzə Zeynülabidinin arasında bölüb onlara bağışlaması ola bilər. Mirzə Əhmədin payına düşən “Riyazul-üləma” müəllifin özü haqqında məlumat və “ayn” hərfi daxil olan hissə idi. Bu hissə İsfahanda qalmışdı. Kitabın digər yarısı isə Nəsrullah Hairinin nəsibi olmuşdur. Hairidə olan hissədə müəllifin adı olmayib. İsfahanda yarısı qalan hissədən “Rövzətül-cənnat” kitabının müəllifi istifadə etmişdi. Allaha şükür ki, kitabının əslinin yarısı həqir bəndədədir. Mərhum Şeyx Yusif Bəhranidən başqa heç kəs “Riyazül-üləma”nın qalan hissəsindən bəhs etməyib. Ondan sonra o qiymətli kitabın aqibəti naməlumdur. Hətta o dövrdə yaşamış Mühəqqiq Bəhbəhani “Riyazül-üləma”nın yarısını İsfahanda görübmüş. Təəssüflər olsun ki, Əbdünnəbi Qəzvini, Seyid Bəhrulülum, Şeyx Əbu Əli Hairi və bu kimi digər rical alimlərinin heç biri öz rical kitablarında o əsərdən bəhs etməyiblər. Ancaq mərhum Mühəddis Bəhrani “Fuadür-ricaliyyə” adlı məşhur əsərində Mirzə Abdullah Əfəndi və onun “Riyazül-üləma” əsərindən bəhs etmişdir. Hər halda ümumi olaraq bilirik ki, “Riyazül-üləma”dan itən hissələr “əlif”dən “cim” hərfinə qədər və əlavə olaraq “mim” hərfi də daxil olan hissələr olub. Hicri 1401 (miladi 1981)-ci ildə “Riyazul-üləma”dan qalan hissələr, həmçinin, Bəhraninin “Luluül-Bəhreyn” kitabında “Riyazül-üləma”dan iqtibas etdyi hərf Seyid Məhəmmədhüseyn Əşkurinin rəhbərliyi ilə altı cilddə Mərəşi Nəcəfinin kitabxanasında nəşr edilmişdi. Bəhraninin əlavəsindən başqa “əlif”dən “cim”ə qədər və “mim” də daxil olmaqla Mirzə Abdullahın “Əməlül-amal” əsərində olan qaydalarına uyğun olaraq bu kitaba əlavə edilmişdi. Ondan sonra hicri 1415 (miladi 1985)-ci ildə o kitabın qalan hissəsi VII cild olaraq o müəssisədə nəşr edildi. Hicri 1412 (miladi 1982)-ci ildə “Əməlül-amal”da Mirzə Abdullahın kitabın haşiyəsində yazdığı şərhləri müstəqil bir cild kimi nəşr edildi. “Riyazül-üləma”dan başqa Mirzə Abdullahın ümumi alimlər haqqında olan əlyazma əsəri də vardır və təəssüflər ki, hələ bu günə kimi nəşr edilməmişdir...”

---

[410] Həmin mənbə. XVIII c. s. 312.
[411] Seyid Əhməd Hüseyni. Təlamizətül-Əllamə əl-Məclisi. s. 39.
[412] Əbdürrəhman Əqiqi Bəxşaişi. Məfaxire-Azərbaycan. Fəqihane və müfəssirane ustane Azərbaycane Şərqi. Təbriz, I çap, 1375. “Molla Abdullah Əfəndi” maddəsi.
[413] Ağa Bozork ət-Tehrani. əz-Zəriə ila təsanifiş-şiə. XI c. s. 331-332.
[414] Həmin mənbə. s. 332.

Azərbaycan hədisşünaslığının ən görkəmli nümayəndələrindən biri olan Mirzə Abdullah Əfəndi 1719-cu ildə İsfahan şəhərində vəfat etmiş və həmin şəhərdə də dəfn edilmişdir.

### 2.89. Mövla İbrahim əl-Cilani

Orta əsrlərdə Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən olan və Araz çayının sol sahilində yerləşən Gilan şəhərinə mənsub alimlərindən biri Mövla Mirzə İbrahim əl-Cilanidir. Onun nəsəbi İbrahim bin Mehrab bin İbrahim bin Xəlil əl-Ləhicani əl-Cilanidir. O, XVII əsr Azərbaycan hədisşünaslığının görkəmli simalarından biri olmuşdur. Onun doğum və vəfat tarixləri məlum olmasa da, XVII əsrdə yaşaması və o dövrün ensiklopedik bilik sahibi Əllamə Məhəmməd Bağır Məclisidən dərs aldığı, hədis rəvayət etməsi üçün 1690-cı ildə Əllamədən icazə hüququnu əldə etməsi məlumdur.[415]

İbrahim Cilani hədis elmləri sahəsində ən ağır və məsuliyyətli bir sahə olan hədis şərhləri elmi sahəsində daha məşhur olmuşdur. Onun bu sahədə yazdığı əsərlərdən aşağıdakıları qeyd etmək olar:

“Şərhu Nəhcil-bəlağə”. Müəllif bu əsərini İmam Əlinin Seyid Rəzi (öl. 1015) tərəfindən toplanmış xütbə, məktub və hikmətli kəlamlar toplusu olan “Nəhcül-bəlağə” əsərinə həsr etmişdir. Əsər səkkiz cilddən ibarət olmuşdur.

“əs-Səhifətüs-Səccadiyyə”. Əsər İmam Zeynülabidinin məşhur dualar toplusu olan və dilimizə də bir neçə dəfə tərcümə olunmuş “Səhifeyi-Səccadiyyə”yə həsr olunmuşdur.

“Şərhu xütbətiş-Şiqşiqiyyə”. Müəllif bu əsərini yuxarıda adını qeyd etdiyimiz İmam Əlinin “Nəhcül-bəlağə” əsərindəki “Şiqşiqiyyə” adı ilə məşhur olan bir xütbəsinin şərhinə həsr etmişdir.[416]

### 2.90. əl-Əmir İbrahim əl-Qəzvini ət-Təbrizi

Azərbaycan hədisşünaslığının məşhur simalarından biri də İbrahim Qəzvini ət-Təbrizidir. O, 1657-ci ildə Təbriz şəhərində doğulmuşdur.[417] Ömrünün çoxunu elmi mərkəzlərdə keçirən İbrahim uzun müddət Əllamə Məclisinin yanında oxumuş və burada hədis elmlərinin bütün sahələrinə mükəmməl şəkildə sahib olmuşdur. Əbəs deyildir ki, Əllamə Məclisi ona bütün kitablardan nəql etmək üçün icazə hüququ vermiş və bununla da onun hədis elmindəki bilgisinə öz etimadını bildirmişdir. Öz dövründə iman və təqvası ilə tanınan İbrahim, eyni zamanda ərəb və fars dillərində mükəmməl şairlik istedadı olan ədiblərdən olmuşdur. Buna görə də mənbələr onu bütün əqli və nəqli elmlər sahəsində görkəmli bir alim kimi vəsf edirlər. Bəzi mənbələrdə onun min beş yüzdən artıq kitab yazdığı, lakin dövrümüzədək gəlib çıxmadığı qeyd edilir.

İbrahim Təbrizi Əllamə Məclisi, atası Mirməhəmməd Məsum, Cəmaləddin Məhəmməd əl-Xansari, Şeyx Cəfər bin Abdullah əl-Qazi əl-İsfahani, Mirzə Qəvamüddin Məhəmməd əs-Seyfi əl-Qəzvini kimi nəhəng alimlərdən elm öyrənmişdir.[418]

Yuxarıda da qeyd etdiyimiz kimi, ona hədis elmində hədisləri rəvayət etmək üçün icazə hüququnu Əllamə Məclisi və Cəmaləddin Məhəmməd əl-Xansari vermişdir. O, hədis elmləri sahəsində kitab yazmaqla kifayətlənməmiş, eyni zamanda bu sahədə çox böyük alimlərdən olan Seyid Məhəmməd əl-Qütb əz-Zəhəbi, Şeyx Əbdünnəbi əl-Qəzvini kimi şəxsləri yetişdirmişdir. Ondan oğlu Məhəmməd Mehdi əl-Qəzvini başda olmaqla bir çox şəxslər hədis nəql etmişlər.

İbrahim Təbrizi ilahiyyat elmlərinin müxtəlif sahələrinə aid dəyərli əsərlər yazmışdır. Onlardan “Təhsilu itminan fi şərhi zübdətil-bəyan”, “əl-İlm əl-İlahi”, “əl-Bəda”, “Məcmuətül-fəvaid”, “Təhqiqüs-səğirə vəl-kəbirə minəz-zünub”u qeyd etmək olar.

İbrahim Təbrizi 1734 və ya 1738-ci ildə vəfat etmişdir.[419]

---

[415] Seyid Əhməd Hüseyni. Təlamizətül-Əllamə əl-Məclisi. s. 8.
[416] Möhsün əl-Əmin. Əyanüş-şiə. II c. s. 255.
[417] Seyid Əhməd Hüseyni. Təlamizətül-Əllamə əl-Məclisi. s. 9.
[418] Həmin mənbə. s. 9.
[419] Həmin mənbə. s. 9; Möhsün əl-Əmin. Əyanüş-şiə. II c. s. 227.

### 2.91. əl-Mövla Rəcəb Əli əl-Cilani

Rəcəb Əli Cilani Əllamə Məclisinin ən məşhur və görkəmli tələbələrindəndir. O, Cənubi Azərbaycanın Rəşt şəhərində doğulduğundan həmin şəhərə nisbətlə ər-Rəşti kimi tanınır. Rəcəb Əli Əllamə Məclisiyə (1628-1700) Şeyx Tusinin (öl. 1067) "Təhzibül-əhkam" əsərini oxumuş və müəllimindən həmin kitabın nikah bölümünədək olan hissəni rəvayət etmək icazəsini almışdır.[420]

### 2.92. əl-Mövla Süleyman əl-Cilani

XVII əsrin sonu XVIII əsrin əvvəllərində yaşamış Süleyman Məhəmməd əl-Cilani ət-Tənkabəni hədis elmləri sahəsində məşhur alimlərdəndir. O, X əsrin ən görkəmli hədis alimlərindən olan Məhəmməd bin Yəqub əl-Küleyninin (öl. 941) "Üsulul-kafi" əsərinin üzünü köçürmüş və bu kitabın böyük bir hissənini nəql etmək üçün Əllamə Məclisidən icazə hüququnu almışdır. Onun üzünü köçürdüyü "Üsulul-kafi" kitabı hazırda İranın Qum şəhərində ət-Tənkabəni xətti adı ilə Məscidi-əzəm ktabxanasında saxlanılır (nömrə: 308).

### 2.93. Mövlana Əbdürrəzzaq əl-Cili əl-Cilani

Əllamə Məclisidən dərs almış, onun yanında oxumuş və nəhayət, hədisşünaslıqda hədis nəql etmək üçün mühüm sənədlərdən olan icazə hüququnu öz ustadından əldə etmiş alimlərdən biri də Əbdürrəzzaq bin Molla Muxtar əl-Cilanidir. O, "Üsulul-kafi" kitabının ikinci ən mühüm və şəriətə aid hissəsi olan "Fürui-kafi" hissəsini əvvəldən axıradək Əllamə Məclisiyə oxumuşdur. Onun kitabın bu hissəsini mükəmməl bildiyini görən müəllimi ona icazə hüququ vermişdir.[421]

### 2.94. əl-Mövla Abdullah əl-Ərdəbili

Mövla Abdullah əl-Ərdəbili fiqh elmini Əllamə Məclisidən, Ağahüseyn Mühəqqiq Xansaridən və Mühəqqiq Məhəmməd Bağır əs-Səbzivaridən öyrənmişdir. O, adı çəkilən müəllimlərindən fiqh elmi sahəsində hələ öz şöhrətini itirməyən "əl-Lümətüd-Diməşqiyyə" kitabının tədrisi üçün icazə hüququ almışdır.

### 2.95. Kəmaləddin Məhəmməd əl-Cili

Kəmaləddin Məhəmməd əl-Cili Əllamə Məclisidən X əsrin görkəmli hədisşünaslarından biri olan Şeyx Səduqun "Mən la yəhzuruhül-fəqih" kitabını nəql etmək üçün icazə almış alimlərdəndir. Mənbələrdə onun doğulması və vəfat etməsi haqqında məlumatlara rast gəlinməsə də, XVII əsrin sonları XVIII əsrin əvvəllərində yaşaması məlumdur.

### 2.96. Əmir Seyid Məhəmməd əl-Xalxali

Seyid Məhəmməd bin Məhəmməd Qasim bin Məhəmməd əl-Hüseyni əl-Xalxali öz dövründə hədis elmləri sahəsində ən məşhur alimlərdən biri hesab olunurdu. O, öz ustadlarından hədis nəql etmək üçün qiraət, icazət və kitabət üsulu üzrə icazə hüququ almış yaganə alimlərdəndir.[422] Xalxali Əllamə Məclisidən təkcə hədis sahəsində deyil, eyni zamanda fiqh və dua sahələrində də rəvayət və tədris hüququnu əldə etmişdir. O, öz ustadı Əllamə Məclisinin "Biharül-ənvar" adlı məşhur əsərinin üzünü köçürmüş və bu işi hicri 1087-ci ilin şəban ayının 18-də (10 oktyabr 1676-cı ildə) sona yetirmişdir.

### 2.97. Mövla Əli Nəqi əl-Xoyi

[420] Seyid Əhməd Hüseyni. Təlamizətül-Əllamə əl-Məclisi. s. 26.
[421] Həmin mənbə. s. 33-34.
[422] Həmin mənbə. s. 73.

Mövla Əli Nəqi əl-Xoyi Əllamə Məclisinin ən tanınmış tələbələrindən biri olmuşdur. O, İslam ilahiyyatının müxtəlif sahələrini öz ustadı Əllamə Məclisidən və İsfahanın digər alimlərindən almış, şəriətin nikah məsələlərini həyata keçirməsi üçün Əllamə Məclisidən xüsusi olaraq icazə kağızını əldə etmişdir. Onun bu mövzuda yazdığı "Siğul-üqud vən-nikah" əsəri əlyazma şəklində Qumda Şeyx Əli Fazil əl-Qaininin kitabxanasında saxlanılır.

### 2.98. Seyid Məhəmməd əl-Lahici

Məhəmməd bin Əhməd əl-Hüseyni əl-Lahicani fəzilətli alim, ədəbiyyatşünas və şairlik istedadı olan Azərbaycan hədisşünaslarındandır. XVII əsrin sonları XVIII əsrin əvvəllərində yaşamış Lahicani Əllamə Məclisinin istedadlı tələbələrindən biri olmuşdur. O, özünün "ət-Töhfə" və digər əsərlərində Əllamə Məclisidən dərs aldığını və onun yanında yetişdiyini yazmışdır. Mənbələr onun öz ustadına çox bağlı olduğunu, ustadının bütün əsərlərini topladığını və onları fehrist halına saldığını yazır.[423] Həmçinin o, Təbrizin şeyxülislamı olmuşdur. Onun yazdığı əsərlərdən "Fihrise biharül-ənvar" (1716-cı ildə tamamlamışdır), "Nəzmül-ləlali" (1692-ci ildə tamamlamışdır), "Salatül-cümə", "Hilyətün-nisvan", "Töhfətül-müsəllin"i (1698-ci ildə tamamlamışdır) qeyd etmək olar.[424]

### 2.99. əl-Əmir Seyid Məhəmməd əl-Xalxali

Seyid Məhəmməd bin Məhəmməd bin Qasim bin Məhəmməd əl-Hüseyni əl-Xalxali fəzilətli alim, görkəmli hədisşünas və mahir tədqiqatçı kimi tanınır. O, qədim hədis kitablarını təshih etməkdə, onların sənədlərindəki nöqsanları tarazlamaqda mahir bir hədisşünas imiş. Hədis, fiqh və dua kitablarını Əllamə Məclisinin yanında oxuyan Xalxali öz ustadından bu kitablar üzrə rəvayət etmə hüququnu əldə etmişdir. Xalxali "Biharül-ənvar" kitabının birinci cildinin üzünü köçürmüşdür. Əllamə Məclisi onun hədis və digər elmlər sahəsindəki biliyini görüb onun haqqında seyid, şərif, cəlil, təqi və zəki sözlərini işlətmişdir.[425]

### 2.100. Mirzə Qivaməddin əl-Qəzvini

Məhəmməd bin Məhəmməd Mehdi əl-Hüseyni əs-Seyfi əqli və nəqli elmlər sahəsində tanınmış görkəmli alimlərdən biridir. O, öz dövründə bütün elmlərə bələd olan, hər bir elm sahəsində öz məharətini göstərmiş, eyni zamanda görkəmli ədəbiyyatşünas, türk, ərəb və fars dillərində şeirlər yazan şair kimi də tanınmışdır. Yüksək mənəvi mədəniyyətə malik olan Məhəmməd Qivaməddin həm də elmlə əxlaqı, elmlə əməli birlikdə yaşayan alimlərdən biri kimi xarakterizə edilməkdədir.[426]

Əllamə Məclisinin yanında elmin müxtəlif sahələrini öyrənən Məhəmməd sonda öz ustadının ən sevimli tələbələrindən birinə çevrilmiş və bütün elmlər sahəsində rəvayət etmək, dərs demək səlahiyyətini 1697-ci ilin şaban ayında ondan icazə almışdır.

Bir müddət öz dövrünün məşhur müctəhidlərindən olan Şeyx Cəfər Qazı əl-İsfahanidən dərs alan Məhəmməd ondan da şəriət elmləri sahəsində bəhrələnmişdir.

Ömrünün bir hissəsini İsfahanda keçirən bu böyük Azərbaycan hədisşünası sonda Qəzvinə getmiş və 1739-cu ildə orada vəfat etmişdir.[427]

Onun yazdığı əsərlərdən bəziləri bunlardan ibarətdir: "ət-Töhfətül-qəvamiyyə", "əl-Vafiyyə", "əs-Safiyyə", "Nəzmül-hisab", "Nəzmül-üsul", "Tərcümə xülasətil-əzkar" və s.

### 2.101. Mövla Məhəmməd Rza əl-Ərdəbili

[423] Həmin mənbə. s. 59.
[424] Həmin mənbə. s. 59; Mirzə Abdullah Əfəndi. Riyazül-üləma. V c. s. 24.
[425] Həmin mənbə. s. 73.
[426] Həmin mənbə. s. 74.
[427] Həmin mənbə. s. 74.

Məhəmməd Rza bin hacı Dərviş əş-Şəhmərzadi əl-Kəhdəmi əl-Ərdəbili Əllamə Məclisinin ən məşhur tələbələrindən biridir. O, Məhəmməd bin Yaqub əl-Küleyninin (öl. 941) "Üsulul-kafi" əsərini Əllamə Məclisinin yanında oxumuşdur. Hədis elmindəki dərin və hərtərəfli bilgisinə görə ustadı 1663-cü ildə ona hədis rəvayət etməsi üçün icazə vermişdir.

Təəssüflər olsun ki, onun doğum və vəfat tarixi məlum deyil.

### 2.102. Mövla Rəfiəddin Məhəmməd əl-Cilani

Məhəmməd bin Rəfi bin Fərəc əl-Cilani "Mirzə Rəfi" adı ilə daha məşhurdur. O, təkcə hədis elmləri sahəsində deyil, eyni zamanda bütün əqli və nəqli elmlər sahəsində də öz dövrünün tanınmış simalarından idi. Mənbələr onun çox böyük və istedadlı şairlik qabiliyyətinin də olduğunu qeyd etmişlər.[428] Təfsir, fiqh, İslam fəlsəfəsi sahəsində dəyərli əsərlərin müəllifi olan Rəfiəddin həm də yüksək mənəvi keyfiyyətlərinə və əxlaqi sifətlərinə görə də məşhur idi. O, Məşhəddə yaşamış, burada İmam Rzanın məqbərəsində cümə namazına pişnamaz təyin edilmişdir.

Öz dövrünün Əllamə Məclisi, Ağa Hüseyn Xansari, Şeyx Cəfər Qazı əl-Kəmrəi kimi elm nəhənglərindən dərs alan Rəfiəddin, eyni zamanda adı çəkilən alimlərdən hədis rəvayət etməsi üçün icazə də almışdır. Bəzi mənbələr Əllamə Məclisinin ona 1676-cı ildə icazənamə verdiyini yazırlar.[429]

Şeyx Rəfiəddin çoxlu sayda tələbələr yetişdirmişdir ki, onlardan da Şeyx Yusif əl-Bəhrani, Seyid Abdullah bin Nurəddin əl-Cəzairi, Şeyx Hüseyn bin Məhəmməd əl-Babarini qeyd etmək olar.

O, "Şərhu nəhcil-bəlağə", "Əslul-üsul fi haşiyəti məalimil-üsul", "Kəşfül-mədarik", "Şəvahidül-İslam", "Haşiyə rövzətil-bəhiyyə", "Haşiyə ənvarit-tənzil", "Haşiyə əş-Şafi", "əl-İctihad vət-təqlid", "Salatül-cümə" və s. əsərlərin müəllifidir.[430]

İslam ilahiyatının, o cümlədən hədis elmlərinin inkişafında müstəsna xidmətləri olan Rəfiəddin yüz ildən artıq ömür sürmüş və nəhayət 1749-cu ildə vəfat etmişdir.

### 2.103. Mövla Məhəmməd Zaman ət-Təbrizi

Məhəmməd Zaman bin Kəlbəli Təbrizi ən görkəmli Təbriz alimlərindən biri olmuşdur. Onun yetişməsində Əllamə Məclisinin, Ağa Hüseyn Xansarinin, Şeyx Cəfər Qazı Kəmrəinin çox böyük rolları vardır. O, adı çəkilən alimlərdən hədis rəvayət etməsi üçün icazə hüququnu da əldə etmişdir. Məhəmməd Zaman Səfəvilər dövründə İsfahan mədrəsələri üzərində nəzarətçi vəzifəsini daşımışdır. Onun yazdığı əsərlərdən "Şərhu üsulil-kafi", "Şərhu zübdətul-üsul", "Fəraidu fəvaidi fi əhvalil-mədaris vəl-məsacid"i qeyd etmək olar.[431]

### 2.104. Mövla Məhəmməd Səid ət-Təbrizi əl-İsfahani

Məhəmməd Səid Təbrizi Əllamə Məclisinin yetişdirdiyi ən görkəmli Azərbaycan hədisşünaslarındandır. Onun Şeyx Tusinin "Təhzibül-əhkam" əsərini Əllamə Məclisinin yanında oxuması və ondan icazə hüququnu alması məlumdur. Amma təəssüflər olsun ki, doğumu və vəfatı haqqında hələlik bir məlumata rast gəlinmir.

### 2.105. Məhəmməd Sadiq əl-Astarabadi

Məhəmməd Sadiq Astarabadinin həyatı və fəaliyyəti haqqında məlumat yoxdur. Amma onun Əllamə Məclisinin tələbələri arasında qeyd edilməsi XVII əsrin sonları və XVIII əsrin əvvəllərində yaşamasını göstərir.

### 2.106. Məhəmməd Kazim ət-Təbrizi

---

[428] Həmin mənbə. s. 100.
[429] Həmin mənbə. s. 102.
[430] Həmin mənbə. s. 102.
[431] Daneşməndane-Azərbaycan. s. 166.

Mövla Məhəmməd Kazim Təbrizi Azərbaycan hədisşünaslığının görkəmli nümayəndəsi kimi tərif edilsə də, haqqında geniş məlumat yoxdur. O, Əllamə Məclisinin tələbələri arasında qeyd edilmiş və bununla da XVII əsrin sonları və XVIII əsrin əvvəllərində yaşaması məlum olmuşdur. Məhəmməd Kazim ustadı Əllamə Məclisinin məşhur "Biharül-ənvar" əsərinin "təharət" və "namaz" fəsillərini nəql etmək üçün onadan xüsusi icazə də almışdır.

### 2.107. Məhəmməd Möhsün əl-Cilani

Hədis elmləri sahəsində tanınmış simalardan biri də Məhəmməd Möhsün əl-Cilani hesab olunur. O, Əllamə Məclisinin tələbəsi olmuş və ondan hədis rəvayət etmək üçün icazə almışdır.

### 2.108. Şeyx İbrahim əl-Cilani

Görkəmli Azərbaycan hədisşünası Mirzə Abdullah Əfəndi Təbrizi "Riyazül-üləma" əsərində Şeyx İbrahimin onun tələbə yoldaşı olduğunu qeyd etmişdir. Bu məlumata görə, bəzi alimlər onun da Əllamə Məclisinin tələbəsi olduğu fikrini irəli sürmüşlər.

### 2.109. Məhəmməd Bağır əl-Lahici

Həyatı haqqında yetərincə məlumat olmayan Məhəmməd Lahici Əllamə Məclisidən dərs aldığı üçün onun da XVII əsrin sonları XVIII əsrin əvvəllərində yaşaması ehtimal olunur. O, öz dövründə daha çox təsəvvüf və irfan əhli kimi tanınmışdır. Onun "Təzkirətül-əimmə" adlı əsəri olmuşdur.

### 2.110. Məhəmmd Şəfi əl-Cilani

Məhəmməd Şəfi bin Fərəc əl-Cilani öz dövrünün ən məşhur alimlərindən və tədqiqatçılarından olmuşdur. O, müxtəlif ləqəblərlə yad edilmiş çox hörmətli bir alim imiş. Öz dövründə Rəşt və Şirazda şeyxülislamlıq edən Məhəmməd Şəfinin Əllamə Məclisinin tələbəsi olması ehtimalı vardır. Ona Mühəqqiq əs-Səbzəvarinin "Səhifeyi-Səccadiyyə" əsərini rəvayət etməsi üçün icazə verməsi məlumdur. Həmçinin o, Əmir Macid bin Cəmaləddin əd-Dəştəkidən hədis rəvayət etmək üçün icazə almışdır. Onun bu icazə tarixi 1676-cı ildə olduğu göstərilir.

Ondan Mirzə İbrahim əl-Qazı rəvayət etmişdir.

Məhəmməd Şəfinin "əl-Bəda" adlı əsəri məlumdur. O, bu əsərini 1705-ci ildə yazmışdır.[432]

### 2.111. Mövla Xan Məhəmməd əl-Ərdəbili

Azərbaycan hədisşünaslığının görkəmli alimlərindən biri, dövrünün böyük övliyalarından və ariflərindən olmuş və buna görə də "Mövlana" (bizim övliyamız) adına layiq görülmüş alimlərdən biri də Məhəmməd Ərdəbildir. O, öz təhsilini Əllamə Məclisinin yanında almış, öz ustadından qiraət yolu ilə Məhəmməd bin Yaqub əl-Küleyninin "Üsulul-kafi", Şeyx Səduqun "əl-Fəqih", Şeyx Tusinin "Təhzibül-əhkam" kimi əsas hədis mənbələrini öyrənmiş və bu kitabları rəvayət etməsi üçün ondan icazə də almışdır. Bundan əlavə, Şeyx Səduqun adı çəkilən əsərini Əllamə Məclisinin qardaşı olan Mövla Abdullah bin Məhəmməd Tağı əl-Məclisiyə oxumuş və ondan da əlavə olaraq bu kitabı rəvayət etməsi üçün xüsusi icazənamə əldə etmişdir.[433]

---

[432] Seyid Əhməd Hüseyni. Təlamizətül-Əllamə əl-Məclisi. s. 164.

[433] Zindəginame-Əllamə Məclsisi. II c. s. 30; (Seyid Əhməd Hüseyninin "Təlamizətül-Əllamə əl-Məclisi" (s. 24) əsərinə istinadən.

## III FƏSİL

## MÜASİR AZƏRBAYCAN HƏDİSŞÜNASLARI
## (XIX-XXI əsrin I rübü)

### 3.1. Fazil əd-Dərbəndi

Azərbaycanın ən qədim və əzəli torpaqlarından biri olan Dərbənd şəhərinə mənsub alimlərdən biri Fazil Dərbəndi adı ilə məşhur olan Şeyx Ağa bin Abid bin Ramazan bin Zahid əş-Şirvani əz-Zahididir. O, 1785-ci ildə Dərbəndin Quba məntəqəsində doğulmuşdur. İbtidai təhsilini bölgə alimlərindən almış, sonra isə təhsilini davam etdirmək üçün müxtəlif elmi mərkəzlərə, o cümlədən Kərbəlaya səfər etmişdir. Bir müddət orada qalıb o dövrün ən görkəmli alimləri hesab olunan Məhəmməd Saleh əl-Bərğani əl-Hairi, Ağa əl-Həkəmi əl-Qəzvini və başqalarından elm öyrənmişdir.

Dərbəndinin çox zəngin yaradıcılığ vardır. O, İslam ilahiyyatının müxtəlif sahələrinə aid fundamental əsərlərin müəllifidir. Onun yazdığı əsərlərdən "Xəzainül-üsul", "Ənavinül-məsail", "Xəzainül-əhkam", "Qəvamisül-qəvaid fir-rical", "Risalə fi mərifətil-əsanid", "Cövhərüs-sinaə fil-üsturlab", "Fənüt-təmrinat", "İksirül-ibadat fi əsrariş-şəhadat", "Saadate-Nasiri", "Cəvahirül-iman", "ər-Risalətül-əməliyyə"ni qeyd etmək olar.[434]

Xatırladaq ki, onun "İksirül-ibadat" əsəri müsəlman alimləri tərəfindən ciddi tənqid olunmuşdur. Çünki o, burada Kərbəla hadisəsi ilə əlaqədar bəzi əsilsiz və sənədi olmayan rəvayətlərə çox yer vermişdir. Lakin buna baxmayaraq, əsər dəfələrlə çap edilmişdir. Həmçinin Dərbəndi müsəlman aləmində görkəmli alim, etibarlı hədisşünas kimi tanınan alimlərdəndir. Onun haqqında Mehdi əl-İsfahani əl-Kazimi yazırdı: "Şöhrətli alim, dərin hədisşünas idi. O, dinin əsaslarına və şəriət elmlərinə mükəmməl bələd, əqli və nəqli elmlərdə isə mahir idi".[435]

Əllamə Möhsün əl-Əminin (öl. 1953) verdiyi məlumata görə, o, Kərbəlada olarkən babilik üsyanı nəticəsində evinə hücum olmuş və özünü müdafiə edərkən sifətindən çox ağır yaralanmışdır.[436] Bundan bir müddət sonra Tehrana dönən Dərbəndi ömrünün sonunadək burada yaşamış və 1862-ci ildə yetmiş yeddi yaşında vəfat etmişdir.[437]

### 3.2. Məhəmməd Əli ət-Təbrizi

Məhəmməd Əli bin Əhməd əl-Qaraçedaği Təbrizinin doğum tarixi dəqiq bilinməsə də, 1889-cu ildə vəfat etməsi məlumdur. O, öz dövründə imamiyyə məzhəbinin dini lideri olmuş və "mərcəi-təqlid" müctəhid kimi tanınmışdır. İlk təhsilini Təbrizin mədrəsələrində alan Məhəmməd Əli sonralar təhsilini davam etdirmək və təkmilləşdirmək üçün İraqın Nəcəfül-əşrəf şəhərinə getmişdir. Orada uzun müddət qalan Təbrizi dövrünün ən böyük şəriət alimi hesab olunan Şeyx Ənsaridən üsul elmlərini, məşhur alim Mehdi Cəfəridən fiqh elmlərini öyrənmişdir. Mükəmməl təhsildən sonra İmam Rzanı ziyarət etmək üçün İranın Məşhəd şəhərinə gedən Təbrizi Xorasan hakiminin təkidi ilə orada qalmışdır. Bir müddətdən sonra Məşhəddən ayrılıb Tehrana gedən Təbrizi orada Spehsalar mədrəsəsində tədris işləri ilə məşğul olmuşdur. Bir müddət də burada yaşayan alim sonralar təbrizlilərin tələbi ilə öz doğma yerinə qayıtmış və ömrünün sonunadək burada yaşayıb yaratmışdır.[438]

İslam ilahiyyatının müxtəlif sahələrinə aid əsərlər yazan Təbrizinin həm də böyük şairlik qabiliyyəti olmuşdur.

---

[434] Ağa Bozork ət-Tehrani. əz-Zəriə. II c. s. 429; V c. s. 264; XI c. s. 213 və s.
[435] Məhəmməd Mehdi əl-Musəvi əl-İsfahani əl-Kazimi. Əhsənül-vədiə fit-təracim məşahiri müctəhidiş-şiə. Bağdad, Mətbəətün-nəcah. Tarixsiz. s. 59.
[436] Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. II c. s. 87.
[437] Xeyrəddin əz-Zirkili. əl-Əlam. I c. s. 25.
[438] Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. X c. s. 51.

Təbrizi haqqında bütün rical alimləri yaxşı sözlər yazmış, onun etibarlı olduğunu qeyd etmişlər. Seyid Məhəmməd Mehdi əl-Xansari "Əhsənül-vədiiə" əsərində onun fəzilətli, alim, etibarlı, abid və zahid olduğunu, Məhəmməd Həsən əl-Marağı "Masər vəl-asar" əsərində onun əzəmətli bir müctəhid, dinə rəvac verən, fiqh və hədis elmlərində böyük dərəcəyə sahib olan bir alim, Şeyx Məhəmməd Əli Təbrizi Xiyabani "Reyhanətül-ədəb" əsərində isə onun Azərbaycan alimlərindən olduğunu, fiqh, hədis, rical, ədəbiyyat elmləri sahəsində böyük elmi dərəcəyə çatdığını vurğulamışlar. [439]

Təbrizinin "əs-Siratül-müstəqim fi şərhi ərbəinə hədisən fi fəzaili əmirilmöminin", "əl-Futuhatür-rəzəviyyə fi əhkamil-fiqhiyyətil-istidaliyyə", "Kitabül-ərbəinəl-müştəmil ələl-mədaih vən-nəsaih", "Həvaş əla riyazi Seyid Əli ət-Təbatəbai", "əl-Lümətül-beyza fi şərhi xütbətiz-Zəhra (ə)",[440] "Həvaşi ələl-füsul fi ilmil-üsul", "Həvaşi əla rəsailiş-Şeyx əl-Ənsari", "Risalə fit-tinə və şərhu əxbariha", "əl-Üsulul-mühimmə fi üsulid-din", "ət-Töhfətül-Muhəmmədiyyə fi ilmil-ərəbiyyə", "Risalə fil-əmri beynəl-əmreyn", "ər-Risalətüt-təmriniyyə fil-məntiq", "Haşiyə əla şərhil-lümə", "Risalə fi mənasikil-həcc", "Risalə fi əsraril-həcc", "Təfsirül-Qaraçedaği",[441] "Haşiə ələl-qəvanin", "Təfsiru surəti-Yasin", "Zeynül-məabid", "Fəzailu-Qum" əsərlərinin adlarını çəkmək olar.

## 3.3. Əli bin Musa ət-Təbrizi

Əli bin Musa bin Məhəmməd əş-Şəfi əl-Xorasani ət-Təbrizi "siqətül-İslam" ləqəbi ilə tanınmış alimlərdəndir. Əli Təbrizi 1859-cu ildə Təbrizdə doğulmuş və 1911-ci ildə vəfat etmişdir.

O, daha çox hədis elmlərinin xüsusi bir şöbəsi olan rical elmləri sahəsində tanınmışdır. Onun yazdığı əsərlərdən "Miratul-kütub", "Risalətül-lalan", "İzahül-ənba fi təyini mövludi xatəmil-ənbiya və məqtəli Seyyidiş-şühəda", "Tərcümətul-Ütbi"ni qeyd etmək olar.[442]

## 3.4. Mirzə Yusif əl-Ərdəbili

Hacı Mirzə Yusif Müctəhid bin Mirzə Möhsün Müctəhid Ərdəbili müasir Azərbaycan hədisşünaslığının sayılıb seçilən alimlərindəndir. O, 1860-cı ildə Ərdəbildə doğulmuşdur. İbtidai təhsilini öz bölgəsində aldıqdan sonra təhsilini təkmilləşdirmək üçün təqribən iyirmi üç yaşında Nəcəfül-əşrəfə səfər etmişdir. Orada Fazil Şərbiyaninin hövzəsində mükəmməl təhsil alan Mirzə Yusif Kərbəlaya gələrək burada Şeyx Əli Bəfruyi Yəzdinin dərs həlqəsinə qoşulur. Həmçinin burada "dərse-xaric" deyilən ali səviyyəli dərsləri Molla Hüseyn Ərdəkani və Şeyx Zeynülabidin əl-Mazandaraninin yanında oxuyur. 1893-cü ildə Kərbəladan Ərdəbilə qayıdan Mirzə Yusif beş ildən sonra (1898-ci ildə) təzədən Kərbəlaya qayıdır və 1903-cü ilə kimi orada yaşayır. 1912-ci ildə öz vətəni Ərdəbilə qayıdan Mirzə Yusif 1918-ci ildə vəfat etmişdir.

Mirzə Yusif Ərdəbili özündən sonra böyük irs qoyub getmiş alimlərdəndir. Biz bunu onun aşağıdakı əsərlərindən də görməkdəyik:

"Təshihu vəsailiş-şiə", "Risalə dər əhvale Seyid bin Tavus", "Risalə dər isbatil-vacib", "Risalə dər məkarimul-əxlaq", "Təshihi dövre kamili cəvahiril-kəlam", "Təshihi məhcid-dəavat", "Təshihi kitabe vəqfe miftahil-kəramə".[443]

## 3.5. Mirzə Cavad Məliki ət-Təbrizi

Müasir hədis və fiqh ədəbiyyatı tarixinin ən tanınmış və məşhur nümayəndələrindən biri Şeyx Cavad Təbrizi olmuşdur. O, 1884-cü ildə Təbrizdə doğulmuşdur. İlk təhsilini Təbrizdə alan Şeyx Cavad 22 yaşında ali dərəcədə dərslərini davam etdirmək üçün Qum şəhərinə gedir. O, burada

---

[439] http://www.al-shia.org
[440] Ağa Bozork ət-Tehrani. əz-Zəriə ilə təsanifiş-şiə. XVIII c. s. 350.
[441] Həmin mənbə. IV c. s. 301.
[442] Həmin mənbə. XVII c. s. 268; XX c. s. 282; XXVI c. s. 74.
[443] Əbdürrəhman Əqiqi Bəxşaişi. Məfaxire-Azərbaycan, fəqihane və müfəssirane Azərbaycan. Təbriz, I çap, 1375 h/q. "Mirzə Yusif Ərdəbili" maddəsi.

Ayətullah Hüccətin və Ayətullah Burucerdinin dərslərində iştirak edir. Burada beş illik təhsil həyatından sonra Nəcəfül-əşrəfə gedən Şeyx Cavad orada dövrünün çox görkəmli fəqihlərindən şəriət elmlərini ali dərəcədə öyrənir. Daha sonra Qum şəhərinə gələn müctəhid Cavad Təbrizi burada ali dərəcədə və yeni bir üsulda dərs verir.

Mirzə Cavad Məlikinin tələbələrindən Xomeyni, Hüseyn Fatimi Qummi, Axund Molla Əli Həmədani, Şeyx Abbas Tehrani, Seyid Mahmud Müdərrisi, Seyid Mahmud Yəzdi, Mahmud Müctəhidi, Şeyx İsmayıl bin Hüseyn, Mirzə Abdullah Şalci və b. qeyd etmək olar.[444]

Alimin "Təbəqatür-rical", "İrşadüt-talib", "Üsəsul-qəza vəş-şəhadət", "Təkmilə minhacüs-salehin", "Təvzihül-məsail", "Məsailül-müntəxibə", "Mənasikül-həcc", "Haşiyə ürvətil-vüsqa", [445] "Əsrarüs-salat", "əl-Müraqibət", "Risaleyi-liqaullah", "Qayətül-qəsva əsərinə haşiyə" adlı əsərləri çox qiymətlidir. [446]

Mirzə Cavad Məliki Təbrizi 1968-ci ildə vəfat etmişdir.

### 3.6. Əbülhəsən bin Əbdülhüseyn əl-Mişkini

Mişkini adı ilə tanınmış Şeyx Mirzə Əbülhəsən bin Əbdülhüseyn əl-Mişkini əl-Ərdəbili ən-Nəcəfi 1888-ci ildə Ərdəbil yaxınlığındakı Mişkin kəndində dünyaya göz açmışdı.[447] Dindar bir ailədə tərbiyə almış Əbülhəsən kiçik yaşlarında ikən anasını itirmiş, sonra isə öz tövsiyəsinə əsasən hələ on beş yaşı olmamış Ərdəbilə, dini elmlər öyrənməyə yollanmışdı. O, Ərdəbildə müqəddimə dərsləri oxuduqdan sonra təhsilini davam etdirmək üçün Qum şəhərinə yollanmış, Ayətullah Burucerdi və Ayətullah Mühəqqiq Damadın ali fiqh dərslərində iştirak etmişdi. Ayətullah Mişkini həmçinin bir müddət Nəcəf şəhərində Şeyx Məhəmməd Kazim əl-Xorasani və İmam Xomeyni kimi ustadların dərslərindən də bəhrələnmişdir. Sonra oradan Kərbəlaya gedən Mişkini orada Mirzə Məhəmməd Təqi əş-Şirazinin mühazirələrini dinləmiş, onun vəfatından sonra isə təzədən Nəcəfə qayıtmışdır.[448]

Onun özü də elm sahəsində bir çox fəaliyyətlər göstərmişdir. Günümüzün tanınmış alimlərinin bir çoxü onun şagirdlərindən hesab olunur. Onun təfsir dərsi elmi hövzənin məşhur dərslərindən idi. O, bir çox tələbələr yetişdirmişdir ki, onlardan da Şeyx Məhəmməd Tahir bin Şeyx Abdullah bin Şeyx Razi, Seyid Şəhabəddin Mərəşi ən-Nəcəfi, Seyid Mürtəza bin Seyid Cavad əl-Xalxalidir. əl-Xalxali onun ən məşhur tələbələrindən olub və Mişkininin "Vəcizə fi ilmir-rical" adlı əsərinin üzünü köçürmüşdür. Onun çoxlu sayda əsərləri vardır. Onlardan "Kitabül-bey", "Kitab müstəmsikil-ürvətil-vüsqa" və başqalarını qeyd etmək olar. Ağa Bozork ət-Tehraninin yazdığına görə, Xalxali Mişkinin xüsusi tələbələrindən olmuşdur.[449] Ağa Bozork Tehrani onun haqqında yazırdı: "Fəzilətli alim, dərin fəqih, böyük müdərris və gözəl qərar sahibidir".[450]

Əllamə Möhsün əl-Əmini isə onun haqqında: "Fəzilətli alim, müdərris və əsərlər sahibidir", sözlərini yazmışdı.[451]

Əllamə Əmini isə onun haqqında "Möcəmi ricalil-fikr vəl-ədəb" əsərində yazırdı: "Alim, fəqih, fiqh və üsul elmləri sahəsində metodik alimdir".[452]

Mişkininin çoxlu sayda əsəri vardır. Onun əsərlərinin çoxu hədis, fiqh və üsul elmləri sahəsindədir. Onlardan aşağıdakıları qeyd etmək olar:

---

[444] **www.quranevi.az**
[445] Əbdürrəhman Əqiqi Bəxşaişi. Məfaxire-Azərbaycan, fəqihane və müfəssirane Azərbaycan. "Şeyx Cavad Təbrizi" maddəsi.
[446] https://az.wikipedia.org
[447] Ağa Bozork ət-Tehrani. Təbəqatü əlamüş-şiə. Təhqiq: Əli Nəqi Münzəvi. I c. Qum, Müəssisətu-İsmaili, s. 38.
[448] Həmin mənbə.
[449] Ağa Bozork ət-Tehrani. Təbəqatu əlamüş-şiə. I c. s. 38.
[450] Ağa Bozork ət-Tehrani, əz-Zəriə ila təsanifiş-şiə. VI c s.186; XVI c. s. 282; Təbəqatu əlamüş-şiə. I c. s. 38.
[451] Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. II c. s. 336.
[452] Əllamə Əmini. Möcəmu ricalil-fikri vəl-ədəb. s. 162, 414.

“Risalə fit-tərtib”, “Haşiyətu-ürvətil-vüsqa”, “Haşiyətül-kifayə”, “əl-Həvaşi əla rəsailil-əməliyyə”, “əl-Həvaşi əlat-təharə liş-Şeyx əl-Ənsari”, “əl-Həvaşi əlal-məkasibi liş-Şeyx əl-Ənsari”, “Risalə fir-rza”, “əl-Fiqh əl-istidlali”, “əl-Fəvaidür-ricaliyyə”, “Risalə fil-kürr”, “Risalə fi mənal-hərfi”, “əl-Mənasik”, “əl-Vəcizə fi ilmir-rical”, “Müstəlihatül-fiqh”.

Mişkini Ərdəbili müasir dövr hədis ədəbiyyatı tarixinin əvəzolunmaz simalarından biridir. Onun bu sahədəki xidməti özünü daha çox rical elmi sahəsində göstərmişdir. Belə ki, müəllifin yazdığı “əl-Fəvaidür-ricaliyyə” əsəri rical elmi sahəsində yığcam, lakin əhəmiyyətli olması ilə xüsusi diqqət çəkmiş və müasir ilahiyyatşünasların mövzu ilə bağlı baş vurduqları əsas qaynaqlardan biri olmuşdur. Əllamə Ağa Bozork ət-Tehrani əsəri yüksək qiymətləndirmiş və onun haqqında demişdir: “əl-Fəvaidür-ricaliyyə” əsəri əshabi-icma, Məhəmməd bin İsmayıl, Əbu Bəsir, Ömər bin Yezidin tərcümeyi-halları, mədh və tədil, təhəmmülül-hədis kimi ən mühüm mövzuları əhatə etməkdədir”.[453]

Qeyd etdiyimiz kimi, müəllifin bu əsərinin üzü ən yaxın tələbəsi Xalxali tərəfindən köçürülmüşdür. Əsərin İran və Nəcəfül-əşrəf kitabxanalarında bir neçə əlyazma nüsxəsi vardır. Lakin onun 1411/1991-ci ildəki ilk çapı Beyrutda “Müəsisiətül-ələmi” nəşriyyatında tanınmış müctəhid Seyid Məhəmmədhüseyn əl-Hüseyninin elmi hövzəsindəki nüsxə əsasında çap olunmuşdur. Adı çəkilən əlyazmada hər səhifədəki sətirlərin sayı iyirmidir. Kitabın üzünü köçürən şəxs tərəfindən ona bəzi rəmzi işarələr də qoyulmuşdur. Həmin işarələr qısalıq üçün istifadə edilmişdir.

Müəllif bu əsərini çox gözəl şəkildə tərtib etmişdir. O, əvvəlcə kitaba qısa bir giriş yazmış, sonra rical elminin ehtiva etdiyi mövzu, onun tərifi və əhəmiyyəti haqqında qısa, lakin dolğun məlumatlar vermişdir. Mişkini rical elmini “hədis ravilərinin əhvalını öyrənən bir elm” kimi təqdim etmiş və hətta bu elmə aid bəzi tərifləri tənqid etməkdən belə çəkinməmişdir.[454] O, adı çəkilən elmin çox faydalı olduğunu, onun vasitəsilə hədis rəvayət edənlərin hansının ədalətli, hansının isə fasiq olduğunu müəyyənləşdirmək baxımından çox mühüm əhəmiyyət daşıdığını önə çəkmişdir.

Mişkini daha sonra hədisin dəlil və səhih olmasının yollarını araşdırmış, “xəbəri-vahid”in dəlil olmasının mümkünlüyünü izah etməyə çalışmışdır. O, hədis ədəbiyyatının özül mənbələri sayılan “Kütubu-ərbəə”nin hansı rəvayətlərinin məqbul, hansılarının isə qeyri-məqbul olduğunun yollarını bəyan etmiş, bununla yanaşı, “Vəsailüş-şiə” kitabının da rəvayətlərinin kor-koranə şəklidə deyil, araşdırıldıqdan sonra onlara əməl edilməsinin mümkünlüyünü ortaya qoymuşdur.

Müəllifin əsərdə xüsusi şəklidə toxunduğu mühüm məsələlərdən biri də ravilərin xəbərlərinin necəliyi mövzusudur. Belə ki, o, hansı ravidən nəql etmək və hansı ravinin verdiyi xəbərlərə etimad etmək mövzusunda çox maraqlı fikirlər irəli sürmüşdür. O, mövzu ilə əlaqəli fikirlərini əsaslandırmaq üçün qədim alimlərin, o cümlədən Şeyx Tusinin (öl. 1068), Nəcaşinin, əl-Kəşşinin, əl-Qəzairinin (öl. 1021) və bir çox alimlərin əsərlərinə müraciət etmişdir. Bu hal həm də müəllifin rical ədəbiyyatına necə bələd olmasını və onlardan istifadə metodunu necə də mükəmməl bildiyini göstərir.

Növbəti fəsildə müəllif hədis elmində ən mühüm mövzulardan olan “əshabi-icma” haqqında məlumatlar vermiş, əshabi-icmanın tərifini, buraya daxil olan şəxslərin kimliyini açıqlamış və bu haqda özündən əvvəlki alimlərin verdikləri təriflərə də istinad etmişdir.

Müəllif İbn Əbu Ümeyrin “mürsəl” rəvayətlərini və onların nə dərəcədə səhih olub olmamasına da münasibət bildirmiş və bu haqda məlumat verərkən Şeyx Tusinin “əl-Üddə” əsərinə istinad etmişdir. Daha sonra isə “mürsəl” hədisin tərifini vermiş və dirayə alimlərinin bu haqdakı görüşlərini bir araya toplamışdır. Bundan sonra isə Bəni Füzzalın rəvayətlərinə münasibət bildirən Mişkini Şeyx Tusiyə istinadən onun rəvayətlərinin dəlil olmasının mümkünlüyündən danışmışdır. Burada o, Şeyx Tusinin “əl-Qeybə” əsərinə istinad etmişdir.

Müəllifin “Vəcizə fi ilmir-rical” əsərində toxunduğu ən mühüm movzulardan biri də hədis elmində işlənən “səhih” kəlməsidir. O, bu məsələni əsərdə bir problem kimi qoymuş və onun haqqında danışarkən qədim və müasir alimlərin fikirlərini əsas götürmüşdür. Qədim alimlərdən olan İbn Tavusun

[453] Ağa Bozork ət-Tehrani. əz-Zəriə ila təsanifiş-şiə. XVI c s. 337.
[454] əl-Mişkini əl-Ərdəbili. Vəcizə fi ilmir-rical. Beyrut, 1410/1990. s. 17-18.

"səhih" sözünə verdiyi tərifi o, eynilə əsərdə qeyd edərək yazırdı: "Rəvayətin səhih olması onu nəql edənlərin imami əqidəsinə mənsub və ədalətli olmalarıdır".[455]

Hədis elminin ən mühüm problemlərindən olan "isnad" sözü müəllifin əsərində bütün təfərrüatı ilə işıqlandırılıb. Ravinin doğrucul və ya yalançı olmasının necə sübut olunması, ravilərin daşıdıqları əlamətlərə görə adlandırılması və s. movzular əsərdə öz əksini tapmışdır. Bundan əlavə, əsərdə ravini mədh və ya cərh edən kəlmələrin mənaları, onların sayı və işlənmə yerləri də qeyd olunmuşdur.

Rical elmində ən çox işlənən və mühüm əhəmiyyətə malik olan "cərh" və "tədil" kəlmələri də müəllif tərəfindən hərtərəfli şəkildə araşdırılmışdır.

Bütün bunlardan əlavə, hədisşünaslığın ən mühüm problemlərindən olan "hədislərin qismləri" və "hədisin təhəmmül yolları" movzusu müəllif tərəfindən diqqətə çarpacaq dərəcədə aydınlaşdırılmışdır. Müəllif hədislərin "səhih", "həsən", "müvəssəq" və "zəif" növlərindən bəhs etmiş, hər bir növün tərifini vermiş və onların dində nə dərəcədə əhəmiyyət daşıdığını izah etməyə çalışmışdır. Hədisin öyrənib öyrətmək yollarının yeddi olduğunu yazan müəllif bütün kəlmələri ardıcıllığı ilə aydınlaşdıraraq yazırdı: "Hədis toplama və rəvayət etmə metodları yeddidir".[456]

Bundan başqa, müəllifin "Müstəlahatül-fiqh" əsəri də İslam hüquqşünaslığı baxımından qiymətlidir. O, əsəri ərəb dilində yazmış, onun mövzularını ərəb əlifbasının ardıcıllığı ilə sıralamışdır. Kitabın əsas əhəmiyyəti ondadır ki, müəllif kitabı fiqhi mövzulara həsr edərək Cəfəri məzhəbi yönündən fiqhi terminləri əlifba sırası ilə düzmüş, onların lüğətdə və istilahda hansı mənalara gəldiyini qeyd etmişdir. O, adı çəkilən əsərdə "əlif" hərfi bölümündə "amin, aniyə, ayə, əl-əbra, əl-İbl, ibn əs-Səbil fiz-zəkat, ibn əs-səbil fil-xüms, əl-İcarə, əl-İcazə, əl-əcmə, əl-ihtizar, əl-ihtikar, əl-ihtilam, əl-ehram, əl-ehsar və əs-səd, əl-ehsan, əl-ehya, əl-ixtiyar, əl-əxfat, ədnəl-həll, əl-azan, əl-əşar, əl-əşhad, əl-iztirar, əl-ətimə, əl-ianə ələl-ism, əl-etidad, əl-etikaf, əl-ifazə, əl-ifza, əl-iftar, əl-ifrad minəl-həcc, əl-iqamə, əl-iqtida, əl-iqrar, əl-ikrah, əl-ilzam, əl-əmanət, əl-imamət, əl-imam, əl-marə, əl-əmr bil-məruf vən-nəhyi ənil-münkər, əl-intihar, əl-ünsa, əl-ənam, əl-ənfal, əl-inkar və digər bütün mövzuları bir arya toplamışdır. Bundan sonra "bə" hərfi ilə başlayan bölümdə "bir", "batil", "baği", "bəxl" və digər terminləri qeyd etmişdir. Beləliklə, müəllif bu ardıcıllıqla gözəl tərtib olunmuş bir fiqh ensiklopediyası ortaya qoymuşdur.

Mişkini ömrünün son günlərində xəstələnmiş və müalicə üçün Bağdad şəhərinə getmişdir. Bu pak insan 1929-cu ildə Kazimeyndə vəfat etmiş və cənazəsi Nəcəfə aparılaraq İmam Əlinin məqbərəsi yanında dəfn edilmişdir.[457] Ancaq Əllamə Seyid Möhsün əl-Əmin onun eyni tarixdə Nəcəfdə vəfat etdiyini yazırdı.[458]

## 3.7. Seyid Əbülqasim əl-Xoyi

Seyid Əbülqasim Xoyi XX əsr İslam ilahiyyatının, xüsusilə də fiqh və hədis elmlərinin dahi nümayəndələrindəndir. Müasir alimlər onu "ustazul-müctehidin", "əkbər füqəhail-müslimin" epitetlərilə yad edirlər. "Fiqhiyane və müfəssirane Azərbaycan" əsərində Xoyi "İslam dünyasının və Azərbaycanın böyük iftixarı" adı ilə xatırlanır.[459] Əbülqasim 1899-cu ilin payızında Xoyda doğulmuşdur. O, ilk təhsilini öz doğma dili olan Azərbaycan dilində və yaşadığı mühitə uyğun olaraq fars dilində almışdır. Bununla yanaşı o, Qurani-Kərimin oxunuşunu da Xoyda öyrənmişdir. 1912-ci ildə elm öyrənmək üçün Nəcəfül-əşrəfə səyahət edən Əbülqasim orada ilk təhsilini Nəcəfin ən görkəmli alimlərindən olan atası Ayətullah Əli Əkbər əl-Musəvi əl-Xoyinin yanında alır. Daha sonra

---

[455] Həmin mənbə. s. 41.
[456] əl-Mişkini əl-Ərdəbili. Vəcizə fi ilmir-rical. s. 91-94.
[457] Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. II c. s. 336; Ağa Bozork ət-Tehrani. əz-Zəriə ila təsanifiş-şiə. VI c. s.186; XVI c. s. 282.
[458] Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. II c. s. 336.
[459] Əbdürrəhman Əqiqi Bəxşaişi. Məfaxire-Azərbaycan, fəqihane və müfəssirane Azərbaycan. Təbriz, I çap, 1375 h/q. "Əbülqasım Xoyi maddəsi".

isə Nəcəfin digər görkəmli alimlərindən İslam ilahiyyatının müxtəlif sahələrini öyrənən Xoyi, eyni zamanda digər elmlərə də rəğbət göstərir. Fəlsəfə, tarix, həndəsə, riyaziyyat və s. elmləri də yaxşı mənimsəyən Xoyi bu elmlər sahəsində də mütəxəssis sayılacaq qədər güclü olmuşdur. O, öz tələbə yoldaşları içində qeyri-adi hafizəsi və mütaliə gücü ilə fərqlənirdi. Hələ on altı yaşı olmamış Nəcəf alimlərindən "dərsi-xaric" oxuyan Xoyi öz istedadı ilə onları heyrətləndirmişdir. O, dərs ala-ala həm də öyrəndiyi dərsləri tədris etmişdir. Buna görə də o, Nəcəfdə həm tələbəlik, həm də müəllimlik edirdi. O, özü bu haqda yazırdı: "Mən "əl-Lümə" əsərinin birinci və ikinci cildlərini oxuyub bitirən kimi, dərhal birinci cildin tədrisinə başladım".

Xoyi hədisdə icazə hüququnu ustadı ən-Nainidən almış və Əllamə Nurinin "Müstədrəkül-vəsail", Küleyninin "əl-Kafi", Şeyx Səduqun "əl-Fəqih", Şeyx Tusinin "əl-İstibsar" və "ət-Təhzib", Hürr Amilinin "Vəsailüş-şiə", Əllamə Məclisinin "Biharül-ənvar", Feyz Kaşaninin "əl-Vafi" kimi hədis əsərlərini rəvayət etmək səlahiyyəti əldə etmişdir.

Əbülqasim Xoyi otuz yaşında ikən Nəcəf alimlərindən "ictihad" təsdiqnaməsini almışdır. Tez bir zamanda dünyanın müxtəlif yerlərindən onun yanına axışan tələbələr öz elmlərini bu böyük ustaddan alırlar. O, dünyanın müxtəlif yerlərindən gələn tələbələrinin köməkliyi ilə müxtəlif ölkələrdə öz elmi-dini fondunu yaratmışdır.

Onun müəllimləri içində aşağıdakıları saymaq olar:

Şeyx Məhəmmdhüseyn əl-Ğərəvi əl-İsfahani (Kompani adı ilə məşhur olub), Şeyx Fəthullah əl-İsfahani (Şeyxüş-şəriət adı ilə məşhur olub), Şeyx Məhəmmədhüseyn əl-Ğərəvi ən-Naini, Şeyx Ziyaəddin əl-İraqi, Seyid Əli Əkbər (atası), Şeyx Məhəmməd Cavad əl-Bəlaği, Şeyx Mehdi əl-Mazandarani, Seyid Hüseyn əl-Badkubey.

Əbülqasim Xoyi çoxlu sayda tələbə yetişdirmişdir. Onların ən məşhurları aşağıdakılardır:

Seyid Məhəmməd Baqir əs-Sədr, Seyid Əli Hüseyni əs-Sistani, Ayətullah Seyid Məhəmmədhüseyn Fəzlullah, Ayətullahül-üzma Vəhid Xorasani, Şeyx Məhəmməd Təqi əl-Behcət əl-Fuməni, Məhəmməd Səid Təbatəbai əl-Həkim, Şeyx Mürtəza əl-Burucerdi, Seyid Əbdüssahib əl-Həkim, Şeyx Əbülfəzl ən-Nəcəfi əl-Xansari, Şeyx Məhəmməd İshaq əl-Fəyyaz, Şeyx Əli əl-Ğərəvi, Seyid Əbülqasim əl-Kukəbi, Şeyx Cavad ət-Təbrizi, Seyid Əhməd əl-Müstənbit, Seyid Məhəmməd ər-Ruhani, Şeyx Əli əl-Fəlsəfi, Seyid Əli əl-Behişti, Seyid Təqi əl-Qummi, Seyid Məhəmməd Asif əl-Muhsini, Şeyx Muhyiddin əl-Maməqani, Seyid İbrahim əl-Əmin və b.

Xoyi İslam ilahiyyatının müxtəlif sahələrinə aid fundamental əsərlərin müəllifidir. Onlardan "Möcəmu-ricalil-hədis və təbəqatür-rüvvat", "əl-Bəyan fi təfsiril-Quran", "Fiqhül-Quran əla məzahibil-xəmsə", "Məbani təkmilə minhacüs-salehin", "Təliqə əla təvzihil-məsail", "Risalə fi libasil-məşkuk", "Təliqə əla məsailil-fiqhiyyə", "Təliqə əla ürvətil-vüsqa", "Müntəxəb təvzihül-məsail", "Təkmilə minhacis-salehin", "Təarüzül-istihsabeyn", "Risalətani fil-bəda", "Risalə fil-xilafət", "Təlxisül-müntəxəb", "əl-Məsailül-müntəxəbə", "Əcvədüt-təqrirat", "Müntəxəbür-rəsail", "Nəfəhatül-ecaz", "Mənasikül-həcc" və s.

Seyid Əli əl-Xamenei onun haqqında yazır:

"O, alim, fəqih, şanlı-şöhrətli və bu əsrin böyük mərcei-təqlidlərindən biri idi".

Şeyx Əli əl-Həmədani onun haqqında deyir:

"Şeyx Nainin fəvatından sonra heç kim Seyid Xoyi kimi tədris fənlərini təmkinli öyrədən görməyib. O, dərsi ərəb ədəbi dilində mükəmməl olaraq tədris edirdi".

Müəllif kiçik yaşlarında ikən Qurani-Kərimə rəğbət göstərdiyini, Qurani-Kərimin insan mənəviyyatına müsbət təsirlərini, onun hər şeyi açıqladığını və bütün elmləri özündə ehtiva etdiyinə işarə edərək yazırdı: "Hələ kiçik yaşlarımdan Quran oxumağa və onun sirləri ilə tanış olmağa yüksək maraq göstərirdim. Hər bir həqiqi müsəlman, hətta hər bir həqiqətsevər insan Quranı oxuyub dərk etməyə və onun dərin sirlərindən agah olmağa səy etməlidir. Çünki, Quran bəşəriyyəti haqqa hidayət edən və onların xoşbəxt həyatını təmin edən asimani kitabların ən sonuncusu və kamilidir. Quran hər şeyi açıq-aşkar bəyan edən, hamı üçün xeyirli olan İlahi nur mənbəyidir. Quran lüğət alimləri üçün ən

böyük söz mənbəyi, qrammatika alimləri üçün aşkar izahlar toplusu, fiqh alimləri üçün ən canlı şahid, filosofların axtardığı maarif, xətiblər üçün fəsahətli bəyan tərzləri, əxlaq alimləri üçün isə ən gözəl etik mənbə və dərslikdir.

Bir sözlə, Quran alimlərin bütün sahələrdə apardıqları təhqiqatların tükənməz elm və bilik xəzinəsidir.

İctimai və siyasi elmlər, həyat və məişət qanunları, bəşəriyyətin ictimai idarəetmə üsulları və s. Quranda hamının başa düşə biləcəyi bir tərzdə bəyan edilmişdir. Bir çox dini elmlər məhz bu asimani kitabdan bəhrələnmiş və zaman keçdikdcə vahid məktəb kimi formalaşmağa başlamışdır. Quran, dünyaya hakim olan bir çox qanunları kəşf etmiş və insanlar üçün sirr olaraq qalan bir çox məsələlərin üzərindən zülmət pərdəsini qaldırmışdır.

Bu müqəddəs kitab, mövcud olan həqiqi din üçün əbədi möcüzə və mükəmməl qanunlar məcmusudur. Bütün bunlar, mənim uşaq ikən Qurana həvəs göstərməyimdə və onun sirləri ilə tanış olmağımda çox təsirli olmuşdur. Mən, müntəzəm olaraq Quranın açılmayan sirlərinə yol tapmağa səy edir və buna nail olduqda özümdə Qurana qarşı oyanan yüksək rəğbətin daha da artdığını hiss edirdim".[460]

Bundan başqa, Xoyinin əsərin müqəddiməsində Qurani-Kərim üzərinə yazılmış bir çox təfsirlərin nöqsanlı olduğunu vurğulaması, onun bu sahədə də mükəmməl və ensiklopedik biliyə malik olmasından xəbər verir. Onun bu sahədə ən çox tənqid etdiyi məqam bəzi təfsirçilərin təfsir yazarkən daha çox öz şəxsi görüşlərini əsas götürmələridir. Buna işarə edən müəllif yazırdı:

"Qeyd etmək lazımdır ki, mövcud təfsirlərin əksəriyyətində müəyyən nöqsan və çatışmamazlıqlar vardır. Buna görə də hər bir alim təfsirə başlamazdan qabaq, öz şəxsi rəy və nəzərlərini kənara qoymalı, Quranın həqiqi mənasına yol tapıb, ixtisar və yersiz əlavələrə yol vermədən təfsir etməlidir. Başqa sözlə desək, Quran müfəssirin şəxsi rəyi ilə deyil, Quranın öz zahiri ayələri ilə təfsir olunmalıdır.

Sözün əsl mənasında həqiqi müfəssir o kəsdir ki, fəlsəfə bəhslərindən agah, əxlaqi dəyərlərə yiyələnmiş və fiqhin dərinliklərinə yol tapmış olsun. O, yaşadığı cəmiyyəti yaxşıca tanımalı və orada baş verən prosesləri bir sosioloq kimi araşdırmağa qadir olduqdan sonra Quranı təfsir etməlidir. Quranda işarə olunan digər elmlərə gəldikdə də, bu üsuldan istifadə etməli və Quranı həmin elmin tələbatını ödəyəcəyi qaydada təfsir etməlidir. Bəli, hər bir müfəssir ilk növbədə Quranın bütün elm və fəsillərindən agah olmalı, bu barədə lazım olan məlumatları əldə etdikdən sonra Quranı təfsir etməyə başlamalıdır. Belə olduqda o, neçə cilddən ibarət olan Quran təfsirinin elmi, əxlaqi, sosioloji, fiqhi və s. ensiklopediyasını yaza bilər.

Bütün bunları nəzərə alaraq, belə qərara gəldim ki, Quranın bütün gözəlliklərini bəyan edə biləcək bir təfsir yazım. Bu müqəddəs işdə Allah taaladan mərhəmət və kömək etməsini, bütün səhv və batil təfəkkürdən qorumasını diləyirəm".[461]

Müəllif adı çəkilən əsərini çox yüksək səviyyədə tərtib etmiş və onu on bir fəslə bölərək Quran elmlərinin ensiklopedik təhlilini vermişdir. O, əsəri yazarkən ön sözdə öz məqsədini izah etmiş, burada Qurani-Kərimi qrammatik qanunlar və digər elmi mövzular çərçivəsində deyil, onun müxtəlif mənalarına toxunaraq şərh edəcəyini və əsasən hansı problemlərə toxunacağını qeyd edərək belə yazır: "Bu təfsirdə qrammatik qanunlara və ədəbi mövzulara işarə etməyəcək, əvəzində isə Quranın müxtəlif mənalarına toxunan mövzular haqqında söhbət açacağıq. Çünki, Şeyx Tusi "Tibyan"da, Təbərsi "Məcməül-bəyan"da, Zəməxşəri "Kəşşaf"da qrammatik və ədəbi mövzular ətrafında geniş məlumatlar vermiş və nəzərə çarpan bütün çətinlikləri qismən də olsa, aradan qaldırmışlar və biz yalnız onların toxunmadıqları mövzulara işarə edəcək və müxtəsər şəkildə təfsir edəcəyik. Burada siz əziz oxucuların diqqətini bir neçə məsələyə cəlb etmək istəyirəm:

a) İstinad etdiyimiz mövzular bunlardan ibarətdir:

- Quranın zahiri ayələri;

---

[460] Seyyid Əbülqasım Xoyi. əl-Bəyan. I c. s. 1.

[461] Həmin mənbə. s. 5.

- Quranın hamıya bəlli olan açıq-aşkar ayələri;
- Sənəd baxımından mötəbər olan mütəvatir hədis və rəvayətlər;
- Əhli-beyt tərəfindən nəql olunmuş hədislər;
- Sağlam fitri əql. Çünki əql xarici və batini dəlil hesab olunur.

Belə ki, Peyğəmbər və onun pak Əhli-beyti bizim üçün zahiri (xarici) dəlil hesab olunur.

b) Adətən təfsir etmək istədiyimiz ayəni digər ayələrin məfhumu ilə izah etməyə çalışacağıq. Bir sözlə, Quranı dərk etmək üçün ilk növbədə onun özündən istifadə etmişik və eyni zamanda təfsir etdiyimiz ayələrə dəlalət edən hədis və rəvayətlərdən də sübut və dəlil kimi istifadə etmişik".[462]

Müəllif əsərin birinci cildinin birinci fəslinə "Quranın əzəməti haqqında" ad vermiş, burada Quran – Quran və hədis baxımından, Quran ayələrinin fəzilətləri və oxunma qaydaları, Quran tilavətinin fəziləti haqqında uydurulmuş hədislər və Quran ayələrinin mənalarında diqqət və təfəkkür adlı paraqraflar içində mövzu ilə əlaqəli problemlərə aydınlıq gətirmişdir.

İkinci fəsilə "Quranın möcüzəsi" adını verən müəllif, burada aşağıdakı başlıqlar altında problemləri işıqlandırmışdır:

Möcüzəni tanımaq;
- Möcüzə, peyğəmbərliyi təsdiq edən amillərdən biridir;
- Möcüzələr arasında olan oxşarlıq;
- Quran ilahi möcüzədir;
- Quran əbədi möcüzədir;
- Quranın əql və fəlsəfə baxımından möcüzəliyi;
- Quranın Tövrat və İncil ilə müqayisəsi;
- Quranın həmahəngliyinin möcüzəsi;
- Quranın qanunvericilik möcüzəsi;
- Quranın dəyişilməzliyi və daimi sabitliyi;
- Quranın qeyb barəsində verdiyi xəbərlər;
- Quranın yaradıcılıq (xilqət) sirləri.[463]

Üçüncü fəsli "Quranın ecazı haqqında irəli sürülən mülahizələr və onun cavabı" adlandıran müəllif burada Qurani-Kərimdə heç bir ədəbi səhvin olmadığını, Quranla mübarizə etməyin mümkünsüz olduğunu, Quranın əvvəlki səmavi kitablarla ziddiyyət təşkil etmədiyini, onun üsulu ilə yazıçı və şairlərin üsulu arasındakı fərqli nöqtələri mükəmməl şəkildə izah etmişdir. Üçüncü fəsil bütövlükdə aşağıdakı movzuları əhatə etməkdədir:

- Quranda ədəbi səhvlər;
- Quranın ecazı hamı tərəfindən dərk olunurmu?;
- Quranla mübarizə mümkündürmü?;
- Quran əvvəlki səmavi kitablarla müxalifdirmi?;
- Qurandakı ziddiyyətsizlik;
- Quranın ecazı rədd olunasıdırmı?;
- (Quranla) mübarizə aparmaqdan çəkinməyin dəlilləri;
- Quranın tərtib olunması ilə onun ecazı arasında olan mütənasiblik;
- Quranın bəyan üsulu ilə şair və yazıçıların üsulları arasındakı fərqlər;
- Quranla mübarizə.[464]

Dördücü fəsli "Həzrət Məhəmməd və keçmiş peyğəmbərlərin möcüzəsi" adlandıran müəllif, burada möcüzənin mahiyyəti, onu inkar və ya təsdiq edən ayələrin izahı, Peyğəmbərimizin qədim səmavi kitablardakı peyğəmbərliyi haqqında keçən məlumatlar və bu mövzulardakı mühüm mətləbləri əhatəli şəkildə izah etmişdir. Bu fəsil aşağıdakı başlıqları əhatə edir:

---

[462] Həmin mənbə.
[463] Həmin mənbə. s. 9-25.
[464] Həmin mənbə. s. 25-75.

- Möcüzəni inkar edən ilk ayənin araşdırılması;
- Möcüzəni inkar edən ikinci ayənin araşdırılması;
- Möcüzəni inkar edən üçüncü ayənin araşdırılması;
- Həzrət Məhəmmədin Tövrat və İncildə peyğəmbərliyi haqda;
- Mətləblərin xülasəsi.[465]

Beşinci fəsli "Yeddi Quran qarisi" adlandıran alim, burada qiraət elmində məşhur olan yeddi nəfərin avtobioqrafiyalarına nəzər salmış, onlar haqqında rical alimlərinin fikirlərini qeyd etmiş, bunlardan başqa digər üç qare haqqında məlumatlar vermişdir. Bu fəsil aşağıdakı qarelərin həyat və fəaliyyətlərini əhatə edir:

- Abdullah bini Amir Dəməşqi;
- İbni Kəsir Məkki;
- Asim bini Bəhdiləi Kufi;
- Əbu Əmr Bəsri;
- Həmzə Kufi;
- Nafe Mədəni;
- Kisai Kufi.
- Xələf bin Haşimi;
- Yəqub bin İshaq;
- Yəzid bin Qəqa.[466]

Altıncı fəsli "Yeddi qiraət" adlandıran müəllif, burada təfsir elminin mühüm problemlərindən olan "yeddi qiraət" məsələsini və bu haqda nəql olunmuş rəvayətləri dəyərləndirmişdir. Bu fəsli aşağıdakı mövzuları əhatə etməkdədir:

- Yeddi qiraət üsulunda nəzərə çarpan mütəvatirsizlik;
- Yeddi qiraət üsulunun mütəvatirliyi haqda irəli sürülmüş nəzəriyyənin araşdırılması;
- Yeddi qiraət üsulu;
- Yeddi qiraət üsulunun düzgünlüyü və mötəbərliyi.[467]

Müəllif adı çəkilən əsərinin yeddinci fəslini "Yeddi hərf" və "yeddi oxunuş" məsələsinə həsr etmiş, burada mövzu ilə əlaqəli rəvayətləri araşdırmış və doğru-düzgün nəticəyə varmışdır. Bu fəsildə aşağıdakı problemlər öz əksini tapıb:

- "Yeddi hərf" və "yeddi oxunuş" haqda nazil olmuş rəvayətlərin araşdırılması;
- "Yeddi hərf" və "yeddi oxunuş" üslubunun məna və məfhumu.[468]

Səkkizinci fəsli "Qurani-Kərimin təhrif olunub olunmaması haqqında irəli sürülmüş nəzər və mülahizələr"ə həsr edən müəllif, burada bəzi üzdəniraq insanlar tərəfindən qədimdən bəri təfsir elmində bir problemə çevrilmiş təhrif məsələsini fundamental şəkildə araşdırmışdır. Xoyi bu mövzuda nəql olunmuş bütün rəvayətlərin uydurma və batil olduğunu qeyd etmiş, Quranın İlahi mühafizə altında olduğunu dəlil gətirərək orada heç bir təhrif və təbdilin olmadığını, Quranın Peyğəmbərimizə necə gəlibsə, eləcə də dövrümüzə yetişdiyini əsaslı dəlillərlə isbatlamışdır. Bununla yanaşı, Qurani-Kərimin təfsir və izahında bəzi məzhəblərin təhriflər etiyini söyləmişdir. Buna işarə edən müəllif yazırdı: "Əgər hər hansı bir ayə və ya surəni Qurana əlavə etsək, yaxud oradan çıxarsaq, məna baxımından heç bir dəyişiklik baş verməsə, həmçinin insanda həqiqi səmavi kitab olduğuna dair şəkk-şübhə yaratmasa belə, təhrifə yol vermiş olarıq. Biz bu kimi təhriflərin də Qurana yol tapdığının şahidi oluruq. Məsələn, "Bismillahir-rəhmanir-rəhim" ayəsi peyğəmbər və müsəlmanların əksəriyyəti tərəfindən Tövbə surəsi istisna olmaqla, bütün surələrin əvvəlində oxunmasına baxmayaraq, bu ayənin, Quranın bütün surələrinin bir hissəsini təşkil edib-etməməsinə dair ixtilaf meydana gəlmişdir.

---

465 Həmin mənbə. s. 101-119.
466 Həmin mənbə. s. 121-140.
467 Həmin mənbə. s. 142-160.
468 Həmin mənbə. 162-182.

Belə ki, əhli-sünnə alimlərinin bir qismi "Bismillah" ayəsini Quran ayələrinin bir hissəsi hesab etmir. Hətta Maliki məzhəbinin davamçıları bir neçə yer istisna olmaqla, bu ayənin gündəlik vacib namazlarda "Həmd" surəsindən qabaq oxunmasını məkruh hesab edirlər. Başqaları isə bu ayəni həmin surənin tərkib hissəsi hesab edirlər. Diqqət yetirmək lazımdır ki, bu ixtilaf yalnız əhli-sünnə alimləri tərəfindən meydana gəlmişdir. Şiə alimləri isə hamılıqla, "Bismillah" ayəsini Tövbə surəsi istisna olmaqla, Quranın bütün surələrinin tərkib hissəsi hesab edirlər".[469]

Müəllif bəzi alimlərin təhrif haqqındakı ümumi görüşlərini aşağıdakı kimi incələyir:

**Əlavələr nəticəsində meydana gəlmiş təhriflər:**

Əgər Qurana hər hansı kəlməni əlavə edəriksə, bu əlavə Quranın məna və mahiyyətinə xələl gətirərsə və nəhayət, onun əlavə olunduğu açıq-aşkar bəlli olarsa, təhrifə yol vermiş olarıq. Bu kimi təhriflər Qurana yol tapmamışdır və bu, hər bir müsəlmanın zəruri hesab etdiyi məsələlərdən biri kimi qəbul olunur.

**Əskiltmələr nəticəsində meydana gəlmiş təhriflər:**

Təhrifə səbəb olan məsələlərdən biri də, Quranın ayə və ya kəlmələrini ixtisara salmaq və ya əskiltməkdir. Belə ki, bəziləri belə bir iddia irəli sürmüşlər ki, Quran ayələri zaman keçdikcə müxtəlif amillər üzündən bəzən ixtisara düşmüş və nəticədə Quran öz orjinallığını itirmişdir.[470]

Quranın təhrif olunub-olunmaması haqqında müəllifin son sözü budur: "Biz isə bu əsassız iddianı qətiyyətlə rədd edir və Quranın Peyğəmbərə nazil olduğu surətdə qorunub saxlanıldığına etiqad bəsləyirik".[471]

Doqquzuncu fəsli "Quranın yığılıb kitab halına salınması" adlandıran müəllif, burada Qurani-Kərimin toplanması, kitab halına salınması və mövzu ilə əlaqəli rəvayətləri sual-cavab halında incələmişdir. Bu fəsil aşağıdakı başlıqları əhatə edir:

- Quranın yığılmasına dair nəql olunmuş rəvayətlər;
- Quranın yığılmasına dair nəql olunmuş rəvayətlərə verilən cavablar:

Birinci cavab: Rəvayətlərdə nəzərə çarpan nöqsan və çatışmamazlıqlar.

İkinci cavab: Rəvayətlərdəki ziddiyyətlərin araşdırılması.

Üçüncü cavab: Quranın rəvayətələrə olan baxışı;

Dördüncü cavab: Quranın yığılmasına dair nəql olunmuş hədislərə əqli baxış;

Beşinci cavab: Quranın yığılmasına dair nəql olunmuş hədislər və müsəlman icması;

Altıncı cavab: Müsəlman icmasının Qurana əlavələr olunmasına olan mənfi baxışları;

- Quranın yığılmasına dair irəli sürülmüş düzgün nəzəriyyə;
- Nəticə.[472]

Onuncu fəsildə isə müəllif Quran ayələrinin dəlil olmasından bəhs etmiş və bu fəslə "Ayələrin zahiri mənalarının höccət və dəlil olması" adını vermişdir. Burada müəllif Quran ayələrinin mütləq mənada dəlil olduğunu, onun ümumbəşəri kitab olduğunu, peyğəmbərlərin peyğəmbərliyini sübut etdiyini, Əhli-beyt imamlarının Quranın zahiri mənalarına istinad etdiklərini, onun başa düşülməsinin hər kəsə deyil, yalnız müəyyən təbəqəyə aid olduğunu, onun təfsirinə hər kəsin girişə biməyəcəyini və bir sözlə Quranın bəzi ayələrinin mütəşabeh olduğunu qeyd etmişdir. Bütövlükdə müəliff burada aşağıdakı başlıqlar altında tədqiqat aparmış və öz fikirlərini mükəmməl şəkildə ortaya qoya bilmişdir:

Ayələrin zahiri mənalarının höccət olmasını isbat edən dəlillər:

- Quran ümumbəşər kitabdır;
- Quran peyğəmbərliyi sübuta yetirəcək dəlildir;
- Quran müsəlmanların müraciət etdikləri ən böyük və ən mötəbər mənbədir;
- Quran rəvayətlərin məhək daşıdır;

---

[469] Həmin mənbə. s. 185.
[470] Həmin mənbə.
[471] Həmin mənbə.
[472] Həmin mənbə. s. 224-251.

- İmamlar Quranın zahiri mənalarına istinad etmişlər.

Quranın zahiri mənalarının höccət olmamasını sübuta yetirən dəlillər:

- Quranı yalnız müəyyən şəxslər başa düşür;
- Quranın şəxsi meyl və istəklə təfsir olunması yolverilməz bir haldır;
- Quranın dərin və köklü mənaları;
- Quranın zahiri mənaları həqiqəti bəyan etməyirmi?
- Mütəşabih ayələrə istinad və əməl olunmur;
- Quranın zahiri mənalarının dəlil olmasına təhrifin göstərdiyi təsir.[473]

Nəhayət, "əl-Bəyan" əsərinin birinci cildinin sonuncu fəslini Peyğəmbərimizin nəql etdiyi "Səqəleyn" hədisi üzərində quran müəllif, burada hədisin sənədləri, onun əhəmiyyəti və hədisin qeyd olunduğu mənbələr haqqında məlumatlar vermiş və bunlarla yanaşı, Qurani-Kərimin tərcümə probleminə də öz münasibətini gizlətməmişdir.

Müəllifin bu fəsildə kiçik bir yarımfəsil içində Qüreyşin Peyğəmbərlə olan mücadilələri işıqlandırması bu fəslə xüsusi bir dolğunluq qazandırmışdır. Beləliklə, birinci cildin sonuncu fəsli aşağıdakı mövzuları əhatə edir:

- Səqələyn hədisini nəql edən mənbələr;
- Haris Həmədaninin şərhi-halı;
- "Lətərkəbunnə sunənun min qəblikum" hədisini nəql edən mənbələr;
- Müəllifin, yəhudi alimlərinin biri ilə apardığı elmi mübahisə;
- Quranın tərcüməsi və tərcüməyə lazım olan şərait;
- Qüreyşin Peyğəmbərə qarşı mücadilə və çəkişmələri.[474]

Əsərin ikinci cildində müəllif, birinci cildin davamı olaraq mövzuları fəsillər içində araşdırmış və bu cilddə altı fəsil qeyd edərək bütövlükdə əsəri on yeddi fəsilə bölərək tamamlamışdır. O, ikinci cilddə (XII fəsildə) təfsirşünaslıqda ən mühüm problemlərə toxunmuşdur. Burada o, Quranda "nəsx" məsələsi, "nəsx"in məna və mahiyyəti, onun mümkün olub olmaması, Quranda "nəsx" olunmuş bəzi ayələrin izahı və digər mövzuları işıqlandırmış, bu haqda alimlərin ümumi fikirlərini qeyd etdikdən sonra onlara öz münasibətini elmi şəkildə ortaya qoymuşdur.[475]

Əsərin on üçüncü fəslini "Yaradılış və Bəda" adlandıran müəllif, burada İlahi iradə və təqdir, bədanın hikməti və s. mövzuları işıqlandırıb.[476]

On dördüncü fəsli müəllif təfsirşünaslığa həsr etmiş, burada təfsirin mənası, yolları, hansı hədislər vasitəsilə ayələrin təfsir ediləcəyi, xəbəri-vahidin təfsirdə yeri və digər mövzular burada öz əksini tapmışdır.[477]

Əsərin on beşinci fəsli Abbasi xilafəti, xüsusilə də Məmunun (813-833) dövründən başlayan Qurani-Kərimin "qədim", yaxud "hadis" (sonradan yaranmış) olması probleminə həsr olunub. Müəllif burada Allahın sifətləri, onların növləri, İslamdakı kəlam məzhəblərinin mövzu ilə əlaqəli baxışları və s. mühüm problemləri yüksək səviyyədə təhlil etmişdir.

On altıncı fəsli "Həmd" surəsinə həsr edən müəllif, burada surənin adları, onu oxumağın savabı, surənin hədəfi, "Bismillah"ın təfsiri və bu haqda nəql olunmuş rəvayətləri tədqiq etmişdir. Bu fəsildə diqqəti çəkən məqamalardan biri, məzhəblər arasındakı "Bəsmələ"nin Qurandan olub-olmaması problemidir. Müəllif əsaslı dəlillərlə sübut etmişdir ki, "Bəsmələ" Qurani-Kərimin ayələrindən biridir və "Tövbə" surəsindən başqa bütün surələrin başında gəlmişdir. Həmçinin burada müəllifin toxunduğu mühüm məqamlardan biri də İslamda ibadət məfhumu, ibadətlə itaətin fərqli xüsusiyyətləri, səcdənin

---

[473] Həmin mənbə. s. 253-265.
[474] Həmin mənbə. s. 267-284.
[475] Həmin mənbə. II c. s. 5-131.
[476] Həmin mənbə. s. 136-147.
[477] Həmin mənbə. s. 150-156.

mahiyyəti, Allahdan başqasına səcdə etməyin qadağan olması, İmam Hüseynin türbəti, onun fəzilətləri, Adəmə səcdə etməyin mənasının açıqlanmasıdır.

Nəhayət, əsərin sonuncu fəsli olan on yeddinci fəsildə məzhəblər arasında böyük fiqhi problemə çevrilmiş müvəqqəti nikah məsələsi müəllif tərəfindən aydınlaşdırılmışdır. O, bu haqda olan hədisləri nəql etməklə birlikdə onların əhəmiyyətini də izah etmişdir.

Xatırladaq ki, Əbülqasim əl-Xoyinin “əl-Bəyan” əsəri doğma ana dilimizə tərcümə edilmişdir.

Həmçinin Əbülqasim Xoyi hədis elminə müstəsna xidmət göstərmiş azərbaycanlı hədisşünaslardandır. Ömrü boyu vətənindən uzaqlarda, lakin elm və mənəviyyat beşiyi olan Nəcəf şəhərində yaşayıb yaratmış alim hədis elminin ən çətin, ən məsuliyyətli və ən mühüm sahəsi olan rical haqqında iyirmi üç cilddə nəşr olunmuş[478] çox dəyərli və fundamental əsər yazmışdır. Onun yazdığı əsər “Möcəmu ricalil-hədis və təbəqatür-rüvvat” adlanır. Əsər adından da göründüyü kimi, ricalşünaslıqda ensiklopedik xarakter daşıyır. Bu əsər üç dəfə çap olunmuşdur. Birinci çap 1398/1978-ci ildə Nəcəfdə, ikinci çap 1403/1983-cü ildə Beyrutda, üçüncü çap isə 1410/1990-cı ildə Qumda həyata keçirilib. Müəllif ilk öncə əsərə Qurani-Kərimin “Əhzab” surəsinin 23-24-cü ayələri ilə başlamış, sonra Məhəmməd peyğəmbər və onun Əhli-beytinə Allahın salamını göndərmiş, ardından da onların düşmənlərini lənətləmişdir. Bundan sonra isə əsərə dörd geniş müqəddimə yazmış, müqəddiməni bir neçə hissəyə bölmüş və burada hədis elmlərinin keçdiyi inkişaf mərhələlərinə diqqət yetirmişdir. Həmçinin əsərin müqəddimə hissəsindən əvvəl əsərə giriş (mədxəl) yazan müəllif, burada rical elminin tarixi inkişafı, rical elminin elmi-dini əhəmiyyəti, sahə üzrə qədim və müasir alimlərin yazdıqları əsərlər, bu əsərlərin üstün və nöqsanlı cəhətləri, rical elminin əleyhinə olan bəzi qədim alimlərin görüşləri və onların tənqidi geniş şəkildə tədqiq olumuşdur. Əsərinin on iki üstün cəhətini qeyd edən alim, onun ilkin üstün cəhəti kimi nəql olunan hədislərin ilkin qaynaqdan alınmasının və onların tanınmasının olduğunu qeyd etmişdir. Bundan başqa, “kütubu-ərbəə”də adları keçən ravilərin hər birinin əhvalı haqqında mükəmməl məlumatın verilməsi də əsərin qiymətini artırmaqdadır.

Əsərin ən üstün cəhəti isə rical elminə məlum olan bütün ravilər və hədisşünaslar haqqında məlumatın toplanmasıdır.

Bütün bu deyilənlərdən əlavə, müəllif müqəddimədə ravinin necə cərh (ifşa) və ya tədil (ədalətli) ola biləcəyinin yollarını araşdırmışdır. Bununla yanaşı o, burada “Kütubu-ərbəə” deyə məşhur olan Küleyninin (876-941), “Üsulul-kafi”, Şeyx Səduqun (915-991) “Mən la yəhzuruhül-fəqih” və Şeyx Tusinin (998-1068) “Təhzibül-əhkam” və “əl-İstibsar” əsərlərinin raviləri haqqında məlumat vermişdir.

Müəllifin ricalşünaslıqda irəli sürdüyü bir çox fikirlər rical elminin inkişafına da təkan vermişdir. Belə ki, o, ravinin ədalətli olmasını bilmək üçün bir neçə yolun olduğunu qeyd edərək yazırdı: “Ravinin güvənilən və ya yaxşı olduğunu bilmək üçün bir neçə yol vardır:

1. Məsum şəxslərin (Peyğəmbər və ya imamlardan birinin) onun haqqında söz söyləməsi. Əgər Məsumlardan biri hər hansı bir şəxs haqqında müsbət söz söyləyərsə, şübhəsiz ki, həmin şəxs ədalətli və etibarlıdır.

2. Qədim alimlərin onun haqqında yaxşı söz demələri. Məsələn, əl-Bərqi, İbn Quləveyh, əl-Kəşşi, Şeyx Səduq, Şeyx Müfid, ən-Nəcaşi və Şeyx Tusi kimi alimlərin dedikləri.

3. Müasir alimlərin dedikləri. Amma bu şərtlə ki, o alim tədil etdiyi (ədalətli dediyi) şəxslə ya həmmüasir, yaxud da onun yaşadığı dövrə yaxın zamanda yaşamış olsun.

4. Qədim alimlərin ittifaqla bir şəxsin ədalətli olmasını demələri. Necə ki, İbn Tavus qədim alimlərin İbrahim bin Hişamın haqqında ittifaq ediblər deməsi kimi.[479]

Göründüyü kimi, müəllif hədis nəql edən bir şəxsin hədis elmində necə əhəmiyyətli olduğunu və onların doğru olub olmadığının necə araşdırılmasının yollarını bəyan etmişdir.

---

[478] Əsər əslində iyirmi dörd cilddə nəşr olunub. Lakin onun sonuncu cildi “fihris” adlandığından bu cild ravilər haqqında bəhs etmir.

[479] Seyid Əbülqasım əl-Xoyi. Möcəmu ricalil-hədis. I c. s. 39-45.

“Mocəmül-ricalil-hədis” əsəri adından da göründüyü kimi, ensiklopedik tərəfinə daha cox diqqət edilmişdir. Həmcinin, Əbülqasim Xoyi calışmışdır ki, hər ravinin haqqında kifayət qədər geniş məlumat versin. Ona görə tədqiqatcılarin digər rical kitablarına ehtiyacı olmasın. Bu kitab üsul və rical kitablarından sonra yazılsa da, daha geniş mövzuları əhatə etmişdir. Belə ki, bu kitaba yiyələnən şəxs digər kitablara ehtiyac duymayacaq və bu mövzuda olan çətinlikləri asanlıqla həll etmiş olacaq. Müəllif bu kitabı əlifba sirasi ilə ensiklopedik şəkildə iyirmi üç cilddə yazmışdır. Hər ravinin adının altında başqa rəvayətlərdə gələn o ravinin başqa adlarını da qeyd etmişdir. Bununla da o, qeyd edilən ravi haqqındakı bütün məlumatları oxucunun əli altına toplamış olur. Əbülqasim Xoyi kitabın müqəddiməsində yazırdı: “Rical elmi qədimdə alimlərin diqqət mərkəzində idi. Ona xüsusi əhəmiyyət verilirdi. Amma son zamanlar elə münasibət göstərilir ki, sanki ictihad və şərii hökmlərin istinbatı ona dayanmır. Bu məsələyə görə, mən qərar verdim ki, bu sahədə kifayət edəcək dərəcədə ensiklopedik bir kitab yazim. Allahdan kömək istədim. Allah da fəzli ilə qəbul etdi. Kitabın xüsusiyyətlərinin tam düzgünlüyü ücün bütün mətləbləri əsl mənbələrdən nəql etmişəm. Başqalarının sözünə əhəmiyyət verilməyib. Hər ravinin adının altında “Kütubi-ərbəə”dən nəql etdikləri hədisi verilib. Bütün kitab əlifba sırası ilə tərtib edilib. Hər bir ravinin adı altında ilk olaraq onun künyəsi, sonra adı və ləqəbləri və s. verilib. Hər ravinin haqqındakı məlumatlar dəqiqləşdirilmiş və elmi şəkildə verilmişdir ki, o ravinin etbarlı olub olmaması bilinsin”.

Bütün bu deyilənlərdən əlavə, müəllifin qədim alimlərin ravinin doğru və etibarlı olması üçün irəli sürdükləri bəzi şərtləri tənqid etməsi onun bu elm sahəsindəki mükəmməlliyindən xəbər verir. Müəllif “vəkalətül-imam”, “icazətüş-şüyux”, “mühasəbətül-Məsum”, “təlifül-əsər” və s. bu kimi şərtləri ravinin etibarlı olması baxımından əhəmiyyət kəsb etmədiyini bildirməklə yanaşı, onları əsaslı dəlillərlə də rədd etmişdir.

Əsəri əlifba sırası ilə tərtib edən müəllif burada bütün ravilər haqqında məlumat vermiş və onların hədis elmindəki yerlərini müəyyənləşdirmişdir.[480]

Beləliklə, Xoyi “Möcəmu ricalil-hədis” əsərində 15676 ravi haqqında məlumat vermişdir.[481]

Ömrünü elm və dinin təbliğinə həsr edən bu böyük azərbaycanlı alim 1992-ci ilin avqust ayında Nəcəfdə vəfat etmiş və İmam Əlinin məqbərəsi yanında əl-Xədra məscidində dəfn edilmişdir. Onun dəfnində İraqın yüksək dövlət məmurları ilə yanaşı, xalqın digər bütün təbəqələri yaxından iştirak etmişdir. Dövrü mətbuat onun dəfni zamanı bütün yolların bağlanmasından və insan kütləsinin Nəcəfə axışmasından yazırdı.

Onun cənazə namazını müasir İslam ilahiyyatının ən görkəmli nümayəndələrindən olan məşhur müctəhid və tələbəsi Seyid Əli Sistani qılmışdır.

### 3.8. Seyid Məhəmmədhüseyn Təbatəbai ət-Təbrizi

Seyid Məhəmmədhüseyn Təbatəbai XX əsrin ən məşhur təfsirşünas və hədisşünaslarından biri olmuşdur. O, 1902-ci ildə Təbrizdə tanınmış bir ailədə dünyaya göz açmışdır. Onun ardıcıl olaraq on dörd nəsli Təbrizin məşhur seyid və alim sülaləsindəndir.[482]

Əllamə Təbatəbai ilk təhsilini Təbrizdə almışdır. O, burada ibtidai və orta təhsilini başa vurduqdan sonra, 1925-ci ildə təhsilini davam etdirmək üçün İraqa, Nəcəfül-əşrəf şəhərinə yola düşür. O zaman Nəcəf şəhəri regionda elm və bilik mərkəzi hesab edilirdi. On il bu yüksək elmi-dini mərkəzdə öz biliklərini təkmilləşdirərək, müxtəlif İslam elmlərinə yiyələnmişdir.

Əllamə Təbatəbai Nəcəfül-əşrəfdə fiqh və üsul elmlərini tanınmış alim Naini və Kompanidən, fəlsəfəni Seyid Hüseyn Badkubeyidən, riyaziyyatı Ağa Seyid Xansaridən, əxlaq elmini isə Hacı Mirzə Əli Qazidən öyrənmişdir. O, ərəb dilinin qrammatikasına çox dərindən yiyələnmiş, qədim və müasir

---

[480] Şeyx Məhəmməd Baqir əl-İrəvani. Durusu təmhidiyyə fi qəvaidir-ricaliyyə. Qum, II çap, 1428/2007. s. 335; Cəfər əs-Sübhani. Külliyyat vi ilmir-rical. Qum, Müəssisətu nəşril-islami, 1414 h/q. s. 146.

[481] Əbdülhadi əl-Fəzli. Üsulu ilmir-rical. Beyrut, Mərkəzül-Qədir, II çap, 1430/2009. s. 86.

[482] http://az.wikipedia.org; http://wilayah.info/ar

riyaziyyat sahəsində müvəffəqiyyətlər qazanmışdır. Ustadın fəlsəfə, kəlam, irfan və təfsir elmlərində qazandığı uğurlar hamını heyrətləndirmişdi, o, bu sahələrdə ictihad dərəcəsinə nail olmuşdur. 1935-ci ildə o, gənc alim kimi vətənə – Təbrizə dönür.

Özü təhsil illəri haqqında belə yazırdı: "Təhsilimin ilk dövrlərində sərf və nəhv elmini (ərəb dili qrammatikasını) öyrənirdim və təhsilimi davam etdirməyə həvəsim yox idi. Çünki oxuduğum şeyləri başa düşmürdüm. Beləliklə, dörd il ötdü. Sonra İlahi lütf mənə nəsib oldu və məni dəyişdi. Özümdə elm və hikmət öyrənməyə bir növ heyranlıq və vurğunluq hiss etdim. Belə ki, o gündən təhsil dövrümün sonuna qədər, təqribən on yeddi il sürən bu dövrdə elm öyrənməkdə və mütaliə etməkdə heç zaman yorğunluq və soyuma hiss etmədim. Dünyanın çirkinlik və gözəlliklərini unutdum və zamanın acı və şirin hadisələri mənim üçün bərabər oldu. Elm əhli olmayanlarla oturub durmağa bir dəfəlik son qoydum. Həyatın yemək-içmək kimi zəruri işlərində ən aza qənaət edərək qalan vaxtımı mütaliə ilə keçirirdim. Yazda və yayda çox vaxt olurdu ki, gün çıxandan gün batana qədər mütaliə edərdim. Həmişə sabahın dərsini onun axşamı hazırlayardım. Əgər hər hansı bir çətinliklə üzləşsəydim nə yolla olur olsun, onu həll etməyə çalışardım. Dərsdə olduğum zaman müəllimin dedikləri əvvəlcədən tamamilə mənim üçün aydın idi. Heç zaman dərsə aid çətinlik və səhvlə bağlı müəllimə müraciət etməzdim..."

II dünya müharibəsi illərində Sovet qoşunlarının İrana daxil olması ilə Cənubi Azərbaycanında vəziyyətin gərginləşməsi, eləcə də yerli kommunistlərin dinə və din alimlərinə qarşı başladığı amansız repressiyaların nəticəsində Əllamə Təbatəbai məcburiyyət qarşısında doğma Təbrizi tərk edərək Qum şəhərinə köçür. Bu illər ərzində İranın bir çox elmi hövzələrində elmi-tədqiqat işləri və pedaqoji fəaliyyətlə məşğul olur.

II Dünya müharibəsi başa çatdıqdan sonra Qum şəhərinə yollanan Təbatəbai burada təfsir və fəlsəfə dərslərini verdiyi elm halqaları yaradır. Vaxtaşırı Tehrana səfərləri ilə fəlsəfə və din elmlərinə maraq göstərən dairələrlə münasibətlər qurur, din əleyhdarları ilə girişdiyi elmi müzakirələr ilə bir çox insanın hidayət yolunu tapmasına vəsilə olur.

Məhəmmədhüseyn Təbatəbai öz dərin bilikləri və elmi təcrübəsilə uzun illər boyu yorulmaq bilmədən din və fəlsəfəyə qarşı yönəlmiş hücumlara sinə gərmiş, ideoloji opponentləri ilə elmi mübahisələr təşkil etmiş, İslam mədəni bölgəsi fəlsəfi irsinə, mənəvi dəyərlərinə, zəngin mədəniyyətinə qarşı ideoloji mübarizə aparan emissarlarla elmi mübarizə apararaq dini dəyərlərin keşiyində dayanmışdır. İslam mədəni bölgəsi fəlsəfəsi ilə yanaşı, Qərb fəlsəfəsinə də dərindən bələd olması onun bu diskussiyalarda uğur qazanmasında xüsusi rol oynamışdır. Əql və məntiq əsasında aparılan bu misilsiz fəaliyyətlər əcnəbi təsirinə qapılmış bir çox alim və ziyalıların doğru yola yönəlməsində müstəsna rol oynamış, həqiqət axtarışında olanları elmi və dini həqiqətlərlə yaxından tanış etmişdir.

Hal-hazırda dünyada İslam araşdırmaları ilə məşğul olan elə bir ciddi mərkəz və elm ocağı tapmaq olmaz ki, orada mütəfəkkirin zəngin irsi öyrənilməsin, yaxud ondan bəhrə götürməsin.

Əllamə Təbatəbai tələbə və alim hazırlamaqda təkcə elmi-nəzəri inkişafla kifayətlənməmiş, bu işdə mənəvi saflığa və etik məsələlərə mühüm əhəmiyyət vermişdir. O, elm və mənəviyyatı, irfan və ülvi əxlaqı özündə birləşdirən yeni bir məktəbin əsasını qoymuş, cəmiyyətə çox layiqli insanlar təqdim etmişdir, ustad elmlə əxlaqı bir-birindən ayırmağı böyük faciə hesab etmiş, elm ocaqlarında belə bir sistemin, mənəviyyat atmosferinin yaradılması yolunda əlindən gələni əsirgəməmişdir.[483]

Əllamə Təbatəbai əsərlərini ərəb və fars dillərində yazmışdır. Onlardan aşağıdakıları qeyd etmək olar:

"əl-Mizan". Mütəfəkkirin ərsəyə gətirdiyi ən mühüm əsəri müasir dövrdə ən böyük və nəfis təfsirlərdən sayılan iyirmi cilddə yazdığı "əl-Mizan fi təfsiril-Quran" kitabıdır. Bu əsər indiyə qədər müxtəlif dillərdə dəfələrlə çap olunmuşdur. Qədim dövrlərdə yazılan təfsirlərin əksəriyyəti müasir tələblərə cavab vermədiyi üçün, ustad belə bir əsər yazaraq XX əsrdə İslam dünyasına misilsiz xidmət

[483] http://az.wikipedia.org

göstərmiş, onu hal-hazırkı və gələcək nəsillər üçün yadigar qoyub getmişdir. Əllamə Təbatəbai həmin təfsirdə yeni metoddan – əsas etibarilə bir ayənin sair müvafiq ayələr kontekstində təfsir olunma üslubundan istifadə etmişdir. Əsər dilimizə tərcümə edilməkdədir.

"Üsulul-fəlsəfə və mənhəcül-vaqii". Əllamə Təbatəbainin fəlsəfəyə aid yazdığı mühüm əsəri isə "Fəlsəfə üsulu və realizm metodu" adlanır. Bu kitab 14 fəlsəfi məqalədən ibarətdir. 1941-1951-ci illərdə yazılmış əsər Mürtəza Mütəhhəri və Əllamə Cəfər Sübhani tərəfindən geniş şərh edilmişdir. Burada İslam fəlsəfəsi Qərb fəlsəfi məktəbləri ilə müqayisəli şəkildə təsvir olunmaqdadır.

"Siyərün-Nəbi (s)". Əsəri müəllif hədisi-şəriflərə həsr etmişdir. Belə ki, o, ən qədim qaynaqlardan istifadə edərək Peyğəmbərin buyurduğu hədisləri bir araya toplamış və onun adını "Peyğəmbərin sirəsi" qoymuşdur.

"Rəsail əs-səbə", "Rəsailu ət-Tovhidiyyə", "Haşiyə əl-Kifayə", "Təliqə vahidə əla miratul-üqul", "Təliqə əla əsfarul-ərbəə", "Elm traktatı", "Bidayətül-hikmə", "İslamda Quran", "Din tədrisi: Uşaqlar üçün", "İslami araşdırmalar", "İlk başlanğıc və məad barəsində traktat", "Nübüvvət barəsində traktat", "Eşq barəsində traktat", "Azərbaycan Təbatəbailərinin mənşəyi", "Nəstəliq xəttində mənzumə", "İslamda ictimai əlaqələr" və s. kimi farsca dəyərli əsərlər ərsəyə gətirmişdir.

Əllamə Təbatəbai çoxlu sayda tələbə tərbiyə edib yetişdirmişdir. Onlardan Seyid Cəlaləddin Aştiyani, Qulamhüseyn İbrahimi Dinani, Əllamə İbrahim Əmini, Seyid Məhəmmədhüseyn Behişti, Əllamə Cavad Amuli, Həsən Həsənzadə Amuli, İmam Musa Sədr, Məhəmmədtəqi Misbah Yəzdi, Mürtəza Mütəhhəri, Məkarim Şirazi, Əllamə Cəfər Sübhani Təbrizi və başqalarını qeyd etmək olar.

Qeyd edək ki, zəmanəmizin görkəmli mütəfəkkirləri professor Henri Korben və professor Seyid Hüseyn Nəsr də Əllamə Təbatəbainin dərslərindən faydalanmışlar.

Maraqlı faktlardan biri də budur ki, ardıcıl olaraq bir neçə il, payız fəslində Əllamə Təbatəbai ilə professor Henri Korben arasında bir çox alim və tələbələrin iştirakı ilə elmi diskussiyalar, fikir mübadilələri təşkil edilirdi. Yüksək mənəviyyatlı bir şəxsiyyətlə həqiqət axtaran elm xadimi arasında təşkil olunan fəlsəfi-teoloji, eləcə də psixoloji, sosioloji və digər dünyəvi elmlərlə əlaqədar aparılan mübahisələr zamanı çox maraqlı məsələlər araşdırılır, bu görüşlər müntəzəm olaraq mühüm və müsbət nəticələrlə sona çatırdı. Bu elmi müzakirələr elə yüksək səviyyədə keçirilirdi ki, bəlkə də İslamla xristianlıq arasında mənəvi-ideoloji əlaqələrin kəsildiyi orta əsrlərdən bu vaxta qədər Qərb mütəfəkkirləri ilə müsəlman alimləri arasında bu müstəvidə əlaqələr yaradılmamışdı.

Uzun illər boyu professor Henri Korbin və digər alimlərlə keçirdiyi toplantılarda dövrün mənəviyyat problemlərini gündəmə gətirir, həqiqət axtarışında olan şəxslərin qarşısındakı çətinliklərin həllinə çalışır. Bu qəbildən olan görüşlər İslam-xristianlıq münasibətlərində həmin dövr üçün nadir rast gəlinən hadisə idi.

Əllamə Təbatəbainin yüksək elmi, bariz şəxsiyyəti, gözəl əxlaqi səciyyələri və tələbələrlə münasibətdə hədsiz mülayimliyi az bir zamanda onun məşhurlaşmasına səbəb olmuş, elm xadimləri, ruhanilər və sıravi dindarlar arasında saysız-hesabsız müridlər qazanması ilə nəticələnmişdi. Əllamənin dərslərində yüzlərlə tələbə iştirak edir, tanınmış alimlər də onun məhsuldar elmindən faydalanırdı.

Onun ilahiyyat elmləri, xüsusilə də bu elmlərin əsası olan hədis elmləri sahəsində böyük əhəmiyyət daşıyan "Sünənün-Nəbi" əsərinin hədisşünaslıq elminin araşdırılması baxımından aktuallıq kəsb etməsi sözü gedən sahə üzrə mütəxəssis olan hər kəsə yaxşı məlumdur. Əllamə Məhəmmədhüseyn Təbatəbai kimi masir ilahiyyat aliminin yetkin bir elmi əsər yazıb ortaya qoyması böyük Azərbaycan xalqının elm və mədəniyyətə verdiyi yüksək diqqətdən xəbər verir.

Adı çəkilən əsəri müəllif hədisi-şəriflərə həsr etmişdir. Belə ki, o, ən qədim qaynaqlardan istifadə edərək Peyğəmbərin buyurduğu hədisləri bir araya toplamış və onun adını yuxarıda da qeyd etdiyimiz kimi "Peyğəmbərin sirəsi" qoymuşdur. Onun "Təfsirül-mizan" əsəri də adı çəkilən sahə ilə əlaqədar mühüm əhəmiyyət kəsb edir.

Əllamə Təbatəbainin hədisşünaslıq sahəsində gördüyü ən mühüm işlərdən biri də hədis tarixinə, xüsusilə də zəif hədislərin meydana gəlməsinə aid fikirləridir. Müəllif özünün məşhur “Təfsirül-mizan” əsərində bu məsələlərə aid problemləri araşdırmışdır.[484]

### 3.9. Əllamə Əbdülhüseyn əl-Əmini

Əllamə Əmini kimi tanınan Əbdülhüseyn Əhməd bin Nəcəfəli əl-Əmini ən-Nəcəfi 1902-ci ildə Təbrizdə bütün nəsli alim, fəqih, abid, zahid və ədib olan bir ailədə dünyaya göz açmışdır. O, iman, elm, əməl və əxlaq mərkəzi sayılan bir evdə tərbiyə alıb boya-başa çatmışdır. İbtidai təhsilini möhtərəm atası alim və fəqih Mirzə Məhəmməddən öyrənmişdi. Sonra o dövrün İslam elminin və mədəniyyətinin ən tanınmış mərkəzi sayılan Təbrizin Talibiyyə mədrəsəsində təhsil almışdır. Ərəb ədəbiyyatı, fiqh və üsuli-fiqh elmlərini Təbrizin məşhur alim və ariflərinin, o cümlədən Ayətullah Seyid Məhəmmədhüseyn Musəvinin, Hacı Seyid Movlanə və Ayətullah Seyid Mürtəza Xosrovşahinin yanında öyrənmişdi.

Əbdülhüseyn Təbrizlə kifayətlənməyib təhsilini davam etdirmək üçün o dövrün ən məşhur dini və elmi mərkəzlərindən olan İraqın Nəcəf şəhərinə yollanmış və oranın ən böyük alim və fəqihlərinin yanında dərs almışdı. Onun Nəcəfdəki ustadları içində Seyid Məhəmməd Firuzabadi və Seyid Əbu Turab Xansarinin adları xüsusilə çəkilir. Əbdülhüseyn Nəcəfdə dini təhsilinin birinci mərhələsini başa vurduqdan sonra doğulduğu şəhərə - Təbrizə qayıdır və dini elmlərin tədrisi, təbliği və tədqiqatı ilə məşğul olur. Onun bu dövrdə qələmə aldığı kitablarından Quran haqqında olan “Fatihətül-kitab” əsəridir.

Əmini elmini daha da təkmilləşdirmək üçün yenidən Nəcəf elmi hövzəsinə qayıdır və öz təhsilini, tədqiqatını davam etdirir. Nəhayət o, ictihad dərəcəsinə çatıb müctəhid olur. Uzun illər İslami elmlərin tədrisi və tədqiqatı ilə məşğul olan Əbdülhüseyn Əmini “əllamə”, “hibrül-elm”, “mücahid” və “höccət” ləqəblərinə layiq görülür. Əllamə Əmini fiqh, üsul, hədis, təfsir, kəlam, tarix və rical elmlərində öz dövrünün ən bilikli aliminə çevrilir. O, Nəcəfdə “Məktəbətu Əmirilmöminin” adlı bir mədrəsə təsis edir. Onun bu məktəbində elm və irfan çox yüksək səviyyədə olduğundan tez bir zamanda şöhrət tapır və müxtəlif müsəlman ölkələrindən buraya axın başlayır.

Əllamə Əmini çox əxlaqlı, təvazökar, abid, zahid və təqvalı bir şəxs idi. Dünya malına və mənsəbə etinasız olan Əllamə Əmini daim ibadət və mütaliə ilə məşğul idi. Həqiqətən də o, İmam Əli kimi yaşayırdı. Peyğəmbərə və onun Əhli-beytinə dərin imanı və sevgisi onu biqərar etmişdi. Belə ki, o, İmam Hüseynin qəbrini ziyarət etmək üçün Nəcəfdən Kərbəlaya piyada gedirdi. O, heç vaxt sadə insanları və kasıbları unutmur, var-dövlətini onlarla bölüşürdü.

Əllamə Əmininin ən böyük və məşhur əsəri imamət və vilayət ensiklopediyası sayılan “əl-Qədir” kitabıdır. Əsər müasir dövrdə hədisşünaslıq sahəsində yazılmış çox məşhur bir əsərdir. Əsər həm də elmi-dini, tarixi, ədəbi və əxlaqi mövzuları da əhatə etməkdədir. O, bu əsəri ərsəyə gətirmək üçün çox böyük bir tədqiqata başlamış, əvvəlcə Nəcəf şəhərində yerləşən bütün özəl və ümumi kitabxanalarda mövcud olan əlyazma və çap olunan kitabların hamısını mütaliə etmişdi. Bu kitabxanalar arasında mərhum Seyid Məhəmməd Baqir Bəhrulülumun kitabxanası, mərhum Ayətullah Şeyx Məhəmmədhüseyn Kaşiful-ğitanın kitabxanası, Şeyx Fərəculla Nəcəfinin kitabxanası da var idi.

Mərhum Əmini sonra Kərbəla, Kazimiyyə, Bağdad, Samirra, Hillə və Bəsrə şəhərlərinin kitabxanalarını mütaliə etmişdi, bu kitabxanalarda mövcud bütün əlyazma və çap olunan kitabları nəzərdən keçirtmişdi. Əllamə Əmini sonra İran kitabxanalarında olan kitabları mütaliə etmək üçün bu ölkəyə gəlmişdi. Məşhəd şəhərində yerləşən “Astane-Qodse-Rəzəvi” (İmam Rza məqbərəsi kompleksi) kitabxanası, Tehranda Milli Şura Məclisinin kitabxanası, Tehranda Sepəhsalar mədrəsəsinin kitabxanası, İran Milli kitabxanası, Burucerd şəhərində yerləşən Ayətullah Burucerdinin kitabxanası və

[484] Əllamə Məhəmməd Hüseyn Təbatəbai. Təfsirül-mizan. V c. Kövsər yayınları, s. 416-422.

Kermanşah şəhərində yerləşən Sərdar Kabili kitabxanası onun İranda mütaliə etdiyi kitabxanalar sırasında idi.

Daha sonra Hindistan, Suriya və Türkiyənin də kitabxanalarını və bu kitabxanalarda mövcud olan nadir əlyazma və çap kitablarını nəzərdən keçirmişdir. Belə ki, o daha geniş tədqiqat aparmaq məqsədilə 1962-ci ildə Hindistana, 1966-cı ildə Suriyaya, 1969-cu ildə Türkiyəyə getmişdir. Əllamə elmi-tədiqqat səfərləri barədə iki cildlik "Səmərat əl-əsfar ila əl-əmtar" kitabında məlumat verib. Əllamə Əmini bu elmi-tədqiqat səfərlərində rast gəldiyi nadir əlyazma nüsxələrindən qeydlər götürmüşdür. Mərhum Əllamə etdiyi elmi səfərlərin şərhini və mütaliə etdiyi nadir əlyazma və çap olunmuş kitabların siyahısını ikicildlik bir kitabda toplamışdır.

Əllamə Əmininin yubley gecəsində İslam dünyasının tanınmış müctəhidlərindən olan Ayətullah Safi demişdir: "Əziz və hörmətli dinləyicilər və elm sahibləri ki, bu nurani iclasda hazır olmaqla böyük elm, fəzilət, Əhli-beyt məktəbinin xidmətçisi və əmirəlmömininin Əlinin vilayəti haqqında möhkəm sənədləri qoruyub saxlayan bir alimin məqamını saxlayıb ona ehtiram etmişdirlər. Bir neçə kəlmə Qədirxum və kitablar ki, bu möhkəm sənədi olan hədis barəsində, onun nə qədər geniş və müxtəlif mənbələrdə və bir çox İslam elmlərində bizə çatmışdır ona işarə edirik: Qədir hədisi sənəd və onun ravilərinin sayının həddindən artıq çox olması baxımından ki, əshab və tabei və yaxud ətbaüt-tabei tərəfindən və rəvayət cəhətindən ki, ən etibarlı və inanılmış kitablarda özünə məxsus yer almışdır ki, ya onun tayı bərabəri yoxdur və yaxud onun kimisi çox azdır.

Ona məxsus mövzuda yazılan kitablar, nümunə olaraq "əl-vilayət" kitabı ki, onun müəllifi məşhur İslam alimlərindən və hədis hafizlərindən olmuş, bundan əlavə tarix və hədis elmləri və Qədirixum hadisəsini geniş şəkildə onda qeyd etmişdir. Başqa elmlərdə, misal üçün təfsir, lüğət, rical, kəlam və müxtəlif münasib elmlərdə bu böyük hadisəni əks etdirmişdir. Ədəbiyyatda, şeir və şairlərin tarixində Peyğəmbərin zamanında bu tərəfə Qədirixumda şerlər özünə məxsus yer tutmuşdur. Qədirixum mənəviyyatımıza və İslam aləminə xüsusi gözəllik bağışlamışdır.

Böyük müəlliflərdən biri də ki, hədis barəsində qələm götürüb iş görən və Seyid Murtəza və Rəzi, Əllamə Hilli, Əllamə Məclisi və "Əbəqat" kitabının sahibi kimi böyük şəxsiyyətlərdən biri də Əllamə Əminidir. Əllamə Əmini Əlinin aşiqi, böyük şəxsiyyət, haqqın müdafiəsinin pəhləvanı, Allah yolunda cihad edən, bir sözlə, bütün bunlara malik olan və "əl-Qədir" kitabının müəllifidir ki, bizim zamanın kitabı və ən etibarlı sənədidir".[485]

Qeyd edildiyi kimi, Əllamə Əminin ən böyük və məşhur əsəri "əl-Qədir" kitabıdır. Məlumdur ki, "Qədir-xum" Peyğəmbərimizin vida həccindən qayıdan zaman eyni adlı yerdə sonuncu vida xütbəsi söyləyərək orada İmam Əlini Allahın əmri ilə İslam ümmətinə imam və xəlifə təyin etməsidir.[486]

Əllamə Əmini əsəri bütövlükdə Qədirxum hədisi üzərinə yazmışdır. Əsər 20 cilddədir (ərəb dilində). Onun hələlik 11 cildi çap edilmişdir. Kitabın sonuncu (dördüncü) çapı 1397/1977-ci ildə Beyrutda (Livan) "Darül-kitabil-ərəbi" mətbəəsində hacı Hüseyn İrani adlı şəxsin köməkliyi ilə ərəb dilində çap olunmuşdur. Əsər dilimizə də tərcümə edilməkdədir. Müəllif özü bu kitab barəsində belə demişdir: "Mən "əl-Qədir" kitabını yazmaq üçün 10 mindən çox kitabı əvvəldən axıra qədər diqqətlə mütaliə etmişəm və 100 kitaba dəfələrlə müraciət etmişəm".

Əllamə Əmini əsərin birinci cildində məşhur "əl-Qədir" hədisini nəql edən 110 Peyğəmbər səhabəsinin və 84 tabeinin adını sayır. Onların adlarını əlifba sırası ilə verib hər biri haqqında müstəqil şəkildə məlumat verən müəllif onların dedikləri hədisin hansı mənbədə qeyd olunduğunu da sitat olaraq verməkdədir. İlk hədisi əlifba sırasına uyğun olaraq Əbu Hüreyrədən başlayan müəllif, son hədisi də Əbu Mərazim Yəla bin Mərrə bin Vəhəb əs-Səqəfi ilə sona yetirir. Həmçinin müəllif bu hədisin Fatimə bint Məhəmməd (s), Əli bin Əbi Talib (ə), Həsən bin Əli (ə), Hüseyn bin Əli (ə), Abdullah bin Cəfər, Ömər bin Əbdüləziz (öl. 720) və Məmun Abbasinin (öl. 833) həmişə dəlil gətirdiklərini də əsərdə qeyd etmişdir. Bundan əlavə müəllif hədisin müxtəlif turuq (rəvayət) yollarını qeyd etdikdən sonra onun

[485] http://www.saafi.net

[486] Geniş məlumat üçün bax: İbrahim Quliyev. Hədisi-şəriflərdə müqəddəs şəhərlərin tarixi. Bakı, Nurlar, 2012. s. 208.

sənədinin səhihliyinə də münasibət bildirmişdir. Əsərin 622-ci səhifəsindən sonra ravilərin və hədis alimlərinin hədisin sənədi haqqındakı fikirlərini qeyd edən müəllif bunula da özünün rical elminə necə bələd olduğunu ortaya qoymuş olur. “Qədir” hədisi haqqında Tirmizinin (824-893): “bu hədis səhih həsəndir”, Əhməd əl-Qürtubinin (öl. 1273) “Muaxat”, “Rayə” və “Qədir” hədislərinin hamısı sübut olunmuş hədislərdir”, demələrini əsərdə qeyd edən müəllif həm də bunula adı çəkilən hədisin doğruluğunu ortaya qoymuşdur.

Əllamə Əmini əsərə böyük bir müqəddimə yazmışdır. O, müqəddiməyə Allaha həmd-səna Rəsuluna və Əhli-beytinə salam-salavat gətirdikdən sonra “Qədir” hədisinin əhəmiyyətindən danışmış, İmam Əlinin Peyğəmbərin dilindən vəsf edilməsini önə çəkmiş, o Həzrətin (s): “Möminin səhifəsinin ünvanı Əlini sevməkdir”, “Hər kəs mənim kimi yaşamaq, mənim kimi ölmək, Rəbbimin mənə əta etdiyi Ədn Cənnətində mənimlə birlikdə olmaq istəyirsə, Əbu Talib oğlu Əlini özünə rəhbər götürsün”[487] hədisini qeyd etdikdən sonra, kitabının əhəmiyyətindən və onun əhatə etdiyi mövzudan bəhs etmişdir. Həmçinin burada müəllif “Qədir” hədisinin tarixindən, onun alimlər yanındakı mötəbərliyindən, sənədlərinin tam doğru olduğundan və bir sözlə ona əməl etməyin vacibliyindən bəhs etmişdir.

Hədis üzərində möhkəmcə dayanan müəllif yazırdı: “Bu hədis üzrəində iki nəfər şəxsi belə ixtilaf edən tapmazsan. Bunu tarix nəhənglərindən Bəlazuri (öl. 893) “Ənsabül-əşraf”, İbn Qüteybə (828-889) “əl-Məarif” və “əl-İmamə vəs-Siyasə”, Təbəri (838-923) “Kitabül-müfrəd”, İbn Zulaq əl-Leysi əl-Misiri (öl. 902) öz əsərlərində, Xətib Bağdadi (1002-1071) “Tarixül-Bağdad”, İbn Əbdülbirr (980-1075) “əl-İstiab”, əş-Şəhristani (ö.1153) “əl-Miləl vən-nihəl”, İbn Əsakir (1105-1175) “Tarixu-mədinəti-Diməşq”, Yaqut əl-Həməvi “Möcəmül-üdəba (c. XVIII, səh. 84), İbn Əsir (1149-1210) “Üsdul-qabə”, İbn Əbülhədid (öl. 1258) “Şərhu Nəhcil-bəlağə” və s. əsərlərində qeyd etmişlər.[488]

Müəllifin kitabda izlədiyi metod özünü dəqiqliklə göstərməkdədir. Belə ki, o, hər bir mənbənin müəllifini, nəşr yerini, cildini və səhifəsini də qeyd edir ki, bu da əsərin mötəbərliyini artırmaqdadır. Onun mənbələrdən istifadə edən zaman “Üsdül-qabə”, “Təhzibüt-təhzib”, “əl-İsabə”, “əl-İstiab”, “Taixül-Bağdad”, “Təhzibül-kamal”, “Tarixul-xüləfa”, “əl-Bidayə vən-nihayə”, “Müsnədi-Əhməd”, “Sünənu-İbn Macə” və bunlardan başqa onlarla məşhur hədis və tarix əsərlərinə üstünlük verdiyi görülür. Daha sonra hicrətin 2-ci (miladi VIII) əsrindən 4-cü (miladi X) əsrinə qədər bu hədisi nəql edən ravilərin adlarını qeyd edir. Sonda da bu mövzu haqqında müxtəlif şairlərin şeirlərini qeyd edir. Onun burada “Qədir” hədisini nəql edən yüzdən artıq şair haqqında məlumat verməsi əsərin ədəbiyyatşünaslıq baxımından da əhəmiyyətini artırmışdır. O, təkcə şairlərin mövzu ilə əlaqəli şeirlərini verməklə kifayətlənməmiş, eyni zamanda onların həyat və fəaliyyətləri, doğum və vəfat tarixləri haqqında da mükəmməl məlumat vermişdir.

Əsərin ümdə xüsusiyyətlərindən biri də Peyğəmbərin adından yalan danışan şəxslərin və onların uydurub Peyğəmbərin adına istinad etdikləri bəzi hədisləri üzə çıxarmasıdır. Müəllif əsərin beçinci cildində “silsilətül-mövzuat” adlı fəsil açmış və burada mövzunu əhəmiyyətli şəkildə izah etmişdir. O, hər bir şübhəli hədisi qeyd etdikdən sonra onun sənədindəki saxta və yalançı raviləri, onların haqqında rical alimlərinin fikirlərini də qeyd etmişdir.

Kitabın burada qeyd ediləsi ən mühüm nöqtəsi onun mənbələrinin çox olmasıdır. Bu mənbələri müəllif şəxsən özü tədqiq etmişdir. Mənbələr təkcə hədis sahəsinə aid olmayıb, həm də tarix, ədəbiyyat, təfsir və digər elmlər sahəsinə aid əsərlərdir.[489] Onun mənbələri bütövlükdə mindən artıqdır. Bu mənbələrin bir hissəsi çap olunmuş, digəri isə əlyazma halındadır.

Ayətullah Safi kitab haqqında yazırdı:

“əl-Qədir” kitabı, əbədi bir kitabdır ki, hər bir insaf əhli üçün möhkəm dəlildir və Əlinin Peyğəmbərdən sonrakı fasiləsiz xilafətini isbat edir. “əl-Qədir” birmənalı olaraq Əlini tanıtdırır.

---

487 Xətib əl-Bağdadi. Tarixül-Bağdad. IV c. s. 410.
488 Əllamə Əmini. əl-Qədir. I c. Beyrut, IV çap, 1397/1977. s. 6.
489 Bax:Həmin mənbə. I c. s. 7.

Allahın rəhmət və mərhəməti Əllamə Əminiyə şamil olsun ki, bu böyük iftixara nail olmuşdur ki, onun və "əl-Qədir"i adı Əlinin adını zikr etməyə vadar edir".[490]

Əllamə Əmini adı çəkilən əsərini yazarkən yüzlərlə qədim və müasir qaynaqlardan istifadə etmişdir. Onun istifadə etdiyi mənbələr İslam ilahiyyatının müxtəlif sahələrini ehtiva etməkdədir. Həmin mənbələrdən bəziləri aşağıdakılardır:

"Qurani-Kərim", "Əxbaru-Məkkə fi qədimid-dəhr və hədisihi" (Məhəmməd bin İshaq əl-Fakihi), "Əxbaru-Məkkə" (Məhəmməd bin Abdullah əl-Əzrəqi), "Əxbaru-mərifətir-rical (Ricalül-Kəşşi)" və Məhəmməd bin Həsən Tusi (Şeyx Tusi), "Ədəbül-imla vəl-istimla" (Əbdülkərim bin Məhəmməd Səmani), "əl-Əzkarül-müntəxəbə min kəlami Seyyidul-əbrar (s)" (Yəhya bin Şərəf ən-Nəvəvi), "əl-İrşad fi mərifəti hücəcullah ələl-ibad" (Məhəmməd bin Məhəmməd bin Noman əl-Əkbəri əl-Bağdadi (Şeyx Müfid), "İrşadül-qülub" (Həsən bin Məhəmməd Deyləmi), "Üsdul-ğabə fi mərifətis-səhabə" (Əli bin Əbülkərim Məhəmməd Şeybani (İbn Əsir Cəzəri), "əl-İsabə fi təmyizis-səhabə" (Əhməd bin Əli Əsqəlani (İbn Həcər), "Üsulus-sittə əşər" (bir qrup ravi tərəfindən qələmə alınmışdır), "Əlamüd-din fi sifətil-muminin" (Həsən bin Məhəmməd Deyləmi), "Əlamul-vəra bi əlamül-huda" (Fəzl bin Həsən ət-Təbərisi), "əl-Adab" (Əhməd bin Hüseyn Beyhəqi Xosrovcurdi), "əl-Əmali" (Məhəmməd bin Həsən Tusi (Şeyx Tusi), "əl-Əmali" (Məhəmməd bin Əli bin Babəveyh əl-Qummi (Şeyx Səduq), "Biharül-ənvar" (Əllamə Məclisi), "əl-Bidayə vən-nihayə" (İsmayıl bin Ömər Dəməşqi (İbn Kəsir), "əl-Bələdül-əmin vəddurul-həsin" (İbrahim bin Əli Hairi Amuli (Kəfəmi), "Tacül-ərus min cəvahiril-qamus" (Seyyid Məhəmməd Mürtəza bin Məhəmmədhüseyni Zəbidi), "Tarixu-İsfahan" (Əhməd bin Abdullah İsfahani (Əbu Nəim), "Tarixu-Bağdad" ("Tarixu-Mədinə") (Əhməd bin Əli Xətib Bağdadi), "Tarixu-Diməşq" (Əli bin Həsən bin Hibətullah (bin Əsakir Diməşqi), "Tarixül-kəbir" (Məhəmməd bin İsmayıl əl-Buxari, Darül-fikir, Beyrut), "Tarixu-Mədinətil-Münəvvərə" (Ömər bin Şəbbəhun-Nəmiri əl-Bəsiri), "Tarixu-Yaqubi" (Əhməd bin Əbi Yəqub (İbn Vazeh əl-Yəqubi), "Tuhəfül-üqul ən Ali-Rəsul (s)" (Həsən bin Əli Hərrani (İbn Şöbə), "Ğurərül-hikəm və durərül-kəlim" (Əllamə Amədi), "Təfsiru-İbn Kəsir" ("Təfsiri-Quranil-əzim") (İsmayıl bin Ömər Bəsrəvi), "Təfsir" (Məhəmməd bin Məsud Səlmi Səmərqəndi (Əyyaşi), "Təfsir" (Əli bin İbrahim əl-Qummi. Tədqiq: Seyyid Təyyib Musəvi əl-Cəzairi), "Tənbihül-xəvatir və nəzihətün-nəvazir" (Vərram bin Əbi Fərras əl-Həmədani), "Tənbihül-ğafilin" (Nəsr bin Məhəmməd Səmərqəndi), "Təhzibül-əhkam fi şəhril-muqniə" (Məhəmməd bin Həsən ət-Tusi (Şeyx Tusi), "Təhzibül-kəmal fi əsmair-rical" (Yunis bin Əbdürrəhman əl-Mizzi), "Səvabül-əmal iqabul-əmal" (Məhəmmmməd bin Əli bin Babəveyh əl-Qummi) və s.

Əllamə Əmininin aşağıdakı digər əsərləri də vardır:

"Fatihətül-Kitab", "Fəzilət şəhidləri", "Kamil-əz-ziyarat", "Ədəb əz-zair limən yəmummul-hair", "Tariximiz və ənənəmiz", "Riyazul-üns" (tarix, təfsir və hədis barəsində, ərəb və fars dillərində əlyazma), "Azərbaycan şəxsiyyətləri" (2340 azərbaycanlı alim, ədib və şairlərinin tərcümeyi-halı, əlyazma), "Səfərlərin səmərəsi" (əlyazma), "əl-İtrətüt-tahirə fil-kitabil-əziz" (əlyazma), "Sirətu Nəbiyyina və sünənihi".[491]

İslam dünyasına böyük xidmət göstərmiş alim 1972-ci ildə vəfat etmiş və Nəcəfül-əşrəfdə İmam Əlinin hərəmində təsis etdiyi ümumi kitabxanada dəfn edilmişdir.[492]

### 3.10. Əllamə Məhəmməd Təqi Cəfəri

Əllamə Məhəmməd Təqi Cəfəri 1925-cı ilin avqust ayının 16-da Təbriz şəhərində Şotorban məhəlləsində dünyaya göz açmışdır. O, orta şəhər təbəqəsindən olub, zəhmətkeş bir ailədə boya-başa çatmışdır. Əvvəlcə Təbriz şəhərində İslam elmləri üzrə ali təhsil aldıqdan sonra Qum və Nəcəfdə Mirzə Fəttah Şəhidi, Şeyx Məhəmməd Rza Tonekabuni, Şeyx Kazım Şirazi, Seyid Əbd əl-Hadi Şirazi, Seyid Əbülqasim Xoyi və Seyid Möhsün Həkim kimi böyük alimlərin hüzurunda müxtəlif bilik sahələrinə

[490] http://www.saafi.net
[491] Əqiqi Bəxşaişi. Məfaxire-Azərbaycan. "Əllamə Əmini" maddəsi.
[492] www.deyerler.org; https://az.wikipedia.org

yiyələnmişdir. Özünün dediyinə görə, anası Təbrizdə sayılan ələvi seyidlərdən və atasından fərqli olaraq savadlı olmuşdur. İlk dəfə Quran oxumağı da məhz anasından öyrənmişdir. Altı yaşında Etimad ibtidai məktəbində təhsilə başlamışdır. O, dini biliklərə maraq göstərdiyindən bu dəfə Talibiyyə mədrəsəsinə yollanır. Orada ibtidai din və ədəbiyyat təhsili alır. Uzun müddət səhərlər dərslə, günortadan sonra isə işlə məşğul olur.

Talibiyyə mədrəsəsində bir müddət təhsil aldıqdan sonra onda varlıq təliminə qəribə maraq yaranır. Təbrizdə bu sahədə təhsil ürəkaçan olmadığı üçün Tehrana gəlir. Yarı qalmış bəzi dərslərini bitirir. Həmçinin Şeyx Məhəmməd Rza Tonekabuni və Mirzə Mehdi Aştiyaninin dərslərində iştirak edir. Ustad Cəfəri daha sonra Qum elmi hövzəsinə yollanır. Təqribən bir il orada təhsil alır. Seyid Məhəmməd Təqi Xansari, Seyid Məhəmməd Höccət Kuhkəməri, Seyid Sədrəddin və Ruhullah Xomeyninin dərslərində iştirak edir. Bir gün qardaşından anasının xəstəliyi ilə bağlı məktub alır. Ustad özünü Təbrizə yetirdikdə məlum olur ki, anası məktub ona çatandan on gün öncə dünyasını dəyişmişdir. Az müddət Təbrizdə qaldıqdan sonra Ayətullah Mirzə Fəttah Şəhidinin təkidi ilə Nəcəfə yollanır. Ustad özü bu haqda deyir: “Yadımdadır, mən Nəcəfə mərhum Şəhidinin təkidi ilə getdim. Səfər tədarükümün böyük hissəsini də o təşkil etdi”.

Ustad Əllamə Cəfəri Nəcəfdə Sədr mədrəsəsinə daxil olur və Seyid Kazım Şirazi, Əbülqasim Xoyi, Seyid Mahmud Şahrudi, Seyid Həkim, Seyid Camal Gülpayqani, Seyid Əbd əl-Hadi Şirazi, Milani kimi alimlərin dərsində iştirak etmişdi. Əllamə Cəfəri Sədra Qafqazi kimi böyük alimlərin ali fiqh və üsul dərslərində iştirak etməklə yanaşı, Şeyx Mürtəza Taliqaninin fəlsəfə və irfan dərslərində də iştirak etmiş, Nəcəfdə üç il təhsil aldıqdan sonra 25 yaşında ictihad dərəcəsinə çatmışdır. Ona ictihad icazəsini Şeyx Kazım Şirazi verir. Ümumilikdə 17 il Nəcəfdə qalır. Bu illərdə təhsildən əlavə tədris və təliflə də məşğul olur. Təhsilini bitirdikdən sonra isə Quma, Burucerdinin yanına gedir. O, mövcud elmi və fikri vəziyyəti dəyərləndirərək fiqh və üsul tədrisi əvəzinə gənclərin suallarını cavablandırmaqla və lazımi mövzularda kitab yazmaqla məşğul olur. Ustadın bu qərarının nəticəsi yüzlərlə kitab, məqalə və elmi əsərlərin elmi ictimaiyyətə təqdim olunması olmuşdur.

Əllamə Cəfərini müsəlman cəmiyyətinin tərəqqisi, İslamın dirçəlişi məsələləri daima düşündürmüş, narahat etmişdir. O, İslama şüurlu, dərk edilmiş qayıdış tərəfdarı kimi tanınmışdır. Onun müsəlman cəmiyyətinin ictimai inkişafı barədə irəli sürdüyü müddəalar son dərəcə qiymətlidir və müstəqillik illərində milli-mənəvi dəyərlərini dirçəltmək istiqamətində böyük işlər görən Azərbaycanda maraqlı və faydalı ola bilər.[493]

İslam fəlsəfəsi, İslam etikası və estetikası, İslam incəsənəti ilə yanaşı, fiqh və hədis elmləri sahəsində də görkəmli şəxsiyyət olmuş, ustad, əllamə və filosof kimi dünya şöhrəti qazanmışdır. Əllamə Cəfəri həm də ictimai xadim olmuş, dünyanın müxtəlif universitet və akademiyalarında mühazirələr oxumuş və geniş auditoriyanın diqqətini özünə cəlb edə bilmişdir. İranın dini lider Ayətullah Xamenei onun elmi-dini fəaliyyətini yüksək qiymətləndirmiş və onu böyük alim adladırmışdır. Həmçinin onun elmi dünyagörüşünə və həyat səviyyəsinə yüksək qiymət verən İİR-nın sabiq prezidenti M. Xatəmi demişdir: “Əllamə Məhəmməd Təqi Cəfərinin həyatı elmi və mədəni araşdırmalarla dolu, sadəlik, düzlük, saflıq və alınıaçıqlıqla yanaşı, həqiqətsevərlik və möminlik nəsillər üçün yadigar və mirasdır”.[494]

Müəllifin həyat və yaradıcılığına aid bir çox əsərlər və məqalələr yazılmışdır. Bunların içərisində isə müasir İran alimi Abdullah Nəsrinin “Afaqi-Mərzbani” əsəri əhəmiyyətli yer tutur. Abdullah Nəsri bu əsərində Əllamə Cəfərinin həyatını və elmi irsini mükəmməl şəkildə açıqlamış, onu hərtərəfli və ensiklopedik bir şəxsiyyət kimi xarakterizə etmişdir. O, Əllamə Cəfərinin İslam elmləri – hədis, fiqh, üsul, təfsirdən tutmuş ta fəlsəfə kəlam və tarix, habelə Qərb fəlsəfəsi, psixologiya və pedaqoqika, fizika və metafizika sahələrindəki biliklərindən söhbət açır. Əsərdə Əllamə Cəfərinin ontologiya və qnesologiya, insanşünaslıq, təsəvvüf, etika və estetika, “Məsnəvi”nin şərhi, “Nəhcül-bəlağə”nin təfsiri,

---

[493] Vəliyullah Xoştinət. Məhəmməd Təqi Cəfərinin həyatı və fəlsəfi görüşləri. Avtoreferat, Bakı, 2007. s. 3.
[494] Həmin mənbə. s. 4.

mədəniyyətşünaslıq, İslam siyasi fikrinin mənbələri, Xəyyam, Hafiz, Nizami kimi poeziya dahilərinin yaradıcılığı ilə bağlı müxtəlif sahələrdə tədqiqat aparması mütəfəkkirin ensiklopedizmi ilə əlaqələndirilir.

Ayrı-ayrı vaxtlarda Burucerdi, Xansari, Şeyx Məhəmməd Təqi Xansari, Əllamə Şeyx Əbdülhüseyn Əmini, Şeyx Məhəmməd Rza Müzəffər, Mirzə Cavad Tehrani, Mirzə Cavad Hairi, Mirzə Ağa Yalquzataci, Mürtəza Mütəhhəri, Şeyx Müctəba Qəzvini, Abdullah Cavad Amuli, Məhəmməd Saleh Mazandarani, Əllamə Seyid Məhəmmədhüseyn Təbatəbai, Bahəddini, Məhəmməd Təqi Behcət, Həsənzadə Amuli, şair və ədiblərdən Ustad Şəhriyar, Ustad Cəlaləddin Humai, Ustad Bədiüzzaman Foruzənfər, doktor Rövşənzəmir, Əli Əkbər Sadiq Rəşad və başqaları Məhəmməd Təqi haqqında söz söyləmiş, fikir bildirmiş, onun elmi fəlsəfi əsərlərini yüksək qiymətləndirmişlər.[495]

Ustadın önəmli əsərlərindən 15 cildlik Məsnəvinin şərhi, 27 cildlik "Nəhcül-bəlağə"nin şərhini qeyd etmək olar. Əllamənin elmi irsinə daxil olan əsərlərdən bəzisi aşağıdakılardır:

"İslam və Qərbə görə insan hüquqları", "Zərurət və azadlıq", "Həyatın məqsədi", "Təbiət və metafizika", "Elmi və həqiqət münasibətləri", "İbn Sinaya görə elm və irfan", "Həyatın idealı və ideal həyat", "Yumun dörd fəsəfi mövzuda fikirlərinin tənqidi", "Səbəbiyyət", "İslama görə incəsənət və estetika", "Din fəlsəfəsi", "Elmin fəlsəfəsi", "Fəlsəfəyə giriş", "Yaradılış və insan" və s.[496]

Əllamə Cəfərinin hər bir əsəri öz-özlüyündə qiymətli olsa da, heç şübhəsiz ki, "Nəhcül-bəlağə" əsərinə yazdığı şərh müasir hədis ədəbiyyatında ən fundamental və ən irihəcmli hədis əsəridir. Müəllif adından da göründüyü kimi, əsəri bütövlükdə İmam Əlinin "Nəhcül-bəlağə" əsərinə həsr etmişdir. O, əsəri şərh edərkən özündən əvvəl yazılmış bir çox mənbələrə müraciət etmişdir. Onun istinad etdiyi mənbələr içində daha çox özünü göstərən "Nəhcül-bəlağə" üzərinə yazılan, xüsusilə də İbn Əbülhədid Mötəzilinin (öl. 1258) iyirmi cilldə yazdığı "Şərhu-Nəhcil-bəlağə" əsəridir.

Müəllif İmam Əlinin kəlamlarında olan və hər kəs tərəfindən başa düşülməyən bəzi kəlmələri leksik baxımdan izah etmiş və bu izahlar zamanı orta əsrlərdə yazılmış bir çox lüğət kitablarına müraciət etmişdir. Müəllifin "Nəhcül-bəlağə"yə verdiyi şərh onun hərtərəfli biliyə malik olduğunu bir daha ortaya qoymuşdur. Çünki o, əsəri bütün yönlərdən, dilçilik, fəlsəfə tarix, hədisşünalıq, təfsir, sosiologiya, psixologiya və s. istiqamətlərdən izah etmişdir. Müəllifə qədər "Nəhcül-bəlağə"nin bir çox şərhləri olmuş və bunların içində ən irihəcmlisi isə İbn Əbilhədidin "Şərhu-Nəhcil-bəlağə" əsəri idi. Lakin Əllamə Cəfəri İmam Əlinin adı çəkilən bu əsərini heç kəsin nail ola bilmədiyi bir səviyyədə təfsir etmişdir. Əsər İranda fars dilində 27 cilddə nəfis şəkildə nəşr edilmişdir.[497]

Əllamə Cəfəri 50 illik elmi fəaliyyətdən sonra 1998-ci il 16 noyabrda dünyaya göz yummuşdu.

### 3.11. Əllamə Cəfər Sübhani ət-Təbrizi

Əllamə Cəfər Sübhani Təbrizi 1928-ci ildə Təbriz şəhərində alim və fəzilətli bir ailədə dünyaya gəlmişdir. O, ilk təhsilini ailə ocağında almış və ibtidai dini təhsilini Təbrizdə Mirzə Mahmud Fazilin mədrəsəsində bitirmişdir. Cəfər Sübhani Mirzə Mahmudun mədrəsəsində fars və ərəb ədəbiyyatına aid kitabları, o cümlədən Sədi Şirazinin "Gülüstan" və "Bustan"la yanaşı, "Tarixi-möcəm", "Nəsəbüs-sibyan", "Əbvabül-cinan" və digər əsərləri öyrənmişdir.

Sonralar Cəfər Sübhani ərəb ədəbiyyatı elmlərini öyrənmiş və Təbrizdəki Həsən Nəhvi və Əli Əliəkbər Nəhvidən qrammatikaya aid kitabları oxumuşdur. O, on yeddi yaşında təhsilini təkmilləşdirmək üçün Qum şəhərinə getmiş və orada üsul dərslərini Mirzə Məhəmməd Mücahidi Təbrizi və Mirzə Əhməd Kafidən öyrənmişdir. "Kifayətül-üsul" əsərini isə Məhəmməd Rza Gülpəyaqaninin nəzarəti altında mütaliə edib başa vurmuşdur. Bundan sonra o, təfsir, fiqh, fəlsəfə və kəlam elmlərini öyrənməyə başlamış və tez bir zamanda müəllimlərinin diqqəti-nəzərini cəlb edə bilmişdir. O, fəlsəfə elmini Seyid Məhəmməd Badkubeyidən və Seyid Məhəmmədhüseyn

---

[495] Həmin mənbə. s. 7-8.
[496] http://www.islamaz.com
[497] Bax: http://idrak.info/home; http://farsi.balaghah.net saytlarına.

Təbatəbaidən almışdır. Böyük filosof Təbatəbainin yanında 1948-ci ildən 1950-ci ilə kimi, yəni iki il müddətində Molla Sədranın "Kitabül-əsfar" əsərini bitirmişdir.

Onun fiqh elmləri sahəsindəki ustadları Seyid Hüseyn Təbatəbai Burucerdi, Seyid Məhəmməd Hüccət Kühkəməri və Seyid Ruhullah Xomeyni olmuşdur.

Yeniyetməlik yaşlarında Qum elmi hövzəsinin böyük ustadlarından İslam ilahiyyatının müxtəlif sahələrini öyrənən Cəfər Sübhani artıq gənc yaşlarında ikən Qum elmi hövzəsinin müctəhidlərindən ictihad təsdiqnaməsini əldə etmişdir.

Hal-hazırda Qum elmi hövzəsinin böyük müctəhidlərindən olan Cəfər Sübhani yüzdən artıq elmi, dini və fəlsəfi əsərlərin müəllifidir. Onun ilahiyyatın müxtəlif sahələrinə aid olan ona yaxın əsəri doğma dilimizə tərcümə olunmuşdur.

Onun əsərlərindən aşağıdakıları qeyd etmək olar:

"Rəsaili-fiqhiyyə", "Nizamün-nikah fiş-şəriətil-İslamiyyətil-ğərra", "Nizamül-irs fiş-şəriətil-İslamiyyətil-ğərra", "Nizamül-qəza vəş-şəhadə fiş-şəriətil-ğərra", "Nizamül-müzaribə fiş-şəriətil-ğərra", "əl-Xüms fiş-şəriətil-İslamiyyətil-ğərra", "Əhkamüs-saum fiş-şəriətil-İslamiyyətil-ğərra", "Nəblül-vitr fi qaidəti la zərər", "əl-İtisam bil-Kitab vəs-Sünnə", "əl-Məvahib fi təhriril-məkasib", "əl-Muxtar fi əhkamil-xiyar", "Qaidətani fiqhiyyətani", "Səbu məsailil-fiqhiyyə", "Ziyaun-nazir fi əhkami salatil-müsafir", "Nizamüt-talaq fiş-şəriətil-İslamiyyətil-ğərra", "əl-Buluğ və təliyyə risalə fi təsiriz-zaman vəl-məkan", "əl-Həcc fiş-şəriətil-İslamiyyətil-ğərra", "əz-Zəkat fiş-şəriətil-İslamiyyətil-ğərra", "Əhkamüs-səfər və adabuhu", "əl-Məhsul fi ilmil-üsul", "ər-Rəsailil-ərbəa", "ət-Təsamuh fi ədillətis-sünən", "əl-İctihad fi ədillətis-sünən", "əl-Muciz fi üsulil-fiqh", "əl-Vəsit fi üsulil-fiqh", "İrşadül-üqul ila məbahisil-üsul", "Risalə üsuliyyə", "Üsulul-fiqhil-məqarin", "Risalətüt-tərəttüb", "Məfahimül-Quran", "ət-Tövhid vəş-şirk fil-Quranil-Kərim", "Təfsire sureyi Rəd be name Quran və əsrare afriniş", "Buhusül-Quraniyyə fit-Tövhid vəş-şirk", "Təfsire-sureyi-Quran", "Təfsire-sureyi-Tövbə", "Təfsire-sureyi-Münafiqun", "Təfsire-sureyi-Hədid", "Təfsire-sureyi-Hucurat", "Təfsire-sureyi-Loğman", "Mənşure cavide-Quran", "Məbane tövhid əz didgahe-Quran", "Əsaləte ruh əz nəzəre Quran", "Şura dər Quran və Nəhcil-bəlağa", "Əhməd mövudu-İncil", "Xatəmiyyət əz nəzəre Quran, hədis və əql", "Mərəzhaye ecaz", "Bürhane risalat", "Şunaxte sifate-Xoda", "Aşinaye ba üsule İslam", "Cəhan beni İslami", "əl-Həyat və məarifil-İslami", "Məade insan və cəhan", "Məsdəre vücud", "Cəbr və İxtiyar", "Husn və qubuhi əqli", "Təvəssül", "əl-Bəda fil-Kitab vəs-Sünnə", "Rəhbəre-ümmət", "Pişvaye əz nəzəre İslam" (İmamət və xilafət), "Şəfaət əz didgahe Quran, hədis və əql", "Ruyətullah", "əz-Ziyarət", "Buhusül-miləl vən-nihəl" (8 cilddə), "Fərhənge əqaide və məzahibe İslami", "Məaş-şiətil-imamiyyə fi əqaidihim", "əş-Şiə fi məvkibit-tarix", "əş-Şiə və ilmül-kəlam abərə qurunül-ərbəa", "əl-Vəhhabiyyə fil-mizan", "Hiyə vəhhabiyyə", "əl-Əsmaüs-səlasə: əl-İlah, ər-Rəbb, əl-İbadət", "Əsma və sifat", "Vəhhabiyyə məbani fikri və karname əməli", "Üsulul-fəlsəfə", "Fəlsəfeyi-İslami və üsuli dialektik", "Nəzəriyyətül-mərifə", "Sərnəvişt əz didgahe elmi fəlsəfə", "Şenaxt dər fəlsəfeyi-İslami", "Fəlsəfətu əzabud-daim", "Sinayətül-asaril-İslamiyyə", "Təhlili əz fəlsəfeyi-Marks", "Furuğe-əbədiyyət", "Furuğe vilayət", "əl-Əimmə isna əşəriyyə", "əs-Sirətu-Muhəmmədiyyə", "Tarixe İslam", "Üsulul-hədis və əhkamuhu fi ilmid-dirayə", "Külliyyat fi ilmir-Rical", "əl-Qovlus-sərax fil-Buxar", "Durusul-mucizə fi ilmir-rical vəd-dirayə", "əl-Movsulətür-ricaliyyətil-meysirə", "Məsaili fiqhir-rical və mənabihi", "Tarixül-fiqhül-İslam və əduruhu", "əl-Hədisun-Nəbəvi beynəd-dirayə vər-rivayə", "İrşadül-üqul", "Təbəqatül-füqəha" (14 cilddə), "Şəxsiyyəthaye İslamiye-şiə", "Zendəgiye bozorgane-şiə", "Siyame fərzəngan", "Rəsail və məqalat", "Rumuze piruze mərdane bozorg" və s.

Əllamə Cəfər Sübhani hədisşünaslığa aid altı əsərin müəllifidir. Onun yazdığı bu əsərlər hədis elminin müxtəlif sahələrini, o cümlədən rical, dirayə və s. sahələrinə aiddir. Onun "Üsulul-hədis və əhkamuhu fi ilmid-dirayə" əsəri hədis elminin metodologiyasına aid müasir dövrdə yazılmış ən yaxşı əsər hesab olunur. Müəllif bu əsərinin müqəddimə hissəsində dirayə (hədis üsulu) elminin tarixi inkişaf mərhələlərəinə diqqət yetirmiş və bu sahədə ilk əsərin kim tərəfindən yazıldığını, məzhəb alimlərinin bu mövzudakı ixtilaflarını və onların səbəblərini geniş şəkildə işıqlandırmışdır. O, dirayə elminin tərifi

haqqında yazır: “Dirayə elmi vasitəsi ilə hədisin mətni, onun sənədi, nəql olma yolları öyrənilir, səhihindən zəifi araşdırılır. Həmçinin bu elm vasitəsi ilə məqbul hədislər mərdud hədislərdən seçilib öyrənilir”.[498]

Cəfər Sübhani Seyid Həsən əs-Sədrə istinadən yazır: “Həqiqətən dirayə elminə aid ilk əsəri Əbu Abdullah Hakim ən-Nisaburi qələmə almışdır. “Kəşfüz-zünun” əsərində “mim” hərfi fəslində yazırdı: “Mərifətül-ülumil-hədisə aid ilk əsəri Hakim Abdullah Məhəmməd bin Abdullah əl-Hafiz ən-Nisaburi (öl. 405 h/q) yazmışdı. O beş cilddədir və əlli növ hədisi ehtiva etməkdədir. Onu İbn Salah izləmiş və altmış beş növ hədisdən bəhs etmişdir”.[499] Lakin bu fikri qəbul etməyən Cəfər Sübhani yazır: “Dirayə elmində əshabımız tərəfindən ilk əsər yazan - necə ki, bu məşhur görüşdür - Cəmaləddin Əhməd bin Musa bin Cəfər bin Tavus (öl. 1274) olmuşdur. O, Əbdülkərim bin Əhməd bin Musa bin Tavusun (öl. 1294) atası, Əllamə əl-Hillinin (öl. 1327) və İbn Davud əl-Hillinin (öl. 1307) ustadıdır. O, imamiyyə məzhəbində hədislərin qismləri haqqındakı terminləri ilk olaraq ortaya qoymuşdur. O, rical və dirayə elmlərinin tədqiqatçılarındandır. Onun “Həllül-işkal” kitabı mənbədir. Onu Əllamə əl-Hilli “Xülasə”, İbn Davud əl-Hilli isə “Rical” əsərlərində mənbə kimi qeyd etmişlər”.[500] Bəli, İbn Tavus ilk olaraq bu sahədə əsər yazmış və mümkündür ki, ondan əvvəl bu sahədə əsər yazsınlar, lakin, dövrümüzədək gəlib çıxmamışdır”.[501]

Cəfər Sübhani adı çəkilən əsərində qədim alimlərə istinadən hədis elminin metodologiyasına aid ən məşhur əsərlərdən aşağıdakıları qeyd etmişdir:

“Kitabül-əlfaz”. Əsərin müəllifi Hişam bin Həkəm əş-Şeybani əl-Kufidir. O, İmam Sadiq və İmam Kazimin əshabından olmuşdur. Hədis, kəlam və digər elmlər sahəsində əsərlərin müəllifi olan əl-Kufi hesab edilir ki, ilk olaraq üsul elminə aid əsər də yazmışdır. O, 717-ci ildə Bağdadda vəfat etmişdir.

“Kitabu iləlül-hədis”. Əsərin müəllifi Yunus bin Əbdürrəhman Movla Ali Yəqtindir. O, Hişam bin Əbdülməlikin dövründə doğulmuş və İmam Sadiqi görmüşdü. Ali Yəqtin İmamı Səfa və Mərva dağları arasında görsə də, ondan hədis nəql etməmişdir. O, İmam Musa Kazim və İmam Rzadan rəvayət etmişdir. Onun çoxlu əsərləri var. O, hədis, fiqh, təfsir və kəlam elmləri sahəsində əsərlər də yazmışdır.

“əl-Xüsus vəl-ümum”. Əsərin müəllifi Həsən bin Musa bin Nobəxtidir. O, dövrünün böyük filasofu və mütəkəllimi olmuşdur. Müxtəlif elmlər sahəsində əsərlər yazan Noubəxtinin həm də üsul elmlərinə dair əsərləri vardır. O əsərlərdən də biri “Kitab fil-xəbəril-vahid vəl-aməl bih”dir.

“Həllül-işkal”. Əsərin müəllifi İbn Tavusdur (öl. 1274). Belə ki, o, ilk olaraq şiə məzhəbində hədisləri növlərə ayırmış, onların terminlərini müəyyənləşdirmiş və dirayə elmi haqqında dövrümüzə gəlib çıxan ilk üsul əsərini meydana gətirmişdi.

“Şərhu üsuli diraəytil-hədis”. Əsərin müəllifi Seyid Əllamə Əli bin Əbdülhəmid əl-Həsənidir. O, Əllamə Hillinin tələbəsi olmuş və hicri 726-cı ildə vəfat etmişdir.[502]

“Şəhru üsuli dirayətil-hədis”. Əsəri Əli bin Əbdülhəmid əl-Hüseyni qələmə almışdı. O, hicri səkkizinci (miladi XIV) əsrin alimlərindəndir. Onun qələmə aldığı bu əsəri haqqında Seyid Həsən Sədr “Təsisüş-şiə” əsərində[503] məlumat verir.

“əl-Bidayə fi ilmid-dirayə”, “Şərhul-bidayə”və “Qəniyyətül-qasidinə fi mərifəti istilahatil-mühəddisin”. Yuxarıda adı çəkilən hər üç əsərin müəllifi Şeyx Şəhid Zeynüddin əl-Amilidir (1506-1558). O, var gücünü sərf edərək dirayə elminə aid bu üç mühüm əsərləri yazmışdı. Onun yazdığı bu əsərlərdən ikincisi “ər-Riayə fi ilmid-dirayə” adı altında nəşr edilmişdir.

---

[498] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 14.
[499] əs-Seyid Həsən əs-Sədr. Təsisüş-şiə. s. 294; Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu fi ilmid-dirayə. s. 10.
[500] Cəfər əs-Sübhani. Üsulül-hədis. s. 9.
[501] Həmin mənbə.
[502] Rövzatül-cənnat. IV c. s. 347. Rəqəm-410; Şeyx Abbas əl-Qummi. əl-Küna vəl-əlqab. II c. s. 106.
[503] s. 295.

Müəllif üçüncü əsəri olan “Qəniyyətül-qasidin” əsərində “Şərhül-bidayə” əsərinin sonunda işarə etmiş və onun haqqında demişdir: “Hər kəs bu elmə aid probbemləri yaxşı araşdırmaq və incələmək istəyirsə, ona “Qəniyyətül-qasidinə fi mərifəti istilahatil-mühəddisin” kitabımızı tövsiyə edirik. Çünki o səni əsas məqsədinə çatdırar”.[504]

“Vüsulul-əxyar ilə üsulil-əxbar”. Əsəri Şeyx Hüseyn bin Əbdüssəməd əl-Amili (1513-1579) yazmışdı. Bu əsər iki dəfə çap edilmişdir.

“ət-Təhrirüt-Tavusi”. Əsərin müəllifi Şeyx Həsən bin Zeynüddin (1552-1608) hesab edilir. O, rical və dirayə elminin böyük alimlərindən olub “Məalim” əsərinin sahibi kimi məşhurdur. Bundan başqa, onun “Müntəqal-cəman” əsəri də vardır. O, hər iki əsərində dirayə elminin əsaslarına aid çoxlu məsələlərə toxunmuşdur.

“Kitabül-vəcizə fi ilmid-dirayə”. Əsər Bəhaəddin əl-Amili (1546-1622) tərəfindən yazılmışdı. Dövrünün nəhəng elmi şəxsiyyətlərindən olan Bəhaəddin dirayə elminə aid yazdığı əsərində bu elmin ehtiva etdiyi əksər problemlərə toxunmuşdur. Əbəs deyildir ki, onun yazdığı bu əsər sonrakı hədis və üsul alimlərinin diqqətini çəkmiş ona çoxlu sayda şərhlər yazmışlar. Belə ki, əsəri Seyid Həsən əs-Sədr şərh etmişdir.

“ər-Rəvaşihüs-səmaviyə”. Əsər dövrünün böyük alimi və dahi filosofu Seyid Mühəqqiq Mirdamət (öl. 1631) tərəfindən qələmə alınmışdı. O, əsərinin müqəddiməsində dirayə elminin terminlərini ortaya çıxarmış və əsər boyu bu elm haqqında olan məsələləri işıqlandırmışdı.

“Nihayətüd-dirayə fi şərhil-vəcizə”. Əsəri Seyid Həsən Sədruddin (1856-1935) yazmışdı. Adından göründüyü kimi o, əsərini Bəhaəddin əl-Amilinin “əl-Vəcizə” əsərini şərh edərək yazmışdı. Əsər ilk dəfə hicri 1324-cü ildə Hindistanda, sonra isə hicri 1331-ci ildə ikinci dəfə Saydada nəşr edilmişdir.

“Məqabisül-hidayə fi ilmid-dirayə”. Əsəri Əllamə Abdullah əl-Mamaqani (1869-1929) yazmışdı. O, “Tənqihül-məqal fi ilmir-rical” əsərinin də müəllifidir. Əsər hicri 1345-ci ildə Nəcəfdə nəşr edilmişdi.[505]

Daha sonra isə dirayə elminin əhatə etdiyi ən mühüm mövzuları işıqlandıran Cəfər Sübhani hədisin müxtəlif kateqoriyalarından bəhs etmiş, hər bir hədis növü haqqında məlumatlar vermişdir. O, burada təqribən əlliyə yaxın hədis növündən danışmışdır. Əsərin ən üstün cəhətlərindən biri də müəllifin qaynaqlarının rəngarəng olmasıdır. O, qaynaqlardan istifadə edərkən məzhəbi təəssübkeşlik göstərməmiş və mövzu ilə əlaqəli mötəbər bildiyi əsas mənbələrə müraciət etmişdir.

Alimin hədisşünaslığa aid yazdığı əsərlərdən biri də rical elmi sahəsinə aid olub “Külliyyat fi ilmir-rical” adlanır. Müəllif bu əsərində üç böyük fəsil açmış, hər bir fəsilə ad verərək mövzu ilə əlaqəli məsələləri həmin fəsillərdə izah etmişdir. Əsərin birinci fəslində rical elminin mənası, ehtiva etdiyi mövzular, onun problemləri, rical elmində ravilərin avtobioqrafiyalarının aydınlaşdırılması yolları, rical və dirayə elminin oxşar və fərqli cəhətləri və bu fəslin nəticələri haqqında məlumatlar öz əksini tapmışdır.

İkinci fəsildə isə rical elminə olan ehtiyac və onun dəlilləri, etibarlı ravilərin xəbərlərinin dəlil olması, ravilərin daşıyacağı əlamətlər, yalançı və hədis uyduran ravilər və onların tanınması yolları, rəvayətlərin sənədləri və bununla əlaqəli problemlər, alimlərin icma etiyi məsələlər, ravinin ədalətinin isbat edilməsi və nəhayət, üç şeyxin (ən-Nəcaşi, ət-Tusi və əl-Kəşşi) ravilər barəsindəki şahidlikləri haqqındakı məlumatlar işıqlandırılmışdır.

Əsərin üçüncü fəslində isə müəllif rical elminin əsas qaynaqları, onların müəllifləri, hər bir müəllifin əsərində izlədiyi metod, rical və fihrist adlı əsərlər arasındakı fərqli məsələlər, zəif ravilər və onların əhvalı haqqındakı mövzular geniş şəkildə tədqiq edilmişdir.

Bunlardan başqa, Cəfər Sübhaninin “əl-Qovlus-sərax fil-Buxari”, “Durusul-mucizə fi ilmir-rical vəd-dirayə”, “əl-Movsulətür-ricaliyyətil-meysirə”, “Məsaili fiqhir-rical və mənabihi”, “Tarixül-fiqhül-

---

[504] Şəhid əs-Sani. ər-Riayə fi ilmid-dirayə. s. 404.

[505] Cəfər əs-Sübhani. Üsulul-hədis və əhkamuhu. s. 9-14.

İslam və əduruhu", "əl-Hədisun-Nəbəvi beynəd-dirayə vər-rivayə" əsərləri də müasir hədisşünaslıq baxımından çox qiymətli və mötəbər mənbələrdir.

### 3.12. Əli Əhməd əl-Miyanəçi

Cənubi Azərbaycanın mühüm ərazilərindən, elm və mədəniyyət məkanlarından biri olan Miyanə şəhərinə mənsub alimlərdən biri Əli Əhməd bin Hüseyn Əli əl-Miyanəçidir. O, 1926-cı ildə Miyanə şəhəri yaxınlığında alim və ruhani bir ailədə doğulmuşdur. İlk təhsilini bölgənin görkəmli ruhani alimlərindən olan atası Molla Hüseyndən alan Əhməd on üç yaşında Miyanəyə gəlmiş və burada Şeyx Əbu Məhəmməd Höccətin yanında ərəb ədəbiyyatına, fiqh elminin əsaslarına (üsuli-fiqh) aid dərsləri oxuyub öyrənmişdir. Bundan əlavə, Miyanədə Şeyx Lütf Əli əş-Şərifi əz-Zənuzi, Mirzə Mehdi Cədidi kimi digər görkəmli alimlərdən dərs alıb ilahiyyatın müxtəlif sahələrinə yiyələnmişdir.

Bir müddət Təbriz şəhərinə səfər edən Əhməd Miyanəçi burada bir neçə ay qalmış, daha sonra isə buradan bir başa Qum şəhərinə səfər edərək oranın Seyid Hüseyn Qazi ət-Təbatəbai, Əhməd Kafi əl-Mələk, Mərəşi ən-Nəcəfi kimi alimlərindən dərs öyrənmişdir. İlahiyyat elminin müxtəlif mərhələlərini beləcə davam etdirən Miyanəçi, sonda öz dövrünün ən görkəmli müctəhidlərindən sayılan Ayətullah Burucerdidən, Mühəqqiq əd-Damaddan, Gülpəyaqanidən, Mirzə Haşim əl-Aməlidən, Əllamə Təbatəbaidən və Musəvi Ərdəbilidən fiqh, üsul və təfsir elmlərində sonuncu yüksək pillə sayılan və "dərse-xaric" adlanan elmləri mənimsəmişdir.

Əhməd Miyanəçi Qum elmiyyə hövzəsində fiqh, təfsir, hədis və digər elmlərin yüksək tədrisi ilə məşğul olmuş və bir çox tələbələr yetişdirmişdir. Onun tələbələri içərisində Seyid Cəfər Mürtəza əl-Amili, Seyid Məhəmməd Həsən Tərhini əl-Amili, Seyid Məhəmməd Mürtəza əl-Amili, Seyid Haşim Nəsrullah əl-Amili, Şeyx Həsən Cəriri əl-Amili və Seyid Heydər Şərəfüddin əl-Amilinin adlarını qeyd etmək olar.

Əhməd Miyanəçi tədris işləri ilə məşğul olmasından əlavə, eyni zamanda xeyli sayda dəyərli əsərlər də yazmışdır. Onlardan aşağıdakıları qeyd etmək olar:

"Məkatibür-Rəsul (s)". Müəllif əsərini çox yüksək qiymətləndirərək onun haqqında demişdir: "Bu kitab ömrümün hasilidir". Əsər dörd cilddə "Darül-hədis" mətbəəsində nəşr edilmişdir.

"Məvaqifüş-şiə". Əsər məzhəb alimlərinin bəzi məsələlərdəki müzakirələrinin məcmusu olub, Qum şəhərində nəşr edilmişdir.

"əl-Mələkiyyətül-xassə fil-İslam". (İki cilddə nəşr olunmuşdur), "əs-Sücud ələl-Ərz", "ət-Təbərrük". "əl-Əsir fil-İslam", "Məkatibu İmam Rza (ə)", "Zəllamətüz-Zəhra (ə)", "Kitabu Əqil bin Əbi Talib", "Məkatibu Əimmə (ə)".

Beləliklə, ömrünü İslam elmlərinin tədrisinə sərf edən bu dəyərli alim 2000-ci ildə Qum şəhərində vəfat və etmiş həzrət Məsumənin məqbərəsi yaxınlığında dəfn edilmişdir.

### 3.13. Məhəmməd Sadiq ən-Nəcmi

Cənubi Azərbaycan alimlərindən olan Məhəmməd Sadiq Nəcmi 1936-cı ildə Təbriz yaxınlığındakı Homs bölgəsində dünyaya gəlmişdir. Alim və fəzilətli bir ailədə dünyaya gələn Məhəmməd Sadiq ilk təhsilini bölgənin görkəmli alimlərindən biri olan atası Mirzə Əhməd Horisidən almış, sonralar təhsilini davam etdirmək üçün Təbrizin ən məşhur mədrəsələrindən biri olan Talibiyyədə oxumuşdur. Bir müddət burada təhsilini davam etdirən Məhəmməd Sadiq öz biliyini daha da təkmilləşdirmək və ali dərəcədə ilahiyyat təhsili almaq üçün 1953-cü ildə Qum şəhərinə getmişdir. Burada dövrünün ən görkəmli alimlərindən olan Meşkini, Sultan Təbatəbai, Əllamə Təbatəbai və digər görkəmli alimlərdən elm öyrənmişdir. Bundan başqa, tətil vaxtlarında Qumdan Məşhəd şəhərinə səfər edib oranın da alimlərindən bəhrələnmişdir.[506]

---

[506] http://msnajmi.andishvaran.

Məhəmməd Sadiq Nəcmi uzun müddət Qum şəhərində yaşamış və öz elmi-dini fəaliyyətini də məhz bu şəhərdə ərsəyə gətirmişdir. Lakin bütün bu deyilənlərə baxmayaraq, ən məşhur əsərlərindən biri olan "Əzva əla səhiheyn" əsərini Məşhəddə İmam Rzanın məqbərəsində yazdığı qeyd edilir.[507]

Qeyd edildiyi kimi, Məhəmməd Sadiq Nəcminin elmi-dini fəaliyyəti çox zəngindir. O, İslam ilahiyyatının müxtəlif sahələrinə aid dəyərli əsərlərin müəllifidir. Onun yazdığı əsərlərdən aşağıdakıları qeyd etmək olar:

"Hədis tarixi", "Buxari və Müslümün "səhih"lərinə bir baxış", "Vəhhabiliklə tanışlıq", "Quranla tanışlıq", "Quranın tarixi" və s.

Məhəmməd Sadiq Nəcminin dilimizə tərcümə olunmuş ən məşhur əsəri "Buxari və Müslümün "Səhiheyn" əsərlərinə bir baxış" əsəridir. Müəllifin bu kitab iki cild halında nəşr olunmuşdur. Adından da göründüyü kimi, müəllif əsərini IX əsrin iki hədis alimi Məhəmməd bin İsmayıl əl-Buxarinin "Səhih"i ilə Müslüm bin Həccac ən-Nisaburinin eyni adlı əsərinə həsr etmişdir. Müəllif ilk öncə kitaba bir müqəddimə yazmış, burada Məhəmməd Peyğəmbərin peyğəmbərliyi haqqında olan bəzi ayələri, sonra Peyğəmbərimizin Əhli-beytinin İslamdakı üstünlükləri haqqındakı hədisləri, hədislərin yazılmasının zəruriliyini, Peyğəmbərdən sonra hədislərin yazılmasının qadağan olunmasının səbəblərini və bunun acı nəticələrini, Əməvilər (661-750) və Abbasilər xilafəti (750-1258) dövründə bəzi xəlifələrin Peyğəmbərin Əhli-beyti və hədisləri ilə etdikləri rəftarlar, Peyğəmbərin adına hədislərin uydurulmasının səbəbləri və uydurmaçı bəzi şəxslərin adlarını və s. qeyd etmişdir.

Müəllifin əsərdə diqqət yetirdiyi digər mətləblərdən hədis və sünnə sözlərinin lüğəvi və istilahi mənaları, Qurani-Kərim və Peyğəmbərin öz baxışları əsasında hədisin və sünnənin əhəmiyyəti, hədislərin yazılması tarixi, Əməvi xəlifəsi Ömər bin Əbdüləzizin (717-720) hədislərin yazılması ilə əlaqədar imzaladığı fərman və onun müsbət nəticələri, Quranla hədisin fərqi, hədis yazanların rütbələri, "Səhih" və "Müsnəd" adı altında yazılmış kitabların bir-birlərindən fərqli cəhətləri və nəhayət, kitabın yazılmasında əsas məqsədinin nə olduğunu qeyd etmək olar.

Müqəddimədən sonra müəllif adı çəkilən əsərində Məhəmməd bin İsmayıl əl-Buxarinin və Müslüm bin Həccac ən-Nisaburinin tərcümeyi-halları, adı çəkilən alimlərə məzhəb alimlərinin rəyi, "Səhihül-Buxari" və "Səhihu-Muslim" kitablarının əsas xüsusiyyətləri, onların şərhləri, raviləri və onlarla belə mövzuları işıqlandırmışdır. Kitabda diqqəti çəkən məqamlardan biri budur ki, müəllif yeri gəldikcə, adı çəkilən əsərlərdəki zəif nöqtələri qeyd etmiş, onların bəzi hədislərinin zəifliyini və onları nəql edən ravilərin hallarını bütün təfərrüatı ilə ortalığa qoymuşdur. Əsərin çoxsaylı mənbələr əsasında yazılması onun mötəbərliyini artırmaqdadır.

### 3.14. Məhəmməd Hadi əl-Milani

Məhəmməd Hadi bin Cəfər bin Əhməd bin Mürtəza əl-Milani 1891-ci ildə İraqın Nəcəfül-əşrəf şəhərində doğulmuşdur. Onun atası Cəfər bin Əhməd əl-Milani öz dövründə mərcəi-təqlid müctəhidlərdən və müsəlman dünyasının ən görkəmli alimlərindən biri olmuşdur. Buna görə də ilk təhsilini Nəcəfül-əşrəfdə atasından almış və bunula yanaşı, Nəcəfin digər alimlərindən müqəddimə dərslərini öyrənmişdir. Burada Mirzə əl-Həmədani, Həsən ət-Təbrizi, İbrahim əs-Saliyani, Cəfər əl-Ərdəbili, Əli əl-İrəvani, Qulam Əli əl-Qummi, Əbülqasim əl-Maməqani, Hüseyn əl-Badkubeyi, Məhəmmədhəsən əl-Qərəvi, Əli əl-Qazi və digər görkəmli alimlərdən mükəmməl təhsil almışdır. Onun ustadlarının adlarından da göründüyü kimi, onların böyük bir hissəsi Azərbaycan alimləri olmuşlar.

Məhəmməd Hadi əl-Milaniyə hədis rəvayət etməsi üçün icazə hüququnu Həsən əs-Sədr, Əbdülhüseyn Şərafəddin, Abbas əl-Qummi, Ağa Bozrk ət-Tehrani kimi alimlər vermişlər.

İslam maarifinin yayılmasında əvəzedilməz xidmətləri olan Məhəmməd Hadinin Məhəmmədhüseyni əş-Şirazi, Hüseyn Vəhid əl-Xorasani, İbrahim Ələmülhuda, Abbas əs-Sədr,

[507] Ayətullah Məhəmməd Sadiq Nəcmi. Buxari və Müslümün "Səhih"lərinə bir baxış. I c. s. 9.

Məhəmməd Bağır Höccət ət-Təbatəbai, Hüseyn əş-Şəms, Məhəmməd Təqi Cəfəri, Nurəddin əl-Milani, Cəlaləddin əl-Urməvi və digər tələbələr yetişdirmişdir.

Məhəmməd Hadi əl-Milani aşağıdakı əsərlərin müəllifidir:

"Qadətüna keyfə nərifuhum", "Təfsiru surətil-Cümə vət-Təğabun", "Minhu və əşərə əsilə", "Haşiyə əla ürvətil-vüsqa", "Müxtəsərül-əhkam", "Nüxbətül-məsail", "Mənasikül-həcc".

Ömrünü elmə həsr edən bu dəyərli alim 1973-cü ildə Məşhəddə vəfat etmişdir.

## 3.15. Seyid Əli Hüseyni əl-Milani

Seyid Əli Hüseyni əl-Milani müasir dövrümüzün tanınmış din alimlərindən biri olmuşdur. O, 1945-ci ildə Nəcəfül-əşrəfdə alim və ruhani bir ailədə doğulmuşdur. Onun atası Seyid Nurəddin əl-Milani Kərbəla şəhərinin elmi mərkəzinin müdiri, öz dövrünün ən tanınmış ruhani alimi olmuşdur. Seyid Əli Milaninin babası Seyid Məhəmməd əl-Milani də müsəlman aləminin böyük müctəhidlərindən və fəzilətli şəxslərindən imiş. O, mərcəi-təqlid müctəhid olmuş və 1972-ci ilində Məşhəddə vəfat etmişdir. Milaninin ana babası Seyid Hüseyn Rəzəvi ət-Təbrizi də dövrünün sayılıb-seçilən alimlərindən imiş. O, 1963-cü ildə Nəcəfül-əşrəfdə vəfat etmiş və orada da dəfn edilmişdir.

Seyid Əli Hüseyni əl-Milani müqəddimə dərslərini öz doğma ailə ocağında almış, sonra isə Kərbəla şəhərindəki mədrəsədə oxumuş və buranı bitirdikdən sonra Nəcəfül-əşrəf şəhərinə getmişdir. Lakin İraqda siyasi hakimiyyət dəyişdikdən sonra onun ailəsi İraqdan İrana köçmüşdür. İranın Məşhəd şəhərinə köçən Seyid Əli buranın alimlərindən bir müddət elm öyrənmiş, daha sonra isə Qum şəhərinə gedərək dərslərini orada davam etdirmişdir. Seyid Əlinin dünyagörüşünün formalaşmasında Seyid Məhəmməd Rza Musəvinin, Hüseyn Vəhid Xorasaninin, Seyid Məhəmmədhüseyni Ruhaninin, Mirzə Məhəmməd Kazim Təbrizinin, Şeyx Mürtəza Hairinin və digər elm nəhənglərinin böyük rolu olmuşdur.

Hədis elmində də adı çəkilən bu və ya digər alimlərdən dərs alan Seyid Əli rəvayət etmək hüququnu əldə etmişdir.

Qum şəhərində "Mərkəzül-həqaiqil-İslamiyyə" adlı elmi mərkəz təsis edən Seyid Əli Milani bu mərkəzin vasitəsilə bir çox kitabların nəşrini həyata keçirmişdir. İslam maarifinin təbliğində də əvəzsiz rolu olan bu mərkəzin fəaliyyəti hələ də davam etməkdədir.

Seyid Əli Milani bir çox əsərlərin müəllifidir. Onlardan aşağıdakıları qeyd etmək olar:

"Nəfəhatül-əzhar fi xülasəti əbəqatil-ənvar", "Təşyidül-müraciat və tənfidül-mükabirat", "Şərhu minhacil-kəramə fi mərifətil-imamə", "Mən hum qətələtül-Hüseyn (ə), Şiətül-Kufə?", "ər-Rəsailül-üşr fil-əhadisil-mövzuə fi kütubis-sünnə", "ət-Təhqiq fi nəfyit-təhrif ənil-Quraniş-şərif", "Dirasat fi minhacis-sünnə liməfifəti İbn Teymiyyə", "İstixracül-məram min istiqsail-ifham", "Mühazirat fil-etiqadat", "əl-Qəza vəş-şəhadat", "Kitabül-bey", "Təhqiqül-üsul".

## 3.16. Məhəmməd Bağır əz-Zənzcani

Müasir dövrün tanınmış alimlərindən biri Məhəmməd Bağır Ənsari Zəncanidir. O, 1961-ci ildə Azərbaycanın gözəl guşələrindən biri olan Zəncanda doğulmuşdur. Kiçik yaşlarında ilahiyyat elmlərinin müqəddimə dərslərinə başlayan Zəncani böyüdüyü Qum şəhərinin elmi və mənəvi mühiti sayəsində öz dərslərini çox yüksək səviyyədə mənimsəyir. Ərəb dili elmlərini yüksək nailiyyətlə bitirən Zəncani fiqh və üsul elmlərini Mürtəza Yəzdi Hairidən və Şeyx Hüseyn Vəhid Xorasanidən, Seyid Musa Zəncani və Seyid Məhəmməd ər-Ruhanidən öyrənir. Belə görkəmli alimlərin hüzurunda oxuyan Zəncani hələ gənclik yaşlarında ictihad təsdiqnaməsini alır.

Hazırda Cənubi Azərbaycanın ən tanınmış alimlərindən olan Zəncani bütün ömrünü elm və dinin təbliğinə həsr etmiş və aşağıdakı dəyərli əsərləri yazmışdır:

"Şərhu hədisi-Kisa", "Əsrari-Qədir", "Xitabə-Qədir", "Təhqiqi Səlim bin Qeys əl-Hilali", "Təhqiqi-kitabil-yəqin və kitabit-təhsin" (Seyid bin Tavusun əsərləri üzərinə), "Qıssətu Muxtar əs-

Səqəfi", "Tərcümə məqtəli-Əbi Mehnəf", "Tərcümə kitabil-əxlaq" (Seyid Abdullah Şübbərin əsəri üzərinə), "Fihristu məxtutati məktəbəti Şeyx Əli Heydər".[508]

Göründüyü kimi, müəllifin əsərlərinin çoxu hədisşünaslığa aiddir. Müəllif Peyğəmbərimizdən nəql olunan "Qədir-xum" hədisi haqqında onun müxtəlif tərəflərini izah edən fərqli əsərlər yazmış və ən mötəbər qədim qaynaqlar əsasında öz şərhini və mülahizələrini bu əsərlərdə ortaya qoya bilmişdir. Onun bu əsərləri fars dilindədir. Lakin sonrakı əsərləri isə ricalşünaslıq baxımından qiymətli olub müəllifin ərəbcə ərsəyə gətirdiyi əsərlər sırasına daxildir.

### 3.17. Əli Hicrani ət-Təbrizi

Əli Münib Hicrani Təbrizi müasir Cənubi Azərbaycan ilahiyyatşünaslığının sayılıb-seçilən alimlərindəndir. O, 1943-cü ildə Təbriz şəhərində dindar və alim bir ailədə dünyaya gəlmişdir. İbtidai təhsilini doğma şəhərində alan Əli Hicrani 1962-ci ildə İranın Qum şəhərinə köçmüş və orada bir müddət məskunlaşaraq Qum Elmi Hövzəsinin ən tanınmış alim və müctəhidlərindən elm öyrənmişdir. Bir müddət təhsilini Qumda davam etdirən Əli Hicrani sonralar Məşhəd şəhərinə köçmüş və bir neçə il burada elmi-dini təhsil almışdır. Dini təhsilini daha da təkmilləşdirmək üçün İraqın Nəcəfül-əşrəf şəhərinə səyahət edən Əli Hicrani yeddi il burada qalmış və otuz beş yaşında ictihad təsdiqnaməsini Nəcəfin böyük alimlərindən alaraq doğma vətəninə qayıtmışdır.

İslam dininin təbliğində mahir və bacarıqlı bir ustad olan Əli Hicrani Təbrizi uzun müddət doğma Azərbaycanımızda da təbliğatlar aparmış və bir müddət Bakı İslam Universitetində də pedaqoji fəaliyyət göstərmişdir.

Ömrünü dini maarifin təbliğ və təşviqinə həsr edən bu dəyərli alim öz doğma dilində bir çox kitabların müəllifidir. Onlardan aşağıdakıları qeyd etmək olar:

"Orucun tarixi və mənəvi dəyərləri". Müəllif əsərini dinimizin ən zəruri ayinlərindən biri olan orucluğa həsr etmişdir. Əsər 143 səhifədən ibarətdir. Müəllif burada orucluğun tarixi mənşəyi, qədim dinlərdəki orucluq, orucun növləri, şəri hökmləri, ramazan ayının fəzilət və üstünlükləri, qədr gecəsi və onun mənəvi dəyərləri haqqında geniş bəhs etmiş və zəngin ədəbiyyatdan istifadə edərək sanballı bir əsər orataya qoymuşdur.

Sözü gedən əsər 2005-ci ildə Məhdiyar nəşriyyatında nəşr edilmişdir.

"Həccin tarixi və mənəvi dəyərləri". Adından da göründüyü kimi, müəllifin bu əsəri həcc və onun insan mənəviyyatına olan müsbət təsirləri haqqındadır. Müəllif başda Quran və hədisi-şəriflər olmaqla bir çox dini mənbələrə istinad edərək həcc və onun hökmləri, həccin mənəvi gücü, həcc ibadətinin hikmətləri və s. məsələləri sadə, lakin elmi-dini müstəvidə tədqiq etmişdir.

"Namazın mənəvi həyatı". Müəllif əsəri bütövlülkdə namaza və onun insan mənəviyyatına təsirlərinə həsr etmişdir. Əsər 2000-ci ildə Məhdiyar nəşriyyatında nəşr edilmişdir.

Əsər 175 səhifədən ibarətdir və 2006-cı ildə Məhdiyar nəşriyyatında nəşr edilmişdir.

"Əltafür-Rəhman (Qurani-Kərimin Azərbaycan dilinə tərcümə və təfsiri)". Məlum olduğu kimi, müasir dövrümüzdə Qurani-Kərim bir neçə dəfə doğma dilimizə tərcümə olunmuşdur. Lakin onun müasir dilimizə təfsiri yoxdur. Əli Hicrani Təbrizinin doğma dilimizdə belə bir təfsir yazması xalqımızın İslam maarifinə verdiyi töhfənin bariz nümunəsidir.

Müəllifin adı çəkilən təfsir kitabının birinci cildinin ilk nəşri Bakıda 2014-cı ildə Zərdabi LTD MMC nəşriyyatında işıq üzü görmüşdür. Əsərin ikinci və üçüncü nəşri 2016-cı, dördüncü cildi isə 2018-ci ildə eyni mətbəədə nəşr edilmişdir.

Əsərin birinci cildində Qurani-Kərimin tarixinə, onun yazılması, toplanması və nəşr olunması, ilk Quran qareləri və onların qiraət üslubuna və s. məsələlərə aydınlıq gətirən müəllif son dərəcə obyektiv nəticələrə gəlmişdir. Məzhəbi təəssübkeşlikdən uzaq olan müəllif əsərdə ilk öncə ayələrin doğma dilimizə tərcüməsini verir, daha sonra isə onların təfsirini qeyd edir. Müəllif ayələri təfsir edərkən

[508] Seyid Əbdüləziz ət-Təbatəbai. əl-Qədir fi türasil-islami. s. 258.

özündən əvvəlki təfsir və hədis qaynaqlarına müraciət etmiş və qeyd etdiyi hər bir hədisin öz əsl mənbəsini verməklə yanaşı, onları yeri gəldikcə, öz təhlil süzgəcindən də keçirmişdir.[509]

[509] Müəllifin həyatı və fəaliyyəti haqqında bax: Təbrizi Əli Hicrani. "Orucun tarixi və mənəvi dəyərləri". Bakı, Məhdiyar nəşriyyatı, V çap, 2005; "Həccin tarixi və mənəvi dəyərləri". Bakı, Məhdiyar nəşriyyatı, I çap, 2006; "Əltafür-Rəhman: Qurani-Kərimin Azərbaycan dilində tərcümə və təfsiri". I c. Bakı, Zərdabi LTD MMC mətbəəsi, 2016 və Bakı, II-III cildlər. Zərdabi LTD MMC mətbəəsi, 2016.

# IV FƏSİL

# QADINLARIN HƏDİS ELMİNDƏ ROLU VƏ AZƏRBAYCANIN QADIN HƏDİSŞÜNASLARI

## 4.1. Qadınların hədis elmində rolu

Biz bir çox xanımların, xüsusilə də xanım səhabələrin İslam tarixindəki şanlı həyatlarına baxdığımız zaman, onların bu dinin yayılmasında necə də böyük səy etdiklərinin şahidi oluruq. Məsələn, bu xanımlar içində məşhur səhabə Ümmi-Əymən xüsusi şəkildə fərqlənməkdədir. O, Peyğəmbərin doğumuna şahid olmuşdur. Əbva kəndində anasız qalan balaca həzrət Məhəmmədi bağrına basdıqdan sonra, ona şəfqət əllərini uzadacaq qədər də vəfalı bir qadın olan Ümmi-Əymən bundan sonrakı həyatını da bu mübarək körpəyə həsr etmiş, ona xidmət etməkdən zövq almış fədakar bir insan olmuşdur. Bu məziyyətlərinə görə də Peyğəmbərin məhəbbətinə məzhər olan bir qadın idi.

Ümmi-Əymənin fəziləti yalnız Peyğəmbərə xidmət etməsi ilə məhdud deyil. Onun o qədər çox məziyyəti vardır ki, bunlar danışmaqla bitməz. O, əvvəlcə ilk iman edənlərdən biri və iki dəfə hicrət edərək mühacir olmaq şərəfinə nail olmuş imanlı, ixlaslı və səmimi bir müsəlman qadın idi.

Ümmi-Əyməni müsəlmanların gözündə sevimli edən digər bir məziyyəti də cəsarəti idi. Yaralıları və xəstələri müalicə edib, orduya su daşımaq üçün savaşa qatılan Ümmi-Əymən Ühüd kimi çətin bir döyüşdə kişilərin qaçıb həzrət Peyğəmbəri yalnız buraxdıqlarını görəndə, qılıncı əlinə alıb Peyğəmbərini müdafiə edəcək qədər qorxmaz idi. O, kişilərin qaçdığını görəndə qaçan bir şəxsə: "Burada cəhrə (ip əyirən alət. - İ. Q.) var! Onu götür, ip əyir! Qılıncını da gətir ver mənə. Mən vuruşacağam!" – demiş, sonra da qılıncı əlinə alıb Peyğəmbəri müdafiə etmişdi. Ümmi-Əymən təkcə Ühüddə deyil, bir çox müharibəyə qoşularaq Peyğəmbərini müdafiə etmişdi. Elə bu səbəblərdən idi ki, Peyğəmbər ona "Ey anam!" - deyə xitab edər, onun haqqında "anamdan sonra anamdır", - deyərək Ümmi-Əymənin şərəfini bəyan etmişdir.

Xanım səhabələr içində Ümmi-Vərəqə də xüsusi yerə və məqama malikdir. O, Allah yolunda cihad etməyi və şəhid olmağı çox arzulayan biri idi. Mənbələrdə qeyd edilir ki, Ümmi-Vərəqə Bədr döyüşü üçün ordu hazırlananda Peyğəmbərimizin yanına gəlmiş və "Ey Allahın Rəsulu, icazə versəniz sizinlə birlikdə müharibəyə qatılardım! Mən yaralılarınızı müalicə edər, xəstələrə baxardım. Ola bilsin ki, mənə Allah yolunda şəhidlik də nəsib olsun!" – deyə xahiş etmişdi. Lakin Peyğəmbərimiz heç bir qadının Bədr müharibəsinə qoşulmasına icazə verməmişdi. Amma Ümmi-Vərəqəyə "Vərəqə, Allah sənə şəhidlik nəsib edəcəkdir!" - deyə müjdə vermiş və bundan sonra da Peyğəmbər onu hər gördüyü zaman "Şəhidə", - deyə xitab etmişdir.

Xatırladaq ki, Ümmi-Vərəqə dini məsələlərdə məlumat sahibi idi. O, İslamı ən gözəl şəkildə yaşamağa səy göstərirdi.

İslam tarixinin şərafətli xanımlarından biri də Nəsibə idi. O, Peyğəmbərimizin Mədinəyə İslamı öyrətmək üçün göndərdiyi Müsəb bin Ümeyir vasitəsilə müsəlman olmuşdu. Nəsibə güclü bir imana malik idi. Allahın yolunda həyatını ortaya qoymaqdan çəkinməzdi. Belə ki, o, İslam müharibələrinin ən şiddətli anında özünü Peyğəmbərə sipər etmiş, öz qəhrəmanlığı ilə adını İslam tarixinə qızıl hərflərlə həkk etdirmişdi.

Bütün bu deyilənlərin fonunda bir daha qeyd etmək lazımdır ki, İslam ilahiyyatşünaslığının, xüsusilə də onun mühüm bir qolu olan hədisşünaslığın inkişafında qadınların böyük rolu olmuşdur. Peyğəmbərin kişi səhabələri olduğu kimi, onun qadın səhabələri də çoxlu sayda hədisi-şərif nəql etmişlər. Hətta bəzi mənbələrdə belə nəql olunur ki, bir qadın Peyğəmbərin yanına gələrək onun sözlərindən yalnız kişilərin istifadə etdiklərini deyərək öz narazılığını bildirmişdir. Buna görə də Peyğəmbər xüsusi bir gün ayıraraq həmin gündə yalnız qadınların onun məclisinə gəlməyini

tövsiyə etmiş və bununla da o, qadınların ondan elm öyrənmələrini təmin etmişdir.[510] Beləliklə, qadın səhabələr Peyğəmbərdən hədis öyrənmiş və öyrəndikləri hədisləri digərlərinə də öyrətmişlər. Hədis öyrənmək üçün səyahət etməyin bütün çətinliklərinə baxmayaraq, bəzi qadınlar bu işin öhdəsindən də böyük cəsarət və fədakarlıqla gəlmişlər. Onlar Peyğəmbəri görmək və ondan hədis öyrənmək üçün müxtəlif bölgələrdən səfərə çıxar və o həzrətin hüzuruna çataraq ondan dinimizin etiqad əsaslarını və dini ayinlərin icrasını öyrənərdilər. Peyğəmbər onları xoşluqla qarşılayar, onların suallarını diqqətlə dinləyər və hər birinin başa düşəcəyi tərzdə dini onlara izah edərdi. Belə müasfirlərdən biri Qilə bint Müxrimə əl-Ənbəriyyədir.

Peyğmbərin vəfatından sonrakı dövrə nəzər saldığımız zaman da qadınların hədis öyrənmək üçün səfərə çıxdıqlarının şahidi oluruq. Onların əksəriyyəti öz ailə-uşaqları ilə birlikdə müxtəlif bölgələrə səfərlər edir, orada dini maarifə yiyələnir və öyrəndiklərini də başqalarına öyrədərdilər. Əgər biz hədis kitablarına diqqət etsək, orada yüzlərlə xanım ravilərə rast gələr və onların hədis elmindəki yerinin necə də ali olduğunu görərik. Məsələn, IX əsrin iki məşhur hədis mənbəsi “Səhihül-Buxari” və “Səhihu-Muslim” əsərləridir ki, bunların birincisində 31, ikincisində isə 36 xanım səhabədən rəvayətlər vardır. Əgər Cəmaləddin əl-Mizzinin (1256-1342) “Təhzibül-kamal”, İbn Həcər əl-Əsqəlaninin (1372-1349) “Təqribüt-təhzib” və Seyid Əbülqasim əl-Xoyinin (1899-1992) “Möcəm ricalil-hədis və təbəqatir-rüvvat” əsərlərinə müraciət etsək, burada yüzlərlə xanım ravilərə və onların rəvayətlərinə rast gələrik. Təxmini hesablamalara görə, təkcə “Kütubus-sittə” əsərlər toplusunda xanımlardan 2764 hədis nəql olunmuşdur ki, bunların da xanım səhabələrdən nəql olunanı 2539 ədəddir. Bu hədislərin 2081 ədədini isə ummulmöminin Aişə bint Əbu Bəkr nəql etmişdir.[511] Hətta bəzi alimlər Peyğəmbərin xanımları içində kimin nə qədər hədis nəql etməsi məsələsini də araşdırmışlar. Müasir hədis tədqiqatçılarından olan Əffaf bint Əbdülğəfur Həmid “Cuhudül-mərə fi nəşril-hədis və ülumihi” adlı əsərində yazır: “Peyğəmbərin xanımlarından ümmulmöminin Aişə 2210, Ümmi-Sələmə 378, Meymunə bint əl-Haris 76, Həbibə bint Əbu Süfyan 65, Həfsə bint Ömər 60, Zeynəb bint Cəhş 11, Səfiyyə bint Heyy bin Əxtəb 10, Cüveyriyyə bint əl-Haris 7, Sevda bint Zəmə 5 hədis nəql etmişdir”.[512]

Peyğəmbərin əziz qızı Fatimeyi-Zəhranın “Müshəfi-Fatimə” əsəri hədis elmində ilk qaynaqlardan olmaqla yanaşı, həm də müsəlman qadınların elm və maarifə necə əhəmiyyət vermələrini göstərir.

Qadınların hədis elmindəki rolu səhabələrlə bitmir. Bu iş tabeilər dövründə də davam etmişdir. Görkəmli hədis alimi Müslüm bin Həccac Nişapuri tabei dövründə hər bir şəhərdə yaşayan qadın hədisşünasların adlarını qeyd etmiş, 69-u Məkkədə, 8-i isə Mədinədə olmaqla digər bir çox şəhərlərdə yaşamış xanımlar haqqında məlumat vermişdir. Müəllifin gəldiyi qənaətə görə, tabeilər içində 100-ə yaxın xanım hədisşünas olmuşdur.[513] Amma tədqiqatçı alim Nüsrəddin Bolelinin araşdırmalarına görə, hicri I əsrdə 246, II əsrdə isə 39 qadın ravi olmuşdur ki, bu Müslümün verdiyi məlumatdan daha çoxdur.[514]

Səlcuq Universitetinin alimi Mehmet Eren “Kadınların hadis ilminə katkıları” adlı kitabında yazır: “İlk əsrlərdən etibarən hədis alimləri qadınlardan da rəvayət etmişlər. Çünki bəzi hədis rəvayət edən şəxslərin müəllimləri arasında bir çox xanım vardır”.[515]

---

[510] Məhəmməd bin İsmail əl-Buxari. Səhihül-Buxari. Beyrut, Darül-cil, 1430/2009. s. 32. Hədis № 101.

[511] Abdullah Əta Ömər. Dövrül-mərə və cuhudiha fi ilmil-hədis fi əhdis-səhabəvət-tabein (https://ar.islamway.net/article saytına istinadən). Ümmulmöminin Aişənin həyatı və hədis fəaliyyəti haqqında məlumat üçün bax: İbrahim Quliyev. Hədisşünaslığın əsasları. Bakı, Elm nəşriyyatı, 2013. s. 97-100.

[512] Əffaf bint Əbdülğəfur Həmid. Cuhudul-mərə fi nəşril-hədis və ulumihi. Ümmul-Qura Universiteti məcmuəsi. XIX c. Ramazan, 1428 h/q. s. 237-240.

[513] Məşhur bin Həsən. İnayətün-nisa bil-hədisin-nəbəvi. Beyrut, 1414/1992. s. 52.

[514] Nusrettin Bolelli. Kadınların hadis ilmindeki yeri. İstanbul, 1998. s. 46-194.

[515] Mehmet Eren. Kadınların hadis ilmine katkıları. AÜİFD, XLIV c. (2003). Sayı I. s. 83-110. s. 89.

Beləliklə, məlum olur ki, qadınlar səhabə nəslindən etibarən, Peyğəmbərin hədislərinin mühafizəsi və sonrakı nəslə öyrədilməsində kişilərlə birlikdə mühüm bir rol oynamışlar. Onların bir çoxu səhabə və tabeilərın nəsillərindən olmuş məşhur xanımlar vardır. Üstəlik bunların bir qismi təfsir, fiqh və bir çox elmlərin inkişafında da mühüm rol oynamışlar.

Qadın hədisşünaslar içində Azərbaycan xanımlarının xüsusi yeri vardır. Məryəm bint Kəmaləddin əl-Maraği, onun bacısı Ümmül-Hüseyn və Ümmül-Hüseyn Fatimə Maraği onların öndə gələnlərindəndir.

### 4.2. Məryəm bint Kəmaləddin əl-Maraği

Azərbaycan hədisşünaslığının tanınmış simalarından biri Məryəm bint Kəmaləddin Əbülfəzl bin Məhəmməd bin Əbubəkr bin Hüseyn əl-Maraği idi. Mədinə şəhərində yaşayan Məryəmin doğum və vəfat tarixləri haqqında heç bir məlumat olmasa da, miladın XV-XVI əsrlərində yaşaması məlumdur.[516] Bu məlumatı Səxavi "Zəvül-ləvami" adlı əsərində[517] qeyd etmişdir.

### 4.3. Ümmul-Hüseyn bint Kəmaləddin əl-Maraği

Yuxarıda adını qeyd etdiyimiz Məryəm Marağinin bacısı olmuş Ümmül-Hüseyn hədis ravilərindən olmuşdur. O, yaşadığı Mədinə şəhərində Şəmsəddin Səxavidən (öl. 1497) hədis dinləmişdir. Bacısı Məryəm kimi onun da ölüm tarixi məlum deyil.[518] Onun həyatı haqqında məlumat qısa şəkildə Səxavinin "Zəvül-ləvami" əsərində keçməkdədir.[519]

### 4.4. Ümmul-Hüseyn Fatimə bint Cəmaləddin əl-Maraği

Ümmul-Hüseyn Fatimə Maraği orta əsrlərdə yaşamış Azərbaycan hədisşünaslarındandır. O, öz dövrünün ən görkəmli fəqihlərindən biri olmuş Zeynəddin Əhməd bin Əbubəkr əl-Osmani əl-Marağinin həyat yoldaşı idi. Onun atası Şeyx Cəmaləddin əl-Maraği də, eyni zamanda görkəmli fəqih və hədisşünaslardan imiş. Fatimə əvvəlcə atasından fiqh və hədis elmlərini öyrənmiş, sonra isə əmisi oğlu Şeyx Məhəmməd bin Əburəcc əl-Marağidən Qurani-Kərimin təcvid və qiraət qaydalarını öyrənmişdir. Fatimə həm də hədis dərsləri verirmiş. O, miladi tarixlə 1473-cü ildə vəfat etmişdir.[520] Onun haqqında Səxavi "Zəvül-ləvami" əsərində[521] məlumat vermişdir.

---

[516] Elnur Nəsirli. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər. s. 186.
[517] III c. s. 459.
[518] Elnur Nəsirli. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər. s. 186.
[519] III c. s. 469.
[520] Elnur Nəsirli. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər. s. 200.
[521] V c. s. 446.

# NƏTİCƏ

"Azərbaycan hədisşünaslığının inkişaf tarixi" haqqında kitabı tamamlayaraq aşağıdakı nəticələrə gəlirik:

**1.** İslam dinində hədis və sünnənin çox əhəmiyyətli və dəyərli olması ilə yanaşı, hədis üsulu və tarixi də mühüm yer tutur. Hər şeyin bir üsulu və metodu vardır. İslami elmlər də müəyyən bir metoda dayanmaqdadır. Xüsusilə təfsir və hədis elmləri sahəsində metodologiyanın özünəməxsus yeri var. Metodologiyanı bilmədən hədis elmini öyrənmək bir çox fəsadlara səbəb ola bilər.

Hədis elminin öyrənilmə üsulu ilk öncə hədis tarixini öyrənməklə başlayır. Çünki bu ikisi əslində bir-birini tamamlayıcı mahiyyətdədir. Hədis üsulunun inkişaf etməsi bildiyimiz kimi, İslam tarixinin inkişaf və irəliləməsi ilə bağlıdır. Məhz buna görə də hədis sahəsində hər hansı bir məlumat almaq istəyən hədisin və hədis elminin yaranma tarixini yaxından incələməli və bu mövzuda yazılmış əsərlərə müraciət etməlidir.

Bildiyimiz kimi, indiki Azərbaycan 70 il Sovet imperiyasının əsarəti altında olmuş, digər xalqar kimi azərbaycanlılar da öz dini mədəniyyətlərindən, bəzi maddi və mənəvi dəyərlərindən uzaq düşmüşlər. Mədəniyyətimizdən uzaq qalmaq tariximizə sağalmaz zərbələr vurmuş, xalqın mənəvi inkişafına mənfi təsir göstərmişdir. Bu təsir altında qalmaq mədəniyyətin hər sahəsində olduğu kimi, bir millətin mənəviyyatına da öz təsirini göstərmişdir. Buna görə də Azərbaycan hədisşünaslığı haqqında yazmaq, bu haqda nə isə demək mümkün olmamışdır. Amma müstəqilliyimizdən sonra bu sahədə işlər görmək, xarici ölkələrə səfərlər edib oranın kitabxana və elmi mərkəzlərində araşdırmalar aparmaq dövlətin yaratdığı münbit şərait nəticəsində mümkün olmuşdur.

**2.** Hədis elmlərinin təşəkkül tarixi və onun metodoloji əsasları Azərbaycan hədisşünaslığında diqqət mərkəzində olmuş, alimlərimiz bu və ya digər mövzuları fundamental şəkildə tədqiq və təhlil etmişlər. Onların əsərlərində hədis elminə aid terminlərin izahı, hədisin dindəki əhəmiyyəti və rolu, hədislərin növləri, doğru hədislərin qondarma hədislərdən seçilməsi, hədislərin tanınmasının yolları, ən mötəbər hədis qaynaqları, hədis nəql edənlərin (ravilərin) tərcümeyi-halları və s. məsələlər öz əksini tapmışdır.

**3.** Azərbaycan alimləri İslamın ilkin dövrlərindən etibarən hədisşünaslıqla mükəmməl şəkildə məşğul olmuş, bu elmin həm tarixinə və həm də metodologiyasına aid fundamental əsərlər yazmışlar. Bu əsərlər hər dövrdə, hər əsrdə hədis elmlərinin inkişafına və təbliğinə böyük təsir göstərmiş və ümumi olaraq hədisşünaslığın inkişafına təkan vermişdir.

**4.** Azərbaycan hədisşünaslığının ümumi İslam ilahiyyatında xüsusi yerə və çəkiyə malik olduğu, hədisşünaslarımızın yazdıqları əsərlərin bütün müsəlman dünyasında tanınması və mötəbər mənbələr içində yer tutması Azərbaycan hədisşünaslarının bu elmin inkişafındakı rolundan xəbər verməkdədir. Bu sahədə aparılan tədqiqatlar sübut edir ki, sözün həqiqi mənasında əgər Azərbaycan hədisşünasları olmasaydı, bəlkə də bu elm çoxdan tarixin qaranlıq səhifələrində itib-batmışdır.

**5.** Məlum olduğu kimi, hədis elmində hədislər iki yöndən araşdırılır. Birincisi, hədis sənəd (və ya isnad), ikincisi, isə mətn baxımından. Əgər hədisin sənədində və ya isnadında adı çəkilən ravilər (hədis nəql edənlər) tənqid edilmişlərsə, onların rəvayət etdikləri hədislər "zəif" hədis hesab olunur və onlara etiqadı məsələlərdə isnad etmək olmaz. Həmçinin hədis mətn baxımından araşdırıldıqda, onun Qurani-Kərimə və yaxud da səhih yolla nəql olunmuş hədislə ziddiyyəti olarsa, həmin hədis də mətn baxımından zəif hesab olunacaqdır.

Azərbaycan hədisşünasları öz əsərlərində hədisləri kor-koranə şəkildə deyil, onu sənəd və mətn baxımından araşdırmış və səhih bildiyi hədisləri kitablarına almışlar. Əlbəttə, bu o demək deyildir ki, onların əsərlərində keçən bütün hədislər doğrudur.

**6.** Azərbaycan hədisşünaslığının öyrənilməsi göstərir ki, burada aşağıdakı məsələlər əhatə edilmişdir:

**a)** İslamın ilkin dövrlərindən etibarən Azərbaycan hədisşünasları bu sahədə dəyərli əsərlər yazmışlar.

**b)** Digər xalqlara məxsus hədisşünaslar həmişə Azərbaycan hədisşünaslarının əsərlərinə və onların nəql etdikləri hədislərə yüksək qiymət vermiş və bu elmin incəliklərini onlardan öyrənmişlər.

**c)** Azərbaycan hədisşünasları hər vaxt Peyğəmbərin (s), onun Əhli-beytinin və sədaqətli səhabələrinin hədislərinə, onların yaşayış tərzinə, təfəkkür mədəniyyətinə yüksək qiymət vermiş və hədisi-şərifləri Qurandan sonra İslamın ikinci əsas qaynağı saymışlar.

**ç)** Azərbaycan hədisşünaslığı bütövlükdə İslam ilahiyyatına çox böyük təsir etmiş, İslam maarifinin yayılmasında və təbliğ olunmasında müstəsna rol oynamışlar.

Bütün faktlar göstərir ki, Azərbaycan hədisşünaslığını öyrənmədən, Azərbaycan hədisşünaslarının bu sahədəki əsərlərini tədqiq etmədən İslam maarifinə mükəmməl şəkildə yiyələnmək çətin olacaqdır. Buna görə də Azərbaycan hədisşünaslığı ümumi İslam ilahiyyatşünaslığı üçün də öz aktuallığını saxlamaqdadır.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

### Azərbaycan dilində:


1. Abbasov N., Təsəvvüf fəlsəfəsi. Bakı, 2012.-235 s.
2. Abdullayev M. Q. və b., Azərbaycan tarixi (ən qədim zamanlardan - XXI əsrin ilk onilliklərinədək). Ali məktəblər üçün dərslik. Bakı, Bakı Universiteti, 2014.-379 s.
3. Abuzərov N., Azərbaycanda ənənəvi din. Azərbaycanlı hədis alimləri. Bakı, 2017.-441 s.
4. Amuli C., Mərifət, mərifətşünaslıq və hikmət elmləri silsiləsindən. Tərcümə və şərh: Rövşən Abdullaoğlu. Bakı, Qədim Qala, 2012.-142 s.
5. Azərbaycan tarixi (III-XIII əsrin I rübü). Bakı, Elm, 1998.-546 s.
6. Azərbaycan tarixi. 7 clddə. III c. Bakı, Elm, 2007.-592+56 s.
7. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı, Bakı Universiteti nəşriyyatı, 2014.-380 s.
8. Baxşəliyev A., Səfəvilər dövründə Azərbaycanın cənub şəhərləri. Tar.ü.e.dok. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2005.-42 s.
9. Balayev M., İslam, əxlaq və siyasət. Bakı, ADPU, 1994.-36 s.
10. Bayramlı Z., Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Bakı, Avropa nəşriyyatı, 2015.-348 s.
11. Bayramlı Z., Füzuli yaradıcılığı və çağdaş ədəbi-nəzəri fikir. Fil.ü.f.dok. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 1994.-32 s.
12. Buxari M., Peyğəmbərin əxlaqı. 2 cilddə. Tərc: E. Musayev. Bakı, Şərq-Qərb, 2013. I c.-751 s., II c.-750 s.
13. Buxari M., Tam Səhih-Buxari. 2 cilddə. Tərc: Arif Həşimov. I c. Bakı, İpəkyolu nəşriyyatı, 2011.-414 s., II c., 2012.-467 s.
14. Bünyadov Z., Dinlər, Təriqətlər, Məzhəblər. Bakı, Şərq-Qərb nəşriyyatı, 2007.-336 s.
15. Casir Ö., Şəriətin məqsədləri: yeni başlayanlar üçün. Tərcümə edən və şərhlərin müəllifi: Elvüsal Məmmədov. Bakı, İdrak, 2012.-142 s.
16. Cəlilova N., Zirvədən baxış: 80 seçmə hədis. Bakı, 2012.-208 s.
17. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 3 cilddə. I c. Tərt: M. Mənafi, Z. Əkbərov və b. Red: M. İbrahimov. Bakı, Elm, 1981.-387 s.
18. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 3 cilddə. II c. Tərt: M. Mənafi, Z. Əkbərov və b. Red: M. İbrahimov. Bakı, Elm, 1983.-581 s.
19. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə. IV c. Bakı, Elm, 1994.-404 s.
20. Çakan İ. L., Səhabələr peyğəmbərimizi tanıdır. Tərcümə edən: M. Elşadqızı. Bakı, 2012.-77 s.
21. Çingizoğlu Ə., Aydın A., Avşarlar. Bakı, Şuşa nəşriyyatı, 2008.-352 s.
22. Dadaşova R., Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda). Ön söz: Yaqub Mahmudov. Bakı, Nurlan, 2003.-392 s.
23. Əbdülhəlim Ə. Ş., Peyğəmbərin dövründə qadın azadlığı. 2 cilddə. I c. Tərcümə edən: Elvüsal Məmmədov. Bakı, İdrak nəşriyyatı, 2014.-511 s.
24. Əbilova Z., Axund hacı Ağamirzə Əbdülkərim Ağa Badkubinin müasir Azərbaycan islamşünaslığında yeri. Bakı, Elm və Təhsil nəşriyyatı, 2013.-387 s.
25. Ədalət T., Nadir şah Əfşar. (Tərcümeyi-hal oçerki). Bakı, Çıraq nəşriyyatı, II çap, 2005.-40 s.
26. Əfəndiyev O., Azərbaycan Səfəvilər dövləti. Bakı, Şərq-Qərb, 2007.-344 + 8.
27. Əhmədov Ə., İslamın əsasları. Bakı, Təbib nəşriyyatı, 1996.-96 s.
28. Əhmədov Ə., Nikatül-Quran və Əsrarül-Quran. 2 cilddə. Bakı, Öyrətmən, 1994, I kitab 188 s. II kitab 168 s.
29. əl-Xəmis O. M., Tarixi hadisələrin təhlili: Peyğəmbərin vəfatından Hüseynin qətlinə qədər. Tərcümə edən: A. Muradlı. Bakı, 2012.-335 s.

30. əl-Xoyi S. Ə., əl-Bəyan təfsiri. 2 cilddə. Bakı. Tarixsiz. I c.-284 s., II c.-273 s.
31. Əlimuradov İ., IX-X əsrlər Azərbaycan alimi Əhməd bin Harun əl-Bərdicinin hədis fəaliyyəti. Fəl.ü.f.dok. elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2010.-22 s.
32. Əliyev H., Dinimiz xalqımızın milli-mənəvi sərvətidir. Bakı, 1999.-165 s.
33. Əliyev S., Füzulinin poetikası. Bakı, Yazıçı nəşriyyatı, 1986.-187 s.
34. əl-Qəzali M., Dini-mədəni islam fikri: tənqidi mülahizələr. Tərcümə və şərhlərin müəllifi: Elvüsal Məmmədov. Bakı, İdrak İctimai Birliyi, 2012.-381 s.
35. əl-Qəzali M., Müsəlman əxlaqı. Tərcümə edən: Elvüsal Məmmədov. Bakı, İdrak İctimai Birliyi, 2012.-350 s.
36. Əllamə Məhəmmədhüseyn Təbatəbainin hüzurunda 727 sual-cavab. Tərcümə: Mircəfər Əyyubzadə. Bakı, Nəşr ili göstərilməyib.-389 s.
37. Əlyazmalar kataloqu. 2 cilddə. Bakı, Elm, 1963-1977. I c.-514 s., II c.-187 s.
38. Əsgər Ə., XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti. Bakı, Elm nəşriyyatı, 2012.-368 s.
39. Əzimli D., Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı və XVII əsrin I yarısı). Bakı, Təhsil nəşriyyatı, 2012.-282 s.
40. Əzimov R., Hədis və rical elmi. Bakı, Ələm nəşriyyatı, 2015.-183 s.
41. Faseh R., Seyyid İmadəddin Nəsiminin seçilmiş bəzi şeirlərinin şərhi. Bakı, Şərq-Qərb, 2007.-392 s.
42. Fərzəliyev Ş., Azərbaycan XV-XVI əsrlərdə. (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə). Bakı, Elm nəşriyyatı, 1983.-151 s.
43. Fərzəliyev Ş., Azərbaycan və Osmanlı imperiyası XV-XVI əsrlərdə. Bakı, Azərnəşr, I çap, 1994.-200 s.
44. Fərzəliyev Ş., XV əsr Azərbaycan dövlətlərinin quruluşu. Bakı, Elnur-P, 2003.-220 s.
45. Füzuli M., Əsərləri. 6 cilddə. I c. Divan. Tərtib edən: Həmid Araslı. Red: Teymur Kərimli. Bakı, Şərq-Qərb nəşriyyatı. 2005.-400 s.
46. Füzuli M., Əsərləri. 6 cilddə. II c. Leyli və Məcnun, Bəngü-Badə, Söhbət ül-əsmar, Hədisi-ərbəin, Şikayətnamə. Tərtib edən: Həmid Araslı. Red: Teymur Kərimli. Bakı, Şərq-Qərb nəşriyyatı. 2005.-336 s.
47. Füzuli M., Əsərləri. 6 cilddə. III c. Qəzəllər. Tərtib edən: Həmid Araslı. Red: Teymur Kərimli. Bakı, Şərq-Qərb nəşriyyatı. 2005.-472 s.
48. Füzuli M., Əsərləri. 6 cilddə. IV c. Qəsidələr. Tərtib edən: Həmid Araslı. Red: Teymur Kərimli. Bakı, Şərq-Qərb nəşriyyatı. 2005.-344 s.
49. Füzuli M., Əsərləri. 6 cilddə. V c. Rindü Zahid, Səhhət və Mərəz, Mətləül-etiqad, Yeddi cam. Tərtib edən: Həmid Araslı. Red: Teymur Kərimli. Bakı, Şərq-Qərb nəşriyyatı. 2005.-224 s.
50. Füzuli M., Əsərləri. 6 cilddə. VI c. Hədiqətüs-Süəda. Tərtib edən: Həmid Araslı. Red: Teymur Kərimli. Bakı, Şərq-Qərb nəşriyyatı. 2005.-384 s.
51. Göyüşov N., Eynülqüzzat Həmədani. Təmhidat. Red: Möhsün Nağısoylu. Bakı, Adiloğlu, 2006.-248 s.
52. Göyüşov N., Füzulinin sənət və mərifət dünyası. Bakı-Tehran, İran Beynəlxalq Suruş nəşriyyatı, 1997.-386 s.
53. Göyüşov N., Quran və irfan işığında, (Hikmət və düşüncə karvanı həqiqət sorağında). Red: V. Məmmədəliyev. Bakı, İqtisad Universiteti nəşriyyatı, 2004.-288 s.
54. Göyüşov N., Təsəvvüf anlamları və dərvişlik rəmzləri (Yığcam ensiklopedik açıqlama). Bakı, "Tural-Ə", 2001.-236 s.
55. Hədislərlə İslam. 7 cilddə. I c. Tərc: N. Abuzərov. Elmi heyət: M. Görmez., M. Özafşar və b., Elmi red: K. Güneş. Bakı, Nurlar, 2016.-664 s.

56. Həmədani Ə. S., İslamda Cəfəri Məzhəbi və İmam Cəfər Sadiqin buyruqları. Tərcümə edənlər: Mustafa Əliyev, Ağanəcəf Həmidov. Bakı, Azərbaycan nəşriyyatı, 1995.-100 s.
57. Həsənəliyev Z., Səfəvi dövləti XVII əsrdə (Avropa səyyahlarının məlumatları əsasında). Tar.ü.e.dok. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2005.-35 s.
58. Həsənli S., İman və Elm. Bakı, Elm və Həyat Nəşriyyatı, 1998.-126 s.
59. Həsənli S., İslam Mədəniyyətində elm. Bakı, Elm və həyat nəşriyyatı, 1998.-206 s.
60. Həsənli S., Ortaçağ (XII-XVI əsrlər) Azərbaycan dini-fəlsəfi fikrində iman və bilik. İlah.ü.f.dok. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 1994.-26 s.
61. Həsənli S., Peyğəmbərlər tarixi. Bakı, Adiloğlu nəşriyyatı, 2012.-436 s.
62. Həzrət Əmir əl-mömінin Əli bin Əbutalib. Nəhcül-bəlağə. Bakı, Sabah nəşriyyatı, 1994.- 399 s.
63. Həzrət Məhəmmədin hikmət xəzinəsindən örnəklər. 1500 hədis. Toplayan və tərcümə edən: M. Qəmbərli. Bakı, Şərq-Qərb, 2012.-247 s.
64. Hikmət İ., Azərbaycan ədəbiyyatı tarixi islamiyyatin zühurundan miladın on səkkizinci əsrinə qədər. 2 clddə. Bakı, Azərnəşr, 1928. I c.-290 s., II c.-212 s.
65. Hilali Süleym bin Qeys., İlk kitab (İslam aləmində qələmə alınmış ilk kitab və ilk tarixi əsər). Tərcümə və əlavələr: Rövşən Abdullaoğlu. Bakı, Qədim Qala, 2012.-191 s.
66. Hüseynzadə Ə., Atalar sözü. Red: Y. Məmmədov. Bakı, Azərnəşr, 1965.-106 s.
67. İsgəndərbəy M., Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-alamaraye-Abbasi). Fars dilindən tərcümə edən: Şahin Fərzəliyev. Bakı, Şərq-Qərb, 2010. I kitab 1144 s., II kitab 1400 s.
68. İsmayılzadə İ., Əhli-beyt Quran və hədis baxımından. Bakı, I çap, 2007.-623 s.
69. İsmayılzadə İ., Quran elmləri ensiklopediyası. Bakı, I çap, 2006.-591 s.
70. Kazimi P., Səfəvilər dövründə Azərbaycanda kitabxana işi. Bakı, Bakı Universiteti nəşriyyatı, 2008.-117 s.
71. Kərimli T., Görünməyən Füzuli. Bakı, Elm, 2003.-215 s.
72. Kərimli T., Nizami və tarix. Bakı, Elm, 2002.-253 s.
73. Küleyni M., Üsuli-kafi. 6 cilddə. Tərcümə edən: Rüfət Hümbətov. I c.-317 s., II c.-334 s. Bakı, Kövsər mətbəəsi, I çap, 2011. III c.-344 s., IV c.-324 s. Bakı, 2014. V c.-301 s., VI c.-336 s. Bakı, 2015.
74. Qasımov X., Azərbaycan və İslam mədəniyyəti (XV-XVII əsrlər). Tarix və onun problemləri № 1, səh. 285-290.
75. Qasımov X., Orta əsrlərdə Azərbaycan ədəbiyyatı. Elmi red: Oqtay Əfəndiyev. Bakı, Aspoliqraf, 2008.-309 s.
76. Qasımova A., XIV-XVI əsrlər Azərbaycan ədəbiyyatı və Quran qissələri. Bakı, Bakı Universiteti nəşriyyatı, 1998.-436 s.
77. Qasımova A., Məhəmməd peyğəmbərin meracı. Red: F. Rzabəyov. Bakı, Yazıçı, 1994.-96 s.
78. Qısa İslam ensiklopediyası. Nəşrə hazırlayan: Dini Araşdırmalar Mərkəzi. Layihənin rəhbəri: Elçin Əsgərov. Ümumi red. və müəl. hey.: N. Rəhimov. Bakı, Elm və təhsil, 2012.-319 s.
79. Quliyev İ., Baba Nemətulla Naxçıvani və onun “Fəvatihül-ilahiyyə” əsəri” / Azərbaycan şərqşünaslıq elminin inkişaf yolları, akademik V. Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları, Bakı, 27-28 iyun, 2013.-753 s.
80. Quliyev İ., Əllamə Məclisi və onun “Biharül-ənvar” əsərinin hədis tarixində yeri. Bakı, Nurlar nəşriyyatı, 2018.-232 s.
81. Quliyev İ., Əllamə Məhəmməd Bağır Məclisi və onun “Biharül-ənvar” əsəri. Fəl.ü.f.dok. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2015.-26 s.
82. Quliyev İ., Hədisi-şəriflərdə müqəddəs şəhərlərin tarixi. Bakı, Nurlar nəşriyyatı, 2012.-399 s.
83. Quliyev İ., Hədisşünaslığın əsasları. Bakı, Elm nəşriyyatı, 2013.-688 s.

84. Quliyev İ., Suallara cavablar (hədisi-şəriflər kontekstində). Bakı, Elm və təhsil nəşriyyatı, 2016.-691 s.
85. Qurani-Kərim. Azərbaycan dilinə tərcümə edənlər: Ziya Bünyadov və Vasim Məmmədəliyev. Bakı, Azərnəşr, 1991.-714 s.
86. Qurani-Kərim. Azərbaycan dilinə tərcümə edənlər: Ziya Bünyadov və Vasim Məmmədəliyev. Bakı, Nurlar, 2015.-632 s.
87. Qurani-Kərimin Azərbaycan dilinə tərcümə və şərhi. Ərəbcədən tərcümə və şərhlərin müəllifi: Ayətullah Mirzə Əli Meşkini Ərdəbili. Azərbaycan dilinə tərcümə edənlər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli. Bakı, Nurlar, 2009.-604 s.
88. Qurbanov R. və b., İslam terminləri lüğəti. Bakı, 2012.-238 s.
89. Mahmudov Y. M., Uzun Həsən. Azərbaycan Sovet Ensiklopediyası. 10 clddə. IX c. Bakı, 1986.-425 s.
90. Mahmudov Y., Azərbaycanın Avropa ölkələri ilə əlaqələri (Ağqoyunlu dövrü XV əsrin II yarısı). Bakı, Təhsil, 2007.-116 s.
91. Məmmədəliyev V., Quranda Elm. Bakı, Qismət nəşriyyatı, 2006.-126 s.
92. Məmmədli P., Cənubi Azərbaycan ədəbiyyatı məsələləri. Bakı, Sabah nəşriyyatı, 2015.-300 s.
93. Məmmədli Ş., XVII-XVIII əsrlərdə Azərbaycan-Hindistan ticarət əlaqələri. Bakı, “Şərq-Qərb” Nəşriyyat Evi, 2011.-152 s.
94. Məmmədov C., Şəmsəddin əs-Səxəvi və onun “Richanul-kəffəti fi bəyəni nubzətin min əxbəri əhlis-suffə” əsəri. Bakı, Nafta Press, 2012.-120 s.
95. Məmmədov Z., Azərbaycan fəlsəfəsi tarixi. Bakı, Bilik, İrşad mərkəzi, 1994.-343 s.
96. Məmmədov Z., Eynəlqüzat Miyanəci. Bakı, 1992.-348 s.
97. Məmmədov Z., Şihabəddin Yəhya Sührəvərdi. Bakı, Elm nəşriyyatı, 2009.-157 s.
98. Mir Cəlal P., Füzuli sənətkarlığı. Bakı, Maarif, II nəşri, 1994.-250 s.
99. Mirəhmədi M. Səfəvilər dövründə din və dövlət. Fars dilindən tərcümə edən: Şahin Fərzəliyev. Bakı, Azərnəşr, 1997.
100. Mirzəyev A., Azərbaycan bədii tərcümə tarixində Füzuli mərhələsi. Fil.ü.e.dok. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2012.-62 s.
101. Mirzəyev A., Cami, Nəvai və Füzuli yaradıcılığında 40 hədis. Bakı, Ozan, 1997.-88 s.
102. Mirzəyev A., Füzulinin Hədiqətüs-süəda əsəri orta əsrlər tərcümə abidəsi kimi. Bakı, Nurlan, 2001.-181 s.
103. Musəvi S. M. L., İslam və Qərb mədəniyyəti. Darül-bəşir, I çap, 2004.-288 s.
104. Musəvi T. M., Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər. Bakı, Az. SSR EA, 1965.-131 s.
105. Musəvi T. M., Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVIII əsrlər). Bakı, Elm, 1977.-237 s.
106. Nağısoylu M., A. Bakıxanovun “Riyazül-qüds” əsəri. Bakı, Elm və təhsil, 2014.-174 s.
107. Nağısoylu M., Füzulinin “Hədiqətüs-süəda” əsəri. Bakı, Nurlan, 2012.-142 s.
108. Nağısoylu M., Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti. Bakı, Elm, 2000.-264 s.
109. Nağıyev M., XV-XVI əsrlər Azərbaycan tərcümə abidələri: (tekstoloji tədqiqi, tərcümə və dil xüsusiyyətləri). Bakı, 1994.-48 s.
110. Nəcəfli T., Səfəvi-Osmanlı münasibətləri. Bakı, Turxan NPB, 2014.-516 s.
111. Nəcəfov Ə., Füzuli – şairin yaradıcılıq psixologiyası. Elmi məsləhətçi: AMEA-nın müxbir üzvü Teymur Kərimli. Bakı, Mütərcim, 2012.-140 s.
112. Nəcmi M. S., Buxari və Müslümün “Səhih”lərinə bir baxış. 2 clddə. Tərc: Rəşad Vahidoğlu. Bakı. Tarixsiz. I c.-183 s., II c.-256 s.
113. Nəhavəndian Ə. Ə., İslamda iradə azadlığı problemi. Fəl.ü.f.dok. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 1994.-22 s.

114. Nəsimi İ., İraq Divanı. Tərtib edən və ön sözün müəllifi: Qəzənfər Paşayev. Bakı, Yazıçı, 1987.-336 s.
115. Nəsimi İ., Seçilmiş əsərləri. 2 cilddə. I c. Tərtib edən: Həmid Araslı. Redaktor və lüğətin müəllifi: Teymur Kərimli. Bakı, Lider nəşriyyatı, 2004.-345 s.
116. Nəsirov E., Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər. Bakı, 2011.-472 s.
117. Niyazov Ə., Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda fiqhə dair əsərlər. BİU-nun Elmi məcmuəsi, 2012. № 7.-214 s.
118. Nurəliyeva T., Əlyazma kolleksiyaları katoloqu. Bakı, Nurlan, 2006.-683 s.
119. Nurəliyeva T., Vəqf olunmuş əlyazmalar kataloqu. Bakı, Elm və təhsil, 2012.-276 s.
120. Nurullah F., Azərbaycanda İslam və onun etiqad əsasları. Bakı, Nurlar, 2013.-312 s.
121. Nurullah F., İmam Əli (ə): insanlıq məktəbinin ustadı. Bakı, Nurlar, 2015.-544 s.
122. Onullahi S., XIII-XVII əsrlərdə Təbriz şəhəri. Bakı, Elm, 1982.-279 s.
123. Orucov H., Azərbaycanda din: ən qədim dövrdən bu günədək. Bakı, İdrak İB, 2012.-384 s.
124. Osmanlı sənədlərində Qarabağ. Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2011.-616 s.
125. Ömərov V., XX əsrin əvvəllərində Cənubi Azərbaycanda siyasi vəziyyət: Azərbaycan hökuməti. "Səs" qəzeti. Bakı, 2012, 20 noyabr.-s.14.
126. Paşazadə A., Qafqazda İslam: tarix və müasirlik. Bakı, Azərnəşr, 1991.-224 s.
127. Paşazadə A., Qurani-Kərimin təfsiri və tərcüməsinin metodoloji əsasları. Bakı, İslam araşdırmaları, IV buraxılış, İrşad, 1994.-296 s.
128. Paşazadə A., Quranın təfsiri və tərcüməsi tarixi. Bakı, Əbilov, Zeynalov və oğulları nəşriyyatı, 1998.-295 s.
129. Reyşəhri M., Əhli-beyt Quranda və hədisdə. 2 cilddə. Tərc: Seyyid Həsən Musəvi. Bakı, İİR-nın mədəniyyət mərkəzi, 2009. I c.-518 s., II c.-351 s.
130. Reyşəhri M., Həzrət Əli bin Əbu Talibin ensiklopediyası. Bakı, Nurlar, 2013.-600 s.
131. Reyşəhri M., İmam Məhdi ensiklopediyası (Quranda, hədisdə və tarixdə). 10 cilddə. I cildi tərcümə edən: Mircəfər Eyyubzadə, II cildi tərcümə edən: Mail Yaqubov. Bakı, Zərdabi LTD MMC nəşriyyatı, 2015. I c.-368 s., II c.-398 s.
132. Reyşəhri M., İnsan Quran və hədisdə. Tərc: Rəşad Həsənov. Bakı, Parlayan günəş, 2012.-145 s.
133. Reyşəhri M., Tibbi hədislər toplusu. 2 cilddə. Tərc: Seyid Həsən Musəvi. Bakı, Nurlar, 2008. I c.-657 s., II c.-485 s.
134. Rəfiqdust S., İslam fəlsəfəsinin təkamül yolları. Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1994.-98 s.
135. Rəhimov N., Azərbaycanın din alimləri. Bakı, Nurlar, 2014.-216 s.
136. Rəşadi S. S., Hədis elmi. Bakı, 2003.-63 s.
137. Rəzi S., Nəhcül-bəlağə (tərcümə və şərh). Tərc: A. Mehdiyev, D. Cəfərli, E. Quliyev. Bakı, İİR Mədəniyyət Mərkəzi, Nurlar nəşriyyatı, III çap, 2009.-911 s.
138. Rıhıtım M., Seyid Yəhya əş-Şirvani əl-Bakuvi. Şəfa əl-Əsrar. Bakı, III nəşri, 2013.-407 s.
139. Rüstəmova A., Məhəmməd Füzuli. Red: G. Əmrullahqızı. Bakı, Qərb-Şərq, 1994.-68 s.
140. Rzayev S., Quran həqiqətləri. Bakı, Nurlan nəşriyyatı, 2007.-199 s.
141. Səlimli Q., İslamın ilk dönəmlərində bəzi azərbaycanlı mühəddislər. BDU-nun elmi məcmusəi, sentyabr, 2005, № 4.-184 s.
142. Sultanov M., Azərbaycan əlyazmaşünaslığı məsələləri. Bakı, Elm, 2000.-95 s.
143. Süleymanov N., Azərbaycan Səfəvilər dövlətinin iqtisadi həyatı. Tar.ü.e.dok. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2014.-45 s.
144. Süleymanov N., Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı, Elm, 2012.-440 s.
145. Süleymanova N., Orta əsr Azərbaycan hüquq məktəbi və onun nümayəndələri. Bakı, Nurlan, 2011.-102 s.

146. Süleymanova N., İlahiyyata dair əlyazmalar kataloqu. 3 cilddə. Bakı, 2017. II c.-179 s., III c.-182 s.
147. Şəkəvi M., Kitabül-bəyan fi təfsiril-Quran. 2 cilddə. Bakı, Azərnəşr, 1990-1991. I c.-492 s., II c.-536 s.
148. Şərifov K., Azərbaycan müfəssirləri. Azərbaycan şərqşünaslıq elminin inkişaf yolları, akademik V. Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları, Bakı, 27-28 iyun, 2013.-797 s.
149. Şərifli K., Əbdülqəni Nuxəvi Xalisəqarızadə. Bakı, 2002.
150. Şərifli K., Əsərləri. 10 cilddə. III c. Bakı, Elm və təhsil, 2019.-432 s.
151. Şərifov Ş., İslam tarixi. Bakı, Nurlar nəşriyyatı, 2013.-655 s.
152. Şirinov R., Hədis elmi. Bakı, 2007.-308 s.
153. Şükürov A., Şərq fəlsəfəsi və filosofları. Bakı, Əbilov, Zeynalov və oğulları, 2005.-668 s.
154. Tağıyeva Ş., Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, Elm, 1991.-196 s.
155. Təbrizi C. S., Allahın görülməsi. Tərcümə edən: İdris Hüseynzadə. Bakı, Ələm nəşriyyatı, 2015.-186 s.
156. Təbrizi C. S., Əməli tövhid. Tərcümə edən: Səməndər Xankişi. Parlayan günəş nəşriyyatı, Bakı, 2010.-126 s.
157. Təbrizi C. S., İlahiyyat elmləri və İslam maarifi. Tərcümə edən: Mirzə Rəsul İsmayılzadə. Qum, 1993. I c. 143 s., II c.-94 s.
158. Təbrizi C. S., İslamda əqidə əsasları. Tərcümə edən: Elşən Mustafaoğlu. Bakı, Qələm, 2003.-246 s.
159. Təbrizi C. S., Qurani-Kərimdə ibrətamiz məsəllər. Tərcümə edən: Rza Şükürlü. Bakı, Təhsil texnologiyaları mərkəzi mətbəəsi, 2013.-239 s.
160. Təbrizi C. S., Nümunəvi tərbiyəçi: Loğman surəsinin təfsiri. Tərcümə edən: Niyam Aqil. Bakı, Zərdabi LTD MMC nəşriyyatı, 2012.-183 s.
161. Təbrizi C. S., Tale yaxud qəza və qədər. Tərcümə edən: Rza Şükürlü. Bakı, 2013.-126 s.
162. Təbrizi C. S., Vəhhabi məzhəbi. Tərcümə edən: Yusif Bağırov. Bakı, Zərdabi LTD MMC nəşriyyatı, 2014.-240 s.
163. Təbrizi Ə. Ə. Ə., əl-Qədir. 11 cilddə. I c. Tərcümə edən: Seyid Zaur Məmmədov. Bakı, Zərdabi LTD MMC nəşriyyatı, 2014.-556 s.
164. Təbrizi Ə. Ə. Ə., əl-Qədir. 11 cilddə. II c. Tərcümə edən: Cavanşir Quliyev. Bakı, Zərdabi LTD MMC nəşriyyatı, 2014.-476 s.
165. Təbrizi Ə. Ə. Ə., əl-Qədir. 11 cilddə. III. Tərcümə edən: Cavanşir Quliyev. Bakı, Zərdabi LTD MMC nəşriyyatı, 2014.-511 s.
166. Təbrizi Ə. Ə. Ə., əl-Qədir. 11 cilddə. IV c. Tərcümə edən: Rəhman Abdullayev. Bakı, Zərdabi LTD MMC nəşriyyatı, 2014.-736 s.
167. Təbrizi Ə. Ə. Ə., əl-Qədir. 11 cilddə. V c. Tərcümə edən: Arif Əliyev. Bakı, Zərdabi LTD MMC nəşriyyatı, 2015.-575 s.
168. Təbrizi Ə. H., Əltafür-Rəhman: Qurani-Kərimin Azərbaycan dilində tərcümə və təfsiri. I c. Bakı, Zərdabi LTD MMC mətbəəsi, 2016.-528 s.
169. Təbrizi Ə. H., Əltafür-Rəhman: Qurani-Kərimin Azərbaycan dilində tərcümə və təfsiri. II c. Bakı, Zərdabi LTD MMC mətbəəsi, 2016.-555 s.
170. Təbrizi Ə. H., Əltafür-Rəhman: Qurani-Kərimin Azərbaycan dilində tərcümə və təfsiri. III c. Bakı, Zərdabi LTD MMC mətbəəsi, 2016.-527 s.
171. Təbrizi Ə. H., Əltafür-Rəhman: Qurani-Kərimin Azərbaycan dilində tərcümə və təfsiri. IV c. Bakı, Zərdabi LTD MMC mətbəəsi, 2017.-504 s.
172. Təbrizi Ə. H., Gizli qalmış həqiqətlər. Bakı, I çap, 2008.-184 s.

173. Təbrizi Ə. H., Həccin tarixi, əhkamı və mənəvi dəyərləri. Bakı, Məhdiyar nəşriyyatı, I çap 2006.-175 s.
174. Təbrizi Ə. H., Namaz. Qum, Məhdiyar nəşriyyatı, I çap, 2000.-188 s.
175. Təbrizi Ə. H., Orucun tarixi və mənəvi dəyərləri. Bakı, Məhdiyar nəşriyyatı, V çap, 2005.-143 s.
176. Təbrizi Ə. M. T., Dinlə tanışlıq. Tərcümə edən: Nəsib Göyüşov. Bakı, Qələm, 2004.-220 s.
177. Təbrizi Ə. M. T., əl-Mizan təfsiri. 20 cilddə. X c. Tərcümə edən: Mətanət Hüseynova. Bakı, Qələm nəşriyyatı, 2017.-632 s.
178. Təbrizi Ə. M. T., əl-Mizan təfsiri. 20 cilddə. I c. Tərcümə edən: Elşən Mustafaoğlu. Bakı, Qələm nəşriyyatı, 2010.-697 s.
179. Təbrizi Ə. M. T., əl-Mizan təfsiri. 20 cilddə. IX c. Tərcümə edən: Mircəfər Əyyubzadə. Bakı, Qələm nəşriyyatı, 2017.-696 s.
180. Təbrizi Ə. M. T., əl-Mizan təfsiri. 20 cilddə. II c. Tərcümə edən: Ağabala Mehdiyev. Bakı, Qələm nəşriyyatı, 2011.-712 s.
181. Təbrizi Ə. M. T., əl-Mizan təfsiri. 20 cilddə. III c. Tərcümə edənlər: akad. Vasim Məmmədəliyev, Mais Ağaverdiyev. Bakı, Qələm nəşriyyatı, 2012.-616 s.
182. Təbrizi Ə. M. T., əl-Mizan təfsiri. 20 cilddə. IV c. Tərcümə edənlər: akad. Vasim Məmmədəliyev, Mais Ağaverdiyev. Bakı, Qələm nəşriyyatı, 2013.-665 s.
183. Təbrizi Ə. M. T., əl-Mizan təfsiri. 20 cilddə. V c. Tərcümə edənlər: akad. Vasim Məmmədəliyev, Mais Ağaverdiyev. Bakı, Qələm nəşriyyatı, 2013.-594 s.
184. Təbrizi Ə. M. T., əl-Mizan təfsiri. 20 cilddə. VI c. Tərcümə edən: Füzuli Şəfiyev. Bakı, Qələm nəşriyyatı, 2014.-632 s.
185. Təbrizi Ə. M. T., əl-Mizan təfsiri. 20 cilddə. VII c. Tərcümə edənlər: Elşən Mustafaoğlu, Mail Yaqubov. Bakı, Qələm nəşriyyatı, 2014.-628 s.
186. Təbrizi Ə. M. T., əl-Mizan təfsiri. 20 cilddə. VIII c. Tərcümə edən: Mais Ağaverdiyev. Bakı, Qələm nəşriyyatı, 2015.-544 s.
187. Təbrizi Ə. M. T., Həzrət Məhəmməddən ədəb qaydaları və dualar (Sünənün-Nəbi). Tərcümə edən: Baqir Orucov. Bakı, Kövsər mətbəəsi, 2013.-133 s.
188. Təbrizi Ə. M. T., Hikmətin əvvəli (Bidayətül-hikmət). Tərcümə, şərh və əlavələr: Rövşən Abdullaoğlu. Bakı, Nurlar nəşriyyatı, 2016.-262 s.
189. Təbrizi Ə. M. T., İnsan dünyadan əvvəl. Tərcümə edən: Rövşən Abdullaoğlu, Bakı, II nəşri, 2013.-136 s.
190. Təbrizi Ə. M. T., İnsan dünyadan sonra. Şərh və əlavələr: Rövşən Abdullaoğlu. Bakı, Qədim Qala nəşriyyatı, II nəşri, 2015.-168 s.
191. Təbrizi Ə. M. T., İnsan dünyadan sonradan sonra. Şərh və əlavələr: Rövşən Abdullaoğlu. Bakı, Qədim Qala nəşriyyatı, IV nəşri, 2015.-224 s.
192. Təbrizi Ə. M. T., İrfan yolu. Tərcümə edən: Elşən Mahmudov. Bakı, Nurlar, 2014.-120 s.
193. Təbrizi Ə. M. T., İslamda şiəlik. Bakı, Mömin nəşriyyatı, 2003.-286 s.
194. Təbrizi Ə. M. T., Qadın. Tərcümə edən: M. Şəkərova. Bakı, 2013.-238 s.
195. Təbrizi Ə. M. T., Vəhy və Quran. Tərcümə edən: Nurəddin Əliyev. Bakı, I çap, 2009.-139 s.
196. Tusi X. N., Təcrid əl-məntiq. Tərcümə edən: İmamverdi Həmidov. Bakı, Araz, 2012.- 258 s.
197. Vəliyullah X., Məhəmmədtəqi Cəfərinin həyatı və fəlsəfi görüşləri. Fəl.ü.f.dok. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2007.-30 s.
198. Yusibov Y. B. və b., Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Ali məktələr üçün dərslik. Bakı, Azərnəşr, 1994.-680 s.
199. Zahidova H., Cəfər Cabbarlının dini dünyagörüşü. Bakı, Elm, 2012.-218 s.

**Türk dilində:**

200. Abdullah A., Hadis ıstılahları sözlüğü. İstanbul, M.Ü.İlahiyat Vakfı Yayınları, IX çap, 2016.-427 s.
201. Abdullah A., Sünnetin dindeki yeri. Kutlu doğum sempozyumu. Ankara, 2003.-141-151 s.
202. Altıkardeş İ., Din ve sosyal bütünleşme. İstanbul, Rağbet yayınları, 2004.-303 s.
203. Amasiya Meşahiri (Osman Fevzi Olcay). Üniversite Kütüphanesi, Nömrə: 9382 v.
204. Ateş S., İşari tefsir okulu. Ankara, 1974.-332 s.
205. Ateş S., Kuran-i Kerim ve yüce meali. İstanbul, Yeni ufuklar neşriyati, 1997.-639 s.
206. Aydınlı A., Hadis ıstılahları sözlüğü. İstanbul, İFAV Yayınları, III çap, 2009.-427 s.
207. Azimli M., Kadınların idareciliği konusundaki rivayete tarihsel bağlamda eleştirel bir yaklaşım. İslami Araştırmalar Dergisi, cilt 15, Sayı 3, Yıl 2002. Erişim tarihi: 8 Ağustos 2016.
208. Azzam A., Peyğamberimizin örnek ahlaki. İstanbul, Timaş yayınları, 1995.-160 s.
209. Bilmen Ö. N., Kurani Kerimin türkçe meali alisi ve tefsiri. 8 clddə. Ankara, Akçağ yayınları, 1991.
210. Bolelli N., Kadınların hadis ilmindeki yeri. İstanbul, II baskı, 1998.-288 s.
211. Canan İ., Hadis usulü ve tarihi. Ankara, Akçağ Yayınları, 1998.-613 s.
212. Cirit H., Hadise giriş. İstanbul, Rağbet yayınları, 2013.-383 s.
213. Çakan İ. L., Anahatlarıyla hadis. İstanbul, Ensar neşriyatı, 1996.-268 s.
214. Çakan İ. L., Hadis edebiyatı. İstanbul, İFAV yayınları, 1997.-286 s.
215. Çakan İ. L., Hadis usulü. İstanbul, İFAV yayınları, № 42, 2001.-168 s.
216. Çakın K., İslamda hadis ve sünnetin yeri. İstanbul, Seba Yayınları, I çap, 1997.-102 s.
217. el-Huseyni S. M. A., Şiaya göre sünnetin dindeki yeri. İstanbul, 1997.-277 s.
218. Erdoğan M., Fıkıh ve hukuk terimleri sözlüğü. İstanbul, Rağbet Yayınları, 1998.-496 s.
219. Erdoğan M., Vahy – Akıl dengesi açısından sünnet. İstanbul, İFAV yayınları, 2009.-331 s.
220. Eren M., Kadınların hadis ilmine katkıları. AÜlFD cilt XLIV (2003). Sayı 1. s. 83-110.
221. eş-Şeybani A., el-Müsned. 4 cilddə. İstanbul, Çağrı yayınları, II baskı, 1413/1992.
222. et-Tehanevi Z. A., Yeni usüli-i hadis. Terc: İ. Canan. İzmir, 1982.-571 s.
223. Hamid A., Diyanet İslam Ansiklopedisi. 44 cilddə. XII c. İstanbul, 1995.-549 s.
224. Hamid A., Diyanet İslam Ansiklopedisi. 44 cilddə. XVII c. İstanbul, 1998.-553 s.
225. Hamid A., Diyanet İslam Ansiklopedisi. 44 cilddə. VIII c. İstanbul, 1993.-559 s.
226. Hediyyetül-ihvan., Süleymâniye Kütüphânesi Hacı Mahmud kısmı. No: 4587 Vr: 1.
227. İbn Kesir D., Böyük İslam tarihi (el-Bidaye ven-Nihaye). 15 cilddə. İstanbul, Çağrı yayınları, 1995.
228. İbn Mace., Sünen-i İbn Mace. 10 cilddə. I c. Terc: Haydar Hatipoğlu. İstanbul, Kahraman neşriyyatı. Tarihsiz.-622 s.
229. İmamı Şarani. Evliyalar Ansiklopedisi (Tabakatül-kübra). 4 cilddə. I-II c. Çeviren: Abdulkadir Akçiçek. İstanbul, Bedir Yayınevi. Tarixsiz.-816 s.
230. Kandemir Y., Diyanet İslam Ansiklopedisi. XV c. İstanbul, 1997.-559 s.
231. Kandemir Y., Hadis ilimleri ve hadis ıstılahları (Subhi es-Salih). İstanbul, M.Ü.Fakültesi Yayınları, XII çap, 2016.-349 s.
232. Kandemir Y., K. Hayreddin və b., “Kırk hadis”. Diyanet İslam Ansiklopedisi. 44 cilddə. XXV c. İstanbul, 2002.-571 s.
233. Kandemir Y., Mevzu hadisler: Menşei, tanıma yolları, tankidi. Ankara, 1975.-230 s.
234. Koçkuzu A. O., Hadis ilimleri ve hadis tarihi. İstanbul, 1983.-480 s.
235. Koçyigit T., Hadis tarihi. Ankara, Türkiye Diyanet Vakfı Yayınları, 2012.-295 s.
236. Koçyiğit T., Hadis usulü. Ankara, Türkiye Diyanet Vakfı Yayınları, 2003.-308 s.
237. Koçyiğit T., Hadislerin toplanması ve yazı ile tesbiti. İstanbul, Hüner Yayınevi, II çap, 2016.-168 s.

238. Naim A., M. Kamil., Sahihi-Buhari muhtasarı Tecrid-i Sarih tercemesi ve Şerhi. 12 cilddə. Ankara, 1982.
239. Nimetullâh N., el-Fevatihu'l-ilahiyye ve'l-mefatîhu'l-gaybiyye. İstanbul, 1325 h/q.,- 295 s.
240. Öz M., Diyanet İslam Ansiklopedisi. 44 cilddə. XXVIII c. İstanbul, 2003.-591 s.
241. Salih S., Hadis ilimleri ve hadis ıstılahları. Terc. M. Yaşar Kandemir. İstanbul, VI Marmara İlahaiyyat Vakfı Yayınları, № 108. 1996.-349 s.
242. Sandıkçı K., Hadis I. İstanbul, Ensar Neşriyat, II çap, 2016.-330 s.
243. Sandıkçı K., Hadis II. İstanbul, Ensar Neşriyat, II çap, 2016.-496 s.
244. Tekineş A., Hadisleri anlama problemi. İstanbul, Işık nyayınları, 2002.-348 s.
245. Uğur M., Ansiklopedik hadis terminleri sözlüğü. Ankara, TDV Yayınları, 1992.-341 s.
246. Uzunçarçılı İ. H., Anadolu Beylikleri ve Akkoyunlu, Karakoyunlu Devletleri. 1988.-297 s.
247. Yardım A., Hadis I-II. İstanbul, Damla yayınları, 1997. I kitab.-193 s. II kitab.-188 s.
248. Yücel A., Hadis ıstılahlarının doğuşu və gelişi. İstanbul, İFAV yayınları, II baskı, 2014.-216 s.
249. Yücel A., Hadis usulü. İstanbul, 2016.-243 s.

**Rus dilində:**

250. Азимов А., Восток: История десяти тысячелетей. Москва, Центрполиграф, 2002.-330 с.
251. Бартольд В. В., Культура мусульманства. Москва, Леном, 1998.-112 с.
252. Ислам: Энциклопедический словарь / отв. ред. С. М. Прозоров. – Москва, Наука, Главная редакция восточной литературы, 1991.-315 с.
253. История Ирана с древнейших времен до конца XVIII века. – Ленинград, Издательство Ленинградского университета, 1958.-390 с.
254. Корбен А., История исламской философии. Москва, Прогресс-Традиция, 2010.-360 с.
255. Эфендиев О. А., Азербайджанское государство Сефевидов в XVI в. Баку, Элм, 1981.-307 с.

**İngilis dilində:**

256. C. Plott., Global History of Philosophy: The Period of Scholasticism, Pt. II, p. 465.
257. Corbin H., En Islam Iranien: Aspects spirituels et philosophiques (4 vols.). Gallimard, 1971.
258. Leaman O., An Introduction to Classical Islamic Philosophy (2 ed.). Cambridge University Press. pp. 211–212.
259. Mahdavi A. H., History of Iran's foreign affairs: from Safavids to the end of WWII.Tehran, Amir Kabir Publishers, 1996.
260. Roger S., İran under the Safavids. London, Cambridge University Press, 1980.-277 s.
261. Rudolph P. Matthee., The Politics of Trade in Safavid Iran: Silk for Silver 1600-1730 (Cambridge Studies in Islamic Civilization). Cambridge University Press, 1999.
262. Tapper R., "Shahsevan in Safavid Persia", Bulletin of the School of Oriental and African Studies, University of London, Vol. 37, No. 3, 1974.-s. 324.

**Ərəb dilində:**

263. Acluni M. C., Kəşfül-xəfa. Beyrut, Darül-kitabil-ilmiyyə, 1998.-697 s.
264. Bəxşaişi Ə. Ə., Təfsiru təbəqatiş-şiə. 5 cilddə. I çap, 1372 h/ş.
265. Əbdülbaqi M. F., Camiül-məsanid. 6 cilddə. I c. Qahirə, I çap, 1412/1991.-607 s.
266. əd-Davudi Ə., Təbəqatül-müfəssirin. 2 cilddə. I c. Daru kütubil-ilmiyyə, 1403/1983.-458 s.
267. əl-Amili B., əl-Vəcizə fid-dirayə. Tehran, 1321 h/q.
268. əl-Amili H., Əməlül-amal. Təhqiq: Seyid Əhməd Hüseyni. Bağdad, 1385 h/q.-193 s.
269. əl-Amili H., Vəsailüş-şiə. 30 cilddə. XVII c. Qum, Müəssisətu Ali-Beyt, 1414 h/q.-479 s.
270. əl-Amili H., Vəsailüş-şiə. 30 cilddə. I c. Qum, Müəssisətu Ali-Beyt, 1414 h/q.-504 s.

271. əl-Amili H., Vəsailüş-şiə. 30 cilddə. II c. Qum, Müəssisətu Ali-Beyt, 1414 h/q.-564 s.
272. əl-Amili H., Vəsailüş-şiə. 30 cilddə. VII c. Qum, Müəssisətu Ali-Beyt, 1414 h/q.-528 s.
273. əl-Amili M. Ə., Əyanüş-şiə. 10 cilddə. I c. Təhqiq: S. H. Əmin. Beyrut, Darut-təarif, 1403/1983.-677 s.
274. əl-Amili M. Ə., Əyanüş-şiə. 10 cilddə. III c. Beyrut, 1403/1983.-681 s.
275. əl-Amili M. Ə., Əyanüş-şiə. 10 cilddə. V c. Beyrut, 1403/1983.-498 s.
276. əl-Amili M. Ə., Əyanüş-şiə. 10 cilddə. VIII c. Beyrut, 1403/1983.-475 s.
277. əl-Buxari M., Səhihül-Buxari. ər-Riyad, Darüs-salam, II çap, 1419/1999.-1513 s.
278. əl-Ələmi M. H., Dairətül-məarif. 18 cilddə. XI c. Beyrut, I çap, 1413/1993.-450 s.
279. əl-Ələmi M. H., Dairətül-məarif. 18 cilddə. XVI c. Beyrut, I çap, 1413/1993.663- s.
280. əl-Ələmi M. H., Dairətül-məarif. 18 cilddə. I c. Beyrut, I çap, 1413/1993.-518 s.
281. əl-Ələmi M. H., Dairətül-məarif. 18 cilddə. VI c. Beyrut, I çap, 1413/1993.-590 s.
282. əl-Ərdəbili Ə. M., Nəhcür-rəşad. Qum, Etimad mətbəəsi, IV çap, 1431 h/q.-594 s.
283. əl-Ərdəbili M. Ə., əl-Vəcizə fi ilmir-rical. Təhqiq: Züheyr əl-Ərəci. Beyrut, Müəssisə Ələmi, I çap, 1411/1991.-104 s.
284. əl-Ərdəbili M. Ə., İstiləhatül-üsul və mözəmi əbhasiha. Qum, Mətbəətül-Hadi, VII çap, 1427 h/q.-300 s.
285. əl-Ərdəbili M. Ə., Müstəlihatül-fiqh. Qum, Müəssisətül-Hadi, V çap. Tarixsiz.-578 s.
286. əl-Ərdəbili M. M., Camiür-rüvvat. II cilddə. I c. Beyrut, 1403/1983.-660 s.
287. əl-Ərdəbili M. M., Camiür-rüvvat. II cilddə. II c. Beyrut, 1403/1983.-552 s.
288. əl-Əsqəlani Ə. Ə. H., Fəthülbari bi şərhi səhihil-Buxari. 13 cilddə. X c. Mühəqqiq: Əbdülqadir Şeybə. ər-Riyad, I çap, 1421/2001.-628 s.
289. əl-Əsqəlani Ə. Ə. H., Lisanül-mizan. Beyrut, 1986 və 10 cilddə. Təhqiq: Əbdülfəttah əl-Ğüddə. Məktəbətül-məktubatil-İslamiyyə, 1423/2003, I çap.
290. əl-Əsqəlani Ə. Ə. H., Təhzibüt-təhzib. 11 cilddə. Beyrut, Darül-fikir, I nəşri, 1404/1984 və 4 cilddə. Təhqiq: İbrahim əz-Zeybəq və Adil Mürşid, Risalətül-müəssisə. Tarixsiz.
291. əl-Əsnəvi Ə. H., Təbəqatüş-Şafeiyyə. Təhqiq: Kamal Yusif əl-Hut. Beyrut, Darül-kütubil-ilmiyyə, 1422/2001.
292. əl-Fəzli Ə., Üsulu ilmir-rical. Beyrut, Mərkəzül-Qədir, II çap, 1430/2009. 323 s.
293. əl-Firuzabadi M., Qamusul-mühit. Beyrut, Daru ihyayit-turasil-ərəbi, 1405/2006.-1500 s.
294. əl-Hələbi M. R. İlamün-nübəla bitarix Hələb əş-Şəhra. 7 cilddə. III c. Mühəqqiq: Məhəmməd Kamal. Hələb, Mənşurat Darül-qələm əl-ərəbi, 1408 h/q.-487 s.
295. əl-Həməvi Y., Möcəmül-buldan. 5 cilddə. I c. Daru-sadir, 1397/1993.-540 s.
296. əl-Həməvi Y., Möcəmül-buldan. 5 cilddə. III c. Daru-sadir, 1397/1993.-470 s.
297. əl-Həməvi Y., Möcəmül-buldan. 5 cilddə. V c. Daru-sadir, 1397/1993.-461 s.
298. əl-Hənbəli Ə., Şəzəratüz-zəhəb. 10 cilddə. I c. Təhqiq: Əbdülqadir əl-Ərnaut. Beyrut, Daru İbn Kəsir, 1406/1986.-424 s.
299. əl-Hənbəli Ə., Şəzəratüz-zəhəb. 10 cilddə. II c. Təhqiq: Əbdülqadir əl-Ərnaut. Beyrut, Daru İbn Kəsir, 1406/1986.-505 s.
300. əl-Hənbəli Ə., Şəzəratüz-zəhəb. 10 cilddə. IV c. Təhqiq: Əbdülqadir əl-Ərnaut. Beyrut, Daru İbn Kəsir, 1406/1986.-552 s.
301. əl-Hindi Ə. M., Kənzül-ümmal. 16 cilddə. I c. Təhqiq: Səfvət əs-Səqa və b. Beyrut, Müəssisətür-risalə, 1405/1985.-633 s.
302. əl-Hindi Ə. M., Kənzül-ümmal. 16 cilddə. V c. Təhqiq: Səfvət əs-Səqa və b. Beyrut, Müəssisətür-risalə, 1405/1985.-894 s.
303. əl-Xansari A. H., əl-Haşiyə əlş-Şifa (ət-Təbiyyat. əl-Məqalatul-ula vəs-saniyə). Təhqiq: Rza əl-Ustadi. Tehran. Tarixsiz.-208 s.
304. əl-Xansari A. H., ət-Təliqat əla şərhil-lümətild-Diməşqiyyə. Tehran. Tarixsiz.-480 s.

305. əl-Xansari A. H., Məşariquş-şumus fi şərhid-durus. 2 cilddə. İran, Müəssisə Ali-beyt (ə). Tarixsiz. I c.-337 s.
306. əl-Xansari A. H., Munazirat ("Fusulul-Muxtarə" əsərinin farsca tərcüməsi). Təhqiq: Sadiq Həsənzadə. İran çapı. Tarixsiz.-320 s.
307. əl-Xansari A. H., Təliqə əla haşiyətil-Mühəqqiq əs-Səbzivari. İran. Tarixsiz.-204 s.
308. əl-Xansari M. B., Rövzatül-cənnat fi əhvali-üləmais-saadat. 7 cilddə. III c. Beyrut, Darül-İslamiyyə, I çap, 1411/1991.-448 s.
309. əl-Xansari M. B., Rövzatül-cənnat fi əhvali-üləmais-saadat. Tehran, 1347/1928 və 7 cilddə. I c. Məktəbətül-Heydəriyyə, I çap, 1411/1991.-463 s.
310. əl-Xarəzmi Ə. M., əl-Mənaqib. Təhqiq: Şeyx Malik əl-Mahmudi. Müəssisə nəşril-İslami, IV çap, 1421 h/q.-416 s.
311. əl-Xoyi S. Ə., ər-Risalə əməliyyə, Nəcəfül-əşrəf. Tarixsiz.-201 s.
312. əl-Xoyi S. Ə., Möcəmür-ricalil-hədis və təbəqatir-rüvvat. 23 cilddə. I c. Qum, IV nəşri, 1410 h/q.-503 s.
313. əl-Xoyi S. Ə., Mühazirat fi üsulil-fiqh. 4 cilddə. Qum, Müəssisə nəşril-İslami, I çap, 1419 h/q.
314. əl-İfriqi İ. M., Lisanül-ərəb. 15 cilddə. XIV c. Beyrut, Dari-sadir, 2003.-492 s.
315. əl-İhsai İ. Ə. C., Əvalil-ləali. 4 cilddə. IV c. Təhqiq: Ağa Müctəba əl-İraqi. Qum, I çap, 1403/1983.-411 s.
316. əl-İrəvani M. B., Durus təmhidiyyə fil-qəvaidir-ricaliyyə. Qum, II çap, 1428/2007. 347 s.
317. əl-Kaşani F., əl-Vafi. 26 cilddə. I c. İsfahan, Məktəbətu İmam Əli (ə), I çap, 1312 h/q.-568 s.
318. əl-Kaşani H. və b., İlmür-rical və əsəruhu fit-turasil-əqaidi. Təhqiq: Şeyx Məhəmməd əs-Sənəd əl-Bəhrani. Qum, Məktəbətu Fədək, Vəfa mətbəəsi, I çap, 1431/2010.
319. əl-Kazimi Ə. Ə., Təkmilətür-rical. Təhqiq: Məhəmməd Sadiq Bəhrül-ülum. Ənvarür-risalə müəssisəsi, I çap, 1420 h/q.-150 s.
320. əl-Kazimi Ə., Dirasə möcəmi ricalil-hədis lis-Seyyid əl-Xoyi (Nəzrə fi qəvaidir-ricaliyyə). Beyrut, I çap, Məalimül-fikr nəşriyyatı, 1436/2014.
321. əl-Küleyni M. Y., Üsulül-kafi. 8 cilddə. Beyrut, I nəşri, 1429/2008.
322. əl-Qari Ə. M., Miratül-məfatih şərhi mişkatül-məsabih. 12 cilddə. Təhqiq: Şeyx Camal Eytani. Beyrut, Darül-kütubil-elmiyyə, I çap, 1422/2001.
323. əl-Qummi Ş. A., əl-Küna vəl-əlqab. 3 cilddə. Qum, Mənşurat məktəbətüs-Sədr. Tarixsiz.
324. əl-Qummi Ş. S., Kəmaluddin və təmamun-nimət. Qum, 1405/1991.-624 s.
325. əl-Maməqani M. R., əl-Küna vəl-əlqab. Qum, Mövludu Kəbə nəşri, Etimad mətbəəsi, I çap, 1421 h/q.-183 s.
326. əl-Məclisi Ə. M. B., Biharül-ənvar. 110 cilddə. Beyrut, Müəssisətül-vəfa, 1983.
327. əl-Məclisi Ə. M. B., əl-Vəcizə fi ilmir-rical (Ricalül-Məclisi). Beyrut, I çap, 1415/1994.
328. əl-Məclisi Ə. M. B., Miratül-üqul fi şərhi əxbari Alir-Rəsul (s). 26 cilddə. Darül-kütubil-İslamiyyə, III çap, 1375 h/q.
329. əl-Misri İ. M., Lisanül-ərəb. Beyrut, Daru Sadir. Tarixsiz və Qum, 1405.
330. əl-Mizzi C., Təhzibül-kamal fi əsmair-rical. Beyrut, Müəssisətu-risalə, 1406 h/q. və 35 cilddə. Təhqiq: Bəşşar Əvvad Məruf. Beyrut, Müəssisə risalə, I çap, 1400/1980.
331. ən-Neysaburi M., Səhihul-Müslim. Beyrut, Darül-kutubil-ilmiyyə, 1998.-1200 s.
332. ən-Nəcaşi Ə., Ricalün-Nəcaşi. Təhqiq: Seyid Musa əş-Şübeyri. Müəssisə nəşril-İslami, , VI nəşri, 1418 h/1.-496 s.
333. ən-Nisaburi H., əl-Müstədrək. 5 cilddə. III c. Beyrut, Darül-kutubil-ilmiyyə, 1422/2002.-758 s.
334. ər-Razi Ə. Ə. B., Fihriste əsmai üləmaiş-şiə və müsənnifihim. Təhqiq: Əbdüləziz ət-Təbatəbai. Beyrut, Darül-əzva, II çap, 1406/1986.-293 s.
335. əs-Sədr S. H., əş-Şiə və fünunil-İslam. Təhqiq: Mürtəza Mirsəccadi. Müəssisə Sibteyn, I çap, tarixsiz.-674 s.

336. əs-Sədr S. H., Təsisüş-şiətil-kiram lilumil-İslam. Bağdad. Tarixsiz.
337. əs-Sübki Ə., Təbəqatüş-Şafeiyyətil-kübra. 10 cilddə. Təhqiq: Mahmud Məhəmməd ət-Tənahi. Feysəl İsa əl-Babi nəşri, 1383/1964.
338. əs-Süyuri C., M. Kənzül-ürfan fi fiqhil-Quran. 2 cilddə. Məktəbətül-Mürtəzəviyyə li ihyail-asaril-Cəfəriyyə, Mətbəətül-Heydəri, 1384 h/q. və Əqiqi Bəxşayişinin təhsisi ilə, Qum, Məktəbətu nəvidi-İslam, 1422 h/q.
339. əs-Süyuti C., Buğyətül-vuat. Mühəqqiq: Məhəmməd Əbülfəzl İbrahim. 1384/1963.
340. əs-Süyuti C., Dürrül-mənsur. 8 cilddə. I c. Beyrut, Darül-fikir, 1433/2011.-813 s.
341. əs-Süyuti C., əl-Havi lil-fətava. 2 cilddə. I c. Beyrut, Darül-fikir, 1424/2004 və Beyrut, Darül-kutubil-ilmiyyə, 1421/2000.-392 s.
342. əs-Süyuti C., Tarixül-xüləfa. Dəməşq, Darül-qələmil-ərəbi, Mətbəətüs-sabah, 1411/1991.-477 s.
343. əs-Süyuti C., Təbəqatül-hüffaz. Beyrut, Darül-kutubil-ilmiyyə, 1403 h/q.
344. əs-Süyuti C., Təbəqatül-müfəssirin. Qahirə, Məktəbətül-Vəhbə, I çap, 1396 h/q.
345. əş-Şeybani Ə., Müsnəd. Təhqiq: Şüeyb əl-Ərnaut və b. 50 cilddə. XXXIV c. Beyrut, Müəssisətür-risalə, 1999.-595 s.
346. əş-Şəbüstəri Ə., Məşahiru şüəraiş-şiə. 5 cilddə. III c. əl-Məktəbətül-ədəbiyyətül-müxtəssə nəşriyyatı, I çap, 1421 h/q.-403 s.
347. əş-Şəbüstəri Ə., Məşahiru şüəraiş-şiə. 5 cilddə. V c. əl-Məktəbətül-ədəbiyyətül-müxtəssə nəşriyyatı, I çap, 1421 h/q.-461.
348. əş-Şəhristani Ə., Tarixül-hədisin-Nəbəvi. Qum, Darül-qədir nəşriyyatı, I çap, 1424/2003.-280 s.
349. ət-Tehrani A. B., əz-Zəriə ila təsanifiş-şiə. Qum, 1408 h/q və 25 cilddə. X c. Beyrut, Mənşurati-darül-əzva, 1403/1983.-341 s.
350. ət-Tehrani A. B., əz-Zəriə ila təsanifiş-şiə. Qum, 1408 h/q və 25 cilddə. XI c. Beyrut, Mənşurati-darül-əzva, 1403/1983.-310 s.
351. ət-Tehrani A. B., əz-Zəriə ila təsanifiş-şiə. Qum, 1408 h/q və 25 cilddə. XII c. Beyrut, Mənşurati-darül-əzva, 1403/1983.-518 s.
352. ət-Tehrani A. B., Təbəqatü əlamüş-şiə. 17 cilddə. I c. Beyrut, Daru ihyait-türasil-ərəbi, I çap, 1430 h/q.-363 s.
353. ət-Tehrani A. B., Təbəqatü əlamüş-şiə. 17 cilddə. I c. Beyrut, Daru ihyait-türasil-ərəbi, I çap, 1430 h/q.-723 s.
354. ət-Təbrizi C. S., Buhus fil-miləl vən-nihəl. 8 cilddə. Qum, Müəssisə İmam Sadiq(ə), I çap, 1427 h/q.-687 s.
355. ət-Təbrizi C. S., Duvəruş-şiə fil-hədis vər-rical. Beyrut, Müəssisə əl-İmam əs-Sadiq (ə), I çap, 1431/2010.-502 s.
356. ət-Təbrizi C. S., Dürus fi tarixil-fiqh və ədvarihi. Mərkəzi dirasatil-Mustafa (s), I çap, 1426 h/q.-96 s.
357. ət-Təbrizi C. S., əl-Bidət. Qum, Müəssisə İmam Sadiq (ə), 1406 h/q.-406 s.
358. ət-Təbrizi C. S., əl-Hədis ən-Nəbəvi beynər-rivayə vəd-dirayə. Qum, tarixsiz.-673 s.
359. ət-Təbrizi C. S., əs-Sirətül-Muhəmmədiyyə. Beyrut, Darül-əzva, 1423 h/q.-287 s.
360. ət-Təbrizi C. S., əz-Ziyarə fil-kitab vəs-sünnə. Qum, Müavinətut-təlim və buhusul-İslamiyyə. Tarixsiz.-92 s.
361. ət-Təbrizi C. S., İbn Teymiyyə: fikrən və minhəcən. Beyrut, Müəssisətu İmam Sadiq (ə), I çap, 1432 h/q.-579 s.
362. ət-Təbrizi C. S., Kifayətül-mühəssilin fi təbsirəti əhkamid-din. I çap, 1380.-493 s.
363. ət-Təbrizi C. S., Qaidətani fəlsəfiyyətani fil-hikmətil-mütəaliyyə. Qum, Müəssisətu İmam Sadiq (ə), I çap, 1424 h/q.-78 s.
364. ət-Təbrizi C. S., Məfahimül-Quran. 10 cilddə. I c. Beyrut, Müəssisə ət-Tarix əl-ərəbi, 1431/2010.

365. ət-Təbrizi C. S., Məniyyətüt-talibin fi təfsiril-Quranil-mubin. 30 cilddə. Qum, Müəssisə İmam Sadiq (ə), I çap, 1434/2012.
366. ət-Təbrizi C. S., Möcəmu təbəqatil-mütəkəllimin. 5 cilddə. II c. Qum, Müəssisə İmam Sadiq (ə), 1424 h/q.-463 s.
367. ət-Təbrizi C. S., Mövsuətu təbəqatil-füqəha. 14 cilddə. IV c. Qum, Mərkəzi təhqiqati ülumil-İslamiyyə, 1418 h/q.-587 s.
368. ət-Təbrizi C. S., Üsulul-hədis və əhkamuhu fi ilmid-dirayə. Qum, V nəşri, 1420 h/q.-267 s.
369. ət-Təbrizi Ə. M. T. C., Əla əcnihətir-ruh. 2 cilddə. Təhqiq: Əbdürrəhman əl-Ələvi. Müəssisətu bəlağ nəşriyyatı, Qum, I çap, 2003.-160 s.
370. ət-Təbrizi Ə. M. T. C., əl-Almaniyyə vəl-İslam. Darül-hadi nəşriyyatı, I çap, 2001.-176 s.
371. ət-Təbrizi Ə. M. T. C., əl-Cəbr vəl-İxtiyar. Təhqiq: Hüeyn əl-Vasiti. Qum, Camiətül-Mustafa əl-Aləmiyyə nəşriyyatı, I çap, 2006.-300 s.
372. ət-Təbrizi Ə. M. T., Aləmül-axirət. Mənşurati müəssiə Ələmi, I çap, 2002.-108 s.
373. ət-Təbrizi Ə. M. T., Bidayətül-hikmət. Qum, Mövsuatil-maarifil-İslamiyyə, 1410 h/q.-244 s.
374. ət-Təbrizi Ə. M. T., Əqaidül-İslamiyyə. Çapa hazırlayan: Şeyx Qasim əl-Haşimi. Mənşurati müəssiə Ələmi, I çap. Tarixsiz.-199 s.
375. ət-Təbrizi Ə. M. T., əl-Bürhan fil-məntiq. Təhqiq: Şeyx Qalib əl-Kəbi. Müəssisə intişaarati müdin, I çap. Tarixsiz.-178 s.
376. ət-Təbrizi Ə. M. T., əl-İnsan. Beyrut, Darül-əzva, I çap, 1989.-212 s.
377. ət-Təbrizi Ə. M. T., Həyat ma bədəl-movt. Qismuş-şuunuil-fikriyyə vəs-səqafiyyə, I çap, 2008.-319 s.
378. ət-Təbrizi Ə. M. T., Nihayətül-hikmət. 5 cilddə. Şərhçi: Əllamə Kamal Heydəri, İmam Cavad müəssisəsi nəşri.
379. ət-Təbrizi Ə. M. T., Risalətül-vilayət. Beyrut, Daru təarifil-mətbuat, I çap, 1987.-130 s.
380. ət-Təbrizi Ə. M. T., Təfsirül-mizan. 20 cilddə. Beyrut, Müəssisə ələmi, I çap, 1997.
381. ət-Təbrizi Ə. M. T., Üsulul-fəlsəfə. Ərəbcəyə çevirən: Təbrizi Cəfər Sübhani. Qum, Müəssisətu İmam Sadiq (ə), III çap, 1426 h/q.-247 s.
382. ət-Təbrizi Ə. M., Şühədaul-fəzilət. 2 cilddə. I c. Beyrut, Müəssisətul-vəfa, II çap, 1403/1983.-416 s.
383. ət-Təbrizi Ə., Miratül-kütub. 5 cilddə. I c. Qum, Mənşurati məktəbəti Ayətullah Mərəşi ən-Nəcəfi, 1414 h/.-514 s.
384. ət-Təbrizi M. A., Riyazül-üləma və hiyazül-füzəla. 6 cilddə. I c. Təhqiq: S. Ə. Hüseyni. Qum, 1401 h/q.-304 s.
385. ət-Təbrizi M. A., Riyazül-üləma və hiyazül-füzəla. 6 cilddə. IV c. Təhqiq: S. Ə. Hüseyni. Qum, 1401 h/q.-446 s.
386. ət-Təbrizi M. A., Riyazül-üləma və hiyazül-füzəla. 6 cilddə. VI c. Təhqiq: S. Ə. Hüseyni. Qum, 1401 h/q.-411 s.
387. ət-Təbrizi M. E., Şərhu məalim əd-din. Qum, Müəssisə intişarat darul-ilm, I nəşri 1372 h/q.-405 s.
388. ət-Təbrizi V. X., Mişkatül-məsabih. Dəməşq, I çap, 1381/1961, Beyrut, II çap, 1399/1989.-1987 s.
389. ət-Tirmizi M. İ., Sünən. Qahirə, Darul-hədis, 1419/1998 və Beyrut, Darul-kutubil-ilmiyyə çapı, 1989.-817 s.
390. ət-Tusi M., ər-Rical. Təhqiq: Cavad Qəyyumi. Müəssisə nəşril-İslami, I çap, 1373 h/q.-599 s.
391. ət-Tusi M., Fihrist kutubiş-şiə və usulihim və əsmail-müsənnifinə və əshabil-üsul. Təhqiq: Seyid Məhəmməd Sadiq Bəhrilulum. İran, Mənşurati Şərif ər-Rəzi. I çap, 1359 h/q.-217 s.
392. ət-Tusi M., İxtiyaru mərifətir-rical (Ricalül-Kəşşi). Təhqiq: Cavad əl-Qəyyumi. Qum, Müəssisə nəşril-İslami, I çap, 1427 h/q.-685 s.

393. ət-Tusi M., Təhzibul-əhkam. 10 cilddə. Beyrut, II nəşri, 1429/2008.
394. əz-Zəhəbi Ş., Mizanül-etidal fi nəqdir-rical. Hindistan, 1301 h/q.
395. əz-Zəhəbi Ş., Möcəmül-müxtəs bil-mühəddisin. Taif, 1408/1988.-380 s.
396. əz-Zəhəbi Ş., Siyəru alamin-nübəla. 24 cilddə. Müəssisətur-risalə, 1422/2001.
397. əz-Zəhəbi Ş., Siyəru aləmin-nübəla. 30 cilddə. Təhqiq: Xeyri Səid. Müəssisətu risalə, XI nəşri, 1417/1996.
398. əz-Zəhəbi Ş., Təzkirətül-hüffaz. 4 cilddə. Təhqiq: Əbdürrəhman bin Yəhya əl-Müəllimi. Dairətül-məarifil-Osmaniyyə nəşri, 1374 h/q.
399. əz-Zərkeli X., əl-Alam. Darül-ilm lilmələyin, 2002. (http://shamela.ws saytına istinadən).
400. Hüseyni S. Ə., Təlamizətül-Əllamə əl-Məclisi. İran çapı. Nəşr ili yoxdur.-172 s.
401. İbn Kəsir D., əl-Bidayə vən-Nihayə. 2 cilddə. Təhqiq: Həssan bin Əbdülmənnan. Beyrut, Beytül-əfkar.-2460 s.
402. İbn Kəsir D., Təbəqatül-füqəhaiş-Şafeiyyin. Təhqiq: Ənvər əl-Baz. Misir, Darül-vəfa, I çap, 1425/2001 və təhqiq: Əhməd Ömər Haşim, Məktəbətüs-səqafətid-diniyyə, 1413 h/q və təhqiq: Əbdülhəfiz Mənsur, Beyrut, Darül-mədaril-İslami, 2004.-876 s.
403. İbn Salah O., Ulumül-hadis. I çap, 1326 h/q.-164 s.
404. İbn Səd., ət-Təbəqatül-kübra. Beyrut, II c. Darüs-sadir, 1968. və Təhqiq: Dr. Əli Məhəmməd Ömər. Qahirə, Məktəbətül-Xançi, I çap, 1421/2001 və Beyrut, 1975.
405. Kəhhalə Ö. R., Möcəmül-müəllifin. 4 cilddə. Müəssisətür-risalə, I çap, 1414/1993.-843 s.
406. Məhfuz H. Ə., Füzuli əl-Bağdadi. Bağdad, 1378/1958.
407. Məruf N., Tarixu üləmail-Müstənsiriyyə. Bağdad, Mətbəətül-ani, I çap, 1379/1959.-480 s.
408. Nemət A., Fəlasifətüş-şiə. Beyrut, Darül-fikir, I çap, 1987. -705 s.

**Fars dilində:**

409. Aştiyani S. C., Şərhe rical arane fəlsəfiye Molla Sədra. Qum, 1378 h/ş.
410. Bəxşaişi Ə. Ə., Məfaxire-Azərbaycan. Fəqihane və müfəssirane ustane Azərbaycane Şərqi. Təbriz, I çap, 1375 h/ş.
411. Dehxuda Ə. Ə., Lüğətnamə. Tehran, 1351 h/ş.
412. Qəffarifərd A., Əbdülhüseyn N., Tarixe təhəvvülate siyasi, ectimai, iqtisadi və fərhənge İran dər dovrane Səfəvi. Tehran, Sazmane mütaliə, I çap, 1388 h/ş.,-426 s.
413. Qurbani Ə., Zindeginame riyazidanane dövre İslami. Tehran, 1365 h/ş.
414. Suyuri R., İrane əsre Səfəvi. Tehran, Nəşre mərkəz, 1395 h/ş.,-1395 s.
415. Şebani R., Tarixe təhəvvülate siyasi, ectimai, iqtisadi və fərhənge İran dər dovrehaye Əfşariyye və Zendiye. Tehran, Sazmane mütaliə, 1395 h/ş.,-200 s.
416. Təbrizi Ə. M. T. C., Şərhe Nəhcil-bəlağe. 27 cilddə. İran çapı, 1390 h/q., Müəssise təhqiqat nəşre məarife Əhli-beyt çapı, və Dəftəre nəşre fərhənge İslami, Tehtan, 1376 h/q.
417. Təbrizi Ə. M. T. C., Təfsire nəqde və təhlile Məsnəvi. 15 cilddə. İran çapı.

**Əlyazma mənbələr:**
**(AMEA M. Füzuli adına Əlyazmalar İnstitutunda)**

418. احمدهشيمزاده. تفسيرالقران.C749\9702, ƏYİ
419. اثبات الواجب. محمد الدواني. B – 2584/220
420. استرابادي ميرزا مهدي خان. تاريخ نادري. B – 2242/3867
421. الامامة من كتاب شرح تجريد المتن. للمحق الطوسي لمولانا علي القوشجو. B – 4197/23677 v. 176
422. بيضاوي انوارالتنزيل واسرارالتاويل.B - 3175\4800,ƏYİ
423. برهان التوحيد. كتاب عقائد المتقين. حسين تبريزي. D – 731/29389
424. تفسيرقاضي بيضاوي.C- 367\18140, ƏYİ
425. جمع الجوام في اصول الفقه. تاج الدين عبد الوهاب بن علي السبكي. C – 388. 453 ص.

426. طبري ابو جعفر محمد بن جرير. تاريخ طبري. D – 282|10259
427. عقائد الاسلام. B 3022/21351
428. علي بن ابو طالب. ديوان. M – 61\61
429. القزويني محمد رفع الواعظ. ابواب الجينان. S – 150\9104
430. مير محمد مؤمن خسين. تخفة المؤمنين. S – 364\9317
431. الفصول الفردية في اصول الفقهية. محمد حسين. B – 3298. 205 ص
432. المتفرقات في اصول الفقه و الحديث. anonim). B – 2077.) 328 ص.
433. قوسي تبريزي. ديوان. B-4366 (II)

**(AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunda)**

434. روضة الصفويه، تاليف ميرزا بيک پسر حسن حسينی جونابادی، Azərbaycan MEA A.A. Bakıxanov adına Tarix İnstitutu arxivi, inv. № 2614 (4), fotosurət.
435. صدرالدين سلطان ابراهيم االمينی، فتوحات شاهی، Azərbaycan MEA A.A. Bakıxanov adına Tarix İnstitutu arxivi, inv. № 4105
436. عالم آرای صفوی، به کوشش يدالله شکری، تهران: انتشارات اطلعات، 1363، 688 ص.
437. عبدی بيگ شيرازی، تکلمة االخباری، Azərbaycan MEA A.A. Bakıxanov adına Tarix İnstitutu arxivi, inv. № 5067

**İran İslam Respublikası**

438. فهرست نسخهای خطی. کتابخانه عمومی حضرت ايت الله العظمی نجفی مرعشی. جلد اول. قوم مقدس.۲۶/۱۲۲۱۴. تهران مجلس شورای اسلامی. ۷۷۰۳. بدون تاريخ کتاب. رسال اول مجموعه / فهرس مجلس ۱۹۴/۲۶.
439. فهرست نسخهای خطی. کتابخانه عمومی حضرت ايت الله العظمی گلپياگانی. قوم. ۲۷/۱۲۲۱۵. تهران. دانشگاه تهران. ۶۹۸.
440. فهرست نسخهای خطی. کتابخانه مسجد اعظم. قم. ۳۹۵۵ نسخه.
441. غديريه. موس بن علی بن ابو القاسم حسينی فرهايی. کتابخانه مسجد اعظم. قم.۲۱۲۲.
442. غرايب الاخبار و نواد الاثار. عبد الله بن محمد رضا کاظمينی. کتابخانه مسجد اعظم. قم. ۲۱۱۳.
443. کليت الاهيات. مشهد ۱۱۷۸. ملا علی. ق ۲ / ۳۰۷.فهرست کتب خطی اصفهان. جلد دوم.
444. نسخه هاي عكسي كتابخانه آيه الله العظمى مرعشي نجفي قم - جلد 1. در صفحات:254 تا 258 كد دستيابي كتاب:283. زبان كتاب:عربي.مولف: ابواسحق احمد بن محمد بن ابراهيم ثعلبي نيشابوري. تاريخ كتابت:سده نهم هجري. موضوعات:تفسير.
445. فهرست نسخ خطی کتابخانه ملی ايران جلد 39. مجموعه رسائل از ابوعلي سينا، نسخه شماره 2412/ ف.
446. فهرست نسخه های خطی کتابخانه مرکزی تبريز.
447. فهرست نسخه‌های خطی مرکز احياء ميراث اسلامی - جلد دوازدهم. سيد احمد حسينی. مرکز احياء ميراث اسلامی. تاريخ چاپ: 1394. مکان چاپ: قم. جلد دوازدهم فهرست نسخه‌های خطی مرکز احياء ميراث اسلامی، از شماره‌های 5001 تا 5500 منتشر شد.
448. İran-Təbriz Milli Ktb., nr. 356.
449. İran-Tehran İslam Şura Məclisi I. Ktb., nr.7082.
450. İran-Tehran Məlik Milli Ktb., nr. 4621.
451. İran-Tehran Məlik Milli Ktb., nr. 5604.
452. İran-Tehran Milli Ktb., nr. 5-10833 (f.833).

**Türkiyə Respublikası**

453. İstanbul Üniversitesi Ktp., nr. T. 5478.
454. Konya Bölge Yazma Eserler Ktp., nr. 3-
455. Süleymaniye Ktp. Mikrofilm nr. 3513.

456. Türkiye Malatya Halk Ktp., nr.252
457. Türkiye-Süleymaniye Ktp. Yazma Balar, nr. 3140.

**Səudiyyə Ərəbistanı Krallığı**

458. Səudiyyə Ərəbistanı Mədinə Məlik Əbdüləziz Ktb. (Arif Hikmət Ktb. Məcmuəsi). nr. 811/186.

**Gürcüstan Respublikası**

459. Tiflis Gürcüstan Dövlət Ktb. (Elmlər Akademiyası Kakalidze adna Əlyazmalar İnstitutu). nr. L 51.

**İnternet resursları:**

460. http://az.wikipedia.org
461. http://farsi.balaghah.net
462. http://idrak.info/home
463. http://kitap.mollacami.com
464. http://library.İslamweb.net
465. http://msnajmi.andishvaran
466. http://www.al-shia.org
467. http://www.azerislam.com
468. http://www.ehlisunnetbuyukleri.com
469. http://www.iravan.info
470. http://www.İslamaz.com
471. http://www.mumsema.org
472. http://www.saafi.net
473. http://www.suffa.net
474. www.deyerler.org
475. www.elyazmalarinstitutu.com
476. www.mektebetu-nercis.com
477. www.quranevi.az
478. www.vaqfeyya.com